# NUR TƏFSİRİ

## YEDDİNCİ CİLD

**MÜƏLLİF: MÖHSÜN QƏRAƏTİ**
**TƏRCÜMƏ EDƏN: HACI ARZU**

بسم الله الرحمن الرحيم

نام کتاب:......................................................تفسیر نور (جلد-7)
مؤلف:...............................................................محسن قرائتی
مترجم:...............................................................حاج آرزو
ناشر:....................................................................... فائز.
تاریخ چاپ:..................................................................1385
نوبت چاپ:.....................................................................اول
تیراژ:.........................................................................2000

Kitabın adı:......................Nur təfsiri (yeddinci cild)
Müəllif:....................................................Möhsün Qəraəti
Tərcümə edən:..............................................................H. Arzu
Nəşr edən:.......................................................................Faiz
Çap tarixi:......................................................................2007
Çap növbəsi:............................................................Birinci
Tiraj:................................................................................2000

Əziz və diqqətli oxucu! Quran təfsiri tərcüməsinin nə dərəcədə əhəmiyyətli və incə iş olduğunu anlasaq da, nöqsanlar-dan qaça bilmədik. “Həyy” və “qəyyum” kimi yüzlərcə mirvari tə’birini bəsit şəkil-də tərcümə etmək zorunda qaldıq. Gələ-cəkdə bu ilahi işdə yardımçı olacağı-nızı düşünürük. Bizə ünvanlayacağınız qeydlər növbəti nəşrlərdə nəzərə alı-nacaq.

*Dua istəyi ilə tərcüməçi*

***RƏHMAN VƏ RƏHİM ALLAHIN ADI İLƏ***

**Həmd olsun aləmlərin Rəbbinə! Allahın salamı olsun ağamız Məhəmməd (s) və onun məsum Əhli-beytinə!**

## *ÖN SÖZ*

Qum elmi hövzəsində ümumi (səth) mərhələni bitirdikdən sonra bir qədər də "Dərsi-xaric" oxuyub, Quranla daha dərindən tanış olmaq fikrinə düşdüm. Bəzi dostlarla birlikdə bu istiqamətdə fəaliyyətə başladıq. Hərəmiz bir təfsiri mütaliə edib, xülasə şəkildə qeydlər götürürdük. Beləcə, Quranın bir neçə cüzünü sonadək mütaliə etdik.

Həmin vaxt eşitdim ki, Ayətullah Məkarim Şirazi bir qrup alimlə təfsir yazmaq qərarına gəlib. O mənim təfsir yazılarımı görüb bəyəndi və mən də onlara qoşuldum.

İyirmi yeddi cildlik "Təfsiri-nümunə"nin başa çatması on beş il çəkdi. Həmin təfsir indiyədək dəfələrlə çap olunmuş və başqa dillərə tərcümə edilmişdir. "Təfsiri-nümunə"nin təqribən yarısı yazılıb tamamlandığı vaxt imam Xomeyninin (r) rəhbərliyi ilə İslam inqilabı qələbə çaldı. Elə həmin ilk günlərdə mərhum Əllamə Şəhid Mütəhhərinin göstərişi ilə televiziyaya getdim. Artıq iyirmi yeddi ilə yaxındır ki, hər cümə axşamı İran İslam Respublikasının televiziyasında "Quran dərsləri" adı altında proqramda çalışıram.

"Təfsiri-nümunə" başa çatanadək həmin heyətlə həmkarlıq etdim. Amma bu arada belə bir fikrə düşdüm ki, radioda hamının anlaya biləcəyi bir səviyyədə təfsir dərslərinə başlayım. Bu məqsədlə "Təfsiri-nümunə"dən əlavə, başqa on təfsirdən də qeydlər götürdüm. Artıq səkkiz ildir ki, həftədə bir gün, eləcə də, ramazan ayında hər gün "Ayineye vəhy" adı altında radio verilişləri yayımlanır.

Dəfələrlə təklif edildi ki, radiodan danışdıqlarımı kitab şəklində nəşr etdirim. Öz yazılarımdan bir neçə cüzünü Ayətullah hacı Seyyid Mehdi Ruhani, Ayətullah Misbah Yəzdi üçün oxudum və öz təfsir üslubuma daha çox əmin oldum. Qeydlərimi tərtib üçün höccətül-islam Məhəmmədi və höccətül-islam Mühəddisiyə təqdim etdim. Məcmuə hazır olduqdan sonra onu Qumun "Dər-rahe həqq" müəssisəsinə verdim ki, Ayətullah Ustadinin nəzarəti altında çap olunub, maraqlananların ixtiyarına verilsin.

## *HƏMKARLAR*

Qurani-kərimin ilk dörd cüzünün təfsirinin hazırlanmasında höccətül-islam Dehşiri və höccətül-islam Cəfəri həftənin yarı hissəsini Tehrana gəlib, mənə kömək etdilər.

Beşinci cüzdən on altıncı cüzədək isə höccətül-islam Seyyid Cavad Behişti və höccətül-islam Şeyx Mahmud Mütəvəssil bu müqəddəs işdə həmkarlıq etmişlər.

## *İMTIYAZLAR*

1. Bu təfsirdə yalnız xüsusi zümrənin anlaya biləcəyi ədəbi, fiqhi, kəlami, fəlsəfi terminlərdən pəhriz edilmişdir.

2. Rəy əsasında təfsirdən pəhriz olunmuş, yalnız Quran ayələri və Peyğəmbər (s) Əhli-beytindən (ə) olan rəvayətlərə istinad edilmişdir.

3. Bir çox bildiriş və dərslərdə mötəbər şiə və sünni təfsirlərindən istifadə edilmiş, bəzi nöqtələr isə müəllif və əziz həmkarlar tərəfindən açıqlanmışdır.

Allahdan istəyirik ki, hər birimizə ixlas, düşüncə, əməl, təbliğ və Quran maarifinin yayılması və bu müqəddəs işi başa çatdırmaq tövfiqi mərhəmət buyurub, Quranı bizim üçün dünya, bərzəx və qiyamət nuru qərar versin.

Xalqdan istəyim budur ki, Quran təlimində yalnız tilavət, təcvid, tərtil və təvaşihlə kifayətlənməyib, Quranda düşünməyi və ona əməl etməyi əsas götürsünlər.

Alim və fazillərdən təmənnam budur ki, təbliğ və tədrisdə Quran ali bir məqsəd kimi qarşıya qoyulsun və bütün məntəqələrdəki elmi mərkəzlərdə, mədəniyyət ocaqlarında, məscidlərdə və mədrəsələrdə Quran təfsiri dərsləri təşkil edilsin.

İslam, Quran və Peyğəmbər (s) Əhli-beyti (ə) ilə tanışlığımda rolu olanlara təkbətək təşəkkür edir, onlar üçün, xüsusi ilə də ustadlarım, atam-anam üçün bağışlayan Allahdan mərhəmət diləyirəm.

Eləcə də, bu təfsirin yazılmasında, tərtibində, islahında, çapında və yayılmasında mənə yardım edənlərə və işin təkmilləşməsi üçün qurucu və faydalı tənqid və təklif verənlərə təşəkkür edirəm.

***MÖHSÜN QƏRAƏTI***

## *AYƏTULLAH HACI SEYYID MEHDI RUHANIDƏN BIR NEÇƏ XOŞ SÖZ*

Bəşər həyatında, tarixi dönəmlərdə, xüsusi ilə də müsəlman tarixində böyük təsirə malik olan Qurani-kərimə onun məqamına layiq səviyyədə diqqət yetirilmədiyindən bu ilahi kitab xalq arasında qərib qalmışdır. Hansı ki, Quranda "Biz Quranı öyüd üçün asan etdik" buyurulur. Bununla belə, bir çoxları Quran dəyərlərini yaddan çıxarıb ona diqqətsizlik göstərmişlər. Necə ki, keçmiş ümmətlər haqqında Quranda buyurulur: "Onlara xatırladılanların bir hissəsini unutdular..."[1]

Qurani-məcid əvvəldən axıradək bəşər üçün ilahi göstərişlərdən ibarətdir. Bütün bu bəyanatlarla tanış olmaq zəruridir. Xüsusi ilə də bəşəriyyətin dünyəvi və əbədi səadət yolunu göstərən ayələr və onlardakı nöqtələr haqqında düşünmək lazımdır. Qurani-məciddə həzrət Peyğəmbərə (s) belə müraciət olunur: "Sənə nazil etdiyimiz mübarək bir kitabdır ki, onun ayələrini düşünüb dərk etsinlər və ağıl sahibləri öyüd götürsünlər."[2]

Bu müqəddimənin istəyi Qurani-məcidin bütövlükdə elə bir təfsirinin hazırlanmasıdır ki, bu təfsirdə əsas diqqət ayələrin mənasının dərk olunmasına yönəldilsin. Məlum olsun ki, hər bir ayənin məqsədi nədir, nəyə etiraz edir? Müasir dillə desək, bu təfsir "bəyani" bir təfsir olsun.

Adətən, təfsir kitabları daha çox ədəbiyyat, onun şöbələri, kəlam elmi, məzhəbi mübahisələr istiqamətində peşəkar araşdırmalarla məşğul olur. Hər bir mütəxəssis öz ixtisasına aid terminlərlə araşdırma aparır. Bundan əlavə, mövzu haqqında söhbətlər olduqca uzun çəkir və bu hal insanların Qurani-məcidlə bütövlükdə tanış olmasına mane olur. Bəziləri isə Quran ayələrini öz şəxsi, çox vaxt isə yanlış əqidələrinin sübutu üçün əsas gətirirlər.

Son zamanlar elm adamlarının ehtiyacına cavab verəcək bir təfsirin hazırlanması zəruri görünürdü. Həmin təfsirin hazırlanmasında aşağıdakı məsələlərə diqqət yetirilməli idi:

1. Təfsir həm sadə və yetərli, həm də güclü olmalı idi;
2. Quranın dərk olunmasını çətinləşdirən xüsusi terminlərdən pəhriz edilməli idi;
3. Həyat problemlərini həll edən, müsəlman cəmiyyətinə təqdim olunası, hətta tərcümə edilib bütün dünyaya yayılası (bəşəriyyəti, təqva sahiblərini hidayət edəsi) mövzular araşdırılmalı idi. Çünki Quran mətləbləri konkret bir zaman, fərd və ya cəmiyyətə aid deyil;
4. Ayələrdən alınan nəticələrdə Quran ayələrinə istinad olunmalı idi. Rəyə və şəxsi istəklərə, zəif rəvayətlərə əsaslanmaq olmazdı;

---

1 "Maidə" 13.
2 "Sad" 29.

5. Həzrət Peyğəmbərin (s) göstərişi əsasında “Səqəleyn”dən (iki əmanətdən) biri olan Əhli-beytdən nəql olunmuş mötəbər rəvayətlərə diqqət yetirilməli idi.

Bu prinsiplər Möhsün Qəraətinin təfsirində nəzərə alınmışdı. Əgər həmin prinsiplərdən kənarlaşma müşahidə edilərsə, bu, məqsədli şəkildə edilməmişdir və inşallah, gələcəkdə islah olar.

Ümid edirəm ki, dəyərli alim höccətül-islam Möhsün Qəraəti elmi keyfiyyətlərindən əlavə, təfsir sahəsində zövq sahibidir və ilahi kəlmələrin lətafətini yaxşı dərk edir. Onun öz təfsirini bu üsul və imtiyazlarla sona çatdıracağına ümidvaram.

Həmin təfsirin bir cüzdən çoxunu müəlliflə birlikdə müzakirə etdik və bəzi qeydlərimi ona bildirdim.

Əziz müəllif hər bir ayəni sadə və yetərli bir şəkildə tərcümə etdikdən sonra onun mahiyyətini şərh etmişdir. Həmin şərhlərdə müəllifin “bildirişlər” adlandırdığı nöqtələrə toxunulmuşdur. Əslində bu nöqtələr təfsirin ruhunu açıqlayır. Düzünə qalsa, bir çox məqamlarda həmin nöqtələr müəllifin xüsusi ixtirasıdır və xüsusi təravətə malikdir.

Ümid edirəm ki, Qurani-kərim bir gün hövzə və universitetlərdə əsas mehvər olacaq. Necə ki, imam Zeynəlabidin (ə) “Səhifeye-səccadiyyə” kitabında Quranın xətm duasında buyurur: “Quran elə bir ədalət tərəzisidir ki, haqqın bəyanında dili qısa deyil.”

Ümid edirəm ki, əziz müəllifin təfsir şivəsi və ixtiraçılıq yolu Quranın ali mətləblərinin gerçəkləşməsində irəliyə doğru bir addım olacaq. İnşallah, bu addım son addım olmaz və nəzər sahibləri növbəti addımlarda bu üsulu təkmilləşdirərlər.

***09 RƏBIUS-SANI, 1414***

***MEHDI HÜSEYNI RUHANI***

## *MÜƏLLIFDƏN*

Şəmsi 1378-ci ildə ilk cildin yenidən nəşri üçün növbəti dəfə “Nur təfsirini” diqqətlə mütaliə etdim. İxtisarlar və əlavələr oldu. Allahın lütfü ilə ağlıma gələn yeni mətləblər və “Təfsiri-rahnüma”, “Nüxbətut-təfsir” kitablarındakı bəzi nöqtələr mətnlərə əlavə edildi.

Bir anlıq fikrə getdim. Düşündüm ki, cəmi iki-üç il keçmiş öz əlimlə dəyişdiyim yazı əgər qiyamətə çatsa, övliyaların, mələklərin, ən əsası Allahın nəzərindən keçsə, nə qədər dəyişəcək?! Bütün bu dəyişikliklər o zaman faydalı olur ki, işin canında qeyri-ilahi niyyət olmasın.

Hər halda xeyli zəhmət çəkdim. Amma qiyamətdə bu təfsirin bir səhifəsinin də mənim qurtuluşuma səbəb olub-olmayacağını bilmirəm!

Sözsüz ki, Quran nurdur. Təfsirdə nə nöqsan varsa, bizim nöqsanımızdır. Gülzarda torpaq gülə döndüyü kimi, ümid edirəm ki, Quranın nurani ayələri sayəsində bizim də yazılarımız nura çevrilsin. Amin!

***MÖHSÜN QƏRAƏTI***

**BİSMİLLAHİR-RƏHMANİR-RƏHİM**

# "İSRA" SURƏSI

## *(17-SURƏ, 111 AYƏ)*

### *On beşinci cüz*

### *"İSRA" SURƏSININ SIMASI*

"İsra" surəsi 111 ayədən ibarətdir. Bu surənin Məkkədə nazil olması daha çox qeyd edilir. Amma uyğun surənin 26, 32, 33, 57 və 78-ci ayələrinin Mədinədə nazil olduğu bildirilir.

Surə başlanğıc kəlməsinə görə "Sübhan", merac əhvalatından danışdığı üçün "İsra" və Bəni-İsrail əhvalatını nəql etdiyi üçün "Bəni-İsrail" adlandırılmışdır.

Bu surədə də digər Məkkə surələrində olduğu kimi tövhid, məad, faydalı nəsihətlər, istənilən növ şirk, zülm və çaşqınlıqla mübarizə, tarixdəki fərdi və ictimai sünnələr (qanunlar), Adəm və İblisin tarixçəsi, İslam peyğəmbəri (s) və onun Məkkədəki mövqeyi mövzuları bəyan olunmuşdur. Bu surədə ümdə və diqqəti daha çox çəkən məsələlərdən biri əziz peyğəmbərimiz həzrət Məhəmmədin (s) merac məsələsidir.

Surə "Allahın təsbihi" (tərifi) ilə başlayır və Ona həmd-səna, sitayişlə başa çatır.

Rəvayətlərdə tövsiyə olunur ki, cümə gecələri bu surə tilavət olunsun. Surənin (oxunmasının) faydalarından biri kimi İmami-Zamanla (ə) (həzrət Mehdi (ə) ilə) görüş qeyd olunmuşdur.[1]

---

[1] "Təfsiri-nümunə"

﴿بسم الله الرحمن الرحيم﴾

**BAĞIŞLAYA VƏ MEHRIBAN ALLAHIN ADI ILƏ**

**● AYƏ 1:**

﴿سُبْحَانَ الَّذِي أَسْرَى بِعَبْدِهِ لَيْلاً مِّنَ الْمَسْجِدِ الْحَرَامِ إِلَى الْمَسْجِدِ الأَقْصَى الَّذِي بَارَكْنَا حَوْلَهُ لِنُرِيَهُ مِنْ آيَاتِنَا إِنَّهُ هُوَ السَّمِيعُ البَصِيرُ﴾

**"Öz nişanələrindən göstərmək üçün gecə bəndəsini (Məkkədə) Məscidul-Həramdan (Beytul-Müqəddəsdə) ətrafına bərəkət verdiyimiz Məscidul-Əqsaya aparan Allah pak-pakizədir. Həqiqətən, O, eşidən və görəndir."**

**○ Nöqtələr**

● Merac səfəri tarixin ən müqəddəs səfəridir. Bu səfərdə müsafir İslam peyğəmbəri (s), uçuş məkanı Məscidul-Həram, eniş məkanı Məscidul-Əqsa, qonaq sahibi Allah, məqsəd ilahi ayələrin (nişanələrin) müşahidəsi, sovqat səma xəbərləri və bəşər düşüncəsinin maddi dünya səviyyəsindən yuxarı qaldırılmasıdır.[1]

● Rəvayətlərə əsasən həzrət Peyğəmbər (s) hicrətdən əvvəlki il Məscidul-Həramda məğrib (şam) namazından sonra Məscidul-Əqsadan, "Buraq" [2] vasitəsi ilə səmaya qalxdı. Qayıdıb Məscidul-Həramda sübh namazını qıldı.[3]

● Peyğəmbərin (s) meracı yuxuda və ruhən yox, oyaq vaxtı və cismani baş vermişdir! Bu, dinin zəruri etiqadlarındandır və bütün İslam firqələri tərəfindən yekdilliklə qəbul olunur.[4]

Mütəvatir (çoxları tərəfindən nəql olunan və şübhəyə yer qalmayan) rəvayətlərdə, bəzi dualarda və ziyarətnamələrdə də bu məsələyə işarə olunur. Bəzi hədislərdə meracın cismaniliyini inkar edən kəs kafir kimi tanıtdırılır.

● Allah-təala həzrət Adəmi səmadan yerə endirdi. Amma həzrət Rəsulu (s) yerdən səmaya qaldırdı[5]. Peyğəmbər (s) həmin gecə yuxarı aləmləri, səma qatlarını və yaranış qəribəliklərini müşahidə etdi, peyğəmbərlərlə görüşdü[6]. Bu

---

[1] "Təfsiri-Furqan"da bildirilir ki, Peyğəmbərin (s) milad, merac, besət, hicrət, Məkkəyə giriş və dünyadan köçü düşənbə (bazar ertəsi) gecəsinə təsadüf etmişdir.

[2] "Təfsiri-Nurus-Səqələyn"

[3] "Bihar, c. 18, s. 389

[4] Bu ayə və "Nəcm" surəsinin 8-18-ci ayələri deyilənlərə sübutdur.

[5] "Təfsiri-Kəşful-Əsrar"

[6] "Kafi", c. 8, s. 121

səfərdə həzrət üçün qüdsi hədislər bəyan olundu və bu hədislərdə həzrət Əlinin (ə) rəhbərlik və vilayəti təsdiqləndi.

Bu səfərdə həzrət Rəsul (s) behişt və cəhənnəmi gördü. Behişt əhlinin vəziyyəti və onlara verilən nemətlər, cəhənnəm əhli və onlara verilən əzablar Peyğəmbər (s) tərəfindən müşahidə olundu. Peyğəmbər (s) merac əhvalatını bəyan edən vaxt bəzən tutumsuz insanlar dindən çıxdılar[1].

### *İRAD VƏ UYĞUN IRADIN CAVABI*

●Peyğəmbərin (s) meracı – səma səfəri ilə bağlı müəyyən suallar, şübhələr bəyan olunmuşdur. Məsələn, bildirirlər ki, atmosferdən kənarda hava yoxdur, yandırıcı isti və öldürücü soyuq var, çəkisizlik mövcuddur, fəzanın təhlükəli şüaları şölələnir, səma səfəri üçün bir gecə bəs etməz, səma səfərinə çıxan bir şəxsdə işıq sürəti və ya daha böyük sürət olmalıdır, yerin cazibəsindən çıxmaq üçün saatda 400 min km. yol getmək lazımdır və s.

Uyğun şübhələri ümumi şəkildə belə cavablandıra bilərik: Merac mövzusu Quranda və mütəvatir rəvayətlərdə bəyan olunmuşdur[2]. Mövzunu xırdalıqları ilə yox, prinsipcə qəbul etmək zəruridir. (Əlbəttə ki, Allahın cisim halında müşahidə olunmasını bəyan edən rəvayətlər etibarsızdır. Behişt və cəhənnəm əhlinin müşahidəsi isə qəbulolunası bir xəbərdir.) Digər bir tərəfdən, möcüzə ağıl baxımından mümkünsüz sayılmamalıdır. Merac İslam peyğəmbərinin (s) möcüzələrindən olduğu kimi, bütün möcüzələrə tətbiq olunan qayda ona da şamil olunur.

Digər çətinliklər ilahi qüdrətə əsaslanmaqla həll olunasıdır. Bundan əlavə, bu gün insan səmaya təyyarə qaldırdığından, digər planetlərə süni peyklər və hava gəmiləri göndərdiyindən merac məsələsini qəbul etmək problem deyil.

Quranda Bilqeysin taxtının bir göz qırpımında bir ölkədən digər ölkəyə gətirilməsi qeyd olunur. Belə bir məlumat merac məsələsinin məsafə baxımından mümkünsüzlük ehtimalını aradan qaldırır.

**● Bildirişlər**

1. Merac hadisəsi əbəs deyil, onun yetərincə mühüm səbəbləri var.
2. Merac Peyğəmbər (s) üçün xüsusi ekskursiya və onun elmi görüşünün təcəssümü idi. Çünki Allah məkansızdır.
3. Bəndəlik uçuş, yüksəliş üçün müqəddimədir. Çirkin sifətlərdən paklanmamış yüksəliş mümkünsüzdür.
4. Meraca gedən insan da bəndədir. Allah övliyalarına münasibətdə ifrata varmayaq.
5. Bəndəlik peyğəmbərlərin iftixarı və ilahi ətalar üçün zəmindir.

---

[1] "Təfsiri-Təbəri"

[2] "Bihar", c. 18, s. 282-410

6. Ümməti gələcəkdə kosmosa uçacaq peyğəmbərin merac səfəri və səmaya qalxması zəruridir.

7. Allaha yaxınlıq üçün gecə ən münasib vaxtdır. (“Sura” gecə səfəri və hərəkət mənasını bildirir.)

8. Merac gecəsi olduqca əhəmiyyətli bir gecədir.

9. İstedad və ləyaqəti olan kəs bir gecəlik yüksəlib, pərvaz edə bilər.

10. Möminin mənəvi pərvazı üçün ən üstün yer məsciddir.

11. Məscid bütün işlərimiz üçün mehvər olmalıdır.

12. Müqəddəs hərəkatlar müqəddəs yollarla gerçəkləşməlidir.

13. Təravət və bərəkət məscid mehvərindədir.

14. Beytul-Müqəddəs və onun ətrafı tarix boyu səmavi bərəkətlərin nazil olma məhəlli, peyğəmbərlərin aramgahı və mələklərin eniş yeri olmuşdur.

15. İnsanın elmi tutumu yer biliklərindən çoxdur, səma əsrarəngizlikləri yer əsrarəngizliklərindən daha genişdir.

16. Merac səfərində məqsəd mərifət və mənəvi yüksəliş qazanmaq idi.

17. İlahi ayələr (nişanələr) bitib-tükənməz olduğundan, Allahın rəsulu (s) da onları sonadək əxz edə bilmir.

18. Allah-təala müxaliflərə xəbərdarlıq edir ki, onları görür və sözlərini eşidir.

**● AYƏ 2:**

﴿وَآتَيْنَا مُوسَى الْكِتَابَ وَجَعَلْنَاهُ هُدًى لِّبَنِي إِسْرَائِيلَ أَلاَّ تَتَّخِذُواْ مِن دُونِي وَكِيلاً﴾

**“Biz Musaya “Məndən başqa vəkil tutmayın” deyə (səmavi) kitab verdik və onu Bəni-İsrail (İsrail övladları) üçün hidayətçi (doğru yol göstərən rəhbər) seçdik.”**

**○ Nöqtələr**

● Allaha təvəkkül və Allahdan qeyrisinə təvəkküldən çəkinmək Quranın təkrar tövsiyələrindəndir. Təvəkkül əmri ilə yanaşı bu əmrin dəlili də bəyan olunmuşdur. Məsələn, “Əraf” surəsində buyurulur: “Nəhayətsiz elm sahibi Allah olduğundan Ona təvəkkül et.” [1] “Yusuf” surəsində buyurulur: “Hakimiyyət Onun əlində olduğundan Ona təvəkkül et.” [2] “Nisa” surəsində oxuyuruq: “Nə üçün-niyəsiz malik O olduğundan Onu özünə vəkil tut.” [3]

● Bu ayədə Musanın Bəni-İsrailə hidayətçi göndərildiyi bildirilsə də, digər ayələrdə bəyan olunur ki, həzrət Musa bütün bəşəriyyət üçün seçilmişdir.[4]

---

[1] “Əraf”, 89
[2] “Yusuf”, 68
[3] “Nisa”, 131
[4] Bax: “Ənam”, 91; “Əraf”, 144

● **Bildirişlər**

1. Bəzən təbliğatçının təbliğ etdiyi tərəflə həmvətənliyi və həmşəhərliyinin təbliğə təsiri olur.

2. Peyğəmbərlərin dəvətinin canı tövhiddir.

3. İnsanın dayağa ehtiyacı var. Peyğəmbərlər isə həqiqi dayaq kimi Allahı tanıtdırır.

**● AYƏ 3:**

﴿ذُرِّيَّةَ مَنْ حَمَلْنَا مَعَ نُوحٍ إِنَّهُ كَانَ عَبْدًا شَكُورًا﴾

**"(Ey Bəni-İsrail!) Ey Nuhla birlikdə süvar etdiklərimizin övladları, həqiqətən, Nuh çox şükür edən bir bəndə idi. (Siz də onun kimi olun)."**

○ **Nöqtələr**

● Həzrət Nuh bəşəriyyətin "ikinci atası" adlandırılmışdır. Çünki Nuhun tufanı zamanı onunla gəmiyə süvar olanlardan savay hamı qərq oldu. Bu səbəbdən də "Zurriyyətə mən həməlna" müraciəti " ya bəni Adəmə" müraciəti ilə eyni mənadadır.

● Peyğəmbərlər arasında həzrət Nuh hamıdan çox yaşamışdır. O daim kafirlərin və inadkarların əzab-əziyyətinə məruz qalmış, amma çox şükür etmişdir[1]. Allah da Öz növbəsində həzrət Nuh üçün xüsusi bir hesab aparır və ona xüsusi bir salam göndərir[2].

● **Bildirişlər**

1. Peyğəmbər məktəbində olmaq və onlarla yoldaşlıq qurtuluş və həyat rəmzidir.

2. Keçmişdəkilərin tarixi gələcəkdəkilər üçün xəbərdarlıq amilidir.

3. Övladların diqqətini ata-babaların şərafət və imanına yönəltmək onların tərbiyəsi və məsuliyyəti qəbul etməsi üçün hisslər üzərində qurulmuş bir yoldur.

4. Allaha bəndəlik hadisə və təhlükələrdən qurtuluş zəminəsidir.

5. Böyük və nümunə insanların tərifi tərbiyə amillərindəndir.

6. Şükrün bərəkətlərindən biri etibarlı övladlara malik olmaqdır.

09121498955

---

[1] Həzrətin dua və şükürlərindən bir hissəsi ilə "Məcməul-Bəyan" və "Ətyəbul-Bəyan" təfsirlərində tanış olmaq mümkündür.

[2] Bax: "Saffat", 79

**● AYƏ 4:**

﴿وَقَضَيْنَا إِلَى بَنِي إِسْرَائِيلَ فِي الْكِتَابِ لَتُفْسِدُنَّ فِي الأَرْضِ مَرَّتَيْنِ وَلَتَعْلُنَّ عُلُوًّا كَبِيرًا﴾

**“Biz kitabda (Tövratda) Bəni-İsrailə elan etdik ki, siz, şübhəsiz, yer üzündə iki dəfə fəsad törədəcək, böyüklük sorağında olacaqsınız.”**

**○ Nöqtələr**

● Ola bilsin ki, «Bəni-İsrailin iki dəfə fəsadı» dedikdə, öncə Şəyanın şəhadəti və aramilərin müxalifəti, sonra Zəkəriyya və Yəhyanın qətlə yetirilməsi nəzərdə tutulmuşdur. Əlbəttə ki, digər macəralar da ehtimal olunur və sonrakı ayələrdə buna işarə olunmuşdur.

● Behişt istənilən şəkildə böyükyanalıq və təkəbbürdən uzaq insanlara məxsusdur. Özünü başqalarından böyük və üstün bilənlərə behiştdə yer yoxdur.[1]

**● Bildirişlər**

1. Səmavi kitablar gələcəkdən də xəbər vermişdir.
2. Yəhudi qövmünün keçmişi Tövratda da qeyd olunmuşdur.
3. Fəsadın insan həyatına, mədəniyyətə, iqtisadiyyata, hərbi işlərə və siyasətə aid növləri var.
4. Üstünlük istəyi və yer üzündə fəsad dünyapərəstlərin xislətlərindəndir.
5. Təkəbbür üzərində qurulmuş və təkrarlanan fəsad daha təhlükəlidir.
6. Bəzən müstəzəflər (zəif düşmüşlər) də təkəbbürə uğrayırlar.

**● AYƏ 5:**

﴿فَإِذَا جَاء وَعْدُ أُولاهُمَا بَعَثْنَا عَلَيْكُمْ عِبَادًا لَّنَا أُوْلِي بَأْسٍ شَدِيدٍ فَجَاسُواْ خِلاَلَ الدِّيَارِ وَكَانَ وَعْدًا مَّفْعُولاً﴾

**“İlk fitnə vədi yetişdiyi vaxt qüvvəli və cəngavər qullarımızdan bir dəstəsini (sizi yerinizdə oturtmaq üçün) ayağa qaldırarıq. Evlərinizin içini axtararlar (ki, fitnəkarları tapıb cəzalandırsınlar). Bu, qəti bir vəddir.”**

**○ Nöqtələr**

● Quran Bəni-İsraildən olan fəsadçıların kimin tərəfindən məhv ediləcəyini bildirmir. Amma təfsirlərdə qeyd olunur ki, nəzərdə tutulan Buxtun-Nəsr, Talut, Rum padşahı, Hitler və başqalarıdır. Amma bu açıqlamalar qiyamət və peyğəmbərlərin besətinə münasibətdə işlədilmiş “bəəsna” (“ayağa qaldırarıq”)

---

[1] Bax: “Qəsəs”, 83

müqəddəs sözünə uyğun gəlmir. Ola bilsin ki, nəzərdə tutulan məsələ gələcəyə aiddir.

**● Bildirişlər**

1. Tüğyançı təkəbbürlülərin məhvi ilahi sünnələrdəndir.

2. İlahi vədlərin gerçəkləşməsi cihad vədinin öhdədən götürülməsi mənasında deyil.

3. Cihad və zalım qüvvələrlə mübarizə təkcə İslama aid deyil.

4. Əl üstə çox əl var. Bəni-İsrail tüğyan qopardı, Allah da onlardan üstününü onlara hakim etdi.

5. Fitnəkarları öz yerində oturtmaq üçün güc hazırlığı, hətta ev-ev gəzmək bahasına onların rahatlığını əlindən almaq yaxşı bir işdir.

6. Səmavi vədlər hökmən yerinə yetəsidir.

**● AYƏ 6.**

﴿ثُمَّ رَدَدْنَا لَكُمُ الْكَرَّةَ عَلَيْهِمْ وَأَمْدَدْنَاكُم بِأَمْوَالٍ وَبَنِينَ وَجَعَلْنَاكُمْ أَكْثَرَ نَفِيرًا﴾

**“Sonra savaşı sizin xeyrinizə və onların əleyhinə döndərərik, sizə var-dövlət və övladlarla yardım göstərərik, sayınızı artırarıq.”**

**○ Nöqtələr**

● Ayənin zahirindən belə anlaşılır ki, Allah Bəni-İsrailin fəsadından və məğlubiyyətindən sonra onlara yenidən sərmayə və övlad verdi. Amma ötən ayədə adı çəkilənlər də nəzərdə tutula bilər. Yəni cəngavər bəndələrə iki lütf olunar: Bəni-İsrail təcavüzkarlarının tar-mar edilməsi və onların qüdrət və hakimiyyətə çatdırılması.

**● Bildirişlər**

1. Möhlət vermək, yenidən sərmayə və övlad əta etməklə imtahana çəkmək ilahi sünnələrdəndir.

2. Sərmayə və canlı qüvvə qüdrət və hakimiyyət vasitəsidir.

3. İlahi lütf həm tövbə etmiş günahkarlara, həm də cəzalandırılmış günahkarlara aid ola bilər.

4. Cəmiyyətin çoxluğu ilahi nemətlərdəndir.

**● AYƏ 7:**

﴿إِنْ أَحْسَنتُمْ أَحْسَنتُمْ لِأَنفُسِكُمْ وَإِنْ أَسَأْتُمْ فَلَهَا فَإِذَا جَاء وَعْدُ الآخِرَةِ لِيَسُوؤُواْ
وُجُوهَكُمْ وَلِيَدْخُلُواْ الْمَسْجِدَ كَمَا دَخَلُوهُ أَوَّلَ مَرَّةٍ وَلِيُتَبِّرُواْ مَا عَلَوْاْ تَتْبِيرًا﴾

**“Əgər yaxşılıq etsəniz, özünüzə yaxşılıq etmisiniz, əgər pislik etsəniz, (yenə) özünüzə pislik etmisiniz. Elə ki, ikinci vəd yetişdi (güclü cəngavərləri üstünüzə göndərdik ki,) simanızı pis hala salsınlar, birinci**

**dəfə olduğu kimi Məscidul-Əqsaya daxil olub, oranı ələ keçirsinlər, viran qoysunlar."**

○ **Nöqtələr**

● Tarixi hadisələrin xırdalıqları yox, yalnız ibrət olan müəyyən məqamları əhəmiyyətlidir və müsbət təsirə malikdir. Yəhudi təkəbbürlülərinin Allahın mömin bəndələrinin əli ilə tar-mar edilməsinin yada salınması ilə nəzərə çatdırılır ki, təkəbbür və küfr cavabsız qalmır. Əsas məqsəd həmin ümumi və tərbiyəvi nöqtə olduğundan, ayədə savaşın xırdalıqları, canlı qüvvələr və silahlar haqqında ətraflı məlumat verilmir. Necə ki, həzrət Yusifin əhvalatında bir çox xırdalıqlar, o cümlədən, Züleyxanın adı qeyd olunmur.

● Bəzi təfsirçilər bildirirlər ki, yəhudilərin təkəbbür və fəsadı, onların iki dəfə tar-mar edilməsi uzaq və ya yaxın keçmişə aiddir, Məscidul-Əqsa min illər boyu dəfələrlə acı hadisələrə şahid olmuşdur. Amma ayə və rəvayətlərə əsasən, İsrailin gələcək təcavüzləri və onların saleh bəndələr tərəfindən məhv edilməsi də nəzərdə tutula bilər. 5-6-cı ayələrdən belə görünür ki, hələlik yer üzündə Bəni-İsrailin belə bir əhatəli fəsadı baş qaldırmayıb və ilahi insanlar tərəfindən nəzərdə tutulan həddə mühüm iş görülməyib. (Bu gün İsrailin dünyanı əhatə edən cinayətlərinə və casusluq şəbəkəsinin fəaliyyətlərinə şahidik. İslam inqilabının və Fələstin gənclərinin İsraillə mübarizəsi və Məscidul-Əqsanı ələ keçirməklə bağlı fəaliyyətləri də göz qabağındadır. Ola bilsin ki, ayədə bugünkü hadisələr nəzərdə tutulur.)

● Hazırkı ayənin təfsiri ilə bağlı çoxsaylı rəvayətlərdə bildirilir ki, fitnəkar yəhudilər həzrət Mehdinin (ə) qiyamından öncə mömin inqilabçılar tərəfindən məhv ediləsidir. Bu mübariz möminlər qılıncları çiyinlərinə alıb şəhadətə qucaq açır, həzrət Mehdinin (ə) ümumdünyəvi hökuməti üçün zəmin yaradırlar. Bəzi rəvayətlərdə isə yəhudi təcavüzkarlarının imam Mehdinin (ə) zühuru dövründə məhv ediləcəyi bildirilir[1].

● **Bildirişlər**

1. Bizim yaxşı-pisliyimizin Allaha xeyir-ziyanı yoxdur. Əməl və rəftarlarımızın nəticəsi yalnız özümüzə aiddir.
2. Əvvəlcə yaxşılıqlardan danışmaq, sonra pislikləri yada salmaq lazımdır.
3. İnsan hansı yolu seçib necə əməl etməkdə azad buraxılıb.
4. Tarixin eniş-yoxuşları və yəhudilərin məhvi onların təkəbbüründən sonra, ilahi qanun və sünnə əsasında baş verir.
5. Məscidlər tarix boyu dinlərin güc mərkəzi və qüdrət simvolu olmuşdur. Məscidləri zalımların nüfuz dairəsindən çıxarmaq möminlərin vəzifəsidir. Müsəlmanlar Məkkəni fəth etməklə Məscidül-Hərama daxil olduqları kimi,

---

[1] "Təfsiri-Nurus-Səqəleyn"; "Təfsiri-Furqan"; "Təfsiri-Nümunə".....

təcavüzkar yəhudiləri məhv etmək üçün ilahi insanlar Beytül-Müqəddəsə daxil olasıdır.

6. Haqqı bərpa etmək üçün zalım qüvvələri tar-mar etmək zəruridir.

● AYƏ 8:

﴿عَسَى رَبُّكُمْ أَن يَرْحَمَكُمْ وَإِنْ عُدتُّمْ عُدْنَا وَجَعَلْنَا جَهَنَّمَ لِلْكَافِرِينَ حَصِيرًا﴾

**"Ümid var ki, Rəbbiniz sizə rəhm etsin. Əgər geri dönsəniz (ikinci dəfə fitnə törətsəniz), Biz də geri dönərik (qəhr-qəzəbimizi göndərərik). Biz cəhənnəmi kafirlər üçün zindan qərar vermişik."**

○ **Nöqtələr**

● "Həsr" sözündən olan "həsir" sözü çıxılmaz vəziyyət, mühasirəyə düşmək mənalarını bildirir. Bəzi döşənəcəklər toxunmaqla hazırlandığından "həsir" adlanır.

● **Bildirişlər**

1. Allahın rəhmətindən ümid üzmək rəva deyil. Allah fəsad əhli üçün də geriyə yol qoymuşdur.

2. Tərbiyəçinin işi rəhmət və məhəbbətə əsaslanmalıdır.

3. Doğru yola yönəldərkən öncə rəhm və mehribanlıqdan danışaq, sonra xəbərdarlıq və hədədən istifadə edək.

4. İlahi qəhr-qəzəb bizim öz əməllərimizdən asılıdır.

5. Fəsaddan sonra tövbə edilməzsə, iş küfrlə nəticələnər.

6. Cəhənnəm əhli üçün heç bir qurtuluş yolu yoxdur.

● AYƏ 9:

﴿إِنَّ هَذَا الْقُرْآنَ يِهْدِي لِلَّتِي هِيَ أَقْوَمُ وَيُبَشِّرُ الْمُؤْمِنِينَ الَّذِينَ يَعْمَلُونَ الصَّالِحَاتِ أَنَّ لَهُمْ أَجْرًا كَبِيرًا﴾

**"Həqiqətən, bu Quran ən davamlı yola hidayət edir. Saleh işlər görən möminlərə müjdə verilir ki, onlar üçün böyük mükafat var."**

● AYƏ 10:

﴿وأَنَّ الَّذِينَ لاَ يُؤْمِنُونَ بِالآخِرَةِ أَعْتَدْنَا لَهُمْ عَذَابًا أَلِيمًا﴾

**"Axirətə iman gətirməyənlər üçün dərdli bir əzab hazırlamışıq."**

○ **Nöqtələr**

● "Yəhdi lilləti hiyə əqvəmu" cümləsi iki cür mənalandırıla bilər:

a) Quran ən davamlı yola hidayət edir;

b) Quran ən möhkəm millətləri və ümmətləri hidayət edir.

**● Bildirişlər**

1. Quranın möhkəm məntiqi qarşısında xurafat və təxəyyülə yer yoxdur.

2. Quran əbədi və sabit qanunlara malik olan yeganə kitabdır.

3. Mükafat əldə etmək üçün iman və əmələ ehtiyac var. Cəhənnəmə düşmək üçün isə küfr bəs edər.

4. İlahi əzab indi də hazırdır.

5. Qorxu və ümid yanaşı olmalıdır.

**● AYƏ 11:**

﴿وَيَدْعُ الإِنسَانُ بِالشَّرِّ دُعَاءهُ بِالْخَيْرِ وَكَانَ الإِنسَانُ عَجُولاً﴾

**“(Tələskən və nadan) insan xeyir istədiyi kimi şər də istəyir. İnsan daim tələsəndir.”**

**○ Nöqtələr**

● Quranda insanın tələskənliyinə və şər istəməsinə dəfələrlə işarə olunmuşdur: “Səndən dərhal əzab istəyərlər.” [1] Digər bir ayədə kafirlərin dilindən deyilir: “Pərvərdigara, əgər din haqdırsa, səmadan başımıza daş yağdır.” [2] Bu tələskənliklər cəhalət, inadkarlıq və təəssübdən qaynaqlanır.

● Möhtərəm Peyğəmbər (s) buyurur: “İnsanın bir çox çətinliklərinin səbəbi onun tələskənliyidir.”[3]

**● Bildirişlər**

1. İnsanın düşüncə və əməlinin bəlalarından biri tələskənlikdir.

2. İnsan fitrətən xeyirə meyillidir. Ayədə insanın şər istəyinin bir istək olaraq xeyir istəyinə bənzədilməsi bir daha onun əslində xeyirə meyilli olduğunu göstərir.

3. Quranın möhkəm hidayətinə (doğru yol göstərişinə) yol tapmayanlar tələsik halda şər sorağınca gedəcəklər.

4. İnsanın daxilində bir tələskənlik var, amma bu tələskənlikdən düzgün istifadə yerini öyrənməliyik.

**● AYƏ 12:**

﴿وَجَعَلْنَا اللَّيْلَ وَالنَّهَارَ آيَتَيْنِ فَمَحَوْنَا آيَةَ اللَّيْلِ وَجَعَلْنَا آيَةَ النَّهَارِ مُبْصِرَةً لِتَبْتَغُواْ فَضْلاً مِّن رَّبِّكُمْ وَلِتَعْلَمُواْ عَدَدَ السِّنِينَ وَالْحِسَابَ وَكُلَّ شَيْءٍ فَصَّلْنَاهُ تَفْصِيلاً﴾

---

[1] “Rəd”, 6
[2] “Ənfal”, 32
[3] “Bihar”, c. 17, s. 340

**“Biz gecə və gündüzü iki əlamət qərar verdik. Gecənin nişanəsini (ay işığını) götürdük və gündüzün nişanəsini (günəşi) işıqlandırdıq ki, Rəbbinizdən bir fəzl soraqlayasınız, illərin sayını və hesabı biləsiniz. Biz hər şeyi aydın bəyan etdik.”**

○ **Nöqtələr**

● Quranda gecənin gündüzdən öncə zikr olunmasının səbəbi bu ola bilər ki, qaranlıq yerin özündəndir, işıq isə günəşdən.

● **Bildirişlər**

1. Yerin öz oxu ətrafında dövr etməsi, gecə və gündüzün müəyyənləşməsi təsadüf yox, Allahın hikmət dolu iradəsidir.
2. Gündüz iş, gecə isə istirahət üçündür.
3. Allah fəzl və rəhmət nazil etsə də, biz çalışmalıyıq.
4. Ruzi əldə etmək üçün zəmin yaratmaq ilahi rübubiyyət şənindəndir.
5. Öz zirəkliyimizlə qürrələnməyək, ruzi Allahdandır.
6. Varlıq aləmindəki nizam məqsədsiz deyil. Bütün tədbirlərdə mehvər insandır.
7. Gecə və gündüz təbii, daimi, ümumi, asan, dərk olunan bir təqvimdir. Bu təqvim nəzm və proqramlaşdırma üçün vasitədir.
8. Varlıq aləmində ziddiyyətlərin qarşısını almaq üçün hər şey nəzmə çəkilmiş, qanunlara tabe edilmişdir.

● **AYƏ 13:**

﴿وَكُلَّ إِنسَانٍ أَلْزَمْنَاهُ طَآئِرَهُ فِي عُنُقِهِ وَنُخْرِجُ لَهُ يَوْمَ الْقِيَامَةِ كِتَابًا يَلْقَاهُ مَنشُورًا﴾

**“Hər bir insanın əməl naməsini onun boynundan asmışıq. Qiyamət günü çıxaracağımız yazını qarşısında açılmış görər.”**

○ **Nöqtələr**

● Ayədəki “tair” sözü insanın əməlinə işarədir. Çünki əməllər quş tək pərvaz edib sahibinə çatar, hər bir insanın xeyir və şərdən ibarət əməl naməsi onun boynundan asılar.

● Quranda əməl naməsinə bir neçə dəfə işarə olunmuşdur. O cümlədən:

1. “Əməl naməsi hamı üçündür.”
2. “Həmin namədə bir şey ötürülməmişdir.”[1]
3. “Günahkarlar ondan qorxar.” [2]
4. İnsan öz əməl naməsini oxumaqla özünü mühakimə edər.[3]

---

[1] “Kəhf”, 49
[2] “Kəhf”, 49
[3] “İsra”, 14

5. “Nicat tapanların kitabı sağ, cəhənnəm əhlinin kitabı onların sol əlinə verilər.”[1]

**● Bildirişlər**

1. Hesab-kitab hamı üçündür və kimsə istisna olunmayıb.
2. Bütün insanlar əməl namələri ilə birlikdə məhşərdə dayandırılarlar.
3. İnsanın əməli ondan ayrılmaz.
4. İnsanın xoşbəxtliyi və bədbəxtliyi onun əməllərindən asılıdır. Bu istiqamətdə bəxt kimi amillər rol oynamır.
5. Allah insanın bütün əməllərindən xəbərdardır. Əməl naməsinin boyundan asılmasında məqsəd onun insanın özünə anlatmaqdır.
6. İnsanın bütün əməl və hərəkətləri qeyd olunar. İnsan dünyada əməllərinin qeydə alındığını hiss etməsə də, qiyamətdə əməl naməsi açılar və gizli işlər ifşa olunar.

**● AYƏ 14:**

﴿اقْرَأْ كِتَابَكَ كَفَى بِنَفْسِكَ الْيَوْمَ عَلَيْكَ حَسِيبًا﴾

**“(Qiyamətdə insana deyilər:) Kitabını oxu. Bu gün özünün özünlə hesab aparmağın yetər.”**

**○ Nöqtələr**

● İmam Sadiq (ə) buyurur: “İnsan əməl naməsində öz əməllərini o qədər aydın görər ki, sanki uyğun əməllər həmin saat baş vermişdir.”[2]

● Fəxr Razi deyir: “İnsanın əməlləri onun ruhuna təsir göstərir. Oxumaq dedikdə dərk etmək başa düşülür.” [3] “Əl-Mizan” təfsirində bildirilir ki, “kitab” dedikdə əməllərin özü nəzərdə tutulur.

● Bir çox rəvayətlərdə tövsiyə olunur ki, insan qiyamətdən öncə özü ilə hesab çəksin[4]. Bu sayaq hesab insanı oyadır və qəflətdən uzaqlığı göstərir.

Hədisdə deyilir: Hər kəs dünyada özü ilə hesab çəksə, axirət hesabı asan olar. Elə bu dünyada həyat kitabımızı, əməl naməmizi oxumalıyıq ki, zəif nöqtələri aradan qaldıraq, pisliklərə tövbə edib, yaxşı əməllərimizi artıraq. (Bir ata öz övladından hər gün əməllərini qeyd etməsini istədi. Oğul bir gün bu işi görsə də, ikinci gün çətinlik çəkdi və atasından üzr istədi. Atası dedi: “Əziz övladım! Bütün əməllər bu sayaq yazılır. Əlbəttə ki, qiyamətdə bütün əməllər açılar və öz əməlindən peşman olarsan.”[5]

---

[1] “Əl-Haqqə”, 19
[2] “Təfsiri-Nurus-Səqəleyn”
[3] “Təfsiri-Kəbir”
[4] “Bihar”, c. 70, s. 73
[5] “Təfsiri-Kəşful-Əsrar”

● **Bildirişlər**

1. Qiyamətdə bütün insanlar öz əməl namələrini oxuya bilirlər.
2. Qiyamətdə vicdanlar oyanır.
3. Qiyamət günahkarların öz əleyhinə şəhadət verdiyi yeganə məhkəmədir.

**● AYƏ 15:**

﴿مَّنِ اهْتَدَى فَإِنَّمَا يَهْتَدي لِنَفْسِهِ وَمَن ضَلَّ فَإِنَّمَا يَضِلُّ عَلَيْهَا وَلاَ تَزِرُ وَازِرَةٌ وِزْرَ أُخْرَى وَمَا كُنَّا مُعَذِّبِينَ حَتَّى نَبْعَثَ رَسُولاً﴾

**“Hidayət olan (doğru yol tutan), həqiqətən, öz xeyrinə hidayət olmuş, yolunu azan isə yalnız öz zərərinə azmışdır. Kimsə başqasının günah yükünü çiyninə almır. Biz peyğəmbər göndərməmiş əzab verən deyilik.”**

○ **Nöqtələr**

● “Ənam” surəsinin 25-ci, “Ənkəbut” surəsinin 13-cü ayələrinə və bir sıra rəvayətlərə əsasən, küfr başçıları öz günah yüklərindən əlavə ardıcıllarının da günah yüklərini çiyinlərinə alarlar. Çünki onlar öz ardıcıllarının doğru yoldan azmalarına səbəb olmuşlar.

● **Bildirişlər**

1. İnsan yol seçimində azad buraxılmışdır.
2. Doğru yolun qəbulu insanın öz xeyrinə, küfr isə onun zərərinədir. İnsanın hansı yolu tutmasının Allaha xeyir-zərəri yoxdur.
3. Hər kəs öz əməlinin cəzasını çəkər.
4. Öncə müsbət işlərdən danışmaq, sonra mənfiləri qeyd etmək lazımdır.
5. Kimsəyə höccəti tamamlamamış, xəbərdarlıq etməmiş əzab vermək Allahın sünnəsi, qanunu deyil. Bəşəriyyətin doğru yolu tutması üçün elə öncədən peyğəmbərlər göndərilmişdir.
6. Xoşbəxt olmaq üçün ağıl bəs etmir, peyğəmbərlərin hidayəti də lazımdır.
7. Peyğəmbərlərin gəlişi axirət sorğusu üçün şərtdir. Sorğuya çəkilən insana öncə peyğəmbərlər vasitəsi ilə vəzifələri aydınlaşdırılmalıdır.

**● AYƏ 16:**

﴿وَإِذَا أَرَدْنَا أَن نُّهْلِكَ قَرْيَةً أَمَرْنَا مُتْرَفِيهَا فَفَسَقُواْ فِيهَا فَحَقَّ عَلَيْهَا الْقَوْلُ فَدَمَّرْنَاهَا تَدْمِيرًا﴾

**“Bir məntəqəni (günahlarına görə) həlak etmək istədikdə, onun xoş güzaran keçirən adamlarına əmr edərik. Belə ki, bu əmrə qarşı müxalif**

**və aciz olarlar. Nəticədə əzab və ilahi qəhr-qəzəbə düçar olarlar. Sonra oranı tam viran qoyarıq.”**

○ **Nöqtələr**

● “Əmərna mutrəfiha”, yəni qövm başçılarına itaət əmri verərik. Allah zülm və günah yox, ədalət və ehsan göstərişi verir. Həlak etməzdən öncə itaət göstərişi verilir. Rifah içində yaşayanlar müxalif olar və adi insanlar da onların yolunu gedərlər. Həmin vaxt ilahi qəhr-qəzəb qətiləşər və itaətdən çıxanları bürüyər.

● Hikmət sahibi olan Allahın əzab istəyi bizim günahlarımıza və mənfi xislətlərimizə əsaslanır. Əslində Allah mehribandır, heç bir qövmü səbəbsiz yerə həlak etmir. İmam Riza (ə) buyurur: “Bu ayədə ilahi iradə bizim günahımızla şərtlənir.”[1]

● **Bildirişlər**

1. İnsanın nemətlərə qərq olması da ilahi qəhr-qəzəb və cəza nümunəsi ola bilər.
2. Cəmiyyətdəki varlı insanlar ilahi qəhr-qəzəbə zəmin yaradırlar.
3. Cəmiyyətin əxlaqı və ictimai baxımdan süqutu bu cəmiyyətin varlı başçılarının əlindədir.
4. Rifah, adətən, fəsad səbəbi olduğundan peyğəmbərlərə qarşı ilkin olaraq rifah içində yaşayanlar çıxmışlar.
5. İtaətsizlik göstərənlərə möhlət vermək ilahi sünnə, qanundur.
6. İlahi xəbərdarlıqlara ciddi yanaşaq, özümüzü islah edək. Çünki bu hədələrin həyata keçməsi öz əməllərimizdən asılıdır.
7. Höccət tamamlanmadan, yetərli dəlillər gətirilmədən ilahi əzab nazil olmur.
8. İlahi qəhr-qəzəb və əzab şiddətlidir.
9. Bütün işlər Allah qüdrəti ilə həyata keçir.

**● AYƏ 17:**

﴿وَكَمْ أَهْلَكْنَا مِنَ الْقُرُونِ مِن بَعْدِ نُوحٍ وَكَفَى بِرَبِّكَ بِذُنُوبِ عِبَادِهِ خَبِيرًا بَصِيرًا﴾

**“Nuhdan sonra bir çox ümmətləri məhv etdik. Rəbbinin Öz bəndələrinin günahlarından agah olub, onları görməsi yetər.”**

○ **Nöqtələr**

● Bəşər həyatında bir nəslin məhvi və yeni bir nizamın bərpasından danışan bu ayədən məlum olur ki, həzrət Nuhun dövrü bəşər tarixində dönüş nöqtəsi olmuşdur. Nuhdan öncəki bəşər nəsli sadə və azsaylı idi, həyat

[1] “Təfsiri-Kənzüd-Dəqaiq”

macərasız ötüşürdü. Həmin vaxt insan nəsli Nuhun gəmisinə süvar olmuş bir neçə möminlə davam etmişdi.

● Allah qafil insanlara xəbərdarlıq, xalq üçün ibrət olmaqla yanaşı Peyğəmbər (s) üçün bir təsəlli idi. Bildirilirdi ki, əgər kafirlər əzab-əziyyət verməkdən çəkinməsələr, Allahın qəhr-qəzəbinə düçar olacaqlar.

● Nuh qövmündən sonra Ad, Səmud, Lut qövmü, Mədyən səhabələri, Firon, Haman, Qarun və Fil səhabələri ilahi qəzəbə düçar oldular.

**● Bildirişlər**

1. İtaətsizliyinə görə Allahın qəhr-qəzəbinə düçar olmuş millətlər tarixdə yetərincədir.
2. İlahi qəhr-qəzəb təkcə qiyamətə aid deyil, dünyada da tətbiq olunur.
3. Tarix ibrət qaynağı və məktəbdir.
4. Allahın günahlarımızdan xəbərdar olmasını yadda saxlamağınız tərbiyəmiz üçün kafidir.
5. Günahkarların cəzalandırılması üçün şahid və dəlilə ehtiyac yoxdur. Allahın məsələdən xəbərdarlığı kafidir.
6. Günahkar insan da Allahın bəndəsidir.
7. Allah batinimizdən xəbərdardır, zahirimizi görür.

**● AYƏ 18:**

﴿مَّن كَانَ يُرِيدُ الْعَاجِلَةَ عَجَّلْنَا لَهُ فِيهَا مَا نَشَاء لِمَن نُّرِيدُ ثُمَّ جَعَلْنَا لَهُ جَهَنَّمَ يَصْلاهَا مَذْمُومًا مَّدْحُورًا﴾

**“Hər kəs daim ötəri dünya həyatını istəsə, bu dünyada tezliklə istədiyimizə istədiyimiz qədər verərik. Sonra onun üçün cəhənnəmi qərar verərik. O, xəcalət içində və rədd edilmiş halda oraya daxil olar.”**

**○ Nöqtələr**

● Quran baxımından, insana axirəti unutduran dünya istəyi məzəmmət olunur. Bu məsələyə bir çox ayələrdə işarə olunmuşdur.[1]

● Maddi dünyada ziddiyyət və qarşıdurmalar çoxdur. İnsan bütün arzularına çata bilmir. Deməli, hamıya pay ayrılmalıdır. Mənəviyyat dünyasında isə belə deyil. Çünki bu dünyada heç bir məhdudiyyət yoxdur. Mənəvi ləzzətlər yolu hamının üzünə açıqdır və hər kəs istədiyi qədər kam ala bilər[2].

**● Bildirişlər**

1. Dünya ötəridir.
2. İnsan məqsədli yaradılmışdır və seçim aparmaqda azad buraxılmışdır. Amma əsas məsələ Allahın iradəsidir.

---

[1] Bax: ”Rum”, 7; “Nəcm”, 29; “Tövbə”, 38

[2] Bax: “İsra”, 19

3. Pislənilən dünya yox, dünyapərəstlik xislətidir.

4. İnsanın arzuları bitib-tükənməzdir, bu arzuları Allahın çərçivəsində məhdudlaşdırmaq lazımdır.

5. Dünyapərəstlər arasında dünyanı əldə edə bilməyənlər də var.

6. Dünyapərəstlər iki dəstədir: bəziləri dünya və axirəti əldən verir, bəziləri isə müəyyən dünya istəklərinə çatır.

7. Maddi istəklərlə yaşayanlar müəyyən həddə ad-san və çörək əldə etsələr də, qiyamətdə müşkülə düşürlər.

8. Dünyapərəstliyin sonu peşmançılıq və cəhənnəmdir.

9. Dünyapərəstlər həm fiziki baxımdan odda yanır, həm də ruhi baxımdan alçaldılırlar.

● **AYƏ 19:**

﴿وَمَنْ أَرَادَ الآخِرَةَ وَسَعَى لَهَا سَعْيَهَا وَهُوَ مُؤْمِنٌ فَأُولَئِكَ كَانَ سَعْيُهُم مَّشْكُورًا﴾

**"Axirət istəyən və bu məqsədlə lazımınca çalışan və mömin olan insanın zəhməti dəyərləndirilər."**

● **Bildirişlər**

1. İnsan iradəyə malikdir və azad buraxılmışdır.

2. Axirət zəhmətsiz əldə olunmur.

3. Axirət səadəti üçün xüsusi səy lazımdır.

4. Dünya səylərindən nəticə əldə etmək üçün iman şərtdir.

5. İman və səy axirət səadəti üçün şərtdir.

6. Möminlər səy göstərib nəticəyə çatsalar da, çatmasalar da, onların zəhməti dəyərləndirilər.

7. Dünyapərəstlərin dünyanı əldə etməsi ehtimal olunursa, möminlərin axirət mükafatı labüddür.

8. İnsanın istək və səyinin onun xoşbəxtliyinə təsiri var.

9. Başqalarının səyinə görə təşəkkür etmək ilahi işdir.

10. Allahın möminlərə təşəkkürü behişt bağlarından üstündür. Çünki hər kəsin təşəkkürü onun vücudundan şölənənən şüa ölçüsündədir.

11. Allah hər səyi bəyənib tərif etmir.

● **AYƏ 20:**

﴿كُلاًّ نُّمِدُّ هَؤُلاء وَهَؤُلاء مِنْ عَطَاء رَبِّكَ وَمَا كَانَ عَطَاء رَبِّكَ مَحْظُورًا﴾

**"Biz Rəbbinin ətasından bunlara və onlara yardım göstərərik. Rəbbinin ətası kimsəyə qadağan olunmaz."**

○ **Nöqtələr**

● Allah insanı azad yaratmışdır. İnsana sınaq üçün imkanlar verilmişdir ki, necə əməl edəcəyi aydınlaşsın. Bu yolla Allahla müamilə edənlər Allahdan qeyriləri ilə müamilə edənlərdən seçilirlər. Su və elektrik təchizat idarələri evləri su və işıq kimi iki nemətlə təchiz edir. Bu nemətlərdən yaxşı və ya pis işdə istifadə etmək insanların ixtiyarındadır.

● **Bildirişlər**

1. Öz yardımlarını hamının ixtiyarına vermək və bu yolla yaxşı və pis sifətlərin üzə çıxmasına şərait yaratmaq Allahın sünnəsidir.

2. Allaha iman və axirət istəyinin maddi imkanlardan faydalanma ilə ziddiyyəti yoxdur.

3. İlahi lütflər Allahın rübubiyyət şəni və fəzlidir. Əslində, Allahın kimsəyə borcu yoxdur.

4. Allahın ətası həmişəlikdir.

● **AYƏ 21:**

﴾انظُرْ كَيْفَ فَضَّلْنَا بَعْضَهُمْ عَلَى بَعْضٍ وَلَلآخِرَةُ أَكْبَرُ دَرَجَاتٍ وَأَكْبَرُ تَفْضِيلاً﴿

**“Bax gör ki, onların bəzisini bəzi digərlərindən necə üstün etdik. Şübhəsiz, axirət dərəcələri daha böyük və daha dəyərlidir.”**

○ **Nöqtələr**

● İnsanlar bir-birindən iki baxımdan üstün ola bilərlər: bəzən insan istedad, zövq, düşüncə, ailə şəraiti, coğrafi mövqe kimi nemətlər baxımından üstün olur və bütün bunlar məsuliyyətlə müşayiət olunan ilahi lütf və sınaqdır. Bu ayədə uyğun üstünlüyə işarə edilmişdir. Bəzən isə insanlar zülm, istismar və təhqir baxımından fərqlənir. Bunun hesabı ayrı çəkilir.

● Peyğəmbər (s) buyurur: “Behiştdə behişt əhlinin ağlı qədər dərəcələr var.”[1]

● **Bildirişlər**

1. Varlıq aləmindəki ixtilafların və fərqlərin hikmətini anlamaq üçün düşüncə və diqqətə ehtiyac var.

2. İnsanların axirət məskəni eyni deyil. Yetərincə böyük üstünlüklər var.

● **AYƏ 22:**

﴾لاَّ تَجْعَل مَعَ اللّهِ إِلَهًا آخَرَ فَتَقْعُدَ مَذْمُومًا مَّخْذُولاً﴿

**“Allahla yanaşı başqa məbud qərar vermə, yoxsa məzəmmət edilər, başıaşağı olarsan.”**

---

[1] “Təfsiri-Nurus-Səqəleyn”

○ **Nöqtələr**

● Ayədə Peyğəmbərə (s) xitab olunsa da, bütün xalq nəzərdə tutulmuşdur. Qurani-Kərimdə bu sayaq xitablar çoxdur. Məsələn, növbəti ayədə Peyğəmbərə (s) müraciətlə ata-anaya ehtiram tövsiyə olunur. Hansı ki, Peyğəmbər (s) öz ata-anasını uşaq vaxtı itirmişdi.

Bu ayədə "la təcəl" deyə xalqa müraciət olunur. Peyğəmbərə (s) bir rəhbər olaraq üz tutulur.

● **Bildirişlər**

1. İnsanın xoşbəxtlik və izzəti tövhid sayəsindədir. Şirk və Allahdan qeyrisinə pərəstiş insanı alçaldır.

2. Qeyri-ilahi məktəblərə ardıcıllıq insanı çıxılmaz vəziyyətə, uçuruma sürükləyir.

3. Müşrik insan Allah, mələklər, möminlər, oyaq vicdanlar, düşüncə sahibləri tərəfindən məzəmmət olunur. Ayədə məzəmmət edənin adı konkret qeyd olunmamışdır.

● **AYƏ 23:**

﴿وَقَضَى رَبُّكَ أَلاَّ تَعْبُدُواْ إِلاَّ إِيَّاهُ وَبِالْوَالِدَيْنِ إِحْسَانًا إِمَّا يَبْلُغَنَّ عِندَكَ الْكِبَرَ
أَحَدُهُمَا أَوْ كِلاَهُمَا فَلاَ تَقُل لَّهُمَآ أُفٍّ وَلاَ تَنْهَرْهُمَا وَقُل لَّهُمَا قَوْلاً كَرِيمًا﴾

**"Rəbbin qərar vermişdir ki, Ondan qeyrisinə tabe olmayasınız, ata-anaya yaxşılıq edəsiniz. Əgər onlardan biri və ya hər ikisi sənin yanında bir həddə çatsa, onlara (hörmətsizliklə) "uf" demə, onları yanından qovma, onlarla ölçülü və xoş danış."**

○ **Nöqtələr**

● Hədislərdə valideynə ehsanla bağlı xeyli tapşırıqlar var. Eləcə də, valideyni incitmək məzəmmət olunmuşdur:

Valideynə mərhəmətli bir baxışın mükafatı qəbul olunmuş həccin mükafatıdır. Ata-ananın razılığı Allahın razılığı, onların qəzəbi Allahın qəzəbidir. Ata-anaya ehsan ömrü uzadır, övladların da öz növbəsində bizə ehsan etməsinə səbəb olur. Hədislərdə deyilir: Valideyn səni vursa belə "uf" demə, çəpəki baxma, əl qaldırma, yolda onlardan qabağa keçmə, onları adları ilə çağırma, xalqın valideyni qınamasına səbəb olası iş görmə, onlardan qabaq oturma, səndən kömək istəməmiş onlara əl tut."[1]

---

[1] "Təfsiri-Nurus-Səqəleyn"

● Bir şəxs anasını çiyninə alıb Kəbə evini təvaf edirdi. Bu şəxs Peyğəmbəri (s) görüb soruşdu: “Anamın haqqını ödəmişəmmi?” Həzrət buyurdu: “Hətta onun doğuş vaxtı çəkdiyi bir nalənin əvəzini ödəməmisən.”[1]

● Həzrət Peyğəmbərdən (s) soruşdular: “Ölümündən sonra da valideynə ehsan lazımdırmı?” Həzrət buyurdu: “Bəli, onlar üçün namaz qılmaq, bağışlanmalarını diləmək, əhdlərinə vəfa qılmaq, borclarını ödəmək, dostlarına ehtiram göstərməklə (ehsan edin).”[2]

● Bir şəxs öz atasından Peyğəmbərə (s) şikayətləndi. Həzrət onun atasını çağırıb, bu işin səbəbini soruşdu. Qoca ata dedi: “Bir zaman mən güclü və pullu idim. Övladıma kömək edirdim. Bu gün o pulludur, mənə əl tutmur.” Həzrət Peyğəmbər (s) ağladı və buyurdu: “Bu əhvalatı eşidib ağlamayan daş yoxdur!” Sonra övlada üz tutub buyurdu: “Sən də, sənin var-dövlətin də atana məxsussunuz.”[3]

● Hədisdə deyilir: Valideyn övladı vursa belə övlad “Allah sizi bağışlasın” desin. Bu, ayədəki “qovlən kərima” ifadəsinin bir nümunəsidir[4].

● Valideynə ehsan peyğəmbər sifətlərindəndir. Həzrət İsa (ə) və həzrət Yəhya (ə) valideynə ehsanına görə mədh olunur[5].

● Valideyn dedikdə təkcə doğma ata-ana nəzərdə tutulmur. Bəzi rəvayətlərə əsasən həzrət Peyğəmbər (s), Əmirəl-möminin (ə) ümmətin atası sayılır[6]. Eləcə də, həzrət İbrahim (ə) ərəblərin atası sayılmışdır[7].

● Valideynlər ilahi tapşırıqlar sırasında adlarının tövhiddən sonra gəldiyini bilsələr, övladlarını tövhidə daha həvəslə dəvət edərlər.

**● Bildirişlər**

1. Tövhid ilahi tapşırıqlar sırasında birinci yerdə dayanır.
2. Ata-anaya xidmət və ehsan həqiqi müvəhhidə (təkallahçıya) xas xüsusiyyətlərdəndir.
3. Tövhidə əmr kimi, valideynə yaxşılıq əmri də qəti və dəyişməzdir.
4. Valideynə ehsan əmrinin tövhid və Allaha itaət əmri ilə yanaşı gəlməsi bu işin əqli və insani vəzifə baxımından, eləcə də, şəri baxımdan vacibliyini göstərir.
5. Yeni nəsil iman sayəsində ötən nəslə möhkəm bağlanmalıdır.
6. Valideynə ehsan üçün onların müsəlman olması şərt deyil.
7. Valideynə ehsan edərkən ata və ana arasında fərq qoyulmur.
8. Ata-anaya vasitəsiz, öz əlinizlə yaxşılıq edin.

---

[1] “Təfsiri-Nümunə”
[2] “Təfsiri-Məcməul-Bəyan”
[3] “Təfsiri-Furqan”
[4] “Kafi”, c. 2, s. 157
[5] Bax: “Məryəm”, 39; “Məryəm”, 14
[6] “Bihar”, c. 16, s. 95
[7] “Təfsiri-Nurus-Səqəleyn”, “Həcc”, 78

9. Ehsan infaqdan üstündür. Məhəbbət, ədəb, təhsil, məşvərət, itaət, təşəkkür, qayğı və bu kimi başqa işlər ehsandır.

10. Valideynə ehsanın həddi-hüdudu yoxdur. (Ehsan doyanadək davam edən fəqirlik, fitnə aradan qalxanadək aparılan cihad, gün batanadək uzanan orucluq kimi deyil).

11. Qurandakı ehsan göstərişi valideynə yox, övladlara ünvanlanıb. Çünki valideynin tapşırığa ehtiyacı yoxdur, o təbii şəkildə öz övladına ehsan edir.

12. Valideynin fiziki və mənəvi ehtiyacı artdıqca ona ehsan etmək daha zəruri olur.

13. Qoca ata-anamızı qocalar evinə aparmayaq, öz yanımızda saxlayaq.

14. Əgər Quran adi bir yolçunu incitməyə qadağa qoyursa, məlum məsələdir ki, ata-anaya necə diqqət göstərilməlidir.

15. Həm ehsan, həm də gözəl danışıq zəruridir. (Ehsan etdikdən sonra gözəl danışmaq valideynlə ən mühüm rəftar qaydalarındandır.)

16. Valideynə ehsan və gözəl danışıq məsələsi ilə bağlı “qarşı tərəf kimi hərəkət etmək” prinsipinə yer verilməmişdir. Yəni valideyn övladla pis rəftar etsə də, övlad onunla yaxşı rəftar edib, gözəl danışmalıdır.

**● AYƏ 24:**

﴿وَاخْفِضْ لَهُمَا جَنَاحَ الذُّلِّ مِنَ الرَّحْمَةِ وَقُل رَّبِّ ارْحَمْهُمَا كَمَا رَبَّيَانِي صَغِيرًا﴾

**“Mehribanlıq və lütf ilə onları təvazö qanadının altına al və de: “Pərvərdigara! Uşaq vaxtı məni tərbiyə etdikləri kimi, bu iki nəfərə mərhəmət göstər.”**

**● Bildirişlər**

1. Övlad istənilən bir məqamda təvazökar olmalı, öz üstünlüyünü valideynin üzünə vurmamalıdır.

2. Övlad riyakarlıq və ya var-dövləti ələ keçirmək məqsədi ilə yox, mərhəmət və məhəbbətlə valideynə təvazö göstərməlidir.

3. Övlad ata-anaya qarşı həm təvazökar olmalı, həm də onlar üçün Allahdan mərhəmət diləməlidir.

4. Övladın ata-ana haqqında duaları qəbul olmasaydı, Allah belə bir duanı tapşırmazdı.

5. Ata-anaya dua həm Allahın əmrinə itaət, həm də valideyn qarşısında şükür nişanəsidir.

6. Dua edərkən “Rəbb” deyə müraciət etməyi unutmayaq.

7. İlahi mərhəmət valideynin tərbiyəçilik rəhmətlərinin əvəzidir. Allah övlada tapşırır ki, məhəbbətini valideynə əsirgəməsin və Allahdan onlar üçün bağışlanma diləsin. Bu yolla övlad öz vəzifəsini yerinə yetirmiş olur.

8. Öz keçmişinizi, uşaqlıq dövrünün çətinliklərini, körpə vaxtı valideynin çəkdiyi əziyyətləri yaddan çıxarmayın.

9. Ata-ana öz övladlarını mehr-məhəbbətlə tərbiyə etməlidir.

10. İnsan öz tərbiyəçilərinə təşəkkür etməli, onların haqqını itirməməlidir.

● AYƏ 25:

﴿رَّبُّكُمْ أَعْلَمُ بِمَا فِي نُفُوسِكُمْ إِن تَكُونُواْ صَالِحِينَ فَإِنَّهُ كَانَ لِلأَوَّابِينَ غَفُورًا﴾

**"Rəbbiniz içinizdə olanları hamıdan yaxşı bilir. Əgər saleh olsanız, şübhəsiz, O, tövbə edənləri bağışlayandır."**

**● Bildirişlər**

1. Agahlıq Allahın rübubiyyət şənindəndir.
2. Bütün işlərdə və valideynə xidmətdə niyyətlərimiz Allaha bəllidir.
3. Səlahiyyət qəlbə, iç məqsədlərə aiddir.
4. Qəlb və batin saf və saleh olan yerdə tövbə qapısı açıqdır.
5. Ardıcıl yalvarış, ah-nalə ilə tövbə edək.
6. Allah bağışlayandır. Amma ilahi bağışlanma nemətindən faydalanmaq üçün tövbə şərtdir.
7. Əgər nadanlıq səbəbindən valideynlə pis rəftar etsək, tövbə qılmaqla Allahın mərhəmətini əldə edə bilərik.
8. Əfv və bəxşiş Allahın rübubiyyət şənindəndir.
9. Salehlik nişanələrindən biri tövbədir.
10. Bəzən saleh insanlar da büdrəyir. Bu sayaq nöqsanları tövbə ilə aradan qaldırmaq lazımdır.

● AYƏ 26:

﴿وَآتِ ذَا الْقُرْبَى حَقَّهُ وَالْمِسْكِينَ وَابْنَ السَّبِيلِ وَلاَ تُبَذِّرْ تَبْذِيرًا﴾

**"Qohumun, çarəsizin, yolda qalanın haqqını ver, heç cür dağıdıb israf etmə."**

**○ Nöqtələr**

● "Bəzr" kökündən olan "təbzir" sözü bədxərclik, israf mənasını bildirir. Məsələn, iki qonaq üçün on qonağın xörəyini hazırlamaq "təbzir" sayılır.

● İmam Sadiq (ə) buyurur: "Hər kəs Allaha itaət yolunda yox, başqa yolda nə isə sərf etsə, bədxərc, israfçıdır."[1] Həzrətdən soruşulur ki, halal xərclərdə də israf varmı? Həzrət buyurur: "Bəli, çünki özünə bir şey saxlamadan varını paylayan şəxs halal məsrəfdə israf etmişdir."[2]

● Bu ayə nazil olduqdan sonra möhtərəm Peyğəmbər (s) qohumların haqqını ödəmək haqqında düşünürdü. Həzrət (s) Allahın əmri ilə Fədək bağını həzrət Fatiməyə bağışladı. (Fədək böyük bir sahə idi və heç bir savaşsız Peyğəmbərin (s) ixtiyarına keçmişdi. Həzrət Peyğəmbər (s) Əhli-beytə (ə) diqqət göstərərək din təbliğində onların iqtisadi dayaqlarını möhkəmləndirmək üçün bu bağı onlara bağışlamışdı. Amma Peyğəmbərin (s) vəfatından sonra Əbu-Bəkr Fədəyi geri aldı. Yalnız Ömər ibn Əbdül-Əziz bu bağı Əhli-beytə (ə) qaytardı. Sonra Fədək yenidən qəsb olundu. Məmunun dövründə Əhli-beytin (ə) ixtiyarına verildi. Çox keçməmiş Peyğəmbərin (s) hədiyyəsi geri qaytarıldı.) Amma həzrətin vəfatından sonra Fədək haqsız olaraq Əhli-beytin (ə) əlindən alındı. Əhli-beyt (ə) öz haqqını geri qaytarmaq üçün bu ayəyə istinad edirdi.

● Şiə və sünni təfsirçiləri (məsələn, Təbəri) rəvayətlərə istinadən yazırlar: "İmam Səccad (ə) əsirlik vaxtı karvanla Şama gəldiyi vaxt Əhli-beyt (ə) əsirlərinə ünvanlanmış dinsizlik ittihamına bu ayəyə istinadən cavab vermişdi: "Zəl-qurba" bizik!"[3]

● Bəzi rəvayətlərdə ayənin xümsə aid olduğu bildirilir. Bəziləri isə ayədə daha üstün, qeyri-maddi məsələlərin nəzərdə tutulduğunu önə çəkir. Onlar bildirirlər ki, ayədə həzrət Əlinin (ə) canişinliyi ilə bağlı vəsiyyət əmri verilir. (İmam Sadiq (ə) bu ayə haqqında buyurur: "Allah rəsuluna canişinlik və peyğəmbər elminə sahiblik Əli ibn Əbi-Talibin (ə) haqqıdır."[4] Ayədə "təbzir"-ə qadağa qoymaqla, əslində ifratçılıq qadağan edilmişdir.[5]

**● Bildirişlər**

1. Dini göstərişlər insan fitrətinə uyğundur. İnsan fitri olaraq öncə valideynlərinə, sonra yaxınlarına məhəbbət göstərir. İslamda haqqın ödənməsi göstərişi də buna əsaslanır.
2. İnfaqda növbəni nəzərə almaq lazımdır: öncə valideyn, sonra qohum, sonra fəqirlər və yolda qalanlar.
3. Qohumların bizim boynumuzda haqqı var, onlara minnət qoymayaq.
4. Qohumluq, yoxsulluq və yolda qalmaq xüsusi haqlar yaradır.
5. Qohuma infaq edərkən onun yoxsulluğu nəzərə alınmalıdır.
6. İnfaqda orta həddi gözləmək, ifrata yol verməmək lazımdır.

---

[1] "Bihar", c. 75, s. 302
[2] "Təfsiri-Nurus-Səqəleyn"
[3] "Ehticaci-Təbərsi", c. 2, s. 33; "Təfsiri-Nurus-Səqələyn"
[4] "Kafi", c. 1, s. 294
[5] "Təfsiri-Furqan"

7. Bədxərclik, israfçılıq haramdır.
8. İnsan öz var-dövlətini xərcləməkdə heç vəchlə azad deyil.

● AYƏ 27:

﴿إِنَّ الْمُبَذِّرِينَ كَانُواْ إِخْوَانَ الشَّيَاطِينِ وَكَانَ الشَّيْطَانُ لِرَبِّهِ كَفُورًا﴾

**"Həqiqətən, israfçılar şeytanın qardaşlarıdır. Şeytan öz Rəbbinə qarşı çox nankor idi."**

○ **Nöqtələr**

● Ərəb dilində "əx" dedikdə həm qardaş, həm də yoldaş nəzərdə tutula bilər. Məsələn, "əxus-səfər" dedikdə daim səfərdə olan şəxs, "əxul-kərəm" dedikdə səxavətli insan başa düşülür. İnsan həm ailə, həm də əqidə baxımından qardaş ola bilər. İsrafçılar şeytanın əqidə qardaşlarıdır. "İxvanəş-şəyatin" dedikdə şeytan yolunu izləyənlər başa düşülür.

● Quranda şeytanın fərdlər üzərindəki vəsvəsə və vilayəti ardıcıl şəkildə xatırlanmışdır. Amma yalnız bu ayədə "ixvanəş-şəyatin" (şeytanla olanlar) təbiri işlədilmişdir. Yəni israfçılar artıq şeytanla həmkar olanlardır və sadəcə vəsvəsədən ötüb həmkarlıq mərhələsinə çatmışdır. Başqa ayələrdə də bu ayəyə toxunulur.[1]

● "Təbzir" daha çox maddiyyata aid olsa da, bəzən digər nemətlərə münasibətdə də işlədilir. Məsələn, ömür və gəncliyin hədərə verilməsi, düşüncə, göz, qulaq və dil kimi vasitələrin əyri yolda işlədilməsi, məsuliyyətin qeyri-saleh insanlara tapşırılması, ləyaqət və güc olmayan bir məqamda məsuliyyətin qəbulu, faydasız biliklərin öyrənilməsi və öyrədilməsi. [2]

● **Bildirişlər**

1. Var-dövlətin düzgün olmayan istiqamətdə xərclənməsi şeytani işdir və bir növ nankorluqdur.
2. İsraf əhli təriflənməməli, əksinə məzəmmət olunmalıdır.
3. Mömin möminə qardaşdır.[3] İsrafçılar isə şeytanla qardaşdırlar.
4. İsraf səxavət yox, naşükürlük nişanəsidir.

● AYƏ 28:

﴿وَإِمَّا تُعْرِضَنَّ عَنْهُمُ ابْتِغَاء رَحْمَةٍ مِّن رَّبِّكَ تَرْجُوهَا فَقُل لَّهُمْ قَوْلاً مَّيْسُورًا﴾

**"Əgər Rəbbindən gözlədiyin bir mərhəmətin intizarı ilə onlardan üz çevirərsənsə, onlarla yumşaq danış."**

---

[1] Bax: "Zuxruf", 36
[2] "Təfsiri-Ətyəbul-bəyan"
[3] Bax: "Hucurat"

○ **Nöqtələr**

● Bu ayə xalqla münasib rəftar haqqındadır. Ona görə də Peyğəmbər (s) Allahdan qurtuluş və mərhəmət gözlədiyi bir vaxt istədiyini yerinə yetirmədiyi bir kəs üçün dua edir və buyurur: "Allah bizə və sizə Öz fəzlindən ruzi versin."[1]

● Fatimeyi-Zəhra (s) ev işlərində kömək üçün Peyğəmbərdən (s) kəniz istədikdə həzrət buyurdu: "Məsciddə libası və yeməyi olmayan dörd yüz nəfər var. Əgər belə olmasaydı, sənə xidmətçi təyin edərdim." Sonra Peyğəmbər (s) "Həzrət Zəhranın təsbihi" adlanan məşhur zikri öz qızına öyrətdi.[2]

● Quranda xalqla necə danışmağı aydınlaşdıran göstərişlər var. İnsan yumşaq, sadə, tutarlı, yaxşı və təmiz danışmalıdır.[3]

● **Bildirişlər**

1. Bəzən peyğəmbərlər də ətrafdakılara kömək etməyə aciz qalır.
2. Allahın mərhəmətinə ümid bəsləmək lazımdır.
3. Allahın bizə borcu yoxdur, nə verirsə rəhmətindən verir.
4. Səy və ümid yanaşı olmalıdır. Təklikdə nə səy, nə də ümid səmərə verir.
5. Mömin məhrumlara əl tutmaq üçün imkan axtarışındadır.
6. Maddi imkanları ilahi rəhmət sayaq.
7. Maddi imkanlar insanların tərbiyə və təkamülünə yönəldilməlidir.
8. İnfaq və yardımı dayandırmaq üçün yalnız əliboşluq üzr sayıla bilər.
9. Bir şəxsə maddi yardım göstərmək imkanımız yoxdursa, heç olmasa xoş sözlərlə onun qəlbini ələ alaq.
10. Yoxsullara ümid verin ki, onlar çalışıb öz müşküllərini həll edə bilsinlər.

● **AYƏ 29:**

﴿وَلاَ تَجْعَلْ يَدَكَ مَغْلُولَةً إِلَى عُنُقِكَ وَلاَ تَبْسُطْهَا كُلَّ الْبَسْطِ فَتَقْعُدَ مَلُومًا مَّحْسُورًا﴾

**"Əlini nə qoynunda bağlı saxla (ki, heç infaq etməyəsən), nə də onu tam açıq saxla ki, (özün üçün heç bir şey qalmasın). Yoxsa qınanarsan və həsrət çəkərsən."**

○ **Nöqtələr**

● İmam Sadiq (ə) buyurur: "Məhsur" dedikdə yoxsulluq nisgili başa düşülür."[4]

---

[1] "Təfsiri-Lahici"
[2] "Təfsiri-Nurus-Səqəleyn"
[3] Bax: "Taha", 44; "İsra", 23; "Nisa", 9; "Nisa", 8; "Nisa", 63
[4] "Kafi", c. 2, s. 55

● Bəziləri bildirirlər ki, məzəmmət ayənin əvvəlindəki xəsisliyə, həsrət və nisgil isə ayənin sonuna, israfçılığa aiddir.

● Bir qadın öz oğlunu Peyğəmbərin (s) yanına göndərib, təbərrük üçün bir köynək istədi. Peyğəmbərin (s) başqa bir libası olmadığından öz köynəyini verdi və köynəksiz qaldığından evdən çıxa bilmədi. Ayə nazil oldu ki, əynindəki bircə köynəyi vermək səxavət deyil.

Digər bir rəvayətdə deyilir: "Peyğəmbərə (s) bir qədər qızıl gətirdilər. Həzrət bütün qızılı həmin gün infaq etdi. Növbəti gün bir yoxsul həzrətə ağız açdı. Amma həzrətdə ona vermək üçün bir şey olmadı. Yoxsul şəxs həzrəti qınadı. Peyğəmbər (s) ona bir şey verə bilmədiyi üçün qəmləndi. Sonra bu ayə nazil oldu.[1]

**● Bildirişlər**

1. Mömin xəsis olmamalı, ətrafındakılara kömək göstərməlidir.
2. İslam infaqda da orta yolu tutan məktəbdir.
3. İfrat və təfrit məhkum olunur, orta yol bəyənilmiş sayılır.
4. İnfaqda bədxərclik və ifrata varmaq insanın xanənişin olub, içini yeməsinə səbəb olur.
5. İslam heç vəchlə müsəlmanların zilləti ilə barışmır. Müsəlmanı alçaldan istənilən bir iş qadağandır.
6. İşin pis sonluğunu düşünmək həmin işdən uzaq dayanmağa səbəb olur.
7. Müdiriyyət prinsiplərindən biri gələcəyi nəzərə almaqdır.

**● AYƏ 30:**

﴿إِنَّ رَبَّكَ يَبْسُطُ الرِّزْقَ لِمَن يَشَاء وَيَقْدِرُ إِنَّهُ كَانَ بِعِبَادِهِ خَبِيرًا بَصِيرًا﴾

**"Həqiqətən, Rəbbin istədiyi kəs üçün ruzini genişləndirib, daralda bilər. Həqiqətən, O, bəndələrinə münasibətdə agah və görəndir."**

**○ Nöqtələr**

● Quranda ruzi haqqında ətraflı danışılmışdır. Həmin ayədəki müəyyən nöqtələrə nəzər salaq:

a) Hər bir canlının ruzisi Allahın öhdəsinədir.[2]
b) Ruzi mənbəyi səmadadır.[3]
v) Hamının gen-bol ruzisi olsa, fəsad artar.[4]
q) İnsan çalışmalı, ruzi dalınca getməlidir.[5]

---

[1] "Təfsiri-Nurus-Səqəleyn"
[2] Bax: "Hud", 6
[3] Bax: "Zariyat", 22
[4] Bax: "Şura", 27
[5] Bax: "Ənkəbut", 17

d) Təqva ruzinin artım amillərindəndir.[1]

● Həzrət Əli (ə) buyurur: “Allah insanların ruzisini artırıb-azaltmaqla müəyyənləşdirmişdir. İstədiyini sıxıntı, istədiyini rifahla sınağa çəkər. Varlı və yoxsul şükür və səbirlə imtahana çəkilib seçilər.”[2]

**● Bildirişlər**

1. Ruzinin az-çoxluğu Allahın əlindədir.
2. Ruzinin çoxluğu və ya azlığı insanların tərbiyəsinə yönəldilmiş rübubiyyət şənindəndir.
3. Allahın istəkləri Onun bəsirət və agahlığına əsaslanır.
4. Fəqirlikdən qorxub əlinizi sıxmayın. Eyni zamanda, başqalarını yoxsulluqdan qurtarmaq üçün bütün var-yoxunuzdan keçməyin. Ruzi Allahın əlindədir, bəzilərinin yoxsulluğunda hikmət var.

**● AYƏ 31:**

﴿وَلاَ تَقْتُلُواْ أَوْلادَكُمْ خَشْيَةَ إِمْلاقٍ نَّحْنُ نَرْزُقُهُمْ وَإِيَّاكُم إنَّ قَتْلَهُمْ كَانَ خِطْءًا كَبِيرًا﴾

**“Övladlarınızı yoxsulluq qorxusundan öldürməyin. Onlara və sizə ruzi verən Bizik. Şübhəsiz, onları öldürmək böyük günahdır!”**

**○ Nöqtələr**

● “İmlaq” dedikdə fəqirlik, yoxsulluq nəzərdə tutulur. Ola bilsin ki, bu sözün kökü “mələq” sözüdür. Çünki yoxsulda “təməllüq”, yəni yağlı dillə yaltaqlıq müşahidə olunur.

● Bu ayə cahiliyyət dövrünün böhranlı iqtisadiyyatının simasını göstərir. Bugünkü dünyamızda iqtisadi problemlər və cəmiyyətin artımından nigaran olanlar çıxış yolunu doğuşların qarşısını almaqda görürlər. Bu da bir növ cahiliyyətdir.

● Allah-təala “Ənam” surəsinin 151-ci ayəsində övladların yoxsulluq səbəbindən öldürüldüyünü bildirir. Bu ayədə isə yoxsulluq qorxusu önə çəkilmişdir. Birinci halda buyurulurdu: “Biz sizin və övladlarınızın dolanışığını təmin edərik.” Bu ayədə isə yoxsulluq qorxusu ilə bağlı deyilir: “Övladlarınızın ruzisi və öz ruziniz Bizim öhdəmizədir.” Qorxu və həyəcan çox olduğundan Allah öncə övladı, sonra valideyni sığortalayır və mümkün həyəcanı azaltmaq istəyir.[3] Bu fərqin səbəbi aclığın hazıra, yoxsulluq qorxusunun gələcəyə aidliyi

---

[1] Bax: “Təlaq”, 2
[2] “Nəhcül-bəlağə”, x. 91
[3] “Təfsiri-fi-zilalil-Quran”; “Təfsiri-Furqan”

ola bilər. Əvvəlcə "sizə və övladlarınıza ruzi verərik", sonra isə "övladlarınıza və sizə ruzi verərik" buyurulur.

**● Bildirişlər**

1. Övladın yaşamaq haqqı var, valideyn onu bu haqdan məhrum etməməlidir.

2. Yoxsulluq və əliboşluq insanın ən güclü hislərinə də təsir göstərir.

3. Yoxsulluq zərərindən qorxu günah və başqalarının hüququnun pozulması üçün səbəb ola bilməz.

4. Əgər ruhi asayiş və iman olmasa, təkcə yoxsulluq yox, yoxsulluq qorxusu da qətlə səbəb ola bilər.

5. İlahi zəmanətə əminlik günaha mane olur.

6. İman və təvəkkülü yaddan çıxarmayın.

7. Allah ata-anadan mehribandır, Ona bədgüman olmayın.

8. Ruzi Allahın əlindədir, bu istiqamətdə çoxluq rol oynamır. Demək, övlad yoxsulluq səbəbi deyil.

9. Bəzən biz övladlarımızın sayəsində ruziyə çatırıq.

10. Övladı öldürmək, doğuşun qarşısını almaq günah və cinayətdir. İstər oğlan, istər qız övlad yaşamaq haqqına malikdir.

11. Günahlar eyni deyil. Kiçik (səğirə) və böyük (kəbirə) günahlar var.

**● AYƏ 32:**

﴿وَلاَ تَقْرَبُواْ الزِّنَى إِنَّهُ كَانَ فَاحِشَةً وَسَاء سَبِيلاً﴾

**"Zinaya yaxın düşməyin. Bu, çirkin iş, pis yoldur."**

**○ Nöqtələr**

● Qeyri-qanuni cinsi əlaqənin (zinanın) fəsadları, fərdi və ictimai zərərləri var. Ailə təməlinə zərbə vuran bu çirkin iş İslamda haram buyurulmuşdur. Qurani-kərimdə zina şirk, qətl, oğurluqla yanaşı zikr olunur.[1]

***ZINANIN BIR SIRA FƏSADLARI VAR:***

1. Zina qarşıdurma, intihar, evdən uzaqlıq, qeyri-qanuni övladlar, cinsi xəstəliklər, ailə üçün hörmətsizlik kimi bir çox acılıqların qaynağıdır.

2. Şəhvət alovunu söndürmək üçün bir-birinin sorağınca gedən zinakarlar arasında möhkəm bağlılıq, aramlıq olmur.

3. Zinakar qarşı tərəfi həyat yoldaşı yox, ləzzət vasitəsi sayır.

4. Zina ailə təşkilinin qarşısını alır, qohumluq əlaqələrini qırır, yaxınlara yardıma mane olur. Zina yolunun açılması evlənməyə marağı öldürür.

---

[1] Bax: "Furqan", 68; "Mumtəhinə", 12

5. Zinakarda nəsil davamı, övlad tərbiyəsi ilə bağlı vəzifə məsuliyyəti olmur, bu zümrədən olanlar ata-ana hissindən məhrum olurlar.

6. Zina varislik prinsipini pozur, həqiqi varis tanınmır.

7. Zina nəticəsində insan alçalır, zinakarı vaxtsız ölüm yaxalayır.[1]

8. Zina əlavə xərclər tələb etdiyindən zinakar şəxs öz şəhvətini söndürmək üçün başqa günahlara da əl atır. Məsələn, istəyinə çatmaq istəyən zinakar böhtan atır, hədələyir, oğurluq edir, hətta insan həyatına son qoyur.

9. Zina nəticəsində ərsəyə gələn qeyri-qanuni övladlar cəmiyyətdə bir sıra fəsad və cinayətlər törədir. Zinadan doğulanların fəsadı zinanın aşkar nümunələrindəndir.

● İslam zinanın qarşısını almaq üçün müəyyən tədbirlər planı təqdim edir:

1. Bəzi yerlərdə kişinin naməhrəm qadınla ünsiyyətinə qadağa qoyulur;

2. Kişi və naməhrəm qadının xəlvətdə ikilikdə qalması qadağan olunur;

3. Qadına naməhrəm qarşısına bəzənmiş halda çıxmaq qadağan olunur;

4. Naməhrəmə baxmamaq, naməhrəmlə əl verib görüşməmək, zina barədə düşünməmək, şəhvət doğuran şəkillərə və səhnələrə baxmamaq tapşırılır;

5. Zinakar üçün ciddi cəza nəzərdə tutulur;

6. İzdivac, evlənmək tövsiyə olunur və mehriyyənin (kişinin ödəməli olduğu evlənmə haqqını) aşağı endirilməsi tapşırılır;

7. Gec evlənmək məzəmmət edilir;

8. Evlənmə və ailə üçün səy ibadət sayılır.

**● Bildirişlər**

1. Bəzi günah səhnələri o qədər cazibədardır ki, onlara yaxınlaşmaq belə təhlükəlidir.

2. Nəinki zinadan, hətta zinaya aparan yoldan çəkinmək lazımdır. (Bəzən bir baxış, bir telefon söhbəti, bir məktub və ya bir görüş zina üçün zəmin olur.)

3. Zina tarix boyu çirkin iş sayılmışdır. Digər dinlərdə də zina haramdır.

4. Nəhy-əz-münkərdə (pisliyə qadağada) günahın çirkinliyini bəyan edək.

5. Zina həm günahdır, həm də başqa günahlara yol açıb insanı bədbəxt edir.

**● AYƏ 33:**

﴿وَلاَ تَقْتُلُواْ النَّفْسَ الَّتِي حَرَّمَ اللّهُ إِلاَّ بِالحَقِّ وَمَن قُتِلَ مَظْلُومًا فَقَدْ جَعَلْنَا لِوَلِيِّهِ
سُلْطَانًا فَلاَ يُسْرِف فِّي الْقَتْلِ إِنَّهُ كَانَ مَنْصُورًا﴾

**“Allah tərəfindən (qətli) haram edilmişi haqsız yerə öldürməyin. Şübhəsiz, zülmə məruz qalaraq öldürülənin sahibinə (qisas üçün) ixtiyar**

[1] “Bihar”, c. 77, s. 58

**verdik. O da öldürməkdə (qisasda) ifrata varmamalıdır. Çünki ona (ədalət əsasında) himayə göstərilmişdir.**

○ **Nöqtələr**

● "Fəla yusrif fil-qətl", yəni qisasda həddi aşmayın, cahiliyyət dövründə olduğu kimi, əl-ayağı kəsməyin.

● İnsan həyatına son qoymaq kəbirə günahdır. Qisas və fəsad istisna olmaqla, fəsad törətməmiş şəxsi öldürmək bütün xalqı öldürmək kimidir.[1] Belə bir qətlin cəzası əbədi cəhənnəmdir.[2] Silah çıxaran, ölümlə hədələyən hər bir kəs üçün də fəsad və hücum ünvanı ilə eyni cəza nəzərdə tutulmuşdur.[3]

● Ayədəki "vəliyy", yəni "sahib" sözü həm də həzrət Mehdiyə (ə) aid edilmişdir. Həzrət Mehdi (ə) əziz babası imam Hüseynin (ə) qanını alasıdır.[4]

● Allahın məzlumu himayə etməsi, haqsız olaraq qətlə yetirilənin sahibinə qisas haqqı verilməsi nahaq qətllərin, eləcə də, qisasda ifratın qarşısını alan amildir.

● **Bildirişlər**

1. Hər bir insanın yaşamaq haqqı var. Hətta müsəlmanla savaşda olmayan qeyri-müsəlmanların toxunulmazlıq haqqı var.
2. İlahi qanunlar əmr və qadağaların mehvəridir.
3. İntihar (insanın özünü öldürməsi) haramdır.
4. İslam baxımından qisas, müdafiə, mürtədlik, livat (həmcinsbazlıq), nigahda olanla zina ilə bağlı qətl hökmü verilə bilər.
5. Məzlum kimliyindən asılı olmayaraq himayə edilməlidir.
6. Qisas hökmü məzlumların himayəsi üçün nəzərdə tutulmuşdur.
7. Qətlə yetirilənin sahibi qisas haqqına malikdir.
8. Qisas zamanı insan öz qəzəbini cilovlamalı və ədaləti gözləməlidir. İslam hətta təcavüzkarlara qarşı ədalətsiz rəftara yol vermir. Qətlə yetirilənin sahibi qisas haqqından istifadə edib bir nəfərin əvəzinə bir neçəsini öldürə bilməz.
9. Qisasda qatilin əl-ayağını kəsməyin, namərdliyə yol verməyin.
10. Məzlumun himayəsi ilahi sünnələrdəndir.

---

[1] "Maidə", 32
[2] "Nisa", 93
[3] "Maidə", 33
[4] "Təfsiri-Nurus-Səqəleyn"

● AYƏ 34:

﴿وَلاَ تَقْرَبُواْ مَالَ الْيَتِيمِ إِلاَّ بِالَّتِي هِيَ أَحْسَنُ حَتَّى يَبْلُغَ أَشُدَّهُ وَأَوْفُواْ بِالْعَهْدِ إِنَّ الْعَهْدَ كَانَ مَسْؤُولاً﴾

**"Büluğ həddinə çatanadək yetimin malına yalnız ən yaxşı yolla (yetimin xeyri üçün) yaxınlaşın. (Sonra onun malını özünə tapşırın.) Əhdə vəfa edin, (qiyamətdə) əhd-peyman haqqında soruşulacaq."**

○ **Nöqtələr**

● "Şədd" sözündən olan "əşudd" sözü möhkəm düyün mənasını bildirir. Burada bir insanın öz mülkünə nəzarət edə bilməsi üçün mühüm olan inkişaf mərhələsi, fiziki və ruhi yetkinlik nəzərdə tutulur.

● Quran yetimlərin haqlarının qorunmasını, onlara qayğı göstərilməsini, müəyyən işlərin öhdəyə götürülməsini tapşırır. Amma yetimlərin malından sui-istifadə ehtimalı böyük olduğundan bir sıra xəbərdarlıqlar edilir. Belə ki, yetimin malına yaxınlaşmaq belə qadağan olunur. Zülm yolu ilə yetimin malından istifadə od yeməklə bir tutulur.[1]

● Ayə nazil olan vaxt müsəlmanlar qorxaraq yetimlərdən uzaqlaşdılar və onları tək buraxdılar. Digər bir ayə nazil oldu. Bildirildi ki, yaxınlaşmaq dedikdə sui-istifadə nəzərdə tutulmuşdur və saleh insanlar təqva bəhanəsi ilə yetimləri tənha buraxmamalıdırlar.[2]

● Hədisdə oxuyuruq: "Haqqında soruşulası əhd-peyman Əliyə (ə) məhəbbət, onunla dostluq, ona itaətdir."[3]

● **Bildirişlər**

1. İslam məhrumların, zəiflərin və yetimlərin dayağıdır.
2. Sui-istifadə ehtimalı olan yerdə daha çox xəbərdarlıq lazımdır. (Bu səbəbdən də həzrət Əli (ə) "Nəhcül-bəlağə"də muzd ilə işləyənin, əkinçinin, qadın və yetimin haqlarının qorunması ilə bağlı xeyli tövsiyə edir.)
3. Var-dövlət o qədər cazibəlidir ki, bəzən ona yaxınlaşmaq da günah və harama düşməklə nəticələnir.
4. Uşaqların da mülkiyyət hüququ var.
5. İrs mülkiyyət səbəblərindən biridir.
6. Yetimin malını sərf edərkən ən üstün və səmərəli yol seçmək şərtdir. (Əgər yetimin malının dövriyyəsi onun üçün faydalıdırsa, bu malı hərəkətsiz saxlamaq olmaz.)
7. Maliyyə əməliyyatlarında yetimlərin mənafeyi nəzərə alınmalıdır.

---

[1] Bax: "Nisa", 10
[2] Bax: "Bəqərə", 220
[3] "Bihar", c. 24, s. 187

8. Yetimin malını boş yerə sərf etmək, mənimsəmək qadağandır.

9. Yetim əqli, iqtisadi və fiziki yetkinliyə çatdıqda malını onun öz ixtiyarına vermək olar.

10. İstənilən şəxslə bağlanmış istənilən əhd-peymana vəfalı olaq.

11. Məsuliyyətə diqqət insanı günahdan uzaqlaşdırır.

**● AYƏ 35:**

﴿وَأَوْفُوا الْكَيْلَ إِذا كِلْتُمْ وَزِنُواْ بِالقِسْطَاسِ الْمُسْتَقِيمِ ذَلِكَ خَيْرٌ وَأَحْسَنُ تَأْوِيلاً﴾

**"Peymanə (xüsusi ölçü qabı) ilə alış-veriş etdikdə peymanəni doldurun. Tərəzi ilə düzgün çəkin. Bu, daha yaxşıdır və sonu xoşdur."**

**○ Nöqtələr**

● "Qistas" sözü ədalət mənasını bildirən "qist" və tərəzi gözünü bildirən "tas" sözlərindən düzəlmişdir.[1] Hədisdə deyilir: "Məsum imam İslam cəmiyyətində "qistasil-müstəqim" nümunəsidir.[2]

● Alış-veriş və müamilədə xalqın hüquqlarının qorunması o qədər mühüm məsələdir ki, Quran bu məsələ üzərində təkrar-təkrar dayanır. Quranın ən böyük ayəsi[3] bu mövzuya həsr olunmuşdur və "Mutəffifin" surəsi bu münasibətlə adlandırılmışdır. Bəzi peyğəmbərlərin, eləcə də, həzrət Şüeybin ilkin dəvəti əskik satmamaq, düzgün alış-verişlə bağlıdır.[4]

**● Bildirişlər**

1. Müsəlman bazarında saxtakarlığa və əskik satışa yol verilməməlidir. Bu bazarın satıcısı etibarlı, düzgün və hesab-kitablı olmalıdır.

2. Düzgün çəki və ölçü ötən ayədə qeyd olunduğu kimi əhdə vəfa nümunəsidir. Müamilə də bir növ öhdəçilikdir.

3. Tərəzi, ölçü vasitələri, alış-veriş hesabatları sağlam və dəqiq olmalıdır.

4. Tərəzi, ölçüyə və hesaba diqqət xeyir-bərəkət amilidir. Əskik satmaq insanı xeyir-bərəkətdən məhrum edir.

5. İlahi göstərişlərin məqsədi insanın öz xeyrinədir.

6. İqtisadi məsələlərdə düzlük əskik satmaqla əldə olunan var-dövlətdən üstündür. Düzgün alış-verişin, xalqın hüquqlarına riayət etməyin faydası insanın özünə aiddir. Əgər düzlük insana qarşı etimad yaradırsa, əskik satmaq, ölçüdə aldatmaq etimadı aradan götürür. Demək, yaxşı sonluq düzlükdən asılıdır.

7. Düzgün alış-veriş xoşbəxtlik səbəbidir.

---

[1] "Təfsiri-Əl-Mizan"
[2] "Bihar", c. 24, s. 187
[3] Bax: "Bəqərə", 282
[4] "Şüəra", 181-183

Əskik satmaq müvəqqəti fayda versə də, insan dünyəvi etibarını itirib axirət əzabı qazanmaqla özünü bədbəxt edir.

● AYƏ 36:

﴿وَلاَ تَقْفُ مَا لَيْسَ لَكَ بِهِ عِلْمٌ إِنَّ السَّمْعَ وَالْبَصَرَ وَالْفُؤَادَ كُلُّ أُولئِكَ كَانَ عَنْهُ مَسْؤُولاً﴾

**"Bilmədiyin işin ardınca getmə. Çünki qulaq, göz və qəlb hər biri sorğuya çəkiləcək."**

○ **Nöqtələr**

● Ayədə göz, qulaq və qəlbə nümunə olaraq işarə edilə bilər. Çünki qiyamətdə insanın əl-ayağı, bədən üzvləri də sorğuya çəkilər.[1] Bədən üzvləri dilə gəlib günahları etiraf edər. Ola bilsin ki, məhz bu səbəbdən göz, qulaq və qəlb başqalarına itaət vasitəsi sayılır.

● Kor-koranə təqlid, puç adət və təxəyyüllərə ardıcıllıq, ata-babalara itaət, öncəgörmələrə, yuxulara, ehtimallara, gümanlara və elmi əsassız mühakimələrə inam, dəlilsiz şahidlik, elmi əsası olmayan sitayiş və ya tənqid, rəy əsasında təfsir və təhlil, şayiələri nəql etmək, elmi əsası olmayan xüsusiyyətləri Allaha və dinə aid etmək, həyəcanlı və böhranlı şəraitdə qərar çıxarmaq, yalan and və göz yaşlarına istinad "la təqfu ma ləysə ləkə bihi ilmun" ("bilmədiyinə itaət etmə") nümunələrindəndir və qadağandır.

● Mütəvatir və mötəbər rəvayətlərə əsasən, müctəhidin fətvası, yəqinə yaxın əminlik sayılan elm kimi şəri əsaslara itaət, əslində elmə ardıcıllıqdır. İnsanlar peşəkar həkimin nüsxəsi əsasında əminlik əldə etdikləri kimi, mötəbər və təqvalı müctəhidin fətvası əsasında Allahın hökmünə əmin olurlar. Elmin "elmul-yəqin", "həqqul-yəqin", "eynul-yəqin" kimi mərhələləri olsa da, yuxarıda zikr olunan mərhələ yetərlidir.

● Məsum imamlar öz səhabələrini hər sözü dinləyib danışmaqdan çəkindirmişlər. Onlar tövsiyə edirlər ki, insan öz qəlb və qulağının keşikçisi olmalıdır. Onlar öz münasibətlərində hazırkı ayəyə istinad etmişlər.

Bir şəxs ayaq yoluna gedərkən qonşudakı musiqi səsini dinləmək üçün orada yubanardı. İmam (ə) bu şəxsi məzəmmət edərək hazırkı ayəni tilavət etdi və buyurdu: "Qulaq eşitdiklərinə, göz gördüklərinə, qəlb öz xatirələrinə görə sorğuya çəkilər." İmam Səccad (ə) isə belə buyurur: "İnsanın haqqı yoxdur ki, hər nə istəsə danışsın."[2]

---

[1] Bax: "Nur", 24; "Yasin", 65; "Fussilət", 20
[2] "Təfsiri-Nurus-Səqələyn"

● **Bildirişlər**

1. İnsan həqiqi elm və düzgün məlumat, məntiq və bəsirət əsasında yaşamalıdır.

2. Şayiə bazarını qızışdırmayaq, eşitdiyimiz əsassız sözləri ona-buna nəql etməklə insanların şəxsiyyətini alçaldıb, hüquqlarını ayaq altına salmayaq.

3. Quran sadə xalqı öz ətrafına toplayan sehrbazları, kahinləri, falçıları tənqid atəşinə tutur.

4. İnsan təkcə hiss üzvləri ilə məlumat toplamır, qəlb də ətrafla tanışlıq vasitələrindəndir.

5. Qiyamətdə insanın qəlbindən ötənlər və niyyətləri də sorğuya çəkilər.

6. Qiyamət və Allah sorğusuna iman təqva amilidir.

7. İnsanın öz fiziki və digər imkanlarından düzgün faydalanmamasının cəzası var.

● **AYƏ 37:**

﴿وَلاَ تَمْشِ فِي الأَرْضِ مَرَحًا إِنَّكَ لَن تَخْرِقَ الأَرْضَ وَلَن تَبْلُغَ الْجِبَالَ طُولاً﴾

**"Yer üzündə təkəbbür və lovğalıqla hərəkət etmə. Şübhəsiz, sən nə yeri yara bilər, nə də ucalıqda dağlara çata bilərsən."**

● **AYƏ 38:**

﴿كُلُّ ذَلِكَ كَانَ سَيِّئُهُ عِنْدَ رَبِّكَ مَكْرُوهًا﴾

**"Bütün bunların günahı Rəbbinin yanında bəyənilməmişdir."**

○ **Nöqtələr**

● Etiqadi, siyasi, hərbi və iqtisadi sahələrlə yanaşı evdən bayıra get-gəl kimi xırda məsələlərlə bağlı göstəriş verməsi İslamın hərtərəfli bir din olmasını göstərir. Məsələn:

a) Yol gedərkən orta həddi gözlə.[1]

b) Təkəbbür və lovğalıqla yerimə.

v) Yer üzündə aram və təkəbbürsüz hərəkət edənlər Allahın bəndələridir.[2]

q) Küçə və bazardan təkəbbür və dəbdəbə ilə keçən varlı Qarun tənqid olunur.[3]

● Peyğəmbər (s) hətta Məkkənin fəthi günü palansız bir ulağa süvar olmuşdu. İmam Həsən Müctəbanın (ə) çoxsaylı minikləri olduğu halda

---

[1] Bax: "Loğman", 61
[2] Bax: "Furqan", 63
[3] Bax: "Qəsəs", 79

Məkkəyə piyada gedirdi. Bütün bunlar din övliyalarının təvazökarlığını göstərir. Həzrət Əli (ə) təvazökarlıqla yol getməyi müttəqilərin sifəti sayır.[1]

**● Bildirişlər**

1. Hətta təkəbbürlə yol yerimək Quran tərəfindən məzəmmət olunur.
2. Təkəbbürü aradan götürmək üçün zəiflərin və acizlərin halını nəzərə almaq lazımdır.
3. İç sifətlər insanın rəftarlarına təsir göstərir.
4. Bütün ilahi dinlərdə çirkin əməllər pislənilmişdir.
5. Allahın əmrləri insanın inkişaf və tərbiyəsinə yönəldilmişdir.

**● AYƏ 39:**

﴿ذَلِكَ مِمَّا أَوْحَى إِلَيْكَ رَبُّكَ مِنَ الْحِكْمَةِ وَلاَ تَجْعَلْ مَعَ اللّهِ إِلَهًا آخَرَ فَتُلْقَى فِي جَهَنَّمَ مَلُومًا مَّدْحُورًا﴾

**"Bu (göstərişlər) Rəbbinin sənə vəhy etdiyi hikmətlərdəndir. Allahla yanaşı başqa məbud qərar vermə, yoxsa məzəmmət olunar, qovular və cəhənnəmə atılarsan."**

**○ Nöqtələr**

● Bəzi təfsirçilər deyir: "Hikmə" dedikdə ötən ayələrdə qeyd olunmuş və digər dinlərdə əks olunmuş sabit hökmlər nəzərdə tutulur. İyirmi ikinci ayədə şirkin qadağası ilkin hikmət idi. Bu ayədə şirkin qadağası hikmətlərin sonudur.

● Allah bəzən Peyğəmbərə (s) sərt bir xitabla əslində kafirlərə xəbərdarlıq edir. Məqsəd kafirlərin peyğəmbərlərdən ümidlərini üzməsidir. Məsələn, buyurulur ki, əgər Allahdan qeyrisinin sorağınca getsən, cəhənnəmə atılarsan.

**● Bildirişlər**

1. Allahın əmr və qadağaları hikmətə, bəşəriyyətin tərbiyə ehtiyaclarını əhatə edən elmə əsaslanır və ağıla uyğundur.
2. Ağıl və fitrət insanın vəhyə olan ehtiyacını ödəmir. İnsan vəhyə möhtacdır.
3. Şirk o qədər çirkindir ki, hətta Peyğəmbər (s) onun sorağınca getsə məhv olar.
4. Vəhy məktəbi və ilahi qanundan savay bütün yollar və məktəblər məhvə aparır, məhrumiyyət və cəhənnəmlə sonuclanır.
5. Şirkin sonu cəhənnəmdir və müşrik Allahın rəhmətindən uzaq düşəsidir.
6. Müşriklər cəhənnəmdə yanmaqla yanaşı, ruhi əzab da görürlər.

---

[1] "Nəhcül-bəlağə", x. 193

● AYƏ 40:

﴿أَفَأَصْفَاكُمْ رَبُّكُم بِالْبَنِينَ وَاتَّخَذَ مِنَ الْمَلآئِكَةِ إِنَاثًا إِنَّكُمْ لَتَقُولُونَ قَوْلاً عَظِيمًا﴾

**“(Yoxsa güman edirsiniz ki,) Rəbbiniz sizi oğlan övladlarla seçib, Özü üçün mələklərdən qızlar götürüb? Həqiqətən, siz böyük (böhtan) danışırsınız.”**

○ **Nöqtələr**

● Müşriklərin əqidələrindən biri də bu idi ki, mələkləri Allahın qızları sayırdılar. Quran dəfələrlə bu məsələyə toxunur və deyilənləri böyük böhtan sayır.[1]

Əlbəttə, Allahın övladı olmasına inam yəhudilər və məsihilər arasında da mövcuddur. Allahın qızları olması fikri isə bütpərəstlərə məxsusdur.

● **Bildirişlər**

1. Oğlan övladın qız övladdan üstünlüyü yanlış düşüncədir.
2. Allahın rübubiyyəti müşriklərə də şamildir.
3. Allahın övladı olması fikri əsassızdır və məhkum olunur.
4. Mələkləri Allahın qızı bilmək səhv təsəvvürdür.
5. İnsan özünə rəva bilmədiyini başqasına rəva bilməməlidir. Belə bir sifəti Allaha aid etmək isə daha dəhşətlidir!

● AYƏ 41:

﴿وَلَقَدْ صَرَّفْنَا فِي هَذَا الْقُرْآنِ لِيَذَّكَّرُواْ وَمَا يَزِيدُهُمْ إِلاَّ نُفُورًا﴾

**“Şübhəsiz, Biz bu Quranda (həqiqəti müxtəlif ifadələrlə) təkrar-təkrar bəyan etdik ki, öyüd götürsünlər. Amma bu, onların nifrətini artırdı.”**

○ **Nöqtələr**

● “Sərrəfna” dedikdə mövzunu aydınlaşdırmaq üçün müxtəlif bəyanlar və təkrarlar nəzərdə tutulur.

● İnsan istər təbiətdə, istər ilahi kitabda fitrətən rəngarənglik axtarışındadır. Qurandakı təkrarların və rəngarəngliyin səbəbi məhz bu meyldir.

---

[1] Bax: “Tur”, 39; “Nəcm”, 21

● Pak yağış üfunətli leşin pis qoxusunu apardığı kimi, ilahi ayələr də təkəbbür və inadkarlıq dolu qəlbin tərsliyini artırır.

**● Bildirişlər**

1. Məsələlər rəngarəng və cazibəli şəkildə təkrarlanmalıdır. Çünki yeknəsəqlik insanı yorur.

2. İnsan daim xatırlatmaya ehtiyaclıdır. Xəbərdarlıq hər dəfə təkrarlandıqda hansısa qrup cəzb ola bilər.

3. Quran ayələrinin təkrarında məqsəd xatırlatma və nəsihətdir.

4. Təkrar dostları cəlb edir, inadkarlarda nifrət yaradır.

**● AYƏ 42:**

﴿قُل لَّوْ كَانَ مَعَهُ آلِهَةٌ كَمَا يَقُولُونَ إِذًا لاَّبْتَغَوْاْ إِلَى ذِي الْعَرْشِ سَبِيلاً﴾

**“De ki, əgər müşriklərin dediyi kimi, Allahla yanaşı başqa məbudlar olsaydı, bu məbudlar yaranış sahibi olan Allaha (üstün gəlmək üçün) nüfuz yolu axtarardılar.”**

**● AYƏ 43:**

﴿سُبْحَانَهُ وَتَعَالَى عَمَّا يَقُولُونَ عُلُوًّا كَبِيرًا﴾

**“Allah onların dediklərindən daha pak və üstündür, çox üstün!”**

**○ Nöqtələr**

● Müşriklər Allahı qəbul edir, Onu varlıq aləminin yaradıcısı kimi tanıyırdılar. Amma bütləri özləri üçün şəfaətçi və ya Allaha şərik sayırdılar. Ayədə Allahla bütlər arasındakı bu sayaq münasibət inkar olunur. Çünki bütlər nə Allahın qüdrətini əlindən ala bilər, nə də özlərini gücləndirə bilərlər.

**● Bildirişlər**

1. Varlıq aləmi Allahın birliyini təsdiq edən ən üstün dəlildir. (Əgər başqa tanrılar olsaydı, varlıq aləmində rəqabət yaranar, sabit nizam pozulardı.)

2. İftiraya cavab vermək, həqiqəti bəyan etmək lazımdır.

3. Allahın heç bir şəriki yoxdur və Onun müqəddəs zatı ilə danışılan xurafat arasında ölçüyəgəlməz fasilə var.

4. Nə qədər sitayiş olunsa da, yenə Allah dilə gətirilən vəsflərdən üstündür.

**● AYƏ 44:**

﴿تُسَبِّحُ لَهُ السَّمَاوَاتُ السَّبْعُ وَالأَرْضُ وَمَن فِيهِنَّ وَإِن مِّن شَيْءٍ إِلاَّ يُسَبِّحُ بِحَمْدَهِ
وَلَكِن لاَّ تَفْقَهُونَ تَسْبِيحَهُمْ إِنَّهُ كَانَ حَلِيمًا غَفُورًا﴾

**“Yeddi qat göy və yer, eləcə də, onlarda olanlar Allaha təsbih deyir. Hər şey ona sitayişdədir, Onun pak olduğunu bildirir, amma siz onların təsbihini anlamırsınız. Həqiqətən, O, həlim və bağışlayandır.”**

○ **Nöqtələr**

● Ayədə deyilir: Bütün varlıq aləmi Allaha təsbih edir, səcdə qılır, qunut tutur. Bəzi təfsirçilər bu təsbihi təkvini (fitrətdən gələn, təbii) təsbih sayırlar. Yəni aləmdəki hər bir zərrənin quruluşu Allahın iradə, hikmət, elm və ədalətini göstərir.

Bəziləri bu əqidədədir ki, varlıq aləminin şüur və biliyi var. Hər bir varlıq Allaha təsbih deyir, sadəcə, biz bu səsi eşitmirik. Belə bir baxış ayənin zahirinə müvafiqdir. Əşyanın nitqi ola bilər, çünki qiyamətdə hər bir varlığın dilə gələcəyi təsdiqlənir.[1] Hətta daşın da elmi və qorxusu var. Daş Allah qorxusundan dağdan yuvarlanır.[2] Həzrət Süleyman qarışqa dilini bilirdi, quşların nitqini anlayırdı. Xalqın yolunu azmasından xəbər tutan hüd-hüd quşu (şanapipik) bu barədə Süleymanı məlumatlandırdı. Allah dağlara müraciət edir: “Ey dağlar! Davudla birlikdə yalvarın.”[3] Quranda başqa mövcudların da Allaha təsbih deməsindən danışılır.

*Aləmdə hər zərrə, içində hər an*
*Səninlə danışır gündüz və axşam.*
*Deyirlər dinləyib görürük, amma*
*Qalmış təsbihimiz, gizli insana.*

● Heyvanların və sair mövcudların Allaha təsbih deməsi rəvayətlərdə də təsdiqlənir. O cümlədən:

a) Heyvanların üzünə sillə vurmayın. Onlar Allaha təsbih deyir.[4]
b) Allaha təsbih deməyən heyvan ovçuya şikar olar.[5]
c) Yalnız Allaha təsbihi tərk edən ağac kəsilir.[6]
d) Peyğəmbərin (s) əlindəki çınqıl onun peyğəmbərliyinə şəhadət verdi.[7]
e) Bal arısı Allaha təsbih deyir.[8]

Bütün bu rəvayətlər gerçək təsbihdən danışır.

---

[1] Bax: “Fussilət”, 21
[2] Bax: “Bəqərə”, 74
[3] “Təfsiri-Nurus-Səqəleyn”
[4] “Təfsiri-Nurus-Səqəleyn”
[5] “Təfsiri-Nurus-Səqəleyn”
[6] “Təfsiri-Ruhul-Cinan”
[7] “Təfsiri-Əl-Mizan”
[8] “Bihar”, c. 95, s. 372

● **Bildirişlər**

1. Bütün varlıq aləmi Allaha təsbih deyirsə, nə üçün insan bu karvandan geri qalmalıdır?!

2. Səmalarda da diri və şüurlu varlıqlar mövcuddur.

3. Varlığın təsbihi həmd və sitayişlə müşayiət olunur.

4. Biz təsbih olduğunu anlamadığımız səslər eşidirik.

5. Bütün varlıq aləmi şüurludur, sadəcə, insanın varlıq aləmi haqqında məlumatı naqisdir.

6. Həqiqət yalnız haqq əhlinə açıqlanır.

7. Allah elm və mərhəmətinə xatir xurafi əqidələrə, rəva olmayan sözlərə dözür. Əgər tövbə edib haqq yola qayıtsaq, şübhəsiz, bağışlanarıq.

● **AYƏ 45:**

﴿وَإِذَا قَرَأْتَ الْقُرآنَ جَعَلْنَا بَيْنَكَ وَبَيْنَ الَّذِينَ لاَ يُؤْمِنُونَ بِالآخِرَةِ حِجَابًا مَّسْتُورًا﴾

**“Quran oxuduğun vaxt səninlə qiyamətə inanmayanlar arasında görünməz hicab qərar verərik (ki, haqq maarifin dərkindən məhrum qalsınlar).”**

○ **Nöqtələr**

● Quran təqvalıların hidayət vasitəsidir.[1] Axirətə əminlik müttəqilərin nişanələrindəndir.[2] Deməli, Quran qiyamətə inanmayanları hidayət etmir. İnsanı vəhy və ilahi maarifin dərki ləzzətindən məhrum edən həmin hicabdır. Peyğəmbərin (s) dilindən vəhy eşitsələr belə, onlara təsir etməz.

● **Bildirişlər**

1. İnsanda hidayət qabiliyyəti olmasa, Peyğəmbərin (s) oxuduğu Quran da ona təsir etməz.

2. İnsanın inadkarlıq və küfründən sonra ilahi qəhr-qəzəb nazil olur.

3. Quran tilavəti insanı kafirlərin şərindən qoruya bilər.

4. Quran tilavəti insanda kafirlərdən uzaqlıq ruhiyyəsi yaradır.

5. Vəhyi dərk etməkdən məhrumluq ilahi əzab və qəzəbdir. Allahın qamçısı səssizdir.

6. Məada iman ilahi dəvətin qəbul amili, məada küfr ilahi maarifin inkar səbəbidir.

7. Allah Öz həqiqətlərini və maarifini yalnız haqq əhlinə açır.

---

[1] Bax: “Bəqərə”, 2

[2] Bax: “Bəqərə”, 6

● AYƏ 46:

﴿وَجَعَلْنَا عَلَى قُلُوبِهِمْ أَكِنَّةً أَن يَفْقَهُوهُ وَفِي آذَانِهِمْ وَقْرًا وَإِذَا ذَكَرْتَ رَبَّكَ فِي الْقُرْآنِ وَحْدَهُ وَلَّوْاْ عَلَى أَدْبَارِهِمْ نُفُورًا﴾

**"Onların (kafirlərin) qəlbində örtük, qulaqlarında ağırlıq qoyduq ki, onu (Quranı) anlamasınlar. Çünki sən Quranda Rəbbini yeganəliklə yad etdiyin vaxt onlar baş götürüb gedirlər."**

○ **Nöqtələr**

● "Əkinnə" dedikdə örtük vasitəsi başa düşülür. "Vəqr" isə qulaqda ağırlıq mənasını bildirir. Bu təbirlərin oxşarı digər ayələrdə də bəyan olunmuşdur.[1]

● Tövhid mövzusu Quranda min dəfədən çox xatırlanır.[2] Amma təəssüf ki, qəlbikorlar tövhid ayələrini eşitməkdən və bu ayələrdən bəhrələnməkdən məhrumdurlar. Şirkamiz pis sözlər isə onları xoşhal edir.[3]

Bu gün də tövhid, təkallahçılıq söhbəti düşəndə bəziləri nifrətlə qulaq asırlar. Onlar üçün şərqlilər və qərblilərdən danışmaq daha cazibəlidir.

Quran haqdan qaçan bu sayaq dəstələri şirdən qaçan ulağa bənzədir.[4]

● **Bildirişlər**

1. Qapalı ruh, ölü qəlb həqiqi Quran maarifini qəbul etmir.
2. Sadəcə eşitmək dərin dinləmə və eşidilənlərdən zövq duymaqdan fərqli bir işdir.
3. Mənəviyyat məsələlərinin dərkindən məhrumluq bir növ ilahi qəhr-qəzəbdir.
4. Allahdan qeyrisinə üz tutmaq küfr, həm Allah, həm də Allahdan qeyrisinə üz tutmaq şirk; yalnız vahid Allaha üz tutmaq tövhiddir.
5. Müşriklər üçün ən çətin məsələ rübubiyyət (tərbiyə) prinsipində tövhiddir. (Tərbiyəçinin bir Allah olmasıdır.)

● AYƏ 47:

﴿نَّحْنُ أَعْلَمُ بِمَا يَسْتَمِعُونَ بِهِ إِذْ يَسْتَمِعُونَ إِلَيْكَ وَإِذْ هُمْ نَجْوَى إِذْ يَقُولُ الظَّالِمُونَ إِن تَتَّبِعُونَ إِلاَّ رَجُلاً مَّسْحُورًا﴾

---

[1] Bax: "Fussilət", 44; "Ənam", 25; "Kəhf", 57
[2] "Təfsiri-Ətyəbul-Bəyan"
[3] Bax: "Zumər", 45
[4] Bax: "Muddəssir", 50

**“Bir-birləri ilə pıçıldaşıb, “siz yalnız ovsunlanmış birinə tabe olursunuz” deyən zaman onların səni nə üçün dinlədiklərini Biz daha yaxşı bilirik.”**

○ **Nöqtələr**

● Təfsirlərdə bildirilir ki, küfr başçıları bir-birindən xəbərsiz məxfi şəkildə Peyğəmbərin (s) evinin ətrafına toplanıb Quranı dinləyir və sonra təhlil edirdilər. Bəzən qaranlıqda bir-birləri ilə toqquşur və qarşı tərəfi məzəmmət edirdilər ki, əgər biz Məhəmmədin avazından uzaq dayana bilmiriksə, xalq nə etsin!

● Bu ayədə Peyğəmbərə (s) təsəlli verilir ki, kafirlərin hörmətsizliyi onu pərişan etməsin. Çünki Allaha hər şey aydındır.

● **Bildirişlər**

1. Allah xalqın məqsədlərindən xəbərdardır.
2. İnsan pis niyyətlə də dinləyə bilər.
3. Həqiqi təbliğatçı xalqın böhtanlarına görə geri çəkilməməlidir. O, Allahın nəzəri altında olduğunu düşünüb təsəlli tapmalıdır.
4. Düşmənlər xalqın ilahi rəhbərlərə meylini gördüklərindən onlara böhtan və yalanla zərbə vururlar.

● **AYƏ 48:**

﴿انظُرْ كَيْفَ ضَرَبُواْ لَكَ الأَمْثَالَ فَضَلُّواْ فَلاَ يَسْتَطِيعْونَ سَبِيلاً﴾

**“(Ey peyğəmbər!) Bax gör ki, sənin üçün necə misallar çəkdilər və nəticədə yollarını azdılar. Onlar haqq yolu tapa bilməzlər.”**

● **Bildirişlər**

1. Peyğəmbər, dini rəhbərlər və möminlər düşmənin təbliğat üsulundan xəbərdar olmalıdırlar.
2. Həm haqqın sübutu, həm də həqiqətlərin solğun göstərilməsi üçün misal və təmsildən istifadə etmək olar.
3. Dinə qarşı məntiqlə çıxış edə bilməyənlər müxtəlif misallarla peyğəmbəri təhqir edirlər.
4. İlahi rəhbərə qarşı alçaldıcı hərəkət azğınlıq amilidir.
5. İnsanlar azğınlıq girdabına tədricən yuvarlanırlar. Öncə pis danışıq və yersiz məsəllər, sonra azğınlıq, daha sonra isə çıxılmaz vəziyyət.
6. Küfrün sonu yoxdur. Kafirlər müxtəlif böhtanlardan, yersiz məsələlərdən istifadə etsələr də, yenə müvəffəqiyyət qazanmadılar.

● AYƏ 49:

﴿وَقَالُواْ أَئِذَا كُنَّا عِظَامًا وَرُفَاتًا أَإِنَّا لَمَبْعُوثُونَ خَلْقًا جَدِيدًا﴾

**“Onlar dedilər: “Çürüyüb dağılmış sümüklər olduğumuz vaxt, doğrudanmı, yeni bir yaranışla qaldırılarıq?”**

○ **Nöqtələr**

● “Rufat” dedikdə əzilmiş gil başa düşülür.[1]

● Quran ayələrində məadı inkar edənlərin hansısa dəlilinə işarə olunmur. Bəli, onların heç bir dəlili yoxdur. İşləri təəccüb, sual və inamsızlıqdır. Onlar müxtəlif suallarla şübhə yaradırlar. Quran onlara cavab olaraq Allahın elm, qüdrət və hikmətinə istinad edir. Məadı inkar edənlər üçün təbiət, tarix və insanın özündən nümunələr zikr olunur. Bütün bunlar əvvəl yox idi, sonradan yarandı. Deməк, heçdən yaradan Allah mövcudları ölümdən sonra yenidən diriltdə bilər.

● AYƏ 50:

﴿قُل كُونُواْ حِجَارَةً أَوْ حَدِيدًا﴾

**“De ki, (əzilmiş sümüyə nə var ki, siz) daş, ya dəmir olun.”**

● AYƏ 51:

﴿أَوْ خَلْقًا مِّمَّا يَكْبُرُ فِي صُدُورِكُمْ فَسَيَقُولُونَ مَن يُعِيدُنَا قُلِ الَّذِي فَطَرَكُمْ أَوَّلَ مَرَّةٍ فَسَيُنْغِضُونَ إِلَيْكَ رُؤُوسَهُمْ وَيَقُولُونَ مَتَى هُوَ قُلْ عَسَى أَن يَكُونَ قَرِيبًا﴾

**“Ya da nəzərinizdə ondan möhkəm olan bir məxluq ola (yenə Allah sizi ikinci dəfə diriltdə bilər). Onlar tezliklə deyəcəklər: “Kim bizi yenidən qaytarar?” De ki, sizi ilk dəfə yaradan kəs. Tezliklə (təəccüb içində) başlarını sənə doğru tərpədib deyərlər: “O gün nə vaxt olacaq?” De ki, bəlkə də, yaxın vaxt!”**

○ **Nöqtələr**

● İnsan ölümdən sonra çürüyüb torpaq olsa da, torpaq həyat qaynağıdır. Bitkilər torpaqdan göyərir, torpaqda inkişaf edən mövcudlar var. Demək, ölüləri torpaqdan diriltmək Allah-təala üçün çətin deyil. Siz torpaq yox, daş və dəmir olsanız belə, yenə Allah həyatdan uzaq olan bu tərkiblərdən sizi dirildəcək.

● Məadı inkar edənlərin heç bir dəlili yoxdur. Onlar yalnız soruşurlar ki, bizi kim, nə vaxt və necə dirildəcək? Quran belə cavab verir ki, sizi öncə

---

[1] “Müfrədati-Rağib”

heçdən yaradan Allah yenidən diriltmək qüdrətinə malikdir. Bu vəd bir o qədər də gec yox, bəlkə də, tezliklə gerçəkləşər!

**● Bildirişlər**

1. Peyğəmbərə (s) sualları, şübhələri və iradları cavablandırmaq əmr olunub.

2. Ölüləri - daşa və dəmirə dönmüş olsalar belə - diriltmək Allah üçün asandır.

3. Məad cismanidir.

4. Bir çox şeylər bizim düşüncə və qəlbimizdə böyük görünür. Amma əslində onlar böyük deyil.

5. Allahın qüdrətindən xəbərsizlik məadın inkarına səbəb olur.

6. İnadkar insanlar dəlil eşitdikdə belə istehza və inkar səbəbindən başlarını yırğalayırlar.

7. Dünya həyatı axirətlə müqayisədə qısadır. Hər bir insan ölüm və qiyaməti yaxın bilməlidir.

**● AYƏ 52:**

﴿يَوْمَ يَدْعُوكُمْ فَتَسْتَجِيبُونَ بِحَمْدِهِ وَتَظُنُّونَ إِن لَّبِثْتُمْ إِلاَّ قَلِيلاً﴾

**"(Hesab üçün qəbirlərdən) çağırılacağınız gün siz həmd-səna deyən halda cavab verər və düşünərsiniz ki, qısa bir müddət yubanmısınız.**

**● Bildirişlər**

1. Qiyaməti yaddan çıxarmayın.

2. Qiyamət bütün insanların ümumi çağırış günüdür.

3. Qiyamət zamanı bütün ölülər həmd-səna deyər. (Amma bunun kafirlərə faydası yoxdur.)

4. Qiyamətlə müqayisədə dünya və bərzəx həyatının uzunluğu çox azdır.

**● AYƏ 53:**

﴿وَقُل لِّعِبَادِي يَقُولُواْ الَّتِي هِيَ أَحْسَنُ إِنَّ الشَّيْطَانَ يَنزَغُ بَيْنَهُمْ إِنَّ الشَّيْطَانَ كَانَ لِلإِنْسَانِ عَدُوًّا مُّبِينًا﴾

**"Bəndələrimə de ki, gözəl söz danışsınlar. Çünki şeytan (ölçüsüz sözlərlə) onların arasında fitnə-fəsad salır. Həqiqətən, şeytan insan üçün daim aşkar düşmən olub."**

○ **Nöqtələr**

● Allah ən üstün varlıqları yaradandır.[1] O, bizlərdən üstün olanları üstün əmələ, üstün sözə, üstün dəvətin qəbuluna çağırır.[2]

● Belə görünür ki, kafirlərin rəftar üsulu, acı sözləri ilə, eləcə də qarşı tərəfə eyni tərzdə cavab verilməsi ilə bağlı müsəlmanların sualları olmuşdur. Ayə "qul" ("de") əmri ilə onlara cavab verir. Çünki bəzən bütlərə ünvanlanmış pis söz Allahın ünvanına kafirlərin pis söz deməsi ilə nəticələnirdi.

● "Gözəl söz" dedikdə istənilən bir bəyənilmiş söz nəzərdə tutula bilər. Salam, dua, doğru yola dəvət, məhəbbətin izharı, yaxşılığa əmr, pisliyə qadağa, Allah zikri, tövbə və yalvarış gözəl sözə nümunə ola bilər.

● **Bildirişlər**

1. Gözəl sözə gözəl danışıqla dəvət etmək lazımdır.
2. Yaxşı danışıq məhəbbət, pis danışıq müxtəlif şeytani vəsvəsələr üçün zəmindir. Bəli, gözəl söz vəsvəsə zəminini aradan qaldırır.
3. Başqaları ilə xoş rəftar bəndəlik şərtidir.
4. Xalq arasında düşmənçilik toxumu səpmək şeytan işidir. Bu sayaq düşmənçilik yaradan insan şeytanın həmkarıdır.
5. Şeytan daim insanın düşməni olmuş, öz düşmənçiliyindən bir an belə əl çəkməmişdir.
6. Şeytan öz fitnə-fəsadında və insanla düşmənçiliyində çox ciddidir.

**● AYƏ 54:**

﴿رَّبُّكُمْ أَعْلَمُ بِكُمْ إِن يَشَأْ يَرْحَمْكُمْ أَوْ إِن يَشَأْ يُعَذِّبْكُمْ وَمَا أَرْسَلْنَاكَ عَلَيْهِمْ وَكِيلاً﴾

**"Rəbbiniz sizi daha yaxşı tanıyır. İstəsə sizə mərhəmət göstərər, istəsə (pis əməllərinizə görə) sizə əzab verər. Biz səni xalqa vəkil göndərmədik. (Onları məcburi şəkildə imana sövq etmək sənin vəzifən deyil.)"**

○ **Nöqtələr**

● Ötən ayədə yaxşı danışıq əmr olundu. Bu ayədə də yaxşı danışığın nümunələri bəyan olunur: insan özünü başqalarından üstün bilməməli, onları təhqir etməməli, hətta kafirlərə "siz cəhənnəm əhlisiniz, biz behişt əhli" söyləməməlidir. Çünki bu sayaq danışıq fitnə yaradır. Digər bir tərəfdən, kim

---

[1] Bax: "Səcdə", 7; "Qafir", 64; "Tin", 4
[2] Bax: "Hud", 7; "Zumər", 18

bilir ki, kimin aqibəti xoş olacaq?! Allah daha yaxşı bilir - əgər istəsə bağışlayar, istəsə əzab verər.

**● Bildirişlər**

1. Öz imanımızla qürrələnməyək.
2. Allahın işləri Onun elminə əsaslanır.
3. Allahın elmi, Onun mərhəmət və qəzəbi rübubiyyət şənindəndir.
4. Öncə mərhəmətdən, sonra qəhr və əzabdan danışılır.
5. İnsan qorxu və ümid arasında olmalıdır.
6. İnsan əqidə seçimində azad buraxılıb. Hətta peyğəmbərlər də xalqı məcbur etməyə vəzifəli deyil.
7. Din təbliğatçısı özünü xalqın vəkili və hamisi saymamalıdır.

**● AYƏ 55:**

﴿وَرَبُّكَ أَعْلَمُ بِمَن فِي السَّمَاوَاتِ وَالأَرْضِ وَلَقَدْ فَضَّلْنَا بَعْضَ النَّبِيِّينَ عَلَى بَعْضٍ وَآتَيْنَا دَاوُودَ زَبُورًا﴾

**“Rəbbin göylərdə və yerdə olanı daha yaxşı bilir. Əlbəttə, Biz bəzi peyğəmbərlərə başqalarından üstünlük verdik. Davuda Zəbur əta etdik.”**

**○ Nöqtələr**

● Ötən ayələrdə Allahın insanlardan xəbərdarlığı qeyd olundu. Bu ayədə isə səmada və yerdə olan bütün mövcudlardan agahlıq bəyan olunur.

● Hədisdə deyilir: Peyğəmbərlər 124 min nəfər olmuşlar. Onlardan bəziləri bütün xalqa məbus olub səmavi kitab gətirmiş, bəziləri bir məntəqə və ya qövmə göndərilərək böyük peyğəmbərin göstərişini yerinə yetirmişlər.

**● Bildirişlər**

1. Peyğəmbərlər Allahın xüsusi nəzarəti altındadırlar.
2. Aləm Allahın hüzurundadır və O hər şeydən xəbərdardır.
3. Səmada da şüurlu mövcudlar var.
4. Peyğəmbərlər arasında da mərtəbələr və üstünlüklər mövcuddur. Hətta ən üstün insanlar və müttəqilər də eyni səviyyədə deyil.
5. Allahın birini o birindən üstün etməsi Onun hər şeyi əhatə edən elminə əsaslanır.
6. Səmavi kitab peyğəmbərin üstünlük nişanəsidir.
7. Əsas üstünlük var-dövlət, vəzifə, ömrün uzunluğu deyil, elmi üstünlükdür.

**● AYƏ 56:**

﴿قُلِ ادْعُواْ الَّذِينَ زَعَمْتُم مِّن دُونِهِ فَلاَ يَمْلِكُونَ كَشْفَ الضُّرِّ عَنكُمْ وَلاَ تَحْوِيلاً﴾

**“De ki, Allahdan savay məbud saydıqlarınızı çağırın. Onlar sizin nə çətinliyinizi həll edə bilər, nə də onu dəyişməyi bacararlar.”**

**● Bildirişlər**

1. Allahdan qeyrisinin sorağınca getmək və ona ümid bağlamaq puç bir xəyaldır.

2. Təbliğdə həqiqət bəyan olunmalıdırsa da, xalqa seçim azadlığı vermək lazımdır.

3. İnsanda hansısa gücə sığınmaq meyli pərəstiş üçün əsas olur. Bütlərdə isə pərəstiş olunası güc yoxdur.

4. Allahdan qeyrisi insanın rastlaşdığı təhlükəni nə ondan uzaqlaşdıra bilər, nə dəyişə, nə də yüngülləşdirə bilər. (Allah övliyalarının şəfaətinə inam Allahın izni ilə mümkün olur və ayrıca bir məsələdir.)

**● AYƏ 57:**

﴿أُولَئِكَ الَّذِينَ يَدْعُونَ يَبْتَغُونَ إِلَى رَبِّهِمُ الْوَسِيلَةَ أَيُّهُمْ أَقْرَبُ وَيَرْجُونَ رَحْمَتَهُ وَيَخَافُونَ عَذَابَهُ إِنَّ عَذَابَ رَبِّكَ كَانَ مَحْذُورًا﴾

**“Onların çağırdıqları (İsa və ya mələklər) özləri Rəblərinə yaxınlıq üçün daha yaxın bir vasitə axtarırlar. Onun rəhmətinə ümid edir, əzabından qorxurlar. Həqiqətən, Rəbbinin əzabı həzər qılınasıdır.”**

**○ Nöqtələr**

● Ayə belə də tərcümə oluna bilər: “Xalqı haqqa dəvət edən peyğəmbərlər özləri də onları daha tez və daha çox Allaha yaxınlaşdırası vasitə sorağındadırlar. Allaha yaxın peyğəmbər belə Ona doğru daha çox can atmaqdadır.

● Bir çox rəvayətlərdə ayə ilə bağlı bildirilir ki, insanda ümid və qorxu eyni həddə olmalıdır. Əks-təqdirdə, insan ya məyus olur, ya da qürrələnir.

**● Bildirişlər**

1. Ümid və qorxu bağlılıq və zəiflik nişanəsidir. Özü vasitə sorağında olan insanı hansı əsasla vasitə seçmək olar?!

2. Allaha yaxınlıq üçün yollar və vasitələr mövcuddur.

3. Vasitə axtaran və şəfaət sorağında olan insan ilahi əzabı yaddan çıxarmamalıdır.

4. Allaha yaxınlıqda yarış və müsabiqənin dəyəri var. (Allaha daha yaxın olan kəsin yaxınlıq üçün vasitə axtarışı, səyi də çoxdur).

5. Ən üstün vasitə insanı Allaha yaxınlaşdıran vasitədir.

6. Allahın mərhəməti onun qəzəbindən öndə gəlir. (Mərhəmətə ümid əzab qorxusundan əvvəl zikr edilir.)

7. Əzab Allahın rübubiyyət şənindəndir, onunla zarafat olmaz.

● AYƏ 58:

﴿وَإِن مَّن قَرْيَةٍ إِلاَّ نَحْنُ مُهْلِكُوهَا قَبْلَ يَوْمِ الْقِيَامَةِ أَوْ مُعَذِّبُوهَا عَذَابًا شَدِيدًا كَانَ ذَلِك فِي الْكِتَابِ مَسْطُورًا﴾

**“Qiyamətdən öncə həlak edilməyən və ya şiddətli əzaba düçar olunmayan bir məntəqə yoxdur. Bu, ilahi kitabda təsbit olunmuşdur.”**

○ **Nöqtələr**

● “Qəryə” dedikdə xalqın toplaşdığı şəhər və ya kənd nəzərdə tutulur. “Əl-kitab” sözü isə “lövhi-məhfuz”, yəni toxunulmaz təqdir lövhəsi mənasını bildirir. “Əl-kitab” dedikdə ümmətlərin süqut səbəblərinin əks olunduğu Quran da nəzərdə tutula bilər.

● **Bildirişlər**

1. Dünya həyatı kimsə üçün əbədi deyil.

2. Yer üzündə həyat büsatının süqutu təsadüf deyil, ilahi qanuna əsaslanır. Fəlakətlər Allah tərəfindən öncədən təyin və qeyd olunmuşdur.

● AYƏ 59:

﴿وَمَا مَنَعَنَا أَن نُّرْسِلَ بِالآيَاتِ إِلاَّ أَن كَذَّبَ بِهَا الأَوَّلُونَ وَآتَيْنَا ثَمُودَ النَّاقَةَ مُبْصِرَةً فَظَلَمُواْ بِهَا وَمَا نُرْسِلُ بِالآيَاتِ إِلاَّ تَخْوِيفًا﴾

**“Ayə və möcüzələr göndərməyimizə yalnız keçmiş ümmətlərin təkzibi mane oldu. Biz Səmud qövmünə (düşüncələri) aydınladan dişi bir dəvə verdik. Amma ona zülm etdilər. Biz möcüzələri yalnız qorxutmaq üçün göndərərik.”**

○ **Nöqtələr**

● Bəhanəcil Məkkə kafirləri Peyğəmbərdən (s) çoxsaylı möcüzələr istədilər. Onlar hətta Məkkə dağlarının qızıla çevrilməsi arzusunda idilər. Bəzən də dağların yerinin dəyişməsini və əkin sahəsinin cücərməsini tələb edirdilər. Allah-təala buyurur ki, tarixi təcrübəyə əsasən, inadkar kafirlər bu nişanələri də görsələr, iman gətirməzlər. Yaranış nizamı inadkar insanların istəkləri əsasında dəyişməz. Əgər xalqın istəyi ilə möcüzə göstərilsə və xalq bu möcüzəyə qarşı küfr etsə, onların dünya əzabı qətiləşər.

● Dəvə adi bir heyvandır. Amma Allah Salehin dəvəsi haqqında “Allahın dəvəsi” təbirini işlədir. Çünki Allaha aid olan hər şey müqəddəsdir. Quranda hətta Əbu-Ləhəbin adına belə dəstəmazsız toxunmaq olmaz.

● **Bildirişlər**

1.Peyğəmbərlər rəngarəng möcüzələrinə baxmayaraq, inadkar insanların sıxıntısına məruz qalırdılar.

2. Allah hər işə qadirdir, amma Onun işi xalqın həvəsinə yox, hikmətə bağlıdır.

3. Müqəddəsliklərin təhqiri, möcüzələrin təkzibi ilahi qəhr-qəzəb və əzabla sonuclanır.

4. Allah tərəfindən olan və ilahi rəngə malik hər şeyə münasibət fərqlidir.

5. Möcüzələr xalqın tanınması və ona xəbərdarlıq üçündür.

● **AYƏ 60:**

﴿وَإِذْ قُلْنَا لَكَ إِنَّ رَبَّكَ أَحَاطَ بِالنَّاسِ وَمَا جَعَلْنَا الرُّؤيَا الَّتِي أَرَيْنَاكَ إِلاَّ فِتْنَةً لِّلنَّاسِ وَالشَّجَرَةَ الْمَلْعُونَةَ فِي القُرْآنِ وَنُخَوِّفُهُمْ فَمَا يَزِيدُهُمْ إِلاَّ طُغْيَانًا كَبِيرًا﴾

**“(Xatırla,) o zaman ki, sənə dedik: Həqiqətən, Rəbbin insanları əhatə etmişdir. Sənə göstərdiyimiz röyanı və Quranda lənətlənmiş ağacı xalq üçün yalnız sınaq qərar verdik. Biz insanları qorxuduruq, amma (Bizim xəbərdarlığımız) onlarda tüğyan və azğınlıqdan başqa bir şey artırmır.”**

○ **Nöqtələr**

● Ötən ayədə Salehin dəvəsinin öldürülməsindən danışıldı. Bu ayədə isə Peyğəmbər (s) Əhli-beytinin (ə) qatili olmuş məlun ağacdan söz açılır.

Rəvayətlərdə oxuyuruq ki, Əhli-beyt (ə) buyurmuşdur: “Biz Salehin dəvəsindən əskik deyilik, bizə qarşı düşmənçilik fəlakətlə sonuclanır.”[1]

● Quranda İslam Peyğəmbərinin (s) bir neçə yuxusuna işarə olunur: Bədr döyüşü astanasında röyada Allah düşmənləri Peyğəmbərə (s) azsaylı göstərildi.[2] Digər bir röyada həzrət Məscidül-Harama qalib halda daxil olduğunu gördü.[3] Başqa bir yuxu isə bu ayədə bəyan olunur. Əvvəlki iki yuxu hicrətdən sonra Mədinədə gerçəkləşmişdi. Bu yuxu isə Məkkə dövrünə aiddir. Bəziləri bildirirlər ki, bu röya meracla bağlıdır. Halbuki merac gerçəkdə baş vermişdir, röya isə yuxuda görülənlərdir.

Həmin yuxu və lənətlənmiş ağac bir-birindən ayrı deyil. Çünki hər ikisinin nəticəsi eynidir və bu nəticə xalq üçün fitnədən ibarətdir. Allah lənətlənmiş ağac və onların əməllərini Peyğəmbərə (s) yuxuda göstərdi. Bildirildi ki, bu,

---

[1] “Bihar”, c. 28, s. 206; c. 50, s. 192
[2] Bax: “Ənfal”, 43
[3] Bax: “Fəth”, 27

ümmətinin fitnə səbəbidir. “Rəbbin insanları əhatə edir” cümləsi ilə Peyğəmbərə (s) təsəlli verildi.

● “Şəcərə” həm ağac, həm də budağı olan hər hansı gövdə mənasını bildirir. Bu səbəbdən qəbilə, tayfa da şəcərə adlanır. Həzrət Peyğəmbər (s) buyurur: “Mən və Əli bir şəcərəyik.”[1] Əsil-nəsil silsiləsi də “şəcərənamə” adlanır. Deməк, lənətlənmiş şəcərə (ağac) dedikdə, lənətlənmiş qövm nəzərdə tutulur.

● Ayənin sonunda deyilir ki, lənətlənmiş ağacla bağlı ilahi xəbərdarlıq düşmənlərin yalnız tüğyanını artırdı. “Tuğyanən kəbira” təbiri yalnız bu ayədə işlədilmişdir. Demək, bir lənətlənmiş ağacdan, qövmdən danışılır. Bu qövm zahirən müsəlman olsa da, daxilən münafiqdir və xalq arasında fitnəyə səbəb olur.

Quranda bir çox işlər lənətlənmişdir. Məsələn, İblis, yəhudilər, münafiqlər, müşriklər, haqqı gizlədən alimlər, Peyğəmbərə (s) əziyyət verənlər. Amma yalnız münafiqlər müsəlmanlarladır və onlar arasında fitnə törədirlər. İblis, kitab əhli və müşriklərin siması aydındır. Yalnız münafiqlər müsəlman qiyafəsində fitnə axtarırlar.[2]

● Bəziləri elə düşünürlər ki, lənətlənmiş ağac dedikdə, ilahi əzab vasitəsi olan Zəqqum ağacına işarə olunmuşdur. Amma əzab vasitəsi olan başqa amillər də var və bu səciyyə lənətlənmə göstəricisidir. Fironun qərq olduğu Nil çayı, yolunu azmış qövmlərə əzab gətirən mələklər, Allahın qüdrəti ilə kafirləri məhv edən möminlər misal göstərilə bilər.[3]

● Əllamə Təbatəbai “Qədr” surəsi ilə bağlı rəvayətlərdən danışarkən Xətib Bağdadi, Termizi, İbn Cübeyr, Təbərani, Beyhəqi, İbn Mərdəvey kimi sünni, “Kafi” kitabının sahibi Kuleyni kimi şiə alimlərindən belə nəql edir: Həzrət Peyğəmbər (s) yuxuda öz minbərindən meymunların yuxarı qalxdığını görüb çox qəmgin oldu. Cəbrail nazil oldu. Həzrət öz yuxusunu ona danışdı. Cəbrail səmaya qalxıb çox keçməmiş qayıtdı və özü ilə bu ayələri gətirdi: “Görmürsənmi, əgər onlara illər uzunu bəhrə versək, sonra vəd olunmuş əzab soraqlarınca gəlsə, dünyadan aldıqları bəhrənin heç bir faydası olmayacaq.”[4] Bu röya həm də “Qədr” surəsinin nazil olma səbəblərindəndir. Peyğəmbərə (s) təsəlli verildi ki, əgər Bəni-Üməyyənin hakimiyyəti min il çəkərsə, əvəzində sənə min aydan üstün qədr gecəsi əta etdik.

Peyğəmbərin (s) yuxuda meymunları görməsi, onların Peyğəmbərin (s) minbəri ilə yuxarı qalxaraq hakimiyyəti ələ keçirmələri məsələsi imam Baqir

---

[1] “Bihar”, c. 38, s. 309
[2] Ayə ilə bağlı əsaslı baxış “Əl-Mizan” təfsirindədir.
[3] Bax: “Tövbə”, 14
[4] “Şüəra”, 205-207

(ə) və imam Sadiqdən (ə) də nəql olunmuşdur.[1] Şiə və sünni təfsirçiləri bildirirlər ki, lənətlənmiş ağac (şəcərə) dedikdə Bəni-Üməyyə tayfası nəzərdə tutulmuşdur. İmam Səccad (ə) buyurur: "Cəbrail meymunları Bəni-Üməyyə kimi yozdu. Peyğəmbər (s) soruşdu: "Bu hadisə mənim dövrümdəmi baş verəcək?" Cəbrail cavab verdi: "Xeyr, sənin hicrətindən qırx il sonra!"[2]

Bəni-Üməyyə arasında ən böyük tüğyan qoparmış, Kərbəla hadisəsini vücuda gətirmiş şəxs Yezid idi. Bu faciə tarixin ən böyük faciəsidir.

**● Bildirişlər**

1. Allah bəzən yuxu vasitəsi ilə müəyyən həqiqətləri peyğəmbərlərə və başqalarına ilham edir.
2. İstənilən bir hadisə, hətta yuxu yozumu xalq üçün sınaq ola bilər.
3. Lənətlənmiş ağac dedikdə azğınlıq səbəbi olan qəbilə və dəstələr nəzərdə tutulur.
4. Xalqa, hətta lənətlənmiş qəbilələrə xəbərdarlıq ilahi sünnələrdəndir.
5. Təəssübkeş inadkarların qəlbinə xəbərdarlıqlar təsir göstərmir. Dəmir mıx daşa yeriməz.

**● AYƏ 61:**

﴿وَإِذْ قُلْنَا لِلْمَلآئِكَةِ اسْجُدُواْ لآدَمَ فَسَجَدُواْ إَلاَّ إِبْلِيسَ قَالَ أَأَسْجُدُ لِمَنْ خَلَقْتَ طِينًا﴾

**"Xatırla, bir vaxt mələklərə dedik: "Adəm üçün səcdə edin." Səcdə etdilər. Yalnız İblis səcdə etməyib dedi: "Gildən yaranmış bir kəs üçünmü səcdə edim?!"**

**○ Nöqtələr**

● Quranda mələklərin səcdəsinə və İblisin səcdədən boyun qaçırmasına dəfələrlə işarə olunmuşdur.

● İblis cin tayfasındandır.[3] Onun qoşunu var.[4] Onun qoşunu süvari və piyadalardan ibarətdir.[5] Onun azğınlığının, səcdə etməməsinin səbəbi torpaqla odu müqayisə etməsi oldu.[6]

**● Bildirişlər**

1. Allahın əmri əsasında Allahdan qeyrisinə səcdənin eybi yoxdur.

---

[1] "Təfsiri-Tibyan"
[2] "Təfsiri-Lahici"
[3] Bax: "Kəhf", 50
[4] Bax: "Şüəra", 95
[5] Bax: "İsra", 64
[6] Bax: "Əraf", 12

2. İnsan mövcudlar çələnginin çiçəyidir. Məsum mələklər də onun qarşısında səcdə etdilər.

3. Mələklər Allahın əmrinə təslimdir.

4. Xəyali üstünlüklərə etiqad şeytanın işidir. Çünki şeytan öz növünün üstünlüyünü iddia edirdi.

5. Allahın hikmətinə, ədalətinə və əmrinə etiraz səcdə etməməkdən də pisdir.

6. İblis ölçü aparan və azad buraxılmış bir mövcuddur.

7. Allahın əmri qarşısında ictihad (araşdırma aparmaq) qadağandır. (İblis Allahın hökmünə münasibətdə ictihad etdi.)

8. Bəzən günahın kökü özünəvurğunluq olur.

9. İblisin həsədi onun gözünü bağladı, o, insandakı ilahi ruhu yox, torpaq bədəni gördü.[1]

10. İblisə elə gəlir ki, dəyərləndirmə meyarı maddi səciyyələrdir.

**● AYƏ 62:**

﴾قَالَ أَرَأَيْتَكَ هَذَا الَّذِي كَرَّمْتَ عَلَيَّ لَئِنْ أَخَّرْتَنِ إِلَى يَوْمِ الْقِيَامَةِ لأَحْتَنِكَنَّ ذُرِّيَّتَهُ إَلاَّ قَلِيلاً﴿

**“İblis dedi: “De görüm, məndən əziz tutduğun kəs budurmu? Əgər qiyamətə qədər mənə möhlət versən, şübhəsiz, az bir qismi istisna olmaqla onun nəslini cilovlayıb, hökmüm altına çəkərəm.”**

**○ Nöqtələr**

● “Ərəaytə” sözü “mənə xəbər ver” mənasını, “Əhtənikənnə” isə “hənək” sözündən olub heyvanı çəkmək üçün onun boynuna atılan ipi bildirir. “İhtinak” sözü kökdən qoparmaq və tam hakim olmaq mənasını verir.[2]

**● Bildirişlər**

1. Özünəpərəstiş insanı Allah qarşısında tüğyana sövq edir.

2. Var-dövlət və məqama əsir olmamaq ən çətin imtahanlardandır. (Böyük şəxsiyyətlər bildirirlər ki, insanın özünütərbiyəsində qurtulmalı son şey cah-cəlal və məqamdır.)

3. İblis həm qiyamətdən xəbərdar idi, həm də qiyamətin bərpasına inanırdı.

4. Həsəd tədricən kin-küdurətə və başqalarına qarşı müxalifliyə çevrilir.

5. Bir qisim həsəd və kin-küdurət gələcək nəsilləri də əhatə edir.

---

[1] Bax: “Hicr”, 29

[2] “Müfrədati-Rağib”

6. İnsan şeytani vəsvəsələr qarşısında azad buraxılıb və onun seçim imkanı var.

7. İnsanların bəziləri İblisin əsarətindən amandadırlar.

**● AYƏ 63:**

﴿قَالَ اذْهَبْ فَمَن تَبِعَكَ مِنْهُمْ فَإِنَّ جَهَنَّمَ جَزَآؤُكُمْ جَزَاء مَّوْفُورًا﴾

**«(Allah İblisə) dedi: "Get! İnsanlardan kim sənə tabe olsa, cəzanız cəhənnəmdir, kamil bir cəza!"**

**● Bildirişlər**

1. Allah İblisin möhlət istəyini qəbul etdi.
2. İnsan Allah yolunu və ya şeytana itaət yolunu seçməkdə azad buraxılıb.
3. İblis və ardıcıllarının yeri cəhənnəmdir.
4. Allahın cəzası kamildir. Günahkarlar həm öz günahlarının, həm də azdırdıqları insanların günahlarının cəzasını çəkərlər.

**● AYƏ 64:**

﴿وَاسْتَفْزِزْ مَنِ اسْتَطَعْتَ مِنْهُمْ بِصَوْتِكَ وَأَجْلِبْ عَلَيْهِم بِخَيْلِكَ وَرَجِلِكَ وَشَارِكْهُمْ فِي الأَمْوَالِ وَالأَوْلادِ وَعِدْهُمْ وَمَا يَعِدُهُمُ الشَّيْطَانُ إِلاَّ غُرُورًا﴾

**"(Ey şeytan,) insanlardan bacardığını öz səsinlə büdrət, süvari və piyada qüvvələrini onların ziddinə qaldır. Onların mallarına və övladlarına şərik ol, onlara vəd ver. Şeytan onlara yalandan başqa bir vəd vermir."**

**○ Nöqtələr**

● "İstifzaz" dedikdə sürətlə büdrətmək və ya sürüşdürmək, cəldlik və təkan vurmaq mənaları başa düşülür.

● İblis insanı aldatmaq üçün yalnız bir qapıdan daxil olmur. O, təbliğatlar, vədlər, arzular, vəsvəsələr, yaxınlıqlar vasitəsi ilə piyada və süvari halda insanı mühasirəyə alır. Bu arada bir dəstə insan ona qoşulur.

● Nə danışdığından və ya haqqında nə danışıldığından qorxmayan, istənilən bir işə əl atıb açıq və ya gizli şəkildə günah edən kəs şeytana şərikdir.[1] Eləcə də haram tikə, haram yemək, zina, pis övlad və nəsil tərbiyə etmək şeytana şəriklik hallarındandır.[2]

---

[1] "Təfsiri-Nurus-Səqəleyn"

[2] "Bihar", c. 101, s. 136

● Qeyri-sağlam istehsal və istehlak, ölü kapital toplamaq, xarici şirkət və müəssisələrin investisiyası, xaricilərin elmi-mədəni mərkəzlər təşkil etməsi, beynəlmiləl müsabiqələr bir növ şeytanın iştirakı ilə keçirilir.

**● Bildirişlər**

1. İblisin qüdrəti məhduddur.

2. Xalqın yolunu azmasında puç təbliğatın rolu var.

3. Düşmənin təbliğat və ideoloji hücumları hərbi hücumlardan təhlükəlidir. Ayədə öncə çağırış, sonra güc vasitəsi xatırlanır.

Şeytan öncə təbliğatla insandakı tövhid, təkallahçılıq amilini aradan götürür, sonra silah çəkib hücuma keçir.

4. İblisin həm özü, həm də qoşunu azğınlığa aparır.

5. Şeytanın qaydası pusquda oturmaq, cəzb edib oğurlamaqdır.

6. İblisin iştirakı mal və övladdan başlayır, haram və şübhəli tikə, zinayadək davam edir.

7. Allah bəzən insana lütf yox, bir növ qəzəb olaraq ixtiyar verir.

8. İnsanın arzuları şeytanın nüfuzu üçün zəmindir. Şeytan boş vədləri ilə bu arzuları gücləndirir.

9. Şeytan yalandan əlavə, günaha don geydirir, şəfaət vədi verərək tövbəni təxirə salır.

**● AYƏ 65:**

﴿إِنَّ عِبَادِي لَيْسَ لَكَ عَلَيْهِمْ سُلْطَانٌ وَكَفَى بِرَبِّكَ وَكِيلاً﴾

**“Həqiqətən, Mənim (xalis) bəndələrim üzərində sənin hökmün yoxdur. Rəbbinin (onlara) vəkil olması yetər.”**

**○ Nöqtələr**

● Bütün insanlar Allahın bəndəsi olsa da, Allah bəzi bəndələrinə hörmət olaraq onları Özünə aid edir. Belə bir halla başqa mövcudlara münasibətdə də rastlaşırıq.

● Digər bir ayədə Allahın bəndələri iman və təvəkkül kimi səciyyələrlə tanıtdırılır. Belələri üzərində şeytanın hökmü yoxdur.[1] Əlbəttə ki, şeytan onlara da vəsvəsə edir, yaxınlaşır. Amma onlar xəbərdar olub müqavimət göstərirlər.[2]

Hədisdə deyilir: “Azan və namaz şeytanı qovma amilidir.”[3]

**● Bildirişlər**

1. Allahın həqiqi bəndələri azdır. 62-ci ayədə oxuduq ki, İblis deyir: “Az bir hissə istisna olmaqla, bütün xalqı azdıraram.”

---

[1] Bax: “Nəhl”, 99

[2] Bax: “Əraf”, 201

[3] “Bihar”, c. 63, s. 268; c. 53, s. 182

2. Allaha bəndəlik insanı İblisin təbliğ və hücumlarından qoruyur. Bəli, sonsuz qüdrətə sığınanlara nüfuz yolu yoxdur.

3. İnsan azad buraxılıb. O, İblisin hücumları qarşısında iman və bəndəliyə sığınmaqla müqavimət göstərə bilər.

4. Allah Ona bəndə olan kəsin vəkili, qoruyanı və hamisidir.

5. Peyğəmbər (s) Allahın xüsusi himayəsində olduğundan şeytanın nüfuzundan amandadır.

● **AYƏ 66:**

﴿رَّبُّكُمُ الَّذِي يُزْجِي لَكُمُ الْفُلْكَ فِي الْبَحْرِ لِتَبْتَغُواْ مِن فَضْلِهِ إِنَّهُ كَانَ بِكُمْ رَحِيمًا﴾

**“Sizin Rəbbiniz öz səyinizlə Onun fəzl və rəhmətindən bəhrələnmək üçün gəmiləri dəryada hərəkətə gətirən kəsdir. Əlbəttə, O sizə daim mehribandır.”**

○ **Nöqtələr**

● Dəniz yolları ucuzluq, həmişəlik, ümumilik baxımından sərnişin və yüklərin daşınmasında mühüm rola malikdir. Yük və müsafir daşınmasında, balıqçılıqda gəmiçiliyin böyük faydaları var. Dəniz oksigen, buxar, bulud və yağışın yaranmasında, balıqçılıqda, qidalanmada, nəbatat və heyvanat aləminin əlvanlığında xüsusi rola malikdir. “Coşən kəbir” duasında dənizin qəribəliklərinə işarə olunur.

● **Bildirişlər**

1. İnsanın maddi ehtiyaclarının təmini ümumi təminatda ilahi qüdrət nişanəsidir.

2. İmkan və fəzl Allahdan, iş və səy isə bizdəndir.

3. Dənizdən əldə etdiyimiz nemətlər Allahın fəzlidir.

4. Allahın rübubiyyəti Onun daimi rəhməti ilə müşayiət olunur.

● **AYƏ 67:**

﴿وَإِذَا مَسَّكُمُ الْضُّرُّ فِي الْبَحْرِ ضَلَّ مَن تَدْعُونَ إِلاَّ إِيَّاهُ فَلَمَّا نَجَّاكُمْ إِلَى الْبَرِّ أَعْرَضْتُمْ وَكَانَ الإِنْسَانُ كَفُورًا﴾

**“Əgər dənizdə bir çətinliyə düçar olsanız, Allahdan qeyri çağırdıqlarınız məhv olub itər. Elə ki, (Allah) sizə nicat verib quruya çatdırdı, Ondan üz döndərərsiniz. İnsan çox nankordur.”**

○ **Nöqtələr**

● Tövhidin fitri olma dəlillərindən biri budur ki, insan çətinliyə düşüb hər şeydən əlini üzdüyü vaxt qeybi bir nöqtəyə üz tutur, ondan kömək gözləyir.

● Kafir bir şəxs imam Sadiqdən (ə) Allahın varlığına dəlil istədi. Həzrət soruşdu: "Bu vaxtadək hadisə ilə üzləşmiş bir gəmiyə süvar olmusanmı?" Həmin şəxs dedi: "Bəli, bir dəfə dəniz səfərində gəmimiz zədələnib batdı və mən bir taxta parçasından yapışdım." İmam buyurdu: "Həmin vaxt qəlbində səni xilas edəsi qeybi bir güc haqqında düşünürdünmü?" Dedi: "Bəli." İmam buyurdu: "Həmin qeybi qüdrət Allahdır."

● **Bildirişlər**

1. Mövsümi, müvəqqəti iman və tövbə dəyərsizdir.
2. Təhlükə girdabında insan təkallahçı olur, zahiri və xəyali vasitələrin yetərsizliyi üzə çıxır.
3. Maddi vasitələrdən uzaqlıq həqiqətlərin ən üstün dərk amilidir.
4. Allahdan savay bütün məbudlar puç olasıdır.
5. Xalisanə (ixlaslı, səmimi) dua qəbuldur.
6. Asayiş, əmin-amanlıq qəflət amilidir.
7. Dünya cazibələri o qədər aldadıcıdır ki, insan təhlükədən qurtardıqdan bir saat sonra hər şeyi unudur.
8. Qurtuluşdan sonra Allahı unutmaq kafirlərin aşkar sifətlərindəndir.

● AYƏ **68:**

﴿أَفَأَمِنتُمْ أَن يَخْسِفَ بِكُمْ جَانِبَ الْبَرِّ أَوْ يُرْسِلَ عَلَيْكُمْ حَاصِبًا ثُمَّ لاَ تَجِدُواْ لَكُمْ وَكِيلاً﴾

**"Arxayınsınızmı ki, sizi (Öz qəhr-qəzəbi ilə) quruda yerə batırmaz və ya üstünüzə daş yağdırmaz?! Sonra özünüz üçün bir qoruyan taparsınızmı?"**

○ **Nöqtələr**

● Keçmiş qövmlər müxtəlif şəkillərdə məhv edilmişdir. Allah təcavüzkarlar və düşmənlərdən bəzilərini yerə batırmış, bəzilərini dənizdə qərq etmiş, bəzilərinin başına daş yağdırmış və ya şimşəklə külə döndərmişdir. Bir sözlə, Allah istədiyi vaxt kafirləri məhv etməyə qadirdir. Əgər bu gün sizi dənizdən sahilə salamat çıxarmışsa, düşünməyin ki, başqa bir əzabdan amandasınız və cəzalandırıla bilməzsiniz!

● **Bildirişlər**

1. İlahi nemətlər bizi qürrələndirməsin. Bir hadisədən qurtarmaq, əbədi qurtuluş deyil. Başqa bir vaxtda insan başqa bir müsibətə düçar ola bilər.

2. Cəzadan uzaqlıq və asayiş hissi insanda qəflət və təcavüz üçün zəmin yaradır.

3. İnsan istənilən bir anda və istənilən bir yerdə Allahın qüdrət əli altındadır. Allahın qəhr-qəzəbi üçün quru ilə dəniz, yaxın ilə uzaq arasında fərq yoxdur.

4. Allahın qəhr-qəzəbi qarşısında heç bir sığınacaq yoxdur.

● AYƏ 69:

﴿أَمْ أَمِنتُمْ أَن يُعِيدَكُمْ فِيهِ تَارَةً أُخْرَى فَيُرْسِلَ عَلَيْكُمْ قَاصِفا مِّنَ الرِّيحِ فَيُغْرِقَكُم بِمَا كَفَرْتُمْ ثُمَّ لاَ تَجِدُواْ لَكُمْ عَلَيْنَا بِهِ تَبِيعًا﴾

**“Yoxsa əmin olmusunuz ki, Allah ikinci dəfə sizi dəryaya aparmaz, məhvedici tufana salmaz, küfrünüzə görə qərq etməz?! Həmin vaxt qəhrimiz qarşısında özünüzə görə heç bir tələbkar tapmazsınız.”**

○ **Nöqtələr**

● Quruda baş verən tufan “hasib”, dənizdə baş verən tufan “qasif” adlanır. Ayənin sonundakı “təbia” sözü “təbə” sözündən olub, bir şəxsin qanbahasını və intiqamını tələb edən kəs mənasını bildirir.

● **Bildirişlər**

1. Müvəqqəti asayiş bizi qürrələndirməsin. İnsan üçün daim təhlükə qorxusu var. Bir çətinlikdən qurtarmışıqsa, bu, birdəfəlik qurtuluş deyil.

2. Bəzi nankorluqlara görə elə dünyada cəza verilir.

3. Qurtuluşdan sonra Allahı unutmaq küfr və nankorluğun nümunəsidir.

4. İnsanın həlakolma və bədbəxtlik amili onun küfrə meyli və öz əməlləridir.

5. Allah qarşısında heç bir qüdrət dayana bilməz. Allah kimsə qarşısında məsuliyyət daşımır.

● AYƏ 70:

﴿وَلَقَدْ كَرَّمْنَا بَنِي آدَمَ وَحَمَلْنَاهُمْ فِي الْبَرِّ وَالْبَحْرِ وَرَزَقْنَاهُم مِّنَ الطَّيِّبَاتِ وَفَضَّلْنَاهُمْ عَلَى كَثِيرٍ مِّمَّنْ خَلَقْنَا تَفْضِيلاً﴾

**“Həqiqətən, Adəm övladlarını möhtərəm tutduq. Onları quru və dənizdə (miniklərlə) apardıq, pak-pakizə şeylərdən onlara ruzi verdik, onları bir çox məxluqlarımızdan üstün etdik.”**

○ **Nöqtələr**

● İnsan bəzən öz qazancı ilə, bəzən də yaranış baxımından üstün, kəramətli ola bilər.[1] Məsələn, təqva əhli çalışmaqla kəramət və üstünlük əldə edir. Ayədə güman ki, ikinci növ kəramət və üstünlük nəzərdə tutulmuşdur. İnsan yaddaş, ağıl və istedad kimi üstünlüklərlə yanaşı, səmavi qanunlar, məsum rəhbərlər kimi imtiyazlara malikdir, onun üçün mələklər səcdəyə düşmüşdür.

● İnsan mələkdən üstündür. Çünki:

a) Mələklər insana səcdə etdi;

b) Mələkdə təkcə ağıl qüvvəsi var, insanda isə həm ağıl, həm də şəhvət qüvvələri mövcuddur. Ağılı şəhvətinə qalib gələn insan mələkdən üstün olur;

c) Merac gecəsində Cəbrail Peyğəmbərə (s) dedi: "Sən imam dayan, mən iqtida edim. Çünki Allah sizi bizdən üstün yaratmışdır."[2]

● Allah insanı bütün mövcudlardan, hətta mələklərdən üstün yaratsa da, insan öz yanlış seçimi ilə ən alçaq dərəcəyə enə bilər.[3] İnsanın heyvandan da alçaq mərtəbəyə düşməsi mümkündür.[4]

● Ayədə insanın kəramət və fəzilətindən danışılır. Kəramət və fəzilət arasında müəyyən fərqlər ola bilər:

a) Kəramət başqalarında olmayan imtiyazdır. Fəzilət isə başqalarında da ola bilər.

b) Kəramət səy göstərmədiyi halda insana Allah tərəfindən əta olunmuş nemətdir. Fəzilət isə şəxsi səy və ilahi tovfiqlə əldə olunur.

c) Kəramət maddi, fəzilət isə mənəvi nemətlərə aiddir.

● Səfər bəşər həyatının zərurətlərindəndir. İnsan səfərə çıxmaqla ehtiyaclarını aradan qaldırır, təcrübə qazanır. Allah səfər üçün quru və dənizdə vasitələr qərar vermişdir. Bu da ilahi nemətlərdən sayılır.

● Bəzi təfsirçilərin nəzərincə, "quru və dənizdə daşınma" dedikdə bütün quru və dəniz qüvvələrinin insanın ixtiyarına verilməsi nəzərdə tutulur. Söhbət təkcə gəmi və ulaq kimi vasitələrə süvar olmaqdan getmir.

● "Təyyibat" (pak-pakizə şeylər) dedikdə təyyibə (pakizə) həyat, övlad, ruzi nəzərdə tutula bilər. İmam Baqir (ə) buyurur: "Pakizə ruzi dedikdə faydalı elm nəzərdə tutulur."[5]

● **Bildirişlər**

1. İnsanın öz məqam və kəramətinə diqqəti onun şükrü və nankorluqdan uzaqlığı üçün səbəbdir.

---

[1] Bax: "Hucurat", 13; "Tin", 4
[2] "Təfsiri-Nurus-Səqəleyn"
[3] Bax: "Tin", 5
[4] Bax: "Cumuə", 5; "Əraf", 176; "Əraf", 179; "Bəqərə", 74
[5] "Təfsiri-Kənzud-dəqaiq"

2. Təkcə həzrət Adəm yox, bütün insan nəsli kəramət, üstünlük və əzizlik səviyyəsinə malikdir.

3. İnsanın digər canlılardan böyük fərqi və üstünlüyü var.

4. İnsanın inkişaf və kamal zəmini Allah tərəfindəndir.

● **AYƏ 71:**

﴿يَوْمَ نَدْعُو كُلَّ أُنَاسٍ بِإِمَامِهِمْ فَمَنْ أُوتِيَ كِتَابَهُ بِيَمِينِهِ فَأُوْلَئِكَ يَقْرَؤُونَ كِتَابَهُمْ وَلاَ يُظْلَمُونَ فَتِيلاً﴾

**“Hər bir dəstəni imamı (rəhbəri) ilə çağıracağımız gün hər kəsin əməl naməsi sağ əlinə verilsə, onlar öz namələrini oxuyub şad olarlar. Onlara xurma sapı qədər də zülm olunmaz.”**

○ **Nöqtələr**

● “Qətil” dedikdə xurma dəninin çatındakı nazik sap başa düşülür. “Qətil”, istənilən az, kiçik və zəif şeyə işarə ola bilər.

● Quranda iki rəhbərin adı çəkilir: nur və hidayət imamı[1]; od və zəlalət imamı[2]. İkinci dəstədən olan rəhbərlər xalqı zor, hədə, tamahlandırma, alçaltma vasitəsi ilə özlərinə itaətə məcbur edirlər.

● Əbu Bəsir imam Sadiqə (ə) deyir: “Şəhadət verirəm ki, sən mənim imamımsan.” İmam buyurur: “Qiyamətdə hər bir dəstə öz imamı ilə məşhur olar. Günəşpərəstlər günəşlə, aypərəstlər ayla səhnəyə gətirilər.”[3]

● **Bildirişlər**

1. Qiyaməti yaddan çıxarmayaq.
2. Qiyamətdə insanlar öz rəhbərlərinə uyğun olaraq bölünər.
3. İnsan özündən asılı olmayaraq nümunə, ideal və rəhbər seçir.
4. Müsəlmanlar rəhbər məsələsinə münasibətdə biganə qalmamalıdırlar. Çünki qiyamətdə insan öz rəhbəri ilə məşhur olur.
5. Rəhbər seçimi və ona itaət məsələsinin təsirləri qiyamətdə davam edir.
6. Qiyamət təkcə fərdlərin mühakiməsi deyil. Qiyamətdə ümmətlər, millətlər, partiyalar, əqidə məktəbləri və hökumətlər də mühakimə olunar.

---

[1] Bax: “Ənbiya”, 73
[2] Bax: “Qəsəs”, 41
[3] “Təfsiri-Nurus-Səqəleyn”

7. İmamət və vilayət sırf etiqadi və həyat haşiyəsində yox, həyat mətnində əsas yerdə duran məsələdir. Rəhbərlik məsələsi insanların səadət və bədbəxtliyində həlledici amildir.

8. Qiyamətdə xeyir əməl sahibləri öz əməl namələrini oxuyub şad olarlar. Onlar bir-birlərini səsləyib öz namələrini göstərərlər.[1]

9. İnsan öz əməllərini yazılı şəkildə əlinə alasıdır.

10. İnsan qiyamətdə yazılı dəlil-sübutlar əsasında mühakimə olunar.

11. Qiyamətin mükafat və cəzası sırf ədalət əsasındadır.

## ● AYƏ 72:

﴿وَمَن كَانَ فِي هَـٰذِهِ أَعْمَى فَهُوَ فِي الآخِرَةِ أَعْمَى وَأَضَلُّ سَبِيلاً﴾

**"Dünyada qəlbikor və azğın olan hər kəs axirətdə də kor və azğın olacaq."**

### ○ Nöqtələr

● Qiyamətdə ağzı möhürlənmiş lallarla yanaşı səhnəyə korlar da gətirilər. Onların korluğunun kökü dünyada qəlbikor olmalarıdır.

● Rəvayətdə deyilir ki, həcc vacib olduğu halda həccə getməyən və ya Quran oxuyub ona əməl etməyən kəs qiyamət səhnəsinə kor gətirilər.[2]

● Qəlbikorluq gözükorluqdan da pisdir. Həzrət Əli (ə) buyurur: "Ən pis korluq qəlbikorluqdur." Həzrət başqa bir məqamda buyurur: "Bizim fəzilətlərimizi görməyə gözü olmayan kəs ən pis və şiddətli kordur."[3]

● Qiyamətdə korluq məsələsinə digər ayələrdə də toxunulmuşdur.[4] "Taha" surəsinin 125-ci ayəsində dünyada qəlbikorluq, ilahi ayələrin unudulması və haqdan üz döndərmək qiyamət korluğunun səbəbləri kimi göstərilir.

● **Sual:** Ayələrdə günahkara "kitabını (əməl naməni) oxu" deyə müraciət olunar. Məgər bu qiyamət korluğu məsələsinə zidd deyilmi?

**Cavab:** Korluq qiyamətin bir dayanacağına aiddir. İnsan digər dayanacaqlarda görür, dünyada tanımadığı həqiqətləri aşkar müşahidə edir.

● İmam Baqir (ə) buyurur: "Varlıq aləminin müşahidəsindən mənəvi bəhrə götürməyən kəs görmədiyi axirətə münasibətdə qəlbikordur."[5]

---

[1] Bax: "Haqqə", 19
[2] "Təfsiri-Kənzud-Dəqaiq"
[3] "Təfsiri-Kənzud-Dəqaiq"
[4] Bax: "İsra", 97
[5] "Tövhidi-Səduq", s. 455

● **Bildirişlər**

1. İnsanın axirət şəxsiyyəti onun dünya şəxsiyyətinin təcəssümüdür. Dünyadakı bəsirət axirətdə bəsirətlə nəticələnir. Dünyadakı korluq axirət korluğu ilə sonuclanır.

● **AYƏ 73:**

﴿وَإِن كَادُواْ لَيَفْتِنُونَكَ عَنِ الَّذِي أَوْحَيْنَا إِلَيْكَ لِتفْتَرِيَ عَلَيْنَا غَيْرَهُ وَإِذًا لاَّتَّخَذُوكَ خَلِيلاً﴾

**“Az qalmışdı ki, səni vəhy etdiyimizdən xəbərsiz qoyalar, vəhydən qeyri bir şeyi Bizə aid edəsən və həmin vaxt səni özlərinə dost tutalar.”**

○ **Nöqtələr**

● Rəvayətdə oxuyuruq ki, müşriklər İslam Peyğəmbərindən (s) bütlərə hörmət göstərməsini və ya bütpərəstliyin davamı üçün möhlət verməsini istəyirdilər. Peyğəmbər (s) bu təklifi qəbul etmək haqqında düşündüyü vaxt Allah onu hifz etdi... Amma bu qəbildən olan rəvayətlər qəbuledilməzdir, Peyğəmbərin (s) Quran ayələrində təsdiqlənən paklıq və qətiyyəti ilə bir araya sığmır.[1]

● “Ətyəbul-bəyan” təfsirində deyilir: ayədəki “səni vəhy etdiyimiz” təbirindən aydın olur ki, kafirlər Peyğəmbərin (s) diqqətini vəhydən yox, hansısa şəxsdən yayındırmaq istəmişlər. Bəs haqqında vəhy nazil olmuş bu şəxs kimdir?

İmam Baqir (ə) və imam Kazimdən (ə) nəql olunmuş hədisdə bildirilir ki, bu şəxs Həzrət Əlidir (ə). Allah onun vilayəti haqqında vəhy yolu ilə Peyğəmbərə (s) tapşırıq vermişdir. Allah Peyğəmbərin (s) xalqın həsədinə, inkarına və dözümsüzlüyünə biganə qalması üçün bu ayəni nazil etdi və kafirlərin səyləri səmərəsiz qaldı.

“Əlləzi” (o şey ki) sözünə əsasən uyğun hədis qəbul oluna bilər. Bir şərtlə ki, həzrət Əlinin (ə) Məkkədə tanıtdırılması nəzərdə tutulmuş olsun. Çünki surə Məkkə surəsidir.

● **Bildirişlər**

1. Kafirlər peyğəmbərləri də öz tərəflərinə keçirmək üçün plan cızırlar.

2. Din rəhbərləri düşmənin qurğularına diqqətli olmalıdırlar. Onlar din rəhbərlərində süstlük yaratmağa, onların mövqeyini dəyişməyə çalışırlar.

3. Hansısa fərdlər və ölkələrlə dostluq əqidə və müqəddəsliklərə göz yummaq bahasına başa gəlirsə, səmərəsizdir.

---

[1] “Təfsiri-Əl-Mizan”

4. Nə qədər ki, müsəlmanlar öz əqidə və ayinlərindən əl çəkməyiblər, kafirlər və düşmənlər onlara həqiqi dost olmayacaqlar. Düşmən aza qane olmur, sizi əqidənizdən döndərmək istəyir.[1]

● AYƏ 74:

﴿وَلَوْلاَ أَن ثَبَّتْنَاكَ لَقَدْ كِدتَّ تَرْكَنُ إِلَيْهِمْ شَيْئًا قَلِيلاً﴾

**“Əgər Biz səni sabitqədəm etməsəydik, hər vaxt onlara meyl etməyə yaxın idin.”**

○ **Nöqtələr**

● Bu ayənin Peyğəmbərin (s) məsumluğu ilə heç bir ziddiyyəti yoxdur. “Meyl etməyə yaxın idin” cümləsi günah etmək mənasını bildirmir. “Əgər sabitqədəm etməsəydik” cümləsi şərtidir. Yəni himayə etməsəydik, ola bilsin ki, meyl edərdin. Amma Peyğəmbər (s) daim himayə olunduğundan onun düşmənə meyli mümkünsüz idi. Digər hallarda da “əgər” sözü bir işin qəti yerinə yetməsini göstərmir. Məsələn, ayələrdən birində buyurulur: “Əgər Bizə yalan söz aid etsən, şah damarını qət edərik.”[2] Başqa bir ayədə oxuyuruq: “Əgər şirk etsən, əməllərin puça çıxar.”[3]

Şərt şəklində bəyan olunmuş bu cümlələr işin baş verməsini göstərmir.

İmam Riza (ə) buyurur: “Bu ayə «qızım sənə deyirəm, gəlinim sən eşit» prinsipinə əsaslanıb.”[4] Əslində ayədə şəxsən Peyğəmbərə (s) yox, müsəlmanlara xitab olunur.

● **Bildirişlər**

1. Əgər Allahın lütf və himayəsi olmasa, peyğəmbərlərin məsumluğuna zəmanət yoxdur.

2. Düşmənlər və kafirlər qarşısında qətiyyət və dəyişməzlik peyğəmbərlərin imtiyazlarındandır.

3. Allah peyğəmbərləri məsum saxlayır.

4. Etiqadi məsələlərdə təslimçilik zalımlara meyldir. Din rəhbərləri üçün belə bir təhlükə var.

5. Peyğəmbər üçün kiçik büdrəmə də təhlükəlidir.

6. Dini prinsiplərdən azca geri çəkilmək qadağandır. Çünki belə bir hərəkət düşmənlər üçün müvəffəqiyyət və qələbə sayılır.

---

[1] Bax: “Bəqərə”, 120
[2] Bax: “Haqqə”, 44-46
[3] Bax: “Zumər”, 65
[4] “Təfsiri-Nurus-Səqəleyn”

● AYƏ 75:

﴿إِذاً لَّأَذَقْنَاكَ ضِعْفَ الْحَيَاةِ وَضِعْفَ الْمَمَاتِ ثُمَّ لاَ تَجِدُ لَكَ عَلَيْنَا نَصِيرًا﴾

**“(Onlara meyl etsəydin,) həmin vaxt sənə iki qat dünyada, iki qat öləndə əzab daddırardıq. Bizim qəhr-qəzəbimiz qarşısında özün üçün yardımçı tapmazdın.”**

**○ Nöqtələr**

● Bu ayə nazil olduqdan sonra həzrət Peyğəmbər (s) belə bir dua oxudu: “Pərvərdigara! Məni bir göz qırpımınca özbaşına qoyma!”[1]

**● Bildirişlər**

1. Allahın həm lütfü, həm də qəhr-qəzəbi var.
2. Kafirlərə meyl və etimad böyük günahlardandır. Çünki bu günaha görə əzab vəd edilmişdir.
3. Rəhbərlərin ən kiçik büdrəmələrinin cəzası adi insanların cəzasından iki qat ağırdır. İnsanın elmi, ictimai, mənəvi məqamı yüksəldikcə onun məsuliyyəti, eləcə də əzab təhlükəsi artar.
4. Əgər qanunçuluqda vəzifəli şəxslər üçün daha ağır cəza nəzərdə tutulsa, bu, ədalətə zidd olmaz.
5. Allahın qəhri qarşısında hətta peyğəmbər üçün də heç bir yardımçı yoxdur.
6. Kafirlərə meyl insanın tənha qalmasına səbəb olur, onu Allahın qanunlarından məhrum edir.

● AYƏ 76:

﴿وَإِن كَادُواْ لَيَسْتَفِزُّونَكَ مِنَ الأَرْضِ لِيُخْرِجوكَ مِنْهَا وَإِذًا لاَّ يَلْبَثُونَ خِلافَكَ إِلاَّ قَلِيلاً﴾

**“Kafirlər səni az qala büdrədib oradan çıxarmışdılar. Həmin vaxt səndən sonra qısa bir müddət qala bilərdilər (həmin zülmə görə Allahın qəzəbinə düçar olardılar).”**

**○ Nöqtələr**

● Bu ayədə “Ənfal” surəsinin 30-cu ayəsinə işarə olunur. Ayədə buyurulur: “Xatırla, o zaman ki, kafirlər səni həbs etmək, öldürmək və ya xaric etmək üçün plan cızırdılar. Onlar hiylə qurdular, Allah da tədbir tökdü. Allah ən yaxşı tədbir tökəndir.”

---

[1] “Təfsiri-Məcməul-Bəyan”

● **Bildirişlər**

1. Peyğəmbər (s) daim təhlükə, fitnə, terror, sürgün təhlükəsi qarşısında idi.

2. Əqidə düşmənlərinin məqsədi dinin bünövrəsini sarsıtmaqdır. Onlar bu yolda hətta peyğəmbərə rəhm etmirlər.

3. Kafirlər ilk mərhələdə rəhbərin düşüncə və etiqadında dəyişiklik etməyə çalışırlar. Növbəti mərhələdə rəhbər sürgün olunur, ölkədən çıxarılır.

4. Peyğəmbərin xalq arasında olması ilahi qəhr-qəzəbi təxirə salır. Peyğəmbər cəmiyyətdən kənarlaşdırılıb sürgün edildikdə qısa bir müddət ərzində qəhr-qəzəb nazil olur.

5. Qurani-kərim həm qeybdən xəbər verir, həm düşmən qurğularının puça çıxacağını bəyan etməklə Peyğəmbərə (s) təsəlli verir.

● **AYƏ 77:**

﴿سُنَّةَ مَن قَدْ أَرْسَلْنَا قَبْلَكَ مِن رُّسُلِنَا وَلاَ تَجِدُ لِسُنَّتِنَا تَحْوِيلاً﴾

**“Səndən öncə göndərdiyimiz peyğəmbərlər haqqında da bu sünnə (tüğyan edənlərin məhvi) cərəyan edirdi. Bizim sünnəmizdə heç bir dəyişiklik tapmazsan.”**

○ **Nöqtələr**

● Peyğəmbərlərin təsdiqi, kafirlərin və zalımların məhvi ilahi sünnədir. Quranda buyurulur: “Kafirlər öz peyğəmbərlərinə dedilər: “Şübhəsiz, biz sizi öz torpağımızdan çıxararıq. Yalnız ayinimizi qəbul etsəniz belə olmaz.” Amma Allah onlara vəhy etdi ki, Biz hökmən sitəmkarları məhv edərik.”[1]

● **Bildirişlər**

1. İlahi sünnələr hikmətə əsaslandığından sabitdir. Tarix boyu bu sünnələr dəyişməz.

2. Peyğəmbərlərə qarşı kafirlərin fitnəsi və Allahın qeybi yardımları tarixi köklərə malikdir.

3. Tarixi dəyişikliklər sabit ilahi sünnələrə əsaslanır.

4. Allah adildir. Eyni şəraitlərdə Onun mərhəmət və qəhr-qəzəbi də eyni olur.

● **AYƏ 78:**

﴿أَقِمِ الصَّلاَةَ لِدُلُوكِ الشَّمْسِ إِلَى غَسَقِ اللَّيْلِ وَقُرْآنَ الْفَجْرِ إِنَّ قُرْآنَ الْفَجْرِ كَانَ مَشْهُودًا﴾

---

[1] “İbrahim”, 13

**“Namazı günəş (məğribə doğru) dönən vaxtdan gecənin qaranlığınadək qıl. Eləcə də, sübh (Quranın qiraətini). Həqiqətən, (sübh namazında) Quran (qiraəti mələklər tərəfindən) müşahidə olunur.”**

**○ Nöqtələr**

● “Duluk” dedikdə günəş orta xəttdən məğribə doğru meyl etdiyi vaxt nəzərdə tutulur. Bu, eniş vaxtıdır. Uyğun vaxt günorta və ikindi (zöhr və əsr) namazlarının vaxtıdır. “Ğəsəqil-ləyli”, yəni gecənin qaranlığı şam və xüftən (məğrib və işa) namazlarının vaxtıdır. Həmin vaxt qaranlıq ətrafı bürüyür. “Fəcr”, yəni sübh ağartısı məqamı isə sübh namazının vaxtıdır.[1]

● İmam Sadiq (ə) buyurur: “İlkin olaraq günorta (zöhr) namazı vacib oldu.” Sonra imam bu ayəni tilavət etdi.[2] Digər bir rəvayətdə deyilir: “Əgər sübh namazı fəcrin əvvəlində qılınsa, həm gecə, həm gündüz mələkləri onu qeydə alar.”[3] Sübh namazının müşahidə olunması məsələsi də həmin nöqtəyə işarə ola bilər.[4] Yəni hər iki qrup mələk onu müşahidə edib şəhadət verir.

**● Bildirişlər**

1. İslamda vaxt təbii yolla müəyyənləşdirilir. Bu üsul hamı tərəfindən, hər yerdə və həmişə başa düşüləndir.
2. Dini proqramlarda vaxt bölgüsü var.
3. Namaz “Quran” adı ilə vəsf olunan yeganə ibadətdir.
4. Namazda Quran oxunması əsas mehvərdir.[5]
5. Namazlar arasında sübh namazının xüsusi yeri var.

**● AYƏ: 79:**

﴿وَمِنَ اللَّيْلِ فَتَهَجَّدْ بِهِ نَافِلَةً لَّكَ عَسَى أَن يَبْعَثَكَ رَبُّكَ مَقَامًا مَّحْمُودًا﴾

**“Gecənin bir vaxtı oyan və təhəccüd (gecə namazı) qıl. Bu, sənin üçün əlavə bir vəzifədir. Ola bilsin ki, Rəbbin səni təriflənmiş bir məqama yüksəldə.”**

**○ Nöqtələr**

● “Həcud” sözü “yatmaq” mənasını bildirir. “Təhəccüd” dedikdə isə ibadətlə yuxunu aradan qaldırmaq nəzərdə tutulur.

● Gecə namazı ən fəzilətli namazlardandır. “Muzzəmmil” və “Muddəssir” surələrində gecənin bir yarısı oyanmaq əmr olunur. Rəvayətlərdə gecə namazının 30-dan çox fəziləti sayılır. Bu fəzilətlərdən bəzilərini nəzərdən keçirək:

---

[1] “Təfsiri-Ətyəbul-Bəyan”
[2] “Kafi”, c. 3, s. 275
[3] “Kafi”, c. 2, s. 275
[4] “Təfsiri-Əl-Mizan”
[5] Bax: “Kənzul-Ummal”, h. 19698

- Bütün peyğəmbərlər gecə namazı qılmışlar. Gecə namazı bədənin sağlamlıq və qəbrin aydınlıq rəmzidir. Gecə namazı insanın əxlaqına, ruzisinə, qəmdən qurtuluşuna, borcunun ödənməsinə və gözünün nuruna təsir göstərir.[1]

**-** Gecə namazı gündüzün günahını yuyur və qiyamət nurudur.[2]

- İmam Sadiq (ə) buyurur: "Gecə namazının mükafatı o qədər böyükdür ki, Allah bu ibadətin müqabilində veriləcək mükafatdan kimsənin xəbərdar olmadığını bildirir.[3]

- İmam Sadiq (ə) buyurur: "Möminin şərəfi gecə namazı, izzəti xalqa əziyyət verməməsidir".

- Əbuzər Kəbə kənarında xalqa nəsihət edirdi ki: Qəbir dəhşəti və tənhalığına qarşı gecə yarı iki rəkət namaz qılın."

- Gecə namazından məhrum olan şəxs biçarədir.

- Sizin ən üstününüz acı doyuran, aşkar salam verən, xalq yuxuda olanda namaz qılandır.

● Başqaları üçün müstəhəb üç şey Peyğəmbərə (s) vacib idi: gecə namazı, misvak (dişləri yumaq) və sübh oyanmaq.[4]

● "Məqamən" sözündə əzəmət vardır. Rəvayətlərdə deyilir ki, tərifllənmiş məqam həmin şəfaət məqamıdır.[5]

● Həzrət Əli (ə) buyurur: "İnsanın günahları, əməlləri və pis rəftarı onu gecə namazından məhrum edir."[6]

● Allah günün bütün vaxtlarına and içir.[7] Sübh vaxtına isə üç dəfə and içilir.[8] Bu andlar tamamlanmaqda olan gecəyə də aiddir. Sübh vaxtı tövbə haqqında iki ayə nazil olmuşdur.[9]

**● Bildirişlər**

1. Peyğəmbərə (s) gecə namazı vacib idi. Bəli, rəhbərlik məqamının ağır vəzifələri var.
2. İbadət üçün ən yaxşı vaxt gecə yarısıdır.
3. İbadət və bəndəlik sayəsində bəyənilmiş mənəvi məqamlar əldə olunur.
4. Biz öz ibadətlərimizə görə Allahdan bir şey istəyə bilmərik. Yalnız ümid və Allahın fəzli əsasında gözləmək olar.
5. Gecə namazı təklikdə bəs etmir. Digər kamilliklər də lazımdır.
6. Özü kamilliyə doğru addım atmayan insanı Allah bir məqama çatdırmaz.

---

[1] "Səfinətul-Bihar"
[2] "Bihar", c. 84, s. 140
[3] "Səcdə", 17; "Təfsiri-Məcməul-Bəyan"
[4] "Təfsiri-Furqan"
[5] "Təfsiri-Nurus-Səqəleyn"
[6] "Bihar", c. 87, s. 145
[7] "Fəcr", 1; "Muddəssir",34; "Şəms", 3
[8] Bax: "Fəcr", 4; "Təkvir", 17; "Muddəssir", 33
[9] "Zariyat", 18; "Ali-İmran", 17

7. Yalnız Allah yanında bəyənilmiş məqamın dəyəri var. Qalan nə varsa puç şöhrətdir, dəyərli və qalarlı deyil. Məsəldə deyildiyi kimi, tüstü havaya qalxır, amma üzüqaradır.

8. Allah Özü övliyaları vasitəsi ilə şəfaət edir. Övliyaların bəndələrə Allahdan mehriban olması fikri düzgün deyil.

● **AYƏ 80:**

﴿وَقُل رَّبِّ أَدْخِلْنِي مُدْخَلَ صِدْقٍ وَأَخْرِجْنِي مُخْرَجَ صِدْقٍ وَاجْعَل لِّي مِن لَّدُنكَ سُلْطَانًا نَّصِيرًا﴾

**“De ki, ey Rəbbim! Məni yaxşılıq və sədaqətlə (əməllərə) daxil et və xoş bir çıxışla xaric buyur. Mənim üçün Öz tərəfindən güclü hökm və dəlil ver.”**

○ **Nöqtələr**

● Bir iş və ya bir şəxs üçün başlanğıcda ən yaxşı vəsf sədaqətdir. Bir çox işlər riyakarlıq, tamah, yalan, üstünlük tələbi kimi pis səbəblərdən başlaya bilər. Ya da sədaqətlə başlamış bir iş qurur, təkəbbür, minnət kimi pis təzahürlərlə sonuclana bilər. Bu yolla bütün bərəkətlər məhv olar. Bir çox fəaliyyətlərin daşa dəyməsinin səbəbi onlarda sədaqətin olmaması, ilahi qeyblərdən məhrumluqdur.

● İmam Sadiq (ə) buyurur: “Bir işə başlayarkən qorxsan, bu ayəni oxu və addım at.”[1]

● İnsan elə bir məqama çatır ki, “siddiqin” zümrəsinə qatılır. O dediyinə əməl edir, əməl etdiyini deyir.[2] Onun qəlbi, dili və əməli bir-birindən fərqlənmir.

● Sultanən-nəsira” təbirinə layiqli canişini, vəfalı dostu, canıyanan vəzir və ya işçini nümunə göstərmək olar.

● **Bildirişlər**

1. İstəklərimizi Allah qarşısında dilə gətirək.
2. Namazla yanaşı, namazdan sonrakı duanın daha çox təsiri var.
3. Necə dua oxumağı, duada nə deməyi də Allahdan öyrənmək lazımdır.
4. Müdiriyyət üsullarından biri gələcəyi nəzərə almaq, uzağı görməkdir.
5. Yaxşı son yaxşı başlanğıcdan daha mühümdür. Şirin başlanğıca aldanmayaq, pis aqibət təhlükəsindən Allaha pənah aparaq.

---

[1] “Təfsiri-Nurus-Səqəleyn”
[2] “Təfsiri-Əl-Mizan”

6. Dua və Allahın yardımları olmadan başlanğıc və sonu sədaqətlə müşayiət olunan, büdrəməsiz bir ümumdünyəvi inqilaba rəhbərlik mümkünsüzdür.

7. Bütün işlər Allahın əlindədir, Ondan yardım diləmək lazımdır.

8. Müqəddəs amallar üçün qüdrət əldə etmək dəyərdir.

9. Mömin yardım və qələbəni yalnız Allahdan istəyir.

**● AYƏ 81:**

﴾وَقُلْ جَاء الْحَقُّ وَزَهَقَ الْبَاطِلُ إِنَّ الْبَاطِلَ كَانَ زَهُوقًا﴿

**“De ki, haqq gəldi və batil məhv oldu. Həqiqətən, batil məhv olasıdır.”**

**○ Nöqtələr**

● “Həqq” sözü sabit və qalarlı mənasını bildirir. Çünki Allah və Onun tərəfindən olan hər bir şey haqdır. “Həqq” Allahın adlarından biridir. “Zəhuq” sözü “getmək” mənasını bildirir. “Zəhəqə-nəfsuhu”, yəni “ruhu bədəndən xaric oldu”.

● Bu ayənin İslamın zühuru, Mədinəyə giriş, Məkkənin fəthi, bütlərin sındırılması kimi nümunələri var. Bütün bu hadisələrdə batil məğlub oldu. Amma ayənin məfhumu daha əhatəlidir və o, batilin puçluğunu, haqqın əbədiliyini müjdə verir.

● Haqqın əbədiliyi xülya və təsadüf yox, Allahın qanunudur. Haqq tərəfdarları nə qədər az olsalar da, bu qanun ödənəsidir. Çünki haqq su kimi sabit, batil köpük kimi fanidir.[1]

● Quran buyurur: “Biz haqqı batilə vurar və batili məhv edərik.”[2] Bəli, bu halda batil aradan çıxasıdır. Ona görə də haqq qüdrət və əzmlə batilə hücum etməlidir.

**● Bildirişlər**

1. Peyğəmbər (s) sonda haqqın qələbəsini qətiyyətlə elan etməlidir.

2. Batili aradan qaldırmaq üçün haqqı meydana gətirmək lazımdır.

3. Sonda batil məhv olası, haqq qüdrətə çatasıdır.

4. Batilin gedişlərindən və manevrlərindən qorxmaq lazım deyil, onun ikinci nəfəsi yoxdur.

**● AYƏ 82:**

﴾وَنُنَزِّلُ مِنَ الْقُرْآنِ مَا هُوَ شِفَاء وَرَحْمَةٌ لِّلْمُؤْمِنِينَ وَلاَ يَزِيدُ الظَّالِمِينَ إَلاَّ خَسَارًا﴿

---

[1] Bax: “Rəd”, 17

[2] “Ənbiya”, 18

**“Qurandan nazil etdiyimiz möminlər üçün şəfa və rəhmətdir. Bu, sitəmkarların yalnız zərərini artırar.”**

○ **Nöqtələr**

● “Minəl-Qurani” təbirindəki “min” “bəzi” mənasını bildirmir. Ayədə məqsəd bu deyil ki, Quranın bəzi hissələri şəfadır, bəziləri yox. “Minəl-Quran” “Qurandan” mənasında anlaşılmalıdır və bu təbir Quranda nazil olan istənilən bir hissənin şəfa olduğunu göstərir.

● Quran hamının hidayəti üçün nazil olsa da[1], yalnız ruhunun pəncərəsini Qurana açanlar bu nurdan faydalana bilir. Onlar inadkarlığı bir kənara qoyub, sağlam ruhla Quran sorağınca gedirlər.[2] Quran xəstə qəlbli inadkarların yalnız zərərini artırır. Necə ki, öz-özlüyündə pak olan yağış murdarın (leşin) üstünə yağdıqda onun üfunəti qalxır.

● Quran dəlilləri düşüncədəki dolaşıqlıqları açır. Quran moizələri qəlbi yumşaldır. Quranın tarixi insanı tərəddüddən çıxarır. Quranın ahəng və fəsahəti uzaqlaşan ruhu cəzb edir, qanun və hökmləri xurafi adətlərin kökünə balta çalır, tilavət və tədəbbürü (mənalarının düşünülməsi) qəflət xəstəliyinə şəfa verir. Onun bərəkəti ilə cismin xəstəlikləri şəfa tapır, göstərişləri insanı zülmətlərdən nura çıxarır.

● Quranın şəfası ilə maddi dərmanların şəfası arasında böyük fərqlər var. Quran dərmanının heç bir zərəri yoxdur, istifadə müddəti məhdud deyil. Quranla şəfa tapan şəxs başqalarının şəfa tapması üçün amil olur. Quranın şəfa nüsxəsində yanlışlığa yer yoxdur. Bu şəfa daim hamının ixtiyarındadır. Bu dərmanın təbibi bizi tanıyır, sevir. Onun təyin etdiyi nüsxənin oxşarı yoxdur və O, əbədidir.

Həzrət Əli (ə) buyurur: “Quran küfr, nifaq, azğınlıq kimi böyük dərdlərin dərmanıdır.”[3]

● Allah Öz məxluğuna mərhəmət göstərməyi zəruri saymışdır.[4] O, Öz peyğəmbərini aləmlər üçün rəhbər qərar vermişdir.[5] Onun ümməti bir-biri üçün, kitabı hamı üçün rəhmətdir.[6]

● **Bildirişlər**

1. Quran bəşər və fitrətin xaliqi tərəfindən nazil olduğu üçün onun qanunları da fitrətə uyğundur, nicatvericidir.
2. Rəhman və Rəhim Allah tərəfindən olan hər şey rəhmətdir.

---

[1] Bax: “Bəqərə”, 185
[2] Bax: “Bəqərə”, 2
[3] “Nəhcül-bəlağə”, x. 176
[4] Bax: “Ənam”, 12
[5] Bax: “Ənbiya”, 107
[6] Bax: “Fəth”, 29

3. Kafirlər Quranın əmr və qadağalarına əməl etmədiklərindən hər bir göstərişin nazil olması onların günahını artırır, zərərlərini vüsətləndirir.

● AYƏ 83:

﴿وَإِذَآ أَنْعَمْنَا عَلَى الإِنسَانِ أَعْرَضَ وَنَأَى بِجَانِبِهِ وَإِذَا مَسَّهُ الشَّرُّ كَانَ يَؤُوسًا﴾

**"Nə vaxt insana bir nemət əta etdiksə, üz çevirdi, (təkəbbürlə) çiyin çəkdi. Elə ki, (azca) zərərə düşdü, hər şeydən ümidini üzdü."**

○ **Nöqtələr**

● "Nəa bicanibihi", yəni çiynini çəkib özünə güvəndi.

● **Bildirişlər**

1. Rifah və asayiş qəflət üçün zəmin yaradır.

2. İnsan bütün nemətləri Allah tərəfindən bilib, Ona meyl etmək əvəzinə Allaha arxa çevirib öz düşüncəsinə, istedadına, işinə güvəndi.

3. Nemətlər Allahdan, pisliklər isə öz əməllərimizdəndir.

4. İnsan o qədər zəifdir ki, nemət əldə etdikdə qəflətə düçar olur, kiçik bir hadisədən ümidsizləşir.

● AYƏ 84:

﴿قُلْ كُلٌّ يَعْمَلُ عَلَى شَاكِلَتِهِ فَرَبُّكُمْ أَعْلَمُ بِمَنْ هُوَ أَهْدَى سَبِيلاً﴾

**"De ki, hər kəs öz şəklinə, xislətinə uyğun əməl edər. Allah hidayətə daha yaxın olan kəsi daha yaxşı tanıyır."**

○ **Nöqtələr**

● İmam Sadiq (ə) niyyətdən və niyyətin ən üstün əməl olmasından danışarkən bu ayəni tilavət etmişdir.[1]

● "Şakilə" dedikdə insan ruhunun irsiyyət, tərbiyə, cəmiyyətin təsirindən formalaşmış şəkli nəzərdə tutulur. Bəziləri bu sözün fitrət mənasını bildirdiyini qeyd edir. Halbuki fitrət sabitdir. İnsanları bir-birindən fərqləndirən onların niyyəti, xisləti, adəti, düşüncə tərzi, ailə durumudur. Hər bir insanın əməli bu şərtlərlə müəyyənləşir.[2]

● **Bildirişlər**

1. İnsanın rəftarını müəyyənləşdirən onun düşüncəsi, ruhu və əxlaqıdır (məsəldə deyildiyi kimi, nə tökərsən aşına, o da çıxar qaşığına).

---

[1] "Təfsiri-Nurus-Səqəleyn"
[2] "Təfsiri-Furqan"

2. Rəftarlar insanın hal və adətlərindən qaynaqlandığı üçün yersiz xislətlərdən çəkinmək, əməllərin xasiyyətə çevrilməsinə imkan verməmək lazımdır.

3. Hidayət yolunun da dərəcələri və mərtəbələri var.

4. Niyyət üstün olduqca hidayət də yaxın olur.

**● AYƏ 85:**

﴿وَيَسْأَلُونَكَ عَنِ الرُّوحِ قُلِ الرُّوحُ مِنْ أَمْرِ رَبِّي وَمَا أُوتِيتُم مِّن الْعِلْمِ إِلاَّ قَلِيلاً﴾

**"Səndən ruh haqqında soruşurlar. De ki, ruh Rəbbimin işlərindəndir (Ona aiddir). Sizə yalnız az bir bilik verilmişdir."**

**○ Nöqtələr**

● Quranda "ruh" sözü 21 dəfə aşağıdakı mənalarda işlədilmişdir: insan cisminə üfürülmüş ruh[1], vəhy[2], Quran[3], Ruhul-qüdüs[4], böyük mələk[5].

Hər halda bəşər ruhu qapalı, tanınmamış bir həqiqət, ilahi nəfəsdir. Onun səmavi yönümü var və yalnız Allah tərəfindən tanınır.

● İmam Baqir (ə) "qəlil" ("az") sözünün az elmə yox, az fərdlərə işarə olduğunu bildirmişdir.[6] Yəni kamil elm yalnız az bir qismə verilər, yalnız onlar ruhdan xəbərdar olar.

**● Bildirişlər**

1. Peyğəmbərlər xalqın suallarla müraciət ünvanı olmuşlar.

2. Ruh insan düşüncəsinin fövqündə olan bir həqiqətdir və ilahi sirlərdəndir.

3. Bütün bəşəri biliklər ilahi hədiyyədir.

4. İnsanın elmi məhdud və çox azdır.

**● AYƏ 86:**

﴿وَلَئِن شِئْنَا لَنَذْهَبَنَّ بِالَّذِي أَوْحَيْنَا إِلَيْكَ ثُمَّ لاَ تَجِدُ لَكَ بِهِ عَلَيْنَا وَكِيلاً﴾

**"Əgər istəsək, hər vaxt sənə vəhy etdiyimizi (yaddaşından) apararıq. Sonra səni Bizdən qoruyacaq bir kəs tapmazsan."**

---

[1] Bax: "Səcdə", 9
[2] Bax: "Ğafir", 15
[3] Bax: "Şuəra", 52
[4] Bax: "Bəqərə", 87
[5] Bax: "Qədr", 4
[6] "Təfsiri-Nurus-Səqəleyn"

**● AYƏ 87:**

﴿إِلاَّ رَحْمَةً مِّن رَّبِّكَ إِنَّ فَضْلَهُ كَانَ عَلَيْكَ كَبِيرًا﴾

**“Rəbbinin rəhmətindən savay (müdafiəçi tapmayacaqsan). Şübhəsiz, Allahın sənə olan fəzli böyükdür.”**

**○ Nöqtələr**

● 86-cı ayədə Peyğəmbərə (s) xəbərdarlıq olunur ki, Allah əta etsə, istədiyi vaxt geri ala bilər. (Bəli, yaratmaq və öldürmək, izzət və zillət, hidayət və zəlalət, həyat və ölüm, yardım və xarlıq Onun əlindədir). 87-ci ayədə isə təşviq dili ilə danışılır.

● Quran, vəhy, nübuvvət, xatəmiyyət, şəfaət Allahın Peyğəmbərə (s) münasibətdə fəzilləridir. Allah bacarsa da Öz verdiklərini ondan almır. Belə bir əta Allahın rübubiyyət məqamından qaynaqlanır. Halbuki bütün ətalarını geri almaq qüdrətindədir.

**● Bildirişlər**

1. Nemətlərin Allah tərəfindən verildiyini anlayaq və qürrələnməyək. Çünki nemətlərin davamı və ya kəsilməsi Onun iradəsindən asılıdır.
2. Allahın qəhr-qəzəbi qarşısında kimsənin rolu yoxdur.
3. Asimani kitabların və vəhyin nazil olması Allahın rübubiyyət şənindəndir və insanların tərbiyəsinə yönəldilmişdir.
4. Quran böyük ilahi fəzldir. Allah böyük və uca olduğundan Onun lütfü də böyükdür. Onun ən böyük fəzli Peyğəmbərə (s) məxsusdur.

**● AYƏ 88:**

﴿قُل لَّئِنِ اجْتَمَعَتِ الإِنسُ وَالْجِنُّ عَلَى أَن يَأْتُواْ بِمِثْلِ هَـذَا الْقُرْآنِ لاَ يَأْتُونَ بِمِثْلِهِ وَلَوْ كَانَ بَعْضُهُمْ لِبَعْضٍ ظَهِيرًا﴾

**“De ki, (bütün) ins və cin Quranın oxşarını gətirmək üçün bir yerə toplansa, onun kimisini gətirə bilməz. (Bu iş) bəziləri bəzilərinə kömək etsələr də belə mümkün olmaz.”**

**○ Nöqtələr**

● “Zəhr” sözündən olan “zəhir” sözü arxa, köməkçi mənasını bildirir.

● Ayədə “biz də Quranın oxşarını gətirə bilərik” deyən kafirlərə cavab verilir.[1] Quranın bu sahədə mübarizə çağırışı əsrlər boyu cavabsız qalmışdır. Ərəb dilli düşmənlə, küfr məktəbləri İslama qarşı barışmazlıqlarına və müxtəlif

---

[1] Bax: “Ənfal”, 31

qüdrətlər tərəfindən himayə olunmalarına baxmayaraq Quranın mislini gətirə bilməmişlər.

● Quranın bir sıra misilsiz xüsusiyyətləri var: o möcüzədir, rəvan və çeşidlidir, gələcəkdən xəbər verir, ən gözəl dastanları nəql edir, ən gözəl şəkildə dəvət edir, bütün fərdi və ictimai məsələləri, dünya və axirət ehtiyaclarını bəyan edir.

**● Bildirişlər**

1. Cinlər də insanlar kimi vəzifəlidirlər, onların da kitabı Qurandır.
2. Kimsənin Quranın oxşarını gətirə bilməməsi bu kitabın möcüzə olmasının dəlilidir.

**● AYƏ 89:**

﴿وَلَقَدْ صَرَّفْنَا لِلنَّاسِ فِي هَذَا الْقُرْآنِ مِن كُلِّ مَثَلٍ فَأَبَى أَكْثَرُ النَّاسِ إِلاَّ كُفُورًا﴾

**“Şübhəsiz, bu Quranda xalq üçün hər cür misal çəkdik. Amma xalqın çoxu boyun qaçırdı və işi yalnız inkar oldu!”**

**● Bildirişlər**

1. Quranın çeşidli və fərqli bəyanı onun ecazlarındandır.
2. Allah Quran ayələri ilə xalqa höccəti tamamlamış, yetərli dəlillər gətirmişdir.
3. Yeknəsəqlik yorucudur, dəvət çeşidli olmalıdır.
4. Hidayət kitabı hamı üçün anlaşıqlı olmalıdır.
5. Təlim-tərbiyənin ən üstün yollarından biri məsəllər və təmsillərin bəyanıdır.
6. Xalq fərqlidir və rəngarəng misallar bəyan olunan mətləbləri bütün dəstələr üçün aydınlaşdıra bilər.
7. Xalqın inkarının səbəbi höccətin, dəlillərin tamamlanmaması yox, onların inadkarlığıdır.
8. Çoxluq haqlılıq nişanəsi deyil.

**● AYƏ 90:**

﴿وَقَالُواْ لَن نُّؤْمِنَ لَكَ حَتَّى تَفْجُرَ لَنَا مِنَ الأَرْضِ يَنبُوعًا﴾

**“Dedilər: Bizim üçün yerdən çeşmə qaynatmayınca sənə iman gətirmərik.”**

**● AYƏ 91:**

﴿أَوْ تَكُونَ لَكَ جَنَّةٌ مِّن نَّخِيلٍ وَعِنَبٍ فَتُفَجِّرَ الأَنْهَارَ خِلالَهَا تَفْجِيرًا﴾

**“Ya da arasından çaylar axan xurma və üzüm bağların olsun.”**

○ **Nöqtələr**

● Heç vaxt qurumayan, daim axan çay "yənbu" adlanır.

● Quran möcüzəsini inkar edən müşriklər iman gətirmələri üçün maddi bəxşişləri şərt qoyur, Peyğəmbərdən (s) yersiz şeylər umurdular. Onlar unudurdular ki, Peyğəmbər (s) inadkar xalqın istəklərini yerinə yetirmək üçün yox, öz peyğəmbərliyini gerçəkləşdirmək üçün möcüzə gətirir. Möcüzə gətirməkdə məqsəd əyləncə və ya işdən qaçmaq istəyi deyil.

● Müxaliflərin yersiz istəkləri, qəlbidaşlığı, inadkarlığı, bəhanəçiliyi, məqsəddən xəbərsizliyi, ədəbsizliyi Peyğəmbərdən (s) yersiz istəklərlə nəticələnirdi. Onlar su arxı, bağ, çay, səmanın süqutunu, mələklərin önə gətirilməsini, qızıl ev, göyə uçuş, Allahdan xüsusi bir namə tələb edirdilər.

● **Bildirişlər**

1. Hərə öz tutumunda istəyir. Müşriklərin nəzərində ad-san, çeşmə və maddiyyat peyğəmbərlik ölçüsü idi.

2. Peyğəmbərlərin məqsədi xalqın tövhidə dəvəti olsa da, bəziləri var-dövlət, qızıl-gümüş arzusunda idi.

3. Hər istək və tələb məntiqi olmur. Peyğəmbərlərdən, din təbliğatçılarından yersiz istəklər çox idi.

● **AYƏ 92:**

﴿أَوْ تُسْقِطَ السَّمَاء كَمَا زَعَمْتَ عَلَيْنَا كِسَفًا أَوْ تَأْتِيَ بِاللّهِ وَالْمَلآئِكَةِ قَبِيلاً﴾

**"Səmanı güman etdiyin kimi üstümüzə parça-parça endirməyincə və ya Allah və mələkləri qarşımıza gətirməyincə (iman gətirmərik)."**

● **AYƏ 93:**

﴿أَوْ يَكُونَ لَكَ بَيْتٌ مِّن زُخْرُفٍ أَوْ تَرْقَى فِي السَّمَاء وَلَن نُّؤْمِنَ لِرُقِيِّكَ حَتَّى تُنَزِّلَ عَلَيْنَا كِتَابًا نَّقْرَؤُهُ قُلْ سُبْحَانَ رَبِّي هَلْ كُنتُ إَلاَّ بَشَرًا رَّسُولاً﴾

**"Ya zər-zivərdən evin olsun, ya səmaya uç; bizim oxumağımız üçün səmadan kitab endirməyincə sənə iman gətirmərik." De ki, mənim Rəbbim pak-pakizədir. Məgər mən göndərilmiş bir bəşər deyiləm?!"**

○ **Nöqtələr**

● "Kəma zəəmtə" "Səba" surəsinin 9-cu ayəsində qeyd olunmuş xəbərdarlıq və əzab vədinə işarədir.

● Möcüzə Allahın rübubiyyət şənindəndir. İlahi istək və hikmət möcüzə qaynağıdır. Möcüzənin məqsədli olması onun şərtlərindəndir. Kafirlər, bu ayədə bəyan olunduğu kimi, Peyğəmbərə (s) yersiz istəklərlə müraciət edirdilər.

Səmanın süqutu hamının məhvi ilə nəticələnər, həmin vaxt iman gətirmək üçün kimsə qalmaz. Allah və mələklərin önə gətirilməsi də mümkünsüzdür. Çünki onlar cisim deyil və biz onları müşahidə edə bilmərik.

**● Bildirişlər**

1. Kafirlər inadkar və ədəbsizdirlər. "Kəma zəəmtə" və "lən numinə" təbirləri ədəbsizlik nümunələridir.

2. Kafirlər peyğəmbərlərin xəbərdarlıqlarını ciddi qəbul etmir, onlara inanmırdılar.

3. Mümkünsüz və boş istəklər qəbul olunmur.

4. Müşriklərin hissə meyli onların yersiz istəklərinin dəlilidir.

**● AYƏ 94:**

﴿وَمَا مَنَعَ النَّاسَ أَن يُؤْمِنُواْ إِذْ جَاءهُمُ الْهُدَى إِلاَّ أَن قَالُواْ أَبَعَثَ اللّهُ بَشَرًا رَّسُولاً﴾

**"O zaman ki, hidayət (doğru yola dəvət) xalqın sorağına gəldi, xalqı iman gətirməkdən saxlayan olmadı. Yalnız belə dedilər: "Məgər Allah peyğəmbər olaraq bir insan seçmişdirmi?"**

**○ Nöqtələr**

● Düzgün məntiqdən məhrum insanlar güclü nöqtəni zəif nöqtə sayırlar. Peyğəmbərin bəşər növündən olması onun üçün zəiflik yox, qüvvə sayılmalıdır. Çünki o, istəklərə, meyllərə və çətinliklərə malik olduğundan insanların dərdini dərk edir, əməli nümunə ola bilir. Peyğəmbər öz həmnövləri üçün faydalı nüsxə vermək imkanındadır.

● Quran ayələrinə əsasən kafirlər iman gətirməmək üçün müəyyən bəhanələr gətirirdilər:

a) Nə üçün peyğəmbərlər də bizim kimi insandır?

Cavab: Ən gözəl təbliğ odur ki, əməli nümunə və ideal təqdim olunsun.

b) Əgər peyğəmbərin insan növündən olması müəyyənləşmişsə, nə üçün filankəs peyğəmbər olmasın?

Cavab: İnsanlar öz gümanları və maddi meyarlar əsasında münasibət göstərirlər. Vəhyi qəbul etmək üçün isə əsas şərt ləyaqətdir.

v) Nə üçün özümüz peyğəmbər olmayaq?

Cavab: Peyğəmbərlik olduqca uca məqamdır. Bu məqam hətta mələklərin məqamından ucadır. Müsbət keçmişi olmayan insan peyğəmbərliyə layiq deyil.

q) Nə üçün mələklər bizim özümüzə nazil olmur?

Cavab mələklər yalnız günahsız insanlara nazil olur. Adi insanlar yalana yol verdiyindən gündəlik yalanları da vəhy adı ilə təqdim edə bilərlər.

● **Bildirişlər**

1. Kafirlər bəhanəçi və məntiqsizdirlər. Onların bəhanəsi bu idi ki, nə üçün peyğəmbər onlar kimi insandır?

2. Peyğəmbərlər xalqın hidayət və tərbiyəsi üçün gəlirdilər.

3. Şəxsiyyət və kəramət cahil insan üçün qaranlıq olduğundan, o elə düşünürdü ki, insan peyğəmbərliyə layiq məxluq deyil.

● **AYƏ 95:**

﴿قُل لَّوْ كَانَ فِي الأَرْضِ مَلآئِكَةٌ يَمْشُونَ مُطْمَئِنِّينَ لَنَزَّلْنَا عَلَيْهِم مِّنَ السَّمَاء مَلَكًا رَّسُولاً﴾

**“De ki, əgər yer üzündə arxayınlıq və aramlıqla yol gedən mələklər olsaydı, hər halda onlara səmadan peyğəmbər olaraq bir mələk göndərərdik.”**

○ **Nöqtələr**

● Ayədə peyğəmbərin insan olmasına etiraz edənlərin baxışı rədd edilir və buyurulur: “Peyğəmbərin göndərilməsi ilahi sünnə və dini zərurətdir. Əgər bütün yer əhli mələk olsaydı və onların arasında heç bir ixtilaf düşməsəydi, hamılıqla aram və rifah içində yaşasaydılar, yenə də onlara öz cinslərindən bir peyğəmbər gələrdi. Peyğəmbərlərin vəzifəsi yalnız düşmənçiliyi aradan qaldırmaq yox, mənəvi təkamülü təmin etmək və nümunə göstərməkdir.

● **Bildirişlər**

1. Xalq rəhbərdən nümunə götürməli olduğundan insan üçün insan, mələk üçün mələk peyğəmbər gəlməlidir.

2. Risalət və peyğəmbərlik Allah tərəfindən qəbul olunur və bu istiqamətdə seçim yoxdur.

● **AYƏ 96:**

﴿قُلْ كَفَى بِاللّهِ شَهِيدًا بَيْنِي وَبَيْنَكُمْ إِنَّهُ كَانَ بِعِبَادِهِ خَبِيرًا بَصِيرًا﴾

**“De ki, mənimlə sizin aranızda şahidlik üçün Allah bəs edər. Həqiqətən, O Öz bəndələrinə münasibətdə agah və görəndir.”**

● **Bildirişlər**

1. İnsan təkcə elm, ağıl və dəlillərlə hidayət olmur, ilahi tövfiq də lazımdır.

2. Azğınlara Allahdan başqa nicat verən yoxdur.

3. Qulağından haqqı eşitmək, gözündən haqqı görmək, dilindən haqqı demək üçün istifadə etməyən insan qiyamətdə kor, kar və lal vəziyyətdə səhnəyə gətirilir. Bu, bir növ insanın əməllərinin təcəssümüdür!

<u>4. Cəhənnəm odu günahkarlar üçün daim alışmaqdadır.</u>

● AYƏ 97:

﴿وَمَن يَهْدِ اللّهُ فَهُوَ الْمُهْتَدِ وَمَن يُضْلِلْ فَلَن تَجِدَ لَهُمْ أَوْلِيَاء مِن دُونِهِ وَنَحْشُرُهُمْ يَوْمَ الْقِيَامَةِ عَلَى وُجُوهِهِمْ عُمْيًا وَبُكْمًا وَصُمًّا مَّأْوَاهُمْ جَهَنَّمُ كُلَّمَا خَبَتْ زِدْنَاهُمْ سَعِيرًا﴾

**“Allahın hidayət etdiyi kəs doğru yolu tapmışdır. Allahın azdırdığı kəs üçün isə heç vaxt Allahdan savay yardımçı tapmayacaqsan. Biz onları qiyamət günü sürünən halda, kor, kar və lal vəziyyətdə məhşur edərik (səhnəyə gətirərik). Onların yeri cəhənnəmdir. Od söndükcə onun alovunu artırarıq.”**

○ **Nöqtələr**

● “Xəbət” sözü şöləni yatırtmaq mənasını bildirir. “Səir” dedikdə alışma mənası başa düşülür və cəhənnəmin adlarından biri “səir”dir.

**Sual:** Əgər azğınlar qiyamətdə kar, kor və lal olursa, nə üçün digər ayələrdə onların odu görməsindən, cəhənnəmin səsini eşitməsindən, şivən qoparmasından danışılır?[1]

**Cavab:** Qiyamətin çoxsaylı mərhələləri və dayanacaqları var. Hər dayanacağı növbəti dayanacaqdan fərqləndirən xüsusiyyətlər var.”[2]

● **Bildirişlər.**

1. İnsan təkcə elm, ağıl və dəlillərlə hidayət olmur, ilahi tövfiq də lazımdır.
2. Azğınlara Allahdan başqa nicat verən yoxdur.
3. Qulağından haqqı eşitmək, gözündən haqqı görmək, dilindən haqqı demək üçün istifadə etməyən insan qiyamətdə kor, kar və lal vəziyyətdə səhnəyə gətirilər. Bu, bir növ insanın əməllərinin təcəssümüdür!
4. Cəhənnəm odu günahkarlar üçün daim alışmaqdadır.

● AYƏ 98:

﴿ذَلِكَ جَزَآؤُهُم بِأَنَّهُمْ كَفَرُواْ بِآيَاتِنَا وَقَالُواْ أَئِذَا كُنَّا عِظَامًا وَرُفَاتًا أَإِنَّا لَمَبْعُوثُونَ خَلْقًا جَدِيدًا﴾

---

[1] “Kəhf”, 53; “Furqan”, 12, 13.
[2] “Təfsiri-Tibyan”.

**“Bu (cəhənnəm), onların cəzasıdır. Çünki, kafir oldular və dedilər: “Sümük və tikə-tikə olduqdan sonra doğrudanmı yeni yaranmış surətində ayağa qaldırılacağıq?”**

○ **Nöqtələr**

● “Rufat” dedikdə saman qırıntıları nəzərdə tutulur. Bu qırıntıları ikinci dəfə qırmaq mümkün olmur.[1]

● **Bildirişlər**

1. Allah kafirləri əsassız yerə cəzalandırmır. Onlar öz əməllərinin nəticəsini görürlər.
2. Kafirlərin məadın inkarına dəlilləri yoxdur. Onların dedikləri istehza, təəccüb və istisnadan başqa bir şey deyil.
3. Məad cismanidir.

● **AYƏ 99:**

﴿أَوَلَمْ يَرَوْاْ أَنَّ اللّهَ الَّذِي خَلَقَ السَّمَاوَاتِ وَالأَرْضَ قَادِرٌ عَلَى أَن يَخْلُقَ مِثْلَهُمْ وَجَعَلَ لَهُمْ أَجَلاً لاَّ رَيْبَ فِيهِ فَأَبَى الظَّالِمُونَ إَلاَّ كُفُورًا﴾

**“Yoxsa düşünməyiblər ki, Allah göyləri və yeri yaratmışdır. Bu sayaq xalq da yarada bilərmi? Allah onlar üçün heç bir şəkk olmayan müddət müəyyənləşdirmişdir. Sitəmkarlar isə boyun qaçırıb, küfrdən başqa bir şeylə razılaşmırlar.”**

○ **Nöqtələr**

● “La rəybə fihi”, yəni Quranda heç bir şübhə yeri yoxdur. Bu təbirdən “kimsə ona şübhə ilə yanaşmır” mənası anlaşılmır.

● Quran məada şəkk-şübhəni aradan qaldırmaq üçün dəfələrlə göylərin və yerin yaranışına, varlıq aləminin əzəmətinə, ilahi qüdrətə işarə etmişdir. Quranda buyurulur: “Sizin yaranışınız, yoxsa göyün yaranışı daha çətindir?”[2] Yəni bir şeyin mümkün olması üçün ən üstün dəlil onun baş verməsidir.

● Qiyamətdə bərpa olası sümüklər həmin dünyadakı sümüklər, onlardakı ruh isə həmin dünyadakı ruhdur. Amma Quran “oxşar, misil” təbirini işlədir. Necə ki, kərpic əzildikdən sonra yenidən düzəldilərsə, “bu, həmin kərpicdir” yox, “bu, əvvəlki kərpic kimidir” deyirlər. Halbuki onlar eyni maddədən hazırlanmışdır.[3]

---

[1] “Mufrədati-Rağib”
[2] “Naziat”, 27
[3] “Təfsire-Nurus-səqəleyn”.

**Bildirişlər**

1. Məadın mümkünlüyü üçün ən üstün dəlil Allahın təbiətdəki qüdrətinə diqqət yetirməkdir.

2. Dünya həyatı bir neçə gündən artıq deyil. Kafirlər inadkarlıq göstərdiyi zaman ya ölümləri çatar, ya da qiyamət qopar.

3. Allahın qüdrətinə və qiyamətə şübhə zülümdür. Zülm isə küfr üçün zəmindir.

**● AYƏ 100:**

﴿قُل لَّوْ أَنتُمْ تَمْلِكُونَ خَزَآئِنَ رَحْمَةِ رَبِّي إِذًا لَّأَمْسَكْتُمْ خَشْيَةَ الإِنفَاقِ وَكَانَ الإنسَانُ قَتُورًا﴾

**“De ki, əgər siz Rəbbinin rəhmət xəzinədarı olsaydınız, şübhəsiz, infaq qorxusundan kimsəyə bir şey verməzdiniz. İnsan dar baxışlı və xəsisdir!”**

**Nöqtələr**

“Qitr” sözündən olan “qətur” sözü xəsislik, bəxşişdən çəkinmək mənasını bildirir.

**Bildirişlər**

1. Var-dövlət həris və xəsis adamları səxavətli etmir. Bəzilərinin gözü doymur. Onlar var-dövlət yığdıqca mallarının azalmasından qorxurlar.

2. Yoxsulluq qorxusu xəsisliyin köklərindəndir.

3. Bəşərin rəftarı onun ruhiyyə və xislətlərindən qaynaqlanır.

**● AYƏ 101:**

﴿وَلَقَدْ آتَيْنَا مُوسَى تِسْعَ آيَاتٍ بَيِّنَاتٍ فَاسْأَلْ بَنِي إِسْرَائِيلَ إِذْ جَاءهُمْ فَقَالَ لَهُ فِرْعَوْنُ إِنِّي لَأَظُنُّكَ يَا مُوسَى مَسْحُورًا﴾

**“Şübhəsiz, Musaya doqquz aşkar möcüzə verdik. (Musa,) onların sorağına gələn vaxt sual ver. Firon (bütün möcüzələri görüb) dedi: “Ey Musa! Həqiqətən mən səni ovsunlanmış sayıram.”**

**Nöqtələr**

● Həzrət Musanın doqquz möcüzəsini nəzərdən keçirək: əsanın əjdaha olması, ovucundakı ağlıq, əsa ilə dəryanın parçalanması, tufan, çəyirtkələrin hücumu, bitlərin hücumu, qurbağaların hücumu, suyun qana dönməsi, əsanın toxunması ilə daşdan on iki çeşmə qaynaması.

Həzrət Musanın on səkkiz möcüzəsi olması fikri də var. Hər bir möcüzənin əvvəlki halına qayıtması da digər bir möcüzədir.

● **Sual:** Quranda həzrət Musanın bu doqquz möcüzədən əlavə də möcüzələri bəyan olunmuşdur. Məsələn, dağın qopub yəhudilərin başına etməsi, "mənn və səlva" təamlarının nazil olması, kəsilmiş inəyin ətini ölüyə toxundurmaqla onun dirildilməsi. Bəs nə üçün yalnız doqquz möcüzə zikr olunur?

**Cavab:** Bu doqquz möcüzə Fironla bağlı möcüzələrdir. Firon bu möcüzələri görsə də iman gətirmədi. Digər möcüzələrin Fironla heç bir əlaqəsi olmamışdır.[1]

**Bildirişlər**

1. Allah Öz peyğəmbərlərinə arxa durur.
2. Allah peyğəmbərlərə möcüzə verməklə yetərli dəlillər gətirir, höccəti tamamlayır, bəhanəyə yer qalmır.
3. Tərs insanların daha çox dəlil və möcüzəyə ehtiyacı var.
4. Möcüzə aşkar və qəti olmalıdır.
5. Peyğəmbərlər xalqın sorağına gəlmiş həkimlərdir. (Həzrət Əli (ə) Nəhcül-bəlağənin 108-ci xütbəsində həzrət Peyğəmbəri (s) ümmətin həkimi kimi tanıtdırır.)
6. Təkəbbür əhli möcüzə və dəlillərə təhqirlə cavab verir.

**● AYƏ 102:**

﴿قَالَ لَقَدْ عَلِمْتَ مَا أَنزَلَ هَـٰؤُلاء إِلاَّ رَبُّ السَّمَاوَاتِ وَالأَرْضِ بَصَآئِرَ وَإِنِّي لَأَظُنُّكَ يَا فِرْعَونُ مَثْبُورًا﴾

**"Musa dedi: "Şübhəsiz, bilirsən ki, bu (möcüzələri) yalnız göylərin və yerin Rəbbi sizin bəsirətiniz üçün göndərib. Ey Firon! Güman edirəm ki, sən həlak olmuşsan."**

**Nöqtələr**

● **Sual:** Musa Fironun həlak olmasına əmin olduğu halda nə üçün "güman edirəm" deyir?

**Cavab:** Əvvəla, "güman edirəm" təbiri qəti bir məsələyə də aid ola bilər. İkincisi, ola bilsin ki, Fironun hidayətinə ümid vardı. Üçüncüsü, düşmən həya pərdəsini yırtmadığı vaxt, ədəb qaydasına əsasən biz də hədd gözləməliyik. Musa Fironun sözünə uyğun şəkildə cavab verdi.

**Bildirişlər**

1. Bəzən insan haqqı bildiyi halda, özünü bilməməzliyə vurur.
2. İnsanın hidayət və qurtuluşu üçün elmdən əlavə iman və təslimçiliyə də ehtiyac var. Fironun elmi vardı, amma nicat tapa bilmədi.

---

[1] "Təfsire-Əl-mizan". "Təfsire-Furqan".

3. Musanın möcüzələri o qədər aşkar idi ki, Firon da bu möcüzələri dərk edirdi.

4. Möcüzə sehr-cadudan fərqli olaraq xalqın bəsirəti üçündür.

5. Azğın hökumətlərdə xalqın hidayəti üçün başçılara üz tutmaq lazım gəlir.

6. İlahi peyğəmbərlər getdikləri yola əmin idilər. Buna görə də zalım hakimlərə qətiyyətlə xəbərdarlıq edirdilər.

7. Haqqı anladığı halda inadkarlıq və təkəbbür göstərən kəs həlak olar.

**● AYƏ 103:**

﴿فَأَرَادَ أَن يَسْتَفِزَّهُم مِّنَ الأَرْضِ فَأَغْرَقْنَاهُ وَمَن مَّعَهُ جَمِيعًا﴾

**“(Firon) qərara gəldi ki, onları məntəqədən sürgün etsin. Beləcə, Biz Fironu və onunla olanların hamısını qərq etdik.”**

**● AYƏ 104:**

﴿وَقُلْنَا مِن بَعْدِهِ لِبَنِي إِسْرَائِيلَ اسْكُنُواْ الأَرْضَ فَإِذَا جَاء وَعْدُ الآخِرَةِ جِئْنَا بِكُمْ لَفِيفًا﴾

**“Bundan (Firon qərq olduqdan) sonra Bəni-İsrailə dedik: «Bu məntəqədə yerləşin. Axirət vədi» çatdıqda sizin hamınızı bir yerə toplayacağıq.”**

**Nöqtələr**

● “İftifzaz” dedikdə zorla xaric etmək mənası anlaşılır. Quran zalımların ilahi övliyalara münasibətdə üsuluna və nakam qalmalarına dəfələrlə işarə etmişdir. İbrahimi oda atdılar, Allah odu soyutdu. Yusifi quyuya atdılar, Misir başçılarından oldu. Peyğəmbəri (s) Məkkədən çıxartdılar, Allah İslam dünyasının hakimiyyətini ona əta etdi. Batil əhlinin məkri qarşısında münasib tədbir görmək ilahi sünnədir.

● “Ləfif” dedikdə bir-birinə qoşulmuş dəstələr nəzərdə tutulur.

**Bildirişlər**

1. Zalım qüvvələrin işi əziyyət və sürgündür. Haqq insanlara münasibətdə onların dözümü yoxdur.

2. Allah zalım qüvvələrin istəyinə Öz istəyi və qəhr-qəzəbi ilə cavab verir.

3. Günah fikri günah sayılmasa da, peyğəmbərin sürgünü kimi təhlükəli fikir ilahi qəhr-qəzəblə nəticələnir.

4. Zalım qüvvələrin güc-qüdrəti yerə aiddir və məhduddur.

5. Allah höccəti tamamladıqdan, bəhanəyə yer qalmadıqdan sonra əzab göndərir. Möcüzələrdən və xalqın tərsliyindən sonra onların həlak olması qaçılmazdır.

6. Zalım qüvvələrin və onların həmkarlarının sonu puçdur.
7. Zalımlara yardım onların bədbəxtliyinə şəriklik səbəbidir.
8. Xalqın həlakında azğın rəhbərlərin rolu var.
9. Bir məntəqəyə müvəqqəti hakim olanlar qiyamətdə Allaha cavab verməlidirlər.

**● AYƏ 105:**

﴿وَبِالْحَقِّ أَنزَلْنَاهُ وَبِالْحَقِّ نَزَلَ وَمَا أَرْسَلْنَاكَ إِلاَّ مُبَشِّرًا وَنَذِيرًا﴾

**"Biz Quranı haqq olaraq nazil etdik və o, haqq olaraq nazil oldu. Biz səni yalnız müjdəçi və qorxudan ünvanında göndərdik."**

**Bildirişlər**

1. Quranın gerçəkliyinə zəmanət verilmişdir. Quran həm Allah tərəfindən haqq olaraq nazil edildi, həm də ilahi vəhy haqq olaraq (salamat) məqsədə çatdı. Şeytanlar ona bir zərər toxundura bilmədilər.

2. Müjdə və xəbərdarlıq peyğəmbərlərin işinin mehvəridir. Kimsənin haqqı yoxdur ki, başqalarına məcburi əqidə qəbul etdirsin.
3. Müjdə və xəbərdarlıq yanaşı olduqda səmərə verir.

**● AYƏ 106:**

﴿وَقُرْآناً فَرَقْنَاهُ لِتَقْرَأَهُ عَلَى النَّاسِ عَلَى مُكْثٍ وَنَزَّلْنَاهُ تَنزِيلاً﴾

**"Quranı xalqa asta-asta oxuyasan deyə, onu hissələrə böldük və tədricən nazil etdik."**

**Nöqtələr**

● Kafirlərin etirazlarından biri bu idi ki, nə üçün Quran bir dəfəyə nazil olmur?[1] Ayədə uyğun irada cavab verilir.

● Quran ayələri müxtəlif hadisələrlə rabitədə olduğundan və zaman ötdükcə hər bir təbəqənin ehtiyaclarını aradan qaldırmaq üçün hissə-hissə nazil olmuşdur. Ayrı-ayrı vaxtlarda nazil olmuş ayələr müxtəlif hadisələrlə əlaqələnmiş və intizarda olanlar tərəfindən maraqla qarşılanmışdır. Məsələn, əgər cihad ayələri sülh dövründə nazil olsaydı, həm tətbiq edilməz, həm də maraqla qarşılanmazdı.

● Tədricilik Allahın sünnələrindəndir. Allah birdəfəyə yarada biləcəyi halda dünyanı altı gündə yaratdı; Birdəfəyə nazil etməyə qadir ikən Quranı tədricən nazil etdi.

---

[1] "Furqan", 32.

Quran ona görə tədricən nazil edildi ki, onun ayələrinə əməl edilsin. Əlbəttə ki, belə bir tədricilik həm də peyğəmbərin vəhy mənbəyi ilə daimi rabitəsini göstərir.

**Bildirişlər**

1. Quranın hissə-hissə bölünməsi Allahın istəyidir.

2. Təlim-tərbiyə, doğru yola çağırış tədrici olmalıdır.

3. Quranın tədricən oxunması dinləyicini növbəti ayələrə susadır. Asayiş həm də əminliklə əldə olunur.

4. İstənilən bir tərbiyəçi və islahatçının uzunmüddətli proqramı olmalıdır. O, dövrdən və ortaya çıxan ehtiyaclardan xəbərsiz qalmamalıdır.

5. Əlbəttə ki, peyğəmbərdə Quranı birdəfəyə qəbul etmək tutumu vardı. Amma xalqın tutumu az olduğundan Quran tədricən nazil edilməli idi.

6. Quranın təlimdən əlavə icra yönümü var. Ayələr nazil olduqca icra edilməlidir. Yüzlərlə fəsadın baş aldığı cəmiyyətdə yüzlərlə hökmü birdəfəyə icra etmək mümkünsüzdür.

**● AYƏ 107:**

﴿قُلْ آمِنُواْ بِهِ أَوْ لاَ تُؤْمِنُواْ إِنَّ الَّذِينَ أُوتُواْ الْعِلْمَ مِن قَبْلِهِ إِذَا يُتْلَى عَلَيْهِمْ يَخِرُّونَ لِلأَذْقَانِ سُجَّدًا﴾

**“De ki, Qurana iman gətirin, ya gətirməyin (Allah üçün fərqi yoxdur). Şübhəsiz, bundan öncə elm verilənlərə tilavət olunarsa, səcdə edən halda üzü üstə yerə düşərlər.”**

**Nöqtələr**

● “Xərir” sözündən olan “yəxirrun” sözü yüksəklikdən tökülən su səsi mənasını bildirir. Eləcə də özündən ixtiyarsız Allah qarşısında səcdəyə düşən, təsbih dediyi halda səsi ucalan kəs belə adlanır.

● “Üzü üstə” (“çənəsi üstə”) ifadəsi təvazönün son həddini göstərir. Belə bir səcdədə alından əlavə, üz və çənə torpağa toxunur.

**Bildirişlər**

1. İnsanların iman və küfrünün Quranın haqq olmasına təsiri yoxdur.

2. Elm ilahi hədiyyədir.

3. Cəhalət kafirlərin nəzərində Allaha iman səbəbidirsə, Quran nəzərində imansızlıq səbəbidir. Quran elm və biliyi imanın kökü sayır.

4. Kitab əhli alimlərindən bir qrupu Qurana iman gətirdilər, Quran onların ruhunda dərin iz qoydu.

5. Gerçək elm insanı həqiqət qarşısında itaətə vadar edir.

6. Müxaliflərin əziyyətlərinin ruhumuzu sarsıtmaması üçün bir qrupun haqq qarşısında inadkarlığı zamanı itaət əhlini xatırlamaq lazımdır.

7. Quran o qədər uca və dəyərlidir ki, onun tilavəti alimlərin diqqəti ilə izlənilir.

**● AYƏ 108:**

﴿وَيَقُولُونَ سُبْحَانَ رَبِّنَا إِن كَانَ وَعْدُ رَبِّنَا لَمَفْعُولاً﴾

**“Deyirlər ki, bizim Rəbbimiz pak-pakizədir. Həqiqətən, Rəbbimizin vədi yerinə yetəsidir.”**

**● AYƏ 109:**

﴿وَيَخِرُّونَ لِلأَذْقَانِ يَبْكُونَ وَيَزِيدُهُمْ خُشُوعًا﴾

**“Ağlayaraq üzü üstə (səcdəyə) düşərlər və mütilikləri daim artar.”**

**Nöqtələr**

● “Yəxirrunə” təbirinin təkrarlanmasının bir neçə səbəbi ola bilər: onların səcdəsinin təkrarına görə, uyğun kamilliyi dəyərləndirməyə xatir, birinci mərhələdə Tövrat və İncilin vədinə çataraq Quran ayələrinə mərifət üçün səcdə, ikinci mərhələdə mütilik ruhiyyəsinə görə səcdə.

● Tövrat və İncildə son Peyğəmbərin (s) gəlişi ilə bağlı dəfələrlə vəd verilmişdir. Ayədə işarə olunur ki, kitab əhlindən bəziləri ilahi vədin gerçəkləşməsini görüb Allaha təsbih deyir, müti halda səcdəyə düşürdülər.

**Bildirişlər**

1. Yaxşı insanların və möminlərin danışıq və rəftarlarının təkrar bəyanı başqalarının tərbiyəsinə müsbət təsir göstərir.
2. Alimlər Allahı istənilən növ eybdən pak sayırlar. (Allahı nöqsanlı saymaq cəhalətdən qaynaqlanan əqidədir.)
3. Quran tilavəti bəzilərinə bir neçə baxımdan təsir göstərir: əməl, bəyan və qəlb.
4. Quran tilavəti insanı daim yüksəldir.
5. Mərifət və mütiliyin məhdudiyyəti yoxdur. İnsanın mərifəti, həqiqətlə tanışlığı artdıqca onun mütiliyi də artır.
6. İbadət və səcdə halında ağlamaq dəyərlidir.
7. Səcdədə Allah zikri səcdənin dəyərini göstərir.
8. Göz yaşı elmin bərəkət və təsirlərindəndir.
9. Bir anlıq yox, daimi göz yaşı dəyərlidir.

**● AYƏ 110:**

﴿قُلِ ادْعُواْ اللّهَ أَوِ ادْعُواْ الرَّحْمَنَ أَيًّا مَّا تَدْعُواْ فَلَهُ الأَسْمَاء الْحُسْنَى وَلاَ تَجْهَرْ
بِصَلاَتِكَ وَلاَ تُخَافِتْ بِهَا وَابْتَغِ بَيْنَ ذَلِكَ سَبِيلاً﴾

**“De ki, ya Allah adını çağırın, ya da Rəhman. Hər hansını dilə gətirirsinizsə gətirin. Çünki ən gözəl adlar Onundur. Namazını çox hündürdən və ya çox ahəstə qılma, orta halı gözlə. (Orta yolu seç.”**

**Nöqtələr**

● Bəzi təfsirlərdə bildirilir: həzrət Peyğəmbər (s) Məscidül-Həramda dua oxuyur və deyirdi: “Ya Allah, ya Rəhman.” Bəziləri elə güman etdilər ki, Peyğəmbər (s) birinin adı “Allah”, o birinin adı “Rəhman” olan iki Allahı çağırır. Ayə nazil oldu, uyğun şübhələrə cavab verildi.[1]

● Bəzi adlar sadəcə əlamət və nişanədir. Bu adlarda hər hansı məna yoxdur. Məsələn, fərdləri səsindən, libasından, avtomobilindən tanımaq və ya ölkəni bayraq və ya gerbi ilə müəyyənləşdirmək. Bəzən isə adlar nişanə olmur, mahiyyət daşıyır. Məsələn, Allahın mübarək adları. Bu adların hər biri Onun zatının kamalından danışır.

● Peyğəmbər (s) namaz qıldığı vaxt kafirlər şer oxumaqla ona mane olurdular. Həzrət namazı yavaşdan qıldıqda isə səhabələr eşitmirdi. Bu ayədə namazı orta səslə qılmaq göstəriş verildi.[2]

● Şiə və sünni rəvayətlərində deyilir: Allahın doxsan doqquz adı var və duada Allahı bu adlarla çağıran nicat tapıb qalib gələr.[3]

**Bildirişlər**

1. Peyğəmbər şübhələri aradan qaldırmalıdır.
2. Allahın bütün adları eyni bir həqiqətə qayıdır və Onun zatının eynidir.
3. Gözəl adlar və üstün sifətlər Allaha məxsusdur.
4. Allah və Onun kamillikləri sonsuz, insanın ağıl və nitqi məhdud olduğundan Allahı Ondan və Qurandan öyrəndiyimiz adlarla çağırmaq yaxşıdır. Əks-təqdirdə insan yanlışlığa düçar olub, Allaha qeyri-münasib adlar aid edə bilər.
5. İnsan dua oxumaqda azaddır. Allahı istənilən bir adı ilə çağırmaq olar.
6. Allahın hər bir adında ən üstün məna, ən müqəddəs məfhum mövcuddur.
7. İslam orta dindir. Hətta namazı orta səslə qılmaq lazımdır.
8. İslam niyyət və əməldən əlavə üsul və keyfiyyətə də diqqət yetirir. Namaz xüsusi bir qayda ilə qılınmalıdır.

---

[1] “Təfsire-tibyan”; “Təfsire-Furqan”.
[2] “Təfsire-Əbul-Futuh-Razi.”
[3] “Təfsire-Təbəri”. “Təfsire-Əl-mizan”. “Təfsire-Məcməül-bəyan”.

**● AYƏ 111:**

﴿وَقُلِ الْحَمْدُ لِلّهِ الَّذِي لَمْ يَتَّخِذْ وَلَدًا وَلَم يَكُن لَّهُ شَرِيكٌ فِي الْمُلْكِ وَلَمْ يَكُن لَّهُ وَلِيٌّ مِّنَ الذُّلَّ وَكَبِّرْهُ تَكْبِيرًا﴾

**"De ki, həmd-sitayiş özünə övlad götürməmiş, hökmündə şərik olmayan, zəifliyinə görə yardımçı tutmayan Allaha aiddir. Onu layiqincə böyük tut."**

**Nöqtələr**

● Bu surə Allaha təsbihlə (həmd-səna ilə) başlayır, həmd və təkbirlə başa çatır. Necə ki, "Muminun" surəsi möminlərin qurtuluş xəbəri ilə başlayır, kafirlərin həlakı xəbəri ilə başa çatır.

● Rəvayətlərdə bildirilir ki, bu ayənin tilavəti borcun ödənməsində, şəkk-şübhədən qurtarmaqda, yoxsulluqdan və xəstəlikdən uzaq olmaqda təsirlidir.

● Allahın övlad götürməməsi ilə bağlı bəyanat yəhudilərə və məsihilərə ünvanlanmışdır. Qüreyşilərin qarşısında Allahın şəriksiz, məcusilər və ulduzpərəstlər qarşısında onun yardımçısız olması bəyan olunur.[1]

**Bildirişlər**

1. Allaha necə sitayiş etməyi Onun özündən öyrənək.
2. Allah ehtiyacsız olduğu üçün sitayiş Ona məxsus sayılır.
3. Allahın əzəmət və böyüklüyünü xüsusi əzəmət sayaq və Onu mütləq ehtiyacsız tanıyaq.

---

[1] "Təfsire-Məcməül-bəyan". "Təfsire-nümunə".

# "KƏHF" SURƏSİ

### *(18-CI SURƏ, 110 AYƏ)*

### *On beş, on altıncı cüzlər*

### *"KƏHF" SURƏSININ SIMASI*

Bu surə 110 ayədən ibarətdir. İyirmi səkkizinci ayədən başqa onun bütün ayələri Məkkədə nazil olmuşdur. Bu surə Kəhf əshabından, həzrət Musa və Xızrın əhvalatından, Zül-Qərneyndən, yaranış və məad məsələlərindən bəhs olunur.

Qüreyş müşrikləri Məkkədən Mədinəyə nümayəndə heyəti göndərdilər ki, yəhudi alimlərindən həzrət Məhəmmədin (s) besəti və onun düz olması nişanələri haqqında öyrənsinlər. Yəhudi alimləri onların sorğusunu belə cavablandırdılar: "Ondan üç şey soruşun. Əgər suallardan ikisinə cavab versə, birini cavabsız buraxsa, ona inanın. Ondan Kəhf əshabı, Zül-Qərneyn və ruh haqqında soruşun. Əgər Kəhf əshabı və Zül-Qərneynlə bağlı sualları cavablandırıb, ruhla bağlı bir söz deməsə, həqiqətən peyğəmbərdir."[1]

Bu surənin fəziləti və onu oxumağın təsirləri haqqında xeyli hədis mövcuddur. Həmin hədislərdən bəzilərini nəzərdən keçirək: "Bu surəni oxuyan kəs Dəccal fitnəsindən amandadır."; Cümə gecəsi bu surəni oxuyan şəxsin növbəti cüməyədək və sonrakı üç gün üçün günahları bağışlanar"; surənin sornncu ayəsini oxumaqla gecənin istənilən bir saatında oyanmaq olar"; "Bu surənin oxunması cəhənnəm əzabına, şeytanın evə daxil olmasına mane olar. (Surə oxunan gecə)"

Hər halda bu surəni anlayıb əməl edərək oxumaq Quranın bərəkətlərinə yetişmək rəmzidir.

---

[1] "Təfsire-Dürrül-Mənsur".

بِسْمِ اللهِ الرَّحْمَنِ الرَّحِيمِ

**BAĞIŞLAYAN VƏ MEHRIBAN ALLAHIN ADI ILƏ**

**● AYƏ 1:**

﴿الْحَمْدُ لِلَّهِ الَّذِي أَنزَلَ عَلَى عَبْدِهِ الْكِتَابَ وَلَمْ يَجْعَل لَّهُ عِوَجَا﴾

**“Sitayiş öz bəndəsinə kitab nazil edən və onda heç bir yanlışlığa yol qoymayan Allaha məxsusdur.”**

**● AYƏ 2:**

﴿قَيِّمًا لِّيُنذِرَ بَأْسًا شَدِيدًا مِن لَّدُنْهُ وَيُبَشِّرَ الْمُؤْمِنِينَ الَّذِينَ يَعْمَلُونَ الصَّالِحَاتِ أَنَّ لَهُمْ أَجْرًا حَسَنًا﴾

**“Öz tərəfindən olan şiddətli əzabla qorxutmaq, saleh işlər görən möminləri yaxşı mükafatla müjdələyən möhkəm və (digər səmavi kitabları) qoruyan (bir kitabdır).”**

**Nöqtələr**

● Quran surələri arasında “Həmd”, “Ənam”, “Səba”, “Fatir” və “Kəhf” surələri “Əlhəmdulillah” cümləsi ilə başlayır. Bu surələrdən üçündə yaranışdan danışılır. “Həmd” surəsində tərbiyədən, bu surədə səmavi kitabdan söhbət açılır. Belə ki, varlıq və yaranış insanların tərbiyəsi üçün kitab və qanunla yanaşı iki qanad kimidir.

● “İvncac” dedikdə “yanlışlıq və əyrilik”, “əvəc” dedikdə “hiss olunanlar”, “ivəc” dedikdə isə “hiss olunmayanlar” nəzərdə tutulur. (“Əvəc” insanlar, “ivəc” isə digərlərinə aiddir;[1] “Qəyyim” sözü bərpa edən, sahmana salan mənasını bildirir.)

● Ötən surə “Subhanəlləzi”, bu surə isə “Əlhəmdulillah” (adətən yanaşı işlənən təsbih və təhmid) təbiri ilə başlayır.

● “Əbdihi” sözü harada mütləq formada işlədilmişdirsə, həzrət Peyğəmbər (s) nəzərdə tutulur.[2]

**Bildirişlər**

1. Kitab və qanun neməti o qədər mühümdür ki, Allah bu nemətlərlə bağlı Özünü tərif edir.

---

[1] “Təfsire-tibyan”.

[2] “Furqan”, 1. “Nəcm”, 10. “Hədid”, 9. “Zumər”, 36.

2. Allaha bəndəlik mənəvi kamilliklərin əldə olunması üçün zəmin yaradır.

3. Nə Allahın kitabında, nə də İslam Peyğəmbərində (s) yanlışlıq müşahidə olunur. Onlar nə haqdan batilə, nə faydalıdan zərərliyə, nə də düzgündən yanlışa meyl edirlər.

4. Quran qiyamətədək sabit və dəyişməzdir.

5. Quran səmavi kitabların mühafizi, bəndələrin bütün faydalarını özündə əks etdirən kitabdır. Bu kitabda nöqsana, ixtilafa, ifrat və təfritə yer yoxdur. O, qiyama, həm də üstün bir qiyama çağırır.

6. Rəhbərin başqalarının faydası üçün qiyam qaldırmasında onun yanlışlıqdan uzaq olması şərtdir.

7. Zərərin dəfi mənfəət kəsb etməkdən mühümdür. Ona görə də öncə xəbərdarlıq, sonra müjdə gəlir.

8. İman saleh əməllə yanaşı fayda verir.

9. Saleh əməl davamlı olmalıdır.

**● AYƏ 3:**

﴿مَاكِثِينَ فِيهِ أَبَدًا﴾

**“Orada həmişəlik qalasıdırlar.”**

**● AYƏ 4:**

﴿وَيُنذِرَ الَّذِينَ قَالُوا اتَّخَذَ اللَّهُ وَلَدًا﴾

**“(İlahi kitab və peyğəmbər) Allah Özünə övlad götürmüşdür” deyənlərə xəbərdarlıq edələr.”**

**● AYƏ 5:**

﴿مَّا لَهُم بِهِ مِنْ عِلْمٍ وَلَا لِآبَائِهِمْ كَبُرَتْ كَلِمَةً تَخْرُجُ مِنْ أَفْوَاهِهِمْ إِن يَقُولُونَ إِلَّا كَذِبًا﴾

**“Onların və atalarının bu sözlə bağlı heç bir elmi yoxdur. Onların ağzından çıxan bu söz böyük böhtandır. Onlar yalnız yalan danışırlar.”**

**Nöqtələr**

● Ötən ayədə də xəbərdarlıq bəyan olunmuşdu. Amma müşriklərin Allahın övlad götürməsi ilə bağlı azğın fikirlərinin əhəmiyyətinə görə xəbərdarlıq təkrarlanır.

● Quranın digər ayələrinə əsasən, Allahın övlad götürməsi ittihamı müşriklər arasındakı ən böyük şayiə olmuşdur. Məsihilər İsanı, yəhudilər Üzeyri Allahın

oğlu sayırdılar. Müşriklər isə mələkləri Allahın qızları hesab edirdilər. Halbuki belə bir əqidə nə gerçəkliklə, nə də ağılla bir araya sığır.

**Bildirişlər**

1. Daimi əməlin daimi mükafatı var. İkinci ayədəki "yəməlunəs-salihat" təbiri əməlin davamını göstərir. Bu ayədəki "Makisin" təbiri isə daimi mükafata işarədir.
2. İnsanın əbədi həyata meyli var. Allah isə belə bir həyatı qiyamətdə qərar vermişdir.
3. Axirətə aid ilahi nemətlərin xüsusiyyətlərindən biri onların əbədiliyidir. Qiyamətdə ölüm və fəna yoxdur.
4. Xalqın əqidəsinin islahı peyğəmbərlərin vəzifələrindəndir.
5. Cəhalət və bixəbərlik azğınlıq zəminidir.
6. Əqidə elmə əsaslanmalıdır. Elmi əsası olmayan əqidə tənqid olunmuşdur.
7. İmanı olmayan insan öz xaliqinə iftira yaxır.
8. Allahın övladı olması fikri əsassız bir böhtandır.
9. Allaha övlad aid etmək həm şirkdir, həm yersiz müqayisədir, həm də Allahı canişinə və həmkara ehtiyaclı saymaqdır.

### ● AYƏ 6:

﴿فَلَعَلَّكَ بَاخِعٌ نَّفْسَكَ عَلَى آثَارِهِمْ إِن لَّمْ يُؤْمِنُوا بِهَذَا الْحَدِيثِ أَسَفًا﴾

**"Qorxu var ki, əgər bu hədisə (Qurana) iman gətirməsələr, sən onların ardınca özünü həlak edəsən!"**

**Nöqtələr**

● "Əsəf" dedikdə hüznün, qəm-qüssənin ən şiddətli dərəcəsi başa düşülür.

● "Ləalləkə baxiun nəfsəkə əla asarihim" cümləsi Peyğəmbərin (s) son dərəcə canıyananlığını göstərir. Peyğəmbər (s) ən əziz adamlarından ayrılan və onların arxasınca həsrətlə baxan şəxsə oxşadılır.

**Bildirişlər**

1. Başqalarının azğınlığına canıyananlıq və təəssüf bir dəyərdir. Peyğəmbər (s) ən canıyanan fərd olmuşdur.
2. Rəhbər xalqın əqidə və əməlinin islahı barədə düşünməli və bu istiqamətdə çalışmalıdır.
3. Quranda yeni söz və bildiriş var. Təbliğatçının da öz təbliğində yenilikçiliyi olmalıdır. ("Hədis" sözü yeni mənasını bildirir.)

### ● AYƏ 7:

﴿إِنَّا جَعَلْنَا مَا عَلَى الْأَرْضِ زِينَةً لَّهَا لِنَبْلُوَهُمْ أَيُّهُمْ أَحْسَنُ عَمَلًا﴾

**“Əlbəttə, Biz yer üzündə olanı onun üçün zinət qərar verdik və hansının daha üstün və yaxşı əməl edəcəyini sınağa çəkmək istədik.”**

**● AYƏ 8:**

**﴿وَإِنَّا لَجَاعِلُونَ مَا عَلَيْهَا صَعِيدًا جُرُزًا﴾**

**“Biz (sonda) onun üzərində olanı torpaq və otsuz-ələfsiz yer şəklinə saldıq.”**

**Nöqtələr**

● “Səid” dedikdə torpaq, mütləq yer üzü başa düşülür. “Curus” isə otsuz yerdir.

● Allah xalqın sınağı ilə bağlı olan “linəbluvəkum” sözünü “cəəlna” və “cailunə” sözləri arasında yerləşdirmişdir. Onlardan biri yaşıl örtüklü yerə, digəri otsuz-ələfsiz sahəyə aiddir. İşarə olunur ki, xalq yaşıllıqla quraqlıq, şadlıqla qəm arasında sınağa çəkilir. Ən mühümü isə insanın əməli və qalib gəlməsidir.

● Rəvayətlərdə bildirilir ki, «gözəl əməl» dedikdə, qiyamət azuqəsi olan ağıllı və təqvalı iş nəzərdə tutulur.[1]

**Bildirişlər**

1. Kafirlərin iman gətirməməsinin səbəbi onların dünya zirvələrinə uymasıdır.

2. Bağlar, güllər, meyvələr, heyvanlar, sular, mədənlər, rənglər, qoxular, bir sözlə yer üzündə nə varsa yerin zinətidir. İnkişaf etmiş insanlar üçün isə iman əsl zinət və yaraşıqdır.[2]

3. Zinətlər sınaq vasitəsidir. Zinətlər vasitəsi ilə kimin aldanıb özünü satması, kimin əqvalı olub onları saleh əməl üçün müqəddimə qərar verməsi müəyyənləşdirilir.

4. Sınaq prinsipi insanın ixtiyar sahibi olduğunu göstərir. (O zaman sınaqdan danışmaq olar ki, insanda seçim imkanı olsun.)

5. Əməlin kəmiyyəti yox, keyfiyyəti mühümdür.

6. Gül-çiçəyin, təbiətin gözəlliyi bizi qürrələndirməsin. Hamı torpaqla bir olasıdır.

**● AYƏ 9:**

**﴿أَمْ حَسِبْتَ أَنَّ أَصْحَابَ الْكَهْفِ وَالرَّقِيمِ كَانُوا مِنْ آيَاتِنَا عَجَبًا﴾**

---

[1] “Təfsire-Nurus-səqəleyn”, c 5, s. 361; c. 3, s. 243.

[2] “Hucurat”, 7.

**"Yoxsa güman edirsən ki, Kəhf əshabı və Rəqim Bizim qəribə nişanələrimizdəndir?"**

**Nöqtələr**

● "Rəqim" dedikdə, Kəhf əshabının əhvalatı yazılmış lövhə nəzərdə tutulur. Onların adı bu lövhədə qeyd olunmuşdur. "Kəhf" sözü böyük mağara mənasını bildirir.

● Ayədə deyilir: Bir neçə nəfəri mağarada yatırdıb sonradan oyatmaqdan da mühümü yer üzündə çoxsaylı gözəlliklər yaradıb, sonradan onları məhv etməkdir. İlahi qüdrət qarşısında Kəhf əshabının macərası o qədər də təəccüb doğurmur.

● Kəhf əshabının əhvalatı həzrət İsadan sonra, İslam Peyğəmbərindən (s) öncə, Rum məmləkətində, Efsus şəhərində, Dəqyanus adlı zalım hakimin zamanında baş vermişdir. Bu macəranın hicrət, ilahi yardımlar kimi ibrət dərsləri var. Uyğun həqiqətlər məkan, zaman və kəmiyyət məhdudiyyətinə sığmır.

● Zahirən belə görünür ki, Kəhf əshabı və Rəqim eyni bir qrupun adıdır. Bəzilərinin nəzərincə, Rəqim Kəhf əshabının yaşadığı məntəqənin adıdır. Bəzi təfsirlərdə isə Rəqim əshabının kəsb və ticarət üçün evdən çıxan 3 nəfərdən ibarət olduğu qeyd edilir. Onları yolda yağış tutur və bir mağaraya sığınırlar. Dağdan uçan bir daş mağaranın girişini bağlayır və bu 3 nəfər mağarada qalır. Onların hər biri həyatı boyu gördüyü ən xeyir və xalisanə işi xatırlayır. Onlar Allahdan bu əməlləri müqabilində qurtuluş diləyirlər. Hər biri öz xeyir əməli haqqında danışdıqda mağaranın girişindəki daş azca tərpənir. Nəhayət, həmin adamlar xilas olurlar. Həzrət Peyğəmbər (s) bu əhvalatı nəql etdikdən sonra buyurdu: "Allahla olan hər kəs nicat tapar."[1]

**● Ayə 10:**

﴿إِذْ أَوَى الْفِتْيَةُ إِلَى الْكَهْفِ فَقَالُوا رَبَّنَا آتِنَا مِن لَّدُنكَ رَحْمَةً وَهَيِّئْ لَنَا مِنْ أَمْرِنَا رَشَدًا﴾

**"Cavanlar mağaraya pənah apardıqları vaxt dedilər: «Pərvərdigara! Bizə Öz tərəfindən rəhmət əta et və bizim üçün işimizdə irəliləyiş qərar ver.»"**

---

[1] "Təfsire-Məcməül-bəyan". "Təfsire-Nurus-səqəleyn". "Təfsire-kəşful-əsrar". "Təfsire-Dürrül-Mənsur".

● Ayə 11:

﴿فَضَرَبْنَا عَلَى آذَانِهِمْ فِي الْكَهْفِ سِنِينَ عَدَدًا﴾

**"Mağarada olduqları neçə ildə onların qulaqlarını qapadıq."**

**Nöqtələr**

● "Fəta" sözünün cəm forması olan "fityə" sözü cavan mənasını bildirir. İmam Sadiq (ə) buyurur: "Fəta" imanlı insan mənasını bildirir. Çünki Allah həmin şəxslər yaşlı olduqları halda imanlarına xatir onları "fəta" kimi tanıtdırır."[1]

● "Rəşəd" sözü "rüşd", yəni ilahi qurtuluş və razılıq mənasında işlədilmişdir. Bu surədə üç yerdə "rəşəd" sözündən istifadə olunmuşdur: Kəhf səhabəsinin əhvalatında, Musa və Xızrın əhvalatında (ayə 66) və İslam Peyğəmbəri (s) ilə bağlı (ayə 23).

● Hədisdə bildirilir ki, "zərəbna fi azanihim" (qulaqlarını vurduq, qulaqlarını qapadıq) təbiri 309 illik yuxu və yenidən oyanış mənasındadır.[2]

**Bildirişlər**

1. Dinin hifzi üçün insanda mərdanəlik, rifaha göz yummaq və hicrət kimi səciyyələr lazımdır.
2. Dua səy və hərəkətlə müşayiət olunduqda səmərə verir.
3. İmanın hifzi üçün günahkar mühitdən hicrət mərdanə işdir.
4. Allahın razılığı üçün hicrət və qiyam ilahi yardımlardan bəhrələnmə zəminidir.

● Ayə 12:

﴿ثُمَّ بَعَثْنَاهُمْ لِنَعْلَمَ أَيُّ الْحِزْبَيْنِ أَحْصَى لِمَا لَبِثُوا أَمَدًا﴾

**"Həmin iki dəstədən hansının öz yuxu və yubanma müddətini dəqiq hesablaması üçün onları qaldırdıq."**

**Nöqtələr**

● Hansı dəstənin daha dəqiq hesablaması məsələsi hazırkı surənin 19-cu ayəsinə işarə ola bilər. Ayədən məlum olur ki, Kəhf əshabı arasında yuxunun müddəti ilə bağlı fikir ayrılığı vardır.

● Allah hər şeyi öncədən bilir və alimdir. "Linələmə", yəni "məlum edək" dedikdə, ya Allah xalqın dilindən danışır, ya da Allahın bildiklərinin gerçəkləşəcəyinə işarə olunur.

---

[1] "Kafi", c. 8, s. 398; "Təfsire-Nurus-səqəleyn".
[2] "Təfsire-Nurus-səqəleyn".

**● AYƏ 13:**

﴿نَحْنُ نَقُصُّ عَلَيْكَ نَبَأَهُم بِالْحَقِّ إِنَّهُمْ فِتْيَةٌ آمَنُوا بِرَبِّهِمْ وَزِدْنَاهُمْ هُدًى﴾

**“Biz onların (Kəhf əshabının) əhvalatını sənə olduğu kimi hekayət edirik. Onlar Rəblərinə iman gətirmiş gənclər idi və Biz onların hidayətini artırdıq.”**

**Nöqtələr**

● İnsanlar fəsad və günahkar cəmiyyətdə üç münasibətdə ola bilər:

a) Bəziləri cəmiyyətin fəsadında həzm olur. (Hicrət etməyən və kamil imanı olmayanlar)

b) Bəziləri günahkar cəmiyyətdə özünü qoruyur. (Məsələn, Kəhf əshabı)

v) Bəziləri günahkar cəmiyyəti dəyişib islah edir. (Peyğəmbərlər və övliyalar)

● Rəvayətlərdə bildirilir ki, Kəhf əshabı həzrət Mehdinin (ə) səhabələrindən və yardımçılarındandır.[1]

**Bildirişlər**

1. Həqiqətə əsaslanan dastanlar danışmaq hər kəsin işi deyil.
2. Kəhf əshabının dastanı mühüm və faydalıdır.
3. Həqiqətlərdən bəhrələnmə və tarixdən ibrət götürmə Quranın tərbiyə üsullarındandır.
4. Quran qissələri həqiqətə əsaslanır və bu qissələrdə saxtalıq, uydurma və təhrif yoxdur.
5. İnsanın hərəkət və səyi onun inkişaf və hidayət səbəbidir.
6. İman və hidayətin dərəcələri var.

**● AYƏ 14:**

﴿وَرَبَطْنَا عَلَى قُلُوبِهِمْ إِذْ قَامُوا فَقَالُوا رَبُّنَا رَبُّ السَّمَاوَاتِ وَالْأَرْضِ لَن نَّدْعُوَ مِن دُونِهِ إِلَهًا لَقَدْ قُلْنَا إِذًا شَطَطًا﴾

**“Biz onların qəlbinə güc və möhkəmlik verdik, ayağa qalxıb (xalqdan fərqli olaraq) dedilər: «Bizim Rəbbimiz elə həmin göylərin və yerin Rəbbidir. Heç vaxt Ondan başqa məbud çağırmayacağıq. Belə etmiş olsaq, xəta söz demiş olarıq.»”**

**Nöqtələr**

● “Şətət” sözü haqdan uzaqlıqda və batilin izharında ifrat mənasını bildirir. Belə bir hal heç vəchlə qəbul olunmur.

---

[1] “Muntəxəbul-əsər”, s. 485.

**Bildirişlər**

1. Qəlblərin aramlığı və sabitliyi Allahın əlindədir.

2. Cəmiyyət yolunu azdığı vaxt bir yerdə dayanmaq olmaz və qiyam etmək zəruridir.

3. İlahi yardımlar iman, vəhdət, qiyam və təvəkkül sayəsində əldə olunur.

4. Sitəmkar qarşısında qiyam üçün möhkəm iman və arxayın qəlbə ehtiyac var.

5. Həqiqi iman haqq uğrunda qiyamla müşayiət olunur.

6. Gerçək müvəhhid (təkallahçı) heç vaxt şirk sorağınca getmir.

7. Tövhidin səmərəsi rübubiyyətdə, tövhid isə bəndəlik etməkdir.

8. Şirk yolverilməz azğınlıqdır və heç vaxt əfv olunmur.

**● AYƏ 15:**

﴿هَؤُلَاء قَوْمُنَا اتَّخَذُوا مِن دُونِهِ آلِهَةً لَّوْلَا يَأْتُونَ عَلَيْهِم بِسُلْطَانٍ بَيِّنٍ فَمَنْ أَظْلَمُ مِمَّنِ افْتَرَى عَلَى اللَّهِ كَذِبًا﴾

**“O bizim qövmdür ki, Allahdan savay məbudlar qəbul etdi. Nə üçün öz tanrılarına aşkar dəlil göstərmirlər? Allaha iftira yaxandan da sitəmkarı kimdir?!”**

**Nöqtələr**

● “İftira” sözü yalan aid etmək mənasını bildirsə də, yenə də “kəziba” sözündən istifadə olunmuşdur. Bunun səbəbi iftiranın iki növə malik olması ola bilər: Bəzən aid etmək imkanı olur, bəzən isə belə bir imkan olmur. Şirk ikinci növə aiddir. Çünki sonsuz elm və qüdrət sahibinə münasibətdə şirk mahaldır.

**Bildirişlər**

1. Başqalarının azğınlıq və büdrəməsinə biganə qalmaq olmaz. (Kəhf əshabı öz qövmünün azğınlığına görə narahat idi.)

2. İlahi insanların ən böyük narahatlığı xalqın əqidə çaşqınlığıdır.

3. Əqidə məsələlərində təqlid məntiqsizdir. Əqidə seçərkən aşkar dəlilə istinad etmək lazımdır.

4. Şirk Allaha iftiradır və əsassızdır.

5. Yalan zülm, yalançı zalımdır. Allaha yalan aid edən kəs daha zalımdır.

**● AYƏ 16:**

﴿وَإِذِ اعْتَزَلْتُمُوهُمْ وَمَا يَعْبُدُونَ إِلَّا اللَّهَ فَأْوُوا إِلَى الْكَهْفِ يَنشُرْ لَكُمْ رَبُّكُم مِّن رَّحمته ويُهَيِّئْ لَكُم مِّنْ أَمْرِكُم مِّرْفَقًا﴾

**“Müşriklərdən və onların Allahdan başqa pərəstiş etdiyi tanrılardan uzaqlaşdığınız vaxt mağaraya sığının ki, Rəbbiniz sizin üçün Öz mərhəmətindən əta etsin və sizin üçün işinizdə açılış qərar versin.”**

**Nöqtələr**

● Bu sözlər Kəhf səhabələrinin rəhbərinin dilindən deyilir. O öz yanındakı gənclərə Allahın rəhməti ilə ümid verir.[1]

**Bildirişlər**

1. Həqiqi allahpərəst həm bütləri boşlayır, həm də bütpərəstlərdən uzaqlaşır.
2. Allahpərəstlər üçün müşriklər tərəfindən daim təhlükə var.
3. Tövhid fəzası olan mağarada yaşamaq şirk fəzası olan şəhərdə yaşamaqdan üstündür. Həzrət Yusif (ə) da öz növbəsində zindanı saraydan üstün tutdu.[2]
4. Allaha xatir qiyam qaldıran, cəmiyyətindən uzaqlaşıb hicrət edən kəs ilahi lütfdən bəhrələnir.
5. Çətinliklər ötəridir və asayiş üçün müqəddimədir.

**● Ayə 17:**

﴿وَتَرَى الشَّمْسَ إِذَا طَلَعَت تَّزَاوَرُ عَن كَهْفِهِمْ ذَاتَ الْيَمِينِ وَإِذَا غَرَبَت تَّقْرِضُهُمْ ذَاتَ الشِّمَالِ وَهُمْ فِي فَجْوَةٍ مِّنْهُ ذَلِكَ مِنْ آيَاتِ اللَّهِ مَن يَهْدِ اللَّهُ فَهُوَ الْمُهْتَدِي وَمَن يُضْلِلْ فَلَن تَجِدَ لَهُ وَلِيًّا مُّرْشِدًا﴾

**“(Əgər orada olsaydın) görərdin ki, günəş doğduğu vaxt onların sağına meyl edir, batdığı vaxt onları boşlayıb sola yönəlir. Onlar mağaranın geniş bir hissəsində qərar tutdular. Bu, Allahın ayə və nişanələrindəndir. Allahın hidayət etdiyi kəs həqiqətən hidayət olmuşdur. Onun yoldan çıxardığı kəs üçün isə heç vaxt yol göstərən yardımçı tapa bilməzsən.”**

**Nöqtələr**

● Kəhf səhabələrinin mağarası coğrafi baxımdan şimal-şərqdə yerləşirdi və günəş onu sonadək işıqlandırmırdı. Bu mağaranın harada olması barədə ixtilaf var. Bəziləri həmin mağaranın Dəməşq ətrafında olduğunu bildirirlər. Kəhf əshabı mağarasının İordaniyanın paytaxtı Oman şəhəri ətrafında olduğunu da iddia edənlər var. Qeyd olunan yerdə səhabələrin sayı qədər qəbir və divarda

---

[1] “Təfsire-Məcməül-bəyan”.
[2] “Yusuf”, 33.

həkk olmuş it cizgisi var. Mağaranın yuxarı hissəsində qədim bir sövmiyə (rahib ibadətgahı) var. Orada müsəlmanlar məscid tikmişlər.[1]

Hər halda mağaranın xüsusiyyətləri ilahi rəhmət nişanələrindəndir. Ötən ayədə bununla bağlı vəd vardı.

**Bildirişlər**

1. Allah bəzən möcüzə yolu ilə yox, təbii şəkildə hifz edər. Kəhf əshabı da bu sayaq hifz olunmuşdur. Günəşin mağaranı birbaşa işıqlandırmaması, nəsim yelinin mövcudluğu, mağara ərazisinin genişliyi bu səhabələrin salamatlığı üçün zəruri olan amillərdəndir.

2. İman üçün tövfiq əldə olunması, müşrik qövmdən uzaqlıq, sadalanan xüsusiyyətlərə malik mağaraya sığınmaq yalnız Allahın istək və hidayəti ilə mümkün olan işlərdir.

**● AYƏ 18:**

﴾وَتَحْسَبُهُمْ أَيْقَاظًا وَهُمْ رُقُودٌ وَنُقَلِّبُهُمْ ذَاتَ الْيَمِينِ وَذَاتَ الشِّمَالِ وَكَلْبُهُم بَاسِطٌ ذِرَاعَيْهِ بِالْوَصِيدِ لَوِ اطَّلَعْتَ عَلَيْهِمْ لَوَلَّيْتَ مِنْهُمْ فِرَارًا وَلَمُلِئْتَ مِنْهُمْ رُعْبًا﴿

**“(Əgər onlara baxsaydın) onları oyaq sayardın (çünki gözləri açıq idi). Halbuki onlar yuxuda idilər. Biz onları sağ və sol tərəfə çevirərdik (ki, salamat qalsınlar). Onların iti pəncələrini mağaranın astanasında qoymuşdu (keşik çəkirdi). Əgər onlara baxsaydın, baş götürüb qaçardın. Başdan ayağa qorxuya bürünərdin.”**

**Nöqtələr**

● “Məcməul-bəyan” təfsirinin yazdığına əsasən, “Kəlbuhum basitun ziraəyhi” cümləsi itin 309 il diri qalıb keşik çəkməsini göstərir.

Bəli, əgər Allah istəsə, bir hörümçək toru ilə mağarada Peyğəmbərini (s) qoruyar, kafirləri peşman edər. Ya bir mağarada oturub keşik çəkən itlə möminləri zalımların caynağından hifz edər.

**Bildirişlər**

1. İnsanın yuxuya getməsi Allahın nemətlərindən biridir.

---

[1] “Təfsire-Furqan”.

2. Allah səbəb yaratdığı kimi, səbəbi aradan götürə bilər. Amil və təsirlərin dəyişməsi Allahın ayələrindəndir. (Allah Kəhf əshabı üçün bir neçə saatlıq yuxunu 309 il qərar verdi və həmin müddət ərzində onların gözü açıq saxlanıldı.)

3. Bəzən heyvanlar da ilahi məqsədli əmr alır. Heyvanların insan həyatında oynadığı rola qarşı diqqətsiz olmayaq.

4. Fərdləri onların forma və qiyafəsi əsasında tanımaq düzgün deyil. Övliya xalqın xoşlamadığı bir qiyafədə ola bilər. (Qiyafəni dəyişməklə qorxu yaratmaqda məqsəd övliyaların başqalarından hifzi ola bilər.)

**● AYƏ 19:**

﴿وَكَذَلِكَ بَعَثْنَاهُمْ لِيَتَسَاءلُوا بَيْنَهُمْ قَالَ قَائِلٌ مِّنْهُمْ كَمْ لَبِثْتُمْ قَالُوا لَبِثْنَا يَوْمًا أَوْ
بَعْضَ يَوْمٍ قَالُوا رَبُّكُمْ أَعْلَمُ بِمَا لَبِثْتُمْ فَابْعَثُوا أَحَدَكُم بِوَرِقِكُمْ هَذِهِ إِلَى الْمَدِينَةِ
فَلْيَنظُرْ أَيُّهَا أَزْكَى طَعَامًا فَلْيَأْتِكُم بِرِزْقٍ مِّنْهُ وَلْيَتَلَطَّفْ وَلَا يُشْعِرَنَّ بِكُمْ أَحَدًا﴾

**“Aralarında bir-birlərindən soruşsunlar deyə onları bu sayaq oyatdıq. Onlardan biri dedi: “Mağarada) nə qədər qalmısınız? Dedilər: “Bir gün, ya günün bir hissəsi.” (Nəhayət) dedilər: “Burada nə qədər qaldığınızı Rəbbiniz daha yaxşı bilir. Aranızdan birini bu pulunuzla şəhərə göndərin ki, görsün hansı pak qidalar var və sizin üçün ondan gətirsin. Bu işdə zirək olsun və məbada kimsəni sizdən xəbərdar etsin!”**

**Nöqtələr**

● “Vəriq” üzərində padşahın şəkli həkk olunmuş dirhəmlər idi.

● “Vəlyətələttəf” təbiri Qurani-kərimin orta hissəsində yerləşmişdir. Bu söz müdara, mehribanlıqla müşayiət olunan ayıqlıq mənasını bildirir. Bir sözün Quranın ortasında lütf, mehribanlıq fəzası yaratması özü də bir lütfdür.

● Günahkar cəmiyyətə qarşı mübarizədə qüvvələr arasında vəhdət mühümdür. Bu ayədə cəm bildirən “kum” hissəsi 4 dəfə işlədilmişdir: qida hazırlanmasında hamı birdir; pul hamı üçündür; hazırlanan qida hamıya aiddir; hamının canının qorunması zəruridir.

**Bildirişlər**

1. Allah üçün heç bir iş çətin deyil. 309 illik yuxu və deyilən şəkildə oyatmaq Onun üçün asandır.

2. Qiyamətdə insanların ayağa qaldırılması sizi təəccübləndirməsin, hər yuxudan oyanış bir növ qiyamətdir.

3. İnsan yuxudan da Allahın iradəsi ilə oyanır.

4. Kəhf səhabələrinin oyanışının iki səmərəsi vardı: Bu həm onların özü üçün sual idi, həm ətrafdakılar üçün qiyamət nümunəsi idi.

5. Bilmədiyimiz şey haqqında fikir söyləməyək.

6. Hətta ən kiçik bir qrupun da rəhbəri olmalıdır. (Kəhf səhabələri arasında da onlara yol göstərən, sorğuya çəkən rəhbər vardı.)

7. Dolanışıq ardınca getmək Allaha təvəkküllə zidd deyil. Kəhf səhabələrinin həm pulu vardı, həm də yemək ardınca gedirdilər.

8. Bir dəstəyə vəkalət və onun qəbulu icazə verilmiş işlərdir.

9. Pul kəsimi və onun tədavümünün tarixi keçmişi var.

10. Hər bir malın öz dəyəri var.

11. Həqiqi möminlər öz qidasına fikir verir. Qidanın növü, miqdarı, paklığı və halallığı onlar üçün mühümdür.

12. Mömin sirr saxlayan və ayıq olmalı, müdara və təqiyyə etməklə özünü düşmənə aşkarlamamalıdır. Məsuliyyət qəbul edən kəs müəyyən şərtlərə əməl etməlidir.

**• AYƏ 20:**

﴿إِنَّهُمْ إِن يَظْهَرُوا عَلَيْكُمْ يَرْجُمُوكُمْ أَوْ يُعِيدُوكُمْ فِي مِلَّتِهِمْ وَلَن تُفْلِحُوا إِذًا أَبَدًا﴾

**“Əgər onların (müşriklərin) sizə əli çatsa, sizi daşqalaq edəcək, ya da öz ayinlərinə döndərəcəklər. Belə olsa, heç vaxt nicat tapmayacaqsınız.”**

**Bildirişlər**

1. Bəzi hallarda canı və imanı qorumaq üçün təqiyyə vacib olur.

2. Özünə və imanına biganə qalıb yolunu azan kəs heç vaxt nicat tapmaz.

3. “Palaza bürün, ellə sürün” məntiqi Quran məntiqinə ziddir.

4. Mühitin sərtliyi, cəmiyyət və hökumətin zoru adətən xalqı azdırıb bədbəxt edir. Amma bu mənfi təsirlərə qarşı mübarizə lazımdır.

5. Haqq yolda daşqalaq edilmək yox, doğru yoldan və dindən çıxmaq eybdir.

6. Mürtəd (dindən çıxmış şəxs) heç vaxt nicat tapmaz.

**• AYƏ 21:**

﴿وَكَذَلِكَ أَعْثَرْنَا عَلَيْهِمْ لِيَعْلَمُوا أَنَّ وَعْدَ اللَّهِ حَقٌّ وَأَنَّ السَّاعَةَ لَا رَيْبَ فِيهَا إِذْ يَتَنَازَعُونَ بَيْنَهُمْ أَمْرَهُمْ فَقَالُوا ابْنُوا عَلَيْهِم بُنْيَانًا رَّبُّهُمْ أَعْلَمُ بِهِمْ قَالَ الَّذِينَ غَلَبُوا عَلَى أَمْرِهِمْ لَنَتَّخِذَنَّ عَلَيْهِم مَّسْجِدًا﴾

**“Aralarında (qiyamətdəki) işləri haqqında söhbət olduqda ilahi vədin haqq olduğunu bilsinlər deyə onları bu sayaq hallarından xəbərdar etdik. Qiyamətin yetişəcəyinə heç bir şübhə yoxdur. (Bu həqiqət aşkarlandıqda) bir dəstə dedi: «Onların üzərində bir bina tikin, Rəbləri onların halını**

**daha yaxşı bilir.» Onların işindən xəbərdar olanlar isə belə dedilər: “Biz onların üzərində məbəd tikərik.”**

**Nöqtələr**

● Araşdırma aparmadan, təsadüfən bir iş haqqında məlumat əldə etmək “isar” adlanır. (Əlif-əyn-sa-əlif-ra) çünki həmin dövrün insanları heç bir zəhmət çəkmədən onların pul sikkələrini görüb sirlərindən xəbər tutdular.

● Kəhf səhabələrinin əhvalatında ilahi qüdrət və iradə, şücaət, dünyanın əsarətindən çıxmaq, hicrət, təqiyyə, ilahi yardımlar və halal qidalar mövzuları qeyd olunur.

**Bildirişlər**

1. Təcrübi, göz qarşısında olan inkişaf və təlim-tərbiyə daha üstündür.
2. Allahın heç bir işi əbəs deyil.
3. Əqidələr elmə əsaslanmalıdır.
4. İnsanı üç əsrdən çox ac saxlaya bilən bir qüdrət ölüləri də diriltdə bilər.
5. İnsan bəzi tarixi hadisələrə səthi nəzər salır və onun tərbiyəvi təsirlərindən bəhrələnmir. Kəhf səhabələri əhvalat aşkarlandıqdan sonra öldülər. Həmin vaxt xalq ibrət götürmək əvəzinə məqbərə tikmək barədə düşünürdü.
6. Sadəlövh insanların çoxu bir işdən yapışır və başqalarını işə çağırır. Güclü insanlar isə özləri işə girişirlər.
7. Allah övliyalarının məzarı üzərində məqbərə tikilməsinin Qurana aid kökləri var.
8. Müqəddəs əsərlər müqəddəs məkanlarda və müqəddəs münasibətlərlə qərar tutmalıdır. Hicrət etmiş təkallahçıların olduğu mağaranın kənarında məscid tikilməsi böyük dəyərə malikdir.
9. Dinin yayılması üçün bütün fürsətlərdən istifadə edək. (Əgər xatirə olaraq bina ucaltmaq lazımdırsa, böyük mənəvi və maddi əsərləri olan məscid tikək.)

**● AYƏ 22:**

﴿سَيَقُولُونَ ثَلَاثَةٌ رَّابِعُهُمْ كَلْبُهُمْ وَيَقُولُونَ خَمْسَةٌ سَادِسُهُمْ كَلْبُهُمْ رَجْمًا بِالْغَيْبِ
وَيَقُولُونَ سَبْعَةٌ وَثَامِنُهُمْ كَلْبُهُمْ قُل رَّبِّي أَعْلَمُ بِعِدَّتِهِم مَّا يَعْلَمُهُمْ إِلَّا قَلِيلٌ فَلَا تُمَارِ
فِيهِمْ إِلَّا مِرَاء ظَاهِرًا وَلَا تَسْتَفْتِ فِيهِم مِّنْهُمْ أَحَدًا﴾

**«Tezliklə deyəcəklər: “(Kəhf səhabələri üç nəfər idi, dördüncüləri isə it idi.” (Başqa bir dəstə) deyər: “Onlar beş nəfər idi, altıncıları isə it idi.” (Bu əsassız söz) naməlum keçmişə güman oxu atmaqdır. (Digər bir dəstə) deyər: “Onlar yeddi nəfər idilər və səkkizinciləri it idi.” De ki, Rəbbim onların sayını daha yaxşı bilir. Onların sayından az bir hissə xəbərdardır. Onlar haqqında zahirə baxıb mübahisə etmə və onlar haqqında (kitab əhlindən) kimsənin fikrini soruşma.”»**

**Nöqtələr**

● Kəhf səhabələrinin 3 və ya 5 nəfər olması ilə bağlı ehtimala toxunularkən "vav" kəlməsinin işlədilməməsi bu nəzəriyyələrin cahillər tərəfindən irəli sürüldüyünü göstərə bilər. Ola bilsin ki, Kəhf səhabələrinin 7 nəfər olması fikri möminlərə və diqqət əhlinə aiddir. (Bu baxışı İbn Abbas Əmirəl-mömınindən (ə) nəql etmişdir.) 7 ehtimalından sonra güman oxu təbirinin işlədilməməsi hörmət nişanəsi ola bilər. 7 ehtimalında səhabələr sözü it sözündən «vav» hər fi ilə ayrılmışdır.

● Əgər hərəkətlər dəyərli, insanlar məqsədli olsa bağlılıqlar, hətta heyvanlar da hesaba alınar. Çünki heyvan və murdar olmaq dəyərsizlik dəlili deyil. Bu ayədə it 3 dəfə xatırlanılır. 18-ci ayədə də Kəhf səhabələrinin itinin müsbət rolu qeyd olunur.

● Hazırkı surənin müxtəlif ayələrində yersiz gümanlar məzəmmət olunmuşdur.[1]

**Bildirişlər**

1. Quran gələcəkdən xəbər verir.
2. Əsassız danışmayaq və yersiz gümanlara istinad etməyək.
3. Qeyri-zəruri olduqda mübahisədən çəkinin.
4. Say yox, məqsəd barədə düşünün. Faydasız biliklər sorağınca getməyin.
5. Kimdən öyrənmək və kimdən soruşmaq mühüm məsələdir. Suallarımızı cahillərə ünvanlamayaq.

**● AYƏ 23:**

﴿وَلَا تَقُولَنَّ لِشَيْءٍ إِنِّي فَاعِلٌ ذَٰلِكَ غَدًا﴾

**"Heç nə və heç iş haqqında "Onu sabah yerinə yetirəcəyəm" demə."**

**● AYƏ 24:**

﴿إِلَّا أَن يَشَاءَ اللَّهُ وَاذْكُر رَّبَّكَ إِذَا نَسِيتَ وَقُلْ عَسَىٰ أَن يَهْدِيَنِ رَبِّي لِأَقْرَبَ مِنْ هَٰذَا رَشَدًا﴾

**"Yalnız de ki, Allah istəsə" ("İnşaəllah") Əgər (bunu deməyi) unutsan, Rəbbini yad et və de: "Ümid var ki, Rəbbim məni daha yaxın yola yönəltsin."**

---

[1] Bax: ayə 19, 21, 22, 26.

**Nöqtələr**

● "İnşaəllah" (Əgər Allah istəsə") təbiri Allahın qüdrət və iradəsinə etiqadı göstərir. Övliyalar Allaha bu sözlə tapınır. Quranda və peyğəmbərlərin dilində bu sözlə rastlaşmaq olar. Həzrət Yəqub öz övladına deyir: "Misirə daxil olun, inşaəllah, amandasınız.[1] Musa Xızra belə müraciət edir: "Əgər Allah istəsə, bizi dözümlü görəcəksən."[2] Həzrət Şüeybin Musaya, İsmailin atası İbrahimə müraciətində də oxşar təbirlə rastlaşırıq.[3]

Əlbəttə ki, bu qəbildən olan sözləri təkcə dildə demək kifayət etmir, insan öz dediklərinə qəlbən inanmalı və həyatın bütün yönümlərində uyğun baxışa malik olmalıdır.

● İmam Sadiq (ə) buyurur: "Öz yazılarınızda da "İnşaəllah" sözünü unutmayın." Bir gün imam göstəriş verir ki, məktub yazsınlar. Məktubun "İnşaəllah"-sız yazıldığını görüb buyurur: "Necə ümid edirsiniz ki, bu iş yoluna düşər?"[4] İslam Peyğəmbəri (s) qəbiristana daxil olarkən buyururdu: "Əgər Allah istəsə (İnşaəllah) biz də sizə qatılacağıq. Ölüm qaçılmazdır."[5]

● İnsan azad və ixtiyar sahibi olmasına baxmayaraq, Allahın istəyi olmadan bir iş görə bilməz. Yəni o nə məcburdur, nə də tam ixtiyar sahibi. Onun azadlığı Allahın iradəsi ilə şərtlənir.

**Bildirişlər**

1. Danışarkən və ya qərara gələrkən Allahı unutmayın.
2. Heç vaxt özünüzü Allahdan ehtiyacsız və müstəqil saymayın. Ən kiçik işlərlə bağlı belə qəti söz deməyək.
3. Öz imkan və gücümüzlə kifayətlənməyək. Bir iş üçün müqəddimənin hazır olması onun başa çatması üçün bəs etmir. Əmin olduğumuz işlərlə bağlı belə "inşaəllah" deyək.
4. İnsan daim Allaha ehtiyaclıdır. O bütün işlərdə özünü ilahi iradədən asılı bilməlidir.
5. Əldən çıxarılmışları geri qaytarmaq lazımdır.
6. Peyğəmbərlərin də ilahi təlim və hidayətə ehtiyacı var.
7. İlahi yardımlara ümidvarlığın izharı dua qaydalarındandır.
8. Hidayətin mərhələləri var, bütün mərhələlər Allahın əlindədir.
9. Həqiqətə aparan ən orta və ən yaxın yol tapılmalıdır.
10. Peyğəmbərlərin arzusu ən böyük yüksəlişə çatmaqdır.
11. Peyğəmbərlər üçün də üstün mərhələlərə yüksəliş lazımdır.
12. Təkamülə çatmaq üçün ən qısa yol Allahın ardıcıl zikridir.

---

[1] Bax: "Yusuf", 99.
[2] Bax: "Kəhf", 69.
[3] Bax: "Qəsəs", 27; "Saffat", 102.
[4] "Təfsire-Nurus-səqəleyn".
[5] "Təfsire-kəşful-əsrar."

● **Ayə 25:**

﴿وَلَبِثُوا فِي كَهْفِهِمْ ثَلَاثَ مِائَةٍ سِنِينَ وَازْدَادُوا تِسْعًا﴾

**“Onlar öz mağaralarında 300 il qaldılar və 9 il də artırıldı.”**

● **Ayə 26:**

﴿قُلِ اللَّهُ أَعْلَمُ بِمَا لَبِثُوا لَهُ غَيْبُ السَّمَاوَاتِ وَالْأَرْضِ أَبْصِرْ بِهِ وَأَسْمِعْ مَا لَهُم مِّن دُونِهِ مِن وَلِيٍّ وَلَا يُشْرِكُ فِي حُكْمِهِ أَحَدًا﴾

**“De ki, Allah mağarada qaldıqları müddəti daha yaxşı bilir. Göylərin və yerin qeybi də Ona aiddir. Necə də görən və eşidəndir! Xalq üçün Ondan savay yardımçı yoxdur. O Öz hökmünə kimsəni şərik etməmişdir.”**

**Nöqtələr**

● Yəhudilər Kəhf səhabələrinin mağarada nə qədər qalması ilə bağlı Həzrət Əliyə (ə) sual ünvanladılar. Həzrət onların 309 il qaldığını buyurdu. Dedilər: “Bizim kitabımızda 300 il qeyd olunub!” Həzrət buyurdu: ”9 il günəş təqvimi ilə ay təqvimi arasındakı fərqdən yaranıb.”[1]

Mərağinin təfsirində həmin 9 il Quran üçün möcüzə sayılır. Ay təqvimi ilə günəş təqvimi arasındakı fərqin dəqiq göstərilməsi diqqəti cəlb edir.

● Deyilə bilər ki, müddət həmin 300 il olmuşdur və xalq 9 il ona artırmışdır. Bu səbəbdən Allah “De ki, Allah daha yaxşı bilir” buyurur.

● İnsan ömrü üçün müəyyən hədd təyin olunmamışdır. Su $100^o$-də qaynayıb, $0^o$-də buza döndür, lakin insan ömrünə münasibətdə dəqiq rəqəm göstərmək olmaz. Sınaqlar zamanı bəzi canlıların ömrü 12 dəfəyədək arta bilir. Elmi mənbələrdə yazılır: Şimal qütbündə neçə min il öncə buzlaşmış balıq ılıq suda yerləşdirildikdən sonra yenidən canlanmışdır.[2]

● Rəqəmlər bəzən sadə şəkildə bəyan olunduqda daha tez unudulur. Məsələn, xəstə həkimə “dörd saat növbədə dayanmışam” və ya “dörd saatdan yeddi dəqiqə az növbədə dayanmışam” deyirsə, bu iki deyiliş diqqəti fərqli şəkildə cəlb edir. Bəzən rəqəmlər az və ya çoxluğu bildirmək məqsədi daşıdığından bir o qədər də diqqət çəkmir. Dəqiq şəkildə bəyan olunan rəqəm isə dinləyicinin diqqətini daha çox cəzb edir. Bu səbəbdən də həzrət Nuhun təbliğ müddəti haqqında belə buyurulur: “Min ildən əlli il əskik.” Belə bir bəyan dəqiqliyi göstərir. Bu ayədə də üç yüz il və doqquz il əlavə” təbiri dəqiq bir vaxtdan söhbət açır.

---

[1] “Təfsire-Məcməül-bəyan”.

[2] “Təfsire-nümunə”.

**Bildirişlər**

1. Rəqəmlər və ədədlər dəqiq şəkildə bəyan olunmalıdır.
2. Rəqəmlərin bəyanına diqqət bu rəqəmləri yaddaşda möhkəmləndirir.

**● AYƏ 27:**

﴿وَاتْلُ مَا أُوحِيَ إِلَيْكَ مِن كِتَابِ رَبِّكَ لَا مُبَدِّلَ لِكَلِمَاتِهِ وَلَن تَجِدَ مِن دُونِهِ مُلْتَحَدًا﴾

**“Rəbbinin xitabından sənə vəhy olunanı (xalqa) oxu. İlahi sözləri (sünnələri) dəyişən yoxdur. Heç vaxt Ondan savay sığınacaq tapmazsan.”**

**Nöqtələr**

● Peyğəmbər müxaliflərinin bəhanələrindən biri bu idi ki, onlar Quranın dəyişməsini istəyir və deyirdilər: “Ya başqa bir Quran gətir, ya da onu dəyiş.”[1] Peyğəmbər onlara cavab olaraq buyurdu: “Bu iş mənim ixtiyarımda deyil. Ayələri dəyişmək yalnız Allahın işidir.”

**Bildirişlər**

1. Vəhy və səmavi kitabın nazil olması ilahi rübubiyyət şərtidir və insanların tərbiyəsinə yönəlmişdir.
2. Quran istənilən bir dəyişiklik və təhrifdən uzaqdır. İslam Peyğəmbəri (s) son peyğəmbər olduğu kimi, Quran da son səmavi kitabdır.

**● AYƏ 28:**

﴿وَاصْبِرْ نَفْسَكَ مَعَ الَّذِينَ يَدْعُونَ رَبَّهُم بِالْغَدَاةِ وَالْعَشِيِّ يُرِيدُونَ وَجْهَهُ وَلَا تَعْدُ عَيْنَاكَ عَنْهُمْ تُرِيدُ زِينَةَ الْحَيَاةِ الدُّنْيَا وَلَا تُطِعْ مَنْ أَغْفَلْنَا قَلْبَهُ عَن ذِكْرِنَا وَاتَّبَعَ هَوَاهُ وَكَانَ أَمْرُهُ فُرُطًا﴾

**“Sübh və şam vaxtı Rəblərini çağıran və Onun razılığını diləyənlərə qarşı dözümlü ol. Gözünü onlardan çəkmə ki, dünya bər-bəzəyi istəyəsən. Qəlbini Allah zikrindən xəbərsiz qoyduqlarımıza və öz həvəslərinin ardınca gedənlərə, işlərində həddi aşanlara tabe olma.”**

**Nöqtələr**

● Tarix boyu kafirlər, varlılar və sərvətlilər yoxsulları iman yolunda maneə saymışlar. Onlar Nuha da bu məzmunda müraciət etmişdilər. Həzrət Nuh onların cavabında buyurdu: ”Mən möminləri yoxsulluqları səbəbindən rədd

[1] “Yunus”, 15.

etmərəm."[1] İslam Peyğəmbərinin (s) dövründə də Səlman, Əbuzər, Əmmar, Xəbab kimi yoxsul möminlərin qovulması təklif olunurdu. Bu ayə uyğun düşüncə tərzini məzəmmət edir.

● İmam Sadiq (ə) və İmam Baqir (ə) buyurmuşlar: "Allahı sübh və şam çağırmaq dedikdə, namazın qılınması nəzərdə tutulmuşdur."[2]

**Bildirişlər**

1. Varlılar çalışırdılar ki, Peyğəmbərin (s) yoxsul möminlərlə əlaqəsinə mane olsunlar. Peyğəmbərə (s) bu sayaq fəaliyyətlərə qarşı müqavimət göstərmək əmr olundu.
2. Yoxsullarla yoldaşlıq çətindir, amma buna dözmək lazımdır.
3. Davamlı şəkildə dua və yalvarış insanla ünsiyyət üçün onun ləyaqət şərtidir.
4. Rəhbər məhrumlara münasibətdə etinasız yox, onlarla həmdərd olmalıdır.[3]
5. Daimi və xalisanə dua dəyərlidir.
6. Günün əvvəlində və sonunda Allahı xatırlamaq lazımdır.
7. Varlıların razılığını qazanmaq üçün yoxsullardan uzaqlaşmayaq.
8. Ən çirkin iş odur ki, xalq Allaha üz tutsun, rəhbər isə dünyaya!
9. Dünyapərəstlik o qədər təhlükəlidir ki, Allah bu barədə peyğəmbərlərə də xəbərdarlıq edir.
10. Dünya ardınca gedən şəxs ilahi yoldan xaric olur. Dünyapərəstlik allahpərəstliklə ziddir.
11. Dünyapərəstliyin cəzası Allah zikrindən bixəbərlikdir.
12. Allah zikrinin dəyəri onun qəlbdə və ruhda nə qədər kök atmasındadır.
13. İnsan addım-addım süqut edir. Öncə qəflət, sonra həvəsbazlıq və daha sonra azğınlıq.
14. Qafil, həvəsbaz və ifratçı insanların rəhbərliyi qadağandır.
15. Orta hədd dəyər, ifratçılıq nöqsandır.

**● AYƏ 29:**

﴿وَقُلِ الْحَقُّ مِن رَّبِّكُمْ فَمَن شَاء فَلْيُؤْمِن وَمَن شَاء فَلْيَكْفُرْ إِنَّا أَعْتَدْنَا لِلظَّالِمِينَ نَارًا أَحَاطَ بِهِمْ سُرَادِقُهَا وَإِن يَسْتَغِيثُوا يُغَاثُوا بِمَاء كَالْمُهْلِ يَشْوِي الْوُجُوهَ بِئْسَ الشَّرَابُ وَسَاءتْ مُرْتَفَقًا﴾

**"De ki, haqq Rəbbiniz tərəfindən yetişmişdir. İstəyən iman gətirsin, istəməyən kafir olsun. Həqiqətən Biz sitəmkarlar üçün pərdə tək onları**

---

[1] "Hud", 29.
[2] "Təfsire-Nurus-səqəleyn".
[3] Ənam", 52.

**bürüyəcək od hazırlamışıq. Sığınacaq axtardıqda (mis kimi) qaynar su ilə çöhrələrini yandırmaqla onlara yardım göstərilər. Necə də pis içki, necə də pis məkandır!"**

**Nöqtələr**

● Belə görünür ki, ayədə iman gətirməzdən öncə şərt qoyan kəslərə cavab verilir. Onlar deyirlər: "Bizim dinə qatılmağımız üçün yoxsullar rədd edilsin."

● Xalq iman və ya küfr yolunu seçməkdə azad buraxılsa da, bilməlidir ki, küfrün sonu yandırıcı qiyamət əzabıdır.

● "Suradiq", yəni pərdə sözü Quranda bir yerdə işlədilmişdir və cəhənnəm əhlinə aiddir.

● İmam Rza (ə) zalım hökumət məmurlarından birinə buyurdu: "Əgər dağdan atılsam və parça-parça olsam, zalıma işçi olmağımdan daha yaxşıdır. Yalnız möminləri çətinlikdən qurtarmaq üçün belə etmək olar." Sonra həzrət buyurur: "Allah xalqın hesab-kitabını (Qiyamətdə) qurtarana kimi zalım hökumət işçilərini atəşdən pərdəyə bürüyər."

**Bildirişlər**

1. Yeganə haqq mənbəsi Allahdır.
2. Mömin yoxsulların rədd edilməsi düzgün istək deyil, gerçək istək Allaha məxsusdur.
3. Xalqın meyilli və ya meyilsiz olmasının dinin necəliyinə təsiri yoxdur.
4. Peyğəmbərin vəzifəsi dəvət etməkdir və insanlar iman və ya küfrü qəbul etməkdə azad buraxılmışlar.

*Küfrlə din müştərisiz qalmayıb,*
*Dindar küfrü, kafir dini almayıb.*

5. Küfr insanın özünə qarşı zülmüdür.
6. Cəhənnəm indi də hazırdır.
7. İnsanın taleyi onun meyl və əməllərindən asılıdır. (İnsanı qoynuna almış şəhvətlər və fəsadlar onu axirətdə əhatə edəsi oddur.)
8. Kafirlərin pis aqibətinə diqqət insanın tərbiyəsində mühüm rol oynayır.
9. Məad cismanidir.

**● AYƏ 30:**

﴿إِنَّ الَّذِينَ آمَنُوا وَعَمِلُوا الصَّالِحَاتِ إِنَّا لَا نُضِيعُ أَجْرَ مَنْ أَحْسَنَ عَمَلًا﴾

**"Həqiqətən, iman gətirib saleh işlər görənlər (bilsinlər ki,) şübhəsiz, Biz yaxşı iş görənlərin mükafatını puça çıxarmarıq."**

**Nöqtələr**

● Allah bizim saleh işlərimizi puça çıxarmır. Yaxşı əməllərimizi məhv edən əslində öz pis xasiyyətlərimiz və əməllərimizdir.

● İstənilən saleh əməl bir neçə yolla yerinə yetirilə bilər: adi yolla, yaxşı yolla və ali yolla. Bu ayədə ən ali yola təşviq edilir. Bəli, bəzən qida məhsulları yaxşı olur, amma hazırlanma qaydası fərqlənir.

**Bildirişlər**

1.Tərbiyə zamanı xəbərdarlıq və müjdə yanaşı olmalıdır. (Ötən ayədə xəbərdarlıqdan, bu ayədə müjdədən danışıldı.)

2. İlahi məqsəd saleh əməldən öndə gəlir.

3. İslama əsasən ilahi hesabdan heç nə məxfi qalmır və heç bir əməlin mükafatı zaya çıxmır.

4. Əməlin dəyərləndirilməsində kəmiyyət yox, keyfiyyət ölçüdür.

**● AYƏ 31:**

﴿أُوْلَئِكَ لَهُمْ جَنَّاتُ عَدْنٍ تَجْرِي مِن تَحْتِهِمُ الْأَنْهَارُ يُحَلَّوْنَ فِيهَا مِنْ أَسَاوِرَ مِن ذَهَبٍ وَيَلْبَسُونَ ثِيَابًا خُضْرًا مِّن سُندُسٍ وَإِسْتَبْرَقٍ مُّتَّكِئِينَ فِيهَا عَلَى الْأَرَائِكِ نِعْمَ الثَّوَابُ وَحَسُنَتْ مُرْتَفَقًا﴾

**“Onlar üçün ağacları altdan çaylar axan əbədi bağlar var. Orada qızıl bilərziklərlə bəzənər, nazik və qalın ipəkdən yaşıl libaslar geyinər, (behiştə məxsus) taxtlara söykənərlər. Necə gözəl mükafat və necə xoş yerdir!”**

**Nöqtələr**

● “Ədn” dedikdə dayanma və məskən mənaları nəzərdə tutulur. Bilərzik “əsavirə”, nazik ipək “sundus”, qalın ipək isə “istəbrəq” adlanır. Tor çəkilmiş sultan taxtına isə “əraikə” deyilir.

● Ötən iki ayədə cəhənnəm əhli haqqında oxuduq: “Necə pis içki, necə pis yerdir.” Bu ayədə isə behişt əhlinin mükafatı və məskəni haqqında xoş sözlər deyilir.

● Behiştdə istənilən növ rəngdə, istənilən növ libaslar olsa da, mümkündür ki, bəzənib taxtlara söykənən zaman rəsmi və ümumi libas yaşıl libasdır.

**Bildirişlər**

1. Həm behişt bağlarındakı ağacların, həm də behişt qəsrlərinin altından çaylar axır.[1]

2. Behişt əhlinin bər-bəzəkdən istifadə etməsi insan fitrətində bər-bəzəyə meyl olmasını göstərir.

---

[1] “Bəqərə”, 25.

3. İlahi göstərişlərə iman və əməl, dünyanın haram bər-bəzəyindən uzaqlıq axirətdə əbədi dəbdəbəyə çatmaq rəmzidir.

4. Məad həm ruhani, həm də çismanidir (həm ruha aiddir, həm də cismə). Əgər məad təkcə ruhani olsaydı hansısa qızıla, ipəyə və taxta ehtiyac qalmazdı.

5. Yaşıl rəng behişt rəngidir.

● **AYƏ 32:**

﴿وَاضْرِبْ لَهُم مَّثَلًا رَّجُلَيْنِ جَعَلْنَا لِأَحَدِهِمَا جَنَّتَيْنِ مِنْ أَعْنَابٍ وَحَفَفْنَاهُمَا بِنَخْلٍ وَجَعَلْنَا بَيْنَهُمَا زَرْعًا﴾

**“(Ey peyğəmbər,) onlar üçün iki kişini məsəl çək: onlardan biri üçün iki üzüm bağı qərar verdik və ətrafını xurma ağacları ilə əhatəyə aldıq. Həmin iki bağ arasında əkin yerləşdirdik.”**

● **AYƏ 33:**

﴿كِلْتَا الْجَنَّتَيْنِ آتَتْ أُكُلَهَا وَلَمْ تَظْلِمْ مِنْهُ شَيْئًا وَفَجَّرْنَا خِلَالَهُمَا نَهَرًا﴾

**“Hər iki bağ öz məhsulunu verdi və ondan bir şey əskilmədi. Onların arasında bir çay axıtdıq.”**

**Nöqtələr**

● “Ukul” dedikdə istifadəyə yararlı məhsul və meyvə nəzərdə tutulur.

● Bu ayələrdən bağçılıq və nümunəvi, dilruba bağ yaratmağı öyrənmək olar:

a) Bağın ortasında alçaq, ətrafında uca ağaclar olsun.

b) Bağlar aralı olsun və ətrafları açıq qalsın.

v) Bağlar arasındakı yerlər əkilsin.

q) Bağlar arasından su axsın.

e) Bağlar zəif, xəstəliyə yoluxmuş olmasın.

Bağçılıqda növbənöv üzüm tənəkləri, üzümlə yanaşı xurma, çeşidli əkin, əkinin ağaclarla əhatə olunması ən üstün mənzərə yaradır.

● Bu ayələrdə sanki varlı kafirlərin yersiz tələblərinə cavab verilir. Onlar peyğəmbərdən istəyirdilər ki, fəqirləri özündən uzaqlaşdırsın və sonra iman

gətirsinlər. Allah-təala cavab olaraq buyurur: “Yoxsulluq zillət, var-dövlət izzət nişanəsi deyil.”[1]

**Bildirişlər**

1. Mövzunu ən sadə, ən fitri və ən ümumi şəkildə anlatma yollarından biri məsəllərdən istifadədir.
2. İnsanlar arasındakı yoxsulluq və varlılıq fərqləri hikmət sahibi olan Allah tərəfindəndir.
3. Əsil əkinçi insan yox, Allahdır.

**● AYƏ 34:**

﴿وَكَانَ لَهُ ثَمَرٌ فَقَالَ لِصَاحِبِهِ وَهُوَ يُحَاوِرُهُ أَنَا أَكْثَرُ مِنكَ مَالًا وَأَعَزُّ نَفَرًا﴾

**“Həmin kişinin (çoxlu) meyvəsi vardı. Onunla danışmaqda olan dostuna dedi: “Mən səndən varlı, say baxımından güclüyəm.”**

**Nöqtələr**

● Meyvə, mal-mülk, hətta ağac növləri “səmər” adlanır. 42-ci ayədə buyurulur ki, Allahın qəhr-qəzəbi təkcə meyvələri yox, bütün bağı və ağacları əhatə etdi.

● “Sahib” dedikdə yoldaş, həmsöhbət başa düşülür. Bu şəxs hazırkı ayədəki kimi mömin və ya 37-ci ayədəki kimi kafir ola bilər.

**Bildirişlər**

1. Var-dövlətə, tayfaya bağlılıq və bütün bunlarla öyünmə tüğyan zəminidir.
2. Fəqirlik zillət, sərvət izzət dəlili deyil. Özümüzü yoxsullardan üstün tutmayaq.

***Səfalət yurdunu alçaq sayma sən,***
***Tutsan qulpsuz kuzə düşməz əlindən.***

**● AYƏ 35:**

﴿وَدَخَلَ جَنَّتَهُ وَهُوَ ظَالِمٌ لِّنَفْسِهِ قَالَ مَا أَظُنُّ أَن تَبِيدَ هَذِهِ أَبَدًا﴾

**“O özünə sitəm qılmış halda bağın içinə gəldi və (lovğalıqla) dedi: “Bunun nə vaxtsa məhv olacağını güman etmirəm!”**

**Bildirişlər**

1. İnsanın bütün olanları Allahdandır və həqiqi malik Allahdır.
2. Gen-bol var-dövlət və nemətlər qürur üçün zəmindir.
3. Allahdan xəbərsizlik, özünü üstün tutmaq, başqalarının təhqiri, maddi bər-bəzəyə aldanış insanın özünə zülmüdür.

---

[1] Bax: ayə 28.

4. Azğın və qafil insan heyvan və bitkidən alçaqdır. Allah-təala 23-cü ayədə bağ haqqında buyurur: "Bir şey əskik olmadı." Amma bağ sahibi haqqında "özünə zülm etmiş" təbiri işlədilir.

5. Nemətləri və bəhrələri heç vaxt əbədi saymayaq.

**● AYƏ 36:**

﴿وَمَا أَظُنُّ السَّاعَةَ قَائِمَةً وَلَئِن رُّدِدتُّ إِلَى رَبِّي لَأَجِدَنَّ خَيْرًا مِّنْهَا مُنقَلَبًا﴾

**"Güman etmirəm ki, qiyamət qopa. Əgər hətta Rəbbimə doğru qaytarılsam, şübhəsiz, bundan da üstününü tapacağam."**

**Nöqtələr**

● Kafirlər elə düşünürlər ki, Allahın işi nemət verməkdir və insan daim bu nemətlərdən bəhrələnməlidir. "Fussilət" surəsinin 50-ci ayəsində oxuyuruq: "Əgər qiyamət də qopsa, ən üstün şeylər bizim olacaq." Amma Quran bu sayaq təfəkkürü rədd edir. İnsan Allahın lütf və fəzlindən bəhrələnsə də, Allah istədiyi vaxt suya acılıq qatar, ağacları qurudar, kafirləri məhv edər, ya da peyğəmbərlərə göndərdiyi vəhyi kəsər. Nəhayət anlayarlar ki, Allahın lütfü olmadan nemətlər ələ gələsi deyil.

**Bildirişlər**

1. Dünyaya bağlılıq və dünyapərəstlik qiyamətin inkarı üçün zəmindir.
2. Qiyaməti inkar edənlərin heç bir dəlili yoxdur.
3. Yersiz və sübutsuz ümid və arzu məhkum olunur.
4. İnsan fitrətən Allah və mənəviyyata meyillidir.
5. Bəziləri yanlış olaraq bol neməti özləri üçün kəramət və dəyər sayır, eləcə də onu əbədi bilirlər.

**● AYƏ 37:**

﴿قَالَ لَهُ صَاحِبُهُ وَهُوَ يُحَاوِرُهُ أَكَفَرْتَ بِالَّذِي خَلَقَكَ مِن تُرَابٍ ثُمَّ مِن نُّطْفَةٍ ثُمَّ سَوَّاكَ رَجُلًا﴾

**"Dostu onunla danışan halda dedi: "Səni torpaqdan, sonra nütfədən yaratdığı, kamil və tam bədənli insan etdiyi halda kafir olursanmı?!"**

**● AYƏ 38:**

﴿لَّكِنَّا هُوَ اللَّهُ رَبِّي وَلَا أُشْرِكُ بِرَبِّي أَحَدًا﴾

**"Amma mən (deyirəm ki, odur Allah), mənim Rəbbim. Kimsəni öz Rəbbimə şərik qoşmuram."**

**Nöqtələr**

● "Mühavirə" dedikdə danışıq, sual-cavab başa düşülür.

**Bildirişlər**

1.Əqidə məktəbləri arasında azad mübahisə Quran tərəfindən qəbul olunur.

2. Dövlətlilər və qüdrətlilər qarşısında əskiklik hiss etmədən onları doğru yola çağırın.

3. Bəzən var-dövlətə məhəbbət Allaha və qiyamətə qarşı küfrə zəmin olur.

4. Var-dövləti və qohum-əqrəbası ilə öyünən kəsin əlacı ona torpaq əslini xatırlatmaqdır.

5. Məadın inkarı Allahın inkarıdır. İnsan qiyamətə şübhə etməklə Allahın varlığını şübhə altına almış olur. Məadı inkar edən kəsə yoldaşı "səni yaratmış Allahı inkarmı edirsən" dedi.

6. Allahın inkarı təəccüb və heyrət doğurur, məzəmmət olunur.

7. Kafirlərə etiraz etmək caizdir. Amma bu istiqamətdə dəlillər gətirməklə və yol göstərməklə çıxış edilməlidir.

8. Başqalarının tərbiyəsi və azğınlıqdan çəkindirilməsi üçün dəlillər əsasında danışmaq lazımdır.

9. Mömin başqalarının şəkk-şübhəsinə öz mövqeyini qəti bəyan etməklə cavab verməlidir.

10. Allahdan qeyrisinə sığınmaq şirkdir.

11. Həqiqi tövhid istənilən növ şirkin inkarı ilə müşayiət olunur.

**● AYƏ 39:**

﴿وَلَوْلَا إِذْ دَخَلْتَ جَنَّتَكَ قُلْتَ مَا شَاءَ اللَّهُ لَا قُوَّةَ إِلَّا بِاللَّهِ إِن تَرَنِ أَنَا أَقَلَّ مِنكَ مَالًا وَوَلَدًا﴾

**"Nə üçün bağa daxil olduğun vaxt «maşallah, Allahdan başqa heç bir qüdrət yoxdur!» demədin? Əgər məni var-dövlət və övlad baxımından özündən əskik görürsənsə!"**

**Nöqtələr**

● Həzrət Peyğəmbər (s) buyurdu: "Allah Öz bəndəsinə var-dövlət və övlad kimi hər hansı nemət verdikdə "maşallah və la qüvvətə illa billah" desə, Allah onu bəla və narahatçılıqlardan qoruyar, öz arzusuna çatar." Sonra həzrət bu ayəni tilavət etdi.[1]

Eləcə də rəvayətlərdə deyilir: "La hövlə və la qüvvətə illa billah" ("Allahdan başqa heç bir qüdrət yoxdur") sözləri bəlanın uzaqlaşması və nemətin davam səbəbidir. Bu söz behişt xəzinələrindən bir xəzinədir.[2]

---

[1] "Təfsire-Dürrül-Mənsur".

[2] "Təfsire-kənzud-dəqaiq".

**Bildirişlər**

1. Məzəmmət doğru yola dəvətlə yanaşı olmalıdır.

2. Əqidə ilə bağlı sözləri qəlbdən keçirmək bəs etmir, onları dilə gətirmək lazımdır.

3. Təbiətin gözəl mənzərələri ilə rastlaşdıqda Allahı yada salaq. Bütün nemətlər Ondandır.

4. Qəflət və qürurun qarşısını almaq üçün nemətlərlə rastlaşdıqda Allahın iradəsini yaddan çıxarmayaq.

5. Həqiqi mömin var-dövlət və övladın azlığına xatir yolunu azmaz. “İn tərəni” yəni “mən əskik deyiləm, sən məni əskik görürsən” mənasınadır.

**● AYƏ 40:**

﴿فَعَسَى رَبِّي أَن يُؤْتِيَنِ خَيْرًا مِّن جَنَّتِكَ وَيُرْسِلَ عَلَيْهَا حُسْبَانًا مِّنَ السَّمَاء فَتُصْبِحَ صَعِيدًا زَلَقًا﴾

**“Ümid var ki, Rəbbim sənin bağından da yaxşısını mənə əta etsin və sənin bağına səmadan hesab olmuş cəza (şimşək və əzab) göndərməklə onu yerlə yeksan etsin, otsuz və sürüşkən hala salsın.”**

**● AYƏ 41:**

﴿أَوْ يُصْبِحَ مَاؤُهَا غَوْرًا فَلَن تَسْتَطِيعَ لَهُ طَلَبًا﴾

**“Ya onun suyu hopsun və heç vaxt onu geri qaytara bilməyəsən.”**

**Nöqtələr**

● “Zələq” dedikdə saf, ot-ələfsiz torpaq nəzərdə tutulur. Belə bir torpaqda insanın ayağı sürüşür.

**Bildirişlər**

1. Allah rübubiyyəti əsasında əta edir və geri alır.

2. Yoxsullar məyus olmasın. Məyusluq yoxsulluqdan da pisdir.

3. Əgər Allah istəsə yoxsul varlaşar, hətta başqalarından da varlı olar.

4. Qürrələnən kafirlərdən nemətlərin alınmasını arzulamaq, onlara nifrin bəyənilmiş işdir.

5. Allahın qəhr-qəzəbi hesablıdır və ədalətlidir.

6. Varlılar öz olanlarına görə qürrələnməsinlər. Onların sərvəti bir anda məhv ola bilər.

7. Şirk, küfr və lovğalıq insanın var-dövlətini puça çıxarır.

8. Allah Öz əzabını göydən və yerdən istənilən vaxt nazil edə bilər.

9. Allahın qəhr-qəzəbi qarşısında dayanacaq bir qüvvə və qurtuluş yolu yoxdur.

● AYƏ 42:

﴿وَأُحِيطَ بِثَمَرِهِ فَأَصْبَحَ يُقَلِّبُ كَفَّيْهِ عَلَى مَا أَنفَقَ فِيهَا وَهِيَ خَاوِيَةٌ عَلَى عُرُوشِهَا وَيَقُولُ يَا لَيْتَنِي لَمْ أُشْرِكْ بِرَبِّي أَحَدًا﴾

**“Onun bar-bəhrəsi (ilahi qəzəblə) əhatə oldu. Elə bir hala düşdü ki, bağa qoyduğu xərclərə xatir (həsrətdən) iki əlini bir-birinə çəkdi. Halbuki onun (bağın) dayaqları uçulub tökülmüşdü. O deyirdi: “Kaş ki, kimsəni Rəbbimə şərik qoşmayaydım.”**

**Nöqtələr**

● Bəziləri təkəbbür göstərib malına güvənməklə Allahdan qəflətdə qalır və tövhid mehvərindən çıxıb müşrik olur. Amma istər möminlər, istərsə də kafirlər nə vaxtsa Allah qarşısında etiraf etməli olur.[1]

**Bildirişlər**

1. Allah əhatə edəndir (“Mühit”) Onun həm lütfü, həm də qəhr-qəzəbi əhatəlidir.[2]
2. Allahın cəzası qürrələnənlərin pusqusundadır.
3. Allahın bəlaları və əzabları öz pis düşüncə və əməllərimizin nəticəsidir. Bağ sahibi haqqında danışılarkən əvvəlcə onun küfrü, sonra ilahi bəla qeyd olunur.
4. Ümidsizliklər və daxili hallar insanın zahirində və rəftarlarında əsər qoyur.
5. Dünyapərəstlər hadisələrə münasibətdə öncə iqtisadi, sonra mənəvi təhlil edirlər. Onlar öncə düşdükləri zərərə görə həsrət çəkir, sonra şirklərinə görə peşman olurlar.
6. Dünyada əzablar yatmış vicdanların və qəflətdə olan qəlblərin oyanış səbəbidir.

● AYƏ 43:

﴿وَلَمْ تَكُن لَّهُ فِئَةٌ يَنصُرُونَهُ مِن دُونِ اللَّهِ وَمَا كَانَ مُنتَصِرًا﴾

**“Heç bir qövmün Allahın qəzəbi qarşısında yardımçısı yoxdur və özünə yardım göstərmək gücündə deyil.”**

● AYƏ 44:

﴿هُنَالِكَ الْوَلَايَةُ لِلَّهِ الْحَقِّ هُوَ خَيْرٌ ثَوَابًا وَخَيْرٌ عُقْبًا﴾

---

[1] “Kəhf”, 38.
[2] “Bəqərə”, 19; “Əraf”, 156.

**“O halda vilayət və qüdrət yalnız haqq olan Allaha məxsusdur. Ən üstün mükafat və ən yaxşı sonluq Onun tərəfindədir.”**

**Nöqtələr**

● Quranda dəfələrlə təkid olunur ki, insan təhlükə ilə üzləşdiyi vaxt maddi vasitələri təsirsiz gördükdə Allaha üz tutur və dərin bir ümidlə Onu səsləyir. İnsan dənizdə tufana düşdükdə və ya əzabla üzləşdikdə iman gətirir.

Ayədə bağı yanmış şəxs köməyinə gələn olmadığını görüb hökmün Allaha məxsus olduğunu anlayır.

● Bu ayədə “vilayət” sözü qüdrət və yardım mənasında işlədilmişdir.

**Bildirişlər**

1. Allahdan qeyrisinə etimadın sonu əliboşluqdur.
2. Allahın qəzəbi nazil olan vaxt var-dövlət, övlad nə qədər çox olsa da kara gəlmir. (Təhlükə gəldikdə rifah dövrünün dostları tapılmır.)
3. Bütün acı hadisələrin qətnaməsi eynidir: Qüdrət yalnız Allaha məxsusdur.
4. Qeyri-ilahi vilayətlər davamsız və batildir. Yalnız Allahın vilayəti sabit və haqdır.
5. Nə qədər hesab aparıb uzağı düşünsək də Allahın sorağınca getməliyik.
6. İlahi yardım və Allahın haqq olması ən üstün mükafat və aqibətin təminatçısıdır.
7. Yaxşı sonluq və mükafat dəyər ölçüsüdür.

**● AYƏ 45:**

﴿وَاضْرِبْ لَهُم مَّثَلَ الْحَيَاةِ الدُّنْيَا كَمَاء أَنزَلْنَاهُ مِنَ السَّمَاء فَاخْتَلَطَ بِهِ نَبَاتُ الْأَرْضِ فَأَصْبَحَ هَشِيمًا تَذْرُوهُ الرِّيَاحُ وَكَانَ اللَّهُ عَلَى كُلِّ شَيْءٍ مُّقْتَدِرًا﴾

**“(Ey peyğəmbər,) onlar üçün dünya həyatını məsəl çək; (müvəqqətilikdə) su kimidir ki, səmadan endirdik, yerin otu (onun vasitəsilə ilə) qarışar, qəfildən quruyar. Belə ki, küləklər (onları) sovurar. Allah hər şeyə qüdrətlidir.”**

**Nöqtələr**

● Ayədə qürurlu və qafil insanlara ibrət olsun deyə cücərtidən, yerin yaşıl örtüyündən, ilahi qəzəbin nazil olub onları yandırmasından danışılır.[1]

Bəli, dünya azca yağışla göyərib, azca küləklə quruyan köksüz ot kimidir. İnsana qalan onun əməlidir. Bu nöqtəyə həzrət Əmirəl-möminin (ə) da öz divanında işarə edir.

---

[1] “Yunus”, 24; “Hədid”, 20.

**Bildirişlər**

1. Həqiqətlərin bəyanı və xalqın hidayəti üçün Allah rəsuluna (s) əmr olunur ki, təmsildən istifadə etsin.

2. Tərbiyə və təbliğ üsullarından biri hamı tərəfindən anlaşılacaq və təbii misallardan istifadə etməkdir.

3. Hər bir baharın xəzanı, hər bir vüsalın fərağı var.

4. Dünyanın ötəri cilvələri bizi aldatmasın, davamlı gələcək haqqında düşünək.

**● AYƏ 46:**

﴿الْمَالُ وَالْبَنُونَ زِينَةُ الْحَيَاةِ الدُّنْيَا وَالْبَاقِيَاتُ الصَّالِحَاتُ خَيْرٌ عِندَ رَبِّكَ ثَوَابًا وَخَيْرٌ أَمَلًا﴾

**“Var-dövlət və övladlar dünya həyatının zinətidir. Layiqli və davamlı işlərin Allah yanında daha üstün mükafatı var. Onlara ümid etmək yaxşıdır.”**

**Nöqtələr**

● Rəvayətlərdə “baqiyatus-salihat” təbiri üçün beş vaxt namaz, Allahın zikri, Əhli-beytə (ə) məhəbbət kimi nümunələr göstərilir.[1]

● Dünyanın bütün maddi nemətləri dünya zinətidir. Var-dövlət və övladın isə daha çox cazibəsi var. Bu səbəbdən də həmin iki nemət xüsusi qeyd olunmuşdur. Çünki adətən, qız yox, oğlan övladlar iqtisadi və fəal qüvvədir. Bu səbəbdən də “mal” sözü ilə yanaşı “bənat” yox, “bənun” sözü işlədilmişdir.

**Bildirişlər**

1. Var-dövlət və övladın cazibəsi yalnız dünyaya aiddir və bu iki nemətin axirətdə heç bir faydası yoxdur.

2. Maddi imkana malik olanlar lovğalanmasınlar. Var-dövləti olmayanlar da qəm yeməsin.

3. Var-dövlət və övlad əbədi deyil. Yalnız davamlı şeylər haqqında düşünüb, onlara könül verək.

4. Allah qarşısında heç bir saleh əməl zay olmur. Onların mükafatına zəmanət verilmişdir.

5. Yaxşı işlərin dəyərini hamı bilmir. İnsanların çoxu xeyir-bərəkəti maddi ləzzətlərdə görür.

6. Mükafat və cəza tərbiyə şərtidir və Allahın rübubiyyət şənindəndir.

7. Yalnız mükafat haqqında düşünməyin, ən əsası davamlı gələcəkdir.

8. Xalqın təlim-tərbiyəsində onların arzu və ümidlərindən istifadə edək.

---

[1] “Təfsire-bürhan”. “Bihar”, c. 74, s. 108; “Təfsire-Nurus-səqələyn”.

**● AYƏ 47:**

﴿وَيَوْمَ نُسَيِّرُ الْجِبَالَ وَتَرَى الْأَرْضَ بَارِزَةً وَحَشَرْنَاهُمْ فَلَمْ نُغَادِرْ مِنْهُمْ أَحَدًا﴾

**“(Xatırla,) o gün ki, dağları hərəkətə gətirərik və yeri aşkar (saf, hamar) görərsən. Hamını ayağa qaldırarıq və kimsəni boşlamarıq.”**

**Nöqtələr**

● Quran qiyamət astanasında dağların vəziyyətini müxtəlif şəkillərdə bəyan edir:

1. Zəlzələ, yerin və dağların titrəyişi.[1]
2. Hərəkət, yerdəyişmə.
3. Parçalanma və qum şəklinə düşmə.[2]

**Bildirişlər**

1. Dünya həyatına bağlanmamaq üçün qiyaməti xatırlamaq lazımdır.
2. Yaxşı işlər çox yerlərdə, o cümlədən dağların hərəkətə gələcəyi qiyamətdə fayda verir.
3. Qiyamətdə və məhşər səhnəsində heç bir alçaqlıq və hündürlük yoxdur.
4. Həşr və qiyamət qaçılmazdır.
5. Qiyamət hamı üçündür və bu işdə heç bir istisna yoxdur.

**● AYƏ 48:**

﴿وَعُرِضُوا عَلَى رَبِّكَ صَفًّا لَّقَدْ جِئْتُمُونَا كَمَا خَلَقْنَاكُمْ أَوَّلَ مَرَّةٍ بَلْ زَعَمْتُمْ أَلَّن نَّجْعَلَ لَكُم مَّوْعِدًا﴾

**“(Həmin gün) bütün insanlar cərgələnib Rəbbinə təqdim olunar. (Allah onlara buyurar:) «Sizi ilk dəfə yaratdığım kimi (bu gün də) Bizə doğru gəldiniz. Yoxsa düşünürdünüz ki, heç vaxt verdiyimiz vədi yerinə yetirməyəcəyik?»”**

**Nöqtələr**

● “Səf” nizam, ardıcıllıq, ədəb və təvazö nişanəsidir. Quranda mücahidlər, eləcə də, mələklər vəsf olunarkən “səf” təbirindən istifadə olunur. Quranın “səf və “saffat” adlanan iki surəsi var.

● Əgər dünyada silahlı qüvvələr başçıların qarşısında dayanırsa, qiyamətdə bütün insanlar məcburi şəkildə və nizamlı halda Allahın hüzurunda dayandırılar.

---

[1] “Muzzəmmil”, 14.
[2] “Vaqiə”, 5, 6.

**Bildirişlər**

1. Qiyamətdə iştirak və Allah qarşısında hüzur qətidir.

2. Dünyadakı təbəqələşmə qiyamətdə aradan qaldırılır, varlılar və yoxsullar eyni bir cərgədə dayanar.

3. Nizam həm dünya, həm də axirətdə öz yeri olan dəyərdir. Cəmiyyətdə və ibadətdə də nizam mühüm rol oynayır.

4. Qiyamət hüzuru dünyaya gəliş və hüzur kimidir. Həmin məqamda insan aciz, ağlar və üryan olur. (Münacatlarda insanın qiyamət səhnəsindəki üryanlığına işarə edilmişdir.)

5. Məad cismanidir.

6. Qiyamətdəki təkrar yaranış dünyadakı yaranış kimidir.

7. Məadı inkar edən kafirlərin heç bir dəlili yoxdur.

**● AYƏ 49:**

﴿وَوُضِعَ الْكِتَابُ فَتَرَى الْمُجْرِمِينَ مُشْفِقِينَ مِمَّا فِيهِ وَيَقُولُونَ يَا وَيْلَتَنَا مَالِ هَذَا الْكِتَابِ لَا يُغَادِرُ صَغِيرَةً وَلَا كَبِيرَةً إِلَّا أَحْصَاهَا وَوَجَدُوا مَا عَمِلُوا حَاضِرًا وَلَا يَظْلِمُ رَبُّكَ أَحَدًا﴾

**“Kitab (əməl naməsi) ortaya qoyular. Günahkarları bu naməyə görə qorxmuş görərsən və onlar deyərlər: “Vay olsun bizə, bu necə yazıdır ki, heç bir (söz və əməl) kiçik və böyük ötürülməyib və hesaba alınıb! Onlar öz əməllərini (qarşılarında) hazır görərlər və Rəbbləri kimsəyə sitəm qılmaz.”**

**Nöqtələr**

● Quran qiyamətə aid kitab, əməl naməsi ilə bağlı dəfələrlə söz açır: “Bizim mələklərimiz yazır.”;[1] “İşlərin əsərləri də yazılır.”[2]; “Onların əməl namələri boyunlarından asılar.”[3]; “Əməl namələri qiyamətdə açılar.”[4] “Namələr fərdlərin əlinə verilər; yaxşıların əməl naməsi sağ, pislərin əməl naməsi sol əlinə verilər; hər fərdin əməl naməsi olduğu kimi, hər bir ümmətin də kitab və naməsi var.”[5]

● Həzrət Peyğəmbər (s) Hüneyn döyüşündə qayıdarkən susuz bir səhrada dayandı. O öz səhabələrinə buyurdu: ”Dolanın və ətrafdakı çör-çöpü bir yerə yığın.” Səhabələr getdilər və hərə bir qədər çör-çöp gətirdi. Onlar gətirdiklərini

---

[1] “Yunus”, 21.
[2] “Yasin”, 12.
[3] “İsra”, 13.
[4] “Təkvir”, 10.
[5] “Casiyə”, 28.

üst-üstə qalaqladılar. Həzrət Peyğəmbər (s) buyurdu: ”Günahlar bu sayaq cəm olur, kiçik günahlardan çəkinin.”[1]

Uyğun proqramdan anlamaq olar ki, Allahın rəsulu (s) öz yoldaşlarının boş vaxtını doldurmaqla yanaşı döyüşdən sonrakı qürurun qarşısını almaq üçün müəyyən bəyanatlar verirdi. Belə məqamlarda səhabələr özlərini ya günahsız, ya da qismən günahkar sayırdılar.

● İmam Sadiq (ə) buyurur: “Qiyamət günü əməl naməsi insana verilən vaxt insan bu naməyə nəzər salıb, xırdalı-böyüklü bütün hərəkət və rəftarlarının qeyd olunduğunu görür. Ona elə gəlir ki, bütün bu işlər azca əvvəl baş vermişdir. Ona görə də “vay olsun mənə” deyir.” [2]

● Dünyada biganə ömür sürüb, istənilən yola qədəm atanlar axirətdə peşman olur. Dünya həyatında vəzifəsini yerinə yetirib Allahdan qorxan möminlər isə axirətdə asudədirlər.[3]

**Bildirişlər**

1. Qiyamətdə həm fərdlərin əməl naməsi onların əlinə verilər, həm də qarşılarında kitab qoyular.
2. Günahkarları narahat edən və qorxudan Allah yox, onların qeyd olunmuş əməlləridir.
3. Qiyamət günahkarlar üçün həsrət və əfsus günüdür.
4. İnsanlar qiyamətdə öz əməllərindən hər biri savadlı imiş kimi xəbər tutarlar. Həmin məqamda hamı oxumağı bacarar.
5. İnsanın əməllərinin dərəcələri var.
6. Qiyamət əməllərin təcəssüm səhnəsidir.
7. Ədalətli olmaq və zülmə yol verməmək ilahi rübubiyyət şərtidir.

**● AYƏ 50:**

﴿وَإِذْ قُلْنَا لِلْمَلَائِكَةِ اسْجُدُوا لِآدَمَ فَسَجَدُوا إِلَّا إِبْلِيسَ كَانَ مِنَ الْجِنِّ فَفَسَقَ عَنْ
أَمْرِ رَبِّهِ أَفَتَتَّخِذُونَهُ وَذُرِّيَّتَهُ أَوْلِيَاء مِن دُونِي وَهُمْ لَكُمْ عَدُوٌّ بِئْسَ لِلظَّالِمِينَ بَدَلًا﴾

**“(Xatırla,) o zaman ki, mələklərə dedik: «Adəmə səcdə edin.» İblisdən savay hamı səcdə etdi! O cinlərdən idi və Rəbbinin göstərişindən boyun qaçırdı. (Belə olan halda) onu və onun nəslini mənim yerimə himayəçimi seçirsiniz? Halbuki onlar sizə düşməndirlər! Sitəmkarlar Allahın əvəzinə pis bir şeyi seçmişlər.”**

---

[1] “Kafi”, c. 2, s. 288.
[2] “Təfsire-Əl-mizan”.
[3] “Tur”, 26.

**Nöqtələr**

● **Səcdə üç növdür:**

a) Namaz səcdəsi kimi yalnız Allaha məxsus olan ibadət səcdəsi;

b) Allah əmrinə itaət üçün mələklərin Adəmə səcdəsi kimi itaət səcdəsi;

v) Yusifin aqibəti ilə bağlı Yəqubun səcdəsi kimi, Allaha təşəkkür, "təhiyyət" səcdəsi.

**Bildirişlər**

1. Mələklərin Adəmə səcdəsi və İblisin rədd olunması əhvalatı düşünüləsi əhvalatdır və ibrət mayasıdır.
2. Mələklər insandan öncə var idilər.
3. İnsan mələkdən üstün olduğu üçün mələyə insana səcdə etmək əmri verildi.
4. Mələklər Allahın əmri qarşısında mütidirlər.
5. Səcdə etməyənlər İblisin yolundadırlar.
6. Öz keçmişimizlə öyünməyək. İblis uzun müddətli abid keçmişinə baxmayaraq yolunu azdı.
7. İblisin övladları, törəmələri var.
8. Günahkarları dost tutmaq olmaz.
9. Şeytanın ardıcılları nə etdiklərini bilmək üçün öz əməllərini nəzərdən keçirməlidirlər.
10. Şeytan və onun nəsli bəşəriyyətin düşmənidir.
11. Allah yerinə şeytanın ardınca gedənlər sitəmkarlardır.
12. Allahı boşlayıb, şeytanın ardınca getmək ən pis sonluğu seçməkdir.

**● Ayə 51:**

﴿مَا أَشْهَدتُّهُمْ خَلْقَ السَّمَاوَاتِ وَالْأَرْضِ وَلَا خَلْقَ أَنفُسِهِمْ وَمَا كُنتُ مُتَّخِذَ الْمُضِلِّينَ عَضُدًا﴾

**"Mən onları (İblis və övladlarını) nə səmaların və yerin, nə də özlərinin yaranışında şahid gətirmədim. Mən azğınları özümə köməkçi götürmərəm."**

**Nöqtələr**

● Həzrət Əliyə (ə) dedilər: "Hakimiyyətin möhkəmlənənədək Müaviyəni əmirlikdə saxla. Qüdrətə çatdıqdan sonra onu işdən kənarlaşdırarsan." Həzrət belə bir işin mümkün olmadığını buyurdu.[1]

---

[1] "Təfsire-Nurus-səqəleyn", c. 3, s. 268.

● Allah mütləq ehtiyacsızdır. Hətta yaranış prosesində Onun kimsənin köməyinə ehtiyacı yoxdur. Onun hər hansı işi başqasına, məsələn, mələklərə tapşırması acizlikdən yox, hikmətdəndir və insanların tərbiyəsi üçündür.[1]

**Bildirişlər**

1. Allahın yaranışda şahidə ehtiyacı yoxdur.
2. Varlıq və yaranışın sirrini Allahdan başqa kimsə bilməz.
3. Yalnız yaradanın hakimiyyət haqqı var.
4. Allahın məmurları etibarlı olmalıdır.
5. Allahın yolunda olanlar azğınlardan yardım almamalı, siyasi və iqtisadi müstəqilliklərini hifz etməlidirlər.

**● AYƏ 52:**

﴿وَيَوْمَ يَقُولُ نَادُوا شُرَكَائِيَ الَّذِينَ زَعَمْتُمْ فَدَعَوْهُمْ فَلَمْ يَسْتَجِيبُوا لَهُمْ وَجَعَلْنَا بَيْنَهُم مَّوْبِقًا﴾

**“(Xatırla,) o gün ki, (qiyamətdə Allah mələklərə) deyər: «Mənə şərik qoşduqlarınızı yanınıza çağırın (sizə kömək etsinlər). Onları çağırarlar, amma bir cavab çıxmaz. Biz onların arasında həlakət dərəsi qərar verərik.»”**

**Nöqtələr**

● Allahdan uzaq düşənlər avara qalır. Onlar insana, cansız cismə, heyvana, günəşə, aya, inəyə, buzova, mələklərə və şeytanlara müraciət etsələr də, bir cavab almırlar. Allahı çağıranlara isə hökmən cavab verilir.[2]

● **Sual:** Quranda bildirilir ki, Allah haqqı gizlədənlərlə və əhdi pozanlarla danışmaz.[3] Bəs nə üçün bu ayədə Allahın müşriklərlə danışdığı bildirilir?

**Cavab:** Ola bilsin ki, haqqı gizlədənlər müşrikdən də pisdirlər. Ya da bu nöqtə qiyamət mərhələlərinin müxtəlifliyi ilə izah oluna bilər. Bir mərhələdə Allah danışır, digər mərhələdə onlardan üz çevirir. «Allah onlarla danışmaz» dedikdə mümkündür ki, mehriban danışıq nəzərdə tutulur.

**Bildirişlər**

1. Qiyamətdə müşriklərlə onların məbudları arasında böyük bir fasilə olar.
2. Allah qiyamətdə müşriklərə imkan verir ki, öz məbudlarından yardım istəsinlər. Amma bunun nə faydası?
3. Cəhalət, əsassız təsəvvürlər şirkin köküdür.

---

[1] “Naziat”, 5.
[2] “Ğafir”, 60.
[3] “Bəqərə”, 174; “Ali-İmran”, 77.

● AYƏ 53:

﴿وَرَأَى الْمُجْرِمُونَ النَّارَ فَظَنُّوا أَنَّهُم مُّوَاقِعُوهَا وَلَمْ يَجِدُوا عَنْهَا مَصْرِفًا﴾

**“Günahkarlar (qiyamətdə) cəhənnəm odunu görərlər. Anlayarlar ki, bu oda düşəcəklər və qurtuluş yolu tapmayacaqlar.”**

**Nöqtələr**

● Günahkarların qiyamətdə qurtuluş yolu yoxdur. Çünki yalnız iman sayəsində xilas olmaq mümkündür. Allahın əfvi üçün tövbə və saleh əmələ ehtiyac var. Onlarınsa əli boşdur. Onların şəfaət dilədiyi bütlər çarəsiz olduğundan hökmən cəhənnəmə düşəsidirlər.

**Bildirişlər**

1. Ötən ayədə vəd edilmiş fəlakətli yer cəhənnəmdir.
2. Şirk günahdır, müşrik isə günahkar.
3. Odu görmək əzabdır. Odda yanmaq isə növbəti bir əzab olasıdır.
4. Günahkarlar qiyamətdə odu uzaqdan gördükdə belə onun hənirtisi səbəbindən odda olduqlarını düşünərlər.[1]
5. Şirk əbədi əzabdır.
6. Qiyamətdə günahkarın heç bir qurtuluş ümidi, çıxış yolu yoxdur.

● AYƏ 54:

﴿وَلَقَدْ صَرَّفْنَا فِي هَذَا الْقُرْآنِ لِلنَّاسِ مِن كُلِّ مَثَلٍ وَكَانَ الْإِنسَانُ أَكْثَرَ شَيْءٍ جَدَلًا﴾

**“Əlbəttə, Biz bu Quranda xalq üçün müxtəlif məsəllər çəkdik. İnsan isə hər şeydən öncə höcətləşəndir.”**

**Nöqtələr**

● “Sərrəfna” dedikdə müxtəlif bəyanlar mənası anlaşılır. Yəni, Biz təsir göstərə biləsi hər bir dil və məntiqlə onlarla danışdıq. “Cidal” sözü isə üstünlük əldə etmək istəyi ilə müşayiət olunan danışıq mənasındadır.

● İnsan ilahi ruhu, mələklərdən üstünlüyü, mələklərin ona səcdəsi, varlıq aləminə hakimliyi kimi müsbət səciyyələrlə yanaşı, bir çox mənfi səciyyələrə də malikdir. Quran ayələrində bu ayələrə işarə olunmuşdur. Zalımlıq, cahillik, höcətkeşlik bu səciyyələrdəndir.

**Bildirişlər**

1. Xalqın doğru yola yönəlməsi və tərbiyəsi üçün təkrar, rəngarənglik və məsəl çəkmək zəruri və faydalı üsuldur.

---

[1] “Furqan”, 12.

2. Quranın məqsədi bütün xalqın hidayətidir. Quran məsəlləri hamının anlaması üçündür.

3. Allah Quran vasitəsi ilə höccəti tamamlamış, yetərli dəlillər gətirmişdir.

4. Quranda dəvət və hidayətin hər bir prinsipi üçün məsəl çəkilmişdir.

5. İnsanda qəbul ruhiyyəsi olmasa, məsəllər çox çəkildikcə o daha çox höcət edəsidir.

6. İnsan rəngarəngliyə və höcətə meyilli mövcuddur.

**• AYƏ 55:**

﴿وَمَا مَنَعَ النَّاسَ أَن يُؤْمِنُوا إِذْ جَاءهُمُ الْهُدَى وَيَسْتَغْفِرُوا رَبَّهُمْ إِلَّا أَن تَأْتِيَهُمْ سُنَّةُ الْأَوَّلِينَ أَوْ يَأْتِيَهُمُ الْعَذَابُ قُبُلًا﴾

**“Hidayət (doğru yol göstərişi) gəldikdən sonra xalqa iman gətirməkdən və öz Rəbbindən bağışlamaq diləməkdən uzaqlaşdıran nə oldu? Yalnız o ki, (istədilər) əvvəlkilər haqqında Rəblərinin sünnəsi (ilahi əzab) onlar üçün də gəlsin, ya da əzab onlarla qarşı-qarşıya dayansın!”**

**Bildirişlər**

1. Bir belə nişanələri görə-görə iman gətirməkdən boyun qaçırmaq höcətçilik nişanəsidir.

2. Allah yetərincə dəlillər gətirir ki, insanların küfrü üçün bəhanə yolu qalmasın.

3. Təkcə iman gətirmək bəs etmir, büdrəmələrə görə tövbə də lazımdır.

4. Tövbə yolu qoymaq Allahın rübubiyyət şərtidir.

5. Tarixin ibrət götürüləsi sabit sünnələri, qanunları var.

6. Moizə və dəlillər bəzən yetərsiz olur və qarşı tərəfi cəzalandırmaq lazım gəlir. Bəzən səmavi vəhy, daimi təbliğ, tarixin müşahidəsi, ibrətlər, bir sözlə tərbiyəvi amillər inadkar insanlara təsir etmir.

7. İman və tövbə ilahi əzaba mane olur.

8. Allah-təala insanları həm keçmişdəkiləri cəzalandırdığı kimi, həm də yeni bir tərzdə cəzalandıra bilər.

**• AYƏ 56:**

﴿وَمَا نُرْسِلُ الْمُرْسَلِينَ إِلَّا مُبَشِّرِينَ وَمُنذِرِينَ وَيُجَادِلُ الَّذِينَ كَفَرُوا بِالْبَاطِلِ لِيُدْحِضُوا بِهِ الْحَقَّ وَاتَّخَذُوا آيَاتِي وَمَا أُنذِرُوا هُزُوًا﴾

**“Biz peyğəmbərləri yalnız (möminlərə) müjdə verən və (günahkarları) qorxudan kimi göndəririk. Amma kafirlər batil yolla höcətləşib, düşmənçilik aparırlar ki, haqqı məhv etsinlər. Onlar bizim nişanələrimizi və qorxudulduqları şeyi məsxərəyə qoydular.”**

**Bildirişlər**

1. İlahi sünnələrdən, peyğəmbər risalətindən, xalqın reaksiyasından və inadkar qövmün aqibətindən xəbərdarlıq peyğəmbər üçün bir növ təsəllidir.

2. Peyğəmbərlərin işi xalqı məcbur etmək yox, müjdə və xəbərdarlıqdır.

3. Allah xalqa höccəti tamamlayır, yetərincə dəlil gətirir. Din xalqa məcburi qəbul etdirilmir.

4. Kafirlərin məqsədi haqqın məhvi, bu məqsədə çatmaq üçün vasitələri höcət və istehzadır.

5. Haqla batil arasında tarix boyu müharibə olmuşdur.

6. Kafirlər haqqın qarşısını batil vasitəsi ilə almaq istəyirlər. Onlar anlamırlar ki, batil müvəqqətidir.[1]

7. Peyğəmbərlərin müjdə və xəbərdarlıqları gerçəklikdir və kafirlər onun məhvi üçün səy göstərirlər.

8. İlahi ayə və hökmlərin məsxərəyə qoyulması kafirlərin həmişəki işidir.

**● AYƏ 57:**

﴿وَمَنْ أَظْلَمُ مِمَّن ذُكِّرَ بِآيَاتِ رَبِّهِ فَأَعْرَضَ عَنْهَا وَنَسِيَ مَا قَدَّمَتْ يَدَاهُ إِنَّا جَعَلْنَا
عَلَى قُلُوبِهِمْ أَكِنَّةً أَن يَفْقَهُوهُ وَفِي آذَانِهِمْ وَقْرًا وَإِن تَدْعُهُمْ إِلَى الْهُدَى فَلَن
يَهْتَدُوا إِذًا أَبَدًا﴾

**“Rəbbinin ayələri ilə xəbərdar edildikdən sonra onlardan üz döndərən, öz keçmiş əməllərini unudan kəsdən sitəmkar kimdir?! Əlbəttə, Quran ayələrini anlamasınlar deyə Biz onların qəlblərinə pərdələr çəkdik, doğru yola çağırıldıqları vaxt yola gəlməsinlər deyə qulaqlarında ağırlıq qərar verdik.”**

**Nöqtələr**

● “Təzəkkür” dedikdə insanın ruhunun dərinliyində Allahı tapdığı halda Ondan qəflətdə qalması rəmzi anlaşılır. “Təzəkkür”, yəni xəbərdarlıq, xatırlatma qəflət pərdəsini aradan götürmək üçündür. Həzrət Əli (ə) Peyğəmbərin (s) vəsfində buyurur: “Peyğəmbərin besətinin məqsədi budur ki, xalqa unutduqlarına vəfa qılmaq xatırladılsın.”[2]

● “Əkinnə” dedikdə pərdələr və örtüklər mənası başa düşülür.

**Bildirişlər**

1. İlahi ayələrə etinasızlıq və diqqətsizlik ən böyük zülmdür.

---

[1] “İsra”, 81.
[2] “Nəhcül-bəlağə”, x. 1.

2. Pis əməllərin xatırlanması tövbə və üzrxahlıq üçün zəmin yaradır. Əksinə, pis işlərə diqqətsizlik ruhun zülmətə bürünməsi səbəbi və bütün bədbəxtliklərin açarıdır.

3. İlahi ayələrə diqqətsizliyin, istehzanın və günahlardan xəbərsizliyin cəzası həqiqətlərin dərkindən məhrumluqdur.

4. İlahi əzab təkcə qiyamətə aid deyil. Dərketmə gücünün alınması da bir əzabdır.

5. Xalqın hidayəti, doğru yola yönəldilməsi üçün təkcə dəlil bəs etmir. Qarşı tərəfin qəbul ruhiyyəsi də şərtdir.

6. Yumşaq qəlb və eşidən qulaq hidayət yoludur. Bu iki səciyyə olmadıqda hətta peyğəmbərlərin də sözü cavabsız qalır.

**● AYƏ 58:**

﴿وَرَبُّكَ الْغَفُورُ ذُو الرَّحْمَةِ لَوْ يُؤَاخِذُهُم بِمَا كَسَبُوا لَعَجَّلَ لَهُمُ الْعَذَابَ بَل لَّهُم مَّوْعِدٌ لَّن يَجِدُوا مِن دُونِهِ مَوْئِلًا﴾

**“Rəbbin bağışlayan və rəhmət sahibidir. Əgər xalqı onların əməllərinə görə cəzalandırsa, onlara daha tez əzab göndərər. Amma onlar üçün vəd olunmuş məqam var. Allahın lütfü olmasa, heç vaxt geriyə dönüş yolu tapmazlar.”**

**Nöqtələr**

● “Məvil” dedikdə sığınacaq, qurtuluş vasitəsi mənası başa düşülür.

● Allah həm ədalətlidir, həm də bağışlayan. O, ədaləti əsasında günahkarı cəzalandırmalıdır. Amma mərhəmətli olduğundan insana tövbə üçün möhlət verir. Tövbə etməyən insan isə ilahi ədalət əsasında cəzalandırılır.

**Bildirişlər**

1. Bağışlama və mərhəmət ilahi rübubiyyət şənindəndir və tərbiyə şərtidir.

2. Allah həm çox bağışlayandır, həm də geniş rəhmət sahibidir.

3. İlahi qəhr-qəzəb və əzab insanların öz əməllərinin nəticəsidir.

4. İnsanın məqsədli şəkildə yol verdiyi günahlar daha çirkindir və bu günahların əzabı daha ağırdır.

5. Günahkarlara möhlət vermək ilahi sünnədir.

6. Möhlət vermək və əzabı təxirə salmaq ilahi lütf nişanələrindəndir.

7. Allahın verdiyi möhlət günahkarları qürrələndirməsin. Çünki bir gün möhlət başa çatar, əzab anı yetişər və heç bir qurtuluş yolu qalmaz.

**● AYƏ 59:**

﴿وَتِلْكَ الْقُرَى أَهْلَكْنَاهُمْ لَمَّا ظَلَمُوا وَجَعَلْنَا لِمَهْلِكِهِم مَّوْعِدًا﴾

**“Zülm etdikləri vaxt həmin abadlıqların əhlini həlak etdik. Onların məhvi üçün zaman müəyyənləşdirdik.”**

**Bildirişlər**

1. Tarixdən və keçmişdəkilərin başına gələnlərdən ibrət götürmək lazımdır.
2. İnsanların zülmə qapılaraq yol verdiyi əməllər bədbəxtlik və fəlakət rəmzidir.
3. Mədəniyyətlərin, cəmiyyətlərin süqutu Allahın iradəsinə tabedir.
4. İlahi qəhr-qəzəb hikmətə əsaslanır və onun üçün xüsusi vaxt müəyyənləşmişdir.
5. Sitəmkarları rifah və asayiş içində gördükdə məyus olmayın. Onlara da möhlət verilmişdir.

**● AYƏ 60:**

﴿وَإِذْ قَالَ مُوسَى لِفَتَاهُ لَا أَبْرَحُ حَتَّى أَبْلُغَ مَجْمَعَ الْبَحْرَيْنِ أَوْ أَمْضِيَ حُقُبًا﴾

**“(Xatırla,) o zaman ki, Musa gənc yoldaşına belə dedi: “İki dəryanın qovuşduğu yerə çatmayınca, illər uzansa belə öz axtarışımdan əl çəkmərəm.”**

**● AYƏ 61:**

﴿فَلَمَّا بَلَغَا مَجْمَعَ بَيْنِهِمَا نَسِيَا حُوتَهُمَا فَاتَّخَذَ سَبِيلَهُ فِي الْبَحْرِ سَرَبًا﴾

**“Onların ikisinin qovuşduğu məhəllə çatdıqları vaxt (yol üçün götürdükləri) balığı unutdular. Balıq da suya sıçrayıb getdi.”**

**Nöqtələr**

● “Musa” adı Quranda 136 dəfə çəkilmişdir. Bütün məqamlarda həmin ülul-əzm peyğəmbər nəzərdə tutulur.

Qulam və oğul əvəzinə gənc mənasını bildirən “fəta” sözünün işlənməsi ədəb, mehribanlıq və yaxşı çağırış nişanəsidir. Ayədə “fətah” deyərkən həzrət Musanın səfər yoldaşı Yuşə ibn Nun nəzərdə tutulmuşdur.[1]

● 70 ildən 80 ilədək çəkən uzun illər “huqub” sözü ilə ifadə olunmuşdur.

● Təfsir və rəvayətlərdə Musa ilə həzrət Xızrın əhvalatı bəyan olunur. Buxarinin “Səhih” kitabında İbn Abbasdan belə nəql olunur: Ubəyy ibn Kəb nəql edir ki, Peyğəmbər (s) buyurdu: “Bir gün həzrət Musa xütbə oxuduğu vaxt Bəni-İsrail ona sual verdi ki, ən alim şəxs kimdir? Həzrət Musa buyurdu: “Mənəm.” Həmin məqamda Allah Musanı məzəmmət etdi ki, nə üçün Allahın daha yaxşı bildiyini qeyd etməyib və həzrət Xızrın daha alim olduğunu deməyib? Musa dedi: “Xızr haradadır?” Xitab oldu: “Məcməul-Bəhreyn

---

[1] “Təfsire-Nurus-səqələyn”.

məntəqəsində. Həmin yeri tapmaq üçün səbətə bir balıq at və hərəkətə başla. Harada səbəti boş görsən, bil ki, orada həzrət Xızrla görüşə bilərsən."[1]

Musa səbətə bir balıq atıb yoldaşına dedi: "Harada səbəti boş görsən mənə de." Musa və yoldaşı hərəkətə başladı. Nəhayət, dənizin kənarına çatdılar. İstirahət üçün bir daşın kənarına çəkildilər. Musa yuxuda olduğu vaxt balıq hərəkətə gəlib dəryaya atıldı. Musanın yoldaşı, yuxuda olduğu üçün Musanı çağırmadı. Musa oyandıqdan sonra isə balığın suya atıldığını deməyi unutdu. Sonra yollarına davam etdilər. Bir gün ərzində yol getdikdən sonra Musa dedi: "Bu yol bizi yordu, yeməyə bir şey gətir." Musanın yoldaşı həmin vaxt balığın suya atıldığını xatırlayıb əhvalatı Musaya danışdı. Musa dedi: "Balığın atıldığı yerə qayıtmalıyıq, bizə vəd olunmuş yer oradır."

● İmam Baqir (ə) və İmam Sadiq (ə) buyurmuşdur: "Musanın yoldaşı duzlanmış balığı dənizin kənarına apardı ki, onu yusun. Balıq onun əlində hərəkətə gəlib suya atıldı."[2]

● Belə bir fikir var ki, "Məcməul-Bəhreyn" məntəqəsi iki peyğəmbər dəryasının görüşdüyü yerdir. Musa zahiri, Xızr isə batini hikmət dəryası idi.

● Peyğəmbərlər məsum olduqlarından və nəyisə yaddan çıxarmadıqlarından, balığın yaddan çıxması dedikdə onun bir kənara qoyulması nəzərdə tutulur. Bəzi ayələrdə Allaha münasibətdə də belə təbirlər işlədilir.[3] Əslində həmin iki şəxs balıq məsələsini unutmamışdı və özləri ilə balıq götürmüşdü. Sadəcə Musa yatdığından məsələdən xəbər tutmamış və yoldaşı ona bu barədə danışmağı unutmuşdu.

● Quranda tez-tez rastlaşırıq ki, heyvanlar hansısa xəbər üçün əlamət olur. Habilin qarğanın təlqini vasitəsi ilə dəfni, Səba əhlinin Hud-hud (şanapipik) vasitəsi ilə xəbər tutması, iki peyğəmbərin görüşü əhvalatından balığın dirilməsi, peyğəmbərin qorunmasında hörümçəyin rolu, Kəhf səhabələrinin it tərəfindən qorunması deyilənlərə misal ola bilər.

**Bildirişlər**

1. Musanın Xızrla görüş və elm əldə etməklə bağlı çalışmaları qeyd olunasıdır.
2. Səfərdə yoldaşımız olsun.
3. Gözəl ünvan seçimi İslamın tövsiyəsidir.
4. Hicrət və elm əldə etmək üçün səfərin çoxlu tarixi keçmişi var.
5. Elm istəyində olan oturub alimin yolunu gözləməməli, onun sorağınca getməlidir. Yəni alimə yetişənədək axtarışdan əl çəkməmək!
6. Elm və alim axtarışına bütün ömrü sərf etməyə dəyər.

---

[1] Əllamə Şərani "Təfsire-Əbül-Fütuh kitabının haşiyəsində bu yerin Şam və Fələstində olduğunu bildirir.

[2] "Təfsire-Nurus-səqəleyn".

[3] "Casiyə", 64; "Səcdə", 14.

7. Elm təhsilinin sonu yoxdur. Musa kimi bir peyğəmbər də elm əldə etmək üçün uzun səfərə hazır olmalıdır.

8. Əsil yoldaş səfərin sonunadək insandan ayrılmır.

9. Dəniz və dənizkənarı mənəvi təlimlər və görüşlər üçün münasib məhəl ola bilər.

**● Ayə 62:**

﴿فَلَمَّا جَاوَزَا قَالَ لِفَتَاهُ آتِنَا غَدَاءنَا لَقَدْ لَقِينَا مِن سَفَرِنَا هَذَا نَصَبًا﴾

**"Elə ki, (dəniz kənarından) ötdülər, Musa öz gənc yoldaşına dedi: "Səhər yeməyimizi gətir. Həqiqətən, bu səfərdə çox əziyyət görmüşük."**

**● Ayə 63:**

﴿قَالَ أَرَأَيْتَ إِذْ أَوَيْنَا إِلَى الصَّخْرَةِ فَإِنِّي نَسِيتُ الْحُوتَ وَمَا أَنسَانِيهُ إِلَّا الشَّيْطَانُ أَنْ أَذْكُرَهُ وَاتَّخَذَ سَبِيلَهُ فِي الْبَحْرِ عَجَبًا﴾

**"(Həmin gənc) dedi: "Yadındadırmı, qayaya sığındığımız vaxt mən balığı unutdum. Onu mənə yalnız şeytan unutdurdu. Qəribədir, balıq dənizdə öz yolunu tutdu."**

**Nöqtələr**

● Sübh yeməyi "ğəda", axşam yeməyi "əşa" adlanır.

● İmam Sadiq (ə) bildirir ki, həzrət Musa üç dəfə aclıqdan şikayətləndi: Şüeybin qızlarına su gətirib onlara kömək edəndə, (bir qırağa çəkilib dedi: "Pərvərdigara! Mənə nazil edəcəyin xeyirə möhtacam); bu ayədə göstərilən məqamda; kənd əhli onların yemək istəyinə müsbət cavab verməyəndə (Musa Xızra etiraz etdi ki, nə üçün bizə yemək verməyənlərə müftə iş görürsən?);

● Musa və Xızrın görüşəcəyi yerin nişanəsi vardı və bu nişanə həmin yerdə balığın dəryaya sıçraması idi. Həmin yerə çatdıqda balıq dəryaya atıldı, amma Musanın yoldaşı bu barədə Musaya bir söz deməyi unutdu. Bir qədər yol getdikdən sonra əhvalatı ona danışdı. Yenidən geri qayıtdılar və Musa həmin yerdə Xızrla görüşdü.

● Həzrət Musanın 4 səfəri olmuşdur: "Hərb səfəri";[1] "Tələb səfəri";[2] "Türəb səfəri";[3] "Təb səfəri";[4]

---

[1] "Şuəra", 21.
[2] "Qəsəs", 30.
[3] "Əraf", 143.
[4] "Təfsire-kəşful-əsrar."

**Bildirişlər**

1. Yol yoldaşı və azuqə səfər ehtiyaclarındandır. (Kəhf səhabələrinin də nağd pulu vardı.)

2. Elm və təhsil, mərifət, amallara doğru hərəkət yolunda peyğəmbərlər də çətinliklərlə üzləşmişlər.

3. Şeytanlar Musa və Xızrın görüş və yoldaşlığını istəmədiyindən əhvalatı danışmağı Musanın yoldaşına unutdurdular.

**● AYƏ 64:**

﴿قَالَ ذَلِكَ مَا كُنَّا نَبْغِ فَارْتَدَّا عَلَى آثَارِهِمَا قَصَصًا﴾

**“(Musa) dedi: «Bu, axtardığımız həmin yerdir.» Öz ayaqlarının yerini izləyib həmin yolla qayıtdılar.”**

**● AYƏ 65:**

﴿فَوَجَدَا عَبْدًا مِّنْ عِبَادِنَا آتَيْنَاهُ رَحْمَةً مِنْ عِندِنَا وَعَلَّمْنَاهُ مِن لَّدُنَّا عِلْمًا﴾

**“Sonra (həmin yerdə) Öz tərəfimizdən böyük mərhəmət əta etdiyimiz bəndəmizi tapdılar. Biz ona Öz elmimizdən öyrətmişdik.”**

**Nöqtələr**

● İmam Sadiq (ə) buyurur: “Musa şəriət elmini Xızrdan daha yaxşı bilirdi. Digər sahələrdə Xızr Musadan daha agah idi.[1]

● Ayədə “əbd” (bəndə) deyərkən həzrət Xızra işarə olunmuşdur. O, müəyyən dəlillərə əsasən peyğəmbər olmuşdur:

a) Musa kimi peyğəmbərə ustad olan şəxs hökmən peyğəmbər olasıdır.

b) “Əbdina”, “əbdihi”, “ibadina” təbirləri Quranda adətən peyğəmbərlərlə bağlı işlədilir.

v) Xızr Musaya dedi: “Məndən gördüyün və səbir etmədiyin bütün qeyri-adi işlər mənim yox, Allahın əmri və rəyi əsasında idi.”

q) Musa Xızra söz verdi ki, mən sənin göstərişinə zidd bir iş görmərəm. Ülul-əzm peyğəmbərin nə üçün-niyəsiz təslimçiliyi, qarşısında dayanan şəxsin məsum və peyğəmbər olduğunu göstərir.

d) Qeyri-adi elmlər peyğəmbərlərə məxsusdur.

e) Bəzi təfsirçilər haqqında danışılan tərəfə aid edilən “Rəhmət” sözünü peyğəmbərlik kimi açıqlamışlar.

**Bildirişlər**

1. Bəzi elmləri səy, təcrübə və təlim yolu ilə əldə etmək olmur. Bu sayaq elmləri əldə etmək üçün “lədunni”–ilahi elmə ehtiyac var.

---

[1] “Təfsire-Əl-mizan”.

2. Əziyyət və axtarışın sonu tapıntı və müvəffəqiyyətdir.

3. Cəmiyyətdə yol göstərən Xızrlar tapılır. Əsası axtarmaq, tapmaq və şagirdlik etməkdir.

4. İnsanları Allaha bəndəçiliyə doğru dəvət edən kəs həm özü, həm də onun ustadı həqiqi bəndə olmalıdır.

5. Yalnız bəndəlik sayəsində ilahi rəhmət və elm əldə etmək olar.

6. Hər bir bilikdən də üstünü həmin şeyi daha yaxşı bilməkdir. Deməkç elmimizlə qürrələnməməliyik.

### ● Ayə 66:

﴿قَالَ لَهُ مُوسَى هَلْ أَتَّبِعُكَ عَلَى أَن تُعَلِّمَنِ مِمَّا عُلِّمْتَ رُشْدًا﴾

**“Musa ona (Xızra) dedi: «Kamal üçün sənə öyrədilənləri mənə öyrədəsən deyə ardınca gəlimmi?»”**

**Nöqtələr**

● Həzrət Peyğəmbər (s) buyurmuşdur: “Musa Xızrla görüşdüyü vaxt bir quş dəryadan dimdiyinə su alıb sonra yerə atdı. Xızr Musaya dedi: “Quşun bu işinin nə demək olduğunu bildinmi? O bizə anladır ki, Allahın elmi ilə müqayisədə bizim elmimiz dərya ilə müqayisədə bu damla kimidir.”[1]

● Bu qısa ayələrdə ustada münasibətdə ədəb və təvazödən danışan çoxsaylı nöqtələr var. O cümlədən: Musa şagirdliyə icazə ilə başladı; özünü ustada ardıcıl kimi tanıtdırdı; Xızrı ustad kimi qəbul etdi; özünü ustadın elmlərindən bir hissəsinin şagirdi saydı; ustadın elmini qeyblə əlaqəli bildi; ustadın elmini təsirli saydı; “Allah sənə öyrətdiyi kimi sən də mənə öyrət”, dedi; itaətsizlik etməyəcəyini vəd etdi; ustadın iş və sözlərini əmr saydı; gələcəklə bağlı vəd verməyib “inşaəllah” söylədi.

**Bildirişlər**

1. Elm əldə etmək üçün ustad qarşısında ədəbli və təvazökar olmaq lazımdır.

2. Alimlər və ustadlar qarşısında təvazö peyğəmbər əxlaqındandır.

3. Elm və bilik aşiqi olan insan səy göstərir.

4. Alimlə birlikdə səfərə çıxmaq, elm əldə etmək yolunda çətinliklərə dözmək dəyərli işdir.

5. Elm sorağında olan insanın məqsədi olmalıdır və şəxsiyyət güdməməlidir.

6. İlahi işlər bəzən möcüzə yolu ilə həyata keçsə də, əsas qanun işlərin təbii yolla gerçəkləşməsidir. Musa hikmət öyrənmək üçün şagirdlik etməli oldu.

7. Ülul-əzm peyğəmbərlər də elm və bilik əldə etmək üçün çalışmışlar.

8. Həzrət Xızr peyğəmbər idi və Allah tərəfindən «lədunni» elm almışdır.

---

[1] “Təfsire-Əl-mizan”.; “Təfsire-nümunə”; “Təfsire-dürrül-mənsur”.

9. Təkamül yolunu keçmək və xüsusi ilahi maarifə çatmaq üçün müəllim və bələdçiyə ehtiyac var.

10. Peyğəmbərlərin elmi məhduddur və arta bilər.

11. Elm və kamaldan bəhrələnməkdə peyğəmbərlərin mərtəbələri fərqlidir.

12. Elm və kamalın bütün mərtəbələrinə yiyələnmək peyğəmbərlik şərti deyil.

13. İlahi maarif və elmlərdən xəbərdarlıq insan kamilliyinin təminatçısıdır.

14. Elm öz-özlüyündə məqsəd deyil. O inkişaf mayası olmalı, insanı saleh əmələ sövq etməli, onu qürurdan çəkindirib, təvazökarlığa aparmalıdır.[1]

**● AYƏ 67:**

﴿قَالَ إِنَّكَ لَن تَسْتَطِيعَ مَعِيَ صَبْرًا﴾

**"(Xızr) dedi: «Sən heç vaxt mənimlə yoldaşlığa dözə bilməzsən.»"**

**● AYƏ 68:**

﴿وَكَيْفَ تَصْبِرُ عَلَى مَا لَمْ تُحِطْ بِهِ خُبْرًا﴾

**"Tam şəkildə bilmədiyin bir şeyə necə səbir edə bilərsən?"**

**● AYƏ 69:**

﴿قَالَ سَتَجِدُنِي إِن شَاء اللَّهُ صَابِرًا وَلَا أَعْصِي لَكَ أَمْرًا﴾

**"(Musa) dedi: «Allahın istəyi ilə məni dözümlü görəcəksən və heç bir işdə sənə itaətsizlik etməyəcəyəm.»"**

**● AYƏ 70:**

﴿قَالَ فَإِنِ اتَّبَعْتَنِي فَلَا تَسْأَلْنِي عَن شَيْءٍ حَتَّى أُحْدِثَ لَكَ مِنْهُ ذِكْرًا﴾

**"(Xızr) dedi: «Əgər mənim ardımca gəlirsənsə, özüm bir söz deməyincə məndən heç nə haqqında soruşma.»"**

**Nöqtələr**

● Ötən ayələrdə bəyan olunduğu kimi, həzrət Musa ülul-əzm peyğəmbərlərdən olsa və şəriət elmini bilsə də, digər elmlərdə həzrət Xızr ondan üstün idi.

**Bildirişlər**

1. Tərbiyəçi və müəllim öz şagirdlərinin tutumundan xəbərdar olmalıdır.

2. Elmi məsuliyyətlər həvalə olunarkən müsbət və mənfi cəhətlər nəzərə alınmalıdır.

---

[1] "Bihar", c. 86, s. 18.

3. İnsanların məlumat tutumu fərqlidir. Hətta Musada Xızrın işlərinə dözüm yox idi.

4. Səbir olmadan elmi təkamül əldə oluna bilməz.

5. Bir çox höcətləşmələrin və kin-küdurətlərin səbəbi qarşı tərəfin düşüncə və məqsədindən xəbərsizlik olur.

6. Agahlıq və elmi əhatə insanın tutumunu və səbrini artırır.

7. Səbir və ilahi lütflə kamala çatmaq olar.

8. Gələcəkdə görəcəyimiz hər bir işdən öncə Allahın istəyini yada salaq və “inşaəllah” söyləyək.

9. Xızr məsum idi. Çünki Musa ona itaətsizlik göstərməyəcəyini əhd etdi.

10. Müəllimə itaət və təhsil yolunda səbir elmə çatmağın qaydası və şərtidir.

11. Elmi və tərbiyəvi işlərdə öhdəçilik götürmək caizdir.

12. Sual verməyin vaxtı var və bu işdə tələsmək olmaz.

13. Peyğəmbərlərin bütün işləri dəlil, məntiq və hikmətə əsaslanmışdır.

14. Ustad və tərbiyəçi öz şagirdlərinin şübhələrini aradan qaldırmalıdır.

**● AYƏ 71:**

**﴿فَانطَلَقَا حَتَّى إِذَا رَكِبَا فِي السَّفِينَةِ خَرَقَهَا قَالَ أَخَرَقْتَهَا لِتُغْرِقَ أَهْلَهَا لَقَدْ جِئْتَ شَيْئًا إِمْرًا﴾**

**“O iki nəfər (Musa və Xızr) yola düşdülər. Nəhayət gəmiyə süvar oldular. (Xızr) onu deşdi. Musa dedi: «Yoxsa sərnişinləri batırmaq üçün onu deşdin? Həqiqətən, rəva olmayan bir iş gördün!»”**

**● AYƏ 72:**

**﴿قَالَ أَلَمْ أَقُلْ إِنَّكَ لَن تَسْتَطِيعَ مَعِيَ صَبْرًا﴾**

**“(Xızr) dedi: «Demədimmi ki, sən heç vaxt mənimlə yoldaşlığa dözməzsən?»”**

**Nöqtələr**

● “Xərq” fəsad səbəbi ilə və mütaliə etmədən bir şeyi parça-parça etmək mənasını bildirir. “İmr” dedikdə mühüm, təəccüblü və ya çox çirkin iş mənası anlaşılır.

**Bildirişlər**

1. Təhsildə vaxtı əldən verməyin.

2. Bəziləri sonadək yoldaşlıq etmir. Musanın ilkin yoldaşı sonadək onunla getmədi və Musa həzrət Xızrla ikilikdə yola düşdü.

3. Elm zaman, məkan və hər hansı xüsusi vasitə ilə məhdudlaşmır. (Dənizdə, gəmiyə süvari halda, səfərdə də oxumaq olar.)

4. Bir şəxsin elm və hikmətini qəbul etdikdə onun bizə təəccüblü görünən işlərinə də sükutla yanaşmalıyıq.

5. Bəzən bir şeyin məhvi təhsil üçün şərt olur.

6. Təhlükə baş verdikdə hamı özünü düşünürsə, peyğəmbərlər xalqa görə narahat olur.

7. Gəminin deşilməsi zahirdə başqasının malını korlamaq idi. Musa zahirdə dəlili olmayan bu işə görə etiraz etdi.

**● AYƏ 73:**

﴿قَالَ لَا تُؤَاخِذْنِي بِمَا نَسِيتُ وَلَا تُرْهِقْنِي مِنْ أَمْرِي عُسْرًا﴾

**"(Musa) dedi: «Məni yaddan çıxartdığım üçün məzəmmət etmə və bu işə görə məni qınama.»"**

**● AYƏ 74:**

﴿فَانطَلَقَا حَتَّى إِذَا لَقِيَا غُلَامًا فَقَتَلَهُ قَالَ أَقَتَلْتَ نَفْسًا زَكِيَّةً بِغَيْرِ نَفْسٍ لَّقَدْ جِئْتَ شَيْئًا نُّكْرًا﴾

**"Beləcə, bir gənclə rastlaşanadək yollarına davam etdilər. Xızr həmin gənci öldürdü. Musa dedi: "Kimsəni öldürməmiş bir günahsızımı öldürdün? Həqiqətən, pis bir iş görmüş oldun!"**

**Nöqtələr**

● Həm peyğəmbərlər unutqan deyil, həm də bir şeyi yaddan çıxarmaq mühakimə olunmur. 73-cü ayədə "məni yaddan çıxardığım üçün məzəmmət etmə" cümləsi Musanın itaətdən çıxıb sakit dayanmamasına, bəzi işləri xilaf saymasına işarədir.

● "İrhaq" dedikdə həm qəhr-qəzəblə əhatə etmə, həm də «çətin iş təklifi» mənaları anlaşılır.

● "Qulam" və "zəkiyyə" sözlərindən anlaşılır ki, onların rastlaşdığı gənc yetkinlik həddinə çatmamışdı. Musa Xızrın ikinci işini birinci işindən daha ağır saydı.

**Bildirişlər**

1. Müəllim və ustad öz şagirdini məzəmmət edə bilər.

2. Təlim-tərbiyədə boş yerə şagirdə çətinlik yaratmaq olmaz.

3. Müəllim və ustad şagirdin üzrxahlığını qəbul etdikdən sonra öz işinə davam etməlidir.

4. Müəllim şagirdi maariflə tədricən tanış etməlidir. (Musa sirlərlə addım-addım tanış olur.)

5. Hökmlərə riayət etmək əxlaqi öhdəçiliklərdən mühümdür. Musa qətli günah saydığı üçün verdiyi vədi bir kənara qoyub pis işin qarşısını almağa çalışdı.

6. Musanın da dinində qisas qanunu vardı. Musa etiraz edirdi ki, nə üçün kimsəni qətlə yetirməmiş gənc öldürülsün?

7. Bəzən bir şəxsə yaxşı görünən iş bir başqasına pis görünə bilər.

*ON ALTINCI CÜZ*

**● AYƏ 75:**

**﴿قَالَ أَلَمْ أَقُل لَّكَ إِنَّكَ لَن تَسْتَطِيعَ مَعِيَ صَبْرًا﴾**

**"(Xızr) dedi: «Demədimmi ki, mənimlə yoldaşlığa səbr edə bilməzsən?»"**

**● AYƏ 76:**

**﴿قَالَ إِن سَأَلْتُكَ عَن شَيْءٍ بَعْدَهَا فَلَا تُصَاحِبْنِي قَدْ بَلَغْتَ مِن لَّدُنِّي عُذْرًا﴾**

**"(Musa) dedi: «Əgər bundan sonra səndən bir şey soruşsam, mənimlə yoldaşlıq etmə. Həmin halda, şübhəsiz, üzrün olacaq. (Haqqın olacaq ki, məndən uzaqlaşasan.)»"**

**Nöqtələr**

● Peyğəmbər (s) buyurur: "Əgər Musa səbir etsəydi, Xızrın daha qəribə işlərini müşahidə edərdi."[1]

**Bildirişlər**

1. Allahın övliyalarının elmə yiyələnmək dözümü və tutumu eyni deyil.
2. Xasiyyətləri müəyyənləşdirmək üçün üç dəfə sınamaq və möhlət vermək kifayətdir.
3. Əgər bir şəxslə fikir ayrılığımız olsa və bir-birimizi dərk etməsək, müqavimət göstərmədən ayrılaq.
4. Musanın etirazlarının səbəbi Xızrın işlərini anlamaması idi.
5. Öz əməllərimizə münasibətdə insaflı rəy verək. Musa səbirsizliyin məsuliyyətini öz öhdəsinə götürdü.
6. Bir şəxsdən ayrılanda ədəb çərçivəsindən çıxmayaq.
7. Hər ayrılığı kin-küdurət, təkəbbür nişanəsi saymaq olmaz.

**● AYƏ 77:**

**﴿فَانطَلَقَا حَتَّى إِذَا أَتَيَا أَهْلَ قَرْيَةٍ اسْتَطْعَمَا أَهْلَهَا فَأَبَوْا أَن يُضَيِّفُوهُمَا فَوَجَدَا فِيهَا جِدَارًا يُرِيدُ أَنْ يَنقَضَّ فَأَقَامَهُ قَالَ لَوْ شِئْتَ لَاتَّخَذْتَ عَلَيْهِ أَجْرًا﴾**

**"O iki nəfər bir kənd sakini ilə rastlaşanadək yol getdilər. Həmin yerin əhlindən qida istədilər. Amma onlar bu iki nəfəri qonaq etmək istəmədilər. Həmin iki nəfər orada uçmaqda olan bir divar gördü. Xızr divarı bərpa**

---

[1] "Təfsiri-Təbəri" ; "Təfsire-Əbül-Futuh.

**etdi. (Musa təəccüblə) dedi: «Əgər istəsəydin, bu işə görə muzd ala bilərdin!»”**

**Nöqtələr**

● Həmin yerin əhli Musa və Xızra yemək verməkdən imtina etdi. Amma Xızr uçmaqda olan divarı təklikdə təmir etdi.

**Bildirişlər**

1. Hər təhsil dövrünün müəyyən hərəkətə ehtiyacı var. Yeni dövrə təhsil üçün yerdəyişmə etmək dəyərdir.

2. Əxlaqi baxımdan süqut etmiş millət ülul-əzm peyğəmbərə çörək verməkdən də imtina edir. (Əlbəttə ki, peyğəmbərləri tanıdıqları halda belə edirlər.)

3. Qərib qonaqları yaxşı qarşılamayanlar məzəmmətə layiqdirlər.

4. Xalqın etinasızlığı və diqqətsizliyi bizim işimizə mənfi təsir göstərməsin.

5. Peyğəmbərlər bəzən ağır ehtiyac içində yaşayıblar.

6. Ehtiyaclı insanlar son həddə qənaət etsələr də, insanlıq kəraməti qonağı yaxşı şəkildə qəbul etməyi tələb edir.

7. Qonaq tanış olmaya da bilər. Qərib və yolda qalmış insanları da qəbul etmək lazımdır.

8. Nöqsanlı şeyi dəyərsiz sayıb ondan əl çəkmək yox, nöqsanı aradan qaldırmaq lazımdır.

9. Allahın övliyaları kin-küdurət və intiqam əhli olmamışlar. Kənd əhli onları qəbul etməsə də, Xızr onlara xidmət göstərdi.

10. Peyğəmbərlər xalqın malı və canı üzərində tam ixtiyar sahibidirlər və hər hansı müdaxilə üçün sahibdən icazə almalarına ehtiyac yoxdur.

11. “Əvvəl çörək, xörək” məntiqi hər yerdə özünü doğrultmur. Qarnı ac peyğəmbər müftə işləyirdi. Ehtiyacımız olan vaxt dəvət gözləmədən işə girişək.

12. Muzd almadan Allah yolunda çalışmaq eyb deyil.

13. Bir işin faydalı və zəruri olduğunu müəyyənləşdirdikdən sonra başqalarının mənfi münasibəti bizi işdən saxlamasın.

14. İşləmək, muzd almaq əskiklik deyil.

15. Allahın övliyaları pul üçün çalışmırlar.

**● AYƏ 78:**

﴿قَالَ هَذَا فِرَاقُ بَيْنِي وَبَيْنِكَ سَأُنَبِّئُكَ بِتَأْوِيلِ مَا لَمْ تَسْتَطِع عَلَيْهِ صَبْرًا﴾

**“(Xızr) dedi: «Bu dəfə səninlə mənim aramda ayrılıq vaxtı çatdı. Tezliklə səni səbir edə bilmədiyin işlərin sirrindən agah edəcəyəm.»”**

**Nöqtələr**

● “Təvil” sözü qaytarmaq mənasını bildirir, məqsədə çatan və hər hansı sirrin üzərindən pərdəni götürən iş “təvil” adlanır.

● Xızr Musadan onun təklifi ilə ayrıldı. Musa öz sualları, etirazları və divarın bərpasında Xızrı tək qoyması ilə bu ayrılığa zəmin yaratdı.

● Musadan həyatının ən ağır dəqiqəsi haqqında soruşdular: "O dedi: "Fironçulardan xeyli böhtan eşitsəm, Bəni-İsrailin bəhanələrindən cana yağılsam da, mənim üçün ən ağır an Xızrın "ayrılıq vaxtı çatdı" dediyi andır.[1]

***Bahar yağışı tək axsın göz yaşım,***
***Daş da ağlar görsə ayrılıq quşun.***

**Bildirişlər**

1. Vüsal qədrini bilməyən insan fərağa, ayrılığa düçar olacaq.
2. Yoldaşların kiçik məzəmmətlərinə görə onları əldən verməyək. Xızr bir neçə mərhələdən sonra ayrılıq qərarına gəldi.
3. Başqalarının zehnini bacardıqca tez şübhələrdən təmizləyin.
4. Hikmət təlim etməklə insanların tutumunu artıraq.
5. Bəzən zahiri hadisələrin batini yönümü də olur.

**● Ayə 79:**

﴿أَمَّا السَّفِينَةُ فَكَانَتْ لِمَسَاكِينَ يَعْمَلُونَ فِي الْبَحْرِ فَأَرَدتُّ أَنْ أَعِيبَهَا وَكَانَ وَرَاءهُم مَّلِكٌ يَأْخُذُ كُلَّ سَفِينَةٍ غَصْبًا﴾

**"Amma həmin (deşilmiş) gəmi dənizdə işləyən yoxsulların idi. Onu nöqsanlı etmək istədim. Çünki onların yaxınlığında bütün salamat gəmiləri zorla ələ keçirən bir padşah vardı."**

**Nöqtələr**

● "Vəra" dedikdə hər hansı məxfi, gizli yer nəzərdə tutulur. Belə bir yer insanın həm qarşısında, həm də arxasında ola bilər.

● İnsan adətən, işlərin zahiri çöhrəsini müşahidə edir. Amma işin batini çöhrəsi də ola bilər. Musa zahiri baxımdan Xızrın işlərini düzgün saymırdı. Amma Xızrın işlərinin batini sirri, rəmzi və mahiyyəti vardı.

● Xızr gəmini suya batacaq həddə dəlməmişdi. Onun məqsədi gəmini zahirən eybli göstərmək idi. Bəzən müşahidə etdiyimiz nöqsanlar faydalı olur.

***Bəzən şikəstlikdən düzəlir işlər***
***Mərhəmət doğurur axsaq yerişlər.***

● Gəminin dəlinməsində məqsəd onun sitəmkar padşahın əlinə düşməməsi idi. Padşah gəmini ələ keçirsəydi, gəminin yoxsul sahibləri çarəsiz qalardı.

---

[1] "Məhəccətul-beyza"; "Təfsire-Əbul-Futuh".

Pisliyi pisliklə aradan qaldırmaq hamının işi deyil, "əhəmm və mühüm" prinsipindən həqiqi dinşünaslar faydalana bilər.

● Əhli-beyt məsumları bəzən öz yaxınlarını başqalarının hüzurunda məzəmmət edərdilər. Belə bir rəftar sitəmkar hökumətin diqqətini yayındırırdı və rabitələr gizli qalırdı. İmam Sadiq (ə) Zürarəni abbasilərin işkəncəsindən qurtarmaq üçün aşkar şəkildə danlayır, sonra ona bildirirdi ki, məqsədi Zürarənin canını qorumaqdır. Sonra imam bu ayəni tilavət edib buyurmuşdur: "Sən bu dəryanın zalım hakimlər tərəfindən izlənilən ən yaxşı gəmisisən."[1]

● Yalnız zahir mərhələsini adlayanlar sirlər dünyasına qədəm qoyub əşyaların batinindən xəbər tuturlar. Necə ki, Musa şəriəti bilirdi və ona əməl edirdi. Amma Xızrla yoldaşlıqdan sonra batini sirlərdən də xəbər tutdu.

**Bildirişlər**

1. Təhsil yolunda nizamlı olmaq mühümdür. İlkin sual gəminin zədələnməsi ilə bağlı idi və öncə bu sual cavablandırıldı.
2. Deyilməyən sirlər bir gün aşkarlanar.
3. Hikmətdən faydalanan şəxs heç vaxt boş iş görməz, onun əməlləri hikmət və məsləhətə əsaslanar.

***Xızr qırdısa da gəmini, bil sən,***
***Üstündür bu qırma yüz düzəlmişdən.***

4. Məsullar məhrumların hüquq və mal-mülkünü hifz etməlidirlər.
5. Allahın övliyaları miskinlərə və məhrumlara canıyanandırlar.
6. Sərmayə və işi olduğu halda ehtiyacını ödəyə bilməyənləri Quran miskin sayır.
7. Sərmayə və işdə şəriklik qanunidir və ötən dinlərdə də təsbit olunmuşdur.
8. Qəsbkar hakimlər xalqın malına nəzarətdən məhrum edilməlidirlər.
9. Pisliyi pisliklə aradan qaldırmaq caizdir və "əhəmm və mühümm" prinsipinə riayət etmək lazımdır.
10. Zalım hakimlər aza razı olmur, fəqirlərin cüzi sərmayəsinə də göz dikirlər.
11. Xızr Allahın əmrini yerinə yetirsə də, ədəbi gözləyərək gəminin dəlinməsini özünə aid etdi.
12. Peyğəmbərlərin işi adətən, zahiri qanunlara əsaslanır. Xızr isə gerçəklik əsasında hərəkət etməyə vəzifəli idi.

**● AYƏ 80:**

﴿وَأَمَّا الْغُلَامُ فَكَانَ أَبَوَاهُ مُؤْمِنَيْنِ فَخَشِينَا أَن يُرْهِقَهُمَا طُغْيَانًا وَكُفْرًا﴾

---

[1] "Təfsire-Nurus-səqəleyn".

**“(Öldürdüyüm) gəncin ata-anası mömin idi. Qorxduq ki, o, həmin iki nəfəri küfr və tüğyana sürükləyə.”**

**● AYƏ 81:**

**﴿فَأَرَدْنَا أَن يُبْدِلَهُمَا رَبُّهُمَا خَيْرًا مِّنْهُ زَكَاةً وَأَقْرَبَ رُحْمًا﴾**

**“(Bu səbəbdən də) rəblərinin onlara bu övlad əvəzində daha pak və daha üstün birini verməsini istədik.”**

**Nöqtələr**

● “İrhaq” dedikdə bir insanı yerinə yetirilməsi çətin və üzücü işə vadar etmək nəzərdə tutulur.

● Hədisdə deyilir: Allah həmin oğlanın əvəzində mömin ata-anaya saleh bir qız verdi və həmin qızdan dünyaya yetmiş peyğəmbər gəldi.[1]

● Bəzən övlad valideynin azğınlıq və küfrünə səbəb olur. Bəzən də valideyn öz övladının pak və tövhidi fitrətini küfr və azğınlığa sürükləyir.

Həzrət Peyğəmbər (s) buyurur: “Hər bir övlad fitri olaraq allahşünas və mömindir. Yalnız ata-ana onu dəyişir.”[2]

**Bildirişlər**

1. Allahın övliyaları boş və mənasız işlər görmür. Əlbəttə ki, onların işi zahirdə mənasız görünə bilər.
2. Övladın bədbəxtliyindən, fəsadçıllığından və azğınlığından onun ölümü daha üstündür.
3. Allahın imanlı ata-anaya xüsusi diqqəti var.
4. Bəzən cismi düşüncəyə fəda etmək lazım gəlir. Ata-ananın imanını qorumaq üçün övladı öldürmək zəruri olur.
5. Fitnə-fəsadı öncədən görüb, kökünü qazmaq lazımdır.
6. Tüğyan və azğınlıq küfr üçün zəmindir.
7. İlahi insanların iradəsi Allah iradəsidir.
8. Allahın övliyaları həm məsuliyyət daşıyır, həm də xalqın gələcəyi haqqında düşünürlər.
9. Bəzən mömininin çətinliyə salınmasının səbəbi onun iman və əqidəsinin qorunması olur.
10. Əgər Allah mömindən bir şey alsa, əvəzində daha yaxşısını verər.
11. Qeyri-saleh övladın ölümü və onun yerinə saleh övladın əta olunması Allahın rübubiyyət cilvəsindəndir.
12. Övladların paklığı və salehliyi yetərli deyil. Onlar həm də ata-anaları ilə mehriban olmalıdırlar.

---

[1] “Təfsire-Nurus-səqələyn”.
[2] “Bihar”, c. 3, s. 282.

13. Əsas məsələ övladın oğlan və ya qız olması yox, paklığı və valideynə məhəbbətidir.

**● AYƏ 82:**

﴿وَأَمَّا الْجِدَارُ فَكَانَ لِغُلَامَيْنِ يَتِيمَيْنِ فِي الْمَدِينَةِ وَكَانَ تَحْتَهُ كَنزٌ لَّهُمَا وَكَانَ أَبُوهُمَا صَالِحًا فَأَرَادَ رَبُّكَ أَنْ يَبْلُغَا أَشُدَّهُمَا وَيَسْتَخْرِجَا كَنزَهُمَا رَحْمَةً مِّن رَّبِّكَ وَمَا فَعَلْتُهُ عَنْ أَمْرِي ذَلِكَ تَأْوِيلُ مَا لَمْ تَسْطِع عَّلَيْهِ صَبْرًا﴾

**"Amma o divar həmin şəhərdəki iki yetim gəncin idi. Onun altında həmin iki nəfər üçün xəzinə vardı. Rəbbin istədi ki, həmin iki nəfər yetkinlik həddinə çatdıqdan sonra Rəblərinin onlara mərhəməti olan xəzinəni çıxarsınlar. Mən bu işləri özbaşına görmədim. Sənin dözə bilmədiyin işlərin sirri bu idi."**

**Nöqtələr**

● Həzrət Peyğəmbər (s) bir rəvayətdə buyurur: "Bu xəzinə qızıl vərəqə yazılmış hikmətli sözlərdən ibarət idi. Yazının məzmunu belə idi: Allahın təqdirinə iman gətirdiyi halda qəmlənən kəs təəccüb doğurur! Ölümə əmin olduğu halda şadlanan kəs təəccüb doğrurur! Ruziyə inandığı halda özünü artıq zəhmətə salan kəs təəccüb doğurur! Dünyanın aradan gedəcəyini bildiyi halda ona güvənən kəs təəccüb doğurur!"[1]

● Hədislərə əsasən Allahın lütf və rəhməti təkcə oğul-qıza yox, bütün sonrakı nəslə təsirlidir. Ata-babaların saleh əməli Allahın növbəti nəsillərə lütfü ilə nəticələnir.[2]

● İmam Sadiq (ə) buyurur: "Allah Musaya vəhy etdi: "Mən övladlara atalarının yaxşılığına görə mükafat verərəm." Sonra buyurur: "Əgər xalqın namusuna xəyanət etsəniz, sizin namusunuza xəyanət olunar."[3]

● Bir məqamda valideynin imanını hifz etmək xatirinə övlad öldürülür. Digər bir məqamda atanın saleh əməli səbəbindən peyğəmbər fəhləlik edir ki, övladlar sərmayə əldə etsinlər.

● Bəziləri Müaviyə ilə sülh etdiyi üçün imam Həsənə (ə) etiraz etdikdə həzrət buyurdu: "Bilmirsinizmi ki, Xızr məsləhət olduğu üçün gəmi dəldi, bir gənci öldürdü və onun gördüyü işlər Musanı qəzəbləndirdi?! Ey insanlar, əgər sülhü qəbul etməsəydim, yer üzünün bütün şiələri məhv olardı."[4]

---

[1] "Təfsire-Məcməül-bəyan".
[2] "Təfsire-Nurus-səqələyn".
[3] "Təfsire-Nurus-səqələyn".
[4] "Təfsire-Nurus-səqələyn".

● “Qəryə” və “mədinə” sözləri eyni mənanı bildirir. (Tədqiqatçılardan biri bildirir ki, kənd, şəhər, abadlıq mənasını bildirən “qəryə” və “mədinə” sözlərini araşdırsaq, belə bir nəticə alarıq: Hidayət nuru olan hallarda “mədinə”, hidayət nuru olmayan hallarda “qəryə” sözü işlədilmişdir.)

● “Əşudd” sözü “şiddət” sözünün cəm formasıdır. “Yəbluğa əşuddəhuma”, yəni “onlar bütün yetkinliklərinə çatanadək” mənasını bildirir.

**Bildirişlər**

1. Qeyri-yetkin uşaq da mülk sahibi ola bilər. Amma bu uşaq yalnız yetkinliyə çatdıqdan sonra həmin mülkü sərf etmək ixtiyarı qazanır.
2. Övladlar üçün ehtiyat sərvət toplamaq caizdir. Amma infaq etmədən qızıl toplamaq qadağandır.
3. Yetimlərin malını hifz etmək vacibdir.
4. Atanın yaxşı işləri övladların taleyinə təsir göstərir.
5. Xızr peyğəmbər olmuşdur.
6. Bəzi hadisələrin dərin təhlil və təfsirə ehtiyacı var və bu hadisələr insanın təkamülü üçündür. Ayədəki mərhələlər Musa üçün inkişaf mərhələləri idi.
7. Allah qarşısında ədəbli danışmaq lazımdır. Həzrət Xızr hətta zahiri baxımdan nöqsan sayılan işləri Allaha yox, özünə aid edirdi.
8. Allah övliyalarının iradəsi Allahın iradəsidir.

### ● Ayə 83:

﴿وَيَسْأَلُونَكَ عَن ذِي الْقَرْنَيْنِ قُلْ سَأَتْلُو عَلَيْكُم مِّنْهُ ذِكْرًا﴾

**“Səndən Zül-Qərneyn haqqında soruşarlar. De ki, tezliklə sizə onun haqqında danışacağam.”**

**Nöqtələr**

● “Qərn” sözünün iki mənası var: Uzun dövr və heyvan buynuzu. Zül-Qərneynin bu sayaq adlandırılmasının səbəbi ya onun uzun müddətli hakimiyyəti, ya da dəbilqəsinin üzərində iki buynuz olması ola bilər. “Qərneyn” dedikdə şərq və qərb nəzərdə tutula bilər. (Ərəblər şərq və qərbi günəşin iki buynuzu saymışlar.) Ola bilsin ki, Zül-Qərneyn bütün şərq və qərbə hakim olduğundan belə adlandırılmışdır.

İmam Baqir (ə) buyurur: “Zül-Qərneyn peyğəmbər olmamışdır. Amma bu saleh şəxsi Allah sevirdi. O öz qövmünü təqvaya çağırırdı. Bir dəfə başından zərbə alan Zül-Qərneyn müəyyən müddət gözə dəymir. Sonradan qayıdıb yenidən xalqı təqvaya dəvət edir. Bu dəfə ikinci zərbəni alır.” Bu məqamda imam buyurur: “Sizin aranızda da bu xüsusiyyətlərə malik şəxs var.”[1] Ola bilsin ki, bu şəxs həmin iki zərbəyə xatir Zül-Qərneyn kimi tanınmışdır.

---

[1] “Təfsire-Nurus-səqəleyn”. “Kəmalud-dini-Səduq”.

● “Təfsire-nümunə” əsərində bəzi əsaslarla Zül-Qərneynin əslində Kuroş olduğu bildirilir. Əsər müəllifləri yunan tarixçilərinin bəzi məlumatlarına, tövratın müəyyən bəyanatlarına və Kuroşun miladi XIX əsrdə tapılmış iki buynuzlu mücəssəməsinə əsaslanırlar. Amma mərhum Şuərani “Əbul-Futuh” təfsirinin haşiyəsində bildirir ki, Zül-Qərneyn 13 yaşından Ərəstunun şagirdi olmuş Makedoniyalı İsgəndərdir. Amma “Əl-mizan” təfsirində də Kuroş ehtimalına üstünlük verilir.

Əslində Zül-Qərneyn neçə il hakimiyyətdə olması, onun həqiqi adı, neçə il ömür sürməsi, insan və ya mələk olması, peyğəmbər və ya saleh qul olması, İsgəndər və ya Kuroş olması, nə üçün Zül-Qərneyn adlandırılması, hakimiyyət hüdudları, tikdiyi səddin uzunluğu və hündürlüyü, bu səddin Çin səddi olub olmaması cüzi məsələlərdir və bir o qədər də faydalı deyil. İnsanın təkamülündə hadisələrin xırdalıqları+ yox, məqsədləri rol oynayır.

**Bildirişlər**

1. Xalq öz sualları ilə peyğəmbərlərə müraciət edir və cavab alırdı.
2. Rəhbər və din təbliğatçısı tarix və mühüm tarixi hadisələrlə tanış olmalıdır. Xalq rəhbərə müxtəlif suallarla müraciət edir. Necə ki, bəzi ayələrdə peyğəmbərdən ruh haqqında soruşulur.
3. Xalqın yerli və məntiqi suallarını cavabsız buraxmayaq.
4. Suallara tələsik cavab verməyək.
5. Tarix və onun takrarlanması yalnız xatırlatma və ibrət məqsədi ilə dəyərlidir.
6. Xalqın sualları bəzi ayələrin nazil olması üçün zəmindir.

**● Ayə 84:**

﴿إِنَّا مَكَّنَّا لَهُ فِي الْأَرْضِ وَآتَيْنَاهُ مِن كُلِّ شَيْءٍ سَبَبًا﴾

**“Həqiqətən, Biz yer üzündə ona (Zül-Qərneynə) qüdrət verdik, ona hər şeydən vasitə əta etdik.”**

**● Ayə 85:**

﴿فَأَتْبَعَ سَبَبًا﴾

**“O, səbəb ardınca getdi (öz səfərinə başladı).”**

**Nöqtələr**

● Həzrət Əlinin (ə) Bəlxli gəncə öyrətdiyi duada (“Məşlul” duası) oxuyuruq: “Ey Zül-Qərneyni sitəmkar padşahlara qalib edən Allah!” Həzrətdən nəql olunmuş bir hədisdə onun dilindən bildirilir ki, Zül-Qərneyndə padşahlıq və

peyğəmbərlik nişanəsi vardı, haqqı batildən seçəcək həddə hər şeydən xəbərdardı, Allah şəhərləri və qəlbləri ona təslim etmişdi.[1]

● Zül-Qərneyn və Süleyman yer üzünə hakim olmuş iki mömin şəxs idi. Buxtun-Nəsr və Nəmrud isə əksinə, yer üzündəki kafir hakimlərdən idilər.[2]

● Allah Öz övliyalarına ilahi yolda istifadə üçün qüdrət verir. Həzrət Süleyman, Həzrət Yusif və bəzi möminlər bu qəbildəndir. Quran Allahın yaxşı bəndələri haqqında buyurur: "Onlar imkan və qüdrət verdiyimiz zaman namazı bərpa edən, zəkat ödəyən, yaxşılığa çağırıb, pisliyə qadağan qoyan kəslərdir."[3] Öz qüdrətindən batil yolda istifadə edənlər isə məzəmmət olunur və onların haqqında buyurulur: "Öz qüdrət və hakimiyyətlərindən sui-istifadə etdikləri üçün sizdən öncə çoxlarını məhv etdik."[4]

**Bildirişlər**

1. Allah bütün varlıq aləmi və təbii amillərə hakimdir. O, istədiyinə imkan və qüdrət verir. Amma insan xoşniyyət və xoş tədbir sayəsində düzgün bəhrələnə bilir.

2. Bəzən Allah müəyyən şəxslərə bütün imkanları verir.

3. Təbiət nizamı səbəb və səbəbkar nizamıdır. Hər bir hadisənin səbəbi var və bu səbəbi müəyyənləşdirib sorağınca getmək lazımdır. Allahın xalis bəndələri də təbii səbəb və imkanlar vasitəsi ilə haqq məqsədləri izləməlidirlər.

4. İmkan və qüdrətdən də mühümü onlardan düzgün istifadə etməkdir.

5. Zül-Qərneyn həm imkanlara malik idi, həm də səbəblərdən istifadə qaydalarını bilirdi.

**● AYƏ 86:**

﴿حَتَّى إِذَا بَلَغَ مَغْرِبَ الشَّمْسِ وَجَدَهَا تَغْرُبُ فِي عَيْنٍ حَمِئَةٍ وَوَجَدَ عِندَهَا قَوْمًا قُلْنَا يَا ذَا الْقَرْنَيْنِ إِمَّا أَن تُعَذِّبَ وَإِمَّا أَن تَتَّخِذَ فِيهِمْ حُسْنًا﴾

**"Elə ki, günəşin qürub yerinə çatdı, onun qara və palçıqlı çeşmədə batdığını gördü. Onun yanında bir qövm də tapdı. Dedik ki, «ey Zül-Qərneyn, ya onlara əzab ver, ya da onların arasında yaxşı yolu tut (hamısını bağışla).»"**

**Nöqtələr**

● Pis qoxulu qara və isti palçıq "həmiə" adlanır.

---

[1] "Təfsire-Nurus-səqəleyn".
[2] "Təfsire-Nurus-səqəleyn".
[3] "Həcc", 41.
[4] Ənam", 6.

**Bildirişlər**

1. Peyğəmbərlər və Allahın övliyaları problemlərin həlli və xalqın qurtuluşu üçün təkcə dua ilə kifayətlənməz, şəxsən qiyam qaldırardılar.

2. Agah və məqsədli səyahət bəyənilmişdir.

3. Zül-Qərneyn peyğəmbər idi. Çünki Allah ona müraciət edir.

4. Bəzən müdirlər və rəhbərlər üçün səlahiyyətlər müəyyənləşdirmək lazım gəlir. (Allah Öz övliyalarına müəyyən ixtiyarlar verir.)

5. Qərbdə küfrün uzun keçmişi var.

6. Peyğəmbərlər xalqdan kənarda dayanmamalıdırlar.

**● AYƏ 87:**

﴿قَالَ أَمَّا مَن ظَلَمَ فَسَوْفَ نُعَذِّبُهُ ثُمَّ يُرَدُّ إِلَى رَبِّهِ فَيُعَذِّبُهُ عَذَابًا نُّكْرًا﴾

**“(Zül-Qərneyn) dedi: «Zülmkara əzab verəcəyik. Sonra Rəbbinə doğru qaytarılar və Rəbbi ona ağır əzab verər.»”**

**● AYƏ 88:**

﴿وَأَمَّا مَنْ آمَنَ وَعَمِلَ صَالِحًا فَلَهُ جَزَاء الْحُسْنَى وَسَنَقُولُ لَهُ مِنْ أَمْرِنَا يُسْرًا﴾

**“İman gətirib saleh iş görənin isə üstün mükafatı var və onun üçün Öz tərəfimizdən bir asanlıq müəyyənləşdirəcəyik.”**

**Bildirişlər**

1. Küfr və şirk zülmdür. İman qarşısında küfr əvəzinə zülm sözü işlədilmişdir.

2. İslam hökumətinin müşriklərlə sərt davranmaq haqqı var.

3. Zül-Qərneyn sitəmkarların tövbə edəcəyinə ümid bəsləyirdi. Ona görə də cəzaya əl atmağa tələsmirdi.

4. Dünya əzabı axirət əzabına mane olmur.

5. Dünya cəzası məlumdur, axirət əzabı isə müəyyənləşməyib.

6. Yaxşılar və pislərlə eyni cür davranmaq olmaz. İstər fərdi, istər dövləti baxımdan bu prinsip əsas götürülür.

7. Zül-Qərneyn ilahi əmrlərin icraçısı idi. Ötən ayədə ona yaxşı davranış əmr olunur.

8. İlahi rəhbərlər xalqa asan qanunlarla hakimlik etməlidirlər.

9. Sitəmkarlarla sərt, möminlərlə mülayim rəftar ilahi rəhbərlərin üslubudur.

10. İlahi rəhbər və hakimin vəzifəsi ədalətin icrası, zülmlə mübarizə və ictimai məhdudiyyətləri müəyyənləşdirməkdir.

11. Təşviq və mükafatlandırmada cürətli olun. Cəzalandırmağa isə tələsməyin. “Sin” hərfi sürət, “sovfə” sözü isə təxir nişanəsidir.

**● AYƏ 89:**

﴿ثُمَّ أَتْبَعَ سَبَبًا﴾

**“Sonra (Zül-Qərneyn növbəti səfər üçün) başqa səbəb sorağınca getdi.”**

**● AYƏ 90:**

﴿حَتَّى إِذَا بَلَغَ مَطْلِعَ الشَّمْسِ وَجَدَهَا تَطْلُعُ عَلَى قَوْمٍ لَّمْ نَجْعَل لَّهُم مِّن دُونِهَا سِتْرًا﴾

**“Nəhayət günəşin doğduğu yerə çatdı. Onu günəşdən başqa örtük qərar vermədiyimiz bir qövmə tülu edən halda gördü.”**

**● AYƏ 91:**

﴿كَذَلِكَ وَقَدْ أَحَطْنَا بِمَا لَدَيْهِ خُبْرًا﴾

**“Biz bu sayaq onun imkanlarından və işlərindən xəbərdar idik. (Bizim nəzarətimiz altında idi.)”**

**Nöqtələr**

● Zül-Qərneyn qərbə səfərindən və sahil əhli arasında ədalət nizamını bərqərar etdikdən sonra şərqə üz tutdu.

● Günəşdən başqa örtüyün olmaması dedikdə ibtidai, heç bir imkana malik olmayan həyat tərzi anlaşılır. İmam Sadiq (ə) buyurur: “Onlar nə bənnalıq, nə də dərzilik bacarırdılar. Günəşlə onların arasında heç bir maneə yox idi və surətləri qaralmışdı.”[1]

**Bildirişlər**

1. Saleh və məsuliyyətli insanlar çalışqan və əzmkardırlar.
2. İlahi insanlar bütün imkanları ilə məhrumların nicatı və ədalətin bərpası yolunda hərəkət edirlər.
3. İlahi insanların səfərləri və bu səfərlərin bərəkətləri haqqında söhbət dəyər və ibrətdir.
4. İstər şərq, istər qərbdə ən mühüm məsələ xalqın hidayəti və ona xidmətdir.
5. Allah fərdlərdən və onlara əta etdiyi xüsusi nemətlərdən tam agahdır. (Zül-Qərneynin səfərləri, rastlaşdığı hadisələr, xalqla söhbətlərinin bəyanı Allahın elmi əhatəsini göstərir.)

**● AYƏ 92-93:**

﴿ثُمَّ أَتْبَعَ سَبَبًا حَتَّى إِذَا بَلَغَ بَيْنَ السَّدَّيْنِ وَجَدَ مِن دُونِهِمَا قَوْمًا لَّا يَكَادُونَ يَفْقَهُونَ قَوْلًا﴾

---

[1] “Təfsire-Nurus-səqəleyn”.

**“Sonra (digər bir səfər üçün ixtiyarında olan səbəblərdən) başqa bir səbəb sorağınca getdi. Nəhayət iki sədd arasına yetişdi. Həmin iki dağın arxasında sanki heç bir söz anlamayan bir qövm tapdı.”**

**Nöqtələr**

● Ötən ayədən göründüyü kimi xalq Zül-Qərneynin kamalından, qüdrətindən, canıyananlığından və ləyaqətindən xəbərdar idi və ən böyük çətinlikləri olan asayiş məsələsinin Zül-Qərneynin əli ilə həll olacağını düşünüb onunla söhbətləşdilər. Onların anlaqsızlığının qeydi mədəniyyətlərinin aşağı olmasına işarədir. Necə ki, “Nisa” surəsinin 78-ci ayəsində oxuyuruq: “Nə üçün bunlar heç bir söz anlamırlar?” Əlbəttə ki, ayədə həmin qövmün dil bilməməsi yox, düzgün yolda olmaması nəzərdə tutulur.

● Bu surədə üç əhvalat nəql olunur. Hər bir əhvalatda hərəkət və hicrət özünə yer almışdır: Kəhf səhabələrinin hicrəti, Xızrla görüş üçün Musanın hicrəti, Zül-Qərneynin hicrəti. İlkin hicrətdə məqsəd imanı qorumaq idi. İkinci hicrətdə məqsəd bilik əldə etmək, üçüncü hicrətdə məqsəd məhrumların xilası idi.

**Bildirişlər**

1. Təbiətə hakim qanunları kəşf edib işə salmaq lazımdır.
2. Hər bir hərəkət, məqsəd və səfərin xüsusi bir vasitəyə ehtiyacı var.
3. İlahi insanlar üçün rahatlıq, fərağət, bir yerdə dayanmaq mənasızdır.
4. Rəhbərlər digər məntəqələrə də baş vurub, ətrafdakı cərəyanlardan xəbər tutmalıdırlar.
5. Hərəkət və çalışmaq yoxsa, ehtiyaclar və gerçəklik öyrənilməmiş qalar.
6. İstər mütərəqqi, istər geri qalmış məhrum kütləyə xidmət dəyərdir.

**● AYƏ 94:**

﴿قَالُوا يَا ذَا الْقَرْنَيْنِ إِنَّ يَأْجُوجَ وَمَأْجُوجَ مُفْسِدُونَ فِي الْأَرْضِ فَهَلْ نَجْعَلُ لَكَ خَرْجًا عَلَى أَن تَجْعَلَ بَيْنَنَا وَبَيْنَهُمْ سَدًّا﴾

**“(Həmin qövm) dedilər: «Ey Zül-Qərneyn! Həqiqətən, Yəcuc və Məcuc (qövmləri) bu yerlərdə fəsad törədirlər. Bizimlə onlar arasında sədd yaratmağın üçün sənə bir məbləğ verəkmi?»”**

**Nöqtələr**

● “Xərac” torpaqdan xaric olan şeyə deyilir. “Xərc” isə maldan xaric olan şeydir.

● Təfsirçilər və tarixçilər mövcud əlamətlərə istinad edərək bildirirlər ki, Yəcuc və Məcuc həmin monqol-tatar qəbilələridir.

Bir rəvayətdə nəql olunur ki, Əmirəlmöminin Əli (ə) buyurmuşdur: "Zül-Qərneyn bir qövmlə rastlaşdı və ona dedilər: "Yəcuc və Məcuc qövmləri bu dağın arxasındadır. Onlar məhsul və meyvə yığımı zamanı hücum edib hər şeyi qarət edirlər. Sənin illik xərcini ödəsək, bizim üçün sədd yaradarsanmı?"[1]

**Bildirişlər**

1. Xalq ehtiyac duyduğu sahəyə sərmayə yatırır. Hazırkı surənin 77-ci ayəsində bildirildi ki, insanlar iki peyğəmbərə bir tikə çörək vermədilər. Amma bu ayədə onlar böyük sərmayə qoymağa hazırlıqlarını elan edirlər.
2. Allahın övliyaları əmin-amanlıq yarada biləcək ən üstün şəxslərdir. Onlar xalqı çətinlikdən qurtarmaq imkanındadırlar.
3. Əmin-amanlığa olan ehtiyac məskən və libasa olan ehtiyacdan önəmlidir. (Günəş qarşısında kölgənəcəyi olmayanlar Zül-Qərneyndən asayiş istədilər.)
4. Bəşər cəmiyyətində asayiş məsələsi çox mühüm məsələdir. Bu səbəbdən də cəmiyyətdə asayişi pozanlar üçün ən ciddi cəza nəzərdə tutulur.
5. Fəsad törədənlərin həbsi caizdir.

**● AYƏ 95:**

﴿قَالَ مَا مَكَّنِّي فِيهِ رَبِّي خَيْرٌ فَأَعِينُونِي بِقُوَّةٍ أَجْعَلْ بَيْنَكُمْ وَبَيْنَهُمْ رَدْمًا﴾

**"(Zül-Qərneyn onlara cavab olaraq) dedi: «Rəbbimin mənə verdiyi (qüdrət) daha yaxşıdır. Mənə öz gücünüzlə yardım göstərin, sizinlə onlar arasında möhkəm sədd çəkim.»"**

**● AYƏ 96:**

﴿آتُونِي زُبَرَ الْحَدِيدِ حَتَّى إِذَا سَاوَى بَيْنَ الصَّدَفَيْنِ قَالَ انفُخُوا حَتَّى إِذَا جَعَلَهُ نَارًا قَالَ آتُونِي أُفْرِغْ عَلَيْهِ قِطْرًا﴾

**"Mənim üçün dəmir parçaları gətirin. Elə ki, iki dağın arası (dəmir parçaları ilə) dolub bərabərləşdi, dedi: «Onu alovlananadək üfürün.» Dedi: «Ərimiş mis gətirin, dəmirlərin üzərinə töküm.»"**

**● AYƏ 97:**

﴿فَمَا اسْطَاعُوا أَن يَظْهَرُوهُ وَمَا اسْتَطَاعُوا لَهُ نَقْبًا﴾

**"(Bu dəmir divar hazırlandıqdan sonra Yəcuc və Məcuc) onu nə adlaya, nə də dağıda bildilər."**

---

[1] "Təfsire-Nurus-səqəleyn".

**Nöqtələr**

● Çatın tutulması “rədm”, kənar və tərəf “sədf”, ərimiş mis “qitr”, böyük dəmir parçası “zubər” adlanır.

● İmam Sadiq (ə) buyurur: “Təqiyyə dedikdə sizinlə müxaliflər arasında onların aşa və dələ bilməyəcəyi sədd nəzərdə tutulur.”[1]

**Bildirişlər**

1. İlahi övliyaların nəzərində bütün imkanlar Allahdandır.
2. Peyğəmbərlər risalət və xalqın hidayəti üçün kimsədən pul və maddiyyat ummamışlar.[2]
3. İnsanların imkanları onların faydası yolunda istifadə olunmalıdır.
4. Məqsədə çatmaq üçün proqram, istək və büdcədən əlavə xalqın çalışqanlığı və iştirakı da lazımdır.
5. Bəzən maddi yardımlardan yox, insani qüvvədən kömək istənilməlidir.
6. Dəmir və mis qatqısı peyğəmbərlərin kəşfidir. (Bu gün də elmi baxımdan uyğun tərkib əhəmiyyətlidir.)
7. İşin möhkəm və nöqsansız yerinə yetirilməsi peyğəmbərlərə xas xüsusiyyətlərdir. Zül-Qərneynin tikdiyi sədd o qədər möhkəm idi ki, kimsə onu aşa və dələ bilmirdi.
8. İctimai problemlərin həllində həmdərd insanların əl-ələ verməsi lazımdır. Çəkilən zəhmətlərə qiymət verdikdə iş dəyərli olur.
9. Ləyaqətli rəhbərlər elm və sənət, qarşılıqlı yardım sayəsində ən sadə fərd və vasitələrlə ən üstün işlər görürlər. Əgər müdir ləyaqətli olsa, sadə işçilər mühüm layihələri həyata keçirə bilərlər.

**● AYƏ 98:**

﴿قَالَ هَذَا رَحْمَةٌ مِّن رَّبِّي فَإِذَا جَاء وَعْدُ رَبِّي جَعَلَهُ دَكَّاء وَكَانَ وَعْدُ رَبِّي حَقًّا﴾

**“(Zül-Qərneyn) dedi: «Bu, Rəbbim tərəfindən böyük mərhəmətdir. Rəbbimin vədi yetişən vaxt onu dağıdıb hamarlayar. Rəbbimin vədi haqdır.»”**

**Nöqtələr**

● Zül-Qərneynin tikdiyi sədd bəzilərinin iddia etdiyi kimi Çin səddi deyil. Çünki həmin sədd dəmir və mislə düzəlmişdi. Qafqaz ərazisində yaxınlığında çay axan dəmir bir sədd tapılmışdır. Bu səddin həmin sədd olduğu daha inandırıcı görünür.[3]

---

[1] “Təfsire-Nurus-səqələyn”.
[2] Bax: “Şuəra”.
[3] “Təfsire-nümunə”.

**Bildirişlər**

1. İlahi insanlar heç vaxt qürrələnmir və Allahın rəhmətindən yardım aldıqlarını bilirlər.

2. Bütün səylər, dəyişikliklər bəşəriyyətin tərbiyəsi və inkişafı üçündür. Bu məqsəd ayədə 3 dəfə təkrarlanır.

3. Allahın rəhmət və rübubiyyəti bir-birinə bağlıdır.

4. Asayiş ilahi rəhmətdir. Adı çəkilən sədd xalqın əmniyyəti üçün tikilmişdi.

5. İş və səyin ilahiliyi, ciddilik, xalqın həmkarlığı, müdiriyyət və sənət, uca məqsədlər - bütünlüklə ilahi lütflər məcmuəsidir.

6. Xalqın asayişini təmin etməklə daha yaxşı təbliğ və dəvət etmək olar, eləcə də, digər işlər üçün zəmin yaranar. Zül-Qərneyn səddi başa çatdırdıqdan sonra xalqı yaranış və məadla tanış etdi.

7. Qiyamət astanasında hər şey xarab olar.

8. Allahın iradə və qüdrəti qarşısında insanların ən möhkəm qalaları davamsızdır.

9. İlahi insanlar Allahın lütfünə istinad edərək gələcəkdən xəbər verirlər.

10. İşin möhkəm görülməsini Allahın övliyalarından öyrənmək lazımdır. Onlar qiyamət astanasınadək yerində dayanası sədd düzəldirlər.

11. Həm dünya işlərini nöqsansız və möhkəm yerinə yetirmək, həm də ilahi qüdrəti danıb fərdi gücün puçluğunu unutmamaq lazımdır.

12. İlahi rəhbərlər insanların həm dünyasını abad edir, həm də onların diqqətini axirətə yönəldirlər.

**• AYƏ 99:**

﴾وَتَرَكْنَا بَعْضَهُمْ يَوْمَئِذٍ يَمُوجُ فِي بَعْضٍ وَنُفِخَ فِي الصُّورِ فَجَمَعْنَاهُمْ جَمْعًا﴿

**“Həmin gün (dünyanın sonunda) dalğa tək bəziləri bəzilərinə qatışsın deyə onları boşlayarıq. Sur üfürüldüyü vaxt hamını bir yerə toplayacağıq.”**

**• AYƏ 100:**

﴾وَعَرَضْنَا جَهَنَّمَ يَوْمَئِذٍ لِّلْكَافِرِينَ عَرْضًا﴿

**“Həmin gün cəhənnəmi necə lazımsa kafirlərə göstərəcəyik.”**

**• AYƏ 101:**

﴾الَّذِينَ كَانَتْ أَعْيُنُهُمْ فِي غِطَاء عَن ذِكْرِي وَكَانُوا لَا يَسْتَطِيعُونَ سَمْعًا﴿

**“O kəslər ki, gözlərində Mənim zikrimdən qəflət pərdəsi vardı və (təəssüb və inadkarlıq səbəbindən) eşitmək gücündə deyildilər.”**

**Nöqtələr**

● Uyğun ayəni "Ənbiya" surəsinin 96-cı ayəsi ilə yanaşı qoysaq məlum olar ki, Yəcuc və Məcuc qövmü məsələsi qiyamətə aiddir və həmin gün üçün bir müqəddimədir. Yəni qiyamətdən öncə Yəcuc və Məcuc qövmü özbaşına buraxılar və dalğa tək yayılıb gedər.

● İmam Rzadan (ə) "gözlərində mənim zikrimdən qəflət pərdəsi" ayəsinin təfsiri haqqında soruşulduqda həzrət buyurdu: "Ayədə zikr" dedikdə Əli ibn Əbi-Talib (ə) nəzərdə tutulmuşdur.[1]

● 101-ci ayədə göz və qulaq dedikdə mərifət, bəsirət və agahlıq nəzərdə tutulmuşdur. Söhbət qəlb gözü və qəlb qulağından gedir. Quranda korluq bəzən qəlbə aid edilir.[2]

**Bildirişlər**

1. Harada asayiş varsa, o asayiş Allahın lütfüdür. Xalq bir an özbaşına buraxılsa dünya bir-birinə dəyər.
2. Zül-Qərneyn səddinin uçulması qiyamət nişanələrindəndir.
3. Qiyamətdən öncə bəzi qövmlər yer üzündə hərc-mərclik yaradar. Amma həzrət Mehdinin (ə) zühuru ilə yer üzü islah olar.
4. İnsan daha çox göz və qulaqla xəbər tutur. Onların gözündə pərdə vardı və qulaqlarında haqqı eşitmək gücü yoxdur. Onlar haqqı anlamırdılar. Axı zikr gözlə görünəsi deyil.
5. Əslində eşitmə qabiliyyəti olan insan o qədər alçalır ki, onda haqqı eşitmək gücü qalmır.
6. Cəhənnəm kafirlərin dünyadakı əməllərinə və tərsliklərinə görə onlara göstərilir.

**● Ayə 102:**

﴿أَفَحَسِبَ الَّذِينَ كَفَرُوا أَن يَتَّخِذُوا عِبَادِي مِن دُونِي أَوْلِيَاء إِنَّا أَعْتَدْنَا جَهَنَّمَ لِلْكَافِرِينَ نُزُلًا﴾

**"Yoxsa küfr edənlər elə güman etdilər ki, Mənim yerimə bəndələrimimi himayəçi götürsünlər? Şübhəsiz, Biz cəhənnəmi kafirləri qarşılamaq üçün hazırlamışıq."**

**Nöqtələr**

● Bu ayələrdə kafirlər belə təsvir olunur: Qəlbi kor, Allah əvəzində bəndələrə bəndəlik, cəhalət və təəssüb.[3]

---

[1] "Təfsire-Lahici".
[2] Bax: "İsra", 72.
[3] Bax: "Kəhf", 104.

● “Nuzul” dedikdə düşəcək yer və ya qonağın qarşıladığı ilkin şey nəzərdə tutulur.

**Bildirişlər**

1. Şirk və müşriklərin digər etiqadları xülyadan başqa bir şey deyil.
2. Allahdan savay istənilən bir kəs məxluq və Allahın bəndəsidir. Allahın əvəzinə məxluqa necə üz tutmaq olar?!
3. Allahdan qeyrisinin vilayətini, hakimiyyətini qəbul etmək küfrdür.
4. Cəhənnəm bu gün də mövcuddur. İlahi əzab ciddi və qətidir.
5. Küfrün cəzası cəhənnəmdir.

**● AYƏ 103:**

﴿قُلْ هَلْ نُنَبِّئُكُمْ بِالْأَخْسَرِينَ أَعْمَالًا﴾

**“De ki, sizə insanların ən ziyankarı haqqında xəbər verimmi?”**

**● AYƏ 104:**

﴿الَّذِينَ ضَلَّ سَعْيُهُمْ فِي الْحَيَاةِ الدُّنْيَا وَهُمْ يَحْسَبُونَ أَنَّهُمْ يُحْسِنُونَ صُنْعًا﴾

**“O kəslər ki, dünya həyatındakı səyləri puça çıxar. Halbuki yaxşı iş gördüklərini zənn edirdilər.”**

**Nöqtələr**

● Rəvayətlərdə bu ayənin Həzrət Əlinin (ə) vilayətini inkar edənlərə, vacib həcc vəzifəsini bu gün-sabaha salanlara aid edilir.[1]

● Həzrət Əli (ə) buyurur: “Ayədə ilk öncə haqq yolda olmuş, sonra dində bidətə yol verib yaxşı iş gördüyünü düşünən kitab əhli nəzərdə tutulur.” Sonra imam əlavə edir: “Nəhrəvanlılar onlardan geri qalmaz.”[2]

● İmam Hüseyn (ə) “Ərəfə” duasında deyir: “Pərvərdigara! Yaxşılıqlarımız pislikdir, həqiqətlərimiz iddiadan başqa bir şey deyil.”

● Faydalar bir-birindən fərqlənib müxtəlif dərəcəli olduğu kimi, zərərlərin də fərqli mərhələləri var; pis müamilə[3]; qazancsız müamilə[4]; xəsarət” adlanan zərər[5]; zərər-ziyanda qərq olmaq[6]; böyük və aşkar xəsarət[7]; hər tərəfli xəsarət.[8]

---

[1] “Təfsire-Əbul-Fütuh.”
[2] “Təfsire-Məcməül-bəyan”.
[3] Bax: “Bəqərə”, 90.
[4] “Bəqərə”, 16.
[5] “Bəqərə”, 175.
[6] “Əsr”, 2.
[7] “Nisa”, 119.
[8] “Kəhf”, 103.

● Ziyankarlar bir neçə dəstəyə bölünür: yaxşı iş görməyənlər, yalnız dünya üçün çalışanlar, düzgün iş görmədiyini bilib çalışanlar, ziyanda olduğu halda fayda götürdüyünü güman edənlər.

İlk üç dəstə tövbə edib düzəlmək, pislikləri aradan qaldırmaq barədə düşünə bilər. Dördüncü dəstə isə heç vaxt çıxış yolu axtarmadığından ən pis dəstədir. Dünyanın halal ləzzətlərini özlərinə haram etmiş məsihi rahibləri belədir. Onlar peyğəmbərlər tərəfindən də tənqid olunur. Riyakar zahidnümalar da dördüncü dəstəyə nümunə ola bilər.

● Yanlış əqidədə olub, batil üzərində möhkəm dayananlar hər tərəfli ziyan içindədirlər. Çünki hər bir işin düzgün dəyərləndirmə meyarı düzgün məqsəddir. Quran xülya və əsassız gümanlardan qaynaqlanan hesab və qənaətləri tənqid edir.

**Bildirişlər**

1. Peyğəmbərə insanların həqiqi fayda və zərərini bəyan etmək əmr olunub.
2. Ən yaxşı təlim-tərbiyə üsullarından biri sorğu-sualdır.
3. İnsan üçün öz zərərindən xəbərsizlik təhlükəsi var.
4. Əməl zahirdə başa çatsa da, əslində məhv olub getmir.
5. Zənn-gümana əsaslanmayaq, həqiqətpərəst olaq.

**● Ayə 105:**

﴿أُولَئِكَ الَّذِينَ كَفَرُوا بِآيَاتِ رَبِّهِمْ وَلِقَائِهِ فَحَبِطَتْ أَعْمَالُهُمْ فَلَا نُقِيمُ لَهُمْ يَوْمَ الْقِيَامَةِ وَزْنًا﴾

**“Onlar Rəbblərinin ayələrini və Onunla (qiyamətdə) görüşü inkar edənlərdir. Belə ki, işləri puça çıxdı. Biz qiyamətdə onlar üçün mizan qurmayacağıq. (Çünki yalnız dəyərli işlərin ölçüyə ehtiyacı var.)”**

**● Ayə 106:**

﴿ذَلِكَ جَزَاؤُهُمْ جَهَنَّمُ بِمَا كَفَرُوا وَاتَّخَذُوا آيَاتِي وَرُسُلِي هُزُوًا﴾

**“Bu səbəbdən də onların cəzası cəhənnəmdir. Çünki onlar küfr etdilər, Mənim ayələrimi və mələklərimi məsxərəyə qoydular.”**

**Nöqtələr**

● Lüğətdə “həbt” dedikdə heyvanın zəhərli ot yeyib, köpməsi nəzərdə tutulur. Bu hal onun ölümü ilə nəticələnə bilər. Onu zəhərlənib və qarnı şişmiş halda görənlər sağlam və ətli heyvan olduğunu düşünərlər.

Elə bu səbəbdən də insanın əməllərinin puça çıxması “həbt” adlandırılmışdır. Bu hala düşmüş insan günahlar vasitəsi ilə zəhərlənmişdir və məhv olmaq astanasındadır.

● Qiyamətdə insanlar üç dəstədir: yaxşı olduqlarından mizana ehtiyac duymayanlar, pis olduqlarından mizana ehtiyac duymayanlar, əməlləri hesaba çəkiləsi orta dəstə.[1]

**Bildirişlər**

1. Allahın inkarı əməllərin puça çıxması səbəbidir. Puça çıxan şeyin isə çəkisi olmur.
2. Allah yanında haqqın çəkisi var, batil isə puç və çəkisizdir.
3. İnsanın aqibəti onun əməllərindən asılıdır.
4. İlahi ayələrin, peyğəmbərlərin məsxərəsinin və küfrün sonu cəhənnəmdir.

**● AYƏ 107:**

﴿إِنَّ الَّذِينَ آمَنُوا وَعَمِلُوا الصَّالِحَاتِ كَانَتْ لَهُمْ جَنَّاتُ الْفِرْدَوْسِ نُزُلًا﴾

**“Şübhəsiz, iman gətirib saleh işlər görənlər üçün Firdovs behişti qəbul yeridir.”**

**● AYƏ 108:**

﴿خَالِدِينَ فِيهَا لَا يَبْغُونَ عَنْهَا حِوَلًا﴾

**“Orada əbədidirlər və yerlərini dəyişmək istəməzlər.”**

**Nöqtələr**

● Həzrət Peyğəmbər (s) buyurur: “Behiştin yüz dərəcəsi var və onların ən üstünü Firdovsdur. Dua edərkən Allahdan Firdovs istəyin.”[2]

**Bildirişlər**

1. İman və saleh əməl behişt nemətlərinə çatmaq şərtidir.
2. Tərbiyədə xəbərdarlıqla yanaşı müjdə, mükafatla yanaşı əzab yer tutmalıdır. Bir neçə ayə öncə kafirlərin cəhənnəmdə qəbul vasitəsi bəyan oldu. Burada isə möminlərin qəbul vasitəsi olan Firdovs haqqında danışılır.
3. İnsan bir yerdə çox qaldıqda yorulur. O daha yaxşı yer gördükdə həmin yerə köçmək istəyir. Amma behişt əhli əbədi behiştdə heç vaxt yerlərini dəyişməyi arzulamırlar.

**● AYƏ 109:**

﴿قُل لَّوْ كَانَ الْبَحْرُ مِدَادًا لِّكَلِمَاتِ رَبِّي لَنَفِدَ الْبَحْرُ قَبْلَ أَن تَنفَدَ كَلِمَاتُ رَبِّي وَلَوْ جِئْنَا بِمِثْلِهِ مَدَدًا﴾

---

[1] “Qariə”, 6, 9.
[2] “Təfsire-Məcməül-bəyan”.

**“De ki, əgər dəniz Rəbbimin kəlmələri üçün mürəkkəb olsa, Onun kəlmələri sona çatmamış dəniz sona çatar. Başqa oxşar dəniz köməyə gətirsən də!”**

**Nöqtələr**

● “Midad” dedikdə mürəkkəbə qatılan cövhər nəzərdə tutulur. Qələm kağız üzərində onun köməyi ilə yazır.

● “Rəbbin kəlmələri” dedikdə ya vədlər və yaranmışlar, ya hikmətlər və məfhumlar, ya vəhy və ya Allahın hər hansı nişanəsi nəzərdə tutulur. Demək, hər bir zərrə, atom, hüceyrə Rəbbin kəlmələrindən biridir.

**Bildirişlər**

1. Allahın sonsuz nişanələri var. İnsan bu nişanələri hətta saymağa və qeyd etməyə belə acizdir.

2. İstənilən bir hadisə Rəbbin nişanəsi və kəlməsidir, insanın inkişaf və tərbiyəsinə yönəlmişdir.

**● Ayə 110:**

﴿قُلْ إِنَّمَا أَنَا بَشَرٌ مِّثْلُكُمْ يُوحَى إِلَيَّ أَنَّمَا إِلَهُكُمْ إِلَهٌ وَاحِدٌ فَمَن كَانَ يَرْجُو لِقَاء رَبِّهِ فَلْيَعْمَلْ عَمَلًا صَالِحًا وَلَا يُشْرِكْ بِعِبَادَةِ رَبِّهِ أَحَدًا﴾

**“De ki, həqiqətən, mən sizin kimi bir insanam. Mənə vəhy edilir ki, sizin məbudunuz yeganə məbuddur. Rəbbinin görüşünə ümid və imanı olan kəs saleh iş görsün və kimsəni ibadətdə Rəbbinə şərik qoşmasın.”**

**Nöqtələr**

● Bu ayədə həm tövhid, həm nübuvvət, həm məad, həm ilahi rəhmətə ümid, həm ona çatmaqda səy, həm də əməldə ixlas mövzularına toxunulmuşdur. Bu səbəbdən Peyğəmbər (s) buyurur: “Ümmətimə yalnız “Kəhf” surəsinin son ayəsi nazil olsaydı, onlar üçün yetərdi.”[1]

● Bir çox rəvayətlərdə bu ayə ilə bağlı ixlasın əhəmiyyətindən, riya təhlükəsindən, gizli şirkdən söz açılır.

● İmam Rza (ə) Məmunu qulamının tökdüyü su ilə dəstəmaz alan vəziyyətdə görüb bu ayəni tilavət etdi və ona anlatdı ki, dəstəmaz və digər ibadi işlərdə başqasından yardım almaq şirkdir və əməli batil edir.[2]

● Hədisdə deyilir: Hər kəs yatmazdan qabaq bu ayəni oxusa, istədiyi saatda yuxudan oyanar.[3]

**Bildirişlər**

1. Özümüzü necə varıqsa, elə də tanıtdıraq. Peyğəmbərlər özlərini bəşər sayırdılar.

---

[1] “Təfsire-Dürrül-Mənsur”.
[2] “Təfsire-Məcməül-bəyan”.
[3] “Təfsire-nurus-səqəleyn”.

2. İnsan nəslindən olmaq peyğəmbərlik şərtidir. Peyğəmbər əməldə başqa insanlara nümunə göstərməlidir.

3. İlahi rəhbərlər mübaliğələrin qarşısını almalıdırlar.

4. İlahi iş üçün hətta ilahi mükafata ümid də bəs edər. Buna yəqinlik olmasa da eybi yoxdur.

5. İnsanda ümid ötəri yox, daimi halda olmalıdır.

6. Əməlsiz ümid səmərəsizdir.

7. Ölüm hamı üçün labüddür. Amma Allahla görüş arzusunda olmaq daha dəyərlidir.

8. Şirk istənilən bir şəkildə qadağandır.

9. İş üç baxımdan dəyərli olur: işin özü, işi görən və işin məqsədi. Bu ayədə hər üç cəhət qeyd olunmuşdur.

10. Bu ayə həm ilahilik, həm də rübubiyyət və ibadət baxımından tövhidi bəyan edir.

# “MƏRYƏM” SURƏSİ

### *(19-CU SURƏ, 98 AYƏ)*

### *On altıncı cüz*

### *“MƏRYƏM” SURƏSININ SIMASI*

98 ayədən ibarət olan “Məryəm” surəsi Quranın 19-cu surəsidir və Məkkədə nazil olmuşdur. (Bəziləri bu surənin 58-ci və 71-ci ayələrinin Mədinədə nazil olduğunu bildirirlər.)

Surə digər Məkkə surələri kimi qiyamət, günahkarların taleyi, yaxşı əməl sahiblərinin mükafatı, Zəkəriyyanın, Məryəmin, İsa ibn Məryəmin, Yəhyanın, İbrahimin, İsmailin və İdrisin əhvalatları mövzularından təşkil olunmuşdur.

“Əl-mizan” təfsirində oxuyuruq: “Allah bu surənin son iki ayəsində buyurur: “Bu surəni müjdə və xəbərdarlıq məqsədi ilə nazil etdik” və bu məqsəd peyğəmbərlərin həyatından danışan gözəl dastanlar formasında izlənilmişdir.

Quranda 34 dəfə Məryəmin adı çəkilir. Allah Quranda Məryəmdən savay heç bir qadının adını xüsusi zikr etməmişdir. Qadın adı ilə adlandırılmış yeganə surə “Məryəm” surəsidir.

Surənin tilavətinin (oxunmasının) fəziləti haqqında qeyd olunur ki, bu surəni ardıcıl şəkildə oxuyan şəxs Allah tərəfindən can, mal və övlad baxımından ehtiyacsız edilməmiş dünyadan getməz.[1]

Şübhəsiz, bu surənin göstərişlərinə əməl etməklə insan özünü başqalarından ehtiyacsız görəsidir.

---

[1] “Təfsire-Məcməül-bəyan”.

﴾بسم الله الرحمن الرحيم﴿

**BAĞIŞLAYAN VƏ MEHRIBAN ALLAHIN ADI ILƏ**

**● AYƏ 1-2:**

**﴾كهيعص ذِكْرُ رَحْمَةِ رَبِّكَ عَبْدَهُ زَكَرِيَّا﴿**

**"Kaf, ha, ya, əyn, sad; (bu surədə) Rəbbinin Öz bəndəsi Zəkəriyyaya lütfü yad olunur.**

**● AYƏ 3:**

**﴾إِذْ نَادَى رَبَّهُ نِدَاء خَفِيًّا﴿**

**"O zaman ki, öz Rəbbini gizli bir nida ilə çağırdı."**

**Nöqtələr**

● "Kaf, ha, ya, əyn, sad" hərfləri Quranın müqəttəə hərflərindəndir və onlarda bir rəmz var. Bəzi dualarda Allahı bu hərflərə and verərək deyirik: "Kaf, ha, ya, əyn, sad haqqında". Həzrət Əli (ə) də öz duasında Allahı bu hərflərə and verərək çağırır.[1]

● "Nida" dedikdə uca səslə çağırış başa düşülür. "Xəfiyya" asta yox, gizli mənasını bildirir. Çünki belə bir nida ahəstə yox, gizli ola bilər.[2]

Ola bilsin ki, Zəkəriyya xalqın ona istehza edəcəyindən çəkinərək gizli dua etmişdir. Xalq deyə bilərdi ki, nə üçün bu qoca kişi Allahdan övlad istəyir?!

● "Zəkəriyya" adı Quranda yeddi dəfə zikr olunur. Zəkəriyya Bəni-İsrail peyğəmbərlərindən, Musanın qardaşı Harunun övladlarından biri olmuşdur.

● Hədisdə deyilir: "Ən üstün dua gizli duadır.[3]

**Bildirişlər**

1. Allahın xüsusi nemətlərindən yada salınması ilahi məhəbbət amilidir.
2. Allah övliyalarının zikri bir dəyərdir.
3. İbadət və dua rəhmət əldə etmək üçün zəmindir.
4. Bəşər həyatındakı dəyişikliklərdə duanın rolundan qəflətdə qalmayaq. Peyğəmbərlər də öz çətinliklərinin həlli üçün duaya müraciət etmişlər.
5. Mömin insan heç vaxt tənhalıq hiss etmir.
6. Əgər Allah istəsə, Öz xalis bəndələrinin məxfi nidasını tarix üçün aşkarlayar.

---

[1] "Təfsire-Məcməül-bəyan".
[2] "Təfsire-nümunə".
[3] "Təfsire-Məcməül-bəyan".

7. Gizli dua ixlas halına yaxın olduğundan daha dəyərlidir.

**● AYƏ 4:**

﴿قَالَ رَبِّ إِنِّي وَهَنَ الْعَظْمُ مِنِّي وَاشْتَعَلَ الرَّأْسُ شَيْبًا وَلَمْ أَكُن بِدُعَائِكَ رَبِّ شَقِيًّا﴾

**“(Zəkəriyya) dedi: “Pərvərdigara, həqiqətən, sümüyüm süstləşmiş, başım qocalıq şöləsindən ağarmışdır. Pərvərdigara! Mən heç vaxt Sənə duada əli boş qalmamışam.”**

**● AYƏ 5:**

﴿وَإِنِّي خِفْتُ الْمَوَالِيَ مِن وَرَائِي وَكَانَتِ امْرَأَتِي عَاقِرًا فَهَبْ لِي مِن لَّدُنكَ وَلِيًّا﴾

**“Həqiqətən, mən özümdən sonra yaxınlarıma görə qorxuram. Zövcəm sonsuzdur, Öz tərəfindən mənə bir canişin əta et.”**

**Nöqtələr**

● Sonsuz kişi və ya qadın “aqir” adlanır. “İştial” dedikdə odun şölələnib yayılması nəzərdə tutulur. “Vəş təələr-rəsu”, yəni başımda büklərin ağlığı alov tək şölələnib yayılmışdır.

● “Ali-İmran”, surəsinin 38-ci ayəsində Zəkəriyyanın Allahdan pak bir övlad istəməsi nəql olunur. Həmin ayədən məlum olur ki, bu ayədə “vəliyyən” deyərkən öz atasına canişin olacaq saleh övlad nəzərdə tutulur.

● Bəzən duada Allahla bəndə arasındakı rabitə o qədər sıx olur ki, “ya Rəbb” əvəzinə sadəcə “Rəbbi” deyə müraciət olunur.[1]

● İmam Sadiq (ə) buyurur: “Zəkəriyya əmisi və əmioğlanlarına görə nigaran idi.”[2]

**Bildirişlər**

1. Duada “Rəbbi” sözündən faydalanaraq, öz zəifliklərimizi sadalayaq, Allahın nemət və lütflərini zikr edək. Yalnız bundan sonra istəyimizi dilə gətirək.

2. Sümüklər insan bədəninin sütunlarıdır. Sümüklər zəiflədikdə bütün bədən zəifləyir.

3. Mömin heç vaxt Allahın rəhmətindən ümidini üzmür. (Zəkəriyya pir çağında Allahdan övlad istəyir.)

4. Ümidsiz insan bədbəxtdir. Amma ilahi insanlar ən çətin şəraitdə də ümidlərini itirmirlər.

---

[1] “Təfsire-fi zilalil Quran”.

[2] “Təfsire-nurus-səqəleyn”.

5. İlahi insanlar varisin pisliyindən qorxurlar.
6. İlahi dünya görüşündə Allahın iradəsi təbii amillərə hakimdir.
7. Allah insanın istəklərini bilsə də, dua və yalvarışda ruhi aramlıq, təvazö, bəndəlik, Allaha həmd-səna kimi bərəkətlər var.
8. Övlad Allah tərəfindən bir hədiyyədir.
9. Ümidinizi itirib sonsuz arvadı rədd etməyin.
10. Əbədilik istəyi bəşəriyyətin fitrətindədir. İnsan unudulmaqdan, nəslinin kəsilməsindən nigarançılıq duyur.
11. İnsanın nigarançılıqlarından biri onun sonsuzluğudursa da, Allahın övliyaları övladı daha çox mənəvi məqsədlərin davamı üçün istəmişlər.

**● AYƏ 6:**

﴿يَرِثُنِي وَيَرِثُ مِنْ آلِ يَعْقُوبَ وَاجْعَلْهُ رَبِّ رَضِيًّا﴾

**“(Pərvərdigara! Mənə elə bir canişin əta et ki,) mənə və Yaqub nəslinə varis olsun. Pərvərdigara! Onu bəyənilmiş qərar ver.”**

**● AYƏ 7:**

﴿يَا زَكَرِيَّا إِنَّا نُبَشِّرُكَ بِغُلَامٍ اسْمُهُ يَحْيَى لَمْ نَجْعَل لَّهُ مِن قَبْلُ سَمِيًّا﴾

**“(Allah-təala buyurdu:) Ey Zəkəriyya! Biz səni Yəhya adlı bir oğlan övladı ilə müjdələyirik. Əvvəllər kimsəyə onun adını qoymamışıq.”**

**● AYƏ 8:**

﴿قَالَ رَبِّ أَنَّى يَكُونُ لِي غُلَامٌ وَكَانَتِ امْرَأَتِي عَاقِرًا وَقَدْ بَلَغْتُ مِنَ الْكِبَرِ عِتِيًّا﴾

**“(Zəkəriyya) dedi: «Pərvərdigara! Zövcəm sonsuz, mən isə qoca və zəif ikən oğlum necə ola bilər?»”**

**Nöqtələr**

● Quran ayələrində irs dedikdə bəzən elm, bəzən hökumət nəzərdə tutulur.[1] Amma xüsusi bir dəlil olmadıqda irs sözü mal-mülk kimi başa düşülməlidir. Hazırkı ayələrdə “yərisuni” dedikdə atadan irs ötürən övlad nəzərdə tutulur.[2]

● Peyğəmbər (s) buyurmuşdur: “Allahın mömin bəndələrinin mirası atanın ölümündən sonra Allaha ibadət edəsi saleh övladdır.” Sonra həzrət bu ayəni tilavət buyurdu.[3]

---

[1] Bax: “Ğafir”, 53. “Nəml”, 16.
[2] “Təfsire-kəbire-Fəxr Razi”
[3] “Təfsire-nurus-səqəleyn”.

● “Rəziyy” sözü həm Allahın, həm də xalqın sevimlisi olmaq mənasını bildirir. Allahın insandan və insanın Allahdan razılığı məqamların ən üstünü və ən əzəmətlisidir.

● “Min qəblu səmiyya” cümləsi iki cür anlaşıla bilər: Həmin vaxtadək kimsəyə Yəhya adı qoyulmamışdır və ya bu sayaq xüsusiyyətlərə malik şəxsiyyət olmamışdır.

● “İtiyya” dedikdə həddi keçmək başa düşülür və qocalıq səbəbindən qəddi qurumuş şəxs belə adlandırılır.

● Zəkəriyya soruşur ki, onlar cavanlaşacaqlar, yoxsa elə pir yaşında övlad sahibi olacaqlar?[1] Bəli, peyğəmbərlərin də biliyi məhduddur. Nəyəsə təəccüb etmələri onların peyğəmbərlik məqamına zidd deyil.

● İmam Baqir (ə) buyurur: “Övlad müjdəsindən Yəhyanın dünyaya gəlişinədək beş il vaxt ötdü.[2]

**Bildirişlər**

1. Peyğəmbərlərin müqəddəsliyi ilə övlad istəyi kimi fitri meyllər arasında ziddiyyət yoxdur.
2. Peyğəmbər yolunu izləmək mənəvi bir dəyərdir.
3. Peyğəmbərlər də adi insanlar kimi irs qoyur.
4. İlahi insanlar hətta maddi ehtiyaclarına münasibətdə mənəvi dəyərlərə diqqət yetirirlər.
5. Allahın razılığına səbəb olmuş övlad rəhmətdir.
6. Övladın salehliyi və yaxşılığı üçün o, nütfə halına düşməmiş dua etmək lazımdır.
7. Allahdan saleh övlad istəyək.
8. Ad qoyulması sadə bir məsələ deyil. Bəzi adlar Allah tərəfindən nazil olmuşdur. (Ad əqidə və mədəniyyət, əlaqə və bağlılıq, məqsəd və amil, baxışların nişanəsidir.)
9. Sonsuz kişilər və qadınlar Allahın lütfündən məyus olmasınlar.
10. Övladın oğlan və ya qız olması Allahın əlindədir.

**● AYƏ 9:**

﴿قَالَ كَذَٰلِكَ قَالَ رَبُّكَ هُوَ عَلَيَّ هَيِّنٌ وَقَدْ خَلَقْتُكَ مِن قَبْلُ وَلَمْ تَكُ شَيْئًا﴾

**“(Vəhy mələyi dedi:) «Elədir, amma Rəbbin buyurdu ki, bu iş Mənim üçün asandır. Bundan öncə səni heç nə ikən yaratdım.”**

---

[1] “Təfsire-kəbire-Fəxr Razi”

[2] “Təfsire-Məcməül-bəyan”. “Bihar”, c. 14, s. 176.

**● AYƏ 10:**

﴿قَالَ رَبِّ اجْعَل لِّي آيَةً قَالَ آيَتُكَ أَلَّا تُكَلِّمَ النَّاسَ ثَلَاثَ لَيَالٍ سَوِيًّا﴾

**“(Zəkəriyya) dedi: «Pərvərdigara! Mənim üçün bir nişanə müəyyən et.» (Allah) buyurdu: «Üç gecə-gündüz xalqla danışa bilməyəcəyin sənin nişanəndir.»”**

**Nöqtələr**

● Allah hər işə qadirdir və bütün işlər Onun üçün asandır. Bu nöqtəyə “Hədid” surəsinin 22-ci, “Təğabun” surəsinin 7-ci, “Bəqərə” surəsinin 20-ci və 106-cı, “Kəhf” surəsinin 45-ci ayələrində də işarə olunmuşdur.

● Ərəblər arasında gecə dedikdə, bəzən sutka nəzərdə tutulur.[1] “Ali-İmran” surəsinin 41-ci ayəsində gün, hazırkı ayədə gecə sözləri işlədilmişdir. Çünki gecə və gündüz bəzən bir-birinin yerinə zikr olunur.

● “Təfsire-Məcməül-bəyan”, “Təfsire-Təbəri”, “Təfsire-Əl-mizan” kitablarında həzrət Zəkəriyya haqqında deyilir: “İlahi ayələrin tilavəti və Allahın zikri zamanı onun dili açılırdı, amma xalqla danışarkən dili bağlanırdı.”

● Həzrət Zəkəriyya haqqı batildən, ilahi vəhyi şeytani təlqinlərdən fərqləndirmək üçün Allahdan nişanə istədi.[2]

**Bildirişlər**

1.Təbiət qanunları və maddi səbəblər heç vəchlə Allahın qüdrətini məhdudlaşdırmır.

2. Yaranış və hadisələr haqqında təfəkkür Allahın qüdrəti ilə bağlı bütün şəkk-şübhələri aradan qaldırır.

3. Peyğəmbərlər yəqin mərtəbəsindən də uca bir mərhələyə çatmaq fikrində olmuşlar. İbrahim Allahdan qəlb əminliyi yaradacaq nişanə istəyir.[3] Zəkəriyya da Allahdan xüsusi bir nişanə diləyir.

4. Bizim bütün hərəkətlərimiz Allahın iradəsindən asılıdır. Allah istəməsə, sağlam olduğumuz halda danışa bilmərik.

**● AYƏ 11:**

﴿فَخَرَجَ عَلَى قَوْمِهِ مِنَ الْمِحْرَابِ فَأَوْحَى إِلَيْهِمْ أَن سَبِّحُوا بُكْرَةً وَعَشِيًّا﴾

**“(Zəkəriyya) ibadət mehrabından xalqın qarşısına çıxıb onlara işarə etdi ki, səhər-axşam Allaha təsbih deyin.”**

---

[1] “Təfsire-Əl-mizan”.
[2] “Təfsire-Əl-mizan”.
[3] “Bəqərə”, 260.

**Nöqtələr**

● "Bukrə" dedikdə fəcr tülusundan günəş tülusunadək olan vaxt nəzərdə tutulur. "Əşiyyən" sözü isə ya günorta ilə qürub arasındakı fasilə və ya günün sonu mənasını bildirir.

● "Mihrab" dedikdə məsciddəki mehrab nəzərdə tutulur. Bu ibadət məhəllində insanın diqqətini həqiqətdən yayındıran şeytan və onun vəsvəsələri ilə mübarizə getdiyindən onu mehrab adlandırmışlar. Ola bilsin ki, Bəni-İsrailə aid mehrablar dedikdə xalqın ibadət üçün seçdiyi məscidlər nəzərdə tutulmuşdur.

● Təbərsi və Fəxri-Razinin nəzərincə, bu ayədəki təsbih sözü namaza işarədir. Çünki namaz təsbih üzərində qurulmuşdur.

**Bildirişlər**

1. Təbliğçinin həmyerli olması önəmlidir.
2. İlahi insanlar ibadət üçün xüsusi yer seçirlər.
3. Xalqı ibadətə çağıran insan özü də ibadət əhli olmalıdır.
4. Hər bir vasitə ilə təbliğ etmək lazımdır. (Zəkəriyyanın dili tutulduğu vaxt işarə ilə xalqı Allaha təsbihə çağırır.)
5. Peyğəmbərlərin vəzifəsi xalqı ibadətə dəvət etməkdir.
6. Qoca kişinin sonsuz qadından övlad sahibi olması Allahın bütün əskikliklərdən və zəifliklərdən pak olduğunu göstərir.
7. İbadət müvəqqəti yox, daimi olduqda dəyərlidir.

**● AYƏ 12:**

﴿يَا يَحْيَى خُذِ الْكِتَابَ بِقُوَّةٍ وَآتَيْنَاهُ الْحُكْمَ صَبِيًّا﴾

**"Ey Yəhya! (İlahi) kitabı möhkəm tut. Uşaq vaxtı ona hikmət (və nübuvvət) verdik."**

**● AYƏ 13:**

﴿وَحَنَانًا مِّن لَّدُنَّا وَزَكَاةً وَكَانَ تَقِيًّا﴾

**"Yenə ona Öz tərəfimizdən mehribanlıq və paklıq əta etdik. O, təqvalı idi."**

**Nöqtələr**

● "Hukm" sözü elm və fəhm ("Lisanul-ərəb"), mühakimə gücü ("Qamusul-Quran") mənalarında işlədilmişdir. "Təfsire-Əl-mizan" da oxuyuruq: "Hukm" dedikdə ilahi maarifdən xəbərdarlıq və qeyb pərdələrinin kənara çəkilməsi başa düşülür.

● Üç şəxs uşaq yaşında peyğəmbərliyə çatmışdır: Süleyman, İsa və Yəhya. İmamət məqamı da uşaq yaşında üç nəfərə verilmişdir. İmam Cavad (ə), imam Hadi (ə) və imam Mehdi (ə).[1]

● Bəziləri bildirirlər ki, Yəhya adı "Əhdi-cədid" kitabında "Yuhənna" kimi qeyd olunmuşdur.

● Ola bilsin ki, burada səmavi kitab dedikdə Tövrat nəzərdə tutulmuşdur. Çünki həzrət Yəhyaya başqa bir kitabın nazil olması haqqında məlumat yoxdur.

● "Bəqərə" surəsinin 63 və 93-cü ayələrində də göstəriş verilir ki, səmavi kitabdan möhkəm tutun.

● "Hənan" sözü şəfqət və mehribanlıq mənasını bildirir. Allahın Yəhyaya, Yəhyanın Allaha mehri, xalqın Yəhyaya və Yəhyanın xalqa məhəbbəti Allah tərəfindən mehribanlığın bir işartısıdır.

● Allah yolu bütünlüklə mərhəmətdir: Allah Rəhmandır, onun peyğəmbəri və kitabı aləmlərə rəhmət, insanları isə öz aralarında bir-birlərinə mehribandırlar.[2]

● "Zəkat" dedikdə sədəqə, inkişaf, günahdan paklıq və bərəkət mənaları anlaşılır. Yəhya həzrət Zəkəriyya üçün mübarək hədiyyə, pak və kamil insan nümunəsi idi.

**Bildirişlər**

1. Rəhbər səmavi kitabın məqsədlərinin həyata keçirilməsində qətiyyətli olmalıdır.
2. Dinin hifzi və hökmlərin icrası üçün qətiyyət və qüdrətə ehtiyac var.
3. Dindarlıq güc və ciddiliklə müşayiət olunmalıdır.
4. Allah istəsə, körpə uşağı da nübüvvət məqamına qaldırar.
5. Mehribanlıq, məhəbbət və paklıq təbliğ və tərbiyə şərtidir.
6. Mehribanlıq və qardaşlıq Allahdan qaynaqlanır.
7. Mərhəmət və qardaşlıq ruhiyyəsi insan üçün bir dəyərdir.
8. Yalnız daimi və xarakterə çevrilmiş təqva dəyərdir.
9. Təqva guşənişinlik və qəddarlıq yox, xalqla yoldaşlıq, onlara mehribanlıq və məhəbbətdir.
10. Təqva təkamül və məhbubluq kimi ilahi lütflərin əldə olunması üçün zəmindir.

### ● Ayə 14:

﴿وَبَرًّا بِوَالِدَيْهِ وَلَمْ يَكُن جَبَّارًا عَصِيًّا﴾

**"O, ata-anasına qarşı xeyirxah idi, (xalqa münasibətdə) azğın və üsyankar deyildi."**

---

[1] "Təfsire-ətyəbul-bəyan".

[2] "Ənbiya", 107, "İsra", 82, "Fəth", 29.

**● AYƏ 15:**

﴿وَسَلَامٌ عَلَيْهِ يَوْمَ وُلِدَ وَيَوْمَ يَمُوتُ وَيَوْمَ يُبْعَثُ حَيًّا﴾

**“Ona doğulduğu, öləcəyi və dirildilib qaldırılacağı gün salam olsun.”**

**Nöqtələr**

● Allah bu ayələrdə həzrət Yəhyanın müxtəlif xüsusiyyətlərini sadalamışdır: O Allah hüzurunda pəhrizkar idi, valideyninə münasibətdə xeyirxah idi, xalqa qarşı azğın və üsyankar deyildi.[1]

● Ölüm zamanı salamatlıq dedikdə əqidə salamatlığı və imanla ölmək nəzərdə tutulur.

**Bildirişlər**

1. Məqam və mənsəb bizə valideynimizi unutdurmasın. Peyğəmbər də valideynə münasibətdə xeyirxah olmalıdır.
2. Ata-ataya yaxşılıq ilahi təqva nişanəsidir.
3. Valideynə münasibətdə itaətsizlik və məqampərəstlikdən uzaq yaxşılıq sitayiş olunur.
4. Valideynə qarşı yaxşılığı tərk etmək üsyan və azğınlıq nişanəsidir.
5. Allah övliyalarına salam göndərilməsi təkcə onların həyatda olduğu dövrə aid deyil.
6. Salam vermək kiçikliyi göstərmir. Çünki böyük Allah da salam verir.[2]
7. Yəhya bütün eniş-yoxuşları sağlam din və imanla ötüb keçdi.
8. Övliyaların təvəllüd gününü əziz tutub vəfat gününü xatırlamaq Quran əmridir.
9. Həyatları boyu övliyalara salam, ziyarətnamə oxumaq Quran göstərişidir.
10. Sağlam həyat, sağlam ölüm və qiyamət salamatçılığının açarı təqva, valideynə yaxşılıq, günah və tüğyandan çəkinməkdir.

**● AYƏ 16:**

﴿وَاذْكُرْ فِي الْكِتَابِ مَرْيَمَ إِذِ انتَبَذَتْ مِنْ أَهْلِهَا مَكَانًا شَرْقِيًّا﴾

**“Bu kitabda Məryəmi də yad et. Bir zaman ki, o, ailəsindən ayrılıb şərqdəki bir məkanda qərar tutdu.”**

**● AYƏ 17:**

﴿فَاتَّخَذَتْ مِن دُونِهِمْ حِجَابًا فَأَرْسَلْنَا إِلَيْهَا رُوحَنَا فَتَمَثَّلَ لَهَا بَشَرًا سَوِيًّا﴾

---

[1] “Təfsire-Əl-mizan”.
[2] “Saffat”, 109, 120.

**“Həmin vaxt başqalarından kənarda özü üçün pərdə tutdu. Həmin məqamda Biz Öz ruhumuzu (Ruhul-qüdüsü) ona doğru göndərdik. O, düz qamətli insan şəklində göründü.”**

**Nöqtələr**

● Allahın rəsulu buyurmuşdur: “Məryəm dörd nümunə qadından biridir.”[1]

● “Nəbz” dedikdə etinasızlıq səbəbindən bir şeyin kənara düşməsi başa düşülür. Xalqdan uzaqlaşıb bir kənara çəkilmək isə “İntibaz” sözü ilə ifadə olunur. Məryəm məscidül-əqsaya vəqf olunduğunda məscidin şərqindəki bir guşəni özü üçün seçdi.

**Bildirişlər**

1. Dini rəhbərlərin vəzifələrindən biri tarixin pak insanlarını uca tutmaqdır.
2. Qəhrəman qadınların tarixi də qəhrəman kişilərin tarixi kimi yaşadılmalıdır.[2]
3. İbadət üçün xəlvət bir məkan seçək.
4. İbadət ilahi lütflərin nazil olması üçün zəmindir.
5. Xanımların ibadət etməsi üçün pərdə ilə yer ayırmaq bir dəyərdir. Məryəm ibadət üçün məscidin bir guşəsində pərdə asmışdı.
6. Cəbrailin Allah hüzurunda uca məqamı var.
7. Mələklər məzmunca dəyişmədən elə bir formaya düşə bilərlər ki, insan onları görsün.
8. Müəyyən tapşırıqların icrası zamanı çöhrəni dəyişmək lazım gəlir.
9. Tərbiyə addım-addım aparılan işdir. Allah öncə Yəhyanın bir ata və bir anadan dünyaya gəlişini nəql edir, sonra İsanın dünyaya atasız gəlişindən danışır.
10. Cəbrail başqa peyğəmbərlərin də yanına gedirdi.
11. Qadın elə bir məqama çata bilər ki, mələk onunla söhbət edər.
12. Allahın qüdrət və iradəsi yalnız Onun vasitə və səbəblər çərçivəsində məhdudlaşmır. Əksinə vasitə və səbəblər Allahın qüdrət və iradəsinə tabedir.

**● AYƏ 18:**

﴿قَالَتْ إِنِّي أَعُوذُ بِالرَّحْمَن مِنكَ إِن كُنتَ تَقِيًّا﴾

**“(Məryəm həmin mələyə dedi:) Həqiqətən, mən rəhman olan Allaha səndən pənah aparıram, əgər pəhrizkarsansa (Allahdan qorxursansa, məndən uzaq ol).”**

---

[1] “Bihar”, c. 14, s. 201.
[2] “Məryəm”, 41.

● **AYƏ 19:**

**﴿قَالَ إِنَّمَا أَنَا رَسُولُ رَبِّكِ لِأَهَبَ لَكِ غُلَامًا زَكِيًّا﴾**

**“(Mələk) dedi: «Həqiqətən, mən sənin Rəbbinin elçisiyəm. Sənə pak bir oğlan vermək üçün gəlmişəm.»”**

● **AYƏ 20:**

**﴿قَالَتْ أَنَّى يَكُونُ لِي غُلَامٌ وَلَمْ يَمْسَسْنِي بَشَرٌ وَلَمْ أَكُ بَغِيًّا﴾**

**“(Məryəm) dedi: «Mümkündürmü ki, mənim övladım olsun? Axı nə bir bəşər mənimlə təmasda olub, nə də mən zinakar olmuşam.»”**

**Nöqtələr**

● “Zəkiyy” sözü təharət və bərəkət, “bəğiyya” sözü isə burada zinakar mənasını bildirir.

● Bu surədə Allahın övlad hədiyyə verməsi məsələsinə dəfələrlə toxunulmuşdur: 19-cu ayədə İsanın Məryəmə hədiyyə verilməsi, 49-cu ayədə İshaq və Yəqubun İbrahimə hədiyyə verilməsi, 53-cü ayədə Harunun Musaya hədiyyə verilməsi, 7-ci ayədə Zəkəriyyanın övladla müjdələnməsi məsələlərinə toxunulur.

**Bildirişlər**

1. Pak insanlar günah qorxusu hiss edən kimi titrəyib Allaha pənah aparırlar.
2. Ən yaxşı sığınacaq ilahi rəhmətdir.
3. Allah-təalaya pənah aparmaq Allahın peyğəmbərlərə sifarişi, peyğəmbər və övliyaların qaydasıdır.
4. Fərdlərə məxsus olan yerə qəfildən daxil olmaq olmaz.
5. Qadının yad kişi ilə xəlvətdə qalması təhlükəlidir.
6. Pisliyə qadağa qoyarkən fərdlərin dini qeyrətindən istifadə edin.
7. Təqva paklığa aparan yol, günahdan çəkindirən amildir.
8. Xalqı böhtan və nigarançılıqdan qurtarmaq üçün pak insan özünü təqdim etməlidir.
9. Mələklər təkcə ilahi vəhyi bəyan etmir, həm də onların işə salınması üçün vasitə olur.
10. Övlad dəyərdir, amma onun paklığı daha mühümdür.
11. Bütün səmavi dinlərdə zina mənfur iş sayılır.

● **AYƏ 21:**

**﴿قَالَ كَذَلِكِ قَالَ رَبُّكِ هُوَ عَلَيَّ هَيِّنٌ وَلِنَجْعَلَهُ آيَةً لِلنَّاسِ وَرَحْمَةً مِّنَّا وَكَانَ أَمْرًا مَّقْضِيًّا﴾**

**“(İlahi mələk) dedi: «Doğrudur, amma Rəbbin buyurdu ki, bu iş Mənim üçün asandır və onu xalq üçün nişanə, Özümüzdən bir rəhmət qərar verərik. Bu, olası və qəti bir işdir.»”**

**● AYƏ 22:**

**﴿فَحَمَلَتْهُ فَانتَبَذَتْ بِهِ مَكَانًا قَصِيًّا﴾**

**“Məryəm (İsaya) hamilə oldu. Onunla uzaq bir məkanda xəlvətə çəkildi.”**

**● AYƏ 23:**

**﴿فَأَجَاءهَا الْمَخَاضُ إِلَى جِذْعِ النَّخْلَةِ قَالَتْ يَا لَيْتَنِي مِتُّ قَبْلَ هَذَا وَكُنتُ نَسْيًا مَّنسِيًّا﴾**

**“Həmin vaxt doğuş ağrısı onu bir xurma ağacının gövdəsinə doğru çəkdi. (Narahatlıqdan ona söykəndi.) Dedi: «Kaş ki, bundan öncə ölüb yaddan çıxmış olaydım.”**

**Nöqtələr**

İlahi mələk insan qiyafəsində Məryəmə göründü. Ona doğru üfürdü və Məryəm hamilə oldu. Məryəm bəzilərinin böhtanından nigaran olaraq və ya hamilə qadın aramlığa daha çox ehtiyac duyduğundan uzaq bir yerə getdi.

Həmin yer, Məryəmin İsanı dünyaya necə gətirməsi və bu işdən kimin birinci xəbər tutması ilə bağlı təfsirlərdə ətraflı danışılmışdır. Amma Quranda bu barədə məlumat verilmədiyindən biz də uyğun mövzuda danışmamaq qərarına gəlirik. Çünki bu sayaq məlumatların düşüncəmizin inkişafında rolu yoxdur.

Bəzən Allahın ən seçilmiş insanları ən böyük çətinliklərə düçar olmuşlar. Həzrət Məryəmin üzləşdiyi çətinliklərdən bəzilərini nəzərdən keçirək: böhtan və xalqın bədgümanlığı, tənhalıq və qürbətdə hamiləlik, doğuş və istirahət üçün bir yerin olmaması, xurma ağacına sığınmaq, mənfi münasibət və pis baxışlar qarşısında atasız körpəyə himayə.

**Bildirişlər**

1. Allah təbii vasitə və amillərə hakimdir.
2. İsanın dünyaya gəlişi onun ilk möcüzəsidir.
3. Qeyri-adi və möcüzəli işlərin gerçəkləşməsi ilahi rübubiyyət şənindəndir və insanların tərbiyəsinə xidmət edir.
4. İsanın vücudu rəhmətdir. Varlığı insanlarda Allaha imanı dirildən, işi xalqın hidayəti olan kəs, şübhəsiz, rəhmətdir.
5. Allahın işinə kimsə mane ola bilməz.

6. Bəzən pak insanlar böhtandan yaxa qurtarmaq üçün insanlardan uzaqlaşmalıdırlar.

7. Bəzən xeyir yolların tapılmasında çətinlik rol oynayır.

8. Bəzən insan qəlb sirrini öz ailəsinə də deyə bilmir və ölüm arzulayır.

9. Pis adla yaşamaqdansa ölmək yaxşıdır.

**● AYƏ 24:**

﴿فَنَادَاهَا مِن تَحْتِهَا أَلَّا تَحْزَنِي قَدْ جَعَلَ رَبُّكِ تَحْتَكِ سَرِيًّا﴾

**“(İsa bətndə) ayağı altdan onu səslədi ki, (ey ana,) qəm yemə. Həqiqətən Rəbbim sənin ayaqlarının altında su çeşməsi axıtdı.”**

**● AYƏ 25:**

﴿وَهُزِّي إِلَيْكِ بِجِذْعِ النَّخْلَةِ تُسَاقِطْ عَلَيْكِ رُطَبًا جَنِيًّا﴾

**“Bu xurmanın budağını özünə doğru tərpət, üstünə təzə xurma tökülsün.”**

**Nöqtələr**

“Səriyya” dedikdə kiçik arx mənası anlaşılır. Yetişmiş, dərilmə vaxtı çatan meyvə isə “cəniyya” adlanır.

Bəziləri bildirirlər ki, nida edən Cəbrail olmuşdur. Amma ayələrdəki ardıcıllıqdan belə görünür ki, nida edən İsadır. İsanın sözünü eşidən Məryəm arxayınlıqla xalqa deyə bilərdi ki, mənim paklığımı beşikdəki körpədən soruşun.

Qadınlar doğuş zamanı və doğuşdan sonra aramlığa, münasib su və qidaya ehtiyac duyurlar. Ayədə bütün bunlara işarə olunmuşdur.

Quranda və rəvayətlərdə yenicə doğmuş qadına təzə xurma yemək tövsiyə olunur. Həzrət Peyğəmbər (s) buyurmuşdur: “Yeni doğmuş qadının ilkin qidası xurma olsun.”[1] Həzrət Əli (ə) buyurur: “Hamilə qadın üçün ən yaxşı qida təzə xurmadır. Onun üçün xurmadan yaxşı qida yoxdur.”[2]

Amma siz imtahana bir baxın! Məryəm sağlam olan gün ona səma süfrəsi nazil olur. Hamilə olub kimsəsiz qaldığı vaxt isə qida əldə etmək üçün xurma ağacını silkələməlidir.

**Bildirişlər**

1. İnsan iztirab keçirdiyi vaxt qeybi ilhamlar ona yol açır.
2. Pak qadın üçün iffətsizlik böhtanının qəmi həddində qəm yoxdur.
3. Hamilə qadın üçün həyəcan və iztirab zərərlidir.
4. İnsan ən çətin şəraitdə də ruzi əldə etmək üçün çalışmalıdır.

---

[1] “Kafi”, c. 6, s. 22.

[2] “Təfsire-nurus-səqələyn”. “Xisali-səduq”, s. 637.

5. Aramlıq yeməkdən önəmlidir. İztirab keçirən insan ən üstün qidalara da meyl göstərmir.

**● AYƏ 26:**

﴿فَكُلِي وَاشْرَبِي وَقَرِّي عَيْنًا فَإِمَّا تَرَيِنَّ مِنَ الْبَشَرِ أَحَدًا فَقُولِي إِنِّي نَذَرْتُ لِلرَّحْمَنِ صَوْمًا فَلَنْ أُكَلِّمَ الْيَوْمَ إِنسِيًّا﴾

**"(Xurmadan) ye, (arxın suyundan) iç və (İsa kimi övlada görə) gözün aydın olsun. Bir adam görsən (körpə haqında soruşsa, ona işarə ilə) de ki, mən Rəhman Allah üçün sükut orucu nəzir etmişəm, buna görə də bu gün kimsə ilə danışmayacağam."**

**Nöqtələr**

Həzrət Məryəmin sükut orucunun səbəbi ya qarşı tərəfin cavab üçün tutumsuzluğu, ya onlarla danışığın mənfi təsirə malik olması, ya da veriləcək cavabdan sonra onların gətirəcəyi müxtəlif bəhanələr idi.

İmam Sadiq (ə) buyurur: "Oruc təkcə yemək və içməkdən çəkinmək deyil." Sonra imam bu ayəni tilavət etdi."[1]

Bu ayə həzrət İsanın ötən ayədə anası ilə söhbətinin davamı da ola bilər.

**Bildirişlər**

1. Övlad gözün nuru, insanın ilahi lütfə ümidvarlığı üçün amildir.
2. Ən yaxşı qida aramlıq və şadlıqla yanaşı olan qidadır.
3. Nəzirin yetərincə uzun keçmişi var. Bəzi çətinliklərdən çıxmaq üçün insan nəzirdən faydalana bilər.
4. Nəzirdə qürbət (Allaha yaxınlıq) məqsədi olmalıdır. Və Allahın adı çəkilməlidir.
5. Allaha yaxınlıq məqsədinin çətinliklərdən qurtuluş məqsədi ilə ziddiyyəti yoxdur.
6. İnsan öhdəsinə götürdüyü nəziri yerinə yetirməyə borcludur.
7. Bəzən insanların sözü qarşısında susmaq lazım gəlir.

**● AYƏ 27:**

﴿فَأَتَتْ بِهِ قَوْمَهَا تَحْمِلُهُ قَالُوا يَا مَرْيَمُ لَقَدْ جِئْتِ شَيْئًا فَرِيًّا﴾

**"Məryəm körpəsini ağuşuna götürüb onu yaxınlarının yanına gətirdi. Dedilər: "Ey Məryəm! Həqiqətən, çox pis bir iş görmüsən."**

[1] "Təfsire-nurus-səqəleyn".

**● AYƏ 28:**

**﴿يَا أُخْتَ هَارُونَ مَا كَانَ أَبُوكِ امْرَأَ سَوْءٍ وَمَا كَانَتْ أُمُّكِ بَغِيًّا﴾**

**"Ey Harunun bacısı! Atan pis kişi, anan zinakar deyildi."**

**Nöqtələr**

"Fəriyya" sözü çirkin iş, böyük xəta mənasını bildirir.

Bəziləri Harunu Məryəmin doğma qardaşı saysalar da, İslam Peyğəmbəri (s) buyurur: "Məryəm Musanın, Harunun qohumlarından idi."[1]

**Bildirişlər**

1. Bir dəstənin narahat olub böhtan atmasına baxmayaraq, həqiqəti aşkarlayaq.
2. Xalq tələsərək həqiqət yox, zahiri görüntülər əsasında mühakimə yürüdür. (Onlar Məryəmin ağuşunda görpəni görən kimi onun haqqında pis düşündülər.)
3. Ata-babaların və ailənin yaxşılıq və fəzilətinə diqqəti yönəltmək tərbiyə üsullarından biridir.
4. Saleh valideyn və ailədən yalnız saleh övlad gözlənilir. (Ata-ananın və ailənin saleh olması övladın rəftar və əməllərinə təsir edir.)
5. Şərafətli ailədən olan bir şəxsin pis iş görməsi daha çox məzəmmət olunur.

**● AYƏ 29:**

**﴿فَأَشَارَتْ إِلَيْهِ قَالُوا كَيْفَ نُكَلِّمُ مَن كَانَ فِي الْمَهْدِ صَبِيًّا﴾**

**"Məryəm ona (İsaya) doğru işarə etdi. Dedilər: «Beşikdə olan körpə ilə necə danışaq?»"**

**● AYƏ 30:**

**﴿قَالَ إِنِّي عَبْدُ اللَّهِ آتَانِيَ الْكِتَابَ وَجَعَلَنِي نَبِيًّا﴾**

**"(İsa dilə gəlib) dedi: «Mənəm Allahın bəndəsi, O mənə kitab əta edib və məni peyğəmbər qərar verib.»"**

**Nöqtələr**

Həzrət Məryəm sükut orucu tutduğu üçün öz nəzirinə vəfalı qalıb bir söz demədən işarə etdi.

İsanın ilk sözü Allaha bəndəliyi haqqında olsa da, ardıcılları çaşqınlığa düçar olub onu Allah və Allah övladı kimi tanıdılar.

---

[1] "Təfsire-bürhan". "Əmaliyi-Murtəza", c. 4, s. 106.

İmam Baqirdən (ə) soruşuldu ki, həzrət İsa beşikdə də Allahın höccəti idimi? Həzrət buyurdu: "İsa nəbi idi, amma mürsəl deyildi. Yeddi yaşına çatdığı vaxt ona risalət məqamı əta olundu."[1]

İsa qısa bir cümlə ilə həm anasına atılan böhtanı aradan götürdü, həm öz gələcəyi haqqında danışdı, həm də xalqın gələcək vəzifəsinə işarə etdi.

**Bildirişlər**

1. Allah istəyəndə uşaq beşikdə dilə gəlib şayiələri, fitnələri aradan qaldırır.
2. Özümüzü tanıtdırarkən hər şeydən öncə Allaha bəndə olduğumuzu bildirək. Bu ən böyük iftixardır.
3. Bütün ilahi feyzlərin qaynağı Allaha bəndəlikdir.
4. Peyğəmbərlikdə (və imamətdə) hansısa yaş şərt qoyulmayıb.

**● AYƏ 31:**

﴿وَجَعَلَنِي مُبَارَكًا أَيْنَ مَا كُنتُ وَأَوْصَانِي بِالصَّلَاةِ وَالزَّكَاةِ مَا دُمْتُ حَيًّا﴾

**"Harada olsam, Allah məni bərəkət səbəbi etmiş, həyatım boyu mənə namaz və zəkatı tapşırmışdır."**

**● AYƏ 32:**

﴿وَبَرًّا بِوَالِدَتِي وَلَمْ يَجْعَلْنِي جَبَّارًا شَقِيًّا﴾

**"Məni anama qarşı xeyirxah qərar vermiş, (xalqa qarşı) sitəmkar və qəddar etməmişdir."**

**Nöqtələr**

Çoxlu mənfəəti və başqalarına təlim-tərbiyə təsiri olan sabit şey bərəkətlidir. Həzrət İsanın bərəkətli ömrü var və İmam Mehdinin (ə) zühurundan sonrayadək sağdır. Onun ardıcılları da çoxdur və bu ardıcıllar həzrəti öldürmək fikrində olan kafirlərə qalibdirlər.[2]

Xeyir və bərəkətlər daxili niyyətlər, məqsədlər, hallar və xislətlərdir. Bu səbəbdən də bəzi insanlar harada olsalar bərəkətlidirlər.[3] Bəziləri isə ruhi problemlərinə və mənəviyyatdan uzaqlıqlarına görə istənilən bir yerdə öz xoşagəlməz xüsusiyyətlərindən əziyyət çəkir və başqalarına fayda vermirlər.

Həzrət İsa "validəti" ("ana") sözü ilə anasının paklığına və atasının olmamasına işarə etdi.

**Bildirişlər**

1. Öz imtiyaz və üstünlüklərimizi Allahdan bilək.

---

[1] "Təfsire-kənzud-dəqaiq".
[2] "Ali-İmran", 55.
[3] "Məryəm", 31.

2. İnsan lovğalıq, iftixar məqsədi olmasa öz müsbət keyfiyyətlərini qeyd edə bilər.

3. Peyğəmbərlər xeyir-bərəkət və bədii əsərlər üçün qaynaqdırlar.

4. Mənəvi dəyərlər zaman və məkana sığmır.

5. Namaz və zəkat səmavi dinlərin müştərək əmrlərindəndir. (Ola bilsin ki, namazın bərpası və zəkat ödənməsi mübarəklik şərtidir.)

6. Allahla rabitə (namazın bərpası) məhrumlarla rabitədən (zəkat ödənməsindən) ayrı deyil.

7. Namaz və zəkat üçün ömür boyu tətil yoxdur.

8. Anaya yaxşılıq peyğəmbər əxlaqındandır.

9. Anasına qarşı rəhmsiz olan, xalqa qarşı da rəhmsiz olacaq.

10. Peyğəmbərlər istibdad və xalqa hakimlik sorağında deyillər.

### ● AYƏ 33:

**﴿وَالسَّلَامُ عَلَيَّ يَوْمَ وُلِدتُّ وَيَوْمَ أَمُوتُ وَيَوْمَ أُبْعَثُ حَيًّا﴾**

**“Salam olsun mənə doğulduğum, öləcəyim və diriləcəyim gün.”**

**Bildirişlər**

1. Peyğəmbər yolu təvəllüddən məadadək istənilən növ çaşqınlıqdan uzaq yeganə yoldur.

2. Bəzi hallarda insan özü haqqında xoş söz deyə bilər.

3. Təvəllüd, vəfat və qiyamətdə dirçəliş günü insan üçün ən mühüm günlərdir. İmam Rza (ə) buyurur: “İnsan üçün ən qorxulu gün üç gündür: Təvəllüd günü, ölüm günü və qiyamət günü.”[1]

4. Ölüm və qiyamət hamı üçündür. (İsa bu günədək səmalarda diri qalsa da, o da bir gün öləsidir.)

5. Doğulan, ölən və qiyamətdə ayağa qaldırılan bir kəs hansı əsasla Allaha şərik sayıla bilər?!

### ● AYƏ 34:

**﴿ذَلِكَ عِيسَى ابْنُ مَرْيَمَ قَوْلَ الْحَقِّ الَّذِي فِيهِ يَمْتَرُونَ﴾**

**“Budur İsa Məryəm oğlu–haqqında şəkkə düşdükləri doğru söz.”**

### ● AYƏ 35:

**﴿مَا كَانَ لِلَّهِ أَن يَتَّخِذَ مِن وَلَدٍ سُبْحَانَهُ إِذَا قَضَى أَمْرًا فَإِنَّمَا يَقُولُ لَهُ كُن فَيَكُونُ﴾**

---

[1] “Uyuni əxbarur-Riza”, c. 1, s. 257.

**“Allahın özünə övlad götürməsi Ona layiq deyil. O, pak-pakizədir. Bir iş görmək istədikdə elə ki, «ol» deyər, dərhal olar.”**

**Nöqtələr**

Ötən bir neçə ayədə İsa yeddi üstün sifət və iki proqramla tanıtdırıldı. Həmin sifətləri nəzərdən keçirək: Allaha bəndə olması, səmavi kitab gətirməsi, peyğəmbərliyi, mübarəkliyi, anaya yaxşılığı, qəddar olmaması, təvazökarlığı (haqşünaslığı və səadət əhli olması).

Həzrət İsanın iki proqramından biri namaz, digəri zəkat idi. Ayədə buyuruldu ki, İsa haqqındakı doğru söz hazırda deyilənlərdir.

Allah-təala Quranda məsihilərin öz yollarını azdığını və Həzrət İsa haqqında düzgün düşünmədiklərini dəfələrlə bəyan etmişdir. “Maidə” surəsinin 73-cü, “Tövbə” surəsinin 30-cu ayələrində uyğun nöqtələr tənqid olunur. Hazırda isə həzrət İsanın həqiqi siması bəyan edilir, doğru yol göstərilir.

Allahın istəyinin gerçəkləşməsi üçün heç “ol” sözünə də ehtiyac yoxdur. Amma Allah bizə anlatmaq üçün bu şəkildə bəyan edir.

Allah mütləq qüdrət sahibidir və yaradarkən heç bir vasitəyə ehtiyac duymur. Onun sonsuz qüdrəti aciz olmamasının və övlad götürməməsinin dəlilidir.

## *QURAN VƏ MƏSIH*

Məkkə kafirlərinin İslam peyğəmbərinə qarşı ciddi təzyiqlərindən sonra bir qrup müsəlman Cəfər ibn Əbi-Taliblə birlikdə Həbəşəyə hicrət etdi. Qüreyş katibləri dedilər: “Əgər müsəlmanlar orada mövqelərini möhkəmləndirsələr və hökumət qursalar, bizim bütpərəstliyi məhv edəcəklər.” Onlar Əmr Asla birlikdə bir dəstəni Nəcaşinin vəzirləri üçün qiymətli hədiyyələrlə Həbəşəyə göndərdilər. Onlar hədiyyələr vasitəsi ilə Nəcaşini mühacir müsəlmanlara qarşı qaldırmaq istəyirdilər. Onları dinləyən Nəcaşi qərara gəldi ki, özü şəxsən müsəlmanları hüzuruna gətirib onların sözünü dinləsin.

Həbəşə padşahının hüzurunda Cəfər müsəlmanların adından çıxış etdi. O, bütpərəstlik bəlasından, xurafatdan, cahiliyyət təcavüzkarlığından, İslamın gəlişindən, Məhəmməd (s) dininin nurundan elə danışdı ki, Nəcaşi ağladı. O, kafirlərin hədiyyələrini qaytarıb dedi: “Mənə qüdrət verən Allah məndən rüşvət almadı. Nə üçün mən sizdən rüşvət almalıyam?!”

Bu məclis müsəlmanların xeyrinə, kafirlərin zərərinə başa çatdı. Əmr As bu məğlubiyyətdən sonra çox götür-qoy edib, səhəri gün yeni bir təklif verdi. O, Nəcaşinin dini hislərini qızışdırmaq üçün dedi: “Müsəlmanların əqidəsi sizin əqidənizə ziddir.”

Nəcaşi növbəti dəfə müsəlmanları hüzuruna gətirib, onların həzrət Məsih haqqındakı əqidələrini soruşdu. Cəfəri-Təyyar onun cavabında Qurani-kərimin “Məryəm” surəsinin ayələrini tilavət etdi. Quranın nurani ayələrini eşidən Nəcaşi göz yaşı axıdıb dedi: “Deyilənlər həqiqətdir.”

Əmr As növbəti rüsvayçılıqdan sonra yeni bir təklif vermək istədikdə Nəcaşi ona möhkəm bir sillə vurdu.[1]

**Bildirişlər**

1. Azğınlar və çaşqın əqidələr qarşısında doğru yolu göstərmək lazımdır.
2. Övlad sahibi olmaq Allahın şəninə uyğun deyil. (Çünki övlad istəyini doğuran ya ömrümüzün məhdudluğu, ya insan qüvvəsinə ehtiyacımız, ya da ruhumuzun tələbidir. Allah isə bütün bu sifətlərdən pak-pakizədir.
3. Allahın heç bir övladı yoxdur. (Bəzilərinin düşündüyü kimi mələklər Allahın qızı, İsa Allahın oğlu deyil.)
4. Övlad atanın növündən olmalıdır. Allahınsa uşağı yoxdur.
5. Başqalarının xoşagəlməz sözlərini nəql etdikdə dərhal zehnimizi təmizləyək.
6. Təkcə İsa atasız və ya Adəm ata-anasız yaranmayıb, hər bir şey Allahın iradəsi ilə vücuda gəlir.
7. Allahın istəyi ilə bir şeyin gerçəkləşməsi arasında vaxt ötmür.
8. Mövcudların Allahla rabitəsi ata-övlad rabitəsi yox, xaliq-məxluq rabitəsidir.

**● AYƏ 36:**

﴿وَإِنَّ اللَّهَ رَبِّي وَرَبُّكُمْ فَاعْبُدُوهُ هَذَا صِرَاطٌ مُّسْتَقِيمٌ﴾

**“Həqiqətən, Allah mənim və sizin Rəbbinizdir. Beləsə, Ona pərəstiş edin, doğru yol budur.”**

**Nöqtələr**

Həzrət İsa özünü belə tanıtdırır: ”Mən Allahın bəndəsiyəm.” Ona ilkin olaraq namaz və ibadət haqqında göstəriş gəldi. Onun ilkin olaraq elan etdiyi proqram da Allaha pərəstiş və ibadət idi.

Həzrət Məsihin tövhid məsələsində israrı və tövhidi doğru yol sayması onu Allahın oğlu sayanlara, üç üqnumçulara yetərli cavabdır. (Uyğun nöqtəyə “Ali-İmran” surəsinin 51-ci, “Zuxruf” surəsinin 64-cü ayələrində də toxunulmuşdur.)

**Bildirişlər**

1. İbadət yalnız bizim Rəbbimizə layiqdir.
2. İsanı Allahın övladı saymaq dinin təhrifi və küfr mayasıdır.
3. Bir Allaha pərəstiş və Ona bəndəlik yeganə doğru yoldur. Bütün qalan yollar azğınlığa aparır. (Quranda Allah, peyğəmbər, ibadət, Allaha bağlılıq yolu doğru yol kimi tanıtdırılır.)

---

[1] “Furuğk-əbədiyyət”, c. 1, s. 253; “Kamili-ibn Əsir”, c. 2, s. 54; “Bihar”, c. 18, s. 415.

**• AYƏ 37:**

﴿فَاخْتَلَفَ الْأَحْزَابُ مِن بَيْنِهِمْ فَوَيْلٌ لِّلَّذِينَ كَفَرُوا مِن مَّشْهَدِ يَوْمٍ عَظِيمٍ﴾

**"Öz aralarındakı dəstələr ixtilafa düşdülər. Vay olsun, böyük gündə (Qiyamət günündə) hüzuru inkar edənlərə."**

**• AYƏ 38:**

﴿أَسْمِعْ بِهِمْ وَأَبْصِرْ يَوْمَ يَأْتُونَنَا لَكِنِ الظَّالِمُونَ الْيَوْمَ فِي ضَلَالٍ مُّبِينٍ﴾

**"Bizim hüzurumuza gəldikləri gün necə də yaxşı eşidir və görürlər. Amma zalımlar bu gün açıq-aşkar azğınlıqdadır."**

**Nöqtələr**

Xüsusi mövqe, məqsəd və birliyə malik olan dəstə "hizb" adlanır.

"Məşhəd" dedikdə ya xalqın hüzur məhəlli, ya da şəhadət verilən yer nəzərdə tutulur. Qiyamət günü həm insanlar bir yerə toplanar, həm də mələklər və peyğəmbərlər insanların əməllərinə şəhadət verər.

Bəzi insanlar İsanı Allah sayırdı. "Yəqubiyyə" kimi bəzi firqələr onu Allahın oğlu kimi qəbul edirdi. "Nəsturiyyə" kimi, "İsrailiyyə" kimi firqələr üç üqnuma inanırdı. Amma bütün bu firqələr qiyamət günü öz əqidələrinin ziddinə şəhadət verəcəklər.[1]

**Bildirişlər**

1. Həzrət İsa doğru yolu göstərsə də, ətrafdakılardan bir qrupu ixtilaf törədirdi.
2. Dəstəbazlıq, bilərəkdən ixtilaf yaratmaq tarix boyu müşahidə olunan bir gerçəkdir.
3. Kafirlər zalımdırlar. (Onlar özlərinə, əqidə məktəbinə və cəmiyyətə zülm edirlər.)

**• AYƏ 39:**

﴿وَأَنذِرْهُمْ يَوْمَ الْحَسْرَةِ إِذْ قُضِيَ الْأَمْرُ وَهُمْ فِي غَفْلَةٍ وَهُمْ لَا يُؤْمِنُونَ﴾

**"Onları peşmançılıq günü ilə qorxut. Elə bir vaxt ki, onlar qəflətdə olduğu və iman gətirmədiyi halda iş-işdən sovuşar."**

**• AYƏ 40:**

﴿إِنَّا نَحْنُ نَرِثُ الْأَرْضَ وَمَنْ عَلَيْهَا وَإِلَيْنَا يُرْجَعُونَ﴾

---

[1] "Təfsire-ətyəbul-bəyan".

**“Yer və onun əhlinin yeganə varisi Bizik və (hamı) Bizə doğru qaytarılar.”**

**Nöqtələr**

Bütün bədbəxtçiliklər qəflətdən doğur: Allahdan, məaddan, günahın nəticələrindən, fitnələrdən, məhrumlardan, tarix və onun sünnələrindən, gənclik və istedadlardan, inkişaf zəminlərindən qəflət.

Bu ayənin oxşarı Quranın başqa yerlərində də gözə dəyir: “Hər şey fəna olar, yalnız cəlal və kərəm sahibi Allahın zatı əbədidir.”[1]; “Göylərin və yerin varisi yalnız Allahdır.”[2]

Qiyamət gününün bir adı da “həsrət günüdür.” Həmin gün insan əldən buraxdığı fürsətlərə, tələf olmuş sərmayələrə görə təəssüf edər.

**Bildirişlər**

1. Peyğəmbərlərin vəzifələrindən biri də xəbərdarlıqdır.
2. Dünyada bacardığınız qədər çalışın. Qiyamətdə iş-işdən keçmişdir.
3. Qəflət küfr üçün zəmindir.
4. Qəflət və imansızlıq halında ölüm peşmançılıq səbəbidir.
5. İnsanın mal-mülkü onda qəflət doğurur, qəflət isə küfrə səbəb olur.

**● AYƏ 41:**

﴿وَاذْكُرْ فِي الْكِتَابِ إِبْرَاهِيمَ إِنَّهُ كَانَ صِدِّيقًا نَّبِيًّا﴾

**“Bu kitabda İbrahimi yad et. Həqiqətən, o, doğruçu bir peyğəmbər idi.”**

**Nöqtələr**

“Siddiq” dedikdə həm haqqı çox təsdiq edən, həm də bütün danışıq və rəftarı sədaqətə əsaslanan kəs başa düşülür. Belə bir şəxs dediyinə əməl edir, əməl etdiyini deyir.

**Bildirişlər**

1. Münafiq insanları daim xatırlayaq.
2. Başqalarının kamilliklərinə diqqət və böyük şəxsiyyətlər haqqında xoş söz tərbiyə üsullarındandır.
3. Sədaqət peyğəmbərlik şərtidir.
4. İnsanda xarakterə çevrilmiş sədaqət dəyərlidir.

**● AYƏ 42:**

﴿إِذْ قَالَ لِأَبِيهِ يَا أَبَتِ لِمَ تَعْبُدُ مَا لَا يَسْمَعُ وَلَا يُبْصِرُ وَلَا يُغْنِي عَنكَ شَيْئًا﴾

---

[1] “Ər-rəhman”, 26, 17;
[2] “Hədid”, 10.

**“O (İbrahim), atasına dedi: «Ey ata! Nə üçün eşidib görməyən və sənin heç bir ehtiyacını ödəməyən bir şeyə pərəstiş edirsən?»”**

**Nöqtələr**

Həzrət İbrahimin ana-atası dünyasını dəyişmişdi. Quranda İbrahimin atası kimi tanıtdırılan şəxs onu himayəsinə götürmüş əmisi Azər və ya anasının əri idi.[1]

Əhli-beyt rəvayətlərində də bildirilir ki, həzrət İbrahimin atası tək Allaha inanırdı və ayədə “əb” dedikdə onun əmisi nəzərdə tutulmuşdur.

Ərəb dilində “əb” sözünün geniş mənası var. Bu söz müəllim, tərbiyəçi, hətta qayınataya da aid edilə bilər. Həzrət Peyğəmbərdən (s) nəql olunmuş bir rəvayətdə buyurulur: “Mən və Əli bu ümmətin atalarıyıq.”[2]

**Bildirişlər**

1. İbrahimin öz əmisi ilə söhbətləri xatırlanası və dəyərləndiriləsi söhbətlərdir.
2. Pisliyə qadağa qoyarkən öz yaxınlarımızdan başlayaq.
3. Nəhy əz münkərdə yaş məhdudiyyəti yoxdur. (Oğul ehtiramı gözləməklə ailə başçısını pislikdən çəkindirə bilər.)
4. İnsanların kamilliyi onların yaşından asılı deyil. Bəzən övlad evdəki böyüklərdən daha anlaqlı olur.
5. Təlim-tərbiyə ümumi olmaya da bilər. Bəzən fərdin özünə nə isə demək lazım gəlir.
6. Nəhy əz münkər zamanı, pisliyə qadağa qoyarkən suallar ünvanlamaqla insanların vicdanını mühakiməyə çəkək.
7. Nəhy əz münkərə etiqadi məsələlərdən başlayaq. (Təəssüf ki, biz, adətən, əxlaqi və ictimai büdrəmələrə daha çox vaxt ayırırıq).
8. Haqq yolu hisslərə fəda etməyə, qohumluq bağlılığı nəhy əz münkərə mane olmamalıdır.
9. Bütpərəstlik mələkpərəstlikdən, insanpərəstlikdən, inəkpərəstlikdən də pisdir. Çünki bütlər görüb eşitmir, heç bir şüura malik deyil.

**● AYƏ 43:**

﴿يَا أَبَتِ إِنِّي قَدْ جَاءنِي مِنَ الْعِلْمِ مَا لَمْ يَأْتِكَ فَاتَّبِعْنِي أَهْدِكَ صِرَاطًا سَوِيًّا﴾

**“Ey ata! Həqiqətən, mənə sənin üçün gəlməmiş bir bilik gəlmişdir; ona görə də mənə tabe ol, səni doğru yola yönəldim.”**

---

[1] “Təfsire-Əl-mizan”.

[2] “Bihar”, c. 16, s. 95.

### • AYƏ 44:

﴿يَا أَبَتِ لَا تَعْبُدِ الشَّيْطَانَ إِنَّ الشَّيْطَانَ كَانَ لِلرَّحْمَنِ عَصِيًّا﴾

**“Ey ata! Şeytana pərəstiş etmə. Çünki şeytan Rəhman Allaha qarşı asidir.”**

**Nöqtələr**

Şeytana ibadət dedikdə insanı şeytana qul edən itaət nəzərdə tutulur.

**Bildirişlər**

1. Elm insanda məsuliyyət yaradır.
2. Peyğəmbərlərin də elmi məhduddur.
3. Nəhy əz münkər edən, pisliyə qadağa qoyan şəxs özü alim olmalıdır.
4. Bəzən insan özü haqqında da xoş söz deməlidir.
5. Şirkin kökü cəhalətdir.
6. İnsanlar alimə itaət etməlidirlər.
7. Az yaşlı uşaq böyüklərə imam ola bilər.
8. Peyğəmbərlərə itaət doğru yol tutmaqdır.
9. Peyğəmbərlərin yolu ifrat və təfrit yox, mötədil (orta) yoldur.
10. Nəhy əz münkərdə, pisliyə qadağa qoyarkən dəlilləri bəyan edək.
11. Şeytanın himayəsi və onunla dostluq təhlükəlidir. Allaha qarşı günaha yol vermiş bir varlıq gör bizim başımıza nə gətirəcək?! Bütün rəhmətlərin qaynağı olan Allaha qarşı üsyan necə də çirkindir!)

### • AYƏ 45:

﴿يَا أَبَتِ إِنِّي أَخَافُ أَن يَمَسَّكَ عَذَابٌ مِّنَ الرَّحْمَن فَتَكُونَ لِلشَّيْطَانِ وَلِيًّا﴾

**“Ey ata! Həqiqətən, qorxuram ki, Rəhman tərəfindən sənə əzab gəlsin və şeytana dost olasan.”**

**Bildirişlər**

1. Dəvət və təbliğdə daxili hisslərdən istifadə etməklə qəbul üçün zəmin yaradaq. (Bu ayələrdə “ey ata” müraciəti 4 dəfə işlədilmişdir.)
2. Peyğəmbərlər xalqa canıyanandırlar.
3. İnsan o qədər alçalır ki, rəhmət qaynağını qəzəbə vadar edir, Rəhman Allahı qəzəbləndirir.
4. Peyğəmbərlərin yaxınları da yolunu azdıqda ilahi əzaba düçar olur.
5. Doğru yolu tutmayan kəs şeytanın hakimiyyəti altına düşür.
6. Bir insanla dostuqsa, onun düşmənini dost tutmamalıyıq.

**● AYƏ 46:**

﴿قَالَ أَرَاغِبٌ أَنتَ عَنْ آلِهَتِي يَا إِبْراهِيمُ لَئِن لَّمْ تَنتَهِ لَأَرْجُمَنَّكَ وَاهْجُرْنِي مَلِيًّا﴾

**“Dedi: “Ey İbrahim! Yoxsa mənim tanrılarımdan zara gəlmisən? Əgər (bu yoldan) əl çəkməsən, şübhəsiz, səni daşqalaq edəcəyəm. (İndi isə) uzun müddətlik məndən uzaqlaş.”**

**Nöqtələr**

“İmla” sözündən olan “məliyya” sözü uzun müddət möhlət vermək mənasını bildirir.

**Bildirişlər**

1. Bəzən əqidəni gizlətmək lazım gəlir. (İbrahim sanki həmin anadək əqidəsini öz əmisindən gizləyirdi. Çünki əmisi onunla təəccüblə danışırdı.)
2. Bu ayədə peyğəmbərə təsəlli verilir. Əgər sənin əmin Əbu-Ləhəb kafirdirsə, İbrahimin də əmisi kafir idi.
3. İnsan o qədər alçalır ki, haqq söz ona acı və təəccüblü gəlir.
4. Yaşca özündən kiçikdən haqq söz qəbul etməmək təkəbbür nişanəsidir.
5. Vahid şüurlu Allahı qəbul etməyən kəs bir neçə şüursuz məbudu qəbul edəsidir.
6. Haqqın bəyanı və batillə mübarizə məhrumiyyətlərlə sonuclanır.

**● AYƏ 47:**

﴿قَالَ سَلَامٌ عَلَيْكَ سَأَسْتَغْفِرُ لَكَ رَبِّي إِنَّهُ كَانَ بِي حَفِيًّا﴾

**“(İbrahim ondan ayrıldı,) dedi: «Salam olsun sənə, tezliklə Rəbbimdən sənin üçün bağışlanma diləyərəm. Çünki O mənə daim mehriban olmuşdur.»”**

**Nöqtələr**

“Həfiyy” dedikdə bir başqasına xeyirxah və onu əziz tutan kəs nəzərdə tutulur. Bu söz bəzən alim mənasında da işlədilir.

Bu ayələrdə söhbətlər əsnasında mömin və kafirin ruhiyyəsi çox yaxşı müşahidə olunur:

a) İbrahim məhəbbətlə, onun əmisi qəzəblə danışır. İbrahim 4 dəfə “ey ata” deyə müraciət etdiyi halda, əmisi bir dəfə olsun “ey oğlum” deyə sözə başlamır.

b) İbrahim dəlillərlə danışır, əmisi Azər isə əsassız sözlər deyir.

v) İbrahim canıyananlıqla danışır, Azər ona hədələməklə cavab verir.

q) İbrahim salam verir, Azər ona uzaqlaşmaq göstərişi verir.

***Əskik olma kölgə salan ağacdan,***
***Bəhrələnir budağına daş atan.***

Həzrət İbrahim əmisinin doğru yola gələcəyinə ümid etdiyindən onun bağışlanmasını diləyirdi. Amma elə ki, əmisinin hidayətindən ümidini üzdü, ona arxa çevirdi.[1]

**Bildirişlər**

1. İlahi insanlar başqalarının hədə və təhqirləri qarşısında səbirli və qəlbi genişdirlər.
2. Başqalarının qəzəb alovunu gözəl və aram danışıqla söndürməyə çalışaq.
3. Peyğəmbər və övliyaların bağışlanma diləyinin xüsusi təsirləri var.
4. Üzrxahlığı qəbul etmək rübubiyyət şənindəndir.
5. Bağışlanma diləmək üçün müəyyən vaxtların üstünlüyü var. Yəni münasib vaxtlarda dua etməliyik.
6. Allahın rübubiyyətinə diqqət dua qaydalarındandır.
7. Müxaliflərin hədələri qarşısında Allahın lütflərini yada salaq.

**● AYƏ 48:**

﴿وَأَعْتَزِلُكُمْ وَمَا تَدْعُونَ مِن دُونِ اللَّهِ وَأَدْعُو رَبِّي عَسَى أَلَّا أَكُونَ بِدُعَاء رَبِّي شَقِيًّا﴾

**“Mən sizdən və Allahdan başqa çağırdıqlarınızdan kənara çəkilib Rəbbimə dua edirəm. Ümid edirəm ki, Rəbbimi çağırdığım vaxt əliboş qalmayacağam.”**

**Nöqtələr**

Azğın ailə içində yaşayan allahpərəst gənclər İbrahimin yolunu tutmalıdırlar. Onlar ədəblə dəvət etməli, məntiqi şəkildə canıyananlıq göstərməli, dua etməklə yanaşı qorxutmalı, bağışlanma diləməklə birlikdə salam verməli və ən sonda ayrılmalıdırlar.

[1] “Tövbə”, 114.

**Bildirişlər**

1. Rabitələri qırmaq nəhy əz münkərin (pisliyə qadağanın) son mərhələlərindəndir. (İslah edə bilmədiyimiz günahkar mühitdən ən azı uzaqlaşaq.)

2. İlahi məktəblərin əsas prinsiplərindən biri kafirlərdən üz çevirməkdir.

3. Bəraət (azğınlıqdan zara gəlib üz çevirmək) vilayətdən (haqq hakimiyyətin qəbulundan) öndə gəlir. Öncə şirk və zalım hakimdən uzaqlaşmaq, sonra haqqa qatılmaq lazımdır.

Bəli, "Div çıxanda qapıdan, mələk olur nümayan." Öncə "La ilahə" ("yoxdur məbud") sonra "illəllah" ("Allahdan başqa"). Quranda əvvəlcə zalım qüvvənin inkarı, sonra Allaha iman bəyan olunur.[1]

4. Əgər dualarımızın İbrahim duası olmasını istəyiriksə, azğın insanlardan və azğınlıq mərkəzlərindən uzaq olmalıyıq.

5. Duada "Rəbb" sözü ilə müraciət etməyin mühüm rolu var.

6. Mömin qorxu ilə ümid arasındadır. Qorxu qalib gəldikdə insan ümidsizləşir, ümid qalib gəldikdə insan tənbəl olur. Bu səbəbdən də qorxu ilə ümid arası orta halı qorumaq lazımdır.

7. Duanın qəbulu ilahi bir fəzldir.

8. Peyğəmbərlər də öz gələcəkləri ilə bağlı Allaha ümid edirlər.[2]

**● AYƏ 49:**

﴿فَلَمَّا اعْتَزَلَهُمْ وَمَا يَعْبُدُونَ مِن دُونِ اللَّهِ وَهَبْنَا لَهُ إِسْحَقَ وَيَعْقُوبَ وَكُلًّا جَعَلْنَا نَبِيًّا﴾

**"İbrahim müşriklərdən və Allah əvəzinə pərəstiş olunanlardan uzaqlaşdığı vaxt Biz ona İshaq və Yaqubu əta etdik. Onların hər birini peyğəmbər qərar verdik."**

**● AYƏ 50:**

﴿وَوَهَبْنَا لَهُم مِّن رَّحْمَتِنَا وَجَعَلْنَا لَهُمْ لِسَانَ صِدْقٍ عَلِيًّا﴾

**"Öz rəhmətimizdən onlara əta etdik, onlar üçün (xalq arasında) uca və yaxşı ad müəyyənləşdirdik."**

---

[1] "Bəqərə", 256.
[2] "Təfsire-Əl-mizan".

**Nöqtələr**

***İBRAHIMIN SIMASI***

–İbrahim ulduz, ay və günəşdən üz döndərib Allaha yetişdi.[1]

– İbrahim yolunu azmış əmisini boşlayıb, özü xalq üçün ata oldu.[2]

–Əmisi ondan üz çevirdi, Allah isə ona lütf etdi.[3]

–O, Allaha görə kənara çəkildiyi vaxt şöhrət tapdı.[4]

–Bütxanadan qaçıb tövhid evi tikdi.[5]

–Canını Allah yolunda verdi və od onun üçün gülüstan oldu.[6]

–Allah əmrinə görə oğlunu qurbanlıq üçün hazırladı, salamatlıqla qurtardı. Bunun da əvəzində qurbanlıq sünnəsi vacib oldu.[7]

–Ömrünün axırlarınadək övladı olmadığı halda razı idi. Ömrünün sonunda nəslindən peyğəmbər qərar verildi.

–Ən xəlvət yerdə Kəbəni tikdi və bu ev yer üzünün ən cazibəli nöqtəsi oldu.

–Biyabanda tənha dayanıb fəryad çəkdi və bütün yer üzündən "ləbbeyk" səsi yetişdi.[8]

–Təşnə körpəsini biyabanda qoyub getdi, həmişəlik olaraq zəm-zəm çeşməsi qaynadı.

–Bütpərəst əmisinin hədələrinə salamla cavab verdi, Allah da ona salam göndərdi.[9]

–O bir nəfər idi, bu gün isə səmavi məktəblər özünü İbrahim məktəbi sayır.

–Hamı onu düşmən saydığı bir vaxt Allah onu Özünə dost seçdi.[10]

**Bildirişlər**

1. Həm günahkarlardan, həm də günahdan uzaq olaq. Günahkarlardan uzaqlaşmaq o zaman səmərəlidir ki, insan həm də günahdan uzaqlaşsın.
2. Saleh övlad valideynin haqq uğrunda mübarizələrinin mükafatıdır.
3. Allahdan qeyrilərini boşlasaq, ilahi yardımlar nazil olar.
4. Övladdan da mühümü onun mənəvi məqamıdır.
5. Nəvələr də ilahi lütflərdəndir. (Yaqub İbrahimin nəvəsi idi.)[11]
6. Peyğəmbərlik Allahın təyin etdiyi məqamdır.

---

[1] Ənam", 76, 79.
[2] "Həcc", 78.
[3] "Məryəm", 46, 47.
[4] "Məryəm", 48.
[5] "Bəqərə", 127.
[6] "Ənbiya", 69.
[7] "Saffat", 103.
[8] "Həcc", 27.
[9] "Məryəm", 47; "Saffat", 109.
[10] "Nisa", 125.
[11] "Hud", 71.

7. Bir babanın ilahi hərəkəti onun nəslini ilahi mərhəmətdə qərq edir.
8. Kimin nəyi varsa Allahdandır.
9. Allahın rəhməti o qədər genişdir ki, peyğəmbərlərin əldə etdiyi onun kiçik bir hissəsidir.
10. Sevimlilik və yaxşı ad ilahi lütflərdəndir. (İbrahim elə bir məqama yüksəldi ki, bütün müşriklər, yəhudilər və məsihilər "İbrahim bizdəndir" dedilər.)
11. İlahi insanların duası qəbul olur. (İbrahim Allahdan yaxşı ad istədi və öz istəyinə çatdı.)

### • AYƏ 51:

﴿وَاذْكُرْ فِي الْكِتَابِ مُوسَى إِنَّهُ كَانَ مُخْلَصًا وَكَانَ رَسُولًا نَّبِيًّا﴾

**"Bu kitabda Musanı yad et. Çünki o, xalis bir bəndə və göndərilmiş peyğəmbər idi."**

**Nöqtələr**

"Müxlis" dedikdə yalnız Allahın razılığı üçün iş görən şəxs nəzərdə tutulur. Amma belə bir şəxsə şeytanın təsir göstərib onu şirkə çəkməsi mümkündür. Bir çoxları əzab və təhlükə zamanı müxlis olsa da, təhlükə sovuşduqdan sonra şirkə meyl edirlər. "Muxləs" dedikdə isə şeytanın nüfuz edə bilmədiyi seçilmiş insanlar nəzərdə tutulur.[1] "Təfsiri-kəşşaf"da bildirilir ki, "müxlis" Allah üçün çalışan, "müxləs" isə Allahın Özü üçün xalis edib seçdiyi kəsdir. Belələrinə Allahdan başqa kimsə təsir edə bilmir.

Musanın seçilməsi gerçəkliyi ilə başqa ayələrdə də rastlaşırıq: "Mən səni seçdim."[2]; "Mən səni özüm üçün seçdim."[3]

Həzrət Musa həm rəsul, həm də nəbi idi. "Nəbiyy" dedikdə mələyin səsini eşidib, özünü görməyən kəs nəzərdə tutulur. "Rəsul" isə səs eşitməklə yanaşı mələyi müşahidə edir.[4]

**Bildirişlər**

1. Böyük şəxsiyyətləri xatırlamağın tərbiyəvi və nümunəvi təsirləri var.

Peyğəmbərlərin tarixi, onların apardıqları mübarizə yolu, ilahi sünnələr və qeybi yardımlarla tanışlıq təcrübə və ibrət üçün zəmindir, eləcə də təsəlli amilidir. (Xüsusi ilə də həzrət Musanın yüzlərlə ayəni əhatə etmiş macəralı tarixi.)

2. Mənəvi dəyərlər xatirə meyarıdır.

---

[1] "Hicr", 40.
[2] "Taha", 13.
[3] "Taha", 41.
[4] "Təfsire-Əl-mizan"; "Təfsire-nurus-səqəleyn".

3. Xalislik (ixlas) mənəvi məqamlara çatmaq zəminidir.

4. Peyğəmbərlər məsumdur və şeytan onlara nüfuz edə bilmir.

5. Allah risalətin tamamlanması, peyğəmbərlik missiyasının başa çatdırılması üçün bir qrup insanı xalis (müxləs) etmişdir.[1]

**● Ayə 52:**

﴿وَنَادَيْنَاهُ مِن جَانِبِ الطُّورِ الْأَيْمَنِ وَقَرَّبْنَاهُ نَجِيًّا﴾

**"Turun sağ tərəfindən ona nida etdik və (özümüzə yaxın məqama) gizli danışığa yaxınlaşdırdıq."**

**Bildirişlər**

1."Əymən" sözü ya "yomn" sözündən olub mübarək mənasını bildirir, ya da "yəmin" sözündən olub sağ tərəf mənasını ifadə edir.

Ayənin əvvəlində nida, sonunda münacatdan danışılması Allahın mehribanlıq göstərməsi nişanəsidir. Elə bil ki, mehriban ağa öz qulunu səsləyib deyir: gəl yanımda otur, xüsusi bir söhbət edək.[2]

Quranda Musanın Allahla danışıq və rabitəsi həm "təkəllüm", həm "nida", həm də "nəcva" sözləri ilə bəyan olunur.[3]

Ayədə yaxınlıq deyilərkən məkan yaxınlığı yox, məqam yaxınlığı nəzərdə tutulur.

Tur dağı Misirlə Mədyən arasında yerləşir.[4]

**Bildirişlər**

1. Allah-təala peyğəmbərləri lütf və mehribanlıqla addım-addım özünə yaxınlaşdırır.

2. Bəzi məkanlarda müqəddəslik var.

3. Yaxınlıq və xəlvət danışıq zamanı ən üstün məqamlardandır. (Həzrət Əli (ə) buyurur: "Behişt əhli oranın nemətlərindən bəhrələndiyi vaxt Allaha yaxın məqamda olanlar ("əhlullah") Onunla raz-niyaza məşğul olarlar.")

4. Allah bəzi məsələləri peyğəmbərlərlə xəlvəti, məhrəmanə danışar.

**● Ayə 53:**

﴿وَوَهَبْنَا لَهُ مِن رَّحْمَتِنَا أَخَاهُ هَارُونَ نَبِيًّا﴾

**"Öz mərhəmətimizdən qardaşı Harun peyğəmbəri ona bəxş etdik."**

---

[1] "Sad", 45.
[2] "Təfsire-Əl-mizan".
[3] "Nisa", 164.
[4] "Təfsire-kəşful-əsrar".

**Bildirişlər**

1. Peyğəmbərlərin duası qəbuldur. Musa Allahdan dilədi ki, qardaşı Harunu ona vəzir qərar versin.[1] Allah onun bu istəyi ilə razılaşdı.

2. Yaxşı həmkar ilahi lütflərdən biridir.

3 Eyni bir dövrdə bir neçə peyğəmbər ola bilər.

4. Peyğəmbərlik məqamı bir peyğəmbərin o birinə tabeçiliyinə mane olmur.

**● AYƏ 54:**

﴿وَاذْكُرْ فِي الْكِتَابِ إِسْمَاعِيلَ إِنَّهُ كَانَ صَادِقَ الْوَعْدِ وَكَانَ رَسُولًا نَّبِيًّا﴾

**"Bu kitabda İsmaili yad et. O daim öz vədinə sadiq və göndərilmiş peyğəmbər idi."**

**● AYƏ 55:**

﴿وَكَانَ يَأْمُرُ أَهْلَهُ بِالصَّلَاةِ وَالزَّكَاةِ وَكَانَ عِندَ رَبِّهِ مَرْضِيًّا﴾

**"Daim öz əhlini namaz və zəkata çağırardı və Rəbbinin razılığını qazanmışdı."**

**Nöqtələr**

Ayədə xatırlanan İsmail ya həzrət İbrahimin övladı İsmaildir, ya da Bəni-İsrail peyğəmbərlərindən olan İsmail ibn Hezqildir.

Bütün peyğəmbərlər sədaqətli olmuşlar. Amma bu xüsusiyyət İsmaildə özünü daha çox göstərmişdir. Nəql olunur ki, bir gün İslam Peyğəmbəri (s) bir şəxslə Kəbə kənarında görüş təyin edir. Amma həmin şəxs verdiyi vədi unudur. Həzrət vəd yerində üç gün gözləyir. Nəhayət, həmin şəxsə xəbər çatır və gəlib üzrxahlıq edir.[2] Peyğəmbər (s) başqa bir şəxslə günorta vaxtı görüşməyi qərarlaşdırdı. Həmin şəxs gəlmədiyi üçün həzrət qürub vaxtınadək görüş yerində dayandı.

Vədə vəfa qılmaq ilahi bir sifətdir.[3] Vədə xilaflıq isə nifaq nişanəsidir. Bir hədisdə oxuyuruq: "Münafiqin üç əlaməti var: Əmanətə xəyanət, yalan danışıq, vədə xilaflıq.[4]

Allahın razılıq məqamı (rizvan) peyğəmbərlərin ən böyük istəyidir.[5] Hədisdə oxuyuruq: "Behişt əhli behiştdə yerləşdikdən sonra onlara xitab olunar ki, başqa istəkləri varmı? Onlar deyər: "Pərvərdigara! Məqsədimiz Sənin razılığındır."[1]

---

[1] "Taha", 29, 31.
[2] "Təfsire-Əl-mizan".
[3] "Ali-İmran", 9.
[4] "Təfsire-nurus-səqəleyn".
[5] "Məryəm", 6, 55.

**Bildirişlər**

1. İlahi insanlar haqqında xoş sözlər demək lazımdır.
2. İlahi şəxsiyyətlərin xatirəsi səthi və ötəri yox, dərin və davamlı olmalıdır.
3. İnsan davamlı mənəvi kamilliklərinə görə yada salınmalıdır.
4. Əhdə vəfa dəyərli insani sifətlərdəndir.
5. Peyğəmbərlərin ictimai məsuliyyətdən əlavə, ailə məsuliyyətləri də var.
6. Namaz və zəkata çağırış ailədə atanın vəzifələrindəndir. (Ailələrdə namaza çağırışla az-çox rastlaşsaq da, zəkat tövsiyə olunmur.)
7. Namaz və zəkata çağırış əmr be məruf (yaxşılığa əmr) nümunələrindəndir.
8. Namaz və zəkatın yetərincə uzun keçmişi var.
9. Namaz (Xaliqlə rabitə) və zəkat (məxluqla rabitə) bir-birindən ayrı deyil. (Kamillik üçün yalnız bədən ibadəti bəs etmir.)
10. Əmr be mərufa, namaza çağırışa yaxınlardan başlamaq lazımdır.
11. Namaza davamlı şəkildə dəvət etmək lazımdır.

**● AYƏ 56:**

﴿وَاذْكُرْ فِي الْكِتَابِ إِدْرِيسَ إِنَّهُ كَانَ صِدِّيقًا نَّبِيًّا﴾

**“Bu kitabda İdrisi yad et. Həqiqətən, o çox doğruçu bir peyğəmbər idi.”**

**● AYƏ 57:**

﴿وَرَفَعْنَاهُ مَكَانًا عَلِيًّا﴾

**“Biz onu uca bir məqama çatdırdıq.”**

**Nöqtələr**

“Məkanən əliyya” dedikdə ya uca mənəvi məqam, ya səmaya yüksəliş nəzərdə tutulur. Çünki Allah 4 peyğəmbəri–İdrisi, İsanı, Xızrı və İlyası səmaya qaldırmışdır.[2]

Sözü və əməli bir olan şəxsə “Siddiq” deyilir.

***İDRISIN SIMASI***

–Həzrət İdris həzrət Nuhun babalarındandır. Dərslə daha çox məşğul olduğu və ya ilk dəfə qələmdən istifadə etdiyi üçün “İdris” adı ilə tanınmışdır.[3]

–Quranda adı iki dəfə zikr olunmuş bu şəxs “siddiq”, “sabir”, “nəbiyy” səciyyələri ilə vəsf olunmuşdur.

---

[1] “Təfsire-ətyəbul-bəyan”.
[2] “Təfsire-ətyəbul-bəyan”.
[3] “Təfsire-Əl-mizan”. “Təfsire-nümunə”.

–Hədisdə oxuyuruq: İdrisin evi Nəcəf ətrafında - Səhlə məscidində olmuşdur.[1]

–Astronomiya və riyaziyyat elmlərinə ilkin yiyələnən İdris olmuşdur.[2]

–Dərziliyi ilkin təlim edən şəxs İdrisdir.[3]

–İdris 365 il yaşamışdır. Sonra səmaya qaldırılmış və hazırda da sağdır. O, həzrət Mehdinin (ə) zühuru dövründə qayıdasıdır.[4]

**Bildirişlər**

1. Böyük insanların yada salınması və onlar haqqında xoş söz deyilməsi başqalarının inkişaf və hidayət vasitəsidir.
2. İlahi insanlar davamlı şəkildə xatırlanmalıdır.
3. Fərdlərin yada salınma meyarı onların mənəvi səciyyələri olmalıdır.
4. Sədaqət təbliğin təsirlilik şərtidir. “Siddiq” sözünün “nəbiyy” sözündən öncə gəlməsi sədaqətin nübuvvət üçün zəmin olduğunu göstərir.

**● AYƏ 58:**

﴿أُوْلَئِكَ الَّذِينَ أَنْعَمَ اللَّهُ عَلَيْهِم مِّنَ النَّبِيِّينَ مِن ذُرِّيَّةِ آدَمَ وَمِمَّنْ حَمَلْنَا مَعَ نُوحٍ وَمِن ذُرِّيَّةِ إِبْرَاهِيمَ وَإِسْرَائِيلَ وَمِمَّنْ هَدَيْنَا وَاجْتَبَيْنَا إِذَا تُتْلَى عَلَيْهِمْ آيَاتُ الرَّحْمَن خَرُّوا سُجَّدًا وَبُكِيًّا﴾

**“Onlar Allah tərəfindən (xüsusi) nemət əta olunmuş peyğəmbərlər idilər. Onlar Adəm nəslindən, Nuhla (gəmiyə) süvar etdiklərimizdən, İbrahim və İsrail nəslindən, hidayət etdiklərimizdən və seçdiklərimizdən olan peyğəmbərlər idi. Onlara Rəhman Allahın ayələri oxunan zaman səcdə qılar, ağlar halda üzü üstə torpağa düşərdilər.”**

**Nöqtələr**

Ötən ayələrdə 10 peyğəmbərin adı çəkildi. Zəkəriyyə, Yəhya, İsa, İbrahim, İshaq, Yaqub, Musa, Harun, İsmail və İdris. Bu ayədə isə həmin şəxslərə nemət verildiyi bəyan olunur. Biz hər gün namazda on dəfə Allahdan diləyirik ki, bizi azğınların yox, məhz bu insanların yoluna yönəltsin.

Adəm nəsli dedikdə İdris nəzərdə tutulur. Nuhun gəmisinə süvar olanların nəsli dedikdə Nuhun nəvəsi həzrət İbrahim başa düşülür. İbrahim nəsli ifadəsi

---

[1] “Təfsire-Əl-mizan”.
[2] “Təfsire-ətyəbul-bəyan”.
[3] “Təfsire-nümunə”.
[4] “Təfsire-ətyəbul-bəyan”.

İshaq, İsmail və Yaquba aiddir. Musa, Harun, Zəkəriyya, Yəhya və İsa isə İsrail nəsli kimi yada salınmışdır.[1]

Hədisdə oxuyuruq: "Quran tilavət edərkən ya qəmlənib ağlayın, ya da özünüzü həmin hala gətirin.[2]

Göz yaşı axıdaraq uzun səcdələr qılan ilahi insanlar zümrəsinə ən yaxşı nümunə İslam Peyğəmbəri (s) və onun məsum Əhli-beytidir. Ramazan ayı, Ərəfə və digər münacatlarda Peyğəmbər (s) və onun məsum Əhli-beytinin göz yaşları ilə müşayiət olunan uzun səcdələri haqqında yetərli məlumatlar var.

**Bildirişlər**

1. Bütün peyğəmbərlərin məqsədi birdir. (Allah Öz peyğəmbərlərini ardıcıl şəkildə eyni səciyyələrlə vəsf edir.)
2. Həqiqi nemət verən ("Munim") Allahdır.
3. İrsiyyət qanununa əsasən, nəslin tərbiyəsinə valideyn və babaların təsiri var.
4. Bütün peyğəmbərlər Adəm nəslindən olsalar da, Nuhun, İbrahimin və İsrailin (Yaqubun) adı xüsusi ehtiramla çəkilir.
5. Səcdə halında ağlamaq o qədər dəyərlidir ki, Allah bu zümrəni xüsusi yada salır.
6. Allah dərgahına üz tutub ağlamaq və yalvarmaq təkamül, mərifət, tövfiq və seçilmə nişanəsidir.

**● AYƏ 59:**

﴿فَخَلَفَ مِن بَعْدِهِمْ خَلْفٌ أَضَاعُوا الصَّلَاةَ وَاتَّبَعُوا الشَّهَوَاتِ فَسَوْفَ يَلْقَوْنَ غَيًّا﴾

**"Onların ardınca namazı zaya çıxaran, nəfs istəkləri ardınca gedən pis və ləyaqətsiz canişinlər gəldi. Onlar tezliklə azğınlıqlarının cəzasını görəcəklər."**

**● AYƏ 60:**

﴿إِلَّا مَن تَابَ وَآمَنَ وَعَمِلَ صَالِحًا فَأُوْلَئِكَ يَدْخُلُونَ الْجَنَّةَ وَلَا يُظْلَمُونَ شَيْئًا﴾

**"Yalnız tövbə edib iman gətirən, saleh işlər görən kəslər istisnadır. Onlar behiştə daxil olar və heç bir sitəmə məruz qalmazlar (mükafatları əskildilməz)."**

---

[1] "Təfsire-nümunə".
[2] "Təfsire-Safi".

**Nöqtələr**

Saleh övlad "xələf", qeyri-saleh övlad isə "xəlf" adlanır. "Qəyy" sözü "inkişaf" sözünün antonimi kimi işlənmişdir.[1]

Namaz qılmamaq namazı zaya çıxarmaqdan fərqli bir işdir. Namazı zaya çıxarmaq dedikdə, namaz qılan şəxsin namazın şərtlərinə əməl etməməsi, onu təxirə salması və yüngül tutması başa düşülür.[2]

Rəvayətdə oxuyuruq: İslam Peyğəmbəri (s) bu ayəni tilavət edən vaxt pərişan oldu və buyurdu: "Altmış ildən sonra bir qrup şəxs namazı zaya çıxaracaq."[3]

Əgər bu söz hicrətin ilkin illərində deyilmiş olsa, altmış il sonra dedikdə İmam Hüseynin (ə) şəhadətə çatdığı və Yezidin hakimiyyət kürsüsünə qalxdığı dövr nəzərdə tutulur.

## *QURANDA TÖVBƏ*

–Adətən Qurani-kərim əzab ayələrinin bəyanından sonra tövbə edənləri istisna edir. Məlum olur ki, islah yolu heç vaxt kimsə üçün bağlı deyil.

–Tövbə etmək vacibdir. Çünki bu, Allahın əmridir.[4]

–Həqiqi tövbə hökmən qəbuldur. İnanmaq olmur ki, Allah Onun əmri əsasında qılınan tövbəni qəbul etməsin.[5]

–Allah həm tövbələri qəbul edir, həm də çox tövbə edənləri dost tutur.[6]

–Tövbə saleh əməl və xətaların aradan qaldırılması ilə müşayiət olunmalıdır.[7]

–Tövbə qurtuluş rəmzidir.[8]

–Tövbə günahın savaba çevrilmə vasitəsidir.[9]

–Tövbə yağış yağmasına səbəb olur.[10]

–Tövbə gözəl ruziyə səbəb olur.[11]

–Ölüm və əzabla qarşı-qarşıya dayanan zaman tövbə qəbul deyil.[12]

–Allah tövbələri qəbul etməkdən əlavə, xüsusi lütf göstərir.[1] Uyğun mövzu ilə əlaqədar ayələrdə tövbə ilə yanaşı, ilahi mərhəmət və məhəbbət məsələlərinə də işarə olunur.

---

[1] "Bəqərə", 256.
[2] "Bihar", c. 11, s. 72.
[3] "Təfsire-nümunə".
[4] "Təhrim", 8.
[5] "Şura", 37, "Bəqərə", 37.
[6] "Bəqərə", 222.
[7] "Furqan", 71; Ənam", 54; "Bəqərə", 160.
[8] "Nur", 31.
[9] "Furqan", 70.
[10] "Hud", 3.
[11] "Hud", 3.
[12] "Nisa", 18.

–Quran tövbənin tərk olunmasını zülm və bədbəxtlik sayır.[2]

**Bildirişlər**

1. Bəzən övladlar və növbəti nəsil ata-babaların zəhmətini puça çıxarır. (Bəzən yaxşı insanlardan pis övladlar ərsəyə gəlir.)
2. Namaz dinin sütunudur. (Bir nəslin simasını o birinə tanıtdırmaq üçün onların namazı zaya çıxarması qeyd olunur.)
3. Namaz insanla azğın nəfs istəkləri arasında səddir. Bu sədd dağıldıqda insan asanlıqla nəfs istəklərinə tabe olur.
4. Allahla rabitəsi qırılan insan azğın nəfs istəklərinə üz tutur.
5. Azğın nəfs istəklərinin rövnəq tapması "ğəyy", tənəzzül və azğınlıqdır.
6. Namazı zaya çıxarmağın cəzası insanın başını itirməsidir. (Gerçək inkişaf mənəviyyat sayəsində əldə olunur.)
7. Millətlərin taleyi onların öz əlindədir.
8. Tövbə zahiri yox, köklü dəyişiklikdir.
9. Tövbə, iman və saleh əməl qurtuluş və behiştə giriş şərtidir.

**• Ayə 61:**

﴿جَنَّاتِ عَدْنٍ الَّتِي وَعَدَ الرَّحْمَنُ عِبَادَهُ بِالْغَيْبِ إِنَّهُ كَانَ وَعْدُهُ مَأْتِيًّا﴾

**"Rəhman Allahın qeybdən Öz bəndələrinə vəd etdiyi əbədi behiştlər! Şübhəsiz, Onun vədi gerçəkləşəsidir."**

**• Ayə 62:**

﴿لَا يَسْمَعُونَ فِيهَا لَغْوًا إِلَّا سَلَامًا وَلَهُمْ رِزْقُهُمْ فِيهَا بُكْرَةً وَعَشِيًّا﴾

**"Orada boş söz eşitməzlər, yalnız «Salam»! Orada hər sübh və axşam ruziləri hazırdır."**

**• Ayə 63:**

﴿تِلْكَ الْجَنَّةُ الَّتِي نُورِثُ مِنْ عِبَادِنَا مَن كَانَ تَقِيًّا﴾

**"Bu, hər bir təqvalı (pəhrizkar) bəndəmizə irs verdiyimiz həmin behiştdir."**

**Nöqtələr**

Ötən ayədə "cənnət" sözü tək formada işlənmişdir. Bu ayədə isə həmin söz cəm formada, yəni "cənnat" şəklində qeyd olunmuşdur. Aydın olur ki, behişt əhli üçün nəzərdə tutulmuş bağlar çoxsaylıdır.

---

[1] "Bəqərə", 37; Ənam", 54; "Tövbə", 117; "Məryəm", 60; "Hud", 90.
[2] "Buruc", 10.

Bu təbir belə də anlaşıla bilər ki, hər bir behişt əhli üçün dörd bağ nəzərdə tutulmuşdur. "Ər-rəhman" surəsində bu nöqtəyə işarə olunur. Surədə bildirilir ki, təqva əhli üçün iki və başqa iki bağ mövcuddur.[1] Bu bağlar ya bir-birinə yaxındır, ya aşağı qatlara malikdir, ya da behişt əhli arasında müxtəlif dərəcələr olduğundan bağlar da çeşidlidir.[2]

Qurani-kərim ilahi vədlərin gerçəkləşməsi ilə bağlı dəfələrlə söhbət açmışdır. Məsələn, buyurulur ki, kimdir Allahdan vəfalısı?[3]

Boş danışıqlardan uzaqlığın behişt üçün imtiyaz sayılmasında məqsəd bu ola bilər ki, bu günkü həyatımızda boş danışıq və işlərdən uzaq olaq. Belə bir nöqtəyə də işarə olunması mümkündür: Kafirlərin dünyada möminlərə əziyyət verən danışıqlarına behiştdə yer yoxdur.

"Nurisumin ibadina mən kanə təqiyya" cümləsində həm behiştin açarı olan təqvaya işarə olunmuşdur, həm də əziyyətsiz olaraq bir nemətə çatmaq mənasını bildirən irs təbiri işlədilmişdir. Təqva behişt açarı olsa da, bütün mükafatlar Allahın bizə ayırdığı irsdir. Əslində bizim əməllərimizin nəzərdə tutulmuş həddə mükafatı yoxdur. Behişt Allah tərəfindən irs olaraq təqva əhlinə verilən mükafatdır.

Hədisdə oxuyuruq: "Hər bir insanın behişt və cəhənnəmdə yeri var. Behiştə düşən insanın cəhənnəmdəki yeri cəhənnəm əhlinə irs verilir. İnsan cəhənnəmə düşdükdə onun Behiştdəki yeri irs olaraq Behişt əhlinə çatır.[4]

Bir şəxs İmam Sadiqə (ə) mədə ağrılarından şikayətləndi. Həzrət ona buyurdu: "Gün uzunu 2 dəfə–sübh və axşam ye. Sübh və axşam arası (günorta) yemək yemə, bu, bədəndə fəsad yaradır." Sonra imam hazırkı ayəni tilavət etdi.[5]

**Bildirişlər**

1. Behişt bağlarına sakinlik həmişəlikdir. ("Ədn" sözü sakinlik mənasını bildirir.)
2. Vəd olunmuş bütün lütflərin qaynağı Rəhman Allahın lütfüdür.
3. Biz bu gün ilahi vədlərin həqiqətini dərk etmirik.
4. Behişt əhli arasında "salam" sözü geniş yayılmış sözdür. Behişt mühiti əmin-aman mühitdir. Behişt əhli həm mələklərin, həm də dostların salamını eşidir.[6]
5. Behiştdə səhər və axşam kimi vaxt fərqləri var.
6. Behiştdə həm ruhi aramlıq, həm fiziki ehtiyaclar təmin olunur.

---

[1] "Ər-rəhman", 46, 62.
[2] "Təfsire-kəşful-əsrar".
[3] "Tövbə", 111.
[4] "Nurus-səqəleyn".
[5] "Təfsire-nurus-səqəleyn"; "Məhasini-bərqi".
[6] "Zumər", 73, "Vaqiə", 91.

7. Behişt ən üstün mülkiyyət növüdür. O, əta olunduqdan sonra geri alınmır, əskildilmir.[1]

8. Behişt təqva əhli üçün mirasdır.

## ● AYƏ 64:

﴿وَمَا نَتَنَزَّلُ إِلَّا بِأَمْرِ رَبِّكَ لَهُ مَا بَيْنَ أَيْدِينَا وَمَا خَلْفَنَا وَمَا بَيْنَ ذَٰلِكَ وَمَا كَانَ رَبُّكَ نَسِيًّا﴾

**"Biz (mələklər) yalnız Rəbbinin əmri ilə nazil oluruq; qarşımızda (gələcəkdə), arxamızda (keçmişdə) və ikisinin arasında nə varsa Onundur. Sənin Rəbbin unutqan deyil."**

**Nöqtələr**

"Əl-mizan" təfsirində oxuyuruq: "Bəziləri bu iki ayəni əvvəlki ayələrlə əlaqələndirməyə çalışsalar da, əslində onlar müstəqildir.

"Təfsire-Fəxr-Razi", "Təfsire-Təbəri", "Təfsire-Tibyan" mənbələrində oxuyuruq: "Peyğəmbərə (s) gələn vəhyin arası bir müddət kəsildi. Bu, peyğəmbərin nigarançılığına və müxaliflərin tənəsinə səbəb oldu: Ayə nazil edildi: "Rəbbin unutqan deyil." "Zuha" surəsinin 3-cü ayəsi də bu ayənin oxşarıdır.

**Bildirişlər**

1. Quran tədricən və Allahın əmri əsasında nazil olur.
2. Mələklər Allahın əmrinə təslimdir.
3. Hər şeyin həqiqi sahibi Odur.
4. Vəhy Allah əmri əsasında təxirə salınmışdı. Bu təxirin səbəbi Allahın Öz peyğəmbərini unutması deyildi.[2]

## ● AYƏ 65:

﴿رَبُّ السَّمَاوَاتِ وَالْأَرْضِ وَمَا بَيْنَهُمَا فَاعْبُدْهُ وَاصْطَبِرْ لِعِبَادَتِهِ هَلْ تَعْلَمُ لَهُ سَمِيًّا﴾

**"Göylərin və yerin, onların arasında olanların Rəbbi! Yalnız Ona pərəstiş et, Ona ibadətə səbirli ol. Ona bənzərini tanıyırsanmı?!"**

---

[1] "Təfsire-kəşful-əsrar".

[2] "Təfsire-fi zilalil Quran"; "Təfsire-Tibyan".

**Nöqtələr**

"Səmiyy" sözü ilə bağlı bir neçə məna zikr olunmuşdur: Şərik, bənzər, həm ad (adaş), övlad. Ötən ayədəki "Rəbbikə" və bu ayədəki "Rəbbus-səmavati vəl-ərz" sözləri bütün varlıq aləmi ilə birlikdə bəşər həyatının idarəçiliyindəki vəhdəti göstərir.

İbadət təkcə Allahın zikri, namaz deyil. Bu sayaq ibadətlərdə elə bir çətinlik yoxdur ki, səbir və dözümə ehtiyac duyulsun. Səbir və dözüm tələb edən ibadət insanı təzadlarla, zalım qüvvələrlə, problemlərlə üzbəüz qoyan ibadətdir. Yalnız belə məqamlarda insanın səbir və dözümə ehtiyacı olur.

Həzrət Əli (ə) ayədəki "həl tələmu ləhu səmiyya" təbiri ilə bağlı buyurur: "Kimsə "Allah" adı ilə adlandırılmamışdır."[1]

**Bildirişlər**

1. Bizim Allah qarşısındakı ibadətlərimizin fəlsəfəsi varlıq aləmində yalnız Ona məxsus olan rübubiyyətdir.
2. İbadət səbir tələb edir. (İbadət bir növ azğın nəfs istəkləri və azğın qüvvələrlə mübarizədir.)
3. Allah səni unutmayıb, sən də Onu unutma.
4. Allahın övladı yoxdur, Ona bənzəri tapılmaz.

**● AYƏ 66:**

﴿وَيَقُولُ الْإِنسَانُ أَئِذَا مَا مِتُّ لَسَوْفَ أُخْرَجُ حَيًّا﴾

**"İnsan deyir: "Yoxsa öləndən sonra ikinci dəfə (qəbirdən) xaric olacağam?"**

**● AYƏ 67:**

﴿أَوَلَا يَذْكُرُ الْإِنسَانُ أَنَّا خَلَقْنَاهُ مِن قَبْلُ وَلَمْ يَكُ شَيْئًا﴾

**"Görən insan heç nə olmadığı bir halda bundan öncə onu yaratdığımızı yada salmırmı?!"**

**Nöqtələr**

Bu ayə "Yasin" surəsinin 78, 79-cu ayələrinə bənzəyir. Uyğun ayələrdə bildirilir ki, bir şəxs çürüyüb ovulmuş sümükləri Peyğəmbərin (s) yanına gətirib onunla mübahisəyə başladı və dedi: "Çürümüş sümükləri kim dirildə bilər?" Bu şəxsə cavab olaraq Allah buyurdu: "(Ey peyğəmbər,) de ki, onu öncə yaradan kəs ölümdən sonra da diriildər. O, hər şeyi bilir."

İmam Sadiqdən (ə) "bir şey olmadığı halda" ifadəsi haqqında soruşulduqda həzrət buyurur: "Yəni təqdir (yazı) və təkvin (yaranış) mərhələsində heç nə idi."

---

[1] "Tövhidi-Səduq", s. 263.

İmam rəvayətçinin növbəti sualı ilə bağlı buyurur: “Yəni təqdir olmuşdu, amma adı çəkilmirdi.”[1] Demək, bu iki ayədə insanın yaranışdan öncəki iki mərhələsi haqqında danışılır.

Digər bir hədisdə İmam Baqir (ə) “Bundan öncə” təbiri ilə bağlı buyurur: “Nə kitabda, nə elmdə onun haqqında bir söz yox idi.”[2]

**Bildirişlər**

1. Məada inamsızlıq günaha don geyindirmək və ibadətdən qaçmaq üçün bir yoldur.
2. Ölümdən sonrakı həyata inamsız yanaşmaq və insanların yenidən diriləcəyinə şəkk bir dövr və ya bir qrupa aid hadisə deyil.
3. Məad cismanidir. Yəni insanın cismi torpaqdan xaric olunar.
4. Məad məcburidir. Yəni bu iş insanın istəyindən asılı deyil.
5. İlkin yaranış məlum olduğu halda məada şübhəli baxış təəccüb doğurur.
6. Məadın–ölümdən sonrakı həyatın qəbul olunması üçün bir nöqtəyə diqqət bəs edər: İnsan öncə yox idi, sonradan xəlq olundu.
7. Məadı inkar edənlərin heç bir dəlili yoxdur. Onlar sadəcə qiyaməti mümkünsüz sayırlar. Quran isə bu mövzu ilə bağlı dəlillərə istinad edir.
8. İnsanın heçdən yaradılması onun ölümdən sonra çürümüş sümüklərdən yaradılmasından daha çətin görünür.

## ● AYƏ 68:

﴿فَوَرَبِّكَ لَنَحْشُرَنَّهُمْ وَالشَّيَاطِينَ ثُمَّ لَنُحْضِرَنَّهُمْ حَوْلَ جَهَنَّمَ جِثِيًّا﴾

**“And olsun Rəbbinə, Biz onların hamısını şeytanlarla birlikdə (qiyamətdə) səhnəyə gətirəcəyik. Sonra onları diz çökmüş halda cəhənnəm ətrafına düzəcəyik.”**

**Nöqtələr**

“Cisiyya” sözü ya “casi” sözündən olub, mühakimə üçün diz çökmüş şəxs və ya “cəsvə” sözündən olub dar, sıxılmış torpaq mənasını bildirir. Bu, ən pis oturuş növüdür.

Allah-təala Quranın bir çox yerlərində Öz məxluqlarına, qiyamətlə bağlı isə Öz müqəddəs zatına and içmişdir.[3]

**Bildirişlər**

1. Qiyamətlə bağlı xəbərdarlıqlara ciddi yanaşaq. Qiyamət mühakiməsi labüd bir hadisədir.

---

[1] “Kəf”, c. 1, s. 147.
[2] “Bihar”, c. 5, s. 84.
[3] “Təfsire-ətyəbul-bəyan”.

2. Allah məadı qəbul etməyən kafirlər qarşısında Öz peyğəmbərinə təsəlli verir.

3. Küfrə uğramaqda şeytan insana çiyin yoldaşıdır. (İnsanların şeytanlarla birlikdə qiyamət səhnəsinə gətirilməsi onların eyni cür düşünüb, həmkarlıq etmələridir.)

4. Cəhənnəm kənarında dayanış cəhənnəm cəzasından fərqli bir işgəncədir.

5. Qiyamətdə azğınlar çox ağır vəziyyətdə olar. Cəhənnəm ətrafında şeytanlarla birlikdə diz çökmüş, zəlil vəziyyətdə dayanmaq ağır işgəncədir.

**● Ayə 69:**

﴿ثُمَّ لَنَنزِعَنَّ مِن كُلِّ شِيعَةٍ أَيُّهُمْ أَشَدُّ عَلَى الرَّحْمَنِ عِتِيًّا﴾

**"Sonra hər dəstədən Rəhmana qarşı daha çox asi olanı ayıracağıq."**

**● Ayə 70:**

﴿ثُمَّ لَنَحْنُ أَعْلَمُ بِالَّذِينَ هُمْ أَوْلَى بِهَا صِلِيًّا﴾

**"Həmin vaxt onlardan cəhənnəmdə yanmağa kimin daha çox layiq olduğunu bilərik."**

**Nöqtələr**

"Şiə" sözü həm bir şəxsə ardıcıllar, həm də eyni bir əqidə ətrafında toplananlar mənasını bildirir. "İtiyya" sözü asilik, azğınlıq mənasını ifadə edir. "Siliyya" dedikdə isə od qalamaq, odda yandırmaq və oda salmaq mənaları nəzərdə tutulur.

**Bildirişlər**

1. Günahkarlar qiyamətdə seçilib dəstələrə ayrılar. (Rəhman Allah qarşısında daha çox tüğyan qoparanlar daha şiddətli əzab görərlər.)

2. Günahkarlar (xilafkarlar) üç zümrədir: şəxsən günah edənlər, başqalarının günah işinə vasitə olanlar, ətrafdakıların günahı ilə razılaşanlar. Aydın məsələdir ki, hər üç zümrənin günah və cəzası fərqlidir.

3. Bütün rəhmətlər Allahdan qaynaqlansa da, insan Allah qarşısında tüğyan qoparır.

4. Cəhənnəm əzabı hesablı və dəqiq nizama malikdir. Bu dəqiqlik və seçimə Allahın elmi zamindir.

5. Cəhənnəmin müxtəlif təbəqələri var. Günahın böyük-kiçikliyindən asılı olaraq, cəzalar fərqlənir və Allah hər bir cəza mərtəbəsindən xəbərdardır.

**● Ayə 71:**

﴿وَإِن مِّنكُمْ إِلَّا وَارِدُهَا كَانَ عَلَى رَبِّكَ حَتْمًا مَّقْضِيًّا﴾

**“Sizlərdən cəhənnəmə daxil olmayan kəs yoxdur. Bu, Rəbbin tərəfindən olan qəti bir hökmdür.”**

**Nöqtələr**

“Təfsire-Təbəri”də yazılır: Bir gün Abdullah ibn Rəvahə xəstə halda ağlayırdı. Zövcəsi də ona qoşulmuşdu. Abdullah soruşdu: “Sən nə üçün ağlayırsan?” Zövcəsi dedi: “Sən ağladığın üçün.” Abdullah dedi: “Məni ağladan Allah-təalanın” hamınız cəhənnəmə daxil olarsınız” buyruğudur. Mən bilmirəm ki, oraya düşdükdən sonra xilas olacağam, yoxsa yox?”

Bu ayə Sirata aid ayə və rəvayətlərlə yanaşı mənalandırılmalıdır. Sirat cəhənnəm üzərindən salınmış körpüdür. Kimi asta, kimi iti - bütün insanlar bu körpüdən keçəsidirlər. Həmin vaxt bəziləri cəhənnəmə düşəsidir.

Həzrət Peyğəmbər (s) buyurur: “Qiyamət günü bütün insanlar cəhənnəmə daxil olar. Amma cəhənnəmin odu möminlərə zərər toxundurmaz. Necə ki, od həzrət İbrahimə təsirsiz idi.” Hamının cəhənnəmə daxil olacağını bildirən ayə ilə möminlərin cəhənnəmdən uzaq olduğunu bildirən ayələr arasında ziddiyyət yoxdur.[1] Çünki cəhənnəmə daxil olan möminlərə Allahın lütfü sayəsində od zərər vurmaz.

Düşünmək olar ki, giriş dedikdə cəhənnəmə daxil olmaq yox, ötüb keçmək nəzərdə tutulmuşdur. Həzrət Musa haqqında deyilir: “Mədyən suyunun kənarına varid oldu.” Amma Musa suya daxil olmadı. (İmam Sadiq (ə) buyurur: “Əgər bir şəxs filan tayfanın suyuna varid oldu” deyirsə, suya daxil olmaq yox, suya çatmaq nəzərdə tutulur.[2]

Ayədə “sizlərdən” deyərkən, ötən ayədə haqqında danışılan şeytanın tərəfdarları nəzərdə tutulur. Nicat tapan müttəqilər küfr və şirkdən nicat tapanlardır. Yəni şeytanın bütün havadarları cəhənnəmə daxil olsa da, kafirlər və müşriklər orada qalar, şirk və küfrə batmamış günahkarlar isə nəhayət cəhənnəmdən qurtularlar.

**Bildirişlər**

1. Qiyamət və onun mərhələləri hesablanmış və dəqiqdir.
2. Allahın qəti və labüd sünnələri və proqramları var.

**● Ayə 72:**

﴿ثُمَّ نُنَجِّي الَّذِينَ اتَّقَوا وَّنَذَرُ الظَّالِمِينَ فِيهَا جِثِيًّا﴾

**“Sonra təqva əhlini (cəhənnəmdən) xilas edərik və zalımları diz çökmüş halda orada boşlayarıq.”**

---

[1] “Ənbiya”, 101; “Nəhl”, 89; “Ənbiya”, 102.
[2] “Təfsire-nurus-səqəleyn”.

**Nöqtələr**

Nəql olunur ki, Peyğəmbər (s) buyurmuşdur: “Bütün insanlar oda daxil olar, sonra əməllərinə uyğun oradan xaric edilər. Bəziləri şimşək, bəziləri külək, bəziləri at kimi, bəziləri qaçaraq, bəziləri isə adi yerişlə oddan xaric olar.”[1]

**Bildirişlər**

1. Cəhənnəm təqva əhli üçün keçid, zalımlar üçün məskəndir.
2. Cəhənnəmdən yeganə qurtuluş yolu təqvadır.
3. Təqvasız insan zalımdır.
4. Zalımlar təhqirə layiqdirlər.

**● AYƏ 73:**

﴿وَإِذَا تُتْلَى عَلَيْهِمْ آيَاتُنَا بَيِّنَاتٍ قَالَ الَّذِينَ كَفَرُوا لِلَّذِينَ آمَنُوا أَيُّ الْفَرِيقَيْنِ خَيْرٌ مَّقَامًا وَأَحْسَنُ نَدِيًّا﴾

**“Nə vaxt aydın ayələrimiz onlara oxunsa, küfrə uğrayanlar iman gətirənlərə deyərlər: “Bizlərdən hansımızın yeri daha üstün, məclisi daha gözəldir?”**

**Nöqtələr**

“Nədiyy” dedikdə hər hansı məclis və ya müşavirə məclisi nəzərdə tutulur. “Darun-nədvə” ifadəsi şura məclisi mənasını bildirir. “Ənkəbut” surəsinin 29-cu ayəsində “Siz öz məclisinizdə günah edirsiniz”, “Ələq” surəsinin 17-ci ayəsində “Öz müşavirlərini çağırdı” cümlələri bəyan olunur.

Kafirlər möminləri məsxərəyə qoyaraq və ya sual formasında deyirdilər: “Nəzir ibn Haris və Vəlid ibn Müğeyrə kimi sərvətlilər üstündür, yoxsa Bilal və Əmmar kimi yoxsullar?” Onlar bu sayaq təkəbbür göstərib özlərini müsəlmanlardan ayırır və iman gətirmirdilər.

Bəli, bəziləri çalışırlar ki, öz mənəvi nöqsanlarını maddi görüntülərlə ört-basdır etsinlər. Bəzi rəvayətlərdə deyilir: Kafir əyanlar gözəl və dəbdəbəli libaslar geyinir, Peyğəmbər (s) və onun tərəfdarlarının qarşısından ötərək onlara alçaldıcı nəzərlərlə baxırdılar.[2]

***Xərabəti süzmə həqarətlə sən,***
***Sınıq kuzə gördün qaldır yerindən.***

**Bildirişlər**

1. Möminlər düşmənlərin təbliğat və şübhələrinə cavab üçün hazır olmalıdırlar.

---

[1] “Təfsire-nurus-səqəleyn”.
[2] “Təfsire-kəbire-Fəxr Razi”.

2. Düzgün əqidə və məntiqlə dünyəvi rifah arasında əlaqə yoxdur. Din düşmənləri deyirdilər: “Əgər bizim yolumuz batildirsə, nə üçün maddi durumumuz sizdən üstündür?”

3. Pul və var-dövlət haqlılıq və şəxsiyyət nişanəsi deyil.

4. Fəxr (öyünmək) və lovğalıq küfr üçün zəmin yaradır.

**● AYƏ 74:**

﴿وَكَمْ أَهْلَكْنَا قَبْلَهُم مِّن قَرْنٍ هُمْ أَحْسَنُ أَثَاثًا وَرِئْيًا﴾

**“Biz onlardan öncə onlardan daha varlı və daha gözəl görünən bir çox nəsilləri məhv etdik.”**

**Nöqtələr**

“Əsas” sözü dünyəvi imkanlar və rifah mənasını bildirir. Xoş görünüşlü, baxmalı mənzərələrə “riya” deyilir. “Qərn” dedikdə eyni bir dövrdə yaşamış insanlar nəzərdə tutulur.

**Bildirişlər**

1. Zalım güclərin və kafirlərin süqut tarixi insan üçün elm və ibrət mənbələrindəndir. (Tarix ardıcıl düzümlü bir məcmuədir və qədim tarixdən gələcək üçün ibrət götürmək olar.)

2. Məhv edilmiş kafirlər və zalım güclər az olmamışdır.

3. Tarixi hadisələr Allah tərəfindən müəyyənləşdirilmiş qanunlar əsasında baş verir.

4. Maddi imkanlar və rifah nə xoşbəxtlik göstəricisidir, nə də Allahın qəzəbinin qarşısını ala bilir.

5. Rifah və maddi imkanlar qürur, qəflət, tüğyan və nəhayətdə həlak olma amilidir.

**● AYƏ 75:**

﴿قُلْ مَن كَانَ فِي الضَّلَالَةِ فَلْيَمْدُدْ لَهُ الرَّحْمَنُ مَدًّا حَتَّى إِذَا رَأَوْا مَا يُوعَدُونَ إِمَّا الْعَذَابَ وَإِمَّا السَّاعَةَ فَسَيَعْلَمُونَ مَنْ هُوَ شَرٌّ مَّكَانًا وَأَضْعَفُ جُندًا﴾

**“De ki, Rəhman Allah yolunu azan kəsə (Öz sünnəsi əsasında) vəd olunmuş, (dünyada) əzab və ya qiyaməti eşidib-görənədək möhlət verib yardım göstərir. (Həmin gün) kimin yerinin daha pis və kimin qoşununun daha aciz olduğunu biləcəklər.”**

**Nöqtələr**

“Mədd” və “imdad” sözləri eyni bir mənanı bildirir. Amma Rağibin nəzərincə, adətən, imdad sözü bəyənilmiş və sevilən iş haqqında, “mədd” sözü isə bəyənilməmiş və ikrah doğuran iş haqqında işlədilir.

Allah-təala şərr yol seçənlərə möhlət verir. Möhlət verilməsində məqsəd budur ki, həmin şəxslər tövbə edə bilsinlər və ya onların nəslindən saleh övladlar ərsəyə gəlsinlər. Əlbəttə ki, bəzi azğınlar bu ilahi möhlətdən sui-istifadə edib daha çox günaha batır və öz əzablarını artırırlar.[1]

***Haqqın lütfü sənə edəsi yardım,***
***Batarsan kənara atsan bir addım.***

İmam Sadiq (ə) "iza rəəv ma yuədun" cümləsi haqqında buyurur: "Burada həzrət Mehdinin (ə) zühuru vəd olunur. "Şərrun məkanən", yəni Mehdinin (ə) qiyam günü məlum olacaq ki, kimin mövqeyi xoşagəlməz və zəifdir.[2]

**Bildirişlər**

1. Allahın sünnəsində bütün insanların hərəkət və inkişafı üçün zəmin hazırlanması nəzərdə tutulur. Bununla belə, azğınlıq yolunu tutan insana bir müddət möhlət verilir. Həmin şəxs doğru yolu seçdikdə Allah ona yardımını artırır.
2. İnsana verilən möhlət və göstərilən yardım ilahi rəhmətdən qaynaqlanır.
3. Kafirlər dəfələrlə əzabla hədələnsələr də, nəticə çıxarmırdılar.
4. Yolunu azanların bəzisini Allah həm dünya, həm də axirətdə, bəzisini isə yalnız axirətdə cəzalandırır.
5. Ölüm anında məqam və mövqe, yaxınlar və çoxluq kara gəlmir.
6. Qiyamət həqiqətlərin zühuru, kəşf və şəhadət günüdür.

**• AYƏ 76:**

﴿وَيَزِيدُ اللَّهُ الَّذِينَ اهْتَدَوْا هُدًى وَالْبَاقِيَاتُ الصَّالِحَاتُ خَيْرٌ عِندَ رَبِّكَ ثَوَابًا وَخَيْرٌ مَّرَدًّا﴾

**"Allah hidayət olanların (doğru yolu tutanların) hidayətini artırar. Rəbbinin yanında davamlı yaxşılıqların savabı daha üstün və xoş aqibətdir."**

**Nöqtələr**

"Mərədd" dedikdə aqibət və mənfəət mənaları anlaşılır. "Səvab" sözü əməlin əvəzi mənasını bildirir. Bu əvəz xeyir və şər ola bilər. Amma adətən xeyir mənasında işlədilir.[3]

---

[1] "Təfsire-ətyəbul-bəyan".
[2] "Kafi", c. 1, s. 431.
[3] "Təfsire-Əl-mizan".

Ötən ayədə oxuduq ki, azğınlar daha çox azğınlığa uğrayar. Bu ayədə isə doğru yol tutanların daha çox hidayət və nuraniyyətə çatması bildirilir.

Bəzi rəvayətlərdə bildirilir: "Davamlı yaxşılıqlar" dedikdə "sübhanəllahi vəlhəmdulillahi vəla ilahə illəllahu vəllahu əkbər" zikri nəzərdə tutulur.[1]

**Bildirişlər**

1. Hidayətin mərhələ və dərəcələri var.
2. Saleh əməllər Allah yanında qorunur.
3. Yaxşı işlər üçün tovfiq (yardım) ilahi hidayət sayəsində əldə olunur.
4. Allahın Öz Peyğəmbərinə (s) xüsusi diqqəti var.
5. Mükafat və cəza ilahi rübubiyyət şənindəndir.
6. Yaxşı iş xoş aqibət rəmzidir.

**● AYƏ 77:**

﴿أَفَرَأَيْتَ الَّذِي كَفَرَ بِآيَاتِنَا وَقَالَ لَأُوتَيَنَّ مَالًا وَوَلَدًا﴾

**"Ayələrimizi inkar edib, «hökmən mənə mal və övlad veriləcək» deyən kəsi gördünmü?!"**

**● AYƏ 78:**

﴿أَطَّلَعَ الْغَيْبَ أَمِ اتَّخَذَ عِندَ الرَّحْمَنِ عَهْدًا﴾

**"(Yoxsa düşünür ki,) qeybdən agahdır və ya Rəhmandan bir əhd almışdır?"**

**● AYƏ 79:**

﴿كَلَّا سَنَكْتُبُ مَا يَقُولُ وَنَمُدُّ لَهُ مِنَ الْعَذَابِ مَدًّا﴾

**"Əsla belə deyil, tezliklə hər nə desə yazarıq və ona həmişəlik əzab verərik."**

**● AYƏ 80:**

﴿وَنَرِثُهُ مَا يَقُولُ وَيَأْتِينَا فَرْدًا﴾

**"(Mal və övladdan) nə qədər dəm vursa da, Biz varis olacağıq və o, yanımıza tək-tənha gələcək."**

**Nöqtələr**

İmam Baqir (ə) "Ayələrimizi inkar edən" cümləsi ilə bağlı buyurur: "As ibn Vaqil Xəbbaba borclu idi. Xəbbab borcunu almaq üçün onun yanına gəldiyi

---

[1] "Təfsire-nurus-səqəleyn".

vaxt As dedi: “Behiştdə qızıl, gümüş, ipək olduğuna inanmırsınızmı?” Xəbbab dedi: “Bəli.” As dedi: “Elə isə, vədimiz qaldı behiştə. And içirəm ki, behiştdə sizin verdiyinizdən də üstününü alacaqsınız.[1]

**Bildirişlər**

1. Allahdan üz çevirib var-dövlətə və övlada sığınmaq təəccüb doğurur.
2. Kafir inkişaf üçün dini maneə, küfrü kömək sayır.
3. Kafirlər arasında var-dövlət və övlad dəyər ölçüsüdür. (Kafir məntiq və xəbərdarlıq qarşısında əlində olanlarla başını qatır.)
4. Yanlış düşüncəli varlıların iç üzünü açın ki, cəmiyyətə nümunə olmasınlar.
5. Allah kimsə ilə müqavilə imzalamamışdır.
6. Allah Öz əhdini pozmasa da, kafirlərin Allahla heç bir əhdi yoxdur.
7. Batil düşüncələri qətiyyətlə aradan qaldırın.
8. İnsanın rəftar və danışığı ilahi divanda qeydə alınır.
9. Hər bir danışıq və əməl üçün müəyyən möhlət var. İnsan peşman olub tövbə edə bilər. Bu müddət başa çatdıqdan sonra isə hər şey qeydə alınır. (Rəvayətlərdə bildirilir ki, insandan pis bir iş baş verdikdə mələklər bir müddət qeydə almır. Həmin şəxs peşman olmadıqda möhlət başa çatır və hər şey qeydə götürülür.)
10. Deyilən söz elmi əsasa malik olmalıdır. Çünki insan ağzından çıxan sözlərin məsuliyyətini daşıyır.
11. İnsan qiyamət günü onu küfr və təkəbbürə sövq edən var-dövlət və övladları boşlayır, Allah hüzurunda tək-tənha dayanır.

**● Ayə 81:**

﴿وَاتَّخَذُوا مِن دُونِ اللَّهِ آلِهَةً لِّيَكُونُوا لَهُمْ عِزًّا﴾

**“Bir Allah əvəzinə (yalançı) tanrılar seçdilər ki, bu yolla izzətə çatsınlar.”**

**● Ayə 82:**

﴿كَلَّا سَيَكْفُرُونَ بِعِبَادَتِهِمْ وَيَكُونُونَ عَلَيْهِمْ ضِدًّا﴾

**“Heç vaxt (bu arzuya çatmazlar), tezliklə, məbudlar onların pərəstişini inkar edəcək və onlara müxalif çıxacaqlar.”**

**Nöqtələr**

Əllamə Təbatəbai bildirir ki, “kəlla səyəkfurun” cümləsi iki cür təfsir olunur:

a) Müşriklər öz ibadətlərini inkar edib bütlərə müxalif olacaqlar;

---

[1] “Təfsire-Qummi”, c. 2, s. 53.

b) Zalım güclər və bütlər müşriklərə şəfaət və izzət vermək əvəzinə, onlara qarşı qiyam qaldıracaqlar. Quranda bu mənanı təsdiqləyən başqa ayələr də var.[1]

"Əziz" dedikdə bütün zərər və şərdən amanda olan qalib və nüfuzolunmaz nəzərdə tutulur.

İmam Sadiq (ə) buyurur: "Alihə" dedikdə xalqın itaət edib izzət gözlədiyi rəislər nəzərdə tutulur.[2] Zalım güc və şeytan kimi məbudların öz ardıcılları ilə müxalifliyi aydın məsələdir. Ola bilsin ki, daş, ağac və digər cansız bütlər qiyamət günü Allahın irdəsi ilə dilə gəlib onlara pərəstiş edən müşriklərə qarşı çıxsınlar.[3]

İmam Sadiq (ə) ayə ilə bağlı buyurur: "Ayədə ibadət deyərkən səcdə və rüku nəzərdə tutulmamışdır. Bu ibadət tabeçilik mənasındadır. Bir məxluqa itaət etməklə günaha batan insanın itaəti bir növ pərəstişdir.[4]

**Bildirişlər**

1. İnsan fitrətində izzət istəyi var. Amma o, hədəfi düz seçmir, həqiqi izzət mənbəyinə üz tutmur.
2. Qiyamət yaxındır, buna inanaq.
3. Allah əvəzində yanlış olaraq insanın üz tutduğu şeylər onun ziddinə qiyam qaldıracaq.

**● AYƏ 83:**

﴿أَلَمْ تَرَ أَنَّا أَرْسَلْنَا الشَّيَاطِينَ عَلَى الْكَافِرِينَ تَؤُزُّهُمْ أَزًّا﴾

**"Təhrik etsinlər deyə şeytanları kafirlərə doğru göndərdiyimizi görmədinmi?!"**

**● AYƏ 84:**

﴿فَلَا تَعْجَلْ عَلَيْهِمْ إِنَّمَا نَعُدُّ لَهُمْ عَدًّا﴾

**"Onlar üçün (əzaba düşsünlər deyə) tələsmə. Biz onlar üçün hesab aparırıq."**

**Nöqtələr**

"Əzz" sözündən şiddətli təhrik etmə və yerindən qoparma mənaları başa düşülür. "Əzzul-Qidr", yəni qazan elə qaynadı ki, onun içindəkilər alt-üst oldu.

---

[1] "Fatir", 14.
[2] "Təfsire-Safi".
[3] "Təfsire-nümunə".
[4] "Təfsire-nurus-səqəleyn".

Şeytanın iman əhli ilə rabitəsi sadədir. Huşyarlıq və tövbə ilə nəticələnir.[1] Amma şeytanın kafirlərlə rabitəsi hakim-məhkum rabitəsidir. Əlbəttə, bu ağalıq üçün kafir özü zəmin hazırlamışdır.[2]

Şeytanların Allah tərəfindən göndərilməsi dedikdə, onların başlı-başına buraxılmaları nəzərdə tutula bilər. Məsələn, itinə mane olmayan adam haqqında "itini buraxdı" deyirlər.

"Təfsire-Qummi" də deyilir: "Şeytanları göndərdi" ayəsi xüms-zəkat ödəməyənlər haqqındadır. Allah belələrinin üzərinə zalım hakim və ya şeytan göndərir ki, xüms-zəkat olaraq ödəmədiklərini qeyri-ilahi yolla xərcləsinlər.

İmam Sadiq (ə) buyurur: "İnsan ömrünün günlərini onun ata-anası da hesablaya bilər. Demək, "onların hesabını apararıq" cümləsi "onların çəkdikləri nəfəsi də hesablayarıq" mənasında anlaşılmalıdır.[3]

**Bildirişlər**

1. Allah küfr yolunu seçib şeytanın hakimiyyətini qəbul edənləri fəsada təşviq etmək üçün şeytanları onların sorağınca göndərir. (Kafirlərin cəzalarından biri şeytanın onlara hakimiyyətidir.)
2. Şeytan insanı həvəsləndirsə də, onu məcbur edə bilmir.
3. Şeytanın təhriki çox güclüdür.
4. Heç bir şey, hətta şeytanın vəsvəsələri Allahın iradəsindən xaric deyil.
5. Küfr şeytan təhriklərinin qəbulu səbəbidir.
6. Peyğəmbərlərin hadisələrdən xəbərdarlığı məhduddur.
7. Müxaliflərin küfr və düşmənçilikdəki inadkarlıqları geniş qəlbə malik Peyğəmbəri (s) əzab istəməyə vadar etdi.
8. İnsanlara möhlət vermək ilahi sünnə, qanundur. İlahi proqramlar nizamlı və tədricidir. Buna görə də kafirlərin məhvinə tələsməyək.
9. Öz əmr və qadağalarınızı, göstərişlərinizi əsaslı şəkildə bəyan edin.

### ● AYƏ 85:

﴿يَوْمَ نَحْشُرُ الْمُتَّقِينَ إِلَى الرَّحْمَنِ وَفْدًا﴾

**"Həmin gün Biz pəhrizkarları toplum halda Rəhmana doğru cəm edərik."**

### ● AYƏ 86:

﴿وَنَسُوقُ الْمُجْرِمِينَ إِلَى جَهَنَّمَ وِرْدًا﴾

**"Günahkarları təşnə halda cəhənnəmə qovarıq."**

---

[1] "Taha", 120.
[2] "Nəhl", 100.
[3] "Təfsire-Safi".

**Nöqtələr**

Ziyarət və ya dua üçün süvari halda yenicə varid olmuş dəstə “vəfd” adlandırılır. “Vird” sözü isə susuzluq, təşnəlik mənasını bildirir.

**Bildirişlər**

1. Qiyamət səhnələri xatırlanası səhnələrdir. Qiyamət təqvalılar və günahkarlar arasında fərqlərin zahir olduğu gündür.

2. Behişt və cəhənnəm əhlinin hərəkət forması çox mühümdür.

3. Pəhrizkarlar Allahın qonağıdırsa, günahkarlar zillət içində hərəkət edir. Birinci zümrə xüsusi dəbdəbə və mələklərin istiqbalı ilə behiştə daxil olur.[1]

4. İlahi rəhmət behiştdən daha mühümdür. Behişt yalnız onun bir cilvəsidir.

5. Behiştin açarı ilahi təqvadır.

**● Ayə 87:**

﴿لَا يَمْلِكُونَ الشَّفَاعَةَ إِلَّا مَنِ اتَّخَذَ عِندَ الرَّحْمَنِ عَهْدًا﴾

**“Rəhmanla əhd bağlayanlardan başqa kimsə şəfaət sahibi deyil.”**

**Nöqtələr**

Quran şəfaət üçün müəyyən şərtlər irəli sürür. Hər şəxs istədiyi bir şeyi şəfaətçi seçə bilməz. Qiyamət günü kafirlər hansı qapını döyər, kimdən sığınacaq istəyərlərsə, mənfi cavab alarlar.

Ola bilsin ki, “əhd” dedikdə Allaha bəndəlik əhdi və şeytandan uzaqlıq nəzərdə tutulmuşdur. Quran buyurur: “Ey insanlar! Sizdən əhd almadıqmı ki, şeytana itaət etməyəsiniz?! O sizə aşkar bir düşməndir. Yalnız Mənə pərəstiş edin, doğru yol budur.”[2] Digər bir ayədə oxuyuruq: “Həmin gün Allahın icazə verib sözündən razı qaldığı kəsdən savay kimsənin şəfaətində fayda yoxdur.[3]

“Əhd” sözü rəvayətlərdə bir neçə cür təfsir olunmuşdur:

a) Əmirəlmöminin Əli ibn Əbu-Talib (ə) və ondan sonrakı imamların vilayəti ilə bağlı öhdəçilik.[4]

b) Ölüm zamanı vəsiyyət; insan xalqı ətrafına toplayıb deyir: «Mən “la ilahə illəllah, Muhəmmədən rəsulullah” sözlərinə, behişt və cəhənnəmin gerçəkliyinə şəhadət verirəm.»[5]

v) Gündəlik namazların yerinə yetirilməsi ilə bağlı öhdəçilik.[6]

---

[1] “Kafi”, c. 8, s. 95.
[2] “Yasin”, 60, 61.
[3] “Taha”, 109.
[4] “Təfsire-Əl-mizan”.
[5] “Təfsire-Məcməül-bəyan”.
[6] “Təfsire-Əl-mizan”.

**Bildirişlər**

1. Şəfaətin öz qanunauyğunluqları var və Allahın nəzarəti altındadır.
2. Allahın istəyi olmasa kimsədə şəfaət gücü və haqqı yoxdur.
3. Şəfaət geniş ilahi rəhmətin bir cilvəsidir.
4. Xalis və Allahla əhdi olan fərdlərin şəfaət haqqı var.

**● AYƏ 88:**

﴾وَقَالُوا اتَّخَذَ الرَّحْمَنُ وَلَدًا﴿

**"(Kafirlər) dedilər: «Rəhman (Allah) övlad götürmüşdür.»"**

**● AYƏ 89:**

﴾لَقَدْ جِئْتُمْ شَيْئًا إِدًّا﴿

**"Doğrusu, çirkin söz dediniz."**

**Nöqtələr**

"İdd" sözü böyük və çox çirkin günah mənasını bildirir.

Bu ayə bir çox zümrələrə aid edilə bilər:

a) Mələkləri Allahın qızları sayan müşriklər.[1]

b) Üzeyri Allahın oğlu sayan yəhudilər.[2]

v) İsanı Allahın oğlu sayan məsihilər.[3]

**Bildirişlər**

1. Allahın övlad götürməsinə inam əsassız və çox çirkin işdir.
2. Allahın övladı olması Onun üçün kamillik yox, əskiklik səbəbidir.

**● AYƏ 90:**

﴾تَكَادُ السَّمَاوَاتُ يَتَفَطَّرْنَ مِنْهُ وَتَنشَقُّ الْأَرْضُ وَتَخِرُّ الْجِبَالُ هَدًّا﴿

**"Bu sözdən az qalır səmalar parçalansın, yer yarılsın və dağlar şiddətlə yerə uçulsun."**

**● AYƏ 91-92:**

﴾أَن دَعَوْا لِلرَّحْمَنِ وَلَدًا وَمَا يَنبَغِي لِلرَّحْمَنِ أَن يَتَّخِذَ وَلَدًا﴿

**"Çünki Rəhman Allaha övlad aid etdilər. Halbuki övlad götürməsi Rəhmana layiq olmayan işdir."**

---

[1] "İsra", 40.
[2] "Tövbə", 30.
[3] "Tövbə", 30.

**• AYƏ 93:**

﴿إِن كُلُّ مَن فِي السَّمَاوَاتِ وَالْأَرْضِ إِلَّا آتِي الرَّحْمَنِ عَبْدًا﴾

**“Göylərdə və yerdə elə bir mövcud yoxdur ki, Rəhman Allahın hüzuruna qul olaraq gəlməsin.”**

**Nöqtələr**

“Hədd” sözü süqut mənasını bildirir.

Həqiqətlər qarşısında təbiətin reaksiyası Quranda dəfələrlə bəyan olunmuş bir məsələdir: Bir ayədə buyurulur: “Bəzi daşlar Allah xofundan dağlardan uçulub tökülür.”[1] Digər bir yerdə buyurulur: “Əgər Quran dağlara nazil olsaydı, mütləq Allah qorxusundan tikə-tikə parçalanardı”[2]

**Bildirişlər**

1. Günah varlıq aləmindəki nizamın pozulmasına səbəb ola bilər.
2. Allah varlıq aləmini insan üçün yaratmışdır. Bəşəriyyət yolunu azdığı vaxt varlıq aləminin süqutu yersiz olmur.
3. Varlıq aləmində ən böyük fəsad puç əqidədir.
4. Allah o zaman övlad götürərdi ki, nəsil davamına ehtiyac duyar, tənhalıqdan əziyyət çəkərdi. Halbuki Allah bütün bu sifətlərdən pak-pakizədir.
5. Bütün varlıq aləmi Allahın hökmü altındadır və Ona doğru qayıdır.
6. Varlıq aləmi və ondakı mövcudlar bütünlüklə Allahın hökmü altındadır və Onun bəndəsidir. Nə üçün Allahın bəndəsini Ona övlad sayırsınız?!

**• AYƏ 94:**

﴿لَقَدْ أَحْصَاهُمْ وَعَدَّهُمْ عَدًّا﴾

**“Şübhəsiz, Allah onların hamısını hesaba çəkmiş, diqqətlə saymışdır.”**

**• AYƏ 95:**

﴿وَكُلُّهُمْ آتِيهِ يَوْمَ الْقِيَامَةِ فَرْدًا﴾

**“Qiyamət günü hamı Onun hüzuruna gələcək.”**

**Bildirişlər**

1. Varlıq aləmində nə varsa, hər birinin dəqiq hesabı Allahın əlindədir. Allah təkcə külliyyat yox, həm də cüziyyatı əhatə edir.

*Düşünmə bir zərrə qaça hesabdan,*

---

[1] “Bəqərə”, 74.
[2] “Həşr”, 21.

*Hesab var, kitab var qurulu divan.*

2. Varlıq aləmindəki mövcudlar məhduddur.
3. Qiyamət hamıya aiddir.
4. Qiyamət mühakiməsi hamıya aid olsa da, hər kəs öz hayındadır. Sanki insan tək-tənhadır.[1]
5. Qiyamət günü bütün qohumluq əlaqələri, iqtisadi və ictimai rabitələr, partiya bağlılıqları qırılar.
6. Qiyamətdə var-dövlətin, ailə-övladın, dost-tanışın faydası yoxdur.

**• AYƏ 96:**

﴿إِنَّ الَّذِينَ آمَنُوا وَعَمِلُوا الصَّالِحَاتِ سَيَجْعَلُ لَهُمُ الرَّحْمَنُ وُدًّا﴾

**"Həqiqətən, Rəhman Allah iman gətirib saleh işlər görənlər üçün tezliklə (qəlblərdə) məhəbbət qərar verər."**

**Nöqtələr**

İmanlı və saleh insanlar dünyadan köçərkən hətta günahkar fərdlərin qəmləndiyini çox görmüşük. Onlar özlərindən ixtiyarsız olaraq kədərlənir, göz yaşı axıdır, dünyadan köçən saleh insanın xatirəsini əziz tutur, qəbrini ziyarət edir və başqalarına onunla bağlı xatirələr danışırlar. Bütün bunlar pak və insanpərvər fitrətdən qaynaqlanır.

Bəli, yalnız Allaha könül verən kəsə xalqın qəlbində yer verilir. Allah Onu yada salanları yad edir.[2]

İmam Sadiq (ə) buyurur: "Əmirəlmöminin (ə) vilayəti Allahın möminlərə saleh əməl müqabilində verdiyi mükafatdır.[3] İman əhlinin Həzrət Əliyə (ə) məhəbbəti ilə bağlı həzrət Peyğəmbərdən (s) də oxşar rəvayətlər nəql olunmuşdur.[4]

**Bildirişlər**

1. Əməlsiz iman, imansız əməl yetərsizdir.
2. İman və saleh əməl xalq sevgisinin açarıdır. Az sevildiyimizi gördükdə öz əqidə və əməllərimizi nəzərdən keçirək. Çünki Allahın vədi dəyişməzdir.
3. Sevimlilik də, qəlblər də Allahın əlindədir.
4. Sevimlilik möminlərə və ilahilərə nəsib olmuş ilahi rəhmətdir.
5. Bu gün sizin saleh əməliniz dəyərləndirilməsə də, bilin ki, ardıcıl səbir və təlaşınız gələcəkdə səmərə verəcək.

---

[1] Ənam", 94.
[2] "Bəqərə", 152.
[3] "Kafi", c. 1, s. 431.
[4] "Təfsire-Fərat".

6. Sevimlilik dünyada nəsib olan ilahi lütf və mükafatlardandır. (Möminlər və salehlər axirət mükafatından əlavə dünyada da mükafatlandırılırlar.

**● AYƏ 97:**

﴿فَإِنَّمَا يَسَّرْنَاهُ بِلِسَانِكَ لِتُبَشِّرَ بِهِ الْمُتَّقِينَ وَتُنذِرَ بِهِ قَوْمًا لُّدًّا﴾

“**Həqiqətən, Quranı sənin dilin üçün asan etdik ki, onun vasitəsi ilə pəhrizkarlara müjdə verəsən və inadkar xalqı qorxudasan.**”

**Nöqtələr**

“Ludd” sözü dərin düşmənçilik mənasını bildirir.

**Bildirişlər**

1. Asan bəyan tərbiyə prosesində Quran üslubudur. Əlbəttə ki, asan bəyan dedikdə süst danışıq nəzərdə tutulmur. Söz möhkəm, amma rəvan olmalıdır.[1]

2. Rəvan bəyan ilahi lütflərdəndir.

3. Hər bir zümrə ilə xüsusi tərzdə danışmaq lazımdır. (Təqvalılarla müjdə, düşmənlərlə xəbərdarlıq dilində danışılmalıdır.)

**● AYƏ 98:**

﴿وَكَمْ أَهْلَكْنَا قَبْلَهُم مِّن قَرْنٍ هَلْ تُحِسُّ مِنْهُم مِّنْ أَحَدٍ أَوْ تَسْمَعُ لَهُمْ رِكْزًا﴾

**“Onlardan öncə bir çox nəsilləri həlak etdik. Onlardan kimsəni tapır və ya azca da olsa səslərini eşidirsənmi?!”**

**Nöqtələr**

Bu şərif ayə Peyğəmbər (s) üçün bir təsəllidir. Dolayısı ilə ona müjdə verilir ki, sənin inadkar düşmənlərin tezliklə məhv olacaq. Necə ki, bir çox inadkarlar keçmişdə məhv oldular.

“Rikz” dedikdə ahəstə, məxfi səs mənası anlaşılır.

İmam Sadiq (ə) Cabirin bu ayə ilə bağlı sualına belə cavab verir: “Həlak olmuş qövm Bəni-Üməyyədir. Onlardan bircəsini də ümidli və ya qorxudan kənar görməzsən.” Cabir deyir: “Ərz etdim ki, belə bir şey mümkündürmü?” Həzrət buyurdu: ”Tezliklə baş verəcək.”[2]

**Bildirişlər**

1. İnadkar qövmlərin məhvi Quran xəbərdarlıqlarının ciddiliyindən danışır.

2. Haqq düşmənlərinin məhvi ilahi sünnələrdən biridir.

3. Tarix ibrət güzgüsüdür.

---

[1] “Hud”, 1.

[2] “Bihar”, c. 46, s. 30.

# “TAHA” SURƏSİ

### *(20-CI SURƏ, 135 AYƏ)*

### *On altıncı cüz*

### *“TAHA” SURƏSININ SIMASI*

135 ayədən ibarət olan “Taha” surəsi Məkkə surələrindəndir. Bu surədə də digər Məkkə surələrində olduğu kimi, daha çox yaranış və məad mövzularından danışılır.

“Taha” surəsi həzrət Musanın macərasının ətraflı şəkildə bəyan olunduğu ilkin surədir. Surənin səksənədək ayəsi bu mövzuya həsr olunmuşdur. Surənin digər hissələrində Quranın əzəmətindən və Allahın sifətlərindən, Adəmlə Həvvanın və Şeytanın vəsvəsələrindən söz açılır. Sonda isə düşündürücü nəsihətlər bəyan olunur.

İmam Sadiq (ə) buyurmuşdur: “Taha” surəsini davamlı şəkildə tilavət edən kəs Allahın məhbubu olar, qiyamət günü əməl naməsi onun sağ əlinə verilər.”[1]

---

[1] “Təfsire-nurus-səqəleyn”.

﴿بسم الله الرحمن الرحيم﴾

**BAĞIŞLAYAN VƏ MEHRIBAN ALLAHIN ADI ILƏ**

**● AYƏ 1-2:**

﴿طه مَا أَنزَلْنَا عَلَيْكَ الْقُرْآنَ لِتَشْقَى﴾

**"Ta-Ha; Biz Quranı səni məşəqqətə salmaq üçün nazil etmədik."**

**● AYƏ 3:**

﴿إِلَّا تَذْكِرَةً لِّمَن يَخْشَى﴾

**"Yalnız (Allahdan) qorxan kəs üçün xatırlatma olsun deyə (göndərdik)."**

**● AYƏ 4:**

﴿تَنزِيلًا مِّمَّنْ خَلَقَ الْأَرْضَ وَالسَّمَاوَاتِ الْعُلَى﴾

**"(Bu ayələr) yer və uca göyləri yaratmış kəs tərəfindən nazil olmuşdur."**

**Nöqtələr**

"Ta-ha" müqəttəə hərfləri müxtəlif cür mənalandırılmışdır. O cümlədən, bu hərflərin Allahın və ya peyğəmbərin adı olması bildirilir.[1] Bəzən peyğəmbər Əhli-beyti "ali ta-ha" və ya Həzrət Əli (ə) "ta-ha" adlandırılmışdır.[2] "Nüdbə" duasında imam Mehdi (ə) "yəbnə taha" adı ilə çağırılır. Hər halda bu hərflər artıq və ya mənasız deyil. Quranın nazil olmasından keçən uzun müddət ərzində, eləcə də, dilşünas düşmənlərin çoxluğuna baxmayaraq, indiyədək uyğun mövzuda heç bir irad bildirilməmişdir.[3]

İslam Peyğəmbəri (s) vəzifəsinin icrasında hədsiz eşq, yanğı və məsuliyyət göstərdiyindən tabdan düşürdü. Belə ki, onu ayaqları ağrıyar, mübarək çöhrəsinin rəngi saralardı.[4]

"Tənzil" dedikdə tədrici nazilolma başa düşülür. Yəni Quran 23 il müddətində müxtəlif hadisələr və münasibətlərlə bağlı nazil olmuşdur. Bu sayaq tədrici nazilolmanın Qədr gecəsində birdəfəyə Peyğəmbərin (s) mübarək qəlbinə nazil olması ilə ziddiyyəti yoxdur.

---

[1] "Təfsire-nurus-səqəleyn".
[2] "Bihar", c. 97, s. 375.
[3] "Təfsire-nümunə".
[4] "Təfsire-Safi".

**Bildirişlər**

1. İlahi vəhy əzab-əziyyət yaratmaq üçün nazil olmamışdır.

2. Dini vəzifələrin icrasında üzücü məşəqqətlərə dözmək lazım gəlmir.

3. İnsan fitrətən etiqadlıdır. Amma fitrətinə diqqətsiz olduğundan xatırlatmaya ehtiyac var.

4. Təqva, elm və ilahi xof bir-birinə ehtiyaclıdır.[1]

5. Münasib inkişaf üçün tərbiyəçi və təbliğatçının səviyyəsi bəs etmir. Qarşı tərəfdə qəbul üçün zəmin olmalıdır. Necə ki, yaxşı məhsul götürmək üçün yaxşı toxum, yaxşı torpaq və qulluğa ehtiyac duyulur.

6. Öyüd götürülməsində məsuliyyət hissi müqəddimədir.

7. Peyğəmbərin vəzifəsi xalqı məcbur etmək yox, sadəcə xəbərdarlıqdır.

8. Şəriət və təbiət eyni mənbədəndir və uyğun qanunlara malikdir.

9. Əzəmətli göylərin yaradanı bir söz demişsə, demək, bu söz mühümdür.

**● AYƏ 5:**

﴿الرَّحْمَنُ عَلَى الْعَرْشِ اسْتَوَى﴾

**“Ərşi hökmü altına alan Rəhman Allahdır.”**

**● AYƏ 6:**

﴿لَهُ مَا فِي السَّمَاوَاتِ وَمَا فِي الْأَرْضِ وَمَا بَيْنَهُمَا وَمَا تَحْتَ الثَّرَى﴾

**“Göylərdə, yerdə, onlar arasında və yer altında nə varsa Onundur.**

**● AYƏ 7:**

﴿وَإِن تَجْهَرْ بِالْقَوْلِ فَإِنَّهُ يَعْلَمُ السِّرَّ وَأَخْفَى﴾

**“Sözünü açıq desən (və ya gizlətsən, fərqi yoxdur), həqiqətən, O sirləri və daha gizliləri bilir.”**

**● AYƏ 8:**

﴿اللَّهُ لَا إِلَهَ إِلَّا هُوَ لَهُ الْأَسْمَاء الْحُسْنَى﴾

**“Bir Allahdır ki, Ondan başqa məbud yoxdur. Ən gözəl adlar Ona məxsusdur.”**

---

[1] “Haqqə”, 48; “Fatir”, 28.

**Nöqtələr**

Bu bir neçə ayədə Allahın bariz sifətlərindən dördü bəyan olunmuşdur. Xaliqlik, hakimlik, maliklik, alimlik.

Allahın ərşə hakim olması digər surələrdə başqa ifadələrlə bəyan olunmuşdur. Bütün bunlar Onun varlıq aləmi üzərindəki mütləq hakimiyyətindən danışır. Məsələn, "filankəs taxta çıxdı" dedikdə, onun hakimiyyətə çatması başa düşülür.

Müxtəlif ayələrdə Allahın ərşə hakimliyi qeyd olunduqdan sonra, adətən, deyiləni təfsir edən cümlə gəlir. Məsələn: "O, ərşə hakimdir və gecə ilə gündüzü örtür."[1]; "Onun varlıq üzərində əhatəsi var və işləri idarə edir"[2]; "O, varlığa hakimdir və hər şeyi bilir"[3]; "O, ərşə hakimdir və Ondan başqa hami yoxdur."[4]

"Səra" sözü rütubətli torpaq mənasını bildirir. "Təhtəs-səra" dedikdə ölülər, xəzinələr və torpaq altda olan istənilən bir şey başa düşülür.

"Əsmaul-husna" dedikdə Allahın sifətləri, adları nəzərdə tutulur. Rəvayətlərə əsasən, "əsmaul-husna"ya 99 ad daxildir. Əgər duada Allah bu adlarla çağırılsa, böyük bərəkətlər və təsirlər gözlənilir. Allahın adları təkcə bu 99 addan ibarət deyil. Bir sıra dualarda, o cümlədən, "Cuşən kəbir" duasında Allahın minədək adı zikr olunur. Əlbəttə ki, bu adları vasitə seçmək yalnız onları dilə gətirmək deyil. İnsan özünü həmin adlara, sifətlərə yaxınlaşdırmalıdır.[5]

Rəvayətlərdə məsum imamların dilindən belə nəql olunur: "And olsun Allaha, biz Allahın gözəl adlarıyıq."[6]

İmam Sadiq (ə) buyurur: "Sirr" dedikdə qəlbində gizlədiyin, "əxfa" dedikdə isə zehnindən ötüb keçmiş, amma unutduğun şey nəzərdə tutulur."[7] Yəni "əxfa" təkcə başqalarının yox, həm də özünün xəbərsiz qaldığın həqiqətdir.

Allah hər şeydən agahdır. O, göylərin və yerin qeybini bilir.[8] Allah bətndəkilərdən xəbərdardır.[9] O, baxışlardakı mənalardan xəbərdardır.[10] Allah qəlbdən ötənləri bilir.[11] Ondan xəbərsiz ağacdan bir yarpaq belə düşə bilməz.[1]

---

1 "Əraf", 54.
2 "Yunus", 3.
3 "Hədid", 4.
4 "Səcdə", 4.
5 "Təfsire-nümunə".
6 "Təfsire-nümunə".
7 "Təfsire-Safi".
8 "Bəqərə", 33.
9 "Rəd", 8.
10 "Ğafir", 19.
11 "Əhzab", 51.

**Bildirişlər**

1. Allahın varlıq aləmi üzərindəki hakimiyyəti məcburiyyət yox, mərhəmətə əsaslanır.

2. Quranın nazil olması Allahın varlıq aləminə mərhəmət və iqtidar cilvəsidir.

3. Allah bütün varlıq aləminə eyni qaydada hakimdir.[2]

4. Allah varlıq aləminin həm yaradıcısı, həm mühafizi, həm də hakimidir.

5. Allah bütün görünən və görünməyənlərdən xəbərdardır və onlar üzərində mütləq hökm sahibidir.

6. Çirkin işlərin qarşısının alınmasının bir yolu da Allahın gizlin və aşkardan xəbərdar olduğunu xalqın unutmamasıdır.

7. Yaxşı ad istər sözdə, istər məna baxımından bir dəyərdir. Allah həm özü gözəldir, həm ən gözəl adları daşıyır.

**● AYƏ 9:**

﴿وَهَلْ أَتَاكَ حَدِيثُ مُوسَى﴾

**"Musanın xəbəri sənə çatdımı?!"**

**● AYƏ 10:**

﴿إِذْ رَأَى نَارًا فَقَالَ لِأَهْلِهِ امْكُثُوا إِنِّي آنَسْتُ نَارًا لَّعَلِّي آتِيكُم مِّنْهَا بِقَبَسٍ أَوْ أَجِدُ عَلَى النَّارِ هُدًى﴾

**"Od görən zaman ailəsinə belə dedi: "Bir qədər yubanın, həqiqətən, mən od tapdım. Ola bilsin ki, sizin üçün ondan bir qədər gətirəm və ya od vasitəsilə yolu tapam."**

**Nöqtələr**

"Qəbəs" dedikdə alov kütləsindən ayrılmış bir parça od nəzərdə tutulur.

Surənin bir hissəsində həzrət Musanın əhvalatı ətraflı şəkildə bəyan olunmuşdur:

a) Həzrət Musanın peyğəmbərlik üçün seçilməsi;

b) Həzrət Musanın Fironu haqqa dəvət etməsi;

v) Musanın Misirdən çıxması və Fironun qərq olması;

q) Bəni-İsrailin buzovpərəstliyi.

Həzrət Musa hamilə zövcəsi ilə birlikdə yola çıxdı və biyabanda yolu itirdi. Qaranlıq biyabanda, soyuq və yağışlı havada qızınmaq və yolu tapmaq üçün oda ehtiyac vardı. Həmin vaxt uzaqdan od göründü. Həzrət Musa həmin tərəfə

---

[1] Ənam", 59.

[2] "Təfsire-nurus-səqəleyn".; "Kafi", c. 1, s. 128.

üz tutdu. Qəfildən nida gəldi və Allah-təala həzrət Musanı peyğəmbərliyə seçdi. (Həmin gecə cümə gecəsi idi.)[1]

Bəli, Musa özünü və ailəsini xilas etmək üçün oda doğru getdi. Amma Allah ona başqalarının xilası üçün yol açdı. O, adi bir yol axtarırdı, Allah isə ona mənəviyyat və səadət yolu göstərdi. Fərdi hidayət yolu axtaran Musa ümmətin hidayət yoluna çıxarıldı.

**Bildirişlər**

1. Tarixi həqiqətləri bəyan edərkən əvvəlcə qarşı tərəfdə dinləmək arzusu yaradaq, sonra macəranı nəql edək.
2. Təbliğ və tərbiyə gedişində sual ünvanlamaq münasib bir üsuldur.
3. Tarixin bəyanı həm təcrübə dərsidir, həm də ibrət vasitəsi. Bu tarix peyğəmbər üçün bir təsəllidir. (Quran dilində "hədis" dedikdə yeni bir hadisə yox, tarix mənası anlaşılır.)
4. İnsan bəzən ilahi nuru od şəklində görür.[2]
5. Qadınlar tarix boyu kişilərlə çiyin-çiyinə həyat acılıqlarını dadmışlar.
6. Acı hadisələrdən qorxmayın. Çünki bəzən zahirən acı hadisələrdən Allahın lütfü zahir olur.
7. Kişi ailənin ehtiyaclarını təmin etməyə vəzifəlidir.

**● AYƏ 11:**

﴾فَلَمَّا أَتَاهَا نُودِيَ يَا مُوسَى﴿

**"Elə ki, oda yaxınlaşdı, nida gəldi: "Ey Musa!"**

**● AYƏ 12:**

﴾إِنِّي أَنَا رَبُّكَ فَاخْلَعْ نَعْلَيْكَ إِنَّكَ بِالْوَادِ الْمُقَدَّسِ طُوًى﴿

**"Həqiqətən, Mən sənin Rəbbinəm: Ayaqqabını çıxar, həqiqətən, sən müqəddəs Tuva vadisindəsən."**

**Nöqtələr**

Qurani-kərimdə Musanın adı 20 surədə, 136 dəfə çəkilmişdir. Musanın əhvalatı Quranın ən böyük dastanlarındandır. Quranın 900-dək ayəsi bu mövzuya həsr olunmuşdur.

Allahın gözəl adlarından olan "Rəbb" adı Quranda 970 dəfə işlədilmişdir. Allah ilk dəfə həzrət Musaya təcəlla edərkən özünü bu adla tanıtdırır. Həzrət

---

[1] "Təfsire-Məcməül-bəyan".
[2] "Təfsire-Məcməül-bəyan".

Musanın peyğəmbərliyi ilahi kəlamla başladığından onu “kəlimullah” adlandırmışlar.[1]

“Vadiyul-muqəddəs” dedikdə eyb və günahdan uzaq məkan nəzərdə tutulur. “Tuva” sözü isə bərəkətli yer mənasını bildirir.

Hədisdə bildirilir ki, ayaqqabıları çıxarmaq dedikdə, iki nigarançılıqdan qurtulmaq nəzərdə tutulur: isti havada zövcənin vəziyyətindən nigarançılıq və Fironun şərindən nigarançılıq.[2] Bəziləri bu təbirin ailə-övlada və ya dünya-axirət məhəbbətinə işarə olduğunu bildirir. Hazırkı Tövratda da uyğun ifadə həmin təbirdə verilmişdir.[3]

**Bildirişlər**

1. Çox olur ki, insan müəyyən məqsədlə addım atır, amma başqa bir nəticə əldə edir.

***Musa getdi atəş əldə etməyə,***
***Bir atəş gördü ki, ucaldı göyə.***

2. Allah bir işin gerçəkləşməsini istədikdə bütün vasitələr uyğun məqsəd üçün səfərbər olur. (Gecənin qaranlığı, həyat yoldaşının hamiləliyi, yolu itirməsi, od görməsi Musanın cəzbi və ona vəhy nazil olması üçün müqəddimə oldu.)
3. İnamsızlıq hissi olunan yerdə daha çox təkid olunmalıdır.
4. İşin müqəddəsliyi və mənəviyyatı fərdlərin zahirində də müşahidə olunmalıdır.
5. Allahla dərin rabitə qeyri-ilahi bağlılıqların qırılmasından asılıdır.
6. Məsuliyyətin qəbulu üçün sadəlik ilkin şərtlərdəndir.
7. Bəzi yerlərin xüsusi müqəddəsliyi var. (Ayaqqabıları çıxartmaq müqəddəs yerlərə giriş ədəblərindəndir.)
8. Müqəddəs bəyanatlar müqəddəs məkanlarda nazil olur.
9. İlahi məsuliyyətlər təbiətin pak qoynunda, Tur dağında, müqəddəs Tuva vadisində, Hira dağında qəbul olunur.

## • Ayə 13:

﴿وَأَنَا اخْتَرْتُكَ فَاسْتَمِعْ لِمَا يُوحَى﴾

**“Mən səni (peyğəmbərliyə) seçmişəm. Vəhy olunanı dinlə.”**

---

[1] “Nisa”, 146.
[2] “Təfsire-nurus-səqəleyn”.
[3] Tövrat. Sifri-Xüruc, 3-cü fəsil.

● AYƏ 14:

﴿إِنَّنِي أَنَا اللَّهُ لَا إِلَٰهَ إِلَّا أَنَا فَاعْبُدْنِي وَأَقِمِ الصَّلَاةَ لِذِكْرِي﴾

**“Həqiqətən, Mənəm Allah, Məndən başqa məbud yoxdur. Beləsə, Mənə bəndəlik et, namazı bərpa et ki, Məni unutmayasan.”**

● AYƏ 15:

﴿إِنَّ السَّاعَةَ ءَاتِيَةٌ أَكَادُ أُخْفِيهَا لِتُجْزَىٰ كُلُّ نَفْسٍ بِمَا تَسْعَىٰ﴾

**“Həqiqətən, qiyamət gələcək. (Amma Mən onu məxfi saxlamaq istəyirəm ki, hər kəs öz səy və təlaşı müqabilində əvəz alsın.”**

**Nöqtələr**

Qiyamətin bir adı da saətdir. (Bu söz qiyamət mənasında 40 dəfədən çox işlədilmişdir.)

**Bildirişlər**

1. Peyğəmbərlər xalq tərəfindən yox, Allah tərəfindən təyin olunur.
2. Peyğəmbər vəhy kəlmələrini bütün vücudu ilə, can-dildən dinləməlidir.
3. Təqdimat danışıq qaydalarındandır.
4. İlahi nizamda mərifət əsas amildir.
5. Dini əsaslarla tanışlıq dini vəzifələrin icrasından öndə gəlir. Öncə nəzəri tərif, sonra əməli tövhid.
6. İbadət xalisanə, səmimi olmalıdır. İbadətin dəyəri onun nə dərəcədə xalis olmasından asılıdır.
7. Bütün əqidələrin önündə tövhid, bütün ibadətlərin önündə namaz gəlir.
8. Namaz peyğəmbərlərin ilkin göstərişi və əməli proqramıdır.
9. Digər dinlərdə də namaz göstərişi var.
10. Namazın bərpası dedikdə onun təkcə formal surətdə yerinə yetirilməsi yox, həm də mahiyyətinə diqqət yetirmək nəzərdə tutulur. Yəni insan özünü Allahın hüzurunda hiss etməlidir.
11. Qiyamətə diqqət insanı namaza sövq edir. Qiyamətdə namaz haqqında soruşular.
12. Namaz Allahın xatırlanması üçün qılınır. Allahın xatırlanması qəlblərin aramlığına səbəb olur.[1]
13. Allah bəşəriyyəti ilkin olaraq tövhid və məada çağırmışdır.
14. Qiyamətin bərpa olacağı vaxtdan Allahdan savay kimsə xəbərdar deyil.
15. Qiyamətin baş verəcəyi qətidir, amma onun vaxtı məxfi saxlanılmışdır.

---

[1] “Rəd”, 28.

16. Hər bilik faydalı olmur. Qiyamət vaxtının məxfi saxlanılmasının hikməti və faydası var. Qiyamət baxımından xəbərsiz insan əməldə azaddır, həyəcan və qorxu keçirmir. Qonağın nə vaxt gələcəyini bilməyən şəxs daim hazır olur.

17. Qiyamət vaxtının məxfi saxlanılması insanların həqiqət əsasında, onların səyləri həddində dəyərləndirilməsinə şərait yaradır.

18. Dünyəvi mükafat və cəza kamil deyil.

19. Qiyamətdə qanunlar, mükafat və cəzalar ədalət əsasında icraya qoyulur.

20. Mükafat səy və təlaşa əsaslanır. Çalışmaların başa çatıb-çatmaması mühüm deyil.

### ● AYƏ 16:

﴿فَلاَ يَصُدَّنَّكَ عَنْهَا مَنْ لاَ يُؤْمِنُ بِهَا وَاتَّبَعَ هَوَاهُ فَتَرْدَى﴾

**“Məbada qiyamətə inanmayan və azğın nəfs istəklərinə uyan bir kəs sənin diqqətini qiyamətdən yayındırsın. Yoxsa süqut edərsən.”**

**Bildirişlər**

1. Dinin əsaslarına etiqad və hökmlərə əməl bəs etmir. Həm də müxaliflərə müqavimət göstərmək lazımdır.

2. İmansız fərdlər sizi haqq yoldan döndərmək fikrindədirlər. Onların pozuculuğunun sizin tutduğunuz yola xələl gətirməsinə yol verməyin.

3. Məadın inkarının səbəbi azğın nəfs istəklərinə itaətdir.

4. Məada iman azğın nəfsə nəzarət üçün ən üstün amildir.

5. Hətta peyğəmbər də nəfsinə uysa süquta uğrayar.

6. Kafirlər və imansız fərdlərlə saziş məhvə aparır.

7. Kafirlər və həvəspərəstlər möminləri doğru yoldan döndərmək fikrindədirlər.

### ● AYƏ 17:

﴿وَمَا تِلْكَ بِيَمِينِكَ يَا مُوسَى﴾

**“Ey Musa! Sağ əlində olan nədir?”**

### ● AYƏ 18:

﴿قَالَ هِيَ عَصَايَ أَتَوَكَّأُ عَلَيْهَا وَأَهُشُّ بِهَا عَلَى غَنَمِي وَلِيَ فِيهَا مَآرِبُ أُخْرَى﴾

**“Musa) dedi: «Bu, mənim əsamdır. Ona söykənir, onunla qoyunlarım üçün (ağaclardan) yarpaq tökürəm. Onun mənə başqa faydaları da var.»”**

**● AYƏ 19, 20:**

**﴿قَالَ أَلْقِهَا يَا مُوسَى فَأَلْقَاهَا فَإِذَا هِيَ حَيَّةٌ تَسْعَى﴾**

**“(Allah) buyurdu: «Ey Musa! Əsanı at!» (Musa) onu atdı və o, qəfildən ilana dönüb sürətlə getməyə başladı.”**

**● AYƏ 21:**

**﴿قَالَ خُذْهَا وَلَا تَخَفْ سَنُعِيدُهَا سِيرَتَهَا الْأُولَى﴾**

**“(Allah) buyurdu: «Onu tut və tələsmə. Biz tezliklə onu əvvəlki halına qaytararıq.»”**

**Nöqtələr**

İnsanlar təbii olaraq təhlükə, şərr və zərərdən qorxur, onlarla üzləşməkdən çəkinirlər. Aydın məsələdir ki, Musa da insan idi və qorxurdu. Məzəmmət olunan isə Allahdan qeyrisindən qorxudur. Belə bir qorxu şücaət sifətinə ziddir və həzrət Musa belə bir çirkin sifətdən uzaq olmuşdur.

Musa başqa bir səbəbdən də qorxuya düşə bilərdi: “Əsanı yerə at” əmrinin “ayaqqabını çıxart” əmri kimi ehtiram üçün olduğunu düşünən Musa əsanın ilana döndüyünü gördükdə yerində donub qaldı.

Əslində bu qorxu uyğun hadisənin möcüzə olmasının dəlili idi. Göstərdiyi sehrin həqiqət olmadığını bilən sehrbaz gördüyü işdən qorxuya düşmür.

Allah hər an milyonlarına can verir, milyonlarının canını alır. Uyğun səhnədə də O, öncə əsaya can verib, sonra onu geri aldı.[1] Bu sayaq qadir Allah diri insanı öldürüb, onu yenidən əvvəlki vəziyyətinə qaytara bilməzmi?!

Allahın bir nəzəri ağacı əjdahaya döndərirsə, Onun lütf nəzəri ilə nələr baş verər?! Onun nəzər saldığı bir şey sehrbazların bütün qurğularını kamına çəkirsə, qəlbimizə saldığı nəzər bütün vəsvəsələri aradan qaldıra bilməzmi?!

Elə işin əvvəlində Musa üçün iki möcüzə baş verdi: onun əsası əjdahaya çevrildi və əjdaha yenidən əsa şəklinə qayıtdı.

**Bildirişlər**

1. Allah Öz qüdrətinin nümayişi üçün ən yaxın və ən sadə vasitələrdən də istifadə edir.
2. Bir neçə məqsəd üçün nəzərdə tutulmuş alətlərdən istifadə etməklə daha az həcmlə kifayətlənmək olar.
3. Əsa kimi maddi vasitələrə arxalanmağın Allaha təvəkküllə ziddiyyəti yoxdur.
4. Çobanlıq əksər peyğəmbərlərin məşğuliyyəti olmuşdur.

---

[1] “Təfsire-fi zilalil Quran”.

5. Dəvətdən öncə hazırlıq, təcrübə zəruridir. Fironun qarşısında əsanı atmaq istəyən Musa onun əjdahaya çevrilməsi səhnəsi ilə öncədən tanış olmalıdır.

**● AYƏ 22:**

﴿وَاضْمُمْ يَدَكَ إِلَى جَنَاحِكَ تَخْرُجْ بَيْضَاء مِنْ غَيْرِ سُوءٍ آيَةً أُخْرَى﴾

**"Əlini qoltuğunun altına sal, ağ və nöqsansız halda çıxsın. (Bu da) digər bir nişanə və möcüzədir."**

**● AYƏ 23:**

﴿لِنُرِيَكَ مِنْ آيَاتِنَا الْكُبْرَى﴾

**"Eləcə Öz böyük nişanələrimizdən sənə göstərək."**

**● AYƏ 24:**

﴿اذْهَبْ إِلَى فِرْعَوْنَ إِنَّهُ طَغَى﴾

**"(Ey Musa! İndi) Firona doğru hərəkət et, o, həqiqətən, tüğyan qoparmışdır."**

**Nöqtələr**

Həzrət Musanın ikinci möcüzəsi "yədi-bəyza", yəni ağ əl idi. Bu möcüzə Quranda üç təbirlə xatırlanır. Bu təbirlərdən ikisi "Qəsəs" surəsinin 32-ci və "Nəml" surəsinin 12-ci ayələrindədir. 3-cü təbir hazırkı ayədə bəyan olunmuşdur. Bütün deyilənləri belə yekunlaşdırmaq olar: "Əlini yaxandan sal və boynunadək apar."

Tövratda deyilir: Musanın əlindəki ağlıq xəstəlikdən idi. (Tövrat, sifri-xüruc, 4-cü fəsil) Amma Quran "eybsiz" təbiri ilə anladır ki, Musanın əlindəki ağlıq xəstəlikdən deyildi, bir nur idi və Tövrat təhrif olunmuşdur.

**Bildirişlər**

1. Allahın qüdrət əli açıqdır. O, hər an istənilən bir vasitə ilə Öz qüdrətini nümayiş etdirə bilər.

2. Qarşı tərəfin təkəbbür və inadkarlığı böyük olduqca, daha böyük möcüzəyə ehtiyac duyulur. (Fironlar üçün bir neçə möcüzə lazımdır.)

3. Zalım hakimi haqqa dəvət etmək istəyən kəs öncə özü haqqın əsərlərini görməlidir.

4. Peyğəmbərlərin möcüzələri ilahi nişanələrin bir guşəsidir.

5. Peyğəmbərlərin ilkin vəzifəsi zalım hakimlərlə mübarizədir.

6. Xalqın gəlişini gözləmək həmişə zəruri olmur. Bəzən hətta peyğəmbərlər zalım hakimlərin hidayəti üçün hərəkət etməli olur.

7. Cəmiyyətin islahı üçün fitnə-fəsadın kökünü tapmaq lazımdır.

8. Din siyasətdən ayrı deyil. Musa mövcud hakimiyyətin islahı üçün hərəkət etdi.

9. Zalım hakimiyyətlə mübarizə siyasi nümayiş yox, ilahi bir vəzifədir.

10. Bütün inkarların kökü haqq qarşısında tüğyan və itaətsizlikdir.

Firon Rəbblik iddiası ilə tüğyan qopararkən qorxu yaradır, təfriqə salır və xalqı qul edirdi.

11. İman, ibadət və sabitqədəmliklə silahlanmış kəslər zalım qüvvələrlə mübarizə apara bilərlər.

**● AYƏ 25:**

**﴿قَالَ رَبِّ اشْرَحْ لِي صَدْرِي﴾**

**“(Musa) dedi: «Pərvərdigara! (Mənə belə böyük bir iş əmr etmisənsə) köksümü genişləndir.»”**

**● AYƏ 26:**

**﴿وَيَسِّرْ لِي أَمْرِي﴾**

**“İşimi mənə asan buyur.”**

**● AYƏ 27-28:**

**﴿وَاحْلُلْ عُقْدَةً مِّن لِّسَانِي يَفْقَهُوا قَوْلِي﴾**

**“Dilimdəki düyünü aç, qoy sözlərimi (yaxşı) anlasınlar.”**

**Nöqtələr**

Həzrət Musa ilahi peyğəmbərlik məqamına çatdığı vaxt Allahdan dörd şey istədi: geniş köks, münasib şərait, rəvan bəyan , vəzir.

Həzrət Musaya müxtəlif ibadi, siyasi, inqilabi, ictimai, əxlaqi, fərdi və ümumi göstərişlər verilmişdi. Adətən, hər hansı bir işlə məşğulluq insanın diqqətini digər işlərdən yayındırır. Beləcə, bütün işlərlə lazımınca məşğul olmaq üçün geniş köksə ehtiyac duyulur.[1]

Geniş köks həm insanın özü, həm də məsuliyyətlərin yerinə yetirilməsi üçün zəruridir. Ayədəki “li” hissəsi vəhyin qəbulunda böyük tutuma ehtiyac

---

[1] “Təfsire-kəbire-Fəxr Razi”

olduğunu göstərir. “İnşirah” surəsində də “geniş köks” (“sieyi-sədr”) mövzusuna toxunulur.

### *MÖMIN VƏ KAFIR QƏLBININ XÜSUSIYYƏTLƏRI*

Mömin və kafir qəlblərinin fərqli səciyyələri vardır. Mömin qəlbində: həyat, şəfa, paklıq, geniş köks, hidayət, iman, aramlıq, ülfət, əminlik.[1]

Kafir qəlbində: xəstəlik, daşlıq, inkarçılıq, möhürlənmə, əhatəli zülmət, hicab, kilidlənmə, bərklik, anlamazlıq.[2]

**Bildirişlər**

1. İstənilən bir işdə ilkin müvəffəqiyyət şərti geniş köksdür.
2. Məsuliyyətdən qorxub qaçmaq əvəzinə Allahdan vəzifəni yerinə yetirmək üçün imkan, müqəddimə, vasitə diləmək lazımdır.
3. Hər bir işdən öncə dua təvəkkül rəmzi, təhlükələrdən uzaqlıq səbəbidir. Dua özü də ibadət, ehtiyaclılığın elanı sayılır.
4. Xalqın təlim-tərbiyəsi və zalım qüvvələrlə mübarizə tam şəkildə tərbiyəçi və mücahidin səbir və hövsələsindən asılıdır.
5. Peyğəmbərlik tündlük və qəddarlıqla bir araya sığmır. Böyük iş böyük ruh tələb edir. (Musa qarşıdurma zamanı bir nəfəri yumruqla vurub öldürdü. Bu səbəbdən də Allahdan geniş köks istədi.)
6. Quranda peyğəmbərlərin duası “Rəbb” xitabı ilə başlayır.
7. İlahi lütflərə çatmaq üçün böyük ruh, geniş qəlbə ehtiyac var.
8. Geniş kökslə (qəlblə) işlər asanlaşır.
9. Sadə danışıq və rəvan bəyan özü də bir kamillikdir.
10. Xalqın hidayət və səfərbərliyində, mücahidlərə ruh verilməsində və zalım qüvvələrin qorxudulmasında iti dilin mühüm rolu var.
11. Əsas məsələ gözəl sözlərdən istifadə etmək yox, xalqı anlatmaqdır.
12. Təbliğatçının dilini xalqın yaxşı anlaması təbliğdə müvəffəqiyyət şərtidir.
13. Təbliğdə xalqın düşüncəsini dərinləşdirən hər vasitədən istifadə edilməlidir.

**● AYƏ 29-30:**

﴿وَاجْعَل لِّي وَزِيرًا مِّنْ أَهْلِي هَارُونَ أَخِي﴾

**“Ailəmdən mənim üçün bir vəzir qərar ver–qardaşım Harunu.”**

---

[1] Ənam”, 122; “Tövbə”, 14; “Hucurat”, 3; “Taha”, 25; “Təğabun”, 11; “Mücadilə”, 22; “Fəth”, 4; “Ənfal”, 63; “Rəd”, 28.

[2] “Bəqərə”, 10; “Maidə”, 13; “Səff”, 5; “Nəhl”, 108; “Mutəffifin”, 14; “Kəhf”, 57; “Muhəmməd”, 24; “Bəqərə”, 7; “Tövbə”, 127.

**● AYƏ 31-32:**

﴿اشْدُدْ بِهِ أَزْرِي وَأَشْرِكْهُ فِي أَمْرِي﴾

**"Onunla arxamı möhkəmləndir, onu işimə şərik et."**

**● AYƏ 33-34:**

﴿كَيْ نُسَبِّحَكَ كَثِيرًا وَنَذْكُرَكَ كَثِيرًا﴾

**"Beləcə, Səni çox pak anaq, çox zikr edək."**

**Nöqtələr**

"Vizr" sözündən olan "vəzir" sözü ağır yük mənasını bildirir. Başqa birinin də məsuliyyət yükünü öhdəsinə götürən şəxs "vəzir" adlanır. "Əzri" dedikdə "mənim arxam" mənası anlaşılır.

Təfsirlərdə deyilir ki, İslam Peyğəmbəri (s) bu ayələri dəfələrlə oxuyar və buyurardı: "Pərvərdigara! Mən də Musa kimi öz əhlimdən vəzir istəyirəm."[1]

Həzrət Musa vəhyin qəbulu üçün çətinlik çəkmirdi. O yalnız peyğəmbərlik məsuliyyətinin və təbliğin ağırlığından vəzir istəyirdi.

Harun Musadan 3 yaş böyük idi. O, Musadan 3 il tez dünyasını dəyişdi.[2] Bütün sonrakı peyğəmbərlər Harun nəslindəndir.

Əllamə Təbatəbai "Əl-mizan" təfsirində buyurur: "Həzrət Peyğəmbər (s) Əliyə (ə) buyurdu: "Harun Musa üçün necə idisə, sən də mənim üçün eləsən." "Mənzilət" hədisi adlanan bu hədis 100 dəfə sünnə, 70 dəfə şiə əhli tərəfindən nəql olunmuşdur."

İnsanın xalqdan kömək istəməsi onun Allaha təvəkkülü ilə zidd deyil və şirk sayılmır. Quranda dəfələrlə qarşılıqlı yardım məsələsinə toxunulur. "Maidə" surəsinin 2-ci ayəsində buyurulur: "Xeyir işdə bir-birinizə yardım göstərin." Həzrət İsa (ə) buyurdu: "Allaha doğru hərəkətdə yardımçım kimdir?"[3] Başqa bir yerdə peyğəmbərə cavab olaraq Allah buyurdu: "Allah və ardınca gələn möminlər sənə bəs edər."[4] Zül-Qərneyn də sədd tikərkən xalqdan yardım istədi.[5] Hazırkı əhvalatda da həzrət Musa dinin təbliğində kömək üçün Allahdan layiqli insan istəyir.

**Bildirişlər**

1. Firon kimi zalım güclə təkbaşına mübarizə aparmaq mümkün deyil.

---

[1] "Təfsire-dürrül-mənsur". "Təfsire-nurus-səqəleyn".
[2] "Təfsire-Məcməül-bəyan".
[3] "Ali-İmran", 52
[4] "Ənfal", 64.
[5] "Kəhf", 95.

2. İş mühümləşdikcə vəzir seçimi də həssas məsələyə çevrilir. Musa üçün vəziri Allah təyin etməli idi.
3. İnsanın yardımçısı onun öz əhlindən olsa daha yaxşıdır. (Əlbəttə ki, yaxınlar arasında əgər ləyaqətli şəxs varsa.)
4. Rəhbərlik və müdriyyət bir şəxsdə cəmlənməlidir. Başqaları isə onunla həmkarlıq etməlidir.
5. Həmkarlıq irəliləyiş səbəbidir.
6. Zalım qüvvələrlə mübarizə fəzasında təsbih və zikr gerçək olur.
7. Hakimiyyət və qüdrət fəlsəfəsi cəmiyyətdə mənəviyyatın bərpasıdır.
8. Peyğəmbərlərin vəzifəsi şirk, şəkk-şübhə və xurafatların qarşısını almaqdır.
9. Böyük məsuliyyət çoxlu təsbih və zikr tələb edir.
10. Öncə Allahı istənilən eyb və nöqsandan pak bilək, sonra zikr və şükürlə məşğul olaq.
11. Yalnız ardıcıl zikr dəyərlidir. Təhlükə zamanı hamı Allahı yada salır.

**● AYƏ 35:**

﴿إِنَّكَ كُنتَ بِنَا بَصِيرًا﴾

**“(Pərvərdigara,) həqiqətən, Sən bizim halımızdan daim agahsan və görürsən.”**

**● AYƏ 36:**

﴿قَالَ قَدْ أُوتِيتَ سُؤْلَكَ يَا مُوسَى﴾

**“(Allah) buyurdu: ”Ey Musa! İstədiyin sənə verildi.”**

**● AYƏ 37:**

﴿وَلَقَدْ مَنَنَّا عَلَيْكَ مَرَّةً أُخْرَى﴾

**“Həqiqətən, Biz növbəti dəfə sənə minnət qoyduq (səni Öz nemətlərimizdən bəhrələndirdik.)”**

**Bildirişlər**

1. Peyğəmbərlər özlərini daim Allahın hüzurunda görürlər və Onun məsləhətindən razıdırlar.
2. Allah hər şeydən xəbərdar olsa da, Ona dua etmək bəyənilmişdir.
3. Əgər istək düzgün, dua xalisanə (səmimi) olsa, onların qəbulu qətidir.
4. Allahın ətası hikmət və bəsirətə əsaslanır.
5. Bir şəxsə müəyyən iş tapşırdıqda onu tələb olunan vasitələrlə təmin edək.

6. İlahi nemətlər insanların ləyaqəti yox, Allahın mərhəməti əsasında nazil olur.

7. Allahın lütflərini heç vaxt yaddan çıxarmayaq.

**● AYƏ 38:**

﴿إِذْ أَوْحَيْنَا إِلَى أُمِّكَ مَا يُوحَى﴾

**“(Nemətə çatdırdıq,) o zaman ki, anana lazım olanı vəhy etdik.”**

**● AYƏ 39:**

﴿أَنِ اقْذِفِيهِ فِي التَّابُوتِ فَاقْذِفِيهِ فِي الْيَمِّ فَلْيُلْقِهِ الْيَمُّ بِالسَّاحِلِ يَأْخُذْهُ عَدُوٌّ لِّي وَعَدُوٌّ لَّهُ وَأَلْقَيْتُ عَلَيْكَ مَحَبَّةً مِّنِّي وَلِتُصْنَعَ عَلَى عَيْنِي﴾

**“(Ona belə vəhy etdik:) Öz körpəni bir sandığa qoy, sonra onu dəryaya at. Qoy dərya onu sahilə çıxarsın. Və Mənim və onun düşməni onu götürsün. (Ey Musa,) Mən Öz tərəfimdən sənin üçün məhəbbət yetirdim ki, (səni sevələr və) Mənim nəzərim altda ərsəyə çatasan.”**

**Nöqtələr**

Ayədə vəhy deyərkən ilham, təlqin nəzərdə tutulur. Şübhəsiz ki, söhbət peyğəmbərlərə məxsus vəhydən getmir. Çünki risalət kişilərə məxsusdur.[1]

“Tabut” dedikdə sandıq, “yəmm” dedikdə dərya nəzərdə tutulur. “Yəmm” sözü Quranda səkkiz dəfə və hər dəfə həzrət Musanın əhvalatı ilə bağlı işlədilmişdir.

Bu gün sənət sözü yalnız istehsalla bağlı işlədilirsə, Quran insan tərbiyəsi ilə bağlı da uyğun sözdən istifadə edir.

Allah bir işin gerçəkləşməsini istəyən kimi, onun bütün müqəddimələri hazır olur. Musanın hifzi üçün onun anasına ilham edilir ki, övladını dəryaya atsın. Dəryaya əmr olunur ki, sandığı sahilə çıxarsın. İş bununla başa çatmır. Düşmənə sandığı götürmək təlqin olunur, həm də körpənin məhəbbəti onun qəlbinə salınır.

İmam Baqir (ə) buyurur: “Allah xalqın qəlbində Musaya elə bir məhəbbət yaratmışdı ki, onu görən dərhal sevirdi.[2]

Dünya bağlılıqlarında və dostluqlarından qurtuluş kamilliyə çatmaq rəmzidir. O cümlədən:

a) Özünə əsir olmamaq (İbrahim oda atılmasına razı oldu.);

---

[1] “Yusuf”, 109.

[2] “Təfsire-nümunə”.

b) Zövcəyə əsir olmamaq (İbrahim öz zövcəsini otsuz-susuz Məkkədə qoyub getdi.);

v) Övlada əsir olmamaq (Musanın anası öz körpəsini dəryaya atdı; İbrahim İsmaili qurban verməklə razılaşdı.);

q) Şəhvət əsiri olmamaq (Yusif Əzizi-Misrin zövcəsinin işrət təklifini rədd etdi.);

e) Yuxu əsiri olmamaq (Gecə yarı namazın savabını Allahdan başqa kimsə bilmir.);[1]

**Bildirişlər**

1. Bəzən valideynə xatir xüsusi lütf olunur.
2. Qadın elə bir məqama çata bilər ki, Allah ona ilham edər. (Bu, sadəcə bir ilham deyildi. Çünki Musanın anası bu ilham vasitəsi ilə öz övladını dalğaların qoynuna atdı.)
3. Peyğəmbərlərin hərəkatında qadınlar da rol oynamışdır.
4. Dərya varlıq aləminin bir hissəsi kimi Allahın əmrinə tabedir.
5. “Əduvv” (düşmən) sözünün təkrarlanması zalım hakimlərin ilahi peyğəmbərlərə qarşı ədavətinin dərinliyini göstərir.
6. Əgər Allah istəsə, düşmən də xeyirə səbəb olar.
7. Sevimlilik ilahi lütflərdən biridir. Qəlblər də, məhəbbət də Ona məxsusdur.
8. Allahın övliyaları Onun xüsusi nəzər və tərbiyəsi altındadır.

**● AYƏ 40:**

﴿إِذْ تَمْشِي أُخْتُكَ فَتَقُولُ هَلْ أَدُلُّكُمْ عَلَى مَن يَكْفُلُهُ فَرَجَعْنَاكَ إِلَى أُمِّكَ كَيْ تَقَرَّ
عَيْنُهَا وَلَا تَحْزَنَ وَقَتَلْتَ نَفْسًا فَنَجَّيْنَاكَ مِنَ الْغَمِّ وَفَتَنَّاكَ فُتُونًا فَلَبِثْتَ سِنِينَ فِي
أَهْلِ مَدْيَنَ ثُمَّ جِئْتَ عَلَى قَدَرٍ يَا مُوسَى﴾

**“O zaman bacın (sandığın ardınca saraya) gedib dedi: «Sizə onu (körpə Musanı) öhdəsinə götürəcək bir şəxs tanıtdırımmı?» (Onlar qəbul etdilər.) Ananın gözünə işıq gəlsin və qəmdən qurtulsun deyə Biz səni (bu sayaq) anana qaytardıq. (Ey Musa,) sən bir şəxsi qətlə yetirdin. Biz səni qəmdən xilas etdik, müxtəlif sınaqlara çəkdik. Bir neçə il Mədyən camaatının yanında qaldın. Sonra təyin olunmuş vaxtda (peyğəmbərliyin qəbulu üçün buraya) gəldin.”**

---

[1] “Səcdə”, 17.

**Nöqtələr**

Firon sandığı sudan çıxardığı vaxt öncə körpəni öldürmək istədi. Amma zövcəsi onu bu işdən çəkindirdi. Uşağa süd vermək üçün dayələr dəvət olundu. Amma Musa heç bir qadının südünü qəbul etmədi. Firon hökuməti bu uşaq qarşısında aciz qaldı. Musanın məsələdən xəbər tutan bacısı oraya gəlib adi halda dedi: “Mən sizə elə birini tanıtdıraram ki, uşaq onun döşünü qəbul edər.”

Bəli, Musa bu sayaq anasının qoynuna qayıtdı.

Həzrət Musanın həyat və mübarizə yolunda bir neçə qadın mühüm rol oynamışdır. (Musanın anası, Musanın bacısı, Musanın zövcəsi və Fironun zövcəsi.)

Peyğəmbərlərin başına gələn hadisələr bəzən bir-birinə oxşayır. Məsələn, həzrət Musanın əhvalatı həzrət Yusifin əhvalatına bir neçə baxımdan oxşardır:

a) Hər iki peyğəmbər bir müddət sarayda yaşamışdır;

b) Onlardan heç biri saray həyatını özü seçməmişdir;

v) Hər iki peyğəmbərin ata-anası övladdan ayrılıq ağrısını yaşamışlar;

q) Sonda hər iki peyğəmbər valideyninin yanına qayıtmışdır;

e) Hər iki şəxs başqa birinin fitnəsinə düşmüşdür; həzrət Yusif qardaşlarının, Musa isə Fironun fitnəsinə düçar olmuşdur;

ə) hər iki şəxsin həyatında saray qadını rol oynamışdır. Əzizi-Misrin zövcəsi Yusifin həyatında mənfi, Fironun zövcəsi Musanın həyatında müsbət rol ifa etmişdir.

**Bildirişlər**

1. Zalım quruluşda istər qadın, istər kişi, hər bir haqq tərəfdarı mübarizə vəzifəsini yetərincə icra etməlidir.
2. İlahi lütflər əldə etmək üçün hərəkət lazımdır.
3. Öz haqq və məntiqi təkliflərimizi mülayimliklə bəyan edək.
4. Sirləri faş etməyək.
5. Övlada süd vermək bəs etmir, onu tam himayə etmək lazımdır.
6. Allah Öz vədlərinə vəfalıdır. (İmam Baqir (ə) buyurur: “Övlad öz anasından 3 gün ayrı düşdü.”)
7. Övladın normal inkişafı üçün ən zəruri şərt ananın himayəsidir.
8. Ananın razılığı Allah hüzurunda xüsusi dəyərə malikdir.
9. Görülən işlərin doğuracağı reaksiyadan nigarançılıq xalislik və ismətə zərbə vurmur. (Musa bilmədən bir qibtini öldürmüşdü. Bu, günah olmasa da Musa nigaran və qəmgin idi.)
10. İlahi insanların qarşısında çətin sınaqlar olur. Peyğəmbərlər də çətin hadisələrin acısını dadmalıdırlar. Buna görə də illər uzunu saray həyatından sonra biyabanda çobanlığa başlayır.
11. Çətin mərhələləri adladıqdan sonra ilahi və mənəvi məqama çatmaq üçün müqəddimə gəlir.
12. Məsuliyyətlərin, ilahi yardımların və lütflərin öz vaxtı və hesabı var.

**● AYƏ 41:**

﴿وَاصْطَنَعْتُكَ لِنَفْسِي﴾

**"(Ey Musa,) Mən səni Özüm üçün ərsəyə gətirib seçmişəm."**

**● AYƏ 42:**

﴿اذْهَبْ أَنتَ وَأَخُوكَ بِآيَاتِي وَلَا تَنِيَا فِي ذِكْرِي﴾

**"(İndi) sən və qardaşın sizə verdiyim ayələrlə yola düşün və Məni yada salmaqda süstlük göstərməyin."**

**● AYƏ 43:**

﴿اذْهَبَا إِلَى فِرْعَوْنَ إِنَّهُ طَغَى﴾

**"Gedin Firona doğru. O, tüğyan qoparıb."**

**● AYƏ 44:**

﴿فَقُولَا لَهُ قَوْلًا لَّيِّنًا لَّعَلَّهُ يَتَذَكَّرُ أَوْ يَخْشَى﴾

**"Onunla yumşaq danışın, bəlkə anlaya və ya qorxa."**

**Nöqtələr**

"Xəşyət" dedikdə mərifətdən və bir başqası qarşısında əzəmət hissindən qaynaqlanan qorxu başa düşülür.

Allah həzrət Musa haqqında xüsusi təbirlər bəyan etmişdir: "Biz onu Özümüzlə xəlvət söhbətə yaxınlaşdırdıq."[1] Mən səni seçmişəm."[2] "Mənim nəzərim altda ərsəyə çatasan."[3] "Səni Özüm üçün ərsəyə gətirdim və seçdim."[4]

Ötən ayələrdə həzrət Musanın iki möcüzəsi bəyan olundu: Əsanın əjdahaya çevrilməsi, Musanın əlinin ağarması. Bu ayədə isə Musaya başqa möcüzələr də veriləcəyindən danışılır.

Hazırkı surənin 24-cü ayəsində Firona doğru hərəkət göstərişi verilir. Amma Musa Allahdan köməkçi istəyir. Onun istəyi yerinə yetirildikdən sonra bu ayədə hərəkət göstərişi gəlir.

"Ədiyy" ibn Hatəm deyir: "Əmirəlmöminin (ə) Siffeyndə Müaviyə ilə üzbəüz gəldiyi vaxt uca səslə buyurdu: "And olsun Allaha, Müaviyə və onun

---

[1] "Məryəm", 52.
[2] "Taha", 13.
[3] "Taha", 39.
[4] Hazırkı ayə.

səhabələri ilə vuruşacağam.” Sonra həzrət astadan buyurdu: “İnşaəllah.” Soruşdum ki, nə üçün savaşdan uca danışır, asta səslə “inşaəllah” deyirsiniz? Həzrət buyurdu: “Döyüş hiylədir. Mən isə yalançı deyiləm. Məqsədim ətarafımdakıları savaş üçün ayağa qaldırmaqdır.” Sonra həzrət hazırkı ayəni oxuyub əlavə etdi: “Allah Fironun anlamayacağını bilirdi. Amma Musanı Fironun üstünə qaldırmaq üçün belə deyirdi.”[1]

**Bildirişlər**

1. Böyük məqsədlərə çatmaq üçün insanlar tərbiyə olunmalıdır.

2. Allahın peyğəmbərlər üçün xüsusi proqramları var.

3. Öncə özünütərbiyə, sonra cəmiyyətin islahı!

Bir şəxsi müəyyən işə müdir təyin etdikdə onun ruhiyyəsini eşq, iftixar və təsəlli ilə gücləndirməyə çalışaq.

5. Qarşı tərəfi bəzən gətirtmək, bəzən isə ona doğru getmək lazımdır.

6. Bəzi mərhələlərdə elçi və peyğəmbər tək olmamalıdır.

7. Təbliğatçı təbliğ vasitələri ilə silahlanmalıdır.

8. Təbliğatçı şücaətli, qətiyyətli və nüfuzedilməz olmalıdır. Yalnız belə bir təbliğatçı zalım hakimlərin qüdrəti qarşısında özünü itirməz, Allahı unudub vəzifəsini boşlamaz.

9. Allaha tam və daimi diqqət müvəffəqiyyət rəmzidir.

10. Təbliğ, tərbiyə, yaxşılığa əmr və pisliyə qadağa Allahın zikri sayılır.

11. Peyğəmbərlərin ən böyük məqsəd və xidmətlərindən biri zalım rejimlə mübarizə və allahpərəstliyə yol açmaqdır.

12. Yaxşılığa əmr və pisliyə qadağa (əmr be məruf və nəhy əz münkərdə) ilk addım yumşaq bəyandır.

13. Ümid xoş rəftaradır, sərtlikdən bir şey gözlənilmir.

14. Təlim-tərbiyəyə səmimi söhbətlərlə başlamaq lazımdır. (Allah-təala əziz Peyğəmbərə (s) buyurur: “(Xalqla yumşaq rəftar et.) Ən azğın adamlarla belə öncə yumşaq və xoş danışmaq lazımdır.

15. Heç vaxt başqalarının islahından ümidimizi üzməyək.

16. Peyğəmbərlərin vəzifəsi xəbərdarlıq və tərbiyədir.

**● AYƏ 45:**

﴿قَالَا رَبَّنَا إِنَّنَا نَخَافُ أَن يَفْرُطَ عَلَيْنَا أَوْ أَن يَطْغَى﴾

**“(Musa və Harun) dedilər: «Pərvərdigara! Həqiqətən, onun bizə əziyyət verəcəyindən və ya tüğyanını davam etdirəcəyindən qorxuruq.»”**

---

[1] “Kafi”, c. 5, s. 460.

● **AYƏ 46:**

**﴿قَالَ لَا تَخَافَا إِنَّنِي مَعَكُمَا أَسْمَعُ وَأَرَى﴾**

**“(Allah) buyurdu: «Qorxmayın, həqiqətən, Mən sizinləyəm, eşidirəm və görürəm.»”**

**Nöqtələr**

“Fərt” dedikdə sürət götürmək, önə keçmək mənaları anlaşılır. “Ən yəfrutə ələyna”, yəni qorxuruq ki, biz dəlil və möcüzələrimizi göstərməmiş, Firon bizi qabaqlayıb, Bəni-İsrailə münasibətdə tüğyanını artıra.[1]

İnsan həyatında qorxu təbii bir hadisədir. Bütün insanlar təhlükə ilə üzləşdikdə qorxurlar. Amma peyğəmbərlərin Allahdan qeyrisindən qorxması bəyənilməmiş və məzəmmət olunmuşdur.

**Bildirişlər**

1. Problemləri araşdırmaq, ehtimal olunan maneələri nəzərdən keçirmək və gələcəklə bağlı ehtiyatlanmaq ixlas və peyğəmbərlik məqamına zidd deyil.
2. Fitnə-fəsad törətmək, şayiə yaymaq zalımlara xas xüsusiyyətdir. Onlar mühiti zəhərləyir, ilahi insanlara böhtan atır, haqq sözü eşitdikdən sonra qarışıqlıq salırlar ki, söz təsirsiz qalsın.
3. Allah hüzuruna iman, ilahi yardımlara əminlik şücaət amilidir və möminlərin ruh yüksəkliyinə səbəb olur.
4. Bir şəxsə müəyyən iş tapşırdıqda onu təmin etmək, ruhiyyəsini gücləndirmək lazımdır.
5. Bütün insanlar ilahi mərhəmətdən faydalansa da, Allahın peyğəmbərlərə olan lütfü daha artıqdır.

● **AYƏ 47:**

**﴿فَأْتِيَاهُ فَقُولَا إِنَّا رَسُولَا رَبِّكَ فَأَرْسِلْ مَعَنَا بَنِي إِسْرَائِيلَ وَلَا تُعَذِّبْهُمْ قَدْ جِئْنَاكَ بِآيَةٍ مِّن رَّبِّكَ وَالسَّلَامُ عَلَى مَنِ اتَّبَعَ الْهُدَى﴾**

**“Onun sorağınca gedin, (ona) deyin: «Ey Firon, biz sənin Rəbbinin iki elçisiyik. Bəni-İsraili bizə qoş və onları incitmə. Əlbəttə biz sənin Rəbbin tərəfindən yanına möcüzə ilə gəlmişik. Salam olsun doğru yolu tutan kəsə.»”**

● **AYƏ 48:**

**﴿إِنَّا قَدْ أُوحِيَ إِلَيْنَا أَنَّ الْعَذَابَ عَلَى مَن كَذَّبَ وَتَوَلَّى﴾**

---

[1] “Təfsire-nümunə”.

**“(Ona deyin,) həqiqətən, bizə vəhy olunub ki, əzab (ilahi ayələri) təkzib edib boyun qaçırana aiddir.”**

**Nöqtələr**

Zalım başçıların tərbiyəsi çox çətin və mühüm olduğundan Allah Firona doğru hərəkət etməyə yenə də göstəriş verir.

Bu ayələrdə 3 etiqadi əsas yada salınır: tövhid, nübuvvət və məad.

Allah Musa və Harunun görəcəyi işləri beş mərhələyə bölür: Getmək, demək, dəlil göstərmək, təşviq etmək, xəbərdarlıq etmək.

**Bildirişlər**

1. Haqqa çağırış və təbliğ müdafiə xarakterli olmamalıdır.
2. Peyğəmbərlərin risaləti Allahın rübubiyyət şənindəndir.
3. Təkəbbürlülərin qürurunu sındırın. Özünü Rəbb sayanlarla “sənin Rəbbin” təbirini işlətməklə söhbət aparılır.
4. Yumşaq danışıq qətiyyət və aşkarlıqla zidd deyil.
5. İnsanları zalım hakimlərin zülm-sitəmindən qurtarmaq peyğəmbərlərin ilkin vəzifəsidir. (Bəli, din siyasətdən ayrı deyil. Zalım güclərlə mübarizə və xalqı azadlığa çıxarmaq ilahi göstərişlərdəndir.)
6. Zülm və günah mühitindən hicrət qurtuluş üçün müqəddimədir. Öncə azadlıq, sonra iman.
7. Zalım hakimlə mübarizə və xalqın azadlığa çıxarılması ilahi prinsiplər əsasında həyata keçirildikdə dəyərli olur.
8. Xalqa əzab-əziyyət vermək qadağandır.
9. Məmurların əməllərinə görə həm də onların başçıları məsuliyyət daşıyır. Firon özü şəxsən kimisə cəzalandırmasa da, əsas amil odur.
10. Yetərli əmniyyət və salamatçılıq yalnız ilahi göstərişlərə itaətlə əldə oluna bilər.
11. Zalım hakimlərə, sitəmkarlara, hidayət yolunda olmayanlara salam vermək qadağandır.
12. Əsas məsələ haqqa itaətdir.
13. Sözün sonunda salam vermək danışıq ədəblərindəndir.

**● AYƏ 49:**

﴿قَالَ فَمَن رَّبُّكُمَا يَا مُوسَى﴾

**“(Firon) dedi: «Ey Musa! Bəs siz iki nəfərin Rəbbi kimdir?»”**

**● AYƏ 50:**

﴿قَالَ رَبُّنَا الَّذِي أَعْطَى كُلَّ شَيْءٍ خَلْقَهُ ثُمَّ هَدَى﴾

**“(Musa) dedi: «“Bizin Rəbbimiz hər şeyə xüsusi yaranış əta edən, onu doğru yola yönəldən kəsdir.»”**

**● AYƏ 51:**

**﴿قَالَ فَمَا بَالُ الْقُرُونِ الْأُولَى﴾**

**“(Firon) dedi: «Bəs ötən nəsillərin halı necədir?»”**

**Nöqtələr**

“Bal” fikir mənasını bildirsə də, hal mənasında da işlədilir.

Firon üçün xaliqlik yox, Rəbblik mühüm görünürdü. O, xaliqlik iddiasında deyildi və özünün də məbudu vardı.[1] Kafirlər də Allahı xaliq olaraq qəbul edirlər.[2] Fironun iddiası Rəbblik, başqa sözlə rəhbərlik, mütləq hakimiyyət idi. Bu səbəbdən də Musa ona cavab olaraq buyurdu: ”Varlıq aləminin xaliqi, Rəbbi və hakimi birdir.

Bütün peyğəmbərlər insanları tövhidə çağırmış, yalnız ilahi yolu kamillik yolu saymışlar. Həzrət İbrahim buyurur: “Məni yaradan Allah məni hidayət etdi.”[3] Həzrət Musa buyurdu: “O, hər şeyə yaranış verdi və hidayət etdi.”[4] Həzrət Məhəmməd (s) isə belə buyurmuşdur: “Xəlq edib nizama salan, müəyyən edib yol göstərən Allah.”[5]

Hərəkət və qiyama rəhbərlik Musaya aid idi. Musa Fironun hüzuruna Harunla getsə də, rəhbər olduğundan Firon “ya Musa” deyə müraciət edir.

**Bildirişlər**

1. Mübahisə doğuran məsələ Allahın xaliqliyi yox, Rəbbliyi, rübubiyyəti, idarəçiliyidir.
2. Zalım güclərin ruhiyyəsi onların danışıq və sorğu-sualından da hiss olunur.
3. Allahın bizə verəcəyi yoxdur, nə verirsə hədiyyədir.
4. Bir olan Allah həm yaradır, həm də təkvini (təbii) hidayətlə idarə edir. (Bəli, O yaratdıqdan sonra həyat və kamilləşmə üçün yol qoyur.)
5. Allah hər bir mövcuda kamil yaranış, münasib xüsusiyyətlər əta etmişdir.
6. Allahın doğru yola yönəltməsi Onun Rəbblik, rübubiyyət şərtidir.
7. Rəbblik, idarəçilik yalnız Yaradanın haqqıdır.
8. Bütün mövcudlar ilahi hidayətdən bəhrələnir. Varlıq aləminə hakim olan bütün qanunlar və insandakı meyllər ilahi hidayətdəndir.

---

[1] “Əraf”, 127.
[2] “Ənkəbut”, 61.
[3] “Taha”, 50.
[4] “Şuəra”, 78.
[5] “Əla”, 2, 3.

9. Məntiqlə üzbəüz dayandıqda ata-babaların yoluna üz tutmaq olmaz.

Musa məntiqlə danışırdı, amma Firon söhbəti tarixi məcraya yönəldirdi. O bu yolla xalqın hisslərini oyatmaq istəyirdi.

**• Ayə 52:**

﴿قَالَ عِلْمُهَا عِندَ رَبِّي فِي كِتَابٍ لَّا يَضِلُّ رَبِّي وَلَا يَنسَى﴾

**“(Musa) dedi: «Onun (ötən nəsillərin halının) elmi Rəbbimin yanında bir kitabdadır. Rəbbim nə itirər, nə də unudar.»”**

**Nöqtələr**

Firon ötən qövmlərin və ölülərin halı haqqında soruşduqda Musa ətraflı cavab verə biləcəyi halda xalqın ata-babalara həssaslığını nəzərə alaraq, uyğun cavabla kifayətləndi və bildirdi ki, uyğun biliklər Allaha aiddir. Belə bir cavabla həm mülayim danışıq qaydasına əməl etdi, həm də bəhanə və irad üçün onların əlinə əsas vermədi.

**Bildirişlər**

1. Peyğəmbərlər nəyi bilmirdilərsə və ya açıqlamaq istəmirdilərsə, həmin biliyi Allaha aid edirdilər.
2. Tərbiyəçi danışıqda siyasətçi olmalı, bəzən ətraflı cavab verib, bəzən susmaqla düşmənin əlinə bəhanə verməməlidir.
3. İlahi nizamda hər bir şeyin hesab-kitabı var.
4. İlahi kitab çox əzəmətli və böyükdür.
5. İlahi elmdə xətaya yol yoxdur. (Xəta həqiqəti bilməyənlərə aiddir. Hər şeyin batini və zahirindən olduğu kimi xəbərdar olan Allah tərəfindən hansısa xəta ehtimalı mövcud deyil.)
6. İnsanın biliyinin iki bəlası var: ya öncədən yanlışlığa yol verib həqiqəti düzgün müəyyənləşdirmir, ya da öyrəndikdən sonra unudur. Allahın elmi isə bu iki bəladan amandadır.
7. Yanlışlıq və unutqanlıqdan uzaq olan bir varlığın rübubiyyət haqqı var.

**• Ayə 53:**

﴿الَّذِي جَعَلَ لَكُمُ الْأَرْضَ مَهْدًا وَسَلَكَ لَكُمْ فِيهَا سُبُلًا وَأَنزَلَ مِنَ السَّمَاء مَاء فَأَخْرَجْنَا بِهِ أَزْوَاجًا مِّن نَّبَاتٍ شَتَّى﴾

**“Elə bir Allah ki, yer üzünü sizin üçün asayiş məkanı qərar vermiş, onda sizin üçün yollar müəyyənləşdirmiş, səmadan su endirmişdir. Onun (suyun) vasitəsi ilə bitkilərdən müxtəlif zövclər cücərtmişdir.”**

**Nöqtələr**

“Sizin üçün yollar müəyyənləşdirmişdir” cümləsi iki cür mənalandırıla bilər: İnsanların gediş-gəlişi üçün salınmış yollar; qazanc yolları.[1]

Həzrət Musa öz Allahını Firona belə tanıtdırdı: “Bizim rəbbimiz hər şeyi yaradıb hidayət etmiş şəxsdir...” Bu ayələrdə Allahın təbiətdəki hidayət nümunələrinə işarə olunur: İnsanların asayiş beşiyi olan yer, məntəqələri bir-biri ilə əlaqələndirən yollar, yağış, zövciyyət (cütlük) qanununa tabe olan müxtəlif bitkilər.

İlahi nemətləri daha yaxşı qiymətləndirmək üçün onların əks vəziyyətini təsəvvür edək. Məsələn, əgər yer aram dayanmasaydı, iti hərəkət etsəydi, yağış yağmasaydı, yer cəzb etməsəydi, yer üzündə bitkilər və su hövzələri olmasaydı nə olardı?! Yer üzünü “aramlıq beşiyi” saymaq olardımı?!

**Bildirişlər**

1. Körpə beşikdə növbəti həyat mərhələsi üçün inkişaf etdiyi kimi, insan da yer beşiyində axirət həyatı üçün inkişaf edir.[2]

2. Yer üzü insan üçün asayiş mənzilidir. Burada onun bütün ehtiyacları ödənir, ölü və diri insanlar yerləşdirilir, Allahın əmri ilə yer insana ram olur.

3. Yaranış və yer üzündəki şərait məqsədlidir və insan üçün nəzərdə tutulmuşdur.

4. Yaranış nizamı səbəbiyyət, səbəb-nəticə prinsipləri üzərində qurulmuşdur.

5. Bitkilər arasında zövciyyət qanununun açıqlanması Quranın elmi möcüzələrindəndir.[3]

**● AYƏ 54:**

﴿كُلُوا وَارْعَوْا أَنْعَامَكُمْ إِنَّ فِي ذَٰلِكَ لَآيَاتٍ لِّأُوْلِي النُّهَى﴾

**“(Həm özünüz) yeyin, (həm) heyvanlarınızı otarın. Əlbəttə bu işlərdə düşüncə sahibləri üçün nişanələr var.”**

**● AYƏ 55:**

﴿مِنْهَا خَلَقْنَاكُمْ وَفِيهَا نُعِيدُكُمْ وَمِنْهَا نُخْرِجُكُمْ تَارَةً أُخْرَى﴾

**“Biz sizi ondan (torpaqdan) yaratdıq, ona qaytarar və növbəti dəfə ondan xaric edərik.”**

---

[1] “Təfsire-rahnüma”.
[2] “Təfsire-Əl-mizan”.
[3] “Təfsire-Əl-mizan”.

**Nöqtələr**

"Nuhyə" sözünün cəm forması olan "nuha" sözü "nəhy" kökündən olub, saxlamaq mənasını bildirir. "Ulin-nuha" dedikdə ağıl və düşüncə sahibləri mənası nəzərdə tutulur. Bu səbəbdən də insanı azğın istəklərdən çəkindirən ağıl "nuhyə" adlandırılmışdır.[1]

Əziz Peyğəmbərdən (s) "ulin-nuha" təbiri haqqında soruşulduqda həzrət buyurdu: "Onlar gözəl əxlaq sahibidirlər, ata-analarına yaxşılıq edirlər, fəqirlərə, ehtiyaclı qonşulara, yetimlərə yardım əli uzadırlar, aclara qida verirlər, yer üzündə sülh və asayişi möhkəmləndirirlər, başqaları yuxuda olan vaxt namaz qılırlar."[2]

Həzrət Əli (ə) namazın səcdələrini bu ayəyə işarə sayaraq buyurur: "Birinci səcdənin mənası budur ki, Pərvərdigara, mən öncə torpaq idim. Başı səcdədən qaldırmaqla bildirilir ki, məni torpaqdan Sən yaratdın. İkinci səcdənin mənası budur ki, Sən məni torpağa qaytararsan. İkinci səcdədən qalxma isə belə mənalandırıla bilər: Sən qiyamət günü məni növbəti dəfə torpaqdan dirildərsən."[3]

**Bildirişlər**

1. Nəbatat aləmi də məqsədli yaradılmışdır.
2. Nəbatat aləminin rəngarəngliyi ehtiyacların müxtəlifliyi ilə əlaqədardır.
3. Dördayaqlılar (mal-qara) insan üçün yaradılmışdır.
4. Maddiyyat sizi Allah zikrindən uzaq salmasın.
5. İnsanın yaranış qaynağı və maddəsi torpaqdandır.
6. Təbiət haqqında düşüncə allahşünaslıq yollarından biridir.
7. Ağılın varlığından daha mühüm olan, ondan istifadə və ona itaətdir.
8. İnsan torpaqda dəfn olunmalıdır.
9. Məad cismanidir.

**● AYƏ 56:**

﴿وَلَقَدْ أَرَيْنَاهُ آيَاتِنَا كُلَّهَا فَكَذَّبَ وَأَبَى﴾

**"Həqiqətən, Biz bütün ayə və möcüzələrimizi ona (Firona) göstərdik. Amma o, təkzib və imtina etdi."**

**● AYƏ 57:**

﴿قَالَ أَجِئْتَنَا لِتُخْرِجَنَا مِنْ أَرْضِنَا بِسِحْرِكَ يَا مُوسَى﴾

---

1 "Təfsire-Əl-mizan".
2 "Təfsire-nurus-səqəleyn".
3 "Bihar", c. 85, s. 132.

**“(Firon) dedi: «Ey Musa! Sən öz sehrinlə bizi torpağımızdan çıxarmağamı gəlmisən?!»”**

**Bildirişlər**

1. Allah-təala fironlar üçün də höccəti tamamlayır, yetərli dəlillər gətirib bəhanəyə yer qoymur.
2. Bəzi inkarçılara bir möcüzə bəs edir. Firon kimi zalım hakimlərə isə çoxsaylı möcüzələr göstərmək lazım gəlir.
3. İnsanın qəlbi və ruhu xəstələndikdə heç bir dəlil onu qane edə bilmir.
4. İnadkar insan İblis kimidir. “Bəqərə” surəsinin 34-cü ayəsində şeytanın inadkarlığı qeyd olunur.
5. Zalım hakimlər çıxılmaz vəziyyətə düşdükdə insanların müxtəlif hisslərindən, vətən sevgisindən sui-istifadə edib, onları təhrik edirlər.
6. İlahi insanlara qarşı böhtan və sui-zənn zalım hakimlərin üslublarındandır.

**● AYƏ 58:**

﴿فَلَنَأْتِيَنَّكَ بِسِحْرٍ مِّثْلِهِ فَاجْعَلْ بَيْنَنَا وَبَيْنَكَ مَوْعِدًا لَّا نُخْلِفُهُ نَحْنُ وَلَا أَنتَ مَكَانًا سُوًى﴾

**“(Firon davam etdi,) biz hökmən sənin üçün oxşar bir sehr göstərərik. Aramızda bir vaxt müəyyənləşdir, onu pozmayaq. Hamar və hamı üçün eyni uzaqlıqda olan bir məkan seç.”**

**● AYƏ 59:**

﴿قَالَ مَوْعِدُكُمْ يَوْمُ الزِّينَةِ وَأَن يُحْشَرَ النَّاسُ ضُحًى﴾

**“(Musa) dedi: «Sizə verilən vəd zinət (bayram) günü, insanların bir yerə cəm olacağı günorta vaxtıdır.»”**

**● AYƏ 60:**

﴿فَتَوَلَّى فِرْعَوْنُ فَجَمَعَ كَيْدَهُ ثُمَّ أَتَى﴾

**“Firon döndü (məclisi tərk etdi). Bütün məkr və hiyləsini toplayıb yenidən gəldi.”**

**Nöqtələr**

Həzrət Musanın ən yaxşı işlərindən biri bu oldu ki, milli bayram gününü məqsədli və ilahi bir günə çevirdi. Həmin gün bütün sehrbazlar Musanın möcüzəsini görüb əqidələrini dəyişdilər.

**Bildirişlər**

1. Təhqir, böhtan, mühüm hadisələri adi göstərmək zalım hakimlərin qaydasıdır.

2. Bəzən insan daxilən puçluq hiss etsə də, özünü qüdrətli və qətiyyətli göstərir.

3. Düşmənə də vəd verdikdə ona vəfa qılın.

4. Ədalət və insaf düşmənə münasibətdə də yaxşı sayılır. (Hamı üçün eyni uzaqlıqda olan məkan seçildi və kimsəyə imtiyaz verilmədi.)

5. Asudə vaxtlardan səmərəli istifadə edin.

6.Əgər doğru yola çağırış gözəl şəkildə, xalqın ürəyincə olsa daha çox təsir göstərər.

7. Bayram günü məsələsi tarixi keçmişə malikdir.

8. Məntiqi və azad söhbətlər xalqın gözü qarşısında aparılmalıdır.

9. Təbliğdə zaman və məkan ünsürlərini yaddan çıxarmayaq. (Xalqın asudəliyi, yaxında olması, havanın işıqlığı və lətafəti kimi səciyyələr Musanın təbliğatında bir yerə cəmlənmişdi.)

10. Haqq düşmənləri ilkin fürsətdə haqqa qarşı fitnə-fəsad yaratmağa çalışırlar.

**● AYƏ 61:**

﴿قَالَ لَهُم مُّوسَى وَيْلَكُمْ لَا تَفْتَرُوا عَلَى اللَّهِ كَذِبًا فَيُسْحِتَكُمْ بِعَذَابٍ وَقَدْ خَابَ مَنِ افْتَرَى﴾

**“Musa onlara (fironçulara) dedi: «Vay olsun sizə! Allaha iftira yaxmayın, sizi ağır əzabla həlak edər. Şübhəsiz, (Allaha qarşı) iftiraya yol verən kəs nakam və ziyankar olar.»”**

**● AYƏ 62:**

﴿فَتَنَازَعُوا أَمْرَهُم بَيْنَهُمْ وَأَسَرُّوا النَّجْوَى﴾

**“Onlar öz işləri ilə bağlı çəkişir, xəlvəti pıçıldaşırdılar.”**

**Bildirişlər**

1. Möcüzəni sehr saymaq Allaha qarşı iftiradır.

2. Möcüzədən öncə xalqa xəbərdarlıq etmək zəruridir. Möcüzədən öncə Musa xalqa müraciət etdi.

3. Allaha qarşı iftira yaxan kəs dünyada nakam qalası, axirətdə ağır əzabla cəzalandırılasıdır.

4. Yalan və iftira ilə heç vaxt məqsədə çata bilmərik.

5. Haqq qarşısında dayanan kəs həlak olar.[1]

6. Siz əmr be məruf və nəhy əz münkər edin. Sizin yaxşılığa əmr, pisliyə qadağanız bir dəstəyə təsir etməsə də, digər bir dəstədə tərəddüd yaradar.

7. Düşmənlər öz aralarındakı ixtilafı gizlədirlər.

**● AYƏ 63:**

﴿قَالُوا إِنْ هَذَانِ لَسَاحِرَانِ يُرِيدَانِ أَن يُخْرِجَاكُم مِّنْ أَرْضِكُم بِسِحْرِهِمَا وَيَذْهَبَا بِطَرِيقَتِكُمُ الْمُثْلَى﴾

**"(Fironçular) dedilər: "Həqiqətən, bu iki nəfər (Musa və Harun) şübhəsiz, cadugərdir. Onlar öz sehrləri ilə sizi məmləkətinizdən çıxarmaq, üstün ayinlərinizi aradan götürmək istəyirlər."**

**● AYƏ 64:**

﴿فَأَجْمِعُوا كَيْدَكُمْ ثُمَّ ائْتُوا صَفًّا وَقَدْ أَفْلَحَ الْيَوْمَ مَنِ اسْتَعْلَى﴾

**"Qurğularınızı cəmləyin, sonra bir cərgəyə düzülün. Şübhəsiz, bu gün qələbə üstünlük əldə edən kəsindir."**

**Nöqtələr**

Məsulların və hakimlərin xalqın hansı etiqadda olmasında mühüm rolu var. Firon 57-ci ayədə Musaya deyirdi: "Sən sehr yolu ilə bizi məmləkətimizdən çıxarmaq istəyirsən." Bu ayədə isə eyni sözləri Fironun tərəfdarları təkrarlayırlar.

İlahi insanların məntiqinə əsasən qələbə təqvalılara, pəhrizkarlara məxsusdur.[2] Dünyanın super güclərinin şüarı üstünlük və hakimlikdir.

**Bildirişlər**

1. Zalım hakimlər xalqı ilahi insanlara qarşı qaldırmaq üçün onları milli ayinlərə müxalif kimi tanıtdırırlar.

2. Malikiyyət (mülk sahibliyi) təbii bir istəkdir. İnsanlar bu istəyə qarşı çıxanlarla mübarizə aparır. (Vətən sevgisi bütün insanlarda mövcud olan fitri istəkdir.)

3. Vəhdət qələbə, ixtilaf isə süqut rəmzidir. Fironçular bütün köməkçilərini həmkarlığa və qüvvələrin səfərbərliyinə çağırdılar.

4. Nizam-intizam düşməni qorxuya salan amillərdəndir.

---

[1] "Nəhcül-bəlağə", s. 58.

[2] "Əla", 14.

5. Düşmənlər haqqı aradan götürmək üçün bir məqsəd ətrafında toplanır və bütün hərəkətlərini uyğunlaşdırırlar.

● Ayə 65:

﴿قَالُوا يَا مُوسَى إِمَّا أَن تُلْقِيَ وَإِمَّا أَن نَّكُونَ أَوَّلَ مَنْ أَلْقَى﴾

**“(Sehrbazlar) dedilər: “Ey Musa! Sən (əsanı) atırsan, yoxsa əvvəlcə biz ataq?”**

● Ayə 66:

﴿قَالَ بَلْ أَلْقُوا فَإِذَا حِبَالُهُمْ وَعِصِيُّهُمْ يُخَيَّلُ إِلَيْهِ مِن سِحْرِهِمْ أَنَّهَا تَسْعَى﴾

**“(Musa) dedi: «Bəlkə siz atasınız. (Onlar öz qurğularını ortaya atdıqda) sehrləri nəticəsində Musaya elə göründü ki, onların kəndirləri və əsaları hərəkət edir.»”**

● Ayə 67:

﴿فَأَوْجَسَ فِي نَفْسِهِ خِيفَةً مُّوسَى﴾

**“Musa qorxduğunu hiss etdi. (Məbada, xalq bu sehrə aldana!)”**

**Nöqtələr**

“Həbl” sözünün cəm forması olan “hibal” sözü kəndir mənasını bildirir. “İsiyy” sözü isə əsa sözünün cəm formasıdır.

“Əvcəs” dedikdə gizli səs mənası anlaşılır.

Həzrət Əli (ə) “Nəhcül-bəlağə”nin 6-cı xütbəsində “fəəvcəsə fi nəfsihi” təbiri ilə bağlı buyurur: “Musa qorxurdu ki, sehr cahil xalqa təsir etsin.”

**Bildirişlər**

1. Azad buraxmaq haqlılıq nişanəsi deyil. (Fironun tərəfdarları və sehrbazlar Musanı iki yoldan birini seçməkdə azad buraxdılar.)
2. Müxaliflərə əməli azadlıq icazəsi verək, sonra möhkəm və məntiqi cavabla onları rədd edək.
3. Cavab vermək və nöqsanı aradan qaldırmaq üçün şübhə təlqininə icazə var.
4. Sehr əşyanın mahiyyətini dəyişmir. Sehr nəticəsində sadəcə görüntülər dolaşır və insanın idrakına təsir göstərir.
5. Rəhbərlər öz nigarançılıqlarını düşmənə hiss etdirməməlidir.

6. Peyğəmbər də digər insanlar kimi fərqli ruhiyyələrdə olur.

**● AYƏ 68:**

﴿قُلْنَا لَا تَخَفْ إِنَّكَ أَنتَ الْأَعْلَى﴾

**"Biz (Musaya) dedik: «Qorxma! Həqiqətən, sən özün üstünsən.»"**

**● AYƏ 69:**

﴿وَأَلْقِ مَا فِي يَمِينِكَ تَلْقَفْ مَا صَنَعُوا إِنَّمَا صَنَعُوا كَيْدُ سَاحِرٍ وَلَا يُفْلِحُ السَّاحِرُ حَيْثُ أَتَى﴾

**"Sağ əlində olanı at, qoy onların bütün düzəltdiklərini udsun. Həqiqətən, onların hazırladıqları sehrbaz hiyləsidir. Sehrbaz haraya getsə müvəffəq olmaz."**

**● AYƏ 70:**

﴿فَأُلْقِيَ السَّحَرَةُ سُجَّدًا قَالُوا آمَنَّا بِرَبِّ هَارُونَ وَمُوسَى﴾

**"(Musanın möcüzəsini, bütün qurğularının necə udulduğunu gördükdə) sehrbazlar səcdəyə düşdülər və dedilər: "Biz Harunun və Musanın Rəbbinə iman gətirdik."**

**Nöqtələr**

Musanın gördüyü işin sehr-cadu olmadığını anlayan sehrbazlar ixtiyarsız olaraq səcdəyə düşdülər. Sübh vaxtı kafirlər cərgəsində olan sehrbazlar qürub vaxtı şəhidlər toplumuna qatıldılar. Onlar Harun və Musanın Rəbbinə iman gətirdiklərini bildirməklə yanlış yolda olduqlarını etiraf etdilər. Firon özünü xalqın rəbbi sayırdı. Sehrbazlar "Harunun və Musanın Rəbbi" deməklə başqa bir sui-istifadənin də qarşısını aldılar. Əgər onlar "Musanın Rəbbi" desəydilər, Firon iddia edərdi ki, Musanı mən tərbiyə etmişəm. Bu səbəbdən də sehrbazlar öncə Harunun, sonra Musanın adını çəkdilər.[1]

Allah Öz peyğəmbərlərinə heç bir şərt qoymadan üstünlük vəd edir. Möminlərə isə yalnız imana vəfa şərti ilə üstünlük vəd olunur.[2] Peyğəmbərlər daim vəfalı olduğu halda, möminlər yolunu aza da bilər. Bu səbəbdən də Allah möminləri imana vəfa şərti ilə üstün sayır.

**Bildirişlər**

1. Nigarançılıq çox olan yerdə daha çox təkidə ehtiyac duyulur.

---

[1] "Təfsire-Məraği".
[2] "Ali-İmran", 139.

2. Təlqin ruhiyyəni gücləndirən amildir.

3. Höcətkeşə onun sözlərinə uyğun şəkildə, öz dilində cavab vermək lazımdır.

4. Haqq batili puça çıxarır.

5. Təkcə həzrət Musa dövrünün sehrbazları yox, bütün sehrbazlar bədbəxt olmuşlar.

6. Sağlam və qeyri-inadkar fərdlər həqiqət aydınlaşan kimi onu qəbul edirlər. (Sehrbazlar sanki daxilən səcdəyə məcbur edildilər.)

7. İnsan bir anda qərarını dəyişib, yeni əqidə seçə bilən mövcuddur.

8. Tövbə yolu hamının üzünə açıqdır. Şirkin tövbəsi Allaha iman gətirməkdir. Hər çaşqın insanı pis saymayaq, həmin şəxs tövbə edə bilər.

9. İnsanlar əqidə seçimində azad buraxılıb və mühitə tabe deyil.

10. Səcdə əminlik nişanəsidir. Səcdəsiz iman olmur.

11. Sehrbazlar bir cümlə ilə tövhid və nübüvvətə imanlarını izhar etdilər.

● **AYƏ 71:**

﴿قَالَ آمَنتُمْ لَهُ قَبْلَ أَنْ آذَنَ لَكُمْ إِنَّهُ لَكَبِيرُكُمُ الَّذِي عَلَّمَكُمُ السِّحْرَ فَلَأُقَطِّعَنَّ أَيْدِيَكُمْ وَأَرْجُلَكُم مِّنْ خِلَافٍ وَلَأُصَلِّبَنَّكُمْ فِي جُذُوعِ النَّخْلِ وَلَتَعْلَمُنَّ أَيُّنَا أَشَدُّ عَذَابًا وَأَبْقَى﴾

**“(Firon bütün planlarının boşa çıxdığını görüb sehrbazlara) dedi: «Mən sizə icazə verməmiş ona iman gətirdiniz? Şübhəsiz, o sizin başçınızdır, sizə sehr öyrədib. Əl-ayaqlarınızı çarpaz kəsəcək, sizi xurma ağacının budaqlarından asacağam. Tezliklə kimin işgəncəsinin daha ağır olduğunu biləcəksiniz.»”**

**Nöqtələr**

61-ci ayədə Musa fironçuları əzabla qorxutdu. Bu ayədə isə Firon deyir: “Tezliklə kimin əzabının daha ağır olduğunu görəcəksiniz.”

**Bildirişlər**

1. Allah istəsə, pisdən də xeyir gəlir. Firon həqiqəti aradan götürmək üçün bütün mütəxəssisləri bir yerə topladı. Amma oraya cəm olanların hamısı Musanın vasitəsi ilə hidayət oldu.

2. Zalım quruluşda çıxıntı hakimdir, xalq hətta əqidə azadlığından məhrumdur.

3. Hədə-qorxu və böhtan zalım hakimlərin qaydasıdır.

4. Peyğəmbərlər insanların ruhu üzərində işləyir. Zalım hakimlər isə insanların cisminə zərbə vurmaqla intiqam alır. Onlar anlamırlar ki, işgəncə və qətl yolu ilə xalqın etiqadını dəyişmək olmaz.

5. Təkəbbürlü zalımlar özlərini əbədi bilirlər.

● AYƏ 72:

﴿قَالُوا لَن نُّؤْثِرَكَ عَلَى مَا جَاءنَا مِنَ الْبَيِّنَاتِ وَالَّذِي فَطَرَنَا فَاقْضِ مَا أَنتَ قَاضٍ إِنَّمَا تَقْضِي هَذِهِ الْحَيَاةَ الدُّنْيَا﴾

**“(İman gətirmiş sehrbazlar Firona) dedilər: «Biz heç vaxt bizi yaratmış kəsdən və bizim üçün gəlmiş möcüzələrdən səni üstün tutmayacağıq. İstədiyin hökmü ver. Sən yalnız dünya həyatında hökm verirsən.”**

● AYƏ 73:

﴿إِنَّا آمَنَّا بِرَبِّنَا لِيَغْفِرَ لَنَا خَطَايَانَا وَمَا أَكْرَهْتَنَا عَلَيْهِ مِنَ السِّحْرِ وَاللَّهُ خَيْرٌ وَأَبْقَى﴾

**“Həqiqətən, biz Rəbbimizə iman gətirdik ki, xətalarımızı, bizi vadar etdiyin sehrləri bizə bağışlasın. Allah daha üstün və əbədidir.”**

**Nöqtələr**

“Xətiə” sözünün cəm forması olan “xətaya” sözü bilərəkdən yol verilən günahlar mənasını ifadə edir.[1]

“Ma əkrəhtəna ələyhi minəs-sihr”, yəni biz Allahdan sənin məcbur etdiyin xətalara görə bağışlanma diləyirik. “Sehrə məcburiyyət” dedikdə sehrbazların bir yerə toplanması və sehr göstərməyə vadar edilməsi nəzərdə tutulur.

Allah yolunda canından keçən kəs hər an inkişafdadır. Sehrbazlar bu ayələrdə Allahı üç təbirlə xatırlamışdır.

İmam Sadiqdən (ə) nəql olunmuş hədisdə oxuyuruq: “Özünü başqalarından üstün bilən hər kəs təkəbbür əhlidir.” İmamdan soruşdular ki, “özünü günahkarlardan üstün sayan pak insanlar da təkəbbür əhli sayılırmı?” İmam sehrbazların iman gətirməsi mövzusunu bəyan etdi və buyurdu: ”İnsan bəzən bir neçə anda fikrini dəyişir. Buna görə də özünüzü üstün saymayın. Çünki işin sonundan xəbərsizsiniz.”[2]

**Bildirişlər**

1. İnsanlar əqidə və iman seçimində azad buraxılıblar. İnsanların əqidəsini zorla dəyişmək olmaz.
2. Elə edin ki, düşmənlər sizdən ümidlərini üzsünlər.
3. İman insana qüdrət və cürət verir. Sehrbazlar iman gətirdikdən sonra Firona qarşı çıxdılar.
4. Məntiq və bəsirətə əsaslanan iman dəyərlidir.

---

[1] “Lisanul-ərəb”.
[2] “Kafi”, c. 8, s. 328.

5. Dünyanın super gücləri həqiqi möminlərin gözündə aciz və dəyərsizdirlər.

6. İlahi dəyərlərin müdafiəsi yolunda insanın candan keçməyə hazırlığı gerçək iman nişanəsidir.

7. İmansız insan zalım rejimin hədiyyələrinə meyl göstərir. Həqiqi mömin isə Allahdan savay nə varsa kiçik və dəyərsiz sayır.

8. İlahi əfvə nail olmaq üçün ilk addım Allaha iman gətirməkdir.

9. Sehr-cadu günahdır və bu işi görən tövbə etməlidir.

10. Zalım hakimlər xalq arasındakı mütəxəssislərdən sui-istifadə edirlər.

11. Düşmənlə düşmən kimi davranın. Firon özünü öydüyü vaxt iman gətirmiş sehrbazlar Allahı öydülər.

**● AYƏ 74:**

﴿إِنَّهُ مَن يَأْتِ رَبَّهُ مُجْرِمًا فَإِنَّ لَهُ جَهَنَّمَ لَا يَمُوتُ فِيهَا وَلَا يَحْيَى﴾

**“Həqiqətən, Rəbbinin yanına günahkar kimi gələn hər kəs üçün cəhənnəm var. Orada nə ölər, nə də yaşayar.”**

**● AYƏ 75:**

﴿وَمَنْ يَأْتِهِ مُؤْمِنًا قَدْ عَمِلَ الصَّالِحَاتِ فَأُوْلَئِكَ لَهُمُ الدَّرَجَاتُ الْعُلَى﴾

**“İman gətirib saleh işlər görən halda gəlmiş kəslər üçün ali və üstün dərəcələr var.”**

**● AYƏ 76:**

﴿جَنَّاتُ عَدْنٍ تَجْرِي مِن تَحْتِهَا الْأَنْهَارُ خَالِدِينَ فِيهَا وَذَلِكَ جَزَاء مَن تَزَكَّى﴾

**“Altından çaylar axan əbədi bağlar! Onlar həmişə orada qalacaqlar. Bu, özünü paklayanların mükafatıdır.”**

**Nöqtələr**

Sehrbazlar iman gətirdikdən sonra Firona dedilər: “Sənin işgəncələrin, qətl hökmün bu bir neçə günlük dünyaya aiddir. Allahın qəhr-qəzəbi və ya lütfü isə daimidir. Cəhənnəmə düşən hər bir kəs orada əbədi qalasıdır. Behişt əhli də behiştdə əbədidir.

Möminin yeri behiştdir. Behiştdəki dərəcə isə insanın nə həddə paklanmasından asılıdır. İnsan çalışmalı, bütün yönümlərdə özünü çirkinliklərdən təmizləməlidir. Ruhu azğın əqidələrdən, əxlaqı çirkin adətlərdən, cismi bulaşıqlıqlardan, əməl və rəftarları çirkin işlərdən paklamaq mühümdür.

**Bildirişlər**

1. Tövbə etməyən şəxs qiyamət səhnəsinə günahkar kimi gətirilər. (Sehrbazlar dedilər: "Biz iman gətirdik ki, Allah bizim tövbələrimizi qəbul edib bağışlasın." Sonra əlavə etdilər ki, Allahın hüzuruna günahkar gələn kəs cəhənnəmə düşəsidir.)
2. Günahdan da pisi günahkar halda ölməkdir.
3. İnsan öz imanını ömrünün son anınadək qorumalıdır.
4. İnsan əqidə seçimində azad buraxılıb.
5. İman saleh əməldən ayrı deyil.
6. Həqiqi mömin hər bir saleh iş üçün amildir.
7. Behiştin silsilə mərhələləri var.
8. Paklanma behiştin açarıdır.
9. Mömin özünütərbiyə və paklanma əhlidir.

**● Ayə 77:**

**﴿وَلَقَدْ أَوْحَيْنَا إِلَى مُوسَى أَنْ أَسْرِ بِعِبَادِي فَاضْرِبْ لَهُمْ طَرِيقًا فِي الْبَحْرِ يَبَسًا لَّا تَخَافُ دَرَكًا وَلَا تَخْشَى﴾**

**"Həqiqətən, Biz Musaya vəhy etdik ki, bəndələrimizi gecə (Misirdən) yola çıxar. Onlar üçün dərya arasından quru bir yol aç ki, nə təqibdən qorxasan, nə (qərq olmaqdan) çəkinəsən."**

**● Ayə 78:**

**﴿فَأَتْبَعَهُمْ فِرْعَوْنُ بِجُنُودِهِ فَغَشِيَهُم مِّنَ الْيَمِّ مَا غَشِيَهُمْ﴾**

**"Firon öz qoşunu ilə onların ardınca getdi. Dərya onları bürüdü və bütünlüklə qərq etdi."**

**● Ayə 79:**

**﴿وَأَضَلَّ فِرْعَوْنُ قَوْمَهُ وَمَا هَدَى﴾**

**"Firon öz qövmünü azdırdı və doğru yola aparmadı."**

**Nöqtələr**

Sehrbazlar və Misir camaatı Musaya iman gətirdiyi vaxt Fironun hədələrindən çəkinmədi. Beləcə, ilahi yardım yolu açıldı. Musaya xitab olundu ki, camaatı gecə vaxtı Misirdən yola çıxarsın, onlar üçün dəryadan yol açılıb və Fironun şərindən qorunublar.[1]

---

[1] "Təfsire-fi zilalil Quran".

"İsra" sözü gecə vaxtı hərəkət mənasını bildirir. Öncə suyu olmuş, sonradan qurumuş yer "yəbəs" adlanır. "Dərək" dedikdə insanı yaxalamış zərər, "ibadi" dedikdə Bəni-İsrail nəzərdə tutulur.

**Bildirişlər**

1. Peyğəmbərlərin hərəkəti və mübarizə üsulu ilahi vəhyə əsaslanır.
2. Qürbətdə izzət vətəndə zillətdən üstündür.
3. Əgər çirkin mühiti dəyişə bilmiriksə, heç olmasa həmin mühitdən uzaqlaşaq.
4. Peyğəmbərlərin göndərilməsində məqsədlərdən biri insanları zalım hakimlərin şərindən qurtarmaqdır.
5. Zalıma qarşı ilk addım onun ətrafını boşaltmaqdır.
6. Allah məhrumların yardımçısıdır.
7. Xalqın hidayət və idarəçiliyi ilahi rəhbərlərin vəzifəsidir.
8. Musanın möcüzəsi cəmiyyəti elə silkələdi ki, Firon özü onları təqib etməyə məcbur oldu.
9. Dərya da təbiətin bir hissəsi olaraq Allahın qəhrinə və ya mehrinə tabedir.
10. Cəmiyyət rəhbərlərinin və hakimlərin xalqın hansı yolu tutmasında mühüm rolu var.
11. Azğın şüarları cavabsız qoymayaq. Firon öz əməl və rəftarlarına görə lazımınca cavab aldı. O nəinki xalqı doğru yola çəkmədi, əksinə azğınlığa sürüklədi.

**• AYƏ 80:**

﴿يَا بَنِي إِسْرَائِيلَ قَدْ أَنجَيْنَاكُم مِّنْ عَدُوِّكُمْ وَوَاعَدْنَاكُمْ جَانِبَ الطُّورِ الْأَيْمَنَ وَنَزَّلْنَا عَلَيْكُمُ الْمَنَّ وَالسَّلْوَى﴾

**"Ey Bəni-İsrail! Həqiqətən, Biz sizi düşmənlərdən qurtardıq. Sizinlə Tur dağının sağında vədələşdik. Sizin üçün «mənn» və «səlva» (kimi qidalar) nazil etdik."**

**Nöqtələr**

Bəni-İsrailin Fironun sitəmindən xilas edilməsi və onlara "mənn" və "səlva" kimi qidalar verilməsi Quranda dəfələrlə yada salınmış mövzulardandır.

Zahirən "mənn" bal, "səlva" əti halal və dadlı quş növüdür.

Turun sağ tərəfində vədələşmə dedikdə, həzrət Musanın Bəni-İsraildən olan bir qrupla Tura getməsi və orada Tövrat lövhələrinin Musaya nazil olması nəzərdə tutulur.

**Bildirişlər**

1. İlahi nemətlərin yada salınması peyğəmbərlik vəzifələrindən biri, insanın inkişaf və təşəkkülü üçün zəmindir.

2. Azadlıq və əmin-amanlıq Allahın böyük nemətlərindəndir və digər nemətlərdən istifadə üçün zəmindir.

3. Zalım rejimin süqutundan və yeni hökumət təşkil olunduqdan sonra ilkin ehtiyac qanundur. (Allah Tövrat və ilahi qanun əta edəcəyini vəd vermişdir.)

4. Bütün lütflər Allah tərəfindəndir.

5. Mənəvi nemət maddi nemətdən öndə gəlir. Öncə Tövrat, sonra qidalar yada salınır.

**• AYƏ 81:**

﴿كُلُوا مِن طَيِّبَاتِ مَا رَزَقْنَاكُمْ وَلَا تَطْغَوْا فِيهِ فَيَحِلَّ عَلَيْكُمْ غَضَبِي وَمَن يَحْلِلْ عَلَيْهِ غَضَبِي فَقَدْ هَوَى﴾

**"Sizə ruzi etdiyimiz pak şeylərdən yeyin, (amma) tüğyan qoparmayın, yoxsa qəhr-qəzəbim sizi bürüyər. Qəzəbimə düçar olan kəs, şübhəsiz, süqut etmişdir."**

**Bildirişlər**

1. Bir şeyin haramlığı məlum deyilsə, ondan istifadəni halal saymaq lazımdır. Halal şeyləri haram etmək qadağandır.

2. İlahi dinlər qidalanmada təmizlik məsələsinə diqqət yetirir.

3. Halallıq meyarlarından biri xoşagəlimlikdir. (Təbiətə uyğun, xoşagələn şey "təyyib" adlanır.)

4. Şəriətin qidalanma ilə bağlı hökmlərinə riayət etməmək tüğyan üçün zəmindir.

5. Zülmdən qurtulmuş ümmətlər üçün tüğyan təhlükəsi var.

6. Allahın halallarını haram yolda istifadə etməyək.

7. Ehtiyacdan artıq məsrəf ilahi hökmdən çıxmaqdır.

8. Allahın tüğyan qoparanlara qarşı qəzəbi ciddi xəbərdarlıqdır.

9. İstifadədə həddi aşıb tüğyan qoparmaq kəbirə günahlardandır. Çünki belə bir işə görə ilahi əzab vəd olunmuşdur.

10. Əsil süqut siyasi, iqtisadi uğursuzluq yox, Allahın qəzəbinə düçar olmaqdır.

**• AYƏ 82:**

﴿وَإِنِّي لَغَفَّارٌ لِّمَن تَابَ وَآمَنَ وَعَمِلَ صَالِحًا ثُمَّ اهْتَدَى﴾

**"Şübhəsiz, Mən tövbə edib iman gətirən, saleh işlər görüb doğru yolu tutan hər kəsi bağışlayaram."**

**Nöqtələr**

Xəbərdarlıqla başa çatan ötən ayədən sonra bu ayədə müjdə verilir. Xəbərdarlıqla müjdənin yanaşı gətirilməsi bütün Quran boyu müşahidə olunur.

Günahların tövbəsi günaha münasib olmalıdır. Məsələn, namaz qılmayanın tövbəsi namazın qəzasını yerinə yetirmək, xalqa əziyyət verənin tövbəsi üzr istəmək, haqqı gizlədənin tövbəsi onu bəyan etmək, şirkə batanın tövbəsi iman gətirmək, xalqın malını qəsb edənin tövbəsi malı sahibinə qaytarmaqdır.

Bu ayədə tövbəkarların bağışlanmasından danışılsa da, digər ayədə oxuyuruq: "İman gətirdikdən sonra küfr edən və küfrünü artıran kəslərin tövbəsi heç vaxt qəbul olunmayacaq."[1]

İlahi peyğəmbərlər də Allahdan bağışlanma diləmişlər: Adəm (ə)[2]; Nuh (ə)[3]; İbrahim (ə)[4]; Musa (ə)[5]; İsa (ə)[6]; Məhəmməd (s).[7]

"İhtəda" rəvayətlərə əsasən Əhli-beytin (ə) vilayətinə işarədir.[8]

**Bildirişlər**

1. Allahın qəzəbinə gələnlər üçün də tövbə yolu açıqdır.
2. İnsanın haqqa doğru gerçək qayıdışının Allah tərəfindən bağışlanma və bir çox başqa təsirləri vardır.
3. Tövbə müəyyən şərtlərlə qəbul olunur: qayıdış, iman, saleh əməl, doğru yolun qəbulu.
4. Hidayətin, doğru yolun qəbulu olmayan yerdə hətta iman və saleh əməl də bəs etmir. (Bəli, iman və saleh əməl olsa, amma insan ilahi hidayətçilərin yolunu davam etdirməsə, samirilərin və bələmlərin ovuna çevrilər.)
5. Mömin olmaq mühümdür. Amma mömin qalmaq daha əhəmiyyətlidir.

**● AYƏ 83:**

﴿وَمَا أَعْجَلَكَ عَن قَوْمِكَ يَا مُوسَى﴾

**"(Musaya dedik:) «Ey Musa! Nə səbəb oldu ki, qövmündən qabağa düşdün? (Nə üçün vəd yerinə daha tez gəldin?)»"**

**● AYƏ 84:**

﴿قَالَ هُمْ أُولَاءِ عَلَى أَثَرِي وَعَجِلْتُ إِلَيْكَ رَبِّ لِتَرْضَى﴾

---

[1] "Ali-İmran", 90.
[2] "Əraf", 23.
[3] "Hud", 47.
[4] "Şuəra", 82.
[5] "Əraf", 151.
[6] "Maidə", 118.
[7] "Nəsr", 4.
[8] "Kafi", c. 8, s. 393.

**“(Musa) dedi: «Onlar (mənim qövmüm) ardımca gəlirlər. Pərvərdigara! Razılığından ötrü Sənə doğru tələsdim.»”**

**● AYƏ 85:**

**﴿قَالَ فَإِنَّا قَدْ فَتَنَّا قَوْمَكَ مِن بَعْدِكَ وَأَضَلَّهُمُ السَّامِرِيُّ﴾**

**“(Allah) buyurdu: «Həqiqətən, Biz qövmünü səndən sonra sınağa çəkdik və Samiri onları azdırdı.»”**

**Nöqtələr**

İmam Sadiq (ə) yuxarıdakı ayələrə əsasən aşiqin siması haqqında belə buyurur: “Aşiq insan məhbubuna yetənədək yemək, libas, məskən haqqında düşünmür, aramlıq tapmır. Necə ki, həzrət Musa vəhyə çatmaq eşqi ilə yuxu və yeməkdən qalmışdı. O dedi: “Pərvərdigara! Mən qövmümdən tez gəldim ki, sən razı qalasan.”[1]

**Bildirişlər**

1. Peyğəmbər də öz əməllərinə görə cavabdehdir.
2. Rəhbər öndə getməlidir ki, ümmət də onun arxasınca hərəkət etsin.
3. Musa Allah, ilahi kəlamı dinləmək aşiqi idi.
4. Xeyir işdə, Allahın razılığını əldə etmək üçün tələsməyin eybi yoxdur.
5. Peyğəmbərlərin ən böyük məqsədi Allahın razılığını qazanmaqdır.
6. Cəmiyyətdə ilahi rəhbər varsa, düşmən bir iş görə bilməz. Azğınlar ilahi rəhbərin bir müddət olmamasından sui-istifadə edirlər.
7. Ümmətlər rəhbərdən uzaq düşdükdə onlar üçün sınaq və fitnə təhlükəsi var.
8. Xalqın dini inanclarının aradan götürülməsində azğın sənət adamı zalım hakimdən az rol oynamır.
9. Təzə iman gətirənlər üçün mürtədlik (dindən çıxma) təhlükəsi daha ciddidir.
10. Peyğəmbərin səhabəsi olmaq bəs deyil. Xoş aqibət və dini möhkəmlik zəruridir. (Allah Bəni-İsraili xilas etdi, onlara pak ruzi verdi. Amma yenə bədbəxt oldular.)

**● AYƏ 86:**

**﴿فَرَجَعَ مُوسَى إِلَى قَوْمِهِ غَضْبَانَ أَسِفًا قَالَ يَا قَوْمِ أَلَمْ يَعِدْكُمْ رَبُّكُمْ وَعْدًا حَسَنًا أَفَطَالَ عَلَيْكُمُ الْعَهْدُ أَمْ أَرَدتُّمْ أَن يَحِلَّ عَلَيْكُمْ غَضَبٌ مِّن رَّبِّكُمْ فَأَخْلَفْتُم مَّوْعِدِي﴾**

---

[1] “Təfsire-Safi”.

**“Musa qəzəbli və pərişan halda qövmünün yanına qayıtdı. O dedi: “Ey mənim qövmüm! Rəbbiniz sizə xeyir vəd etməyibmi? (Mənim olmadığım) müddət sizə uzun gəldimi? Yoxsa Rəbbinizin qəzəbinə gəlmək istədiyiniz üçün mənimlə olan vədinizə xilaf çıxdınız?”**

**Nöqtələr**

Bu ayədə iki vədə işarə olunur: Allah tərəfindən Tövratın nazil olması ilə bağlı vəd; Musadan sonra qardaşı Haruna itaətlə bağlı verilmiş vəd. Amma xalq buzovpərəstliyə üz tutub bu vədləri unutdu. Musa onları məzəmmət edərkən azğınlıqlarının səbəbini soruşdu: “Siz bilmədən yolunuzu azdınız, yoxsa bilərəkdən Allahın qəzəbinə üz tutdunuz? Bəlkə otuz gün əvəzində qırx gün olmamağım sizi çaşdırdı?”[1]

Bu ayədə də 81-ci ayədəki kimi ilahi qəzəbin nazil olmasından danışılır. Amma qəzəb səbəbi kimi birinci halda xalqın tüğyanı, ikinci halda xalqın əhdi pozması göstərilir. Bəni-İsrailin süqutu məhz bu amillərlə bağlı idi.

**Bildirişlər**

1. Hansısa azğınlıqdan xəbər tutan kimi dərhal reaksiya göstərin.
2. Dini qeyrət ilahi övliyaların bariz sifətlərindəndir. (Xalqın yolunu azması ilahi rəhbər və övliyaları qəmləndirir.)
3. Allahın razılığı yolunda qəzəb məzəmmət olunmur. Allah övliyalarını qəzəbləndirib pərişan edən xalqın yolunu azması və mənəvi büdrəməsidir.)
4. Münasib vaxtda xətakar məzəmmət olunmalıdır.
5. Rəhbərin bir müddət olmaması və yaxud proqramdakı cüzi dəyişikliklər azğınlıq və dindən kənarlaşma səbəbi olmamalıdır.
6. İrtica, dinsizlik və əhdi pozmaq Allahın qəhr-qəzəbi ilə nəticələnir.
7. Qəhr-qəzəb tərbiyə üsullarındandır.
8. Peyğəmbərlə əhdi pozmaq ilahi qəzəb amilidir. (Peyğəmbərlərlə xalq arasında öhdəçiliklər olmuşdur. Peyğəmbərlərin hökm və nümayəndələri ilə bağlı bu əhdlərə vəfa qılmaq lazımdır. Musa xalqdan Haruna itaətlə bağlı əhd almışdı.)
9. Peyğəmbərin canişini və nümayəndəsinə qarşı çıxmaq onun özünə qarşı çıxmaqdır. (Haruna itaətsizlik Musaya itaətsizlikdir.)[2]
10. Məzəmmət edərkən xilafkarlar üçün tövbə yolu saxlayın. (Musanın çoxsaylı suallarından belə bir nəticə alınır.)

---

[1] “Təfsire-Mərağі”.
[2] “Təfsire-Məcməül-bəyan”.

**• AYƏ 77:**

﴿قَالُوا مَا أَخْلَفْنَا مَوْعِدَكَ بِمَلْكِنَا وَلَكِنَّا حُمِّلْنَا أَوْزَارًا مِّن زِينَةِ الْقَوْمِ فَقَذَفْنَاهَا فَكَذَلِكَ أَلْقَى السَّامِرِيُّ﴾

**"(İnsanlar Musaya) dedilər: «Biz öz istəyimizlə vədə xilaf çıxmadıq. Onun (Fironun) qövmünün bər-bəzəkləri ilə yüklənmişdik. Biz onları (oda) atdıq. Samiri bu sayaq (bizə) təlqin etdi.»"**

**Bildirişlər**

1. Günahkarlar cəzadan qaçmaq üçün xaricdən məcburiyyət, sıxıntı kimi bəhanələr gətirirlər.
2. Haram mal haram işə sərf olar. (Fironçuların zülm yolu ilə əldə etdiyi bər-bəzəklər sonda buzovun düzəldilməsinə xərcləndi.)[1]
3. Dünyaya aid bir çox görüntülər, bər-bəzəklər və mal-mülk insan üçün dərd-bəladır.
4. Azğınlar xalqın öz sərmayəsindən onu azdırmaq, çirkin məqsədlərinə çatmaq üçün istifadə edirlər.
5. Zəif imanlı və müti cəmiyyət özü hər şeyi asanlıqla əldən verir.
6. Azğınların təlqini və sənəd nümayişləri cəmiyyətə təsirsiz qalmır.
7. Günahkar şəxs öz günahını başqasının boynuna atmağa çalışır.
8. Ən böyük zərbələr azğınlıq amillərinin özünə aiddir.

**• AYƏ 88:**

﴿فَأَخْرَجَ لَهُمْ عِجْلًا جَسَدًا لَهُ خُوَارٌ فَقَالُوا هَذَا إِلَهُكُمْ وَإِلَهُ مُوسَى فَنَسِيَ﴾

**"(Samiri) onlar üçün səs çıxaran erkək buzov heykəli düzəltdi. (Ardıcılları ilə birlikdə insanlara) dedilər: «Bu sizin və Musanın tanrısıdır. «(Samiri Allahı və Musanın bütün təlimlərini) unutdu.»"**

**• AYƏ 89:**

﴿أَفَلَا يَرَوْنَ أَلَّا يَرْجِعُ إِلَيْهِمْ قَوْلًا وَلَا يَمْلِكُ لَهُمْ ضَرًّا وَلَا نَفْعًا﴾

**"Görmürlərmi ki, (buzovun) onlara heç bir cavabı yoxdur və onlar üçün xeyir-zərər sahibi deyil?!"**

**Nöqtələr**

Samirinin ustalıqlarından biri bu idi ki, buzovu xalqın gözü qarşısında düzəltmədi. Xalq birdən birə səs çıxaran buzov heykəli ilə üzbəüz qaldı.

---

[1] "Təfsire-nümunə".

Bəni-İsrailin ağlına da gəlmədi ki, əgər buzov pərəstişə layiqdirsə, onu düzəldən Samiriyə daha öncə pərəstiş edilməlidir.

**Bildirişlər**

1. Sosioloji və psixoloji əsaslara malik sənət əsəri daha təsirlidir. (Samirinin tez bir zamanda müvəffəqiyyət qazanmasının səbəbi onun cəmiyyətdəki bütpərəstlik və buzovpərəstlik zəminini və rəhbərin olmamasını nəzərə alması idi.)

2. Azğın insanın ixtiyarındakı sənət sərxoşun əlindəki xəncər kimidir. Samirinin buzovu da bu qəbildən idi.

3. Heykəltəraşlığın, metal əritmənin və tökməçiliyin uzun keçmişi var.

4. Hər bir ümmət və inqilabı hədələyən ən böyük təhlükə irtica, dinsizlik, azğın mədəniyyətdir.

5. Bütün insanların fitrətində allahpərəstlik var. Peyğəmbərlər doğru yol və həqiqi məbudu göstərirsə, samirilər insanları əyri yola və buzovpərəstliyə çağırırlar.

6. Haqpərəst rəhbəri böhtanla sıradan çıxardıqdan sonra onların ətrafını aradan götürmək asanlaşır.

7. İlahi göstərişləri unutmayın. Din rəhbərlərindən uzaq düşməyin nəticəsi azğınlıq və bədbəxtlikdir. (Qeyd olunur ki, Samiri Musanın tərəfdarlarından idi, sonradan onunla bağladığı əhdi unutmuşdu.)[1]

8. Peyğəmbər yolu dəlil və məntiq yoludur. (Ağıl deyir ki, insanın üz tutduğu məbud ona mənfəət verib, zərərdən qorumaq qüdrətinə malik olmalıdır.)

**● Ayə 90:**

﴿وَلَقَدْ قَالَ لَهُمْ هَارُونُ مِن قَبْلُ يَا قَوْمِ إِنَّمَا فُتِنتُم بِهِ وَإِنَّ رَبَّكُمُ الرَّحْمَنُ فَاتَّبِعُونِي وَأَطِيعُوا أَمْرِي﴾

**“Əlbəttə, Harun (Musa gəlməmişdən) öncə onlara demişdi: “Ey mənim qövmüm! Siz onun (buzovun) vasitəsi ilə sınağa çəkilmisiniz. Həqiqətən, mənim Rəbbim Rəhman Allahdır. Mənə tabe olun və göstərişlərimə itaət edin.”**

**● Ayə 91:**

﴿قَالُوا لَن نَّبْرَحَ عَلَيْهِ عَاكِفِينَ حَتَّى يَرْجِعَ إِلَيْنَا مُوسَى﴾

**“(Dindən çıxmış qövm Haruna) dedilər: «Musa yanımıza qayıdanadək bu yoldayıq. (Buzovpərəstlikdən əl çəkməyəcəyik).»”**

---

[1] “Təfsire-nümunə”.

**Bildirişlər**

1. Bəziləri o qədər süquta uğrayıb ki, nə ağılın, nə də peyğəmbərin göstərişlərinə məhəl qoymur.

2. Bəni-İsrail agah şəkildə doğru yoldan çıxıb dinə arxa çevirirdi.

3. Rəhbər və onun ardıcıllarının vəzifəsi bidəti ifşa edib höccəti tamamlamaq, bəhanəyə yer qoymamaqdır.

4. Peyğəmbərlər xalqa canıyanandırlar.

5. İnsanların sınağa çəkilməsi qəti ilahi sünnə, qanundur. Lakin sınaq vasitələri müxtəlif ola bilər.

6. Allahın lütf və mərhəmətinin yada salınması insanların düzəliş və tövbəsi üçün zəmin yarada bilər.

7. Peyğəmbərin canişini və nümayəndəsinə itaət vacibdir.

8. İlahi rəhbərlərə itaət insanları fitnə-fəsaddan qoruyan səbəbdir.

9. Peyğəmbərlərin fəryadı inadkar insanlara təsir göstərmir.

10. Bəni-İsrail düşünmək əvəzinə, şəxsiyyətə uyurdu.

**● AYƏ 92:**

﴿قَالَ يَا هَارُونُ مَا مَنَعَكَ إِذْ رَأَيْتَهُمْ ضَلُّوا﴾

**"(Musa qardaşının saç-saqqalından yapışıb) dedi: "Ey Harun! Onların yolunu azdığını gördüyün vaxt səni nə dayandırdı?"**

**● AYƏ 93:**

﴿أَلَّا تَتَّبِعَنِ أَفَعَصَيْتَ أَمْرِي﴾

**"Yoxsa mənə itaət etmirsən? (Nə üçün xalqı xilas etmək üçün ardımca gəlmədin?) Yoxsa göstərişimə tabe olmadın?"**

**● AYƏ 94:**

﴿قَالَ يَا ابْنَ أُمَّ لَا تَأْخُذْ بِلِحْيَتِي وَلَا بِرَأْسِي إِنِّي خَشِيتُ أَن تَقُولَ فَرَّقْتَ بَيْنَ بَنِي إِسْرَائِيلَ وَلَمْ تَرْقُبْ قَوْلِي﴾

**"(Harun) dedi: «(Ey qardaş,) ey anamın oğlu! Saç-saqqalımdan və başımdan tutma. Həqiqətən, qorxdum deyəsən ki, Bəni-İsrail arasına təfriqə saldın, mənim sözlərimi nəzərə almadın!"**

**Nöqtələr**

Həzrət Musa Tur dağından qayıtdıqdan sonra qövmünün doğru yoldan çıxdığını gördü. Onun qınağı üç istiqamətdə yönəldi: xalq, Harun, Samiri.

“Ətyəbul-bəyan” təfsirində bildirilir ki, Harun peyğəmbər və məsum olduğundan öz vəzifəsinə əməl etmişdi. Musanın ona ünvanlanmış məzəmmətləri “qızım sənə deyirəm, gəlin sən eşit” prinsipi ilə izah oluna bilər. Musa xalqın anlaması üçün Harunu qınayırdı.

“Təfsiri-Safi” mənbəsində nəql olunur ki, İmam Sadiq (ə) bu mövzu ilə bağlı buyurmuşdur: “Musa Harunu qınayırdı ki, nə üçün vəziyyəti dərhal ona xəbər verməyib. Ümumi düşüncəni hərəkətə gətirmək, cəmiyyətin ölülərini silkələmək üçün təbliğ gedişində yeni üsullara əl atmaq lazım gəlir. Məhz bu məqsədlə Musa öz məsum canişini ilə belə rəftar etdi. Həzrət Əli (ə) xütbə oxuduğu vaxt özünə möhkəm bir sillə vurdu.

**Bildirişlər**

1. Rəhbərlər xalqın büdrəmələrinə cavabdehdirlər.
2. Məsulların sükut və biganəliyi məzəmmətə layiqdir.
3. Pis sonluq dindarlıq üçün bəladır.
4. Bir peyğəmbər o biri peyğəmbərə tabe ola bilər.
5. Cəmiyyətə vahid müdiriyyət hakim olmalıdır.
6. Başqalarının qəzəbini soyutmaq üçün xoş sözlərdən istifadə edək.
7. Dindarlıq qohumcanlılıqdan mühümdür.
8. Dini qeyrət və təəssüb peyğəmbərlik şərtidir.
9. Müttəhimə müdafiə imkanı verək.
10. Kişinin saçı uzun ola bilər.
11. Ümmət arasındakı təfriqə təhlükəsi Harun peyğəmbəri də qorxutdu.
12. Vəhdəti qorumaq kiçik bir qrupu xilas etməkdən mühümdür.
13. Hər hansı qərar çıxararkən “əhəmiyyətli və daha əhəmiyyətli” (əhəmm və mühümm) prinsipini nəzərə almaq lazımdır.
14. İnqilabi hərəkatda maneələri nəzərə almaq, birtərəfli baxışdan çəkinmək lazımdır.
15. Təfriqə təhlükəsi azğınlıq önündə sükut təhlükəsindən daha böyükdür.

**• AYƏ 95:**

﴿قَالَ فَمَا خَطْبُكَ يَا سَامِرِيُّ﴾

**“(Sonra Musa Samiriyə) dedi: «Ey Samiri! Gördüyün bu böyük iş nə üçündür?»”**

**• AYƏ 96:**

﴿قَالَ بَصُرْتُ بِمَا لَمْ يَبْصُرُوا بِهِ فَقَبَضْتُ قَبْضَةً مِّنْ أَثَرِ الرَّسُولِ فَنَبَذْتُهَا وَكَذَلِكَ سَوَّلَتْ لِي نَفْسِي﴾

**“(Samiri) dedi: «Mən başqalarının anlamadığı bir şey anladım. Rəsulun izlərindən bir ovuc götürdüm, onu (buzova) atdım. Nəfsim bu sayaq həmin işi mənə gözəl göstərdi. (Məni aldatdı.)»”**

**Nöqtələr**

“Bəsurtu” dedikdə adətən cəm forması “əbsar” olan göz mənası yox, cəm forması “bəsair” olan anlamaq mənası başa düşülür.[1]

“Ehticaci-Təbərsi” kitabında bildirilir ki, Həzrət Əli (ə) Bəsrə şəhərini fəth etdiyi vaxt xalq onu dinləmək üçün bir yerə toplandı. Həmin vaxt deyilənləri qeyd edən Həsən Bəsri imamın diqqətini cəlb etdi.

İmam ona uca səslə müraciət edib buyurdu: “Nə edirsən?” Həsən Bəsri dedi: “Sizin dediklərinizi yazıram ki, başqalarına söyləyəm.” İmam buyurdu: ”Bilin ki, hər bir qövmün və cəmiyyətin öz Samirisi var. Ey Həsən, bu ümmətin Samirisi sənsən. Sən məndən peyğəmbərin əsərlərini (izlərini) götürün, öz istəyincə təfsir edib nəfsinin istəkləri əsasında yeni bir məktəb düzəldirsən.”[2]

“Əl-mizan”, “Furqan”, “Nümunə” təfsirlərində bildirilir ki, Samiri “rəsulun, izləri” dedikdə Musadan götürdüklərini nəzərdə tuturdu. O deyirdi ki, mən Musanın əsərlərindən bir miqdar götürüb mömin oldum, sonra onu boşlayıb buzov düzəltdim. Yəni bu işi görmək üçün başqalarının xəbərsiz olduqlarını anladım. Belə bir məna yuxarıdakı hədislə daha çox uyğundur.

**Bildirişlər**

1. Azğınlığı aradan götürmək üçün öncə onun köklərini araşdırmaq lazımdır.
2. İdeoloji düşmənlərlə mübarizə aparmaq lazımdır.
3. İnqilab zamanı xalq bütünlüklə dəyişmir, Samiri kimiləri öz çirkin niyyətlərini həyata keçirmək üçün fürsət gözləyirlər.
4. Bəzən azğın adamlar etiqadlı adamların bilmədiyini öyrənirlər.
5. Azğınlığa yol açanlar xalqın cəhalətindən istifadə edirlər.
6. Batil başçıları xalqı azdırmaq üçün hətta müqəddəsliklərdən sui-istifadə edirlər.
7. Azğın nəfs istəklərinə əsaslanan sənətkarlıq ən böyük təhlükələrdəndir.
8. Öncə öz nəfsinə aldanmayan insan başqalarını aldada bilməz.

---

[1] “Mufrədati-Rağib”.
[2] “Təfsire-nümunə”.

● **AYƏ 97:**

﴿قَالَ فَاذْهَبْ فَإِنَّ لَكَ فِي الْحَيَاةِ أَن تَقُولَ لَا مِسَاسَ وَإِنَّ لَكَ مَوْعِدًا لَّنْ تُخْلَفَهُ وَانظُرْ إِلَى إِلَهِكَ الَّذِي ظَلْتَ عَلَيْهِ عَاكِفًا لَّنُحَرِّقَنَّهُ ثُمَّ لَنَنسِفَنَّهُ فِي الْيَمِّ نَسْفًا﴾

**“(Musa Samiriyə) dedi: «Çıx get. Həqiqətən sənin bu dünyada qazancın “mənə toxunmayın” deməyin olacaq. (Axirətdə) heç vaxt qurtula bilməyəcəyin bir yer var. (İndi) həmişə pərəstiş etdiyin məbuduna bax. Biz hökmən onu oda çəkərik. Sonra onun külünü dənizə səpərik.»”**

● **AYƏ 98:**

﴿إِنَّمَا إِلَهُكُمُ اللَّهُ الَّذِي لَا إِلَهَ إِلَّا هُوَ وَسِعَ كُلَّ شَيْءٍ عِلْمًا﴾

**“(Ey mənim qövmüm,) həqiqətən, sizin məbudunuz Allahdır, Ondan başqa məbud yoxdur. Onun elmi hər şeyi əhatə edir.”**

**Nöqtələr**

“Təfsiri-Məcməül-bəyan” və “Təfsiri-Safi”də nəql olunmuş bir hədisdə deyilir: Həzrət Musa Samirini öldürmək istəyirdi. Amma Allah ona buyurdu ki, Samiri səxavətli olduğu üçün bu işdən vaz keç. Ona görə də Musa onu Bəni-İsrail arasından qovdu.

“La misasə” təbiri kimsə ilə təmasa yol verməyən xəstəliyə tutulmaq mənasını bildirir. Sonda Samiri ruhi xəstəliyə düçar olub xalqdan uzaqlaşdı.

Kim ona yaxınlaşırdısa, Samiri “məndən uzaq ol” deyə fəryad edirdi.[1]

Həzrət Musa Samiri üçün bir neçə cəza təyin etdi: qovulma, nifrin, axirət əzabı ilə hədələmə, buzovun yandırılması.

**Bildirişlər**

1. Günah sübuta yetdikdən sonra günahkar cəzalandırılmalıdır.
2. Nəhy əz münkərin (pisliyə qadağanın) mərhələlərindən biri günahkarların və kafirlərin qovulmasıdır.
3. Azğın əqidə sahibləri cəmiyyətdən çıxarılmalıdır. Düşüncə azadlığı dedikdə xalqı doğru yoldan çəkindirən azğınları azad buraxmaq nəzərdə tutulmur.
4. Peyğəmbərlər qeyb elmi əsasında fərdlərin gələcəyindən xəbər verirlər.
5. Bəzi xəstəliklər ilahi qəzəbdir.
6. Dünyəvi cəza adətən axirət cəzasını yüngülləşdirsə də, puç əqidə yayanlara münasibətdə belə olmur.
7. Dünyəvi cəzalardan qaçmaq mümkün olsa belə, axirət əzabı və ilahi qəzəbdən qurtuluş yolu yoxdur.

---

[1] “Təfsire-nümunə”.

8. Ən pis günah günahın israrıdır. (Samiri özü də buzova pərəstiş edirdi.)

9. Günah vasitələri, azğın əsərlər məhv edilməlidir. (İslam Peyğəmbəri (s) fitnəkarlıq məqsədi ilə tikilmiş Zirar məscidinin uçurulmasına göstəriş verdi.)

10. Küfr və şirkə aparan əsərlər xalqın gözü qarşısında məhv edilməlidir.

11. Xalqın əqidəsini qorumaq qızıl-gümüşü qorumaqdan mühümdür. Bəzən pisliklə mübarizə yolunda qiymətli əşyanı fəda vermək lazım gəlir.

12. Dini qeyrət və azğınlıq qarşısında qətiyyət rəhbər üçün zəruri səciyyələrdir. (Qızıl buzovu yandırıb külünü dəryaya səpmək Musanın qəti qərarı idi.)

13. Sübut etmək lazımdır ki, müvəqqəti ömürlü şeylər pərəstişə layiq deyil.

14. Batili məhv etdikdən sonra haqqı bəyan edin.

15. Yalnız hər şeyə elmi əhatəsi olan Allah ibadətə layiqdir.

### ● AYƏ 99:

﴿كَذَلِكَ نَقُصُّ عَلَيْكَ مِنْ أَنبَاء مَا قَدْ سَبَقَ وَقَدْ آتَيْنَاكَ مِن لَّدُنَّا ذِكْرًا﴾

**“(Ey peyğəmbər,) Biz bu sayaq keçmişin xəbərlərini sənə nəql edirik. Həqiqətən, Biz sənə Öz tərəfimizdən zikr (Quran) vermişik.”**

**Nöqtələr**

Peyğəmbərlərin tarixinin nəqlində bir çox bərəkətlər var. O cümlədən: Elm və agahlığın çox olması, bəsirət əldə olunması və səadət yolunun tapılması, xalqın tənbih və xəbərdar edilməsi, möminlər üçün müjdə və təsəlli.

**Bildirişlər**

1. Tarixin nəqli Quranın tərbiyə üsullarından biridir.

2. Quran dastanları ən üstün və ən düzgün dastanlardır. Çünki bu dastanları Allah nəql edir, dinləyici peyğəmbərdir və nə deyilirsə həqiqətdir.

3. Tarixi nəql edərkən həyati əhəmiyyəti olmayan xırdalıqların bəyanından çəkinin.

4. Hər tarixi xəbər yox, yalnız mühüm xəbərlər nəql olunmalıdır.

5. Tarix əyləncə yox, ibrət vasitəsidir.

5. Quran mühüm yaddaş və yada salandır.

7. Tarix və Quran dastanlarının qaynağı oradan-buradan eşidilənlər yox, ilahi vəhydir.

### ● AYƏ 100:

﴿مَنْ أَعْرَضَ عَنْهُ فَإِنَّهُ يَحْمِلُ يَوْمَ الْقِيَامَةِ وِزْرًا﴾

**“Kim ondan (zikrdən) üz döndərsə, hökmən, qiyamət günü üzərinə ağır bir yük götürəcək. ”**

**● AYƏ 101:**

**﴿خَالِدِينَ فِيهِ وَسَاء لَهُمْ يَوْمَ الْقِيَامَةِ حِمْلًا﴾**

**"(Onlar) həmin vəziyyətdə həmişəlik qalacaqlar. Bu, qiyamət günü onlar üçün necə də pis yükdür."**

**● AYƏ 102:**

**﴿يَوْمَ يُنفَخُ فِي الصُّورِ وَنَحْشُرُ الْمُجْرِمِينَ يَوْمَئِذٍ زُرْقًا﴾**

**"Elə bir gün ki, sur üfürülər və Biz həmin gün günahkarları gözləri bulaşıq halda səhnəyə gətirərik."**

**● AYƏ 103:**

**﴿يَتَخَافَتُونَ بَيْنَهُمْ إِن لَّبِثْتُمْ إِلَّا عَشْرًا﴾**

**"Onlar öz aralarında astadan danışarlar ki, siz (dünyada) bir neçə (on) gündən artıq qalmadınız."**

**Nöqtələr**

"Himl" və "həml" sözlərinin lüğət mənaları eynidir. Amma "himl" dedikdə zahiri yük, "həml" dedikdə batini yük nəzərdə tutulur. Məsələn, ana bətnindəki körpə "həml" adlanır.

"Zurq" dedikdə ağ və qara rəngin qarışığı nəzərdə tutulur. Məsələn, kül rəngi bu qəbildəndir. Və insanın korluğuna, qorxusuna, rənginin qaçmasına işarə ola bilər.

"Sur" sözü ya buynuz, ya da surətlər mənasını bildirir. İkinci mənaya əsasən ölülərin dirilməsi üçün onların üzlərinə üfürülmə nəzərdə tutulur.

Qurani-məciddə iki üfürmə qeyd olunur. Birinci üfürmədə bütün canlı mövcudlar ölər, ikinci üfürmədə bütün insanlar hesab üçün ayağa qaldırılar.[1] "Sur üfürülər" dedikdə qiyamət günündəki ikinci üfürmə nəzərdə tutulur.

**Bildirişlər**

1. İnsan yol seçimində azad buraxılıb. O həm haqqı, həm də batili qəbul edə bilər.
2. İlahi zikrdən uzaqlıq təkcə dünya bədbəxtliyi ilə yox, həm də axirət bədbəxtliyi ilə sonuclanır.[2]
3. Qiyamət yükünün təhlükə və ağırlığı kimsəyə məlum deyil.
4. Qiyamətdə günahkar şəxs ya kor və üzü qara məhşur olar, ya da qorxudan gözləri bozarar.

---

[1] "Zumər", 68.
[2] "Taha", 124.

5.Dünya həyatının uzunluğu axirət həyatı ilə müqayisədə bir neçə gün kimi görünür.

**• AYƏ 104:**

﴿نَحْنُ أَعْلَمُ بِمَا يَقُولُونَ إِذْ يَقُولُ أَمْثَلُهُمْ طَرِيقَةً إِن لَّبِثْتُمْ إِلَّا يَوْمًا﴾

**“(Əlbəttə) Biz onların dediklərini daha yaxşı bilirik. Onlar arasında ən yaxşı rəftarı olanlar deyər: “Siz bir gündən çox yubanmadınız!”**

**Nöqtələr**

Qiyamət o qədər əzəmətlidir ki, insan həmin səhnəni gördükdən sonra dünya ömrünü yarım, bir, ən çoxu on gün zənn edir. Quran müxtəlif zümrələrin dilindən dünya həyatının uzunluğu ilə bağlı təsəvvürləri belə bəyan edir: on gün, bir gün, günün bir hissəsi[1]; qısa anlar[2]; qısa bir vaxt[3].

Belə görünür ki, dünya həyatının uzunluğu ilə bağlı fərqli fikirlər insanların bəsirət və düşüncə səviyyəsindən doğur. Ayələrdən göründüyü kimi, dünya ömrünü yaxşı rəftar sahibləri bir gün, günahkarlar isə on gün zənn edirlər.

**Bildirişlər**

1. Günahkarlar qiyamət səhnəsində eyni dərəcədə olmur.
2. Daha ağıllı insan dünya ömrünü daha qısa sayır.

**• AYƏ 105:**

﴿وَيَسْأَلُونَكَ عَنِ الْجِبَالِ فَقُلْ يَنسِفُهَا رَبِّي نَسْفًا﴾

**“(Ey peyğəmbər,) səndən (Qiyamətdə) dağlar haqqında soruşarlar. De ki, mənim Rəbbim onları kökündən qoparıb uçurar.”**

**• AYƏ 106:**

﴿فَيَذَرُهَا قَاعًا صَفْصَفًا﴾

**“Sonra onları saf və hamar bir səhraya döndərər.”**

**• AYƏ 107:**

﴿لَا تَرَى فِيهَا عِوَجًا وَلَا أَمْتًا﴾

**“Onda heç bir alçaq-hündürlük müşahidə etməzsən.”**

---

[1] “Naziat”, 4; “Bəqərə”, 259;
[2] “Rum”, 55.
[3] “Muminun”, 114.

**Nöqtələr**

"Nəfs" sözü məhv etmək, "qaə" saf yer, "səfsəf" hamar yer, "ivəc" çökəklik, "əmtə" yüksəklik mənasını bildirir.

**Bildirişlər**

1. Xalqın Qiyamətlə bağlı sualları olur və peyğəmbər onları cavablandırmalıdır.
2. Təbiətə hakim qanunlar daimi deyil.
3. Dağları uçurmaq və qiyaməti bərpa etmək Allahın rübubiyyət cilvələrindəndir.

**• AYƏ 108:**

﴿يَوْمَئِذٍ يَتَّبِعُونَ الدَّاعِيَ لَا عِوَجَ لَهُ وَخَشَعَت الْأَصْوَاتُ لِلرَّحْمَنِ فَلَا تَسْمَعُ إِلَّا هَمْسًا﴾

**"Həmin gün (insanlar) heç bir yanlışlığı olmayan dəvətçiyə tabe olarlar (və İsrafilin sədasını gözləyərlər). Rəhmanın qarşısında bütün sədalar kəsilər, ahəstə bir səsdən başqa bir şey eşitməzsən."**

**Bildirişlər**

1. Bəziləri dünyada ilahi çağırışları qulaqardına vururdularsa, Qiyamət günü itaətdən başqa çarə olmayacaq.
2. Qiyamət Allahın mərhəmətinin təcəlla və zühur günüdür. Allahın mərhəməti həmin gün bütün insanların ümid yeri, sığınacağıdır.

**• AYƏ 109:**

﴿يَوْمَئِذٍ لَّا تنفَعُ الشَّفَاعَةُ إِلَّا مَنْ أَذِنَ لَهُ الرَّحْمَنُ وَرَضِيَ لَهُ قَوْلًا﴾

**"Həmin gün Allahın izn verib danışığından razı qaldığı kəs istisna olmaqla şəfaət faydasızdır."**

**Nöqtələr**

Şəfaətin Quran və rəvayətlə bir araya sığmayan inkarı günaha yol vermiş möminləri ümidsizləşdirdiyi kimi, heç bir şərtsiz şəfaətin qəbulu da günahkarları cəsarətləndirir və ilahi ədalətə ziddir. Bu səbəbdən də Qurani-kərim şəfaət üçün müəyyən şərtlər nəzərdə tutur.

Quran baxımından şəfaət günahkarların ümid bacası, onların övliyalarla rabitə vasitəsidir. Şəfaət Allahın iznidir. Yalnız tövhid xəttində olan, düzgün məntiq və haqq etiqada malik insanlar şəfaətdən bəhrələnərlər. Yalnız onların sözü Allah tərəfindən qəbul olunur. Etiqadı məqsədli, müvəqqəti, səthi,

məsxərə və nifaq məqsədi daşımayanların əməllərində nöqsan tapıldıqda şəfaət onlara əl tutur.

Bu səbəbdən də Quran bütlərin bütpərəstlərə şəfaətini, onlara yardım göstərməsini batil sayır. Tərəfdarlarının günahını yumaq üçün İsanın fəda olması, şiələrə yardım üçün İmam Hüseynin (ə) şəhadəti kimi yanaşmalar şəfaətin həqiqi mənası ilə bir araya sığmır. Bəli, İmam Hüseyn (ə) qiyamət gününün böyük şəfaətçilərindəndir. Amma bilməliyik ki, şəhadətə qucaq açarkən onun məqsədi tərəfdarlarına şəfaət vermək olmamışdır.

İmam Baqir (ə) bu ayə ilə bağlı buyurur: "Peyğəmbərin (s) şəfaəti yalnız əməl və rəftarından razılıq olan kəslər üçündür. Beləlri Peyğəmbər (s) Əhli-beytinə (ə) məhəbbətlə yaşamış və bu məhəbbətlə dünyadan köçmüşlər.[1]

**Bildirişlər**

1. Şəfaət xüsusi insanların bəhrələndiyi uca bir məqamdır.
2. Şəfaət Allahın istək və iradəsinə, hikmət və ədalətinə qarşı deyil. Əksinə, bu həqiqət Allahın istəyi əsasında gerçəkləşir.

**● Ayə 110:**

﴿يَعْلَمُ مَا بَيْنَ أَيْدِيهِمْ وَمَا خَلْفَهُمْ وَلَا يُحِيطُونَ بِهِ عِلْمًا﴾

**"(Allah) onların önündə olandan və (dünyada) arxada qoyduqlarından agahdır. Amma insanların elmi Onu əhatə etmir."**

**● Ayə 111:**

﴿وَعَنَتِ الْوُجُوهُ لِلْحَيِّ الْقَيُّومِ وَقَدْ خَابَ مَنْ حَمَلَ ظُلْمًا﴾

**"(Həmin gün) bütün çöhrələr ölməz və sarsılmaz Allahın qarşısında xar və zəlil olar. Əlbəttə ki, sitəm yükü götürən məyus olub ziyana düşər."**

**Nöqtələr**

"Ənvə" sözündən olan "ənət" sözü qəhr-qəzəb və hökm qarşısında zillət mənasını bildirir. Zatına istinadən dayanmış, hər şeyi hifz edən, hər şeyə davamlılıq verən kəs "qəyyum" adlanır. "Xəybə" sözündən olan "xab" sözü istəyin əldən verilməsi mənasını ifadə edir.

**Bildirişlər**

1. Qiyamət hesabı çox dəqiqdir. Çünki hesabı aparan kəs hər şeydən xəbərdardır, şəfaətdən sui-istifadə üçün yol yoxdur.
2. Allah insanların keçmiş və gələcək işlərindən eyni dərəcədə, tam xəbərdardır.

---

[1] "Təvilul-ayat", 304.

3. Məhdud həqiqət sonsuz həqiqəti əhatə etmək gücündə deyil. İnsan Allahın zatından, sifətlərindən, yaratdıqlarından, qüdrət və tədbirlərindən tam xəbər tutmaqda acizdir.

4. İnsanın ruhi durumu hər şeydən öncə onun çöhrəsində görünür.

5. Zülmün sonu ilahi mərhəmətdən məhrumluqdur.

6. Bir çox zülmlərə görə dünyada tövbə edib üzr istəmək olar. Bədbəxt o kəsdir ki, öz zülmünü Qiyamətədək daşısın.

**● AYƏ 112:**

﴿وَمَن يَعْمَلْ مِنَ الصَّالِحَاتِ وَهُوَ مُؤْمِنٌ فَلَا يَخَافُ ظُلْمًا وَلَا هَضْمًا﴾

**"Hər kəs saleh işlər görüb mömin olsa, sitəm və (mükafatda) əskiklikdən qorxmasın."**

**Nöqtələr**

"Həzm" dedikdə əskilmə mənası başa düşülür. Ola bilsin ki, bu səbəbdən qidanın bədənə hopması "həzm" adlandırılmışdır. Bu prosesdə adətən qida getdikcə azalır.[1]

Quran və rəvayətlərdən məlum olur ki, insanın əməl və ruhiyyəsi qarşılıqlı təsirə malikdir. Bu səbəbdən də puç ruhiyyəyə malik münafiq, müşrik, riyakar şəxsin yaxşı əməli qəbul olunmur. Əgər kafir bir insan ixtira və kəşf kimi yaxşı bir iş görsə, haqqı anlayaraq inkar etdiyi halda yaxşı işinə görə mükafatlandırılmayacaq. Saf şərbəti çirkli qaba tökəndə də belə olur. Belə bir şərbətdən imtina olunur.

Son on ayədə Qiyamətin bərpası xülasə şəkildə təsvir olundu: Sur üfürülər, ölülər dirilər; günahkarlar səhnəyə gətirilər; dağlar parçalanar; hamı ilahi çağırışçının dəvətini gözləyər; Allahın izni olmadan kimsəyə şəfaət verilməz; Allah Öz elmi əhatəsi ilə bütün hesabları sona çatdırar; hamı ilahi hökm qarşısında təslim olar; zalımlar məyus olar; saleh möminlər aramlığa qovuşar.[2]

**Bildirişlər**

1. Bir nəfərin bütün saleh işləri yerinə yetirməsi mümkünsüz olsa da, hər kəs öz qüvvəsi daxilində saleh əmələ üz tutmalıdır.

2. Nəinki böyük işlər, hətta zərrəcə saleh əməl mükafatsız qalmır.

3. Allaha iman saleh əməlin qəbul şərtidir.

4. İman əməldən ayrı deyil. Əməlsiz iman meyvəsiz ağac, imansız əməl köksüz ağac kimidir.

5. Möminlərin qiyamətdəki ruhi aramlığı onların saleh əməllərindən asılıdır.

6. Qiyamətdə mükafat nə aradan götürülər, nə də əskildilər.

---

[1] "Təfsire-nümunə".
[2] "Təfsire-nümunə".

7. Mükafat insanın haqqı yox, Allahın fəzlidir. Bununla belə Allah kimsənin mükafatını əskiltməz.

**• AYƏ 113:**

﴿وَكَذَلِكَ أَنزَلْنَاهُ قُرْآنًا عَرَبِيًّا وَصَرَّفْنَا فِيهِ مِنَ الْوَعِيدِ لَعَلَّهُمْ يَتَّقُونَ أَوْ يُحْدِثُ لَهُمْ ذِكْرًا﴾

**“Beləcə, Biz onu ərəbcə Quran olaraq nazil etdik. Onda müxtəlif bəyanlarla xəbərdarlıq etdik. Bəlkə çəkinələr və ya öyüd götürələr.”**

**Nöqtələr**

“Kəzalikə ənzəlnahu”, yəni Biz Qiyamət səhnələrini açıqlamaqla, həmin mükafat və əzabları bəyan etməklə Quranı bu sayaq xəbərdarlıq edən göndərdik.

“Ərəbi” sözü lüğət baxımından aydın mənasını bildirir. Ola bilsin ki, ərəb dilinə məxsusluq mənası nəzərdə tutulmuşdur. “Sərrəfna”, yəni bir həqiqətin müxtəlif şəkildə bəyanı. Bu bəyan həm işarə, həm də dil, həm misal, həm də tarixin nəqli ilə gerçəkləşə bilər.

**Bildirişlər**

1. Vəhy qanununun müqəddəsliyi, məqsədlərin aydınlığı, bəyanatların rəngarəngliyi və xəbərdarlıq olması təqvaya meyl və nəsihətin qəbulu üçün zəmindir.

2. Bütün insanlar vəhyə ehtiyaclıdır. Amma bəzilərinə qorxutma, bəzilərinə xəbərdarlıq təsir göstərir.

3. Xəbərdarlıq səmərəsiz qalmır. O ya dərin təsir göstərir, ya məsələni xatırladır, ya nəticə verir, ya da höccət tamamlanır, bəhanəyə yer qalmır.

**• AYƏ 114:**

﴿فَتَعَالَى اللَّهُ الْمَلِكُ الْحَقُّ وَلَا تَعْجَلْ بِالْقُرْآنِ مِن قَبْلِ أَن يُقْضَى إِلَيْكَ وَحْيُهُ وَقُل رَّبِّ زِدْنِي عِلْمًا﴾

**“(Bil ki,) haqqı buyuran Allah uca mərtəbəlidir. (Ey peyğəmbər,) vəhy başa çatmamış Quranı oxumağa tələsmə. De ki, Pərvərdigara, mənim elmimi artır.”**

**Nöqtələr**

Peyğəmbəri (s) Quranın tələsik bəyanından çəkindirən təbirlərdən aydın olur ki, Quran həqiqətdə Peyğəmbərə (s) iki dəfə nazil olmuşdur: Birdəfəyə və

tədricən. Quran tədricən nazil olan vaxt vəhy başa çatmamış Peyğəmbərin (s) onu söyləməsi bütövlüklə Qurandan xəbərdar olmasının nişanəsidir.[1]

Tələskənliklə önə keçmə təbirləri arasında fərqlər mövcuddur. Hər şey tənzimləndiyi bir vaxt fürsəti əldən buraxmayıb önə keçmək yaxşı səciyyədir. Tələskənlik dedikdə isə yetərincə araşdırma aparmamış, vaxtından əvvəl qabağa qaçmaq nəzərdə tutulur.

Tələskənliyin səbəbi həm səbirsizlik kimi mənfi işlər, həm də istəyə çatmaqla bağlı eşq və məhəbbət ola bilər. Səbirsizlik ucbatından tələsmək məzəmmət olunur. Eşq səbəbindən, bir şeyi qorumaq üçün tələsmək müsbət yönümə malikdir. Peyğəmbərin (s) vəhyə münasibətdə tələsməsi vəhyin hifzinə yönəlmiş aşiqanə bir tələskənlik idi.

Allah-təala həzrət Musanı məlumatlandırmaq məqsədi ilə həzrət Xızra yoldaş etdi. Musa belə bir yoldaşlıq üçün Xızrdan icazə istədi.[2] İslam Peyğəmbərinin (s) təlimini isə Allah Öz öhdəsinə götürdü və ona buyurdu: "De ki, Pərvərdigara, mənim elmimi artır."

Bəşəriyyətin ilk müəllimi alim Allahdır. Elmi Ondan istəyək.[3]

Hədisdə nəql olunur ki, əziz Peyğəmbər (s) buyurmuşdur: "Əgər bir günüm elmimi artırmadan keçsə, həmin gün mənim üçün bərəkətli deyil."[4]

**Bildirişlər**

1. Yaranış məqsədsiz, insan özbaşına deyil. Əbəslik və məqsədsizlik Allahın şənində deyil.
2. Allahın müqəddəs zatını istənilən bir düşüncədən üstün, Onun fellərini istənilən batil işdən pak-pakizə bilək.
3. Hökmlü, həqiqi, mütləq, təkbaşına hakimiyyət yalnız Allaha məxsusdur.
4. Peyğəmbər (s) vəhyi dinləməyə və qəbul etməyə vurğun idi.
5. Hər bir şey müəyyən qaydalar əsasında əldə olunur.
6. Quranın Peyğəmbərlə (s) bağlı qadağaları onun sədaqətini göstərir. Əks-təqdirdə, kimsə qadağaya boyun qoymur.
7. İlahi qanunları bəyan edərkən dövrün şəraitini nəzərə almaq lazımdır.
8. Elmi həqiqi alimdən tələb edək.
9. Elm və bilik üçün son hədd yoxdur. Təhsili başa vurmaq mümkünsüzdür.
10. Yalnız Qurani-məcid həqiqi elmdir.
11. Bir şəxsə müəyyən şeyi qadağan etdikdə ona doğru yolu göstərək.
12. Kamilliyə can atmaq müsbət səciyyədir.
13. Elm insanın inkişaf vasitəsidir.

---

[1] "Təfsire-Əl-mizan".
[2] "Kəhf", 66.
[3] "Bəqərə", 31; "Ər-rəhman", 1, 3.
[4] "Təfsire-nurus-səqəleyn".

14. Elm o vaxt səmərə verir ki, insan elmə yiyələndikcə onun tutumu da artsın.

15. Allah duasız da lütf edə bilər. Amma Öz peyğəmbərini duaya çağırır.

16. Dua zamanı "Rəbb" və "Allahın rübubiyyəti" təbirlərindən faydalanaq.

17. Allahdan savay hamının, hətta Peyğəmbərin (s) də elmi məhduddur.

**• AYƏ 115:**

﴿وَلَقَدْ عَهِدْنَا إِلَى آدَمَ مِن قَبْلُ فَنَسِيَ وَلَمْ نَجِدْ لَهُ عَزْمًا﴾

**"Şübhəsiz, bundan öncə Adəmlə peyman bağladıq. Amma o unutdu və Biz onda əzm görmədik."**

**• AYƏ 116:**

﴿وَإِذْ قُلْنَا لِلْمَلَائِكَةِ اسْجُدُوا لِآدَمَ فَسَجَدُوا إِلَّا إِبْلِيسَ أَبَى﴾

**"Mələklərə «Adəm üçün səcdə edin» dediyimiz vaxt İblisdən başqa hamısı səcdəyə qapıldı. Yalnız o, boyun qaçırıb imtina etdi."**

**Nöqtələr**

Quranın başlanğıcından bu yerədək 6-cı dəfədir ki, Adəm və İblisin əhvalatı ilə rastlaşırıq. Əvvəllər "Bəqərə", "Əraf", "Hicr", "İsra" və "Kəhf" surələrində bu mövzuya toxunulmuşdu.[1]

Bu əhvalatda "əhd-peyman" dedikdə xüsusi bir bitkinin bəhrəsindən yeməmək göstərişi nəzərdə tutulur. "İtaətsizlik" dedikdə isə əmrin yerinə yetirilməsinə göstərilən diqqətsizlik nəzərdə tutulmuşdur. Axı bir şeyi mütləq yaddan çıxarmağa görə qınaq yoxdur. Ayədə "əzm" dedikdə İblisin vəs-vəsələri qarşısında möhkəm iradə nəzərdə tutulur.

İmam Kazim (ə) buyurur: "Səcdə göstərişi və İblisin itaətsizliyi bir növ Peyğəmbər (s) üçün təsəllidir. Onun nəzərinə çatdırılır ki, göstərişlərinə itaətsizlik səni pərişan etməsin, İblis də Mənim göstərişimə itaət etmədi.[2]

**Bildirişlər**

1. Allah bəşəriyyəti özbaşına buraxmamışdır.

2. İnsan təbii şəkildə ifrat və təfrit təhlükəsi ilə dayanmış bir mövcuddur. Bu təhlükədən insanı yalnız Allah hifz edə bilər.

3. İlahi vəzifələrin yerinə yetirilməsində əzm göstərmək lazımdır.

4. İnsanın mühüm büdrəmə amillərindən biri insanlıq kəraməti və məqamından xəbərsizlik, digəri daxili və xarici düşməni tanımamaqdır. Quran dəfələrlə bu barədə xəbərdarlıq edir.

---

[1] "Təfsire-kəbire-Fəxr Razi".

[2] "Kafi", c. 1, s. 412.

5. Allahın əmri ilə mələklərin Adəmə səcdə etməsi Adəmin mələklərdən üstünlüyünü göstərir. Əks-təqdirdə İblis özünü daha xeyirli bilib etiraz etməzdi.

6. Mələklər Allahın əmrinin icrasında bir an belə yubanmır.

**● AYƏ 117:**

﴿فَقُلْنَا يَا آدَمُ إِنَّ هَذَا عَدُوٌّ لَّكَ وَلِزَوْجِكَ فَلَا يُخْرِجَنَّكُمَا مِنَ الْجَنَّةِ فَتَشْقَى﴾

**“Dedik: «Ey Adəm! Həqiqətən, bu (İblis), sənin və zövcənin düşmənidir. Məbada, sizi behiştdən çıxarsın. Yoxsa əzab-əziyyətə düşəcəksən.»”**

**● AYƏ 118:**

﴿إِنَّ لَكَ أَلَّا تَجُوعَ فِيهَا وَلَا تَعْرَى﴾

**“Həqiqətən, sən orada (behiştdə) nə ac qalarsan, nə də çılpaq.”**

**● AYƏ 119:**

﴿وَأَنَّكَ لَا تَظْمَأُ فِيهَا وَلَا تَضْحَى﴾

**“Burada (behiştdə) nə susuz qalarsan, nə də günəşin istisindən əziyyət görərsən.”**

**Nöqtələr**

Burada şeytan yalnız Adəm və Həvvanın düşməni kimi tanıtdırılsa da, başqa bir yerdə onun bütün insanlarla düşmən olduğu qeyd edilir.[1]

Ayədə “təşqa” dedikdə maddi həyat çətinlikləri nəzərdə tutulmuşdur. Digər ayələrdən məlum olur ki, behiştdə aclıq, çılpaqlıq, susuzluq yoxdur. Yəni yalnız behiştdən xaric olduqda məşəqqət labüddür.

**Bildirişlər**

1. Allahın Öz bəndələrinə ən böyük lütflərindən biri onları şeytanın təhlükəsindən xəbərdar etməsidir.

2. Haqq və batil arasında düşmənçilik və müharibə xilqətin əvvəlindən mövcud olmuşdur.

3. Həm qadın, həm də kişi düşmənin təbliğatları və şeytanın vəsvəsələri üçün hədəfdir.

4. Bəndələrə höccəti tamamlamaq, yetərli dəlillər gətirib bəhanələri kəsmək ilahi sünnədir.

5. Dünya həyatı məşəqqətlə müşayiət olunur.

---

[1] “Nisa”, 92.

6. İnsanın ilkin ehtiyacları dörd şeydə özünü göstərir: aclıq və susuzluq kimi daxili ehtiyaclar, çılpaqlıq və məskənsizlik kimi xarici ehtiyaclar. Ayədə bu dörd çətinliyin hər birinə işarə olunmuşdur.

**• AYƏ 120:**

﴿فَوَسْوَسَ إِلَيْهِ الشَّيْطَانُ قَالَ يَا آدَمُ هَلْ أَدُلُّكَ عَلَى شَجَرَةِ الْخُلْدِ وَمُلْكٍ لَّا يَبْلَى﴾

**“Şeytan ona vəsvəsə edib dedi: «Ey Adəm! Sənə əbədilik ağacı və uçulub-dağılmayan mülkü göstərimmi?»”**

**• AYƏ 121:**

﴿فَأَكَلَا مِنْهَا فَبَدَتْ لَهُمَا سَوْآتُهُمَا وَطَفِقَا يَخْصِفَانِ عَلَيْهِمَا مِن وَرَقِ الْجَنَّةِ وَعَصَى آدَمُ رَبَّهُ فَغَوَى﴾

**“(Adəm və zövcəsi aldanıb,) hər ikisi ondan yedi. Belə ki, (libasları töküldü,) ayıb yerlərini gördülər. Hər ikisi özlərini behişt yarpaqlarına bürüməyə başladılar. Adəm Rəbbinə itaətsizlik göstərdi və yoldan çıxdı.”**

**Nöqtələr**

Şeytan İblisin digər bir adıdır.

Adəm peyğəmbərlik məqamına çatmamış şeytanın vəsvəsəsinə düçar oldu.[1]

Seyyid ibn Tavus lətif bir bəyanla buyurur: “Şeytan öncə yol göstərmək adı altda Adəmə yaxınlaşdı, sonra ona vəsvəsə etdi.[2] Vay olsun bizlərin halına ki, şeytan öncədən azdırmaq məqsədi ilə sorağımıza gəlir.”[3]

“Ğəyy” sözündən olan “ğəva” sözü inkişafın əksini bildirir. Yəni “ğəva” insanı məqsəddən uzaqlaşdıran yoldur. Allah Adəm və əziz Peyğəmbərimiz (s) haqqında fərqli təbirlər işlədir.[4]

Şeytanın vəsvəsələri insanın ixtiyarını əlindən almır. Bu səbəbdən də vəsvəsəyə uyan insan özünü və başqalarını qınayır. Halbuki ixtiyarı əlindən alınmış insan məzəmmət olunmur.

### *HƏZRƏT ADƏMIN GÜNAHI*

“Əsa Adəmu Rəbbəhu fəğəva” cümləsi ilə bağlı müxtəlif ehtimallar var:

---

[1] “Təfsire-kəbire-Fəxr Razi”
[2] “Əraf”, 22.
[3] “Sad”, 82.
[4] “Nəcm”, 2.

a) Adəm günaha yol vermədi, sadəcə “tərki-ovla” etdi. Başqa sözlə, yaxşı bir işdən uzaq düşdü. “Ğəva” “azdı” yox, “inkişaf etmədi” mənasını bildirir.

b) Ağaca yaxınlaşmamaq əmri tərbiyəvi xarakter daşıyırdı.[1]

v) “Üsyan” dedikdə həm vacib, həm də müstəhəb işin tərk olunması nəzərdə tutulur.[2]

Amma bu ehtimalların heç biri qəbul olunası deyil. Əvvəla, bu və başqa oxşar ayələrdə Adəmin üsyanı aşkar şəkildə bəyan olunur. İkincisi, uyğun qadağanın tərbiyəvi xarakter daşıması ilə bağlı dəlil yoxdur. Üçüncüsü, həmin vaxt kimsə üçün vacib vəzifə olmaması fikri düzgün deyil. Məsələyə uyğun baxışla yanaşsaq şeytanı da günahkar saymamalıyıq. Dördüncüsü, məgər tərbiyəvi xarakterli qadağanı pozarkən tövbəyə ehtiyac qalırmı?! Beşincisi, üsyan sözü Quranda yalnız günah mənasında işlədilmişdir.

Yaxşı olar ki, bu məsələ ilə bağlı məsum imama müraciət edək. Xəlifə Məmun İmam Rzadan (ə) soruşdu: “Əgər peyğəmbərlər məsumdurlarsa, nə üçün ayədə “Adəm Rəbbinə itaətsizlik etdi və yoldan çıxdı” deyilir?” İmam buyurdu: ”Adəmin itaətsizliyi onun peyğəmbərliyə seçilməsindən əvvələ təsadüf edir. Onun gördüyü iş peyğəmbərlik məqamına uyğun deyildi.”[3]

**Bildirişlər**

1. İnsanda mövcud olan meyllər şeytanın nüfuz yoludur. (Şeytan Adəmin ehtiyac və istəklərindən xəbərdar olduğu üçün onun əbədiliyi meylindən istifadə etdi. Bəli, uzun-uzadı arzular insanı günaha sürükləyir)
2. Şeytanlar gözəl adlardan və ünvanlardan insanları azdırmaq və öz çirkin məqsədləri üçün istifadə edirlər.
3. Yalan insanların şeytan tərəfindən aldanış vasitəsidir.
4. İlahi övliyalar büdrədikdə dərhal tənbeh olunur.
5. Çirkinliklərin zahir olması və çılpaqlıq Adəmin üsyanının ilkin əsəri idi.
6. İnsan üçün geyim kəramət və gözəllik, çılpaqlıq alçaqlıq və çirkinlik sayılır.
7. Rəva olmayan bir tikə həyanın getməsinə və çirkinliyin zahirə çıxmasına səbəb olur.
8. Bütün insanların fitrətində çirkinliyi örtmək istəyi var.
9. Allahın əmri ilə müxalifət insanın öz inkişaf və tərbiyəsi ilə müxalifətdir.
10. Günah insanın məhrumiyyətinə səbəb olur.

## • AYƏ 122:

﴿ثُمَّ اجْتَبَاهُ رَبُّهُ فَتَابَ عَلَيْهِ وَهَدَى﴾

---

[1] “Təfsire-Əl-mizan”.
[2] “Təfsire-nümunə”.
[3] “Bihar”, c. 11, s. 164; “Üyunu-əxbarir-Riza”, c. 1, s. 195.

**“Sonra Rəbbi onu seçdi, (lütfünü) ona qaytardı və onu hidayət etdi.”**

**● AYƏ 123:**

﴿قَالَ اهْبِطَا مِنْهَا جَمِيعًا بَعْضُكُمْ لِبَعْضٍ عَدُوٌّ فَإِمَّا يَأْتِيَنَّكُم مِّنِّي هُدًى فَمَنِ اتَّبَعَ هُدَايَ فَلَا يَضِلُّ وَلَا يَشْقَى﴾

**“(Allah Adəm və Həvvaya) buyurdu: «Oradan (behiştdən, uca məqamdan) enin. Sizin bəziniz bəzinizə düşmən olacaq. Mənim tərəfimdən sizin üçün göstəriş gəldiyi vaxt hər kəs bu göstərişə itaət etsə, nə yolunu azar, nə bədbəxt olar.»”**

**Nöqtələr**

“Cəbayət” sözündən olan “ictiba” sözü toplamaq, seçmək mənasını bildirir.

“Tab” sözü “ila” şəkilçisi ilə işləndikdə insana aid tövbəni bildirir. “Əla” şəkilçisi ilə işləndikdə isə Allah tərəfindən tövbə nəzərdə tutulur. Yuxarıdakı ayədə də belədir: “Allah Öz lütfünü bəndəsinə qaytardı.”

“Aşağı enin” əmri ya Adəmlə Həvvaya, ya insanla şeytana, ya da Adəmlə onun övladlarına ünvanlanmışdır.

Peyğəmbərdən (s) nəql olunmuş bir hədisdə deyilir: “Həzrət Adəm qədər ağlayan peyğəmbər olmamışdır.”[1] O, itaətsizlikdən sonra tövbə qıldı.

**Bildirişlər**

1. İnsanları fərqləndirərkən onların pak fitrətinə diqqət yetirin. Təsadüfi xətalara görə insanların üstündən xətt çəkməyin.
2. Adəm peyğəmbərlik məqamına seçilməmişdən öncə günaha yol verdi.
3. Zamanın seçimə təsiri var.
4. Tövbənin qəbulu Allahın rübubiyyət şənindəndir.
5. Xətaya yol verənləri rədd etmək əvəzinə onları bağışlayıb doğru yola çağıraq.
6. Tövbə hidayət zəminidir.
7. Tövbənin qəbulu günahın təbii sonluğuna mane olmur.
8. Bir günah bütöv bir nəsli sıxıntıya düçar edə bilər.
9. Bəşərin yerə enişi onlar arasında düşmənçiliyə səbəb oldu.
10. Adəmə verilən ilk müjdə ilahi göstərişin gəlişidir. Bu göstərişlərə itaət etməklə səadət və behiştə qayıdış üçün yol açılır.
11. Peyğəmbərlərin gəlişi və ilahi hidayət (haqqa çağırış) qətidir.
12. Müdiriyyət və tərbiyə zamanı ixrac göstərişi versək də, qarşı tərəfi inkişaf və tərbiyə imkanlarından məhrum etməyək.
13. İnsanın Allahdan başqa rəhbər və bələdçisi yoxdur.

---

[1] “Təfsire-kəbire-Fəxr Razi”.

14. Maddiyyat aləmində ziddiyyətlərin mövcudluğu qaçılmazdır. Əsas məsələ budur ki, insan müxtəlif yollar arasından ilahi yolu seçsin.

15. İnsan yol seçimində azad buraxılıb.

16. İnsanın xoşbəxtlik və qurtuluşu ilahi əmrlərə itaətindən asılıdır.

### ● AYƏ 124:

﴿وَمَنْ أَعْرَضَ عَن ذِكْرِي فَإِنَّ لَهُ مَعِيشَةً ضَنكًا وَنَحْشُرُهُ يَوْمَ الْقِيَامَةِ أَعْمَى﴾

**“Hər kəs Məni xatırlamaqdan daşınsa, həqiqətən, onu sıxıntılı və çətin bir həyat gözləyir. Biz onu qiyamətdə səhnəyə kor gətirərik.”**

### ● AYƏ 125:

﴿قَالَ رَبِّ لِمَ حَشَرْتَنِي أَعْمَى وَقَدْ كُنتُ بَصِيرًا﴾

**“(Qiyamətdə) deyər: «Pərvərdigara! Nə üçün məni kor məhşur etdin? Axı (dünyada) görürdüm?»”**

**Nöqtələr**

Ötən ayədə haqq ardıcıllarına müjdə verildi. Bu ayədə isə haqqa arxa çevirənlərə xəbərdarlıq olunur. Bəli, ümid və qorxu yanaşı olduqda səmərə verir.

Rəvayətlərdə Əhli-beyt (ə) xəttindən çıxmaq və ya vacib göstəriş olan həcci tərk etmək Allahdan üz çevirmək nümunələri sayılmışdır.[1]

İnsanı sıxıntıya salan təkcə yoxsulluq deyil. Bir çox sərmayə sahibləri hərislik, qorxu, stress səbəbindən ağrılı günlər keçirirlər.[2]

**Sual:** Günahkarların kor məhşur edilməsi onların öz əməl naməsini oxuması xəbəri ilə bir araya sığırmı?

**Cavab:** Qiyamətin müxtəlif dayanacaqları var. İnsan bir dayanacaqda gördüyü halda, o biri dayanacaqda kor ola bilər.

Bir çox rəvayətlərdə bildirilir ki, “Qiyamət korluğu” dedikdə insanın haqq və xeyir yolu görməməsi nəzərdə tutulur.[3]

İmam Səccad (ə) “sıxıntılı həyat” təbiri ilə bağlı buyurur: “And olsun Allaha! Həqiqətən, qəbir ya behişt bağıdır, ya da cəhənnəm dərəsi.”[4] Deməli, sıxıntılı gediş bərzəx aləminədək davam edir.

**Bildirişlər**

1. İnsanlara seçim azadlığı verilib.

---

[1] “Təfsire-nurus-səqəleyn”.
[2] “Təfsire-nümunə”.
[3] “Mən la yəhziruhul-fəqih”, c. 2, s. 447.
[4] “Bihar”, c. 7, s. 104.

2. İnsan fitrəti allahpərəstlik əsasında qurulub. Peyğəmbərlər və səmavi dinlərin işi yalnız xatırlatmaqdır. (“Zikr” dedikdə insanın unutduğu bir şeyi onun yadına salmaq nəzərdə tutulur.)

3. İnsan sərvət sahibi olsa da, Allah zikrindən uzaqlıq onu iztirab, heyrət və həsrətdən qurtulmağa qoymur.

4. Yalnız Allah zikri sayəsində aram və şirin həyat yaşamaq olar.

5. Mənəviyyatın maddi həyatda da mühüm rolu var.

6. Dünyada həqiqətlərə göz yuman insan qiyamət səhnəsinə kor gətirilər.

7. İmansız insan dünyada məşəqqət içində yaşayır, axirətdə görmək nemətindən məhrum qalır.

**● AYƏ 126:**

﴿قَالَ كَذَلِكَ أَتَتْكَ آيَاتُنَا فَنَسِيتَهَا وَكَذَلِكَ الْيَوْمَ تُنسَى﴾

**«(Allah cavab olaraq) buyurar: “Ayələrimiz sənə yetişən vaxt onları unutduğun kimi, bu gün özün unudulmusan.”»**

**● AYƏ 127:**

﴿وَكَذَلِكَ نَجْزِي مَنْ أَسْرَفَ وَلَمْ يُؤْمِن بِآيَاتِ رَبِّهِ وَلَعَذَابُ الْآخِرَةِ أَشَدُّ وَأَبْقَى﴾

**“Həddi aşıb israf edən və Rəbbinin ayələrinə iman gətirməyən hər kəsə bu sayaq cəza verərik. Şübhəsiz, axirət əzabı daha şiddətli və davamlıdır.”**

**Nöqtələr**

Allah zikrinin bariz nümunələrindən biri namazdır. Allah-təala buyurur: “Məni yada salmaq üçün namaz qıl.”[1] Şübhəsiz ki, Allahı yada salan insanı Allah da yada salasıdır. Bu, Allahın vədidir.[2] Allahı unudan kəsləri Allahın da unudacağı şübhə doğurmur.

Allahın rəsulu (s) buyurur: “Quran oxuyub, ona əməl etməyən kəsi Allah kor halda məhşur edər. Həmin bəndə nə üçün səhnəyə kor gətirildiyini soruşduqda xitab olunar ki, onu cəhənnəmə aparın.”[3]

İmam Sadiq (ə) “unudulmuş ayələr” təbiri ilə bağlı buyurur: “Allahın ayələri məsum imamlardır. Onlara arxa çevirən kəs qiyamət günü oda atılacaq.”[4]

**Bildirişlər**

1. Bütün ilahi cəzalar ədalətlidir.

2. İnsanın itaətsizliyi etinasızlıqdan qaynaqlansa cəzalandırılasıdır. İxtiyarsız şəkildə baş vermiş xətalara görə məzəmmət yoxdur.

3. Allah öncə höccəti tamamlayır, yetərli dəlillər gətirir, sonra qəhr-qəzəbini və əzabını nazil edir.

---

[1] “Taha”, 14.
[2] “Bəqərə”, 152.
[3] “Vəsail”, c. 6, s. 184.
[4] “Kafi”, c. 1, s. 436.

4. Nemətlərin israfı və onlardan səmərəsiz istifadə küfr üçün zəmin yaradır.

**● Ayə 128:**

﴿أَفَلَمْ يَهْدِ لَهُمْ كَمْ أَهْلَكْنَا قَبْلَهُم مِّنَ الْقُرُونِ يَمْشُونَ فِي مَسَاكِنِهِمْ إِنَّ فِي ذَلِكَ لَآيَاتٍ لِّأُوْلِي النُّهَى﴾

**"Bu günkülərə xəbərdarlıq üçün bəs etmədimi ki, bundan öncə evlərinə get-gəl etdikləri xalqlar qəhr-qəzəbimizə düçar oldu?! Həqiqətən, bunda ağıl və düşüncə sahibləri üçün nişanə və ibrətlər var."**

**● Ayə 129:**

﴿وَلَوْلَا كَلِمَةٌ سَبَقَتْ مِن رَّبِّكَ لَكَانَ لِزَامًا وَأَجَلٌ مُسَمًّى﴾

**"Əgər Rəbbinin sünnə və təqdiri, müəyyənləşdirilmiş bir vaxt olmasaydı, hər halda ilahi əzab qaçılmaz olardı."**

**Nöqtələr**

"Nuhyə" sözünün cəm forması olan "Nuha" sözü insana çirkin işləri qadağan edən şey mənasını bildirir. Bu səbəbdən də ağıl "nuhyə" adlandırılmışdır. Çünki ağıl insanı azğın istəklərdən qoruyur. Demək, həqiqi ağıl düşüncədən əlavə təhlükə və pisliklərdən uzaqlıq səbəbidir.

"Qərn" dedikdə eyni bir dövrdə yaşamış qövm, xalq nəzərdə tutulur. Bəzən zamanın özü də "qərn" adlandırılır. "Lizam" sözü zəruri və qəti iş mənasını bildirir.

"Kəlimətun-səbəqət" dedikdə Allahın həzrət Adəmə "yerə enin" buyruğu nəzərdə tutulur.[1]

Məkkə əhli səfərə çıxarkən Ad və Səmud qövmünün yaşadığı yerlərdən keçər, onlardan qalan xarabalıqları görərdilər. Allah bu ayələrdə onlara xəbərdarlıq edir ki, həmin qövmlərin acı taleyini unutmasınlar, bu nişanələri düşünüb ibrət götürsünlər.[2]

**Bildirişlər**

1. Tarix ən yaxşı müəllim və ən doğruçu vaizdir. Tarixdən ibrət götürməyən kəs məzəmmətə layiqdir.
2. Allahın xəbərdarlıqlarına ciddi yanaşaq.
3. Tarixi dəyişikliklər Allahın əlindədir.
4. Elm təklikdə bəs etmir, ibrət də lazımdır. Onlar baş verənləri görsələr də qəflətdədirlər.

---

[1] "Bəqərə", 36.
[2] "Təfsire-Əl-mizan". "Təfsire-Tibyan".

5. Qəzəbə gəlib xaraba qalmış hər bir məntəqə düşüncə sahibləri üçün ibrətdir.

6. Tarixi abidələri təkcə əyləncə xatirinə seyr etməyək. Yalnız düşüncəsiz insanlar bu qalıqlardan ibrət götürmür.

7. Hər insan ibrət gözü ilə baxa bilmir. Yalnız nəfsini bulaşıqlıqlardan qoruyan insanlar ibrət götürürlər.

8. Tarixin fəlsəfəsi var və səbəb-nəticə qanununa əsaslanır. Bəli, keçmiş qövmlər müəyyən əsaslarla məhv edilmişlər. Əgər bu gün də uyğun əməllər təkrarlansa, eyni fəlakətlərlə üzləşərik.

9. Bütün işlərin nizamlanması, möhlət verilməsi ilahi bir sünnədir. Əks-təqdirdə, günahkarlar dərhal məhv edilərdi. (Hər ümmət üçün müəyyənləşdirilmiş bir vaxt var.)

10. Əzabın təxirə düşməsi imansız zalımları arxayınlaşdırmasın.

11. Allah yalnız höccəti tamamladıqdan sonra günahkarları əzaba düçar edir.

12. İnsanlar proqram və vaxt bölgüsü əsasında ömür sürürlər.

**• AYƏ 130:**

﴿فَاصْبِرْ عَلَى مَا يَقُولُونَ وَسَبِّحْ بِحَمْدِ رَبِّكَ قَبْلَ طُلُوعِ الشَّمْسِ وَقَبْلَ غُرُوبِهَا وَمِنْ آنَاءِ اللَّيْلِ فَسَبِّحْ وَأَطْرَافَ النَّهَارِ لَعَلَّكَ تَرْضَى﴾

**“Onların dediklərinə səbir et. Günəş doğmamışdan və qürub etməmişdən öncə Rəbbinə sitayişlə Ona təsbih de. Gecənin bəzi vaxtlarında və gün ətrafı təsbih söylə. Ola bilsin ki, razı qalasan (xoşhal olasan).”**

**Nöqtələr**

Allah-təala Qurani-kərimdə 19 dəfə Peyğəmbərə (s) səbir göstərişi verir.

Bu ayə də “Bəqərə” surəsinin 45-ci ayəsi kimi Peyğəmbəri (s) səbrə və Rəbbinə sitayişə çağırır. Ayədə zahirən Peyğəmbərə (s) müraciət olunsa da, göstərişlər ümumi ünvanlanmışdır.

Bəzi rəvayətlərə və bəzi təfsirçilərin nəzərinə əsasən, ayədə gündəlik yövmiyyə namazları, gün uzunu qılınası namazlar nəzərdə tutulur. “Gün ətrafı” dedikdə isə gündəlik müstəhəb nafilə) namazlarına işarə olunmuşdur.

**Bildirişlər**

1. Allahın tədbirinə, əzabın qanunauyğunluğuna, ilahi sünnələrə diqqət səbir və təsbih üçün müqəddimədir.

2. İnsanın səbri onun rastlaşdığı çətinliklər həddində olmalıdır.

3. Allaha həmd-səna və onun təsbihi düşmənin inadkarlıqları və təbliğatları qarşısında ruhiyyəni gücləndirən vasitədir.

4. Allaha sitayiş və həmd-səna yolu ilə Ona tasbih edilir.

5. Çirkinliklərdən təmizlənmək yaxşılıqlarla zinətlənməkdən öndə gəlir. Təsbih (Allahı pak bilmək) həmddən müqəddəmdir.

6. Quran təbii meyarlardan istifadə etməklə vəzifələr üçün zaman müəyyənləşdirir.

7. İlahi təsbih və həmd-səna günəşin tülu (doğuş) və qürubundan öncə xüsusi təsirə malikdir.

8. Vaxtımızı ilahi zikrlə keçirək. Belə etsək, boş fikirlərə yer qalmaz.

9. Gecə təkcə yatmaq üçün deyil. Onun bir hissəsini ibadət üçün ayırmaq lazımdır.

10. Bütün şərtlər ödəndikdə Allahın zikri böyük nəticələr verir. (Allah zikri təklikdə bəs etmir, səy, vəhdət, ixlas kimi digər şərtlər də ödənməlidir.)

11. Təkamülün ən üstün dərəcəsi razılıq məqamıdır. (Təkamülün dərəcələri var: Səbir, Allahı pak bilmək, Allaha həmd-səna, sitayiş, Allahın qəza-qədərindən razılıq.)

**● AYƏ 131:**

﴿وَلَا تَمُدَّنَّ عَيْنَيْكَ إِلَى مَا مَتَّعْنَا بِهِ أَزْوَاجًا مِّنْهُمْ زَهْرَةَ الْحَيَاةِ الدُّنيَا لِنَفْتِنَهُمْ فِيهِ وَرِزْقُ رَبِّكَ خَيْرٌ وَأَبْقَى﴾

**“Heç vaxt onlardan bir dəstəsinə verdiyimiz dünya malına göz dikmə. (Dünya malı) dünya həyatının bir cilvəsidir və bununla onları sınamaq istəyirik. Rəbbinin ruzisi isə daha üstün və daha davamlıdır.”**

**Nöqtələr**

Nəql olunur ki, İmam Sadiq (ə) buyurmuşdur: “Gözü xalqın əlində olan kəsin qəm-qüssəsi uzanar, qeyzi yerində qalar.”[1]

Qurani-kərim dünya malını xeyir, fəzl, zinət saysa da[2] ona əsir olmağı məzəmmət edir. Çünki dünya həyatının ömrü çiçək tək qısadır və bir küləklə sona çatır.

**Bildirişlər**

1. Yalnız dünyanın bər-bəzəyinə uymayan insan Allahın razılıq məqamına çata bilər. (Bəli, maddiyyata vurğun insan daim əskiklik hiss edir və Allahdan razı qalmır.)

2. İnsan təbii şəkildə maddiyyata meyl göstərir. Amma bu meyl cilovlanmalıdır.

3. Əsarət və bağlılığın müqəddiməsi baxışdır.

---

[1] “Təfsire-Əl-mizan”.

[2] “Bəqərə”, 180; “Cumuə”, 10; “Kəhf”, 46.

*Gözün də, qəlbin də, əlindən aman,*
*Könül bəndə düşür göz görən zaman.*

4. Ümmətin rəhbərinin başqalarının malında gözü olmamalı, diqqəti maddiyyata, başqalarının dəbdəbəli həyatına yönəlməməlidir.
5. Maddi görüntülər hətta peyğəmbərlər üçün təhlükə yarada bilər.
6. Hər dünya malı və hər ləzzət vasitəsi ilahi nemət sayılmır.
7. Kafirlər arasında dünyadan ləzzət almayanlar da var.
8. Dünya görüntüləri heç zaman açmayan qönçə kimidir.
9. Dünya həyatının görüntüləri insan üçün sınaq vasitəsidir.
10. Başqalarının əlində olan yox, öz əlimizdə olanlar haqqında düşünək.
11. Ruzi vermək Allahın rübubiyyət şənindəndir.
12. İnsan öz ixtiyarında olanların hamısından faydalana bilmir. Bəzilərinin bütün imkanları olsa da, çox az şeylərdən istifadə edirlər.
13. İstənilən bir şeyi dəyərləndirmək üçün iki meyar var: Xeyirlilik və davamlılıq.

**● AYƏ 132:**

**﴿وَأْمُرْ أَهْلَكَ بِالصَّلَاةِ وَاصْطَبِرْ عَلَيْهَا لَا نَسْأَلُكَ رِزْقًا نَّحْنُ نَرْزُقُكَ وَالْعَاقِبَةُ لِلتَّقْوَى﴾**

**"Ailənə namazı əmr et. Özün bu işdə möhkəm ol. Biz səndən ruzi istəmirik, sənə ruzi veririk. (Yaxşı) aqibət təqva əhli üçündür."**

**Nöqtələr**

Çoxsaylı rəvayətlərdə bildirilir ki, bu ayə nazil olduqdan sonra Peyğəmbər (s) bir neçə ay ardıcıl Əli (ə) və Fatimənin (s) qapısını döyüb buyururdu: "Namaz!" Sonra həzrət "Təthir" ayəsini oxuyurdu.[1]

Həzrət Peyğəmbər (s) sıxıntıya düşdüyü vaxt bu ayəni oxuyar və ailəsinə namaz göstərişi verərdi.[2]

"İstəbir ələyha", yəni həm namazın icrasında, həm də ona çağırışda möhkəm ol.

**Bildirişlər**

1. Əmr be məruf (yaxşılığa əmr) maddiyyat əsiri olmayanlara daha çox təsir göstərir.
2. İslam cəmiyyətinin rəhbəri öz ailəsindən xəbərsiz olmamalıdır.

---

[1] "Təfsire-kəbire-Fəxr Razi"; "Təfsire-dürrül-mənsur"; "Təfsire-Məcməül-bəyan".
[2] "Təfsire-Əl-mizan".

3. Kişi öz ailəsinin etiqadına görə məsuliyyət daşıyır. Ailənin təkcə maddi ehtiyaclarını ödəmək yetərli deyil.

4. Əmr be məruf üçün ən mühüm ünvanlardan biri insanın ailəsi və yaxınlarıdır. ("Əhl" dedikdə təkcə ailə-övlad yox, bütün ev əhli nəzərdə tutulur.)

5. Təbliğatçı ilkin mərhələdə öz ailəsini doğru yola çağırmalıdır.

6. Tərbiyənin ilk mərhələsi ailə ocağında gerçəkləşir.

7. Bütün göstərişlər arasından namaz göstərişinə önəm verilməsi ailə üzvlərinin sığortalanma rəmzidir.

8. Dünya bağlılıqları və dəbdəbəsindən namaza sığınaq.

9. Namaz xeyir əməlin ən bariz nümunələrindəndir.

10. Namazın ailə üçün mühüm əhəmiyyəti var. Valideyn bu məsələyə diqqətli olmalıdır.

11. Əmr be mərufda davamlılıq və möhkəmlik şərtdir.

12. İbadətlərimizin Allaha heç bir faydası yoxdur. Namaz özümüz üçün faydalıdır.

13. Yaxşılığa çağırış ciddi olmalı, işin sonu açıqlanmalıdır.

14. Namaz paklıq və təqva üçün zəmin yaradır.

15. Xoş aqibət maddiyyat yox, ilahi təqva sayəsində əldə olunur.

**• AYƏ 133:**

﴿وَقَالُوا لَوْلَا يَأْتِينَا بِآيَةٍ مِّن رَّبِّهِ أَوَلَمْ تَأْتِهِم بَيِّنَةُ مَا فِي الصُّحُفِ الْأُولَى﴾

**"(Kafirlər) dedilər: «Nə üçün (Peyğəmbər) öz Rəbbi tərəfindən bizim üçün möcüzə və nişanə gətirmir?» Məgər əvvəlki kitablarda onlar üçün aşkar dəlil və nişanə gəlməmişdimi?!"**

**Nöqtələr**

Müşriklər tələb edirdilər ki, İslam Peyğəmbəri (s) də həzrət Musa kimi möcüzələr göstərsin. Amma Allah-təala buyurur: "Quran möcüzəsinin bütün əvvəlki möcüzələrdən üstün olduğunu bilmirsinizmi?! Məgər həmin möcüzələr qarşısında inadkarlıq göstərmədilərmi?!"

Əvvəlki kitablar dedikdə Tövrat, İncil və Zəbur nəzərdə tutulur.

**Bildirişlər**

1. Bəhanə xarakterli tələblərə məhəl qoymamaq lazımdır. (Bu sayaq tələblər inadkar və təkəbbürlü insanlara aiddir. Onlar aşkar dəlili bir kənara qoyub, başqa tələblər irəli sürürlər.)

2. Əsas məsələ möcüzə yox, qarşı tərəfin qəbul ruhiyyəsidir.

**● AYƏ 134:**

﴿وَلَوْ أَنَّا أَهْلَكْنَاهُم بِعَذَابٍ مِّن قَبْلِهِ لَقَالُوا رَبَّنَا لَوْلَا أَرْسَلْتَ إِلَيْنَا رَسُولًا فَنَتَّبِعَ آيَاتِكَ مِن قَبْلِ أَن نَّذِلَّ وَنَخْزَى﴾

**“Əgər Biz onları (Peyğəmbərin (s) gəlişi və Quranın nazil olmasından) əvvəl əzab göndərib həlak etsəydik deyərdilər: «Pərvərdigara! Nə üçün bizə peyğəmbər göndərmədin? Biz zəlil və xar olmazdan öncə Sənin ayələrinə itaət edərdik.»”**

**Bildirişlər**

1. Peyğəmbərlərin gəlişində məqsəd höccəti tamamlamaq, yetərli dəlillər gətirmək və bəhanəyə yer qoymamaqdır.
2. Qanun elan edilməmiş cəzalandırılmaq ədalətdən kənardır.
3. Xalq dinləsə də, dinləməsə də dinin təbliği vacibdir. Təbliğ olmayan yerdə insanların etiraz haqqları var.
4. Peyğəmbərlərə tabeçilik izzət və hörmət səbəbidir.

**● AYƏ 135:**

﴿قُلْ كُلٌّ مُّتَرَبِّصٌ فَتَرَبَّصُوا فَسَتَعْلَمُونَ مَنْ أَصْحَابُ الصِّرَاطِ السَّوِيِّ وَمَنِ اهْتَدَى﴾

**“De ki, (biz və siz) hər birimiz intizardayıq. Gözləyin, tezliklə kimlərin doğru yolda olduğunu və kimin hidayət tapdığını biləcəksiniz.”**

**Nöqtələr**

“Doğru yol səhabələri” dedikdə məsum imamlar, “hidayət tapanlar” dedikdə onların ardıcılları nəzərdə tutulur.[1]

İmam Kazim (ə) uyğun ayə ilə bağlı buyurur: “Doğru yol bizim Qaimin (imam Mehdinin (ə)) yoludur. Yalnız ona itaət edənlər hidayət tapanlardır.[2]

**Bildirişlər**

1. Peyğəmbər xəbərdarlıq edib qorxutmağa vəzifəlidir.
2. Zaman və tarix bütün qaranlıqlara işıq salır.
3. Kafirlər özlərini doğru yolda sayırlar.
4. İslam ifrat və təfritdən uzaq olan orta məktəb, müsəlmanlar isə doğru yolu (hidayət) tapmış kəslərdir.

---

[1] “Təfsire-furqan”.
[2] “Təvilul-ayat”, s. 317.

# “ƏNBİYA” SURƏSİ

## *(21-CI SURƏ, 112 AYƏ)*

***On yeddinci cüz***

## *“ƏNBIYA” SURƏSININ SIMASI*

112 ayədən ibarət olan “Ənbiya” surəsi Məkkə surəsidir. Surədə Allahın lütfünü qazanmış 16 peyğəmbərin əhvalatına işarə olunur. Bu surəni oxumağın bir sıra bərəkətləri var. Qiyamət hesabının yüngüllüyü, Peyğəmbərlə (s) görüş bu bərəkətlərdəndir. Bir şərtlə ki, surə eşqlə oxunsun, iman və əməl üçün müqəddimə olsun.[1]

Eləcə də, “Ənbiya” surəsində müjdədən daha çox xəbərdarlıqla rastlaşırıq.

﴾بسم الله الرحمن الرحيم﴿

**BAĞIŞLAYAN VƏ MEHRIBAN ALLAHIN ADI ILƏ**

**● AYƏ 1:**

﴾اقْتَرَبَ لِلنَّاسِ حِسَابُهُمْ وَهُمْ فِي غَفْلَةٍ مُّعْرِضُونَ﴿

**“İnsanların hesab vaxtı yaxınlaşmışdır. Onlarsa qəflət içində arxa çevirmişlər!”**

**Nöqtələr**

**Sual:** Məgər “qəflət” dedikdə bir şeyə diqqətsizlik, “arxa çevirmək” dedikdə isə bir şeyi görüb ondan üz döndərmək nəzərdə tutulursa, bu iki təbir ayədə yanaşı necə işlənmişdir?

**Cavab:** Qəflət və diqqətsizlik iki növdür:

a) Xəbərdarlıqla aradan qaldırılan qəflət;

b) Arxa çevirməklə sonuclanan qəflət. Yəni qafil şəxs özünü yatmış göstərib çağırışa cavab verməyən kəs kimi ayılmaq istəmir.

İnsanların əksəri məad və Qiyamət hesabından qəflətdə olduğu üçün Allah bu qəfləti bütün xalqa aid edir. Əlbəttə ki, bütün hallarda insanların bir qismi istisnadır. Hazırkı surənin 97-ci ayəsində insanlar qəflətdə olduqlarını öz dilləri ilə etiraf edirlər.

## *QIYAMƏT GÜNÜ HESAB MƏSƏLƏSINƏ BIR BAXIŞ*

Ayələrdən müəyyən nəticələr çıxarılır:

---

[1] “Təfsire-nümunə”.

1. Bütün insanlar sorğu-suala çəkilər.[1]
2. Bütün əməllər hesaba çəkilər.[2]
3. Bütün hallar nəzərdən keçirilər.[3]
4. İnsanın hər bir bədən üzvü sorğuya çəkilər.[4]
5. İlahi nemətlər haqqında soruşular.[5]
6. Bütün işlər - harada olur olsun, nə ölçüdə olur olsun - səhnəyə gətirilər.[6]

Öncə namaz haqqında soruşular. Gənclik, ömür, qazanc yolu, xüsusi ilə rəhbərlik və vilayət kimi mühüm məsələlərin hesabı aparılar. Elə bircə bu yetər ki, Allah özü hesab aparsın.[7]

**Bildirişlər**

1. Xalqla hesab aparılması qəti bir məsələdir.
2. Qiyamət və hesab vaxtının uzaq olmasını düşünməyək.
3. Hesab bütün insanlara aiddir.
4. Nizam və hesab kamil həyat şərtləridir. (İnsan təsadüfən yaranmayıb, məqsədli şəkildə vücuda gətirilib.)
5. İnsanların diqqətini cəlb etmək üçün bəzən sərt və hədələyici halda danışmaq lazım gəlir.
6. İnsanlar qiyamət sorğusundan qəflətdə olsalar da bu sorğu özü onların sorağınca gəlir.
7. Etinasızlıqdan doğan qəflət təhlükəlidir.

**● AYƏ 2:**

﴿مَا يَأْتِيهِم مِّن ذِكْرٍ مِّن رَّبِّهِم مُّحْدَثٍ إِلَّا اسْتَمَعُوهُ وَهُمْ يَلْعَبُونَ﴾

**“Onlara Rəbbləri tərəfindən nə vaxt yeni bir xəbərdarlıq gəldisə, onu eşidib (yenə) əylənməyə başladılar.”**

**Nöqtələr**

Allah kəlamının qədim və ya hadis (yeni) olma məsələsi abbasilər dövründə ortaya atılmış mövzulardandır. Bu mövzuda xeyli mübahisələr aparılmışdır. Uyğun mövzunun formalaşdırılmasında məqsəd, çox güman ki, xalqı zalım hakimlərlə qarşıdurmadan yayındırmaq olmuşdur. Şübhəsiz ki, Quran mahiyyətcə Allah elmindən qaynaqlanır və qədimdir. Peyğəmbərə nazil olan sözlər isə hadis (yeni) sayılır. İstənilən bir halda bu sayaq mübahisələr fərd və

---

[1] “Əraf”, 16.
[2] “Nəhl”, 93.
[3] “Bəqərə”, 284.
[4] “İsra”, 36.
[5] “Nəhl”, 93.
[6] “Loğman”, 16.
[7] “Ənbiya”, 47.

cəmiyyətin hansısa problemini həll etmir. İmamlarımız da bu sayaq mübarizələrdən çəkinmişlər.[1]

**Bildirişlər**

1. İlahi xəbərdarlıqlar davamlıdır və təkrarlanır.
2. Xəbərdarlıq və tərbiyə bir-biri üçün şərtdir.
3. Quran zikr səbəbidir.
4. Xəbərdarlıqda yenilik bir dəyərdir.
5. Dinləmək və anlamaq bəs etmir, qəbul və əməl etmək də lazımdır.
6. Qəflət və həqiqətdən kənarlaşmaq mənasız işlərə sövq edir.
7. Vəhy və ilahi zikrdən uzaq həyat oyun-oyuncaqdan başqa bir şey deyildir.

### • AYƏ 3:

﴿لَاهِيَةً قُلُوبُهُمْ وَأَسَرُّواْ النَّجْوَى الَّذِينَ ظَلَمُواْ هَلْ هَذَا إِلَّا بَشَرٌ مِّثْلُكُمْ أَفَتَأْتُونَ السِّحْرَ وَأَنتُمْ تُبْصِرُونَ﴾

**“Halbuki onların qəlbləri (mənasız şeylərə) məşğuldur. Zülm edənlər məxfi şəkildə pıçıldaşırlar ki, «görən bu şəxs sizin kimi bir bəşərdir? Halbuki sehrə doğru getdiyinizi görürsünüz.»”**

**Bildirişlər**

1. Mənasız işlərə məşğulluq insanın diqqətini qiyamət sorğusu kimi mühüm məsələlərdən yayındırır.
2. Azğın insanlar öz azğınlığına don geyindirirlər.
3. Nə qədər ki, qəlb Allah zikrindən uzaq düşməyib, insan ilahi ayələri əyləncə saymır.
4. Peyğəmbərin müxalifləri gizlində qurğu qurur, möcüzələri sehr-cadu sayırlar.
5. Kafirlər həqiqətləri ört-basdır etməklə özlərinə və ətrafdakılara zülm edirlər.
6. Zalımların peyğəmbərlərə böhtan atması peyğəmbər məktəbinin zülmə qarşı çıxdığını göstərir.
7. Peyğəmbərlər xalq arasında çox sadə bir həyat yaşamışlar.

### • AYƏ 4:

﴿قَالَ رَبِّي يَعْلَمُ الْقَوْلَ فِي السَّمَاءِ وَالأَرْضِ وَهُوَ السَّمِيعُ الْعَلِيمُ﴾

**“(Peyğəmbər) dedi: «Mənim Rəbbim göydə və yerdə olan bütün söhbətlərdən xəbərdardır. O, eşidən və biləndir.»”**

---

[1] “Təfsire-nümunə”.

**Bildirişlər**

1. Peyğəmbərlər fitnə-fəsad və böhtanlarla qarşılaşdıqda Allaha təvəkkül edirlər.

2. Düşmənlər öz fitnə-fəsadlarında məxfiliyi gözləsələr də, Allah hər şeyi bilir, Onun üçün gizlin və aşkar eynidir.

3. Allahın elminə diqqət insanı fitnə-fəsaddan və gizli qurğulardan çəkindirir.

● **AYƏ 5:**

﴿بَلْ قَالُواْ أَضْغَاثُ أَحْلاَمٍ بَلِ افْتَرَاهُ بَلْ هُوَ شَاعِرٌ فَلْيَأْتِنَا بِآيَةٍ كَمَا أُرْسِلَ الأَوَّلُونَ﴾

**“(Kafirlər) dedilər: «(Məhəmmədin gətirdikləri vəhy yox,) qatışıq yuxulardır. Ola bilsin ki, dediklərini özündən uydurur. Bəlkə də o bir şairdir. (Əgər doğru deyirsə,) əvvəl göndərilənlər kimi, o da bizim üçün möcüzə gətirsin.”**

**Nöqtələr**

“Əzğas” dedikdə toplum, “əhlam” dedikdə isə yuxu mənaları anlaşılır. “Əzğasu əhlam” təbiri isə qatmaqarışıq yuxular mənasını bildirir.

Kafirlər İslam Peyğəmbərindən (s) Musa və İsanın möcüzələrini gözləyirdilər. Əsl məqsədləri isə göstərişlərdən boyun qaçırmaq idi. Əslində möcüzə seçimi xalqın istəklərindən yox, ilahi hikmətdən asılıdır.

**Bildirişlər**

1. Ziddiyyətli danışıq kafirlərin məntiqsizliyini göstərir.

2. Düşmən bir böhtanla kifayətlənmir. (Onlar zərbə vurmaq üçün bütün yollardan istifadə edirlər. Əks-təbliğat, ardıcıl böhtanlar düşmənin əsas iş üsullarındandır.)

3. Düşmən nə qədər böhtan atsa da, daxilən tərəddüddədir.[1]

4. Müşriklər də möcüzəni peyğəmbərlik üçün şərt sayırlar.

5. Xalq hiss üzvləri ilə qavranan möcüzə istəyindədir.

● **AYƏ 6:**

﴿مَا آمَنَتْ قَبْلَهُم مِّن قَرْيَةٍ أَهْلَكْنَاهَا أَفَهُمْ يُؤْمِنُونَ﴾

**“Bunlardan öncə həlak etdiyimiz bütün varlıqlar (bu sayaq möcüzə istədilər, amma istəkləri yerinə yetəndə) iman gətirmədilər. Yoxsa bunlarmı iman gətirəcək?!”**

---

[1] “Təfsire-Əl-mizan”.

● AYƏ 7:

﴿وَمَا أَرْسَلْنَا قَبْلَكَ إِلاَّ رِجَالاً نُّوحِي إِلَيْهِمْ فَاسْأَلُواْ أَهْلَ الذِّكْرِ إِن كُنتُمْ لاَ تَعْلَمُونَ﴾

**“(Ey peyğəmbər!) Biz səndən öncə yalnız vəhy etdiyimiz kişiləri (peyğəmbər olaraq) göndərdik. Əgər bilmirsinizsə, zikr əhlindən soruşun.”**

**Nöqtələr**

Ötən ayədə kafirlər “bu şəxs sizin kimi bəşərdirmi” deyə soruşurdular. Bu ayədə Allah-təala buyurur: “Nəinki bu peyğəmbər, bütün əvvəlki peyğəmbərlər insanlar idi, onlara vəhy olunurdu.” Bəli, elçinin insan nəslindən olması onun peyğəmbərliyi ilə zidd deyildir.

Müşriklər kitab əhli ilə yaxşı münasibətdə olduqlarından Allah-təala onlara buyurur: “Kitab əhlindən soruşun.”

Zikr (kitab) əhlindən sorğu və mütəxəssisə müraciət ağılın tələbidir. Ayədə “zikr əhli” deyərkən yəhudi və məsihi alimləri nəzərdə tutulmuşdur. Rəvayətlərdə tövsiyə olunur ki, çıxış yolu tapmadıqda Peyğəmbər (s) Əhli-beytinə (ə) müraciət edin. Bu böyük insanlar “zikr əhlinin” kamil nümunələridirlər.

İslam Peyğəmbəri (s) buyurur: “Nə alim sükut etsin, nə də cahil sorğudan çəkinsin.”[1]

**Bildirişlər**

1. Küfr və inadkarlıq olan yerdə Allahın qəzəbi qaçılmazdır. Bu, ilahi bir sünnədir. (İman bəşər cəmiyyətinin hifzi və davamı üçün səbəbdir.)
2. Tarixə ibrət gözü ilə baxaq.
3. Bütün peyğəmbərlər kişi cinsindəndirlər.
4. Bütün peyğəmbərlərə vəhy edilmişdir, onların elmi vəhy qaynağındandır.
5. Sorğu-sual dinin tövsiyəsidir.
6. İnsan məsələni anlamaq məqsədi ilə sual verməlidir.
7. Mütəxəssisə müraciət etməsək, həqiqi bilik əldə edə bilmərik.
8. Etiqadi və dini məsələlərdə həqiqətə çatanadək axtarış aparaq.
9. Suallara cavab almaq üçün alim yaxında olmalıdır.
10. Elm əhli olmaq yox, zikr əhli olmaq mühümdür. (Bir çox alimlər Allahdan qəflətdədirlər.)
11. Bir işə başlamaq üçün mütəxəssis olmaq lazımdır. Səthi məlumat, təqlidlə nəticə əldə etmək olmaz.
12. Xalqa yol göstərmək zikr əhlinə vacibdir. Əks-təqdirdə sorğu-sual göstərişi səmərəsiz olar.

---

[1] “Təfsire-dürrül-mənsur”.

**• AYƏ 8:**

﴿وَمَا جَعَلْنَاهُمْ جَسَدًا لَّا يَأْكُلُونَ الطَّعَامَ وَمَا كَانُوا خَالِدِينَ﴾

**“Biz onları yemək yeməyən cisimlər yaratmadıq. Onlar əbədi deyildilər.”**

**Nöqtələr**

Rəhbərin müvəffəqiyyət rəmzlərindən biri budur ki, o, “rəftarlarından ibrət götürülsün” deyə insanlar arasında və insanlar kimi olsun.

**Bildirişlər**

1. Peyğəmbərlər maddi və insani ehtiyaclar baxımından başqalarından fərqlənmirlər.
2. Peyğəmbərlərin mələk olması istəyi yersiz istəkdir.
3. Yemək və ailə həyatından uzaqlıq Allah və ilahi dinlərin tələbi deyil.
4. Ölüm hamını əhatə edir, hətta peyğəmbərlər də əbədi deyil.

**• AYƏ 9:**

﴿ثُمَّ صَدَقْنَاهُمُ الْوَعْدَ فَأَنجَيْنَاهُمْ وَمَن نَّشَاء وَأَهْلَكْنَا الْمُسْرِفِينَ﴾

**“Sonra Biz onlara verdiyimiz vədə vəfa qıldıq. Onlara və istədiyimiz hər kəsə nicat verib, israfçıları həlak etdik.”**

**Nöqtələr**

Bu ayə ilə Peyğəmbərə (s) təsəlli verilir. Bildirilir ki, Biz möminlərə verdiyimiz vədə vəfa qılırıq.

**Bildirişlər**

1. Allahın peyğəmbərlərə verdiyi qələbə vədi qətidir.
2. Allah peyğəmbərlərə nicat verəcəyini və müxalifləri məhv edəcəyini onlara vəd etmişdir.
3. İlahi cəzalar öz əməllərimizin nəticəsidir.
4. İsraf məhvə zəmin yaradır. Bütün israfçıların sonu puçdur.

**• AYƏ 10:**

﴿لَقَدْ أَنزَلْنَا إِلَيْكُمْ كِتَابًا فِيهِ ذِكْرُكُمْ أَفَلَا تَعْقِلُونَ﴾

**“Həqiqətən, sizə elə bir kitab nazil etdik ki, onda sizin üçün xəbərdarlıq var. Yoxsa düşünmürsünüz?!”**

**Nöqtələr**

"Zikrukum" sözü ya xəbərdarlıq vasitəsi, ya da izzət səbəbi mənasını bildirir. "Zikr" sözünün şərafət və şöhrət kimi lüğət mənaları da var.[1]

İmam Kazim (ə) bu ayə haqqında buyurur: "Fihi zikrukum," yəni kitabda zikr olunmuşdur ki, peyğəmbərdən sonra imama itaət olunur."[2] Yəni peyğəmbərdən sonra imama itaət sizin üçün izzət və şərəfdir.

**Bildirişlər**

1. Kitab və qanun Allah tərəfindən insan üçün inkişaf və oyanış vasitəsidir.
2. Quran yüksək mövqe, uca məqama malikdir.
3. Səmavi kitabın nazil olmasının bir səbəbi də insanlara xəbərdarlıq və onlara kəramət bəxş etməkdir.
4. İnsanın keçmişi, bu günü və gələcəyi Quranda xəbər verilir.
5. Ərəb qövmü və Hicaz məmləkəti Quranın bərəkəti ilə əziz və məşhur olmuşdur.
6. İnsanlar dərindən düşünsələr, hökmən vəhy və səmavi kitaba əl açarlar.
7. İnsanların inkişaf üçün fitri meyllərindən istifadə edək. (Xoş xatırlanmasını istəyən insan Allahın uyğun buyruğunu nəzərə almalıdır: "Adınız qalsın deyə sizə kitab göndərdik.")
8. Peyğəmbərlərin təkzibi düşüncəsizlikdir. Çünki Quran maarifi əqlə uyğundur.

**● Ayə 11:**

﴿وَكَمْ قَصَمْنَا مِن قَرْيَةٍ كَانَتْ ظَالِمَةً وَأَنشَأْنَا بَعْدَهَا قَوْمًا آخَرِينَ﴾

**"Biz insanları zalım olan bir çox abadlıqları məhv etdik. Onlardan sonra başqa bir qövm yaratdıq."**

**Bildirişlər**

1. Zülmün ardınca insanların məhvi ilahi bir sünnədir.
2. İlahi qanunu pozan hər kəs məhvə məhkumdur.
3. İnsanlar talelərini özləri müəyyənləşdirirlər.
4. Əgər zülm adət şəklini alarsa, ilahi qəzəb nazil olasıdır. Amma zülüm davamlı olmadıqda və insan ayılıb tövbə etdikdə uyğun qəzəb nazil olmur.
5. Allah üçün məhv etməklə yaratmaq arasında fərq yoxdur, O, ehtiyacsızdır.

**● Ayə 12:**

﴿فَلَمَّا أَحَسُّوا بَأْسَنَا إِذَا هُم مِّنْهَا يَرْكُضُونَ﴾

---

[1] "Qamusul-muhit".
[2] "Təvilul-ayat", s. 319.

**“Elə ki, (zalım qövm) Bizim qəzəbimizi hiss etdi, qəfildən qaçmağa üz tutdu.”**

**● AYƏ 13:**

﴿لَا تَرْكُضُوا وَارْجِعُوا إِلَى مَا أُتْرِفْتُمْ فِيهِ وَمَسَاكِنِكُمْ لَعَلَّكُمْ تُسْأَلُونَ﴾

**“(Amma xitab olundu ki,) qaçmayın! Evlərinizə və kam aldığınıza dönün. Ola bilsin ki, sorğuya çəkiləsiniz.”**

**● AYƏ 14:**

﴿قَالُوا يَا وَيْلَنَا إِنَّا كُنَّا ظَالِمِينَ﴾

**“(Əzabımızı ağır görüb) dedilər: «Vay olsun bizə! Həqiqətən, biz, zalım idik.»”**

**● AYƏ 15:**

﴿فَمَا زَالَت تِّلْكَ دَعْوَاهُمْ حَتَّى جَعَلْنَاهُمْ حَصِيدًا خَامِدِينَ﴾

**“Biz onları qırıb, hərəkətdən salanadək daim bu sözləri deyirdilər.”**

**Nöqtələr**

“Həsid” dedikdə “bitmək” mənası başa düşülür. “Xamid” sözü susmaq, dayanmaq mənasını bildirir.

“Sorğuya çəkilərsiniz” cümləsi nəyə işarədir? Ola bilsin ki, bir-birinizi, ya fəqirlərin, ya da tarixin sizi sorğuya çəkməsi nəzərdə tutulur.

**Bildirişlər**

1. Zülmkar cəmiyyətə əzab tədricən nazil olur. (Qəzəb nişanələrini görməklə hisslər də tədricən yaranır.)
2. Kimsədə Allahın qəzəbi qarşısında dayanmaq gücü yoxdur. (Ən məğrur insanlar da təhlükə zamanı səhnədən qaçırlar.
3. Allahın qəzəbindən qaçmaq mümkünsüzdür.
4. Eyş-işrət zülm və tüğyan üçün zəmin yarada bilər.
5. Cəza günah baş verən yerdə icra olunmalıdır.
6. Zülmkarlar nəhayət sorğuya çəkiləsidirlər.
7. Zülmün sonu peşmançılıqdır.
8. Sonda yatmış vicdanlar oyanası, inkarçılar həqiqəti etiraf edəsidirlər.
9. Bəla nazil olan zaman ah-nalə fayda vermir.
10. Küfr və zülm insan üçün ot kimi biçilmiş, qırılmış tale ərməğan gətirir.
11. Qalmaqallı təbliğatlar, sitayişlər, yalanlar, hədələr Allah hüzurunda məhvə məhkumdur.
12. Ardıcıl zülm ilahi əzabla sonuclanır.

**● AYƏ 16:**

﴿وَمَا خَلَقْنَا السَّمَاء وَالْأَرْضَ وَمَا بَيْنَهُمَا لَاعِبِينَ﴾

**“Biz göy və yeri, onlar arasında olanı əyləncə yaratmadıq.”**

**● AYƏ 17:**

﴿لَوْ أَرَدْنَا أَن نَّتَّخِذَ لَهْوًا لَّاتَّخَذْنَاهُ مِن لَّدُنَّا إِن كُنَّا فَاعِلِينَ﴾

**“Əgər əyləncə düzəltmək istəsəydik, Onu özümüz üçün edərdik.”**

**Nöqtələr**

“Lov” kəlməsi ərəb dilində mümkünsüz işlərdən danışılarkən işlədilir. Allah üçün əyləncə mümkünsüz olduğundan burada həmin kəlmə işlədilmişdir.

Bu ayələrdə Allah öncə əyləncə yaratmadığını bildirir. Burada “əyləncə istəsəydik, Özümüz üçün edərdik” buyurur. Öncəki “laib”, sonrakı ayədə “ləhv” təbiri işlədilir. Məlum olur ki, “ləhv” və “ləib” sözləri eyni mahiyyət daşıyır. “Əl-mizan” təfsirində oxuyuruq: “Xəyali məqsədlərlə qurulmuş nizamlı bir iş “ləib” adlandırılmışdır. Amma bu sayaq xəyali işlər ciddiləşib insanı əsl məqsəddən uzaqlaşdırdıqda ona “ləhv” deyirlər. Hər iki iş, yəni həm oyun, həm də əyləncə Allahdan uzaq işlərdir.

Qurani-məciddə dəfələrlə qeyd olunur ki, varlıq aləmi oyuncaq deyil və məqsədli yaradılmışdır. “Təlaq” surəsinin 12-ci ayəsində insanın imanı yaranış məqsədi sayılır. Allah yeddi qat göyü və yeri xəlq etdi ki, Onun hər bir işə qadir olduğunu biləsiniz. Onun elmi hər şeyi əhatə edir. Əlbəttə, bu məqsədin gerçəkləşməsi üçün varlıq aləmi haqqında düşünmək, ibrət götürüb etiraf etmək lazımdır.

“Əgər əyləncə istəsəydik, şübhəsiz Özümüz üçün edərdik” cümləsi müxtəlif cür mənalandırılır:

a) Hətta əyləncə üçün də olsa, varlıq aləminin yaradılışı bütlərin yox, Allahın işidir.

b) Allah əyləncə istəsəydi belə, bu iş üçün maddiyyat aləminə üz tutmaz, mələklərdən və dərgahına yaxın olanlardan istifadə edərdi.

İmam Sadiq (ə) uyğun ayəyə istinad edərək insana mənasız işləri (ləvh) qadağan edir.[1]

**Bildirişlər**

1. Varlıq aləmi məqsədli yaradılmışdır. (Əgər yaranış məqsədsiz deyilsə, demək ölüm də işin sonu, yoxluq sayılmamalıdır.)

---

[1] “Dəaimul-İslam”, c. 2, s. 206.

2. Oyun oynamaq istəyən kəs nəhayətsiz və sirli varlıq aləmi yox, oyun-oyuncaq hazırlayır. Bu varlıq aləminin təkcə hüceyrə və atomları əsrləri və nəsilləri araşdırmalara məşğul etmişdir.

3. Allah əylənmək istəsəydi belə, onu Öz zatına münasib şəkildə həyata keçirərdi. (Maddi aləmə üz tutmazdı.)[1]

4. Əgər Allah-təala varlıq aləmini oyun məqsədi ilə yaratsaydı bir bu qədər peyğəmbər göndərməz, halal-haram göstərişi verməz, mükafat və cəza müəyyənləşdirməzdi.

**● AYƏ 18:**

﴿بَلْ نَقْذِفُ بِالْحَقِّ عَلَى الْبَاطِلِ فَيَدْمَغُهُ فَإِذَا هُوَ زَاهِقٌ وَلَكُمُ الْوَيْلُ مِمَّا تَصِفُونَ﴾

**“(Yox, belə deyil,) Biz batilin beynini dağıtmaq üçün onu haqla vururuq, batil dərhal məhv olur. Vay olsun sizə, (Allaha) aid etdiyiniz sifətlərə görə!”**

**Nöqtələr**

“Qəzf” dedikdə uzaqdan sürət və qüvvətlə atmaq mənası anlaşılır. “Dəmğ” sözü başa dəyib beynə təsir göstərən zərbə mənasını bildirir.

“Vəyl” dedikdə əzab və məhv mənaları anlaşılır. Bu söz əzaba layiq olunduqda işlədilir.[2]

**Bildirişlər**

1. Haqqın batilə qələbəsi Allahın iradəsi və varlıq aləminin məqsədli olduğunu göstərən bir əlamətdir.
2. Haqq batillə müdafiə mövqeyindən davranmamalıdır.
3. Batilin məhvi ilahi sünnədir.
4. Haqq batilə qalibdir.
5. Haqqın cəbhədə hüzuru ilə batil məhv olur.
6. Batillə mübarizədə sürət, qüdrət və məqsədyönümlülük prinsiplərinə riayət olunmalıdır.
7. Batil yarımcan buraxılmamalı, tam surətdə məhv edilməlidir.
8. Haqq qalası, batil gedəsidir.
9. Batil hökumət Allahın verdiyi möhlət qanununa əsasən bir neçə gün yaşayır. Sonda isə təqvalılar və haqq əhli iqtidara çatır.
10. Vay olsun yaranışı oyuncaq sayanlara!

---

[1] “Təfsire-Safi”.
[2] “Lisanul-ərəb”.

● AYƏ 19:

﴿وَلَهُ مَن فِي السَّمَاوَاتِ وَالْأَرْضِ وَمَنْ عِندَهُ لَا يَسْتَكْبِرُونَ عَنْ عِبَادَتِهِ وَلَا يَسْتَحْسِرُونَ﴾

**"Göylərdə və yerdə nə varsa Ona məxsusdur. Onun yanında olanlar (mələklər) Ona ibadətdə təkəbbür göstərməz, yorulub dayanmazlar."**

● AYƏ 20:

﴿يُسَبِّحُونَ اللَّيْلَ وَالنَّهَارَ لَا يَفْتُرُونَ﴾

**"Onlar gecə-gündüz süstlük göstərmədən Onu paklığına görə öyərlər."**

● AYƏ 21:

﴿أَمِ اتَّخَذُوا آلِهَةً مِّنَ الْأَرْضِ هُمْ يُنشِرُونَ﴾

**"(Kafirlərin) yerdən seçdikləri tanrılar ölüləri dirildərmi?"**

**Nöqtələr**

Məcazi malikiyyətdə (adi həyatda) insan ağasına yaxınlaşdıqca onu daha az saya salır, bəzən bu yaxınlıqdan arxayınlaşıb xətaya da yol verir. Həqiqi malikiyyətdə isə (Allah-bəndə münasibətlərində) insan öz məbuduna yaxınlaşdıqca daha çox ibadət edir.[1]

"Nəhcül-bəlağə"nin birinci xütbəsində mələklər haqqında deyilir: "Mələklərdə yuxu, unutqanlıq, yorğunluq və qəflət yoxdur."

**Bildirişlər**

1. Varlıq aləminin həqiqi maliki yalnız Allahdır. (Əgər Onun hökmü altındayıqsa, bəndəlik vəzifələrimizə əməl edək.)
2. İbadət və bəndəlik təkcə insana aid deyil.
3. Mələklərdən uzaqlığın kökü təkəbbürdür.
4. Allahın bəzi məxluqları Ona yaxın məqama çatar.
5. İbadətdən uzaqlığın kökü təkəbbürdür.
6. İbadət insanı mələklərlə bir cərgəyə qatır.
7. Xoşhallıq ibadətin dəyərini göstərir.
8. Mələklər yatmır.
9. Davamlılıq ibadətə dəyər verir.
10. Batil əqidələri sual altına alaq.

---

[1] "Təfsire-Əl-mizan".

**● AYƏ 22:**

﴿لَوْ كَانَ فِيهِمَا آلِهَةٌ إِلَّا اللَّهُ لَفَسَدَتَا فَسُبْحَانَ اللَّهِ رَبِّ الْعَرْشِ عَمَّا يَصِفُونَ﴾

**“Əgər göylərdə və yerdə Allahdan başqa məbudlar olsaydı, hər ikisi (göy və yer) dağılardı. Ərşin Rəbbi olan Allah Ona aid edilən sifətlərdən pakdır.”**

**Nöqtələr**

Bir neçə müəllif tərəfindən yazılmış kitaba diqqət və nəzər salsaq, onun müxtəlif cümlələri və hissələrinin üslubu arasında fərqlər görərik. Kitab böyüdükcə uyğun ziddiyyət də artır. Ola bilsin ki, eyni bir fikri müxtəlif şəxslər təsadüfi olaraq eyni bir tərzdə ifadə etsinlər. Amma varlıq aləmi kimi böyük bir kitabda mütləq uyğunluq və nizamı yalnız vahid Allah yarada bilər.

**Sual:** Əgər Allah varlıq aləmindəki prosesləri nizamlayırsa, nə üçün müəyyən ziddiyyətlər var?

**Cavab:** Əvvəla, nəzərdə tutulanları ziddiyyət adlandırmaq düzgün deyil. Bu növ təzadlar qayçının və tərəzinin bir-birinə zidd gedən iki tərəfi kimi eyni bir işə xidmət göstərir. Məsələn, yuyulmuş paltarın suyunu sıxmaq istəyən insanın əlləri bir-birinə zidd istiqamətdə hərəkət edir. Məqsəd isə birdir.

Hişam ibn Həkəm İmam Sadiqdən (ə) soruşdu: “Allahın birliyinin dəlili nədir?” Həzrət buyurdu: ”Varlıq aləmindəki tədbirlər arasındakı bağlılıq, yaranışın kamil olması Allahın birliyinin dəlilidir.”[1]

Bu ayə hər bir iş üçün xüsusi tanrı müəyyənləşdirənlərə cavabdır.

**Bildirişlər**

1. Yaradanın birdən çox olması mümkünsüz işdir.
2. Göylərin və yerin Rəbbi birdir. Müşriklər isə göy üçün ayrı, yer üçün ayrı Rəbb nəzərdə tuturlar.[2]
3. Bir işi bir neçə nəfərin idarə etməsi ziddiyyət və fəsad yaradır.
4. Batil söz yada salınarkən “sübhanəllah” deməklə Allahı paklığına görə öymək lazımdır.
5. Allahın təsbihi (pak sayılması) kor-koranə takrarlanmamalı, agahlıq, dəlil və məntiqə əsaslanmalıdır. (Öncə dəlil göstərildi ki, varlıq aləmində iki müdiriyyət olsa, fəsad yaranar, sonra Allaha təsbih deyildi.)

**● AYƏ 23:**

﴿لَا يُسْأَلُ عَمَّا يَفْعَلُ وَهُمْ يُسْأَلُونَ﴾

---

[1] “Tövhidi-Səduq”, s. 250.
[2] “Zuxruf”, 84.

**“O (Allah), gördüyü işə görə sorğuya çəkilməz. Amma onlar (insanlar) sorğuya çəkiləsidirlər.”**

**Nöqtələr**

Quranda dəfələrlə bəyan olunmuşdur ki, insan gördüyü işlərə görə cavabdehlik daşıyır. “Hicr” surəsinin 92-ci ayəsində oxuyuruq: “And olsun Rəbbinə ki, bütün xalq sorğuya çəkiləcək.” Digər bir ayədə buyurulur: “Onları dayandırın, sorğuya çəkilməlidirlər.[1] İstənilən bir halda Qiyamət günü insandan onun düşüncəsi, niyyətləri, gəncliyi, ömrü, qazancı, xərci, rəhbər seçimi, böyüklərə itaəti haqqında sorğu-sual aparılacaq.

**Sual:** Necə olur ki, “Ər-rəhman” surəsinin 39-cu ayəsində “Heç bin cin və ins sorğuya çəkilməz” buyurulur?

**Cavab:** Qiyamətin müxtəlif səhnələri var. Hər səhnənin öz xüsusi şəraiti var. Məsələn, bir dayanacaqda insanlar onlara ünvanlanan suallara cavab verə bilirlər. Amma digər bir dayanacaqda onların ağzı möhürlənir, bədən üzvləri şəhadət verir.

**Bildirişlər**

1. Allah varlıq aləminin həqiqi və mütləq malikidir. Malik öz hökmlərinə görə qınanmır.
2. Allahdan kimsənin tələbi, alacağı yoxdur. Sorğu haqqı isə tələb və alacağı olan kəsə aiddir.
3. Allahı yalnız Ondan üstün kəs sorğuya çəkə bilər. Şübhəsiz ki, belə biri yoxdur.
4. İnsanlar gördükləri işlərə görə məsuliyyət daşıyırlar.
5. Sorğu və cəza məsuliyyətin ən üstün göstəricisi, azadlığın ən mühüm əlamətidir. (İmam Rzadan (ə) nəql olunmuş hədisdə deyilir: Allah Adəmə (ə) xitabən buyurdu: “Mən istəmişəm ki, sən öz arzunla azad olasan.”[2] Bəli, insan məcburən sorğuya çəkilmir. Çünki məsuliyyət daşımayan və məcbur olmuş şəxsin sorğuya çəkilməsi əqlən qəbahətlidir.

**● AYƏ 24:**

﴿أَمِ اتَّخَذُوا مِن دُونِهِ آلِهَةً قُلْ هَاتُوا بُرْهَانَكُمْ هَذَا ذِكْرُ مَن مَّعِيَ وَذِكْرُ مَن قَبْلِي بَلْ أَكْثَرُهُمْ لَا يَعْلَمُونَ الْحَقَّ فَهُم مُّعْرِضُونَ﴾

**“Yoxsa onlar (kafirlər) Allahın əvəzinə məbudlar qəbul etdilər? (Onlara) de ki, dəlilinizi gətirin. Bu (Quran), mənim ardıcıllarımın və**

---

[1] “Saffat”, 24.

[2] “Təfsiri-Safi”.

**məndən öncəkilərin zikridir. (Allahın şəriki olmamasını hamı yekdil olaraq qəbul edib,) amma insanların əksəri haqqı bilməz və (ondan) üz döndərər.”**

**Nöqtələr**

Həzrət Əli (ə) buyurur: *“Həqiqətən, Quranın Peyğəmbərə (s) nazil olması ilə, ötən peyğəmbərlərin, vəsilərin elmi, Qiyamətədək baş verəcək hadisələrin xəbəri ona çatdırılmış oldu.”* Sonra həzrət hazırkı ayəni tilavət etdi.[1]

**Bildirişlər**

1. Bir Allahdan uzaqlaşan hər bir kəs çoxsaylı bütlərin tələsinə düşür.
2. Peyğəmbər (s) xalqla dəlil əsasında danışmalı və onlardan dəlil tələb etməlidir.
3. Tövhidin dəlilləri var. Şirk isə heç bir dəlilə əsaslanmır.[2]
4. Əqidə əsaslarını təqlid əsasında qəbul etmək olmaz.
5. Bütün səmavi kitablar tövhidə çağırmışdır.
6. Səmavi kitablar yatmış fitrətlərin oyanmasına, unudulmuş həqiqətlərin yada salınmasına səbəb olur.
7. Cahiliyyət fəzasında çoxluğun nə istiqbalı, nə də arxa çevirməsi əhəmiyyət kəsb etmir.

**• AYƏ 25:**

﴿وَمَا أَرْسَلْنَا مِن قَبْلِكَ مِن رَّسُولٍ إِلَّا نُوحِي إِلَيْهِ أَنَّهُ لَا إِلَهَ إِلَّا أَنَا فَاعْبُدُونِ﴾

**“Səndən öncə elə bir peyğəmbər göndərmədik ki, ona «Məndən başqa məbud yoxdur, Mənə pərəstiş edin»–deyə vəhy etməmiş olaq.”**

**Nöqtələr**

“Əhzab” surəsinin 40-cı ayəsində Allah-təala İslam Peyğəmbərinin (s) son peyğəmbər olduğunu qəti şəkildə bildirsə də, digər məqamlarda da bu məsələyə toxunur. Belə ki, 30 dəfədən çox “səndən öncə” təbiri ilə rastlaşırıq. Amma bir dəfə olsun belə “səndən sonra” təbiri işlədilməmişdir.

**Bildirişlər**

1. Risalət vəhyin nazil olması ilə müşayiət olunur.
2. Tövhid bütün ilahi peyğəmbərlərin proqramında birinci yerdə dayanır.
3. Əməl etiqada əsaslanmalıdır. Öncə bünövrə, sonra bina. (Öncə ilahiyyatda, sonra ibadətdə tövhid.)
4. Haqqın batil üzərində inhisarçılığı ilahi şüardır.

---

[1] “Təfsiri-furat”, s. 261.
[2] “Muminun”, 117.

**● AYƏ 26:**

﴿وَقَالُوا اتَّخَذَ الرَّحْمَنُ وَلَدًا سُبْحَانَهُ بَلْ عِبَادٌ مُّكْرَمُونَ﴾

**“(Kafirlər) dedilər: «Rəhman Allah (mələkləri özü üçün) övlad götürmüşdür!» O, (bu sifətdən) pakdır, (mələklər) əziz bəndələrdir.”**

**● AYƏ 27:**

﴿لَا يَسْبِقُونَهُ بِالْقَوْلِ وَهُم بِأَمْرِهِ يَعْمَلُونَ﴾

**“(Mələklər) sözdə Ondan önə keçmirlər və Onun əmrinə əməl edirlər.”**

**Nöqtələr**

Mələklərin Allahın övladları olmasına əqidə müşriklərdən əlavə yəhudi və məsihilər arasında da yayılmışdır.[1]

“Mukrəmun” (əziz) sifətinin mələklərə aid edilməsinin səbəbi budur ki, onlar öncə Allahın bəndələridir, ikincisi, onların bəndəliyi xalis bəndəlikdir.

“Rəhman” adı müşriklər arasında Allahın tanınmış adıdır.

İnsana hakim şəraitin onun etiqad və mühakimələrinə təsiri var. İnsan cismə malik olduğundan övlada ehtiyac duyur. O, maddilikdən uzaq Allahın da övlada ehtiyac duyduğunu düşünür.

**Bildirişlər**

1. Başqalarının küframiz sözlərini nəql edərkən “sübhanəllah” deməklə Allahı paklığı ilə yad edin.
2. Başqalarının çaşqınlığı haqqında danışarkən doğru yolu da göstərək.
3. Allah əmrinə təslimçilik insanın kəramətini göstərir. (Bəli, yalnız danışıq və əməldə Allah göstərişini ötüb keçməyənlər kəramət əldə edirlər.)
4. Mələklər Allahın məmurlarıdırlar. Onlar yalnız Allahın əmrinə əməl edir, heç vaxt uyğun əmrlərdən boyun qaçırmırlar.

**● AYƏ 28:**

﴿يَعْلَمُ مَا بَيْنَ أَيْدِيهِمْ وَمَا خَلْفَهُمْ وَلَا يَشْفَعُونَ إِلَّا لِمَنِ ارْتَضَى وَهُم مِّنْ خَشْيَتِهِ مُشْفِقُونَ﴾

**“(Allah) onların gələcəklərini və keçmişlərini bilir. Onlar (mələklər) yalnız Allahın razılıq verdiyi kəsə şəfaət edirlər və Onun (Allahın) qəzəbindən qorxurlar.”**

**Nöqtələr**

“Xovf” dedikdə günahdan, “xəşyət” dedikdə ilahi əzəmətdən qorxu mənaları başa düşülür. “Xəşyət” qorxusu təzim və ehtiramla müşayiət olunur.

---

[1] “Təfsiri-Furqan”.

Rəvayətdə bildirilir ki, “mən irtəza” dedikdə, “Onun dinindən razılıq var” mənası başa düşülür. İmanlı şəxs günaha yol versə belə, tövbə etdiyi üçün ilahi lütf və şəfaətdən bəhrələnir.[1]

**Bildirişlər**

1. Yalnız hər şeydən xəbərdar olan Allah qarşısında nə üçün-niyəsiz təslim olmaq əhəmiyyətlidir. Allahın hər şeydən xəbərdar olduğunu düşünmək “xəşyətlə” müşayiət olunur.

2. Allah keçmişdən və gələcəkdən eyni dərəcədə xəbərdardır. İnsanlar isə yalnız keçmişdən xəbər tuta bilirlər.

3. Allah qarşısında bəndəlik və təslimçilik şəfaət məqamının əldə olunması səbəbidir.

4. Mələklər də şəfaət əhlidir.

5. Şəfaət üçün ləyaqət lazımdır. Dinindən Allahın razı olduğu kəslər şəfaətə nail olurlar.

6. Allahı daha çox tanımaq daha çox xəşyət yaratmalıdır. (İnsanın paklığı onun Allah əzəmətindən qorxmasına mane olmur.)

**● AYƏ 29:**

﴿وَمَن يَقُلْ مِنْهُمْ إِنِّي إِلَٰهٌ مِّن دُونِهِ فَذَٰلِكَ نَجْزِيهِ جَهَنَّمَ كَذَٰلِكَ نَجْزِي الظَّالِمِينَ﴾

**“Onlardan (mələklərdən) hansı biri «mən Allahın əvəzinə məbudam» desə, cəhənnəmi ona cəza qərar verərik. Biz zalımları bu sayaq cəzalandıracağıq.”**

**Nöqtələr**

Ola bilsin ki, bu ayədə “qızım sənə deyirəm, gəlin sən eşit” prinsipi əsas götürülmüşdür. Yəni xalq bilməlidir ki, hətta mələklər belə bir kəsi şirkə dəvət etsələr, cəhənnəm əzabı gözləməlidirlər.

**Bildirişlər**

1. Şirk iddiası heç bir mövcuddan qəbul olunmur və bağışlanmır.

2. Allah qarşısında özünü Ona şərik kimi tanıtdıran istənilən bir kəs - tərəfdarı olsa da, olmasa da - cəhənnəmlə cəzalandırılır.

3. İlahi cəzalar əbədi sünnə və qanunlara əsaslanır.

4. Müşrik zalımdır və zalımın cəzası yalnız cəhənnəmdir.

---

[1] “Təfsiri-Safi”.; “Təfsiri-nurus-səqəleyn”. “Tövhidi-Səduq”, s. 408.

### • AYƏ 30:

﴿أَوَلَمْ يَرَ الَّذِينَ كَفَرُوا أَنَّ السَّمَاوَاتِ وَالْأَرْضَ كَانَتَا رَتْقًا فَفَتَقْنَاهُمَا وَجَعَلْنَا مِنَ
الْمَاءِ كُلَّ شَيْءٍ حَيٍّ أَفَلَا يُؤْمِنُونَ﴾

**“Kafirlər görmürlərmi ki, göylərlə yer bir-birinə bitişik ikən Biz onları ayırdıq və hər bir canlını sudan yaratdıq. Yenədəmi iman gətirməzlər?”**

**Nöqtələr**

Göylərin və yerin bitişikliyi və bir-birindən ayrılması ilə bağlı müxtəlif izahatlar var:

a) Yer və göy yaranışın əvvəlində eyni kütlə idi. Böyük qaz toplumu olan bu kütlə daxili partlayışlar və hərəkətlər nəticəsində tədricən bir-birindən ayrılmışdır.

b) Göyün və yerin ilkin maddəsi əvvəlcə eyni olub. Zaman ötdükcə onlar yeni forma alıb.

v) Göyün bağlı olması dedikdə, yağıntının olmaması, yerin bağlı olması dedikdə, otların cücərməməsi nəzərdə tutulur. Allah bu bağlılıqları açmış, səmadan yağış nazil etmiş, yerdən otlar cücərtmişdir.[1]

Su insan və heyvanın yaranış qaynağıdır. İnsan və heyvan orqanizminin 70%-ni su təşkil edir. Otların həyatı sudan asılıdır.

**Bildirişlər**

1. Təbiətin məqsədli müşahidəsi iman əldən etmək üçün vasitədir.
2. Təbiət aləminin fərqli dövrləri olmuşdur.
3. Cansızlıq və bağlılıqda fayda yoxdur. Həyat qaynağı açılışdır.
4. Bütün canlı varlıqların başlanğıcı sudandır.

### • AYƏ 31:

﴿وَجَعَلْنَا فِي الْأَرْضِ رَوَاسِيَ أَن تَمِيدَ بِهِمْ وَجَعَلْنَا فِيهَا فِجَاجًا سُبُلًا لَعَلَّهُمْ
يَهْتَدُونَ﴾

**“(Yer) onları silkələməsin deyə, yer üzündə sabit və möhkəm dağlar qərar verdik. Dağlar arasında geniş yollar qoyduq. Ola bilsin ki, yolu tapalar.”**

**Nöqtələr**

“Rasiyə” sözünün cəm forması olan “rəvasi” sözü sabit mənasını bildirir. Bu söz ayədə sabit dağlar mənasında işlədilmişdir. “Təmid” sözü böyük şeylərin

---

[1] “Təfsire-nümunə”.

iztirabı, titrəyişi mənasını ifadə edir. “Ficac” dedikdə isə iki dağ arasındakı geniş yol nəzərdə tutulur. Dağlar arasındakı dar yollar isə “şəb” adlandırılmışdır.[1]

Dağlarda bir çox fayda olduğu bildirilir. Qar saxlaması, yay üçün su ehtiyatı toplanması, hava kütlələrinin dəyişməsindən yaranan sərt küləklərin qarşısının alınması, bitki və canlıların inkişafı üçün münasib mühit yaranması, tikinti üçün müəyyən avadanlıqlar, müxtəlif qiymətli yataqlar uyğun faydalardandır.

Necə inanmaq olar ki, yerin titrəyişinin qarşısını almaq üçün dağları qərar verən Allah insanların büdrəməsinin qarşısını almaq üçün övliyalar, səbirli və sabit rəhbərlər seçməmiş ola?!

**Bildirişlər**

1. Dağlar təsadüfən yaradılmamışdır. Onların yaranışı ilahi tədbirə əsaslanır.
2. Dağlar yer üzündə aramlıq səbəbidir. Dağlar olmasaydı, yerdə daxili qazlar səbəbindən şiddətli titrəyişlər yaranardı.
3. Böyük maneələr arasından da qurtuluş yolları müəyyənləşdirilib.
4. Dağlar arası yollar həm insanları mənzilə çatdırır, həm də onların diqqətini ilahi hikmətə yönəldir.

### ● Ayə 32:

﴿وَجَعَلْنَا السَّمَاء سَقْفًا مَّحْفُوظًا وَهُمْ عَنْ آيَاتِهَا مُعْرِضُونَ﴾

**“Səmanı qorunmuş tavan qərar verdik. Onlar isə ondakı nişanələrdən üz döndərdilər.”**

**Nöqtələr**

Yer iki şəkildə mühafizə olunur: Daxildən və xaricdən. Yer daxildən dağlar vasitəsi ilə qorunur. Dağlar şiddətli zəlzələlər törədəcək qazların fəsadını aradan götürür. Yeri əhatə etmiş hava təbəqəsi onu xaricdən qoruyan amildir. Bu təbəqə gün uzunu atmosferdən yerə istiqamətlənmiş saysız-hesabsız meteorit yağışının qarşısını alır. Günəşin və kainatın zəhərli şüalanması həmin atmosfer təbəqəsindən süzülüb zərərsizləşir.

“Səmanın qorunması dedikdə” şeytanların get-gəlinin qarşısının alınması nəzərdə tutula bilər.[2]

**Bildirişlər**

1. Səma hesablı və məqsədli yaradılmışdır.
2. Təkcə yer yox, göylər də hifz olunur. (Onların insanın üzərinə süqutunun qarşısı alınır.)
3. Səma həm hifz edəndir, həm də hifz olunan.

---

[1] “Qamus”.
[2] “Hicr”, 17.

4. Səmada Allahın qüdrət və hikmət nişanələri var.

5. Allah insanı təkrar-təkrar Onun ayə və qüdrət nişanələrindən ibrət götürməyə çağırsa da, insan qəflət içində arxa çevirir.

**• AYƏ 33:**

﴿وَهُوَ الَّذِي خَلَقَ اللَّيْلَ وَالنَّهَارَ وَالشَّمْسَ وَالْقَمَرَ كُلٌّ فِي فَلَكٍ يَسْبَحُونَ﴾

**“O, gecə və gündüzü, günəşi və ayı yaradan kəsdir. Onların hər biri öz yolu ilə üzməkdədir.”**

**Nöqtələr**

Gecə də gündüz kimi Allahın məxluqu, yaratdığıdır.[1] Ölümün də həyat kimi varlığı var və o, Allah tərəfindən xəlq olunmuşdur.

Bu ayədəki “kullun” sözü ilə bağlı bir neçə ehtimal var:

a) Təkcə günəş və ay yox, bütün səma cisimləri hərəkətdədir.

b) Günəş və ayın tülu (doğuş) məhəlli müxtəlif və çoxsaylıdır.[2]

v) Gecə və gündüz də günəş və ay kimi hərəkətdədir. Əgər yer kürəsinə kənardan baxa bilsək, yerin kölgəsi olan gecəni konus, gündüzü işıqlı silindr formasında yer ətrafında hərəkət halında görərik.[3]

**Bildirişlər**

1. Allahın xəlq etdiklərinə diqqət ən yaxşı allahşünaslıq yoludur. Çünki təbiət daim bütün insanların gözü qarşısındadır.

2. Hər bir göy cisminin öz orbiti var və bu orbitdə hərəkət edir.

**• AYƏ 34:**

﴿وَمَا جَعَلْنَا لِبَشَرٍ مِّن قَبْلِكَ الْخُلْدَ أَفَإِن مِّتَّ فَهُمُ الْخَالِدُونَ﴾

**“Biz səndən öncə heç bir insan üçün əbədilik qərar vermədik. Sən dünyadan getsən, onlar əbədi həyat tapacaqmı?!”**

**• AYƏ 35:**

﴿كُلُّ نَفْسٍ ذَائِقَةُ الْمَوْتِ وَنَبْلُوكُم بِالشَّرِّ وَالْخَيْرِ فِتْنَةً وَإِلَيْنَا تُرْجَعُونَ﴾

**“Hər kəs ölümü dadasıdır. Biz sizi şər və xeyirlə sınağa çəkirik. Bizə doğru qaytarılarsınız.”**

---

[1] “Mulk”, 2.

[2] “Təfsire-Lahici”.

[3] “Təfsire-Əl-mizan”; “Təfsire-nümunə”.

**Nöqtələr**

Həzrət Əli (ə) ayədəki şər və xeyir təbirləri haqqında buyurur: *"Salamatlıq və ehtiyacsızlıq xeyir, xəstəlik və yoxsulluq şərdir. Hər ikisi imtahan üçündür."*[1]

## *QURAN VƏ RƏVAYƏTLƏRDƏ ÖLÜMÜN SIMASI*

1. Ölümə hazırlıq Allah övliyalarının xüsusiyyətidir.[2]
2. İnsan həyatında ölüm sinədəki boyunbağı kimidir. (Bu təşbeh Kərbəla səfəri astanasında İmam Hüseynin (ə) dilindən bəyan olunmuşdur.)
3. Ölüm yolun sonu yox, libas dəyişilməsi kimi həyat üsulunun dəyişilməsidir.[3]
4. Bu dünya ilə hər kəs bir şəkildə vidalaşır. Bəziləri çətinliklə ayrılır, bəziləri ayrılıq vaxtı sanki gül iyləyir.[4]
5. İnsanın ölüm qorxusu sürücünün qorxusu kimidir. Sürücü ya yanacaq olmadıqda[5], ya qaçaq mal apardıqda, ya da avtomobildən baş çıxarmadıqda qorxur.

**Bildirişlər**

1. İnsanın dünya həyatının müvəqqətiliyi ilahi sünnədir.
2. Əgər bir insanın dünyada daimi yaşaması nəzərdə tutulsa, həmin şəxs peyğəmbər olar.
3. Həm xeyir, həm də şər sınaq vasitələri olsa da, acı hadisələrlə sınaq daha münasibdir. (Ola bilsin ki, ayədə şər sözü bu məqsədlə öndə gəlmişdir.)
4. İlahi sınaqlar həm çətin, həm də mühümdür.
5. İnsan ölümlə yox olmur.

**● AYƏ 36:**

﴿وَإِذَا رَآكَ الَّذِينَ كَفَرُوا إِن يَتَّخِذُونَكَ إِلَّا هُزُوًا أَهَذَا الَّذِي يَذْكُرُ آلِهَتَكُمْ وَهُم بِذِكْرِ الرَّحْمَنِ هُمْ كَافِرُونَ﴾

**"Kafirlər səni gördükdə işləri ancaq istehza olar. (Bir-birlərinə deyərlər:) «Budurmu sizin tanrınızı (pisliklə) yada salan?» Halbuki onlar özləri Rəhmanın zikrinə kafirdirlər."**

---

[1] "Müstədrək", c. 2, s. 149.
[2] "Cumuə", 6.
[3] "Bihar", c. 6, s. 154.
[4] "Bihar", c. 6, s. 152.
[5] "Nəhcül-bəlağə", h. 77.

**Nöqtələr**

Küfr nəticəsində insan o qədər süqut edir ki, güclü məntiqi və məsumun sözünü də məsxərəyə qoyur. Amma rəva bilmir ki, cansız daş və taxtaya (bütlərə) azca hörmətsizlik göstərilsin.

Əgər pis qoxulu bir leş kiçik bir gölməçəyə düşsə, yağış yağdıqda onun üfunəti daha da artar. Küfr insan ruhundakı leş kimidir. Kafir insan peyğəmbər gördükdə daha çox inadkarlıq göstərir.

**Bildirişlər**

1. Kafirlərin elmi və məntiqi sözü yoxdur, işləri məsxərə və təhqirdir. (İstehza əldə dəlil olmamasını göstərir.)
2. Kafirlər Peyğəmbərin (s) əleyhinə xalqı qızışdırırdılar.
3. Daxilən xəbisliyə mübtəla olan kəs ilahi rəhbərləri çox gördükcə daha da inadkarlaşır.

**● AYƏ 37:**

﴿خُلِقَ الْإِنسَانُ مِنْ عَجَلٍ سَأُرِيكُمْ آيَاتِي فَلَا تَسْتَعْجِلُونِ﴾

**“(Təbiət baxımından elə görünür ki, sanki) insan tələskənlikdən yaradılmışdır. (Amma) Mən Öz ayələrimi tezliklə sizə göstərəcəyəm. (Məndən əzab istəməyə) tələsməyin!”**

**Bildirişlər**

1. İnsanların öz istəklərinə tez çatmağa tələsməsi Allahın tədbir və hikmətinə təsir göstərmir.
2. İnsana öz istəklərini cilovlamaq üçün güc verilmişdir.

**● AYƏ 38:**

﴿وَيَقُولُونَ مَتَى هَذَا الْوَعْدُ إِن كُنتُمْ صَادِقِينَ﴾

**“(Kafirlər peyğəmbərə və möminlərə) deyirlər: «Əgər doğru deyirsinizsə, bu vəd (qiyamət) nə vaxt yetişər?»”**

**Bildirişlər**

1. Tələskənlik xüsusiyyəti kafirlərdə ilahi vədin gerçəkləşmə vaxtı ilə bağlı sual üçün zəmindir.
2. Kafirlər İslam Peyğəmbəri (s) və onun tərəfdarlarını yalançı sayırlar.

**● AYƏ 39:**

﴿لَوْ يَعْلَمُ الَّذِينَ كَفَرُوا حِينَ لَا يَكُفُّونَ عَن وُجُوهِهِمُ النَّارَ وَلَا عَن ظُهُورِهِمْ وَلَا هُمْ يُنصَرُونَ﴾

**“Əgər kafirlər bilsəydilər ki, həmin gün (çatan vaxt) alov şöləsini üzlərindən və arxalarından uzaqlaşdıra bilməzlər, kimsə onlara yardım göstərməz. (Bilsəydilər, Qiyamətə bu qədər tələsməzdilər.)”**

**Nöqtələr**

Bu ayədə insanın tələskənlik nümunələrinə işarə olunur. Göstərilir ki, kafirlər ardıcıl şəkildə Qiyamət vədinin nə vaxt yetişəcəyi ilə bağlı suallar verirdilər. Onlar öz sualları ilə həzrəti narahat edirdilər. Allah peyğəmbərə təsəlli verir ki, əgər onlar həmin gün alovun onları təkcə qarşıdan və arxadan yox, bütünlüklə bürüyəcəyini bilsəydilər, tələsməzdilər.

**Bildirişlər**

1. Tələskənliyin səbəbi cəhalətdir. (Əgər kafirlər bilsəydilər, tələsməzdilər.)
2. Qiyamət çətinliklərindən xəbərdarlıq həqiqət və düşmənçiliyə mane olur.
3. Küfr şəfaət üçün maneədir.
4. Allahdan savay heç bir məbud yardım göstərmək gücündə deyil.
5. Qiyamət günü odun qarşısının alınması üçün nə kafirlərdə, nə bütlərdə, nə də zalım qüvvələrdə güc var.

**● AYƏ 40:**

﴿بَلْ تَأْتِيهِم بَغْتَةً فَتَبْهَتُهُمْ فَلَا يَسْتَطِيعُونَ رَدَّهَا وَلَا هُمْ يُنظَرُونَ﴾

**“(Bu od) onların sorağına qəfildən gələr və onlar yerlərində donub qalarlar. Onlarda nə müdafiə gücü var, nə möhlət verilər.”**

**Bildirişlər**

1. Düşüncə dolaşığa düşdükdə, imkanlar da dolaşığa düşür.
2. Kafirlərə möhlət verilməsi axirət yox, dünyaya aid olan ilahi sünnədir.

**● AYƏ 41:**

﴿وَلَقَدِ اسْتُهْزِئَ بِرُسُلٍ مِّن قَبْلِكَ فَحَاقَ بِالَّذِينَ سَخِرُوا مِنْهُم مَّا كَانُوا بِهِ يَسْتَهْزِئُونَ﴾

**“(Onların istehzası səni narahat etməsin.) Həqiqətən, əvvəlki peyğəmbərlərə də istehza olundu. Amma məsxərə etdikləri (ilahi vəd) məsxərə edənləri yaxaladı!”**

**Bildirişlər**

1. Bəşəriyyət tarix boyu peyğəmbərlərdən bəhrələnmişdir.
2. Kafirlər tarix boyu məsxərə və istehza ilə məşğul olmuşlar.

3. Başqalarının əziyyətindən xəbərdarlıq əziyyət çəkən insan üçün təskinlik olur.

4. Kimlərinsə məsxərəsinə görə faydalı işdən əl çəkmək olmaz. (Peyğəmbərlər məsxərəyə qoyulsa da, onların ardıcıl gəlişi kəsilmədi.)

5. İstehza insanı çətinliyə salır.

6. Günaha görə oxşar cəza verilir.

**● AYƏ 42:**

﴿قُلْ مَن يَكْلَؤُكُم بِاللَّيْلِ وَالنَّهَارِ مِنَ الرَّحْمَنِ بَلْ هُمْ عَن ذِكْرِ رَبِّهِم مُّعْرِضُونَ﴾

**“De ki, sizi gecə və gündüz Rəhmanın əzabından kim qoruya bilər?! Amma onlar (yenə) Rəblərinin zikrindən üz döndərirlər.”**

**Bildirişlər**

1. Hansısa güc insanı təhlükədən qoruya bilməz.

2. İnsan daim Allahın himayəsinə ehtiyaclıdır.

3. Vicdanlara müraciət müvəffəqiyyətli təbliğ üsullarındandır.

4. Allah daim (kafirlər də daxil olmaqla) hamını hifz edir.

5. Bizim hərəkətlərimiz hətta rəhmət qaynağını da qəzəbə gətirir. (Allah Öz mərhəməti əsasında hifz edir.)

6. Mühafizə Allahın rübubiyyət şənindəndir. (İnsan həyatı səmaların hifzi, heyvanların ram olması, orqanizmə düşmüş mikroblara qarşı mübarizə gücü kimi yüzlərlə növ mühafizə ilə müşayiət olunur.)

7. İnsanlar Allah zikrindən üz çevirdikdə, Allah da onlardan üz çevirir. Allah öncə kafirlərə müraciət edir. Amma sonra onlardan üz döndərmiş kimi üçüncü şəxs (qaib) haqqında danışır.

8. İnsan öz gerçək tərbiyəçini yada salmalıdır. Belə etmədiyi halda məzəmmətə layiqdir.

**● AYƏ 43:**

﴿أَمْ لَهُمْ آلِهَةٌ تَمْنَعُهُم مِّن دُونِنَا لَا يَسْتَطِيعُونَ نَصْرَ أَنفُسِهِمْ وَلَا هُم مِّنَّا يُصْحَبُونَ﴾

**“Bəlkə onları əzabımız qarşısında qoruyacaq tanrıları var? Onlar (saxta tanrılar) özlərinə yardım göstərməyə qadir deyillər və Bizim tərəfimizdən də yardım almazlar.”**

**Bildirişlər**

1. Allahdan qeyriləri nə özlərini qoruya bilir, nə başqalarına yardım göstərməyi bacarır.

2. Ehtiyaclı bir varlığa hanı əsasla pərəstiş etmək olar?!
3. Zatən ehtiyaclı bir varlıq başqa birini ehtiyacsız etməkdə acizdir.

**● AYƏ 44:**

﴿بَلْ مَتَّعْنَا هَؤُلَاء وَآبَاءهُمْ حَتَّى طَالَ عَلَيْهِمُ الْعُمُرُ أَفَلَا يَرَوْنَ أَنَّا نَأْتِي الْأَرْضَ نَنقُصُهَا مِنْ أَطْرَافِهَا أَفَهُمُ الْغَالِبُونَ﴾

**“Bununla belə, Biz onlara və atalarına ömürləri uzandıqca nemət verdik. Görmürlərmi ki, Biz yerin sorağına gəlib (ölüm və fəna ilə) onu ətrafından əskildirik. Yoxsa onlar (Bizə) qalibdir?”**

**Nöqtələr**

Yerin ətrafdan əskildilməsi nə deməkdir? Bu barədə müxtəlif fikirlər var:

a) Alimlərin ölümü nəzərdə tutulur.[1]

b) Ümmətlərin azalması, yer əhlinin məhvi nəzərdə tutulur.[2]

v) İslam genişləndikcə küfr əraziləri azalır.[3]

q) Coğrafi baxımdan yerin həcmi kiçilməkdədir.

**Bildirişlər**

1. Ömrün uzunluğu və nemətlərdən faydalanma Allahın iradəsindən asılıdır. Bu istiqamətdə heç bir məbudun rolu yoxdur.
2. Bəşər nəslinin nemətlərdən faydalanması ilahi lütf nişanəsi deyil. (Ata-babaların ömrünün uzunluğu və rifah içində yaşaması sizi çaşdırmasın.)
3. Allah kafirləri cəzalandırmağa tələsmir.
4. Ömrün uzunluğu bizi sevindirməməlidir. Allah kafirlərə günahlarını yumaq üçün möhlət olaraq uzun ömür vermişdir.[4]
5. Millətlər və mədəniyyətlər tarixindən xəbərdarlıq, bütün bunlardan ibrət götürülməsi bəyənilmiş işdir.
6. Kafirlər millətlərin bir-birinin ardınca məhv olub getdiyini görə-görə qələbə ümidindədirmi?!

**● AYƏ 45:**

﴿قُلْ إِنَّمَا أُنذِرُكُم بِالْوَحْيِ وَلَا يَسْمَعُ الصُّمُّ الدُّعَاء إِذَا مَا يُنذَرُونَ﴾

**“De ki, mən yalnız vəhy yolu ilə sizə xəbərdarlıq edirəm. Amma (ey peyğəmbər, bil ki) karlar öyüd verilən zaman onu eşitmirlər!”**

---

[1] “Təfsire-Safi”.
[2] “Təfsire-Əl-mizan”.
[3] “Təfsire-Safi”.
[4] “Ali-İmran”, 178.

**Bildirişlər**

1. Peyğəmbərlərin müjdə və xəbərdarlıqları şəxsi mülahizələrə, fərziyyələrə yox, qəti ilahi vəhyə əsaslanır.

2. İlahi nemətlərdən düzgün faydalanmayanlar onlardan bəhrələnməmiş kimidirlər. Qulağı olduğu halda haqqı eşitməyən, gözü olduğu halda haqqı görməyən kəs əslində kar və kordur.

3. Bəzən təbliğat düzgün şəkildə aparılsa da, qarşı tərəfin qabiliyyətsizliyi səbəbindən səmərə vermir.

4. Bəzilərinin hidayət olacağına doğru yola gələcəyinə ümid bəsləməyə dəyməz.

***Qara qəlbə qonmaz vaizin sözü,***
***Necə daşda qalmır mismarın izi.***

**● AYƏ 46:**

﴿وَلَئِن مَّسَّتْهُمْ نَفْحَةٌ مِّنْ عَذَابِ رَبِّكَ لَيَقُولُنَّ يَا وَيْلَنَا إِنَّا كُنَّا ظَالِمِينَ﴾

**“Rəbbinin əzabından onlara azca yetişsə, şübhəsiz deyəcəklər: «Vay olsun bizə, həqiqətən, biz zalım olmuşuq.»”**

**Bildirişlər**

1. Peyğəmbərlərin xəbərdarlıqları ilə oyanmayan kəslər əzab şallağı ilə oyanar. Azca əzab görünən kimi bütün qürurlar sınar, yatmış vicdanlar oyanar.

2. Zalımlar bir gün öz zülm-sitəmlərini etiraf edəcəklər.

3. Peyğəmbərlərin xəbərdarlıqlarına biganə qalanlar zalımdırlar.

**● AYƏ 47:**

﴿وَنَضَعُ الْمَوَازِينَ الْقِسْطَ لِيَوْمِ الْقِيَامَةِ فَلَا تُظْلَمُ نَفْسٌ شَيْئًا وَإِن كَانَ مِثْقَالَ حَبَّةٍ مِّنْ خَرْدَلٍ أَتَيْنَا بِهَا وَكَفَى بِنَا حَاسِبِينَ﴾

**“Biz Qiyamət üçün ədalət tərəziləri quracağıq. (Həmin gün) bir nəfərə də olsun zülm olunmayacaq. Xardal dənəsi ağırlıqda olsa belə, onu (həmin əməli hesab üçün) gətirəcəyik. Hesabı bizim aparmağımız yetər.”**

**Nöqtələr**

Bu ayə salehlərə müjdə, xətakarlara xəbərdarlıqdır. Bildirilir ki, hər bir əməl artırılıb-əskildilmədən dəyərləndirilər. Feyz Kaşani deyir:

***Ayıq ol, burada zərrə hesabda,***
***Hesab var, kitab var, belədir qayda.***

Xardal kiçik və qara toxumu olan bitkinin adıdır. O, kiçikliyinə görə misal çəkilir.

“Mizan” dedikdə ölçü vasitəsi nəzərdə tutulur. Bu söz Quranda dəfələrlə işlədilmişdir. Məlum məsələdir ki, hər bir şey özünə münasib vasitə ilə ölçülür. Məsələn havanın dərəcəsi termometrlə, uzunluq metrlə, çəki kiloqramla ölçülür. Şübhəsiz ki, insan və onun əməlləri üçün də münasib ölçü vasitəsi mövcuddur. Əgər uzunluq üçün metr, çəki üçün kiloqram ölçü kəmiyyətidirsə, insan üçün ölçü kamil insandır. Necə ki, rəvayətdə deyilir: Məsum imamlar, peyğəmbərlər və onların canişinləri ədalət ölçüsüdür.[1] Əmirəlmöminin Əlinin (ə) ziyarətnaməsində oxuyuruq: “Salam olsun sənə, ey əməl mizanı!”[2]

**Sual:** Əgər Allah bu sayaq dəqiq hesab aparırsa, Onun əfv və kərəmini necə başa düşək?

**Cavab:** Hesab-kitab bir prinsip, lütf və bəxşiş isə digər prinsipdir. Hər prinsipin öz yeri var və onlar bir-birinə zidd deyil.

**Sual:** Bəzi ayələrdə buyurulur ki, Allah bəziləri üçün mizan qurmur. Yoxsa mizan xüsusi fərdlərə aiddir?

**Cavab:** Xeyr, mizan bütün insanlar üçün qurulasıdır. Amma mizan əməllərin hesabı üçün qurulduğundan başdan ayağa günah içində olan cəhənnəm əhli üçün mizan qurmağa dəyməz.[3]

**Bildirişlər**

1. Ölçülməsi mümkün olan hər bir şey, hər bir şəxs və hər bir əməl üçün münasib mizan olacaq.
2. Allahın hesabı çox dəqiqdir.
3. Əməllərimiz dünyada məhv olub getmir, Qiyamətdə onlarla üzbəüz dayanasıyıq.
4. Allah həm alim, həm adil, həm də hesab aparandır.

---

[1] “Kafi”, c. 1, s. 469; “Məaniyul-əxbar”, s. 31.
[2] “Təfsire-nümunə”.
[3] “Təfsire-Safi”. “Təfsire-nurus-səqəleyn”.

● **AYƏ 48:**

**﴿وَلَقَدْ آتَيْنَا مُوسَى وَهَارُونَ الْفُرْقَانَ وَضِيَاء وَذِكْرًا لِّلْمُتَّقِينَ﴾**

**“Həqiqətən, Biz Musa və Haruna Furqan, nur, təqva əhli üçün zikr əta etdik.**

● **AYƏ 49:**

**﴿الَّذِينَ يَخْشَوْنَ رَبَّهُم بِالْغَيْبِ وَهُم مِّنَ السَّاعَةِ مُشْفِقُونَ﴾**

**“O kəslər ki, gizlində Rəbbindən qorxar və o kəslər ki, qiyamətdən çəkinər.”**

**Nöqtələr**

Peyğəmbərlərin ümumi məqsədi eyni olduğundan, onların səmavi kitablarının da çöhrəsi eynidir. Bu ayədə Tövratın zikr olunmuş xüsusiyyəti digər ayələrdə Quran haqqında bəyan olunur: Furqan (haqqı batildən ayıran); ziya (nur); zikr[1].

**Bildirişlər**

1. Hər bir peyğəmbərin ayrıca bir kitabla gəlməsi zəruri deyil. Musa və Harun hər biri peyğəmbər olsa da, onların bir kitabı vardı və bu kitab Tövrat idi.
2. Müəyyən bir yolda ilahi yardımdan faydalanmaq üçün insan bir neçə şeyə ehtiyac duyur: doğru yolu tanımaq, yola işıq salan nur. Məqsədə diqqət.[2]
3. Peyğəmbərlərin hidayətindən bəhrələnmək üçün təqva ruhiyyəsi əldə etmək lazımdır.
4. Allah qorxusu və qiyamətə görə nigaranlıq təqva nişanələridir.

● **AYƏ 50:**

**﴿وَهَذَا ذِكْرٌ مُّبَارَكٌ أَنزَلْنَاهُ أَفَأَنتُمْ لَهُ مُنكِرُونَ﴾**

**“Bu (Quran), nazil etdiyimiz mübarək bir zikrdir. Yoxsa onu inkar edirsiniz?!”**

**Nöqtələr**

Qısa bir müddətdə çoxsaylı insanları şirkdən tövhidə, təfriqədən vəhdətə, cəhalətdən elmə, tənəzzüldən tərəqqiyə, əsarətdən azadlığa, çirkinlikdən paklığa, yoxsulluqdan rifaha, hərəkətsizlikdən hərəkətə, xurafatdan həqiqətə, zillətdən izzətə, zalımlara itaətdən məsumlara itaətə, qəflətdən oyaqlığa,

---

[1] “Furqan”, 1; “Nisa”, 174; “Hicr”, 9.
[2] “Təfsire-nümunə”.

tərəddüddən sabitqədəmliyə, küfrdən imana, bir sözlə, zülmətdən nura yüksəltməsi Quranın mübarəkliyini yetərincə təsdiqləyir.

Ötən ayədə Tövratla bağlı yalnız "zikr" sözü işlədildi. Amma bu ayədə Quran "mübarək zikr" adlandırılmışdır. "Furqan", "nur" kimi sifətlər digər ayələrdə Qurana aid edilmiş sifətlərdəndir.

**Bildirişlər**

1. Quran öz xəbərdarlıqları ilə müxtəlif əsr və nəsillərdə milyonlarca qəlbi özünə cəzb etməyə qadir olan kitabdır.
2. Quranın bərəkəti inkar olunmazdır.

**● AYƏ 51:**

﴿وَلَقَدْ آتَيْنَا إِبْرَاهِيمَ رُشْدَهُ مِن قَبْلُ وَكُنَّا بِه عَالِمِينَ﴾

**"Həqiqətən, Biz bundan öncə İbrahimi öz kamalına çatdırdıq. Biz ondan agah idik."**

**● AYƏ 52:**

﴿إِذْ قَالَ لِأَبِيهِ وَقَوْمِهِ مَا هَذِهِ التَّمَاثِيلُ الَّتِي أَنتُمْ لَهَا عَاكِفُونَ﴾

**"Bir zaman atası (əmisi) və qövmünə dedi: "Daim pərəstiş etdiyiniz bu cansız heykəllər nədir?"**

**● AYƏ 53:**

﴿قَالُوا وَجَدْنَا آبَاءنَا لَهَا عَابِدِينَ﴾

**"(Onlar cavab olaraq) dedilər: "Biz atalarımızı onlara pərəstiş edən halda gördük!"**

**● AYƏ 54:**

﴿قَالَ لَقَدْ كُنتُمْ أَنتُمْ وَآبَاؤُكُمْ فِي ضَلَالٍ مُّبِينٍ﴾

**"(İbrahim) dedi: «Həqiqətən, siz və atalarınız aşkar azğınlıqda idiniz (və bu gün də həmin haldasınız!)»"**

**Nöqtələr**

Ötən ayələrdə Tövrat və Quran haqqında danışıldı. Bu ayədə isə Allah-təala belə buyurur: "Peyğəmbərlər və səmavi kitabların göndərilməsi yeni bir məsələ deyil. Biz bundan öncə də İbrahimin dövründə azğınları dəvət etmişdik."

Bütpərəstlik tarixçəsinə nəzər saldıqda aydın olur ki, əvvəllər böyük şəxsiyyətlərin xatirəsini əziz tutmaq üçün bütlər düzəldilirdi. Bu iş tədricən müqəddəsləşdirildi, nəhayət, bütlərə pərəstiş olundu.[1]

"Timsal" sözünün cəm forması olan "təmasil" sözü cansız heykəllər mənasını bildirir.

**Bildirişlər**

1. Peyğəmbərlər məbus olmamışdan öncə Allahın nəzər-diqqətində olurlar.

2. Həqiqi inkişaf insanı bir Allaha pərəstişə aparır.

3. Həzrət İbrahimin özündə təkamül hazırlığı vardı. (İnsanların təkamül istedadları və tutumları fərqlidir.)

4. Pisliyə qadağa vəzifəsinin icrasında yaş məhdudiyyəti yoxdur.

5. Pisliyə qadağa qoyarkən öz yaxınlarımızdan başlayaq.

6. Pisliyə qadağada çoxluq meyar deyil. Bəzən bir nəfər bir dəstənin qarşısında dayanmalı olur.

7. Pisliyə qadağa vəzifəsinin icrasında vicdanlara müraciət etmək ən müvəffəqiyyətli üsullardandır.

9. Batil və günah işlərin çirkinliyi açıqlanmalıdır.

10. Təbliğdə qarşı tərəfi insani şəxsiyyət və kəramətlərdən xəbərdar edək.

11. Xurafatla mübarizədə onun tərk olunması inkişaf göstəricisidir.

12. Atalar öz çaşqınlıqları ilə gələcək nəsillər üçün azğınlıq zəmini yaradırlar.

13. Ata-babalar öz pis rəftarlarına dəvət etməsələr belə, bu rəftarlar onların övladlarının tərbiyəsinə təsir göstərir.

14. Kor-koranə təqlid, ata-babaların pis rəftarlarının təəssübünü çəkmək məzəmmət olunur və qadağandır.

15. Pisliyə qadağa qoyarkən xəcalət çəkmək yersizdir.

16. Nə yaş, nə də çoxluq haqlılıq göstəricisi deyil.

17. Əqidə məsələsində ata-babaların yoluna yox, dəlillərə istinad etmək lazımdır.

18. Azğınlığın dərəcələri var.

## ● Ayə 55:

﴿قَالُوا أَجِئْتَنَا بِالْحَقِّ أَمْ أَنتَ مِنَ اللَّاعِبِينَ﴾

**"(Müşriklər İbrahimə) dedilər: «Sən bizə həqiqəti deyirsən, yoxsa zarafat edirsən?!»"**

---

[1] "Təfsire-nümunə".

● AYƏ 56:

﴿قَالَ بَل رَّبُّكُمْ رَبُّ السَّمَاوَاتِ وَالْأَرْضِ الَّذِي فَطَرَهُنَّ وَأَنَا عَلَى ذَلِكُم مِّنَ الشَّاهِدِينَ﴾

**“(İbrahim) dedi: «Əlbəttə (həqiqəti deyirəm,) Rəbbiniz göylərin və yerin Rəbbidir, onları vücuda gətirmişdir. Mən (də) bu həqiqətə şahidəm.»”**

**Nöqtələr**

“Həqq” sözü “laib” sözünün antonimi olaraq ciddilik mənasını bildirir. Yəni ciddi deyirsən, yoxsa zarafat edirsən?

**Bildirişlər**

1. Nəsilbənəsil kor-koranə təqlid nəticəsində yolunu azmış kəslərin haqqı birdəfəyə qəbul etmələri asan iş deyil.
2. Allahın rübubiyyət və tərbiyəsi təkcə bəşəriyyətə yox, bütün varlıq aləminə aiddir.
3. Bütün varlıq aləminin bir Rəbbi var. (Bəziləri yanılaraq göylərin, yerin və bəşəriyyətin ayrı-ayrılıqda Rəbbi olduğunu düşünürlər.)
4. İlahi insanlar öz haqq əqidələri ilə tənha qalmamışlar. Onlar özlərini tarixin təkallahçıları ilə və ilahi mələklərlə bir yerdə görürlər.

● AYƏ 57:

﴿وَتَاللَّهِ لَأَكِيدَنَّ أَصْنَامَكُم بَعْدَ أَن تُوَلُّوا مُدْبِرِينَ﴾

**“And olsun Allaha ki, siz olmayan vaxt bütləriniz üçün plan cızacağam.”**

**Nöqtələr**

Həzrət İbrahimin belə qəti və hədələyici bəyanı ilə bağlı təfsirçilər arasında fikir ayrılığı var. “Təfsire-Safi” və “Təfsire-Əl-mizan”da bildirilir ki, bu cümlə açıq-aşkar bəyan olunmamışdır. Onlar düşünürlər ki, bir millətin tanrılarına qarşı təkbaşına mübarizəyə çağırış ehtiyata ziddir. Amma bu fikir əsaslı görünmür. İlahi insanlar adi insanlardan fərqlənir. Onların ilahi risalətinə heç nə mane ola bilməz. Ötən ayələrdə bildirilir ki, İbrahim xalqa aşkar şəkildə belə bəyan etdi: “Siz və atalarınız aşkar azğınlıqdasınız.” İmam Hüseynin (ə) bacısı həzrət Zeynəb Şamda əsir olduğu vaxt Yezidə buyurdu: “Mən səni alçaq sayıram.” Sonra xanım Yezid hökumətini tənqid atəşinə tutdu.

İmam Xomeyni (r) şahın hakimiyyət zirvəsində olduğu, təpədən dırnağadək silahlandığı, daxildən və xaricdən himayə olunduğu bir vaxt qətiyyətlə buyurdu: “Şah getməlidir!” İmam şahın canişininə belə dedi: “Mən bu dövlətin ağzından vuraram.” Onun dünyaya hakimlik iddiasında olan Amerikaya ünvanlanmış “Amerika heç bir qələt edə bilməz” bəyanatı hansı siyasi mülahizə və adi ehtiyatla bir araya sığır?!

Bəziləri düşünürlər ki, fəsadla mənfi (sadəcə arxa çevirməklə) mübarizə aparılmalıdır. Böyük şəxsiyyətlərdən birinin dövründə kinoteatrlar əxlaqsız filmlər nümayiş etdirməklə gənc nəsli mənəviyyatsızlığa aparırdı. Həmin şəxs bildirmişdi ki, əgər xalq kinoteatrlara getməsə, onların fəaliyyətinə son qoyular. Amma yuxarıdakı ayə bu sayaq təfəkkürü məhkum edir. Bildirilir ki, fəsadın kökü qazılmalıdır. Elə buna görə də, həzrət Musa hirslənib buzovu oda çəkdi, İslam Peyğəmbəri (s) nifaq yuvasına çevrilmiş “Zirar” məscidini uçurdu.

**Bildirişlər**

1. Məqsədə inam, yolun doğruluğuna əminlik insana güc verir.
2. Böyük işlərin həyata keçməsi üçün böyük planlara ehtiyac var. Ayədəki “əkidənnə” sözü tədbir və plan mənasını bildirir.
3. Qətiyyət yetərli rəhbərlik üçün bir şərtdir. “Təllah” sözü ilə and “vəllah” sözü ilə anddan daha ifadəlidir.[1]
4. Peyğəmbərlər vəhy qaynağına bağlanmaqla təkbaşına plan cıza bilirlər.
5. Həzrət İbrahim bütlərlə tam ciddi mübarizə aparırdı və sadəcə qorxutmaq məqsədi yox idi.
6. Bütlərin çoxluğu İbrahimin qərarına mane olmadı.
7. Bütpərəstlər olmayan yerdə bütlər bir baltanın qarşısında acizdirlər. Əslində bütlər bütpərəstləri yox, bütpərəstlər bütləri qoruyur!
8. Böyük məqsədlərin həyata keçməsi üçün bəzən xalqın iştirakı, bəzən onun kənarda qalması şərtdir.
9. Büt varsa, bütpərəstlik də olasıdır. Bütləri məhv etmək zəruridir.

**• AYƏ 58:**

﴾فَجَعَلَهُمْ جُذَاذًا إِلَّا كَبِيرًا لَّهُمْ لَعَلَّهُمْ إِلَيْهِ يَرْجِعُونَ﴿

**“(Nəhayət İbrahim münasib bir fürsətdə bütlərin) böyüklərindən savay onların hamısını uçurdu ki, bəlkə onun sorağına gələlər. (Və yatmış vicdanları oyana.)”**

**• AYƏ 59:**

﴾قَالُوا مَن فَعَلَ هَذَا بِآلِهَتِنَا إِنَّهُ لَمِنَ الظَّالِمِينَ﴿

---

[1] “Təfsire-kəbire-Fəxr Razi”

**“Dedilər: “Bizim tanrılarımızla kim belə rəftar edib? Şübhəsiz, o zalımlardandır.”**

**● AYƏ 60:**

**﴿قَالُوا سَمِعْنَا فَتًى يَذْكُرُهُمْ يُقَالُ لَهُ إِبْرَاهِيمُ﴾**

**«Dedilər: “İbrahim adlı bir gəncin bütləri pislədiyini eşitmişik.”»**

**Nöqtələr**

Həzrət İbrahim bütün camaat şəhərdən çıxdığı gün onlara qoşuldu, amma yarı yolda bəhanə gətirib şəhərə qayıtdı. O münasib fürsət əldə edib, öz məqsədini həyata keçirdi.

“Cuzaz” dedikdə parça-parça olmaq mənası başa düşülür.

İslam Peyğəmbəri (s) də Məkkənin fəthi günü 360-adək bütü sındırdı.

Həzrət İbrahim böyük bütü də sındıra bilərdi. Amma belə etsəydi, onların hisslərini təhqir etməklə öz məqsədinə çatmazdı (bütpərəstlər üçün düşünmək fürsəti qalmazdı).

**Bildirişlər**

1. Büt sındırmaq ilahi peyğəmbərlərin əsas vəzifələrindəndir.
2. Əgər gətirilən dəlillər və moizə fayda verməsə, növbə inqilabi rəftarlara çatır.
3. Fiziki güc və cəsarət dəyər, zəiflik və qorxaqlıq isə nöqsandır.
4. İctimai düşüncəni oyatmaq və şirki aradan götürmək üçün şirk vasitəsi olan bəzi əşyalar məhv edilməlidir. (İbrahimin dövründə bütlər, Musanın dövründə Samirinin buzovu qiymətli sayılırdı.)
5. Büt mülk olaraq möhtərəm sayılmır, onu sındırmağa icazə verilir.
6. Bütlər müvəhhidlərin (təkallahçıların) nəzərində yox, bütpərəstlərin nəzərində böyük və möhtərəmdir.
7. Bütlərin sındırılması diqqəti cansız əşyalardan çəkmək və sorğu-sual üçün müqəddimədir.
8. Azğın əqidə insanı yanlış mühakiməyə aparır. (İnsan bəzən o qədər süqut edir ki, ən böyük zülmü haqq, ən aşkar həqiqəti zülm sayır.)
9. Kafirlər əvvəlcə İbrahimi zalım kimi tanıtdırdılar ki, onu rahatlıqla mühakimə edə bilsinlər.
10. İbrahimin mübarizə fəryadı hər yana yayılmışdı.
11. Haqq yolda gənclər də fəryad qopara bilər.
12. Həzrət İbrahim bütləri dağıtmamışdan öncə öz təbliğatı ilə bütlərə qarşı inqilab zəmini yaratmışdı.

● **AYƏ 61:**

**﴿قَالُوا فَأْتُوا بِهِ عَلَى أَعْيُنِ النَّاسِ لَعَلَّهُمْ يَشْهَدُونَ﴾**

**“(Qövm başçıları) dedilər: «Onu xalqın gözü qarşısına gətirin, qoy onlar (İbrahimin günahkarlığına) şəhadət versinlər.»”**

● **AYƏ 62:**

**﴿قَالُوا أَأَنتَ فَعَلْتَ هَذَا بِآلِهَتِنَا يَا إِبْرَاهِيمُ﴾**

**«Dedilər: “Ey İbrahim! Bizim tanrılarımızla sənmi belə rəftar etmisən?”»**

● **AYƏ 63:**

**﴿قَالَ بَلْ فَعَلَهُ كَبِيرُهُمْ هَذَا فَاسْأَلُوهُمْ إِن كَانُوا يَنطِقُونَ﴾**

**«(İbrahim) dedi: “Bəlkə onların böyükləri bu işi görüb? Danışa bilirsə, onun özündən soruşun!”»**

**Nöqtələr**

İbrahimin xalqın qarşısına gətirilməsi, xalqdan şəhadət istənilməsi onun qətlə yetirilməsi üçün zəmin yaradırdı.

**Sual:** İbrahimin “Böyük büt belə edib” sözləri yalan deyildimi? Axı peyğəmbər və məsum şəxs heç vaxt yalan danışmır.

**Cavab:** Bu cümlənin təfsiri ilə bağlı müxtəlif baxışlar var. Onlardan bəzilərini nəzərdən keçirək:

a) Həzrət İbrahim yalan danışmadı. O bu sözləri deməklə batil əqidəni ifşa etmək istəyirdi. Söz aldatmaq məqsədi ilə deyildikdə yalan sayılır. Əqli çatışmazlığı olan xəstə otağa daxil olanda əgər desələr ki: «İbn Sina gəldi,» bunu yalan saymaq olmaz.[1]

b) Həzrət İbrahim uyğun cümləni işlədərkən qarşısındakıların başa düşməyəcəyi bir mənanı nəzərdə tuturdu.[2] O, “böyükləri” sözü ilə Allaha işarə edirdi.

v) Pozulmuş münasibətləri bərpa etmək üçün yalan danışmağa icazə verilir. Həzrət bu baxımdan da yalan danışa bilərdi. İnsanların donmuş düşüncəsini oyatmaqdan faydalı nə ola bilər?![3]

q) Uyğun cümlə bütpərəst təfəkkürünün ifşası məqsədi ilə onların dilində söylənə bilərdi. Əgər bütlər danışırsa, demək bu işi böyük büt görə bilər.

---

[1] “Təfsire-nümunə”.
[2] “Tövriyə”.
[3] “Kafi”, c. 2, s. 342; “Təfsire-nurus-səqəleyn”.

Məsələn, qoca bir kişi belə deyə bilər: "Dağlar düzənlə birdirsə, mən körpəyəm." Təbii ki, dağlar düzənlə bir ola bilməz. Deməк, həmin şəxs də uşaq deyil.[1]

**Bildirişlər**

1. Bütpərəstlər də günahın yerinə yetirilməsində insanların şahidliyini əsas sayırlar.
2. İbrahim o qədər böyük iş görmüşdü ki, bütpərəstlər də təzim etməyə məcbur olmuşdu. Əvvəlki ayələrdə "İbrahim adlı biri" deyilirdisə, bu ayədə "Ya İbrahim" deyə müraciət olunur.
3. Bəzən xurafata istehza və tənə ilə yanaşmaq lazım gəlir.
4. Düşüncələri oyatmaq üçün film çəkmək, əsər səhnələşdirmək bəyənilmiş və caiz işdir.

**● AYƏ 64:**

﴿فَرَجَعُوا إِلَى أَنفُسِهِمْ فَقَالُوا إِنَّكُمْ أَنتُمُ الظَّالِمُونَ﴾

**"Beləcə, dönüb özlərinə dedilər: "Həqiqətən, siz zalımlarsınız."**

**● AYƏ 65:**

﴿ثُمَّ نُكِسُوا عَلَى رُؤُوسِهِمْ لَقَدْ عَلِمْتَ مَا هَؤُلَاء يَنطِقُونَ﴾

**"Sonra başlarını aşağı saldılar. (Peşmanlıqla dedilər: «Ey İbrahim!) Doğrudan da, sən özün bilirsən ki, bunlar danışan deyillər.»"**

**Bildirişlər**

1. Vicdanın oyanışı, insanın özünə gəlməsi, fitrətə diqqət peyğəmbərlərin ümdə hədəflərindəndir.
2. Şirk insanın özünə biganəliyi, tövhid isə insanın özünü tapmasıdır.
3. Düşüncə oyandıqda hər bir günahkar günahı o birinin boynuna atır. Necə ki, Qiyamətdə onlar bir-birinə deyərlər: "Siz olmasaydınız, biz mütləq mömin olardıq."[2]
4. Tarix, fitrət və vicdan həqiqəti işıqlandıran amillərdəndir. Dünənədək İbrahimi zalım sayanlar bu gün vicdanlarına müraciət etməklə özlərini zalım bilirlər.

**● AYƏ 66:**

﴿قَالَ أَفَتَعْبُدُونَ مِن دُونِ اللَّهِ مَا لَا يَنفَعُكُمْ شَيْئًا وَلَا يَضُرُّكُمْ﴾

---

[1] "Təfsire-nurus-səqəleyn".

[2] "Səba", 31.

**«(İbrahim) dedi: “Yoxsa Allahın əvəzinə sizə heç bir faydası və zərəri olmayan şeyə pərəstiş edirsiniz?!”»**

**● AYƏ 67:**

﴿أُفٍّ لَّكُمْ وَلِمَا تَعْبُدُونَ مِن دُونِ اللَّهِ أَفَلَا تَعْقِلُونَ﴾

**“Vay olsun sizə və Allahdan savay pərəstiş etdiyiniz hər şeyə! Yoxsa düşünmürsünüz?!”**

**● AYƏ 68:**

﴿قَالُوا حَرِّقُوهُ وَانصُرُوا آلِهَتَكُمْ إِن كُنتُمْ فَاعِلِينَ﴾

**“(Amma inadkar və təəssübkeş müşriklər) dedilər: «Əgər istəyirsinizsə, bir iş görün! Onu yandırın və tanrılarınıza yardım göstərin.»”**

**● AYƏ 69:**

﴿قُلْنَا يَا نَارُ كُونِي بَرْدًا وَسَلَامًا عَلَى إِبْرَاهِيمَ﴾

**«Nəhayət tonqal qalayıb, İbrahimi oda atdılar. Amma Biz) dedik: “Ey od! İbrahim üçün soyuq və ziyansız ol.”»**

**● AYƏ 70:**

﴿وَأَرَادُوا بِهِ كَيْدًا فَجَعَلْنَاهُمُ الْأَخْسَرِينَ﴾

**“Bütpərəstlər ona qurğu qurmaq istədilər. Amma Biz onları daha çox ziyana düşənlərdən qərar verdik.”**

**Nöqtələr**

İlahi insanlar öz müqəddəs amallarını istənilən bir şəraitdə həyata keçirmək istəyirlər. Bir an olsun aram dayanmırlar. Onların səyləri müxtəlif şəkillərdə həyata keçir. Həzrət İbrahim ilahi risalət yolunda öncə əmisi və qövmünün sorağına getdi. Onları tövhid və təkallahçılığa çağırdı. Nəticə çıxmadığını görüb ikinci mərhələdə bütlərin sorağına getdi və onları qırdı. Sonra bütpərəstlərin fitrətinə üz tutub onları oyatmağa çağırdı. Nəhayət, öyüd-nəsihətdən sonra onları düşünməyə məcbur etdi.

Təfsirlərdə həzrət İbrahimin oda atılması ilə bağlı müxtəlif məsələlər açıqlanır. Məsələn, bildirilir ki, müşriklər şeytanın yardımı ilə mancanaq düzəltdilər. Amma həzrət İbrahim Allaha misilsiz təvəkkülü ilə hətta Cəbrailin köməyindən imtina edib, Allaha üz tutdu, Məhəmməd (s) və onun Əhli-beytini (ə) vasitə seçdi.

“Əxsərin” sözü pis iş görüb, yaxşı iş gördüyünü güman edən kəslər mənasını bildirir. Belə ki, onlar zərərə düşdüklərini anlamadıqlarından özlərinə çarə qılmaq haqqında düşünmürlər.

İmam Sadiq (ə) buyurur: “Allah oda soyumaq əmri verdiyi vaxt “ziyansız ol” əmri gələnədək soyuqdan İbrahimin dişi dişinə dəydi.[1]

**Bildirişlər**

1. Xalqı dinə çağırış qaydalarından biri onları dinsizliyin zərərindən agah etməkdir.
2. İnsan xeyir əldə etmək və şərdən qurtulmaq üçün ibadət edir. Bütlərdə isə nə xeyir vermək, nə də şərdən xilas etmək qüdrəti var.
3. İnsanları oyatmaq üçün zəmin yarandıqda azğınların çirkin sifətlərini açmaq lazımdır.
4. Hisslər əqidə məktəbinin təsiri altında olmalıdır. İbrahimin əmisi də bütpərəst idi. Amma İbrahim bütpərəstliyə münasibətini yumşaltmırdı.
5. Bütpərəstlik ağılla bir araya sığmır. Düşüncəsiz və inadkar insanlar məzəmmətə layiqdirlər.
6. Tövhid aqillərə xas düşüncədir.
7. Ağıl və məntiqdən məhrum şəxslər zora üz tutur.
8. İlahi insanlar son damla qanları tökülənədək məqsəddən üz döndərmirlər. İnsan üçün ən çətin ölüm odda yandırılmaqdır.
9. Yalnız təkallahçılar aradan götürüldükdə şirk yaşaya bilər.
10. Yersiz təəssüblər insanı o qədər alçaldır ki, peyğəmbəri də yandırmaqdan çəkinmir.
11. Düşmən cahil kütləri qızışdırmaq üçün müqəddəsliklərdən, dini qeyrət hissindən istifadə edir.
12. Allah həm səbəb salmağa, həm də onu aradan qaldırmağa qadirdir. O, həzrət İsanın (ə) nəfəsini ölülər üçün həyat səbəbi edir, oddan yandırıcılığını alaraq onu İbrahim üçün soyudur.
13. Varlıq aləminin şüuru var, ona müraciət olunur.
14. Mövcudların səciyyələri Allahın istək və iradəsindən asılıdır.
15. Haqq nuru küfr odu ilə aradan götürülə bilməz.
16. Allahın qüdrəti bütün qurğuları puça çıxara bilər.
17. Sonda haqq qalibdir.

**● AYƏ 71:**

﴿وَنَجَّيْنَاهُ وَلُوطًا إِلَى الْأَرْضِ الَّتِي بَارَكْنَا فِيهَا لِلْعَالَمِينَ﴾

**“Biz onu (İbrahimi) və Lutu bütün aləmlərdəkilər üçün bərəkətli etdiyimiz yerlə xilas etdik.”**

---

[1] “Kafi”, c. 8, s. 318.

### • AYƏ 72:

﴿وَوَهَبْنَا لَهُ إِسْحَقَ وَيَعْقُوبَ نَافِلَةً وَكُلًّا جَعَلْنَا صَالِحِينَ﴾

**"Biz ona (İbrahimə) İshaq və Yaqubu əlavə nemət olaraq verdik və hamısını salehlərdən etdik."**

**Nöqtələr**

Düşmən İbrahimi aradan götürmək istədi. Allah isə ona nicat verməklə yanaşı, bərəkətli nəsil bəxş etdi, onların hamısını salehlərdən qərar verdi.

Ayədə İshaqın adı zikr olunsa da, İbrahimin birinci övladı İsmailin adı çəkilmir. Bunun səbəbi İshaqın qeyri-adi şəkildə dünyaya gəlişi ola bilər. İshaqı Allahın iradəsi ilə sonsuz və yaşı keçmiş bir ana dünyaya gətirdi.

**Bildirişlər**

1. Allah Öz övliyalarını tənha qoymur.
2. Alov dağından, düşmən dəryasından qorxmayan kəs mübarək məntəqəyə çatasıdır.
3. İlahi qurtuluş insanın səy və hicrətindən asılıdır.
4. Nəvələr Allahın hədiyyəsidir. (Yaqub İbrahimin nəvəsi idi.)
5. Yer üzünün ayrı-ayrı məntəqələri bir-birindən fərqlənir. Bəzən bir məntəqə hamı üçün bərəkətli olur. (Bəziləri belə hesab edirlər ki, yeri bərəkətli edən orada övliyaların yaşamasıdır. Amma bu ayədə bərəkət yerin öz səciyyəsi kimi təqdim olunub.)
6. Bərəkət Allahın əlindədir.
7. İman və saleh əməl insanın özündən əlavə onun nəslinə də təsir göstərir.
8. Mübarək fərdlər və nəsillər mübarək məntəqələrdə məskunlaşmalıdırlar.
9. Övlad Allahın ətasıdır. Amma övladın varlığından da mühümü onun saleh olmasıdır.
10. Rəhbərlik və peyğəmbərlik üçün əsas şərt salehlikdir.

### • AYƏ 73:

﴿وَجَعَلْنَاهُمْ أَئِمَّةً يَهْدُونَ بِأَمْرِنَا وَأَوْحَيْنَا إِلَيْهِمْ فِعْلَ الْخَيْرَاتِ وَإِقَامَ الصَّلَاةِ وَإِيتَاء الزَّكَاةِ وَكَانُوا لَنَا عَابِدِينَ﴾

**"Onları Bizim göstərişimizlə (xalqı) hidayət edən rəhbərlər qərar verdik. Onlara yaxşı işlər görməyi, namazın bərpasını və zəkat ödəməyi vəhy etdik. Onlar yalnız Bizim abidlərimiz idilər."**

**Bildirişlər**

1. İmamət də nübuvvət kimi Allahın seçimi ilə müəyyənləşməlidir.

2. Böyük peyğəmbərlər risalət məqamından əlavə, cəmiyyətə imamət və rəhbərlik məqamını da öhdəyə götürmüşlər.

3. Zor və quldurluqla əldə olunmuş imamət və rəhbərlik cəhənnəmə dəvətdir. Allah tərəfindən müəyyənləşmiş imamət isə mübarək və haqq yolda olasıdır.

4. Peyğəmbərlərin dəvəti şəxsi istəklərinə yox, Allahın əmrinə əsaslanır.[1]

5. Xeyir işlərə diqqət Allahın xüsusi lütflərindəndir.

6. Xeyir işlər arasında namaz və zəkatın xüsusi yeri var.

7. Namaz və zəkat bütün səmavi dinlərin iki mühüm əsasıdır.

8. Namaz və zəkatsız Allaha bəndəlik dərəcəsinə çatmaq mümkünsüzdür.

9. İlahi rəhbərlər Allahın xalis bəndələridir.

10. İlahi nemətlər bizə Allaha bəndəliyi unutdurmasın. (Peyğəmbərlər rəhbərlik məqamına nail olsalar da, bəndəlik məqamında qalmışlar.)

11. Din siyasətdən ayrı deyil.

12. Rəhbər dəvət etdiyi həqiqətin daşıyıcısı olmalıdır.

**● AYƏ 74:**

﴿وَلُوطًا آتَيْنَاهُ حُكْمًا وَعِلْمًا وَنَجَّيْنَاهُ مِنَ الْقَرْيَةِ الَّتِي كَانَت تَّعْمَلُ الْخَبَائِثَ إِنَّهُمْ كَانُوا قَوْمَ سَوْءٍ فَاسِقِينَ﴾

**“Luta hikmət və elm verdik. Onu çirkin işlər görülən məntəqədən xilas etdik. Doğrudan da, onlar pis və azğın qövm idi. ”**

**● AYƏ 75:**

﴿وَأَدْخَلْنَاهُ فِي رَحْمَتِنَا إِنَّهُ مِنَ الصَّالِحِينَ﴾

**“Onu Öz rəhmətimizə daxil etdik. Həqiqətən, o, salehlərdən idi.”**

**Nöqtələr**

Həzrət İbrahimin dövründə Lut peyğəmbər idi. İmamət və rəhbərlik isə İbrahimin öhdəsinə düşmüşdü. Ola bilsin ki, elə bu səbəbdən də ötən ayələrdə İshaq və Yaqub haqqında “Onları imam qərar verdik” təbiri işlənmişdir. Bu ayədə isə Lutun adı ayrıca çəkilir. İbrahim imam olduğundan Lut imamət məqamında olmamışdır.

Bu ayədə Allah Luta əta olunmuş 4 mühüm nemətə işarə edir: Hökm, elm, qurtuluş, rəhmətə daxil olma.

Bu ayədə “hökm” dedikdə nübuvvət məqamı nəzərdə tutula bilər. Çünki həzrət Yəhya haqqında da uyğun təbir işlədilmişdir.[2]

---

[1] “Nəcm”, 3.
[2] “Məryəm”, 12.

Allahın nicat verməsi insanların səy və təlaşına zidd deyil. Çünki həzrət Lutun qurtuluşu Allahın əmr və hidayəti, Lutun öz istək və təlaşı ilə baş tutdu.[1]

Ayədə "fasiqlər" deyərkən kafirlər nəzərdə tutulmuşdur. Uyğun məna ilə başqa ayələrdə də rastlaşırıq.[2]

**Bildirişlər**

1. Allah Öz övliyalarına nicat verir.
2. Günahkarlıq rəvac tapmış məntəqədə qalmayın.
3. Bəzən bir günah başqa günahlara səbəb olur.
4. Günahdan da pisi günahın davamlı şəkil almasıdır.
5. Günahın davamlı şəkil alması küfr səmərəsi və bədbəxtlik səbəbidir.
6. Mühit və cəmiyyət zora "yox" deyir.
7. Biz saleh olsaq, Allah bizi mərhəmətində qərq edər.

**● AYƏ 76:**

﴿وَنُوحًا إِذْ نَادَى مِن قَبْلُ فَاسْتَجَبْنَا لَهُ فَنَجَّيْنَاهُ وَأَهْلَهُ مِنَ الْكَرْبِ الْعَظِيمِ﴾

**"(Xatırla,) ondan da (İbrahim və Lutdan) qabaq (Rəbbini) çağıran Nuhu. Onun (istəyini) qəbul etdik. Onu və ailəsini böyük bəladan qurtardıq. "**

**● AYƏ 77:**

﴿وَنَصَرْنَاهُ مِنَ الْقَوْمِ الَّذِينَ كَذَّبُوا بِآيَاتِنَا إِنَّهُمْ كَانُوا قَوْمَ سَوْءٍ فَأَغْرَقْنَاهُمْ أَجْمَعِينَ﴾

**"Ayələrimizi təkzib edən qövmə qarşı ona yardım göstərdik. Həqiqətən, onlar pis bir qövm idi. Onların hamısını qərq etdik."**

**Nöqtələr**

Ola bilsin ki, həzrət Nuhun dua və naləsi "Nuh" surəsinin 27-ci ayəsində haqqında danışılan nifrindən ibarətdir: "Pərvərdigara! Yer üzündə bir nəfər olsun kafir saxlama." Bəlkə də həzrət Nuh insanların hidayətindən ümidini üzdükdən sonra belə nifrin etmişdir. "Hud" surəsinin 38-ci ayəsində buyurulur: "Ey Nuh! Sənə iman gətirənlərdən savay bir başqası iman gətirməyəcək." Nuh 950 il təbliğ, səbir və dözümdən sonra əlini açıb dua etdi: "Pərvərdigara! Mən məğlubam, mənə yardım buyur."[3]

**Bildirişlər**

1. Başqa qövmlərin tarixini öyrənmək, onların bəla və çətinliklərindən xəbər tutmaq insanı səbirli edir.

---

[1] "Hud", 83.
[2] "Səcdə", 18.
[3] "Qəmər", 10.

2. Peyğəmbərlərin duası qəbuldur. (Tarixi gedişatda duanın rolu var.)

3. Əgər günahkar cəmiyyəti dəyişməyə gücünüz yoxsa, özünüzü xilas etmək barədə düşünün.

4. Küframiz cəmiyyətdə yaşamaq çox böyük bəladır.

5. Sonda haqq əhli qalib, batil əhli məğlubdur.

6. Bəlalar insanların öz düşüncə və əməllərinin əks-sədasıdır.

**• AYƏ 78:**

﴿وَدَاوُودَ وَسُلَيْمَانَ إِذْ يَحْكُمَانِ فِي الْحَرْثِ إِذْ نَفَشَتْ فِيهِ غَنَمُ الْقَوْمِ وَكُنَّا لِحُكْمِهِمْ شَاهِدِينَ﴾

**“Davud və Süleymanı (xatırla). O zaman ki, bir qövmün qoyunlarının əkin sahəsi haqqında hökm verdilər və Biz onların mühakiməsinə şahid idik.”**

**• AYƏ 79:**

﴿فَفَهَّمْنَاهَا سُلَيْمَانَ وَكُلًّا آتَيْنَا حُكْمًا وَعِلْمًا وَسَخَّرْنَا مَعَ دَاوُودَ الْجِبَالَ يُسَبِّحْنَ وَالطَّيْرَ وَكُنَّا فَاعِلِينَ﴾

**“ Biz onu (həqiqi hökmü) Süleymana anlatdıq. Biz onların hər birinə hökm və elm verdik. «Quşlarla birlikdə təsbih etsinlər» deyə dağları Davuda ram etdik. Bu işləri görən Biz idik.”**

**Nöqtələr**

Bu macəra ilə bağlı rəvayət və təfsirlərdən məlum olur ki, qoyunlar gecə bir şəxsin əkinəcəyinə daxil olub onu zay etdilər. Üzüm tənəklərinin sahibi şikayət üçün Davudun yanına gəldi. Həzrət Davud ziyanın ödənməsi ilə bağlı hökm çıxardı və bütün qoyunları bağ sahibinə verdi. Amma onun oğlu Süleyman atasına başqa bir təklif etdi: qoyunlar ziyan vurulmuş şəxsə verilsin, bağsa qoyunların sahibinə tapşırılsın. Qoyunların sahibi tədricən ziyanı ödəsin və ziyan ödəndikdən sonra hərə öz malına sahib dursun.[1]

Təbii ki, hər iki peyğəmbər məsələni düzgün həll etməyə çalışırdı. Amma ata və oğulun göstərdiyi yollar fərqli idi. Ata qoyunları zərər dəymiş şəxsə vermək istəyir, övlad qoyunların gəliri ilə zərəri ödəmək təklifini irəli sürürdü.

Allah-təala buyurur: “Biz hər ikisinə elm və hikmət versək də, bu dəfə Süleymanın mühakiməsi üstün idi.”

---

[1] “Əl-fəqih”, c. 3, s. 57.

Hədisdə bildirilir ki, Davud səmavi Zəbur kitabını oxumağa məşğul olduqda, dağlar, daşlar, quşlar səsini eşidib, ona qoşulardı.[1]

**Bildirişlər**

1. Atanın hörməti onun adı övladla yanaşı çəkilərkən də gözlənilməlidir.
2. Mühakimə peyğəmbərlik şənindəndir.
3. Peyğəmbərlər xalqın ixtilaflarını həll edəcək həqiqi ünvandırlar.
4. Hadisədən dəyən zərər bilməyərəkdən baş verdikdə belə ödənməlidir.
5. Hakim öz işində Allahı şahid və nəzarətçi bilməlidir.
6. Allahın lütfü olmadan məsələni düzgün anlamaq mümkünsüzdür.
7. Bəzən ataya əta olunmamış xeyir övlada əta olunur.
8. Dağların təsbihi kiminsə təsbihinin əks-sədası deyil. Dağlar gerçəkdən təsbih deyir.
9. Bütün mövcudların, hətta dağların və quşların şüur payı var və onlar Allaha təsbihə məşğuldur.

**● AYƏ 80:**

﴿وَعَلَّمْنَاهُ صَنْعَةَ لَبُوسٍ لَّكُمْ لِتُحْصِنَكُم مِّن بَأْسِكُمْ فَهَلْ أَنتُمْ شَاكِرُونَ﴾

**“Ona (Davuda) zireh düzəltməyi öyrətdik ki, sizi vuruşda hifz etsin. Heç şükür edirsinizmi?!”**

**● AYƏ 81:**

﴿وَلِسُلَيْمَانَ الرِّيحَ عَاصِفَةً تَجْرِي بِأَمْرِهِ إِلَى الْأَرْضِ الَّتِي بَارَكْنَا فِيهَا وَكُنَّا بِكُلِّ شَيْءٍ عَالِمِينَ﴾

**“Süleymana əmri ilə bərəkət verdiyimiz yerə doğru əsən şiddətli küləyi ram etdik. Biz hər şeydən agahıq.”**

**Nöqtələr**

Bu ayədə mübarək torpaqda (Şamat) əsən şiddətli küləkdən danışıldı. Amma “Sad” surəsinin 36-cı ayəsindən məlum olur ki, həzrət Süleyman digər

---

[1] “Təfsire-Safi”. “Təfsire-nurus-səqəleyn”.

məntəqələrdəki aram küləklərə də təsir göstərə bilirdi. Ayədə buyurulur ki, Biz küləyi Süleymanın ixtiyarına verdik, mülayim və ahəstə, istədiyi yerə getsin.

Həzrət Süleymanın küləklə hansı məsafəni hansı zamanda qət etməsi ilə bağlı "Səba" surəsinin 12-ci ayəsində buyurulur: "Külək (vasitəsi ilə hərəkət) Süleymanın ixtiyarında idi. O, bir aylıq (yol) sübh vaxtı, bir aylıq (yol) qürub vaxtı gedirdi."

**Bildirişlər**

1. İxtiralar Allahın insana ilhamıdır.
2. Həzrət Davud zireh düzəltmə sənətinin banisidir.
3. Peyğəmbərlər də iş və sənət əhli olmuşlar.
4. Peyğəmbərlər xalqı təbii və adi yollarla hifz edirdilər.
5. Sənət zalım hakimlərə yox, xalqa xidmət etməlidir.
6. Müdafiə xarakterli hazırlıq zəruri işdir.
7. Əmin-amanlıq şükür olunası nemətdir. (Əmin-amanlıq sənət sayəsində təmin olunur.)
8. Hər bir ixtira və sənaye nemətinə görə Allaha təşəkkür edilməlidir.
9. Allahın övliyaları Allahın izni ilə təbiətin işlərinə qatıla bilərlər.
10. Küləklərin də şüuru var. Onlar Allahın və övliyaların əmrini anlayıb icra edirlər.

**● AYƏ 82:**

﴿وَمِنَ الشَّيَاطِينِ مَن يَغُوصُونَ لَهُ وَيَعْمَلُونَ عَمَلًا دُونَ ذَٰلِكَ وَكُنَّا لَهُمْ حَافِظِينَ﴾

**"Şeytanlardan bir dəstəsi onun (Süleyman) üçün qəvvaslıq (üzgücülük) edirdilər. Bundan başqa da işlər görürdülər. (Süleymanın əmrindən çıxmamaları üçün ) Biz onlara nəzarət edirdik."**

**Nöqtələr**

Şeytan cin nəslindəndir və şüurlu varlıqdır. Onun da insan kimi vəzifələri var. Həzrət Süleyman insanlardan əlavə cinlərin də bəzilərinə hakim idi.[1]

Cinlərin Süleymana göstərdikləri xidmətlərdən biri də üzgüçülük idi. Amma onlar başqa işlər də görürdülər. Digər ayələrdə cinlərin müəyyən işlərinə işarə

[1] "Nəml", 17.

olunur. “Səba” surəsinin 13-cü ayəsində oxuyuruq: “Onlar Süleyman üçün mehrablar, gözəl məbədlər, iri qazanlar, bir sözlə istədiyini düzəldirdilər.”

**Bildirişlər**

1. Cinlər də sənətkarlıqla məşğul olurlar.
2. Cin insanın xidmətində dura bilər.
3. Əgər nəzarət olmasaydı, Süleymanın da misilsiz hökumətində fitnə-fəsad yaranardı.

**● Ayə 83:**

﴿وَأَيُّوبَ إِذْ نَادَى رَبَّهُ أَنِّي مَسَّنِيَ الضُّرُّ وَأَنتَ أَرْحَمُ الرَّاحِمِينَ﴾

**“(Xatırla,) bir zaman Əyyub Rəbbinə dua etmişdi ki, həqiqətən, mənə zərər toxunub, Sən (isə) mehribanların mehribanısan.”**

**● Ayə 84:**

﴿فَاسْتَجَبْنَا لَهُ فَكَشَفْنَا مَا بِهِ مِن ضُرٍّ وَآتَيْنَاهُ أَهْلَهُ وَمِثْلَهُم مَّعَهُمْ رَحْمَةً مِّنْ عِندِنَا وَذِكْرَى لِلْعَابِدِينَ﴾

**“Onun duasını qəbul etdik, düşdüyü çətinlikdən çıxardıq, ailəsini yanına qaytardıq. Ona rəhmət, ibadət edənlərə öyüd-nəsihət olsun deyə, onlar kimisini də əlavə əta etdik.”**

**Nöqtələr**

Həzrət Əyyub Qurani-məciddə səbir nişanı ilə iftixara çatdırılmış peyğəmbərdir: “Sad” surəsinin 44-cü ayəsində oxuyuruq: “Həqiqətən, Biz onun səbirli insan olduğunu gördük. Necə də gözəl bəndə idi. Həqiqətən, o çox tövbə edib yalvarardı.

Həzrət Əyyub çox ağır xəstəliyə düçar olsa da, onu xəstəliyi (bəzi kitablarda yazıldığı kimi) ətrafdakılarda ikrah doğurmurdu. Belə bir ikrah lütf qaydasına zidd olmaqla yanaşı, bir çox rəvayətlər və təfsirlərlə uyğun gəlmir.[1]

İmam Sadiqdən (ə) “onlar kimisini də” ifadəsi ilə bağlı sual olunduqda həzrət buyurmuşdur: “Allah həlak olanlarla yanaşı bir vaxt təbii ölümlə dünyasını dəyişmiş övladlarını da Əyyuba qaytardı.”[2]

**Bildirişlər**

1. Böyük şəxsiyyətlərin xatırlanması və onların tarixinə baxış təskinlik, səbir, hidayət üçün ən üstün vasitədir.

---

[1] “Təfsire-Əl-mizan”. “Təfsire-Fəxr-Razi”; “Təfsire-ətyəbul-bəyan”. “Təfsire-əbül-Futuh”. “Təfsire-nümunə”.

[2] “Kafi”, c. 8, . 253.

2. Peyğəmbərlər də adi insanlar kimi maddi həyatda müxtəlif çətinliklərə və xəstəliklərə düçar olmuşlar.

3. Çətinliklər zahirən zərərli görünsə də, çox vaxt batini bir lütf, ilahi rəhmət olur.

4. Bəlalar bəzən cəza yox, sınaq xatakterli olur və insanın dərəcəsini yüksəldir. (Nəzərə alaq ki, peyğəmbərlər məsumdurlar və onların düçar olduğu çətinliklər günahlarının cəzası kimi izar oluna bilməz.)

5. Peyğəmbərlər ədəb nümunələridir. Həzrət Əyyub demədi ki, Pərvərdigara, zərəri məndən uzaqlaşdır." Onun duasından anlaşıldı ki, "Pərvərdigara, Sən özün yaxşı bilirsən."

6. Dua zamanı Allahı öz ehtiyacımıza uyğun adı ilə çağıraq.

7. Peyğəmbərlərin duası qəbuldur.

8. Allah insana onun duasından artıq lütf edir. (Həzrət Əyyub zərərin ondan uzaqlaşdırılmasını istəyirdi. Amma Allah əlavə olaraq ona ailəsini qaytardı)

9. Övlad Allahın lütf və rəhmətidir.

10. Allah həm səxavət, həm də böyüklük göstərir. "Fitr" və "Qurban" bayramı namazının qunutunda Allah uyğun səciyyələri ilə xatırlanır. Bəli, Allah Əyyubdan aldıqlarını qaytarmaqla yanaşı, ona ikiqat əta edir. Həm keçmiş zərərlər ödənir, həm də gələcəklə bağlı səxavət və kərəm göstərilir.

11. Dua ilə ilahi rəhmətin nazil olması arasında xüsusi bir rabitə var.

12. Peyğəmbərlərin də duası şəxsi ləyaqətlərinə görə yox, ilahi fəzl və rəhmətə görə qəbul olunur.

13. Bəla müxtəlif məqsədlərlə nazil ola bilər: Bəzən sınaq üçün, bəzən əqli və elmi təkamül üçün, bəzən başqalarının ibrət götürməsi üçün.

14. İbadət nəsihətin qəbulu üçün zəmindir.

15. Bütün insanların, hətta abidlərin xatırlatmaya ehtiyacı var.

**● AYƏ 85:**

﴿وَإِسْمَاعِيلَ وَإِدْرِيسَ وَذَا الْكِفْلِ كُلٌّ مِّنَ الصَّابِرِينَ﴾

**"İsmail, İdris, Zül-Kifl hər biri səbirlilərdən idi."**

**● AYƏ 86:**

﴿وَأَدْخَلْنَاهُمْ فِي رَحْمَتِنَا إِنَّهُم مِّنَ الصَّالِحِينَ﴾

**"Biz onları Öz rəhmətimizə daxil etdik. Həqiqətən, onlar salehlərdən idilər."**

**Nöqtələr**

İsmail həzrət İbrahimin övladı, əziz İslam Peyğəmbərinin (s) babası idi. O haqqa itaət və Allah əmri qarşısında səbirin ən gözəl əsərini nümayişə qoydu. Atası sadiq bir yuxuda İsmaili qurban vermək əmri almışdı.

Həzrət Nuhun babası həzrət İdris ilk dəfə nücum (astrologiya) elmi ilə məşğul olmuş, başqalarına libas tikməyi öyrətmiş, qələm götürüb yazı yazmışdır. Deyirlər ki, İdrisə 30 səhifə ilahi kəlam nazil olmuşdur. Nəhayətdə, səmaya çəkilmişdir, hazırda da sağdır.[1]

Həzrət Zül-Kifl ilahi peyğəmbərlərdən biridir. Həzrət Süleymandan sonra, həzrət İsadan əvvəl yaşamışdır.[2] Bildirilir ki, onun qəbri Kərbəla-Nəcəf yolu kənarındadır.

"Tibyan" təfsirində oxuyuruq: "Bu ilahi peyğəmbər gündüzlər oruc tutub, gecələr ibadətlə məşğul olmağı əhd etmişdi. O yalnız haqq əsasında hökm edər, Allahın razılığı əsasında qəzəblənərdi. Sonadək əhdinə vəfa qıldığından onu "Zül-Kifl", yəni "öhdəçilik götürən" adlandırmışdılar. Bəziləri, o cümlədən Fəxr-Razi bu fikirdədir ki, Zül-Kifl həzrət İlyasın ləqəbidir. Ammma biz "Məcməul-bəyan" təfsirində nəql olunmuş rəvayəti daha mötəbər sayırıq. Əbdül-Əzim Həsəni imam Cavaddan (ə) nəql edir ki, Allah bəşəriyyətin hidayəti üçün 124 min peyğəmbər məbus etdi. Onlardan 313 nəfəri mürsəl peyğəmbərlərdir. Zül-Kifl həmin mürsəl peyğəmbərlərdən biridir. Biz Zül-Kifli həzrət İlyas yox, mürsəl peyğəmbərlərdən biri kimi tanıyırıq.

Həzrət İsmail qurban kəsilməsi ilə bağlı ilahi əmr qarşısında səbir etdi. Həzrət İdris xalqı 365 il haqq dinə çağırdı. Amma ona iman gətirən olmadı.[3]

**Bildirişlər**

1. İlahi insanları unutmayaq, onların kamilliklərini nəql edək.
2. Səbir Allah tərəfindən təriflənilmiş bir xislətdir.
3. Səbir insanın ilahi rəhmətə qovuşması üçün zəmin yaradır.
4. İnsan ilahi sınaqlardan müvəffəqiyyətlə çıxdıqdan sonra dərəcə və məqam əldə edir.
5. İnsan saleh əməl sayəsində ilahi rəhmətdən bəhrələnir.
6. Səbir və salehlik peyğəmbərlik sifətlərindəndir. Bu sifətlərə malik insanda peyğəmbərlərdən nişan var.

---

[1] "Təfsire-ətyəbul-bəyan". "Məryəm", 57.
[2] "Təfsire-ətyəbul-bəyan".
[3] "Təfsire-ətyəbul-bəyan".

● **AYƏ 87:**

﴿وَذَا النُّونِ إِذ ذَّهَبَ مُغَاضِبًا فَظَنَّ أَن لَّن نَّقْدِرَ عَلَيْهِ فَنَادَى فِي الظُّلُمَاتِ أَن لَّا إِلَهَ إِلَّا أَنتَ سُبْحَانَكَ إِنِّي كُنتُ مِنَ الظَّالِمِينَ﴾

**"Zunnunu (Yunisi yada sal,) bir zaman qəzəblənib getdi və düşündü ki, (rahatlığa çıxdı və) Biz onu sıxıntıya salmayacağıq. (Nəhəng) bir balıq onu kamına çəkdikdən sonra bu işin səbəbini anladı,) zülmət içində yalvardı ki, (Pərvərdigara,) Səndən başqa məbud yoxdur. Sən pak-pakizəsən. Həqiqətən, mən zalımlardan idim. (İtaətsizliyinə görə xalqdan qaçmamalıydım.)"**

● **AYƏ 88:**

﴿فَاسْتَجَبْنَا لَهُ وَنَجَّيْنَاهُ مِنَ الْغَمِّ وَكَذَلِكَ نُنجِي الْمُؤْمِنِينَ﴾

**"Duasını qəbul etdik, onu qəmdən qurtardıq. Biz, möminlərə bu sayaq nicat veririk."**

**Nöqtələr**

Təfsirlərdə həzrət Yunisin əhvalatı ilə bağlı bildirilir: Həzrət Yunis uzun illər xalqı allahpərəstliyə dəvət etdi, amma ona yalnız iki nəfər iman gətirdi. Onlardan biri abid, digəri alim idi. Belə bir vəziyyət yarandıqda abid Yunisə nifrin etməyi məsləhət gördü. Xalqın itaətsizliyi və inadkarlığından cana yığılmış Yunis nifrin etdi. Bəla nişanələri görünən vaxt Allahdan icazə almadan qəzəblənərək məntəqəni tərk etdi. O düşündü ki, rahatlığa çıxacaq. Amma bilmirdi ki, bu addımına görə Allah tərəfindən sıxıntıya salınacaq.

O, xalqdan uzaqlaşıb dəryaya üz tutdu. Başqa bir məntəqəyə getmək məqsədi ilə gəmiyə süvar oldu. Yol arası gəmi nəhəng bir daşa dəyib zədələndi və batmaq təhlükəsi yarandı.

Gəmi sahibləri qərara gəldilər ki, bu bəladan xilas olmaq üçün gəmidə olanlardan birini dənizə atsınlar. Püşk atıldı və püşkdən Yunisin adı çıxdı. Beləcə, Yunis dəryaya atıldı. Dalğaların qoynuna düşər-düşməz bir dəniz nəhəngi (iri bir balıq, balina) Yunisi uddu. Amma Allahın əmri ilə ilahi peyğəmbər nəhəngin qarnında hifz olundu.

Yunis balığın qarnındakı zülmətdə, suyun dərinliyində xalqı tərk etməklə bağlı zülmünü anladı. O günahını etiraf edib Allaha dua etdi və duası qəbul olundu. Yunis düşdüyü zülmətdən xilas edildi. Həmin hadisədən sonra ona "zunnun", yəni balıq sahibi ləqəbi verildi.

"Saffat" surəsinin 143, 144-cü ayələrində buyurulur: "Əgər o təsbih edənlər zümrəsindən sayılmasaydı, Qiyamət gününədək balığın qarnında həbsdə qalardı."

**Bildirişlər**

1. Tarixin bəyanında davamlı olaraq şirin və müvəffəqiyyətli hadisələrdən danışaq, acı hadisələrə sadəcə işarə edək.
2. Öz ilahi vəzifəmizi başa çatmış sayıb onu tərk etməyək.
3. Bəzən bir tələsik, hesabsız və icazəsiz hərəkət ağır cəza ilə nəticələnir.
4. Allah bizim düşüncələrimizdən və gümanlarımızdan agahdır.
5. Bəzən peyğəmbərlər gələcək hadisələrdən xəbərsiz olur.
6. Bir yersiz qəzəb bəzən ilahi peyğəmbəri çətinliyə salır.
7. Bəzən bir ləyaqətsiz əməl növbənöv zülmətlərə aparır.
8. Çətinlikləri araşdırarkən Allahı pak sayaq və çətinliyin səbəbini özümüzdə axtaraq.
9. Hərəkətlər, sevgilər və nifrətlər Allahın razılığına əsaslanmasa, xoşagəlməz nəticə ilə sonuclanır.
10. Allah qarşısında günahın etirafı özü bir kamillik və dua qaydasıdır.
11. Duada tövhid əqidəsi bəyan olunsa, Allah paklıqla yada salınsa, günah etiraf edilsə həmin dua qəbuldur.
12. Allahın təsbihi (paklığının bəyanı) və günahın etirafı çətinlik və məhrumiyyətlərdən qurtuluş rəmzidir.
13. Yeganə qurtuluş yolu Allahın razılığıdır.
14. Quran dastanları başa çatmış əhvalatlar yox, daimi bir cərəyan, sünnədir.
15. İman əhlinin qurtuluşu Allahın sünnəsi, qanunudur.
16. Uyğun zikrin nəzərdə tutulmuş halda deyilməsi insanı xilas edir.

**• AYƏ 89:**

﴿وَزَكَرِيَّا إِذْ نَادَى رَبَّهُ رَبِّ لَا تَذَرْنِي فَرْدًا وَأَنتَ خَيْرُ الْوَارِثِينَ﴾

**“Zəkəriyyanı (yad et), bir zaman Rəbbinə belə dua etdi: “Pərvərdigara! Məni tənha buraxma. (Mənə varis olaraq övlad əta et və əlbəttə ki,) Sən özün varislərin ən üstünüsən.”**

**• AYƏ 90:**

﴿فَاسْتَجَبْنَا لَهُ وَوَهَبْنَا لَهُ يَحْيَى وَأَصْلَحْنَا لَهُ زَوْجَهُ إِنَّهُمْ كَانُوا يُسَارِعُونَ فِي
الْخَيْرَاتِ وَيَدْعُونَنَا رَغَبًا وَرَهَبًا وَكَانُوا لَنَا خَاشِعِينَ﴾

**“Onun duasını qəbul etdik və Yəhyanı ona bağışladıq. Zövcəsini onun üçün ləyaqətə çatdırdıq. Həqiqətən, onlar yaxşı işlərə tələsdilər, bizi ümid və qorxu ilə çağırdılar, hüzurumuzda müti dayandılar.”**

**Nöqtələr**

Peyğəmbərlər hər dəfə çətinliklə rastlaşdıqda Allah dərgahına üz tutmuş, Rəblərindən qurtuluş diləmişlər. Ötən ayələrdə uyğun istəklərdən bəzi nümunələrlə rastlaşdıq. (Ötən ayələrdə həzrət Nuhun, Əyyubun və Yunisin duaları ilə tanış olduq.)

İmam Hüseyn (ə) Peyğəmbər (s) Xəndək müharibəsi zamanı Allah dərgahına üz tutub belə ərz etdi: "Pərvərdigara! Sən Übeydə ibn Harisi Bədr günü, Həmzəni Ühüd günü məndən aldın. Bu isə Əlidir." Sonra həzrət hazırkı ayəni oxudu.[1]

İmam Sadiq (ə) "Ümid və qorxu ilə" ("rəğəbən" və "rəhəbən") ifadəsi haqqında buyurur: "Əlin içinin səmaya doğru tutulduğu hal rəğbət, əlin arxasının səmaya doğru tutulduğu hal rəhbətdir."[2]

**Bildirişlər**

1. Heç vaxt Allahın mərhəmətindən ümidimizi üzməyək. (Allah hətta Zəkəriyya kimi qocaya sonsuz zövcədən övlad əta edir.)
2. Duada "Rəbb" sözü ilə müraciət və onun təkrarı istəkləri qəbula yaxınlaşdırır.
3. Dua zamanı Allahı bizim istəyimizə uyğun gələn sifəti ilə yada salaq.
4. Allahın varislərin ən xeyirlisi olmasına iman övlad məhəbbəti və Allahdan övlad istəyi kimi təbii meyllərlə zidd deyil.
5. Peyğəmbərlərin duası qəbuldur.
6. Övlad Allahın ətasıdır.
7. Allahın Öz övliyalarına xüsusi diqqəti var.
8. Allah hər şeyə qadirdir, O, sonsuz qadını ana edə bilər.
9. İnsan dua vasitəsi ilə sonsuzluğu aradan qaldıra bilər.
10. Kamil səadət o zaman əldə olunur ki, bütün ailə üzvləri xeyir işlərin yerinə yetirilməsində bir-birləri ilə həmfikir olsunlar.
11. İşlərə dəyər verən onların sürət və şadlıqla yerinə yetirilməsidir.
12. Ümid və qorxu hətta peyğəmbərlər üçün də dəyərli olan iki ünsürdür.
13. Allaha qorxu və ümid halında dua etmək lazımdır.
14. Allahın övliyaları yalnız Onun qarşısında baş əyirlər.
15. Kamilliklər davamlı olduqda dəyər sayılır.
16. Xeyir işə tələsmək, ümid və qorxu halında dua etmək duanın qəbuluna təsir göstərir.

**● AYƏ 91:**

﴿وَالَّتِي أَحْصَنَتْ فَرْجَهَا فَنَفَخْنَا فِيهَا مِن رُّوحِنَا وَجَعَلْنَاهَا وَابْنَهَا آيَةً لِّلْعَالَمِينَ﴾

---

[1] "Bihar", c. 38, s. 309.

[2] "Kafi", c. 2, s. 497.

**“Özünü pak saxlayan qadını (Məryəmi yad et). Biz ona Öz ruhumuzdan üfürdük. Onu və oğlunu aləmlər üçün nişanə qərar verdik.”**

**Bildirişlər**

1. Quran mətləblərinin bəyanında nümunələr və insani kamilliklər göstərmək zəruridir. Bu yönümdə qadınla kişi arasında fərq yoxdur.
2. İlahi lütflər qabiliyyət olan zaman nazil olur.
3. Paklıq qadının ən üstün kamilliklərindəndir.
4. İnsanda mövcud olan bir kamillik bir çox bərəkətlərlə müşayiət olunur.
5. Ananın paklığı onun övladlarını uca məqamlara yüksəldə bilər.
6. Qadının məqamı o qədər yüksələ bilər ki, Allah onu peyğəmbərlər tək mədh edər, aləmlər arasında Özü üçün nişanə qərar verər.

**● AYƏ 92:**

﴿إِنَّ هَذِهِ أُمَّتُكُمْ أُمَّةً وَاحِدَةً وَأَنَا رَبُّكُمْ فَاعْبُدُونِ﴾

**“Həqiqətən, bu sizin ümmətinizdir, vahid ümmət! Mən sizin Rəbbinizəm, Mənə pərəstiş edin.”**

**● AYƏ 93:**

﴿وَتَقَطَّعُوا أَمْرَهُم بَيْنَهُمْ كُلٌّ إِلَيْنَا رَاجِعُونَ﴾

**“(Təfriqədən çəkinin; amma) onlar öz aralarında işi təfriqəyə aparıb çıxardılar. (Bilsinlər ki, nəhayət) hamı Bizə doğru qayıdar.”**

**Bildirişlər**

1. Bütün ilahi dinlərin məqsədi birdir.
2. Tövhid və vəhdət ilahi dinlərin əsas işidir.
3. Rübubiyyət pərəstiş tələb edir.
4. İlahi dinlərlə və İslam dinində təfriqəni törədən insanların özləridir.
5. Təfriqəçilər Allahın hüzurunda cavab verməyə hazırlaşmalıdırlar.

**● AYƏ 94:**

﴿فَمَن يَعْمَلْ مِنَ الصَّالِحَاتِ وَهُوَ مُؤْمِنٌ فَلَا كُفْرَانَ لِسَعْيِهِ وَإِنَّا لَهُ كَاتِبُونَ﴾

**“Saleh işlər görüb mömin olan kəsin səyi heç vaxt əvəzsiz qalmayacaq. Həqiqətən, Biz onun üçün qeydə alırıq.”**

**Nöqtələr**

Mükafat və savab vədləri Quranda müxtəlif təbirlərlə qeyd olunmuşdur. Bir yerdə belə buyurulur: “Biz xeyir əməl sahiblərinin mükafatını zay etmərik.”[1] Başqa bir yerdə belə buyurulur: “Xalqın səy və təlaşına görə təşəkkür olunar.[2]

Digər bir ayədə belə buyurulur: “Allah sizin mükafatınızdan zərrəcə azaltmaz.”[3] Başqa bir ayədə isə oxuyuruq: “Bir zərrə yaxşı iş görsəniz, onun əvəzini alacaqsınız.”[4]

**Bildirişlər**

1. Vəhdəti qorumaq saleh əməllərdəndir.
2. İslamda meyarlar və dəyərlər kompleksi mövcuddur. İstənilən bir şəxsin istənilən bir zamanda gördüyü dəyərli iş mədh olunur.
3. Əgər bütün xeyirli işləri görmək gücündə deyilsinizsə, heç olmasa imkan çatan işləri yerinə yetirin.
4. İlahi məqsəd işə dəyər verir.
5. İlahi dünya görüşündə kimsənin müsbət səyləri cavabsız və nəticəsiz qalmır. (Biz də insanların yaxşılıqlarını nəzərdən qaçırmayaq.)
6. Əsas məsələ (istək həyata keçməsə də,) xeyir iş üçün çalışmaqdır.
7. İnsanın əməlləri qeydə alınır, hesab-kitab əsasında mükafat verilir.

**● AYƏ 95:**

﴿وَحَرَامٌ عَلَى قَرْيَةٍ أَهْلَكْنَاهَا أَنَّهُمْ لَا يَرْجِعُونَ﴾

**“(Fəsad və günahına görə) həlak etdiyimiz məmləkət əhlinin qayıdışı haramdır.”**

**● AYƏ 96:**

﴿حَتَّى إِذَا فُتِحَتْ يَأْجُوجُ وَمَأْجُوجُ وَهُم مِّن كُلِّ حَدَبٍ يَنسِلُونَ﴾

**“O vaxtadək ki, Yəcuc və Məcuc üçün yol açılsın və onlar hər yüksəklikdən çaparaq sürətlə ötüb keçsinlər.”**

**Nöqtələr**

“Kafirlərin qayıdışı” dedikdə nəzərdə nə tutulur? İmam Sadiq (ə) buyurur: “Dünyada Allahın qəzəbi ilə həlak olanlar bir daha dünyaya qayıda bilməz.

---

1 “Yusuf”, 56.
2 “İsra”, 19.
3 “Hucurat”, 14.
4 “Zilzal”, 7.

Təbii ölümlə dünyasını dəyişən kafirlərin isə qayıdışı (rəcəti) mümkündür.[1] Demək, "qayıdış" dedikdə dünyaya qayıdış nəzərdə tutulmuşdur.

"Kəhf" surəsinin 93-98-ci ayələrində Yəcuc və Məcuc qövmlərindən danışılır. Onlar qonşu məntəqələrə hücum çəkərək fəsad törədir, abadlıqları xaraba qoyurdular. Nəhayət, Zül-Qərneynin tikdiyi səd onların qarşısını kəsdi.

Bu səddin dağılması və həmin qövmlərin yeni hücumları Qiyamətin və yer üzündə həyatın sona çatma nişanələrindəndir.

Hər halda bu ayələr təcavüzkarların yürüşünü, onların bütün məntəqələrə hücumunu öncədən xəbər verir.

**Bildirişlər**

1. Həlak olmuş qövmlərin qayıdış arzusu (rəcət) yalnız yer üzündə Yəcuc və Məcucun meydana çıxması ilə gerçəkləşəsidir.
2. Dünya tüğyan edənlər üçün meydan olacaq.
3. Fəsad əhli gələcəkdə də hökm sürəsidir.

### • Ayə 97:

﴾وَاقْتَرَبَ الْوَعْدُ الْحَقُّ فَإِذَا هِيَ شَاخِصَةٌ أَبْصَارُ الَّذِينَ كَفَرُوا يَا وَيْلَنَا قَدْ كُنَّا فِي غَفْلَةٍ مِّنْ هَذَا بَلْ كُنَّا ظَالِمِينَ﴿

**"(Qiyamətin bərpası ilə bağlı) Haqq vəd yaxınlaşdı. Həmin vaxt kafirlərin gözü (dəhşətdən) bərələ qaldı. (Özləri özlərinə deyərlər:) «Vay olsun bizə! Doğrudan da, biz bu gündən xəbərsiz idik, bəli, biz zülmkar olmuşuq."**

**Nöqtələr**

"Şaxisə" sözü "şuxus" kökündən olub, "bir məkandan o birinə köç" mənasını bildirir. Təəccüb edən zaman gözlər elə bir hala düşür ki, sanki hədəqəsindən çıxacaq. Bu səbəbdən də gözün uyğun halı da "şuxus" adlanır.

Qiyamət uzaq görünsə də yaxındadır.[2]

**Bildirişlər**

1. Fitnəkarların hücumu yer üzündə həyatın başa çatdığını göstərir.
2. Qiyamətin bərpası labüddür.
3. Qiyamət və onun hadisələri qəfil meydana çıxasıdır.
4. Qiyamət heyrət günüdür.
5. Qiyamət vicdanların oyanış və təəssüf günüdür.
6. Qiyamətdən xəbərsizlik küfr və kafirlərin bariz nişanələrindəndir.
7. Bütün azğınlıqların və bədbəxtçiliklərin kökü qəflətdir.

---

[1] "Təfsire-ətyəbul-bəyan". "Təfsire-Qummi". c, 1, s. 24.
[2] "Məaric", 7, 8.

8. Qiyamətdən qəflət insanın özünə və ətrafındakılara zülm üçün səbəbdir.
9. Qiyamət peşmançılıq və etiraf günüdür.

**● AYƏ 98:**

﴿إِنَّكُمْ وَمَا تَعْبُدُونَ مِن دُونِ اللَّهِ حَصَبُ جَهَنَّمَ أَنتُمْ لَهَا وَارِدُونَ﴾

**“(Onlara deyilər:) «Həqiqətən, siz və Allahdan qeyri pərəstiş etdikləriniz cəhənnəmə yanacaq olacaq, ona daxil olacaqsınız.»”**

**Nöqtələr**

**Sual:** Ayədə bildirildi ki, bütpərəstlər və onların məbudları cəhənnəm yanacağı olacaq. Bəziləri həzrət İsanı məbud götürdülər. Bu qayda onlara da aiddirmi?

**Cavab:** Bu sayaq məbudlar istisna olunmuşdur. Əvvəla, Quran həmin məbudları “və ma təbudunə” təbiri ilə yad edir. “Ma” kəlməsi şüursuz mövcudlara münasibətdə işlədilir.[1] İkincisi, ayədə Məkkə bütpərəstlərinə müraciət olunur. Onlar isə daş və ağac bütlərə sitayiş edirdilər. Üçüncüsü növbəti ayələrdə bildirilir ki, Allah tərəfindən yaxşı vəd almış kəslər (məsələn, həzrət İsa) cəhənnəmdən uzaqdır.

**Bildirişlər**

1. Allahdan qeyrisinə pərəstiş abid və məbudu cəhənnəmə sürükləyir.
2. Cəhənnəmin yanacağı kafirlər və onların uydurma məbudlarıdır.

**● AYƏ 99:**

﴿لَوْ كَانَ هَؤُلَاء آلِهَةً مَّا وَرَدُوهَا وَكُلٌّ فِيهَا خَالِدُونَ﴾

**“Əgər bunlar (həqiqi) tanrı olsaydılar, (cəhənnəmə) daxil olmazdılar. Halbuki həmişəlik orada qalacaqlar.”**

**● AYƏ 100:**

﴿لَهُمْ فِيهَا زَفِيرٌ وَهُمْ فِيهَا لَا يَسْمَعُونَ﴾

**“Onlar cəhənnəmdə ah-nalə, fəryad içindədirlər və orada (heç bir cavab) eşitməzlər.”**

**Nöqtələr**

Adətən, ərəb dilində sədalar “fəil” vəznində bəyan olunur. Məsələn, zəfir, şəhiq, zəir, hərir. “Zəfir” dedikdə nəfəs verməklə müşayiət olunan səs nəzərdə tutulur.

---

[1] “Bihar”, c. 9, s. 282.

"La yəsməunə" dedikdə cəhənnəm əhlinin heç bir səs eşitməməsi nəzərdə tutulmur. Söhbət cəhənnəm əhlinin fəryadına heç bir cavab verilməməsindən gedir. Quranda cəhənnəm əhlinin səs eşitməsini təsdiqləyən ayələr var. Onlar əzab məmurundan möhlət istəyər və ya Allahdan qurtuluş diləyərlər. Cəhənnəm əhli verilən sualları da cavablandırar.

**Bildirişlər**

1. Allahdan qeyrisinə könül verməyək. Taleyimizi uydurma və aciz tanrılara tapşırmayaq.
2. Acizlik və məhkumluq Allahlıq məqamına uyğun deyil.
3. Şirkə görə verilən əzab əbədi əzabdır.
4. Cəhənnəm cavabsız qalacaq fəryadlar məkanıdır.
5. Ah-nalə və fəryadların cavabsız qalması özü də cəhənnəm əhli üçün bir işgəncədir.

**● Ayə 101:**

﴿إِنَّ الَّذِينَ سَبَقَتْ لَهُم مِّنَّا الْحُسْنَى أُوْلَئِكَ عَنْهَا مُبْعَدُونَ﴾

**"Həqiqətən, öncədən Bizim tərəfimizdən yaxşılıq vədi alan kəslər ondan (cəhənnəmdən) kənar saxlanılacaq."**

**Nöqtələr**

Rəvayətdə bildirilir ki, bir qrup şəxs Peyğəmbərdən soruşdu: "Əgər Quran bütpərəst abid və onun məbudunu cəhənnəm yanacağı kimi tanıtdırırsa, tanrı seçilmiş İsa və Məryəmin halı necə olacaq?" Həzrət verilmiş suala cavab olaraq uyğun ayəni tilavət etdi.

**Bildirişlər**

1. Allah iman və təqva əhlinə verdiyi vədə vəfa qılır.
2. Behiştə daxil olan kəs nə vaxtsa cəhənnəmə aparılmaz.

**● Ayə 102:**

﴿لَا يَسْمَعُونَ حَسِيسَهَا وَهُمْ فِي مَا اشْتَهَتْ أَنفُسُهُمْ خَالِدُونَ﴾

**"Onlar cəhənnəmin (nərə) səsini eşitməzlər, onlar ürəklərindən keçən nemətlər içində əbədidirlər."**

**Nöqtələr**

İnsan dünya həyatında rifah içində yaşasa da, istər-istəməz acı hadisələrlə rastlaşır. Qiyamətdə isə behişt əhli bütün pis xəbərlərdən, ah-nalədən uzaq, ləzzət içində ömür sürər.

Əmirəlmöminin Əli (ə) “Nəhcül-bəlağə”nin 183-cı xütbəsində buyurur: “Allah-təala behişt əhlini o qədər əziz tutmuşdur ki, hətta onların qulaqları cəhənnəm odunun və cəhənnəm əhlinin səsini eşitməz.”[1]

Quranda behişt nemətlərinin kəmiyyət və keyfiyyətindən danışan çeşidli ayələr var. Ayələrdən birində buyurulur: “ İnsanın meyli çəkən hər şey və gözünü oxşayan hər şey!”[2] Hazırkı ayədə oxuyuruq: “Onlar qəlblərindən keçən hər şeylə daim bəhrələnərlər.” Başqa bir ayədə oxuyuruq: “Behişt əhli üçün hansı ləzzətlər hazırlandığını kimsə bilməz.”[3]

Həzrət Peyğəmbər (s) buyurur: “Behişt nemətləri ilə bağlı nə qulaq bir şey eşidib, nə göz bir şey görüb.”[4]

**Bildirişlər**

1. Qiyamətdə behişt əhli əziyyət və əziyyətə düşənlərin naləsindən kənarda kam almağa məşğuldur.
2. İnsanın istəkləri yalnız behiştdə gerçək təmin olunur.
3. Behiştdə nə nemət məhdudiyyəti var, nə də zaman məhdudiyyəti.

### • Ayə 103:

﴿لَا يَحْزُنُهُمُ الْفَزَعُ الْأَكْبَرُ وَتَتَلَقَّاهُمُ الْمَلَائِكَةُ هَذَا يَوْمُكُمُ الَّذِي كُنتُمْ تُوعَدُونَ﴾

**“(Həmin günə aid) ən böyük dəhşət onları qəmləndirməz. Mələklər onların görüşünə çıxar. (Deyərlər:) «Bu sizə vəd olunmuş gündür.»”**

**Nöqtələr**

Rəvayətlərə əsasən, ayədə düzgün əqidəyə malik olmaqla yanaşı Allah və Onun rəsulu tərəfindən təyin olunmuş rəhbərlərin yolunu gedənlər nəzərdə tutulmuşdur.[5]

**Bildirişlər**

1. Şərin dəf olunmuş mənfəət əldə etməkdən uzaqdır. Bu səbəbdən də öncə qəm-qüssədən uzaqlıqdan, sonra xeyir əldə olunmasından danışılırlar.
2. Dünya acılıqları nə qədər böyük olsa da, axirət müsibətləri ilə müqayisədə heç bir şeydir.
3. Qiyamətdə mələklər insanlarla danışar.
4. Möminləri qarşılamaq və onlarla görüş mələklərə xas xüsusiyyətdir.
5. Bu gün dünyanın zalım qüvvələrin əlində olması bizi qəmləndirməsin. Möminlərin də dövrü gəlib çatacaq.

---

[1] “Təfsire-nümunə”.
[2] “Zuxruf”, 71.
[3] “Səcdə”, 17.
[4] “Əl-fəqih”, c. 1, s. 295.
[5] “Təfsire-Əl-mizan”.

6. Allahın vədləri qətidir.

## • AYƏ 104:

﴿يَوْمَ نَطْوِي السَّمَاء كَطَيِّ السِّجِلِّ لِلْكُتُبِ كَمَا بَدَأْنَا أَوَّلَ خَلْقٍ نُّعِيدُهُ وَعْدًا عَلَيْنَا إِنَّا كُنَّا فَاعِلِينَ﴾

**“Bir gün səmanı yazı vərəqləri tək bükərik. Yaranışa başladığımız kimi, onu geri döndərərik. Bu, Bizim öhdəmizdə olan bir vəddir. Biz hökmən (vədimizi) yerinə yetirənik.”**

**Nöqtələr**

“Sicill” dedikdə, üzərinə yazı yazılan daş nəzərdə tutulur. Zaman ötdükcə bu söz, üzərində qeyd aparılmış vərəqlərə aid edilmişdir.

Qiyamətin bərpasının ilkin yaranışa bənzədilməsi ilə Quranda dəfələrlə rastlaşmaq olar: “Başlanğıcda sizi yaratdığı kimi yenə sizi qaytarar.”[1]; O, yaranışa başlayıb sonra onu təkrar edən kəsdir. Bu, Onun üçün çox asandır.”[2]

Bu ayədəki səma sözü bütün səmalara aiddir.[3]

Həzrət Əli (ə) buyurur: “İnsan qiyamət səhnəsinə üryan gətirilər.” Sonra həzrət bu ayəni tilavət etmişdir.[4]

**Bildirişlər**

1. Varlıq aləmi əzəli və əbədi deyil. O bir gün halını dəyişəsidir.
2. Allah üçün səmaları bükmək bir vərəq bükmək qədər asandır.
3. Mövzunu anlamaq üçün təmsil ən üstün və yetərli yoldur.
4. Əgər kağızı bükmək ondakı yazıları məhv etmək sayılmırsa, səmaların bükülməsi də yaranışın məhvi sayılmamalıdır.
5. Səmadakı bütün dəyişikliklər Allahın istək və iradəsindən asılıdır.
6. Allah bükülü məxluqları ilkin yaranışda olduğu şəkildə xəlq edəsidir.
7. İlahi vədlər qətidir və həyata keçəsidir.

## • AYƏ 105:

﴿وَلَقَدْ كَتَبْنَا فِي الزَّبُورِ مِن بَعْدِ الذِّكْرِ أَنَّ الْأَرْضَ يَرِثُهَا عِبَادِيَ الصَّالِحُونَ﴾

**“Həqiqətən, zikrdən (Tövratdan) sonra Zəburda yazdıq ki, Mənim saleh bəndələrim hökmən yer üzünə varis olacaqlar.”**

---

[1] “Əraf”, 26.
[2] “Rum”, 27.
[3] “Zumər”, 67.
[4] “Nəhcül-bəlağə”.

**Nöqtələr**

Ərəb dilində “Zəbur” dedikdə, istənilən bir yazı və ya kitab nəzərdə tutulur.[1] Amma “Nisa” surəsinin 63-cü, “İsra” surəsinin 55-ci ayəsindən belə görünür ki, “Zəbur” dedikdə həzrət Davuda aid olan ilahi kitab nəzərdə tutulmuşdur. Bu kitab həzrət Davuda aid münacatlardan, dualardan, öyüd-nəsihətlərdən ibarətdir. Bu kitab Tövratdan sonra nazil olmuşdur.

Ayədə “Zikr” dedikdə Tövrat nəzərdə tutulur. Hazırkı surənin 48-ci ayəsi də bu ayəni təsdiqləyir.

Bəziləri bildirirlər ki, “Zəbur” dedikdə ayədə bütün səmavi kitablar, “Zikr” dedikdə Qurani-məcid nəzərdə tutulmuşdur. Əgər “min bədi” ifadəsi “əlavə olaraq” mənasında tərcümə olunsa, ayə belə anlaşılar: “Biz Qurandan əlavə bütün səmavi kitablarda yazdıq ki, yer üzünə Mənim saleh bəndələrim varis olacaq.”

İmam Sadiqdən (ə) “Zəbur” və “Zikr” sözləri haqqında soruşulduqda həzrət buyurdu: ”Zikr” Allahın yanındadır, “Zəbur” isə Davuda nazil olmuş kitabdır. Bütün kitablar elm əhlinə məxsusdur və bizik elm əhli.”[2]

Bu gün “əhdi qədim” adı ilə tanınan Zəburda deyilir: “Saleh insanlar yer üzünə varis olacaq.”[3]

Çoxsaylı rəvayətlərdə bildirilir ki, yer üzünə varis olacaq saleh bəndələr həzrət Mehdinin (ə) yardımçılarıdır.[4]

Bəzi rəvayətlərdə bildirilir ki, yer üzünün varisləri İslam Peyğəmbərinin (s) Əhli-beytidir (ə). Onlar ikinci dəfə həyata qaytarılasıdırlar.[5]

**Bildirişlər**

1. Saleh bəndələrin yer üzünə hakim və varis olması ilahi sünnədir.
2. Quranın öncə görmələri qətidir.
3. Quran gələcəkdən xəbər verir.
4. Gələcək salehlərindir.
5. Din siyasətdən ayrı deyil.
6. İbadət təklikdə bəs etmir, saleh əməl də lazımdır.
7. Yer üzünə varislik və hakimliyin iki şərti var: Allaha bəndəlik və saleh əməl.

**• Ayə 106:**

﴿إِنَّ فِي هَٰذَا لَبَلَاغًا لِّقَوْمٍ عَابِدِينَ﴾

---

[1] “Qəmər”, 52.
[2] “Kafi”, c. 1, s. 225.
[3] “Təfsire-nümunə”.
[4] “Təfsire-nurus-səqəleyn”.
[5] “Təfsire-Qummi”, c. 2, s. 297.

**“Həqiqətən, bunda (öncə görmədə) ibadət edən qövm üçün aşkar bildirişlər var.”**

**Nöqtələr**

Ötən ayədə oxuduq ki, yalnız Allaha xalis bəndəlik və saleh əməl şərti ilə yer üzünə hakim və varis olmaq mümkündür. Bu ayədə növbəti dəfə təkid olunur ki, bəndələr uyğun bildirişi nəzərdə saxlayıb, həm xalis bəndəlik, həm də saleh əməl üçün çalışmalıdırlar.

Həzrət Əli (ə) buyurur: “Allaha xatir, Allaha xatir! Quran göstərişlərini nəzərdə saxlayın. Məbada başqaları onun göstərişlərinə əməl etməkdə sizi qabaqlayalar!”

**Bildirişlər**

1. Hidayət və səadət üçün Quranın müjdə və bildirişləri yetər.
2. Ey Allahın bəndələri! Yer üzünə varis olmaq üçün saleh əməl və ləyaqət sorağınca gedin!
3. Allahın həqiqi bəndələri ilahi göstərişlərə hamıdan öncə əməl etməlidirlər.

## • Ayə 107:

﴿وَمَا أَرْسَلْنَاكَ إِلَّا رَحْمَةً لِّلْعَالَمِينَ﴾

**“Biz səni yalnız aləmlərə rəhmət olaraq göndərdik.”**

**Bildirişlər**

1. Saleh bəndələrin yer üzünə hakimliyi risalət sayəsində əldə olunmuş bir lütfdür. Dünya və axirətdə nəsibimiz olası Peyğəmbər (s) rəhməti ilahi rəhmətdən bir cilvədir.
2. İslam Peyğəmbərinə (s) nazil olmuş bütün ilahi göstərişlər, o cümlədən cihad, cəza, qisas hökmləri cəmiyyət üçün rəhmətdir.
3. Allah aləmlərin Rəbbi, Onun rəsulu isə aləmlər üçün rəhmətdir. Yəni gerçək tərbiyə peyğəmbərlərin hidayəti sayəsində mümkün olur.
4. Peyğəmbər (s) bütün əsrlərdə, bütün məkanlarda bütün insanlar üçün rəhmətdir. Başqa bir peyğəmbərə ehtiyac yoxdur.

5. Əziz İslam Peyğəmbəri (s) hətta Allaha yaxın mələklər üçün rəhmətdir. Hədisdə bildirilir ki, Cəbrail (ə) Peyğəmbərə (s) bildirdi: “Sənin rəhmətin bizə də şamil oldu.”[1]

6. İslamın göstərişləri bütün dünyaya aiddir.

7. Bir insan Allahın istəyi ilə bütün aləmə təsir göstərə bilər.

**● AYƏ 108:**

﴿قُلْ إِنَّمَا يُوحَى إِلَيَّ أَنَّمَا إِلَهُكُمْ إِلَهٌ وَاحِدٌ فَهَلْ أَنتُم مُّسْلِمُونَ﴾

**“(Onlara) de ki, mənə vəhy olunan yalnız budur: «Sizin məbudunuz yalnız vahid Allahdır. Təslim olursunuzmu?!»”**

**Nöqtələr**

İmam Rza (ə) Nişapurda minlərlə aşiq qarşısında xalqın istəyinə cavab olaraq silsilə qüdsi hədislər bəyan etdi: “Tövhid elə bir ilahi qaladır ki, bu qalada olan hər tərəfdən sığortalanmışdır;” “Həyatda olan imama tabeçilik bu tövhid üçün şərtdir.”[2]

**Bildirişlər**

1. Tövhidə dəvət ilahi rəhmətdən bir cilvədir.

**● AYƏ 109:**

﴿فَإِن تَوَلَّوْا فَقُلْ آذَنتُكُمْ عَلَى سَوَاء وَإِنْ أَدْرِي أَقَرِيبٌ أَم بَعِيدٌ مَّا تُوعَدُونَ﴾

**“Əgər üz çevirsələr, de ki, «hamınıza eyni şəkildə elan etdim. Mən sizə verilən vədin yaxın və ya uzaq olduğunu bilmirəm.»”**

**Nöqtələr**

**Sual:** Ayə və rəvayətlərdən məlum olur ki, İslam Peyğəmbəri (s) geniş qeyb elminə malik idi. “Nüdbə” duasında oxuyuruq: “Pərvərdigara! Sən Öz Peyğəmbərinə (s) keçmişin və gələcəyin elmini öyrətdin.” Amma yuxarıdakı ayəyə oxşar digər ayələrdə belə bir elmin mövcud olmadığını bəyan edən

---

[1] “Təfsire-Məcməül-bəyan”.

[2] “Bihar”, c. 3, s. 7.

ifadələrlə rastlaşırıq. Uyğun ayə və rəvayətlər arasında ziddiyyət var, yoxsa hansısa açıqlama verilir?

**Cavab:** Qeyb elmi iki hissədir. Onun bir hissəsi Allahın zatına aiddir. Kiminsə bu elmə yol tapması mümkünsüzdür. Qiyamətin nə vaxt bərpa olacağı da bu qəbil məlumatlardandır. Duada oxuyuruq: "Pərvərdigara! Səni yalnız Özünə aid etdiyin elmə and verirəm." Qeyb elminin digər bir hissəsi Allah tərəfindən Onun istədiyi kəslərə, peyğəmbər və övliyalara əta olunur.[1] Qurandakı bir çox məsələlər qeybi işlərlə bağlıdır.

Allah kafirlərə həm müharibələrdə məğlubiyyət, həm də Qiyamət əzabı vəd etmişdir.

**Bildirişlər**

1. Bəzi inadkar insanlar hətta aləmlərə rəhmət olan Peyğəmbərdən (s) belə üz çevirirlər.
2. İnsan məcbur yox, ixtiyar sahibidir. Bu səbəbdən də hətta peyğəmbərlərin dəvətinə arxa çevirə bilir.
3. Bütün bəşəriyyətin haqqı qəbul edəcəyini gözləmək olmaz. Peyğəmbərlər də belə bir məqsədə çata bilməmişlər.
4. Xalqın inadkarlığı və arxa çevirməsi müqabilində məsuliyyətimizdən əl çəkməyək.
5. Peyğəmbər göstərişləri bütün insanlara eyni şəkildə ünvanlanmışdır. Bu istiqamətdə cins, millət, dil fərqi əhəmiyyət kəsb etmir. Bəli, təbliğdə bütün insanlara bir gözlə baxaq.
6. Bilmədiyimiz vaxt aşkar şəkildə "bilmirəm" deyək.
7. Elmlər birbaşa Allahın müqəddəs zatına məxsusdur.

**• AYƏ 110:**

﴿إِنَّهُ يَعْلَمُ الْجَهْرَ مِنَ الْقَوْلِ وَيَعْلَمُ مَا تَكْتُمُونَ﴾

**"Həqiqətən, O, həm aşkar sözləri bilir, həm də gizlətdiklərinizi."**

**• AYƏ 111:**

﴿وَإِنْ أَدْرِي لَعَلَّهُ فِتْنَةٌ لَّكُمْ وَمَتَاعٌ إِلَى حِينٍ﴾

**"Mən bilmirəm, ola bilsin ki, bu (əzabın təxiri), sizin üçün bir sınaqdır, (sadəcə) müəyyən müddətədək kam alırsınız."**

**Nöqtələr**

İlahi vəd təxirə düşərsə, bunun səbəbi Allahın qəflətdə olması deyil. O hər şeyi bilir, hər şeydən agahdır. Təxirin isə müxtəlif səbəbləri var. O cümlədən:

---

[1] "Ali-İmran", 44.

a) Günahkarın günah yükünü bacardıqca ağırlaşdırması üçün;[1]

b) Günahkarın tofiq taparaq tövbə etməsi üçün;

v) Günahkarın yaxşı əməllərinin əvəzinin axirətə saxlanmayıb, dünyada verilməsi üçün.

**Bildirişlər**

1. Allah üçün qeyblə hüzurun (aşkarın) fərqi yoxdur.
2. Allah gizli işlərdən xəbərdardırsa, fitnə və nifaq nə üçündür?!
3. Peyğəmbərlərin elmi Allahın elmindən məhduddur.
4. Allahın cəzası sınaq üçün təxirə salınır. Bəzən də günah yükünü ağırlaşdırmaq üçün möhlət verilir.
5. Dünya ləzzətləri müvəqqətidir.

### ● AYƏ 112:

﴿قَالَ رَبِّ احْكُم بِالْحَقِّ وَرَبُّنَا الرَّحْمَنُ الْمُسْتَعَانُ عَلَى مَا تَصِفُونَ﴾

**“(Peyğəmbər) dedi: «Pərvərdigara! (Sən özün bizim aramızda) haqq üzərində hökm ver. (Ey kafirlər, bilin ki,) hamımızın Rəbbi Rəhman Allahdır. Aid etdiyiniz sifətlər qarşısında Ondan kömək istənilər.»”**

**Nöqtələr**

Quranda Allaha qarşı iftira ilə bağlı danışılarkən xalqın Allaha ünvanlanmış xəyali vəsfi nəzərdə tutulur. Quranda buyurulur: “Vay olsun sizə vəsfinizə görə.”[2] Başqa bir ayədə oxuyuruq: “Allah tezliklə onların vəsfinin cəzasını verəcək.”[3] Hazırkı ayədə isə belə buyurulur: “Allahdan sizin vəsflərinizə görə kömək istəyirəm.”

**Bildirişlər**

1. Bəzən inadkarlıq elə bir həddə çatır ki, aləmlərə rəhmət olan Peyğəmbər (s) nifrin etməyə məcbur olur.
2. Düşmənlərin inadkarlığı qarşısında Allahdan yardım alaq.
3. Duaya “Rəbb” sözü ilə başlayaq.
4. Rübubiyyət və mühakimə arasında yaxın bağlılıq var.
5. Hər şeydən xəbərdar olan mütləq alimin mühakiməsi haqdır.
6. Düşmənlərə münasibətdə də həddi aşmayaq. Artıq cəza istəməyək.
7. Hətta nifrin və cəza istəyərkən rəhməti yaddan çıxarmayaq, hamı üçün həmişəlik ümid bacası qoyaq.
8. Böhtanlar və hədyanlar cavabsız qalmayacaq. Unutmayaq ki, hər şey qeydə alınır. Tərif və tənqidlərimizə qarşı diqqətli olaq.

---

[1] “Ali-İmran”, 178.
[2] “Ənbiya”, 18.
[3] Ənam”, 139.

Mündəricat

_Toc155731947
ÖN SÖZ....4
HƏMKARLAR....4
İMTİYAZLAR....5
AYƏTULLAH HACI SEYYİD MEHDİ RUHANİDƏN BİR NEÇƏ XOŞ SÖZ....6
MÜƏLLİFDƏN....8
***● "İSRA" SURƏSİ....9***
● "İSRA" SURƏSİNİN SİMASI....9
● İRAD VƏ UYĞUN İRADIN CAVABI....11
ZİNANIN BİR SIRA FƏSADLARI VAR:....35
"KƏHF" SURƏSİ....93
ON BEŞ, ON ALTINCI CÜZLƏR....93
"KƏHF" SURƏSİNİN SİMASI....93
ON ALTINCI CÜZ....140
***"MƏRYƏM" SURƏSİ....161***
ON ALTINCI CÜZ....161
"MƏRYƏM" SURƏSİNİN SİMASI....161
QURAN VƏ MƏSİH....178
İBRAHİMİN SİMASI....187
QURANDA TÖVBƏ....194
***"TAHA" SURƏSİ....214***
ON ALTINCI CÜZ....214
"TAHA" SURƏSİNİN SİMASI....214
MÖMİN VƏ KAFİR QƏLBİNİN XÜSUSİYYƏTLƏRİ....226
HƏZRƏT ADƏMİN GÜNAHI....270
***"ƏNBİYA" SURƏSİ....281***
ON YEDDİNCİ CÜZ....281
"ƏNBİYA" SURƏSİNİN SİMASI....281
QİYAMƏT GÜNÜ HESAB MƏSƏLƏSİNƏ BİR BAXIŞ....281
QURAN VƏ RƏVAYƏTLƏRDƏ ÖLÜMÜN SİMASI....300